ISSN 2224-0829



NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

# ELMİ ƏSƏRLƏR

## İCTİMAİ ELMLƏR SERİYASI

TARİX, ANTROPOLOGİYA və SİYASİ ELMLƏR
FƏLSƏFƏ və HÜQUQ ELMLƏRİ
İQTİSAD ELMLƏRİ

Nakhchivan State University
**SCIENTIFIC WORKS**
SERIES OF SOCIAL SCIENCES

Нахчыванский Государственный Университет
**НАУЧНЫЕ ТРУДЫ**
СЕРИЯ СОЦИАЛЬНЫХ НАУК

2022 № 6 (119)

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

İSSN 2224-0829

# ELMİ ƏSƏRLƏR

*İctimai elmlər seriyası*

*№ 6 (119)*

- **Tarix, antropologiya və siyasi elmlər**
- **Fəlsəfə və hüquq elmləri**
- **İqtisad elmləri**

**NAXÇIVAN – 2022**

*Naxçıvan Dövlət Universiteti. "Elmi əsərlər".*
*İctimai elmlər seriyası. 2022, № 6 (119)*

*Jurnal 13 fevral 1997-ci il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. (Şəhadətnamə № 550)*

**BAŞ REDAKTOR:** ***ELBRUS İSAYEV***
*Naxçıvan Dövlət Universitetinin rektoru,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**BAŞ REDAKTOR MÜAVİNİ:** ***RZA MƏMMƏDOV***
*"Elm və innovasiyalar" bölməsinin müdiri,*
*iqtisad üzrə fəlsəfə doktoru*

**REDAKTOR:** **ƏLİ HƏŞİMOV**
*Naxçıvan Dövlət Universiteti*
*"Qeyrət" nəşriyyatının direktoru,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:**

***Tarix, antropologiya və siyasi elmlər üzrə:***
**İsmayıl Muxtar oğlu Hacıyev**
*tarix üzrə elmlər doktoru, professor*
*AMEA-nın həqiqi üzvü*
**Hacıfəxrəddin Səfərli**
*tarix elmləri doktoru, professor,*
*AMEA-nın müxbir üzvü*
**Şahin Fazil oğlu Fərzəliyev**
*tarix elmləri doktoru, professor*
**İbrahim Ethem Atnur**
*tarix üzrə elmlər doktoru, professor*
**Xəzər Allahverdi oğlu Hüseynov**
*tarix elmləri doktoru*
**Şamxal Şükür oğlu Məmmədov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
**Elçin Dağbəyi oğlu Zamanov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

***Fəlsəfə və hüquq elmləri üzrə:***
**Məmməd Hüseyn oğlu Rzayev**
*fəlsəfə üzrə elmlər doktoru, professor*
**Qərib Vəli oğlu Allahverdiyev**
*fəlsəfə üzrə elmlər doktoru, dosent*
**Azər Xoşbəxt oğlu Mustafayev**
*fəlsəfə üzrə elmlər doktoru, professor*
**Yusif Hüseyn oğlu Hüseynov**
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
**Elman Yusif oğlu Cəfərli**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
**Qəhrəman Novruz oğlu Behbudov**
*hüquq üzrə fəlsəfə doktoru, dosent*
**Şükür Aloş oğlu Məmmədov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

***İqtisad elmləri üzrə:***
**Ağarza Ağahəsən oğlu Rüstəmov**
*iiqtisad üzrə elmlər doktoru, professor*
**Teymur Abbas oğlu Abbasov**
*iqtisad üzrə elmlər doktoru, professor*
**Nazim Hidayət oğlu Əhmədov**
*iqtisad üzrə elmlər doktoru, professor*
**Müslüm Əli oğlu Cabbarzadə**
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*
**Ceyhun İlham oğlu Mahmudov**
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*
**Yuliya Vasiliyevna Cutceva**
*(Rusiya Dövlət Aqrar Universiteti)*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**Siyasi elmlər üzrə:**
**Vüqar Gəncəli oğlu Rəhimzadə**
*siyasi elmlər doktoru, professor*

# MÜNDƏRİCAT

## TARİX

1. **İSMAYIL HACIYEV.** Naxçıvan əyaləti və Ordubad dairəsinin əhalisi və demoqrafik vəziyyəti ........ 9
2. **EMİN ŞIXƏLİYEV.** Kremlin "böyük güc" siyasəti: Ermənistan-Azərbaycan müharibəsi ilə Rusiya-Ukrayna müharibəsinin müqayisəli təhlili ........14
3. **İSMAYIL ZEYNALOV.** Şanlı zəfər yolunun başlanğıcı və nəticəsi ........31
4. **ABDULLA MUSTAFAYEV, RUHİYYƏ RZAYEVA.** Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsindən sonra İrəvan quberniyasında baş verən demoqrafik dəyişikliklər ........36
5. **RUHİYYƏ RZAYEVA.** Naxçıvanın arxeoloji abidələrinin tədqiqi ........42
6. **NAZLI SEYİDOVA.** Tarixi təsəvvürlərin növləri və tarixi biliklərin formalaşması prosesində onların rolu ........48

## SOSİAL ELMLƏR VƏ HÜQUQ

7 **QƏRİB ALLAHVERDİYEV.** Əməyin mahiyyəti (sosial-fəlsəfi təhlil) ........53
8 **SƏFTƏR RƏHİMLİ.** Dövlətin davamlılığında ərazi suverenliyi ........59
9. **İLQAR MİRZƏYEV.** Cinayət mühakimə icraatı zaman həqiqət və çəkişmə prinsipinin bəzi aspektləri ........65
10. **KAMRAN VƏLİZADƏ, MƏHƏRRƏM HƏSƏNOV.** Azadlıq fenomenin sosiomədəni təbiəti ........73
11. **NAZLI YAQUBOVA.** Azərbaycanın qərb dövlətləri ilə əlaqələri (1990-1993) ........78
12. **TURAL HÜSEYNOV, ATİLLA ÖZTÜRK.** Kommersiya hüquqi şəxslərində müasir (korporativ) hüquq strukturlarının uğur meyarları: hüquq departamentlərinin funksiyalarına daxil edilən səlahiyyətlər ........82

## İQTİSADİYYAT

13. **MEHDİ BAĞIROV, HİKMƏT HƏSƏNOV.** Azərbaycan Respublikasında innovasıyayönümlü investisiya qoyuluşları və onların stimullaşdırılması sistemi........90
14. **CEYHUN MAHMUDOV.** İnsan kapitalı Azərbaycan iqtisadiyyatının davamlı inkişaf amili kimi ........106
15. **CAVADXAN QASIMOV, TƏHMİNƏ NAĞIYEVA.** Naxçıvan Dövlət UniversitetindəTexnopark quruculuğunun iqtisadi və sosial əhəmiyyəti ........116
16. **BULQEYİS NOVRUZOVA.** Beynəlxalq əmək bölgüsünün inkişafının əsas amilləri və ölkələrin beynəlxalq əmək bölgüsündə iştirakının prioritet istiqamətləri ........122
17. **NURİYYƏ İBRAHİMOVA.** Naxçıvan dəhlizi, ərazi bütövlüyünün bərpası və iqtisadi artım ........131

18. **NƏSRİN ƏLİYEVA, ÜLVİ SÜLEYMANOV.** Biznes fəaliyyətində reklamın rolu və perspektiv imkanları ....................................................................................136

19. **HƏSƏN ABBASOV.** Müasir təkamül mərhələsində Azərbaycan Respublikasında sahəvi tənzimləmənin təcrübi aspektləri və onların regional müqayisəliliyi məsələləri .................. 141

20. **RƏŞAYİL İSMAYILOV, CAVADXAN QASIMOV.** Azərbaycanda sektorlararası sudan istifadənin qiymətləndirilməsi ..........................................................150

21. **FUAD İBRAHİMOV.** Aqrar-sənaye sahələrində innovasiyalı inkişafın investisiyalaşması proseslərinin modelləşdirilməsinin metodiki aspektləri ........................163

22. **RİFAT HƏSƏNOV.** İstehsal müəssisələri üzrə fəaliyyət potensialı, onun qiymətləndirilməsi və təhlili ..................................................................................... 170

23. **SAMİR AĞAYEV.** Sahibkarlıq (sənaye) subyektlərində fəaliyyətin qiymətləndirilməsi və təhlilinin aktual problemləri ..........................................................180

24. **MURAD SEVDİMALIYEV.** Naxçıvan Muxtar Respublikasında innovasiyalı iqtisadiyyatın xüsusiyyətləri .........................................................................188

# CONTENTS
## HISTORY

1. **ISMAYIL HAJIYEV.** The population of Nakhchivan province and Ordubad daira and their demographics …………………………………………….…. 9

2. **EMİN SHİKHALİYEV.** The Kremlin's "Great power" policy: comparative analysis of the Armenia-Azerbaijani war and Russia-Ukraine war……………………14

3. **ISMAIL ZEYNALOV.** The beginning and conclusion of the glorious road of victory……………………………………………………….31

4. **ABDULLA MUSTAFAYEV, RUHIYA RZAYEVA.** After the resettlement of armenians to the lands of Azerbaijan demographic changes in Yerevan governorate ……………………………………………………..36

5. **RUHİYYA RZAYEVA.** Research of archaeologıcal monuments of Nakhchıvan ….42

6. **NAZLİ SEYİDOVA.** Types of hıstorıcal ımagınatıons and theır role ın the process of formatıon of hıstorıcal knowledge …………………………...….…48

## SOCIAL SCIENCES AND LAW

7. **GARİB ALLAHVERDİYEV.** The essence of labor (socio-phılosophıcal analysıs) ….53

8. **SAFTAR RAHİMLİ.** Terrıtorıal sovereıgnty ın the contınuıty of the state ..................59

9. **ILGAR MIRZAYEV.** Some aspects of the prıncıple of truth and affaırs ın crımınal proceedıngs …………………………………………………………………….…..65

10. **KAMRAN VALİZADEH, MAHARRAM HASANOV.** Socıo-cultural nature of the phenomenon of freedom ………………………………………………………...73

11. **NAZLI YAGUBOVA.** Azerbaijan's relations with western countries (1990-1993) …..78

12. **TURAL HUSEYNOV, ATİLLA OZTURK.** Success criteria of modern (corporate) legal structures in commercial legal entities: powers included in the functions of legal departments ……………………………..…..82

## ECONOMY

13. **MEHDI BAGİROV, HİKMAT HASANOV.** Investments for ınnovatıon ın the Republıc of Azerbaıjan and theır stımulatıon system ....................................................90

14. **JEYHUN MAHMUDOV.** Human capıtal of the Azerbaıjanı economy as a factor of sustaınable development ……………………………………….…….106

15. **JAVADKHAN GASİMOV, TAHMİNA NAGİYEVA.** The economıc and socıal sıgnıfıcance of construction of technopark at Nakchıvan State Unıversıty …………………………………………….…….116

16. **BULGEYİS NOVRUZOVA** The main factors of the development of the international division of labor and the priority directions of countries' participation in the international division of labor ………………………..122

17. **NURİYA İBRAGİMOVA**. Nakhchıvan corrıdor, restoratıon of terrıtorıal ıntegrıty and economıc growth ……………………………………………………….131

18. **NASRİN ALİYEVA, ULVİ SULEYMANOV.** The role of advertısıng ın busıness actıvıty and prospectıve opportunıtıes ……………………………………..136

19. **HASAN ABBASOV.** Practıcal aspects of sectoral regulatıon ın the Republıc of Azerbaıjan at the present stage of evolutıon and ıssues of theır regıonal comparabılıty ……………………………………………………….141

20. **RAFAİL ISMAYİLOV, JAVADKHAN QASİMOV.** Assessment of inter-sectoral water use in Azerbaijan ……………………………………..…….150

21. **FUAD IBRAHIMOV.** Methodological aspects of modeling investment processes of innovative development of agro-industrial spheres …………163

22. **RİFAT HASANOV.** Actıvıty potentıal on productıon ınstıtutıons, ıts assessment and analysıs …………………………………………………………….170

23. **SAMİR AGHAYEV.** Actual problems of evaluatıon and analysıs of actıvıtıes of busıness (productıon) entıtıes ………………………………………….180

24. **MURAD SEVDYMALIYEV.** Features of ınnovatıve economy ın Nakhchıvan Autonomous Republıc …………………………………………………………...188

# СОДЕРЖАНИЕ
## ИСТОРИЯ

1. **ИСМАИЛ ГАДЖИЕВ.** Демографическая ситуация и население Нахчыванской провинции и Ордубадского округа ................................................9
2. **ЭМИН ШИХАЛИЕВ.** Политика «большой силы» Кремля: сравнителный анализ армяно-азербайджанской войны и российско-украинской войны .............14
3. **ИСМАИЛ ЗЕЙНАЛОВ.** Начало и завершение славного пути победы ............... 31
4. **АБДУЛЛА МУСТАФАЕВ, РУГИЯ РЗАЕВА.** Демографические изменения в Ереванской губернии после переселения армян на Азербайджанские земли ......36
5. **РУХИЯ РЗАЕВА.** Изучение археологических памятников Нахчывана ............. 42
6. **НАЗЛЫ СЕИДОВА.** Виды исторических представлений и их роль в процессе формирования исторического знания.................................................................. 48

## СОЦИАЛЬНЫЕ НАУКИ И ПРАВО

7. **ГАРИБ АЛЛАХВЕРДИЕВ.** Сущность труда (социально-философский анализ)...53
8. **САФТАР РАГИМЛИ.** Территориальный суверенитет в устойчивости государства ...........................................................................................59
9. **ИЛЬГАР МИРЗАЕВ.** Некоторые аспекты принципа истинности и дела в уголовном судопроизводстве .......................................................................65
10. **КАМРАН ВЕЛИЗАДЕ, МАГЕРРАМ ГАСАНОВ.** Социокультурная природа феномена свободы .......................................................................................73
11. **НАЗЛЫ ЯГУБОВА.** Отношения Азербайджана с западными государствами (1990-1993) ..............................................................................78
12. **ТУРАЛ ГУСЕЙНОВ, АТИЛЛА ОЗТУРК.** Критерии успеха современных (корпоративных) правовых форм в коммерческих юридических лицах: полномочия, входящие в функции юридических отделов .........................................82

## ЭКОНОМИКА

13. **МЕХДИ БАГИРОВ, ХИКМАТ ГАСАНОВ.** Инновационно-направленные инвестиции в Азербайджанской Республике и их система стимуляции .....................90
14. **ДЖЕЙХУН МАХМУДОВ.** Человеческий капитал Азербайджанской экономики как фактор устойчивого развития ...........................................................................106
15. **ДЖАВАДХАН ГАСЫМОВ, ТАХМИНА НАГИЕВА.** Экономическая и социальная значимость строительства технопарка при Нахчиванском Государственном Университете ........................................................................116
16. **БУЛГЕЙИС НОВРУЗОВА.** Основные факторы развития международного разделения труда и приоритетные направления участия стран в международном разделении труда ..........................................................................................122

17. **НУРИЯ ИБРАГИМОВА.** Нахчыванский коридор, восстановление территориальной целостности и экономический рост ................................................131

18. **НАСРИН АЛИЕВА, УЛЬВИ СУЛЕЙМАНОВ.** Роль и перспективные возможности рекламы в предпринимательской деятельности ..................................136

19. **ГАСАН АББАСОВ.** Практические аспекты отраслевого регулирования в Азербайджанской Республике на современной стадии усовершенствования и вопросы их региональной сопоставимости ...........................141

20. **РАСАИЛ ИСМАИЛОВ, ДЖАВАДХАН ГАСЫМОВ.** Оценка межсекторального водопользования в Азербайджане ....................................................................150

21. **ФУАД ИБРАГИМОВ.** Методические аспекты моделирования инвестиционных процессов инновационного развития агропромышленных сфер ..............................163

22. **РИФАТ ГАСАНОВ.** Потенциал деятельности по производственнымпредприятиям, его оценка и анализ ..........................................................................................170

23. **САМИР АГАЕВ.** Актуальные проблемы оценки и анализа деятельности предпринимательских (промыщленных) субъектов ..................................................180

24. **МУРАД СЕВДЫМАЛИЕВ.** Особенности инновационной экономики Нахчиванской Автономной Республики .....................................................................188

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 9-13
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 9-13
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 9-13

# TARİX

**İSMAYIL HACIYEV**
*haciyev.i1951@gmail.com*
*AMEA Naxçıvan Bölməsi*

**UOT: 94 (479.24)**

## NAXÇIVAN ƏYALƏTİ VƏ ORDUBAD DAİRƏSİNİN ƏHALİSİ VƏ DEMOQRAFİK VƏZİYYƏTİ

*Məqalədə XIX əsrin 20-30-cu illərində Kameral təsvirlər əsasında əhalinin siyahıya alınması, Rusiya-Qacarlar və Rusiya-Osmanlı müharibələrindən sonra ermənilərin İrandan və Osmanlı ərazisindən köçürülərək onların Naxçıvan əyaləti və Ordubad əyalət və dairəsinin kəndlərində yerləşdirilməsindən bəhs edilir. Çar Rusiyasının köçürmə siyasətinin məqsədi bu ərazilərdə ermənilərin say tərkibini artırmaq, demoqrafik vəziyyəti dəyişmək nəticəsində erməni dövləti yaratmaq idi. Qeyd olunan siyahıyaalma nəticəsində burada əhalinin sayı, yerləşməsi ilə yanaşı, həm də onların etnik tərkibi haqqında da bəhs olunur.*

***Açar sözlər:*** *Əyalət, dairə, mahal, Müfəssəl dəftər, İcmal dəftər, Kameral təsvir, sancaq, kəngərli, Naxçıvan, Ordubad*

Nadir Əfşarın 1747-ci ildə süi-qəsd nəticəsində öldürülməsi ölkədəki dövlət nizamını sarsıtdı, ayrı-ayrı şəxslərin taxt-tac uğrunda mübarizəsi başlandı. Bu isə mərkəzi hakimiyyəti zəiflətmiş, nəticədə müxtəlif xanlıq, sultanlıq və başqa dövlət qurumları yaranmışdı. Xanlıqlar arasındakı daxili çəkişmələr onları zəifləCdir, böyük dövlətlərin işğalı üçün şərait yaradırdı. İşğal edən dövlətlər isə dəqiq siyahıyaalma siyasəti aparır, əhalini vergiyə cəlb edirdi.

Naxçıvan tüməni 1588-1603 və 1724-1735-ci illərdə Osmanlı imperatorluğunun tərkibində olmuş və burada Osmanlı idarə sistemi yaradılmışdı [14, s.27]. Osmanlı məmurlarının həmin vaxt tərtib etdiyi sənədlərdə Naxçıvan diyarının siyasi, sosial və iqtisadi tarixi ilə bağlı olduqca mühüm məlumatlar yer almışdır. Onların tərtib etdikləri tapu təhrir dəftərləri iki hissədən ibarət olurdu. Bunlardan biri Müfəssəl dəftərlər idi ki, vergiləri nizamlı şəkildə toplamaq məqsədi ilə vergi verəcək əhalinin dəqiq siyahısı, onların verməli olacaq verginin həcmi, kənd və şəhərlərdəki daşınmaz əmlakın adı və onlara aid verginin məbləği göstərilirdi. Həmin dəftərdə vergi daşıyıcılarının ailə vəziyyəti və sağlamlığı da qeyd edilirdi [19, s.8].

İcmal dəftərlərdə isə toplanan vergidən əldə olunan gəlirlərin bölüşdürülməsi qaydaları göstərilirdi.

İrəvan əyalətinin və Naxçıvan sancağının müfəssəl dəftərlərindən Naxçıvan tüməninin əhalisi haqqında müəyyən bilgilər əldə etmək mümkündür.

“İrəvan əyalətinin müfəssəl dəftəri”nə görə Naxçıvanın tərkibində olan Bazarçayı, Şərabxana, Zar və Zəbil nahiyyələrinin əhalisi Osmanlı-Səfəvi müharibələri nəticəsində öz yurdlarını tərk etmişdilər. Digər nahiyələrdə də buna bənzər vəziyyət yaranmış, xeyli sayda kəndlər boşalmışdı. “Naxçıvan sancağının müfəssəl dəftəri”nə görə sancağın 17 nahiyəsindəki 393 kənddən 269-nun əhalisi öz yaşayış yerlərindən çıxıb getmişdilər. Bu əhalinin 68,5 faizini təşkil edirdi [19, s.13].

Rusiya-Qacaqlar arasında baş vermiş müharibə nəticəsində Naxçıvan xanlığında ölən və yaralananlarla yanaşı, rus hakimiyyəti altında yaşamaq istəməyən bir qrup əhali İrana getmişdi. Ehsan xan və qardaşı Şeyxəli bəy bu qəbildən olan çoxsaylı ailələrdən bir qismini, təqribən 1600 ailəni geri

qaytara bilmişdilər. Tədqiqatlarla müəyyən edilmişdir ki, 1831-ci ildə Naxçıvan əyaləti və Ordubad dairəsində 41.482 nəfəri əhatə edən 8863 ailə yaşamışdır [21, s.638].

Türkmənçay və Ədirnə sülh müqavilələrindən sonra İrandan və Türkiyədən məqsədli surətdə ermənilər Azərbaycan torpaqlarına-İrəvan, Naxçıvan, Qarabağ, Zəngəzur ərazilərinə köçürüldülər. Tanınmış rus tədqiqatçısı N.Şavrov ermənilərin Cənubi Qafqaza köçürülməsi prosesini və köçürülüb gətirilmiş ermənilərin sayını araşdırdıqdan sonra 1911-ci ildə yazırdı ki, hazırda Cənubi Qafqazda yaşayan 1 milyon 300 min erməninin 1 milyondan çoxu bu diyarın yerli əhalisi deyil. Onları bura biz köçürüb gətirmişik. Şavrova görə, ermənilərə məskən salmaq üçün hökumət tərəfindən 200 min desyatin xəzinə torpağı ayrılmış və müsəlmanlardan 2 milyon manatlıqdan çox xüsusi sahibkar torpağı alınmışdır. Erməni ailələrinə ssuda və toxumluq taxıl da verilirdi.

İrandan köçürülən ermənilərin miqdarı haqqında müxtəlif rəqəmlər deyilsə də, onların 40 min nəfər olduğunu qəbul etmək olar. Osmanlı ərazisindən də 84 min erməninin köçürülməsi haqqında məlumatlar var. Bunlar rəsmi statistik məlumatlar olsa da, müəyyən edilmişdir ki, köçürülənlərin sayı bundan artıq olmuşdur.

Çar hökuməti Naxçıvan bölgəsinin erməniləşdirilməsinə xüsusi önəm verirdi. Bunun üçün 1828-1831-ci illərdə Naxçıvan bölgəsinə xeyli sayda erməni köçürülmüşdü. İ.Şopenə görə Naxçıvan əyalətinə 6538, Ordubad dairəsinə 2325 erməni ailəsi köçürülmüşdü. Bundan 416-sı Naxçıvan şəhərinə, 1869 ailə Naxçıvan əyalətinin 43 kəndinə, 266 erməni ailəsi Ordubadın 4 kəndində yerləşdirilmişdi. Ümumiyyətlə, erməni ailələrinin sayı 2557 idi. Cənubi Qafqaza köçürülən ermənilərin 36,6 faizi Naxçıvanda, 43 faizi Qarabağda, 20 faizi isə İrəvanda məskunlaşdırılmışdı.

İşğaldan əvvəl Naxçıvan xanlığında 930 erməni ailəsi və 5.078 erməni yaşadığı halda, işğaldan sonra Naxçıvan əyalətinə 2.145 erməni ailəsi və 10.679 nəfər erməni, Ordubad dairəsinə 250 erməni ailəsi və 1.304 erməni, cəmin 2.395 erməni ailəsi və 11.983 nəfər erməni köçürülmüş və ermənilərin sayı 17.061 nəfərə çatmışdır. Başqa sözlə, Naxçıvan əyalətinə və Ordubad dairəsinə köçürülən ermənilərin sayı "yerli" ermənilərdən 2 dəfədən də artıq idi [14, s. 52].

Naxçıvan mahalında 979 müsəlman və 150 "yerli" erməni ailəsi yaşayırdı. Mahala daha 941 erməni ailəsi köçürülmüş və erməni ailələrinin sayı 1.091-ə çatmışdı.

V.Qriqoryev "Naxçıvan əyalətinin statistik təsviri" kitabında yazır ki, "Bütün köçürülənləri məskunlaşdırmalı olan Erməni vilayətinin rəhbərliyinə nə boş torpaqların həqiqi miqdarı, nə də keyfiyyəti hələ məlum deyildi. Bir sözlə, vilayətdə nə qədər yeni sakini yerləşdirməyin mümkün olduğunu təsəvvür etmirdilər. Ən böyük çətinliyi isə hökumətimizin gözləmədiyi miqdardan çox erməninin gəlməsi törətdi. Yerli rəhbərlik onlara boş kənd ayırmamışdı, bəzən buna vəsait tapmırdı, yeni gələnləri harada yerləşdirəcəyini bilmirdi. Öz təşəbbüsü ilə təşkil olunmuş bir sıra dəstələr bir neçə boş ev tapdıqları, bir balaca artıq torpağının olduğu ən yaxşı kəndlərdə özbaşına məskunlaşır və yerli rəhbərliyin üstünə qaçırdılar ki, onların seçdikləri həmin yerlərdə məskunlaşmaq hüquqlarını təsdiq etsinlər. Yerli sakinlər bu vəziyyətdən çox ziyana məruz qaldılar. Öz yurdlarında yerli rəhbərliyin havadarlıq etdiyi yerli sakinlər öz əkin sahələrinin və başqa torpaqlarının xeyli hissəsini onlara verməli olurdular" [19, s. 83].

Qeyd olunan ərazilərin əhalisinin çoxluğunu müsəlmanlar təşkil edirdi. Müsəlmanların da böyük əksəriyyəti türk mənşəli azərbaycanlılar idi. Kamerat təsvirlərdə onlar "tatar" kimi verilmişdir. Türk əhalisi arasında kəngərlilər, bayat, cavanşir və b. etnoslar sayca daha çox idi [20, s.12].

Kəngərlilər eramızın II əsrindən Naxçıvan ərazisində, eləcə də Naxçıvan əyalətində və Ordubad dairəsinin müxtəlif kəndlərində yaşayırdılar. Onlar Naxçıvanın türk əhalisinin 25 faizini təşkil edirdi. U.Şopen Naxçıvan şəhərində 411, Naxçıvan əyalətində isə 1.022 kəngərli ailəsinin, cəmin 1433 ailənin və 6.473 nəfər kəngərlinin yaşadığını qeyd edir [21, s.537]. Tədqiqatçı N.Əhmədlinin fikrincə kəngərli ailələrinin sayı 1.451 olmuşdur [13, s.54]. Onun hesablamalarına görə Naxçıvan əyaləti üzrə 1.393 ailə, Ordubad dairəsi üzrə isə 58 ailə var idi.

Bir sıra tarixi mənbə və sənədlərdə Kəngərli elinin qollarına məxsus 23 tayfa (tirə) adı çəkilmişdir. Lakin Naxçıvan əyaləti və Ordubad dairəsinin kameral təsvirlərində belə tayfaların sayı 40-a yaxındır. Hətta bu tayfaların neçəsinin harada yaşaması haqqında məlumat verilir. Məsələn

Naxçıvan şəhərində yaşayan kəngərli ailələrinin adları göstərilir. Belə ki, burada yurdçu, Qaradolaq, qızıllı, sarbanlar, xalxallı, pirhəsənli, salahlı, ağabəyli, gemayi (gemaylı), qarabağlar, cağataylı, qaraxanbəyli, hacılar, cəmşidli, bilici, qurdlar, qızılqışlaq, şabanlı, kəlfir, ərəfsəli, əlixanlı, qaracalı, qarakəsərli, kəngərli tayfaları yaşayırdı. Naxçıvan şəhərində yaşayan ən çox kəngərli tayfasının salahlı (82 ailə), kəclər (60 ailə), Qaradolaq (47 ailə), bilici (42 ailə) tirələrinin nümayəndələri, ən az isə qurdlar, qarabağlar, qarakəsərli tayfalarının hər birindən 1 ailə olmuşdur [13, s.57-58]. 1829 və 1830-cu illərdə Naxçıvan şəhərində taun və vəba epidemiyasının yayılması Naxçıvan şəhərində kəngərli ailələrinin sayının 411-dən 191-ə qədər azaltmasına gətirib çıxarmışdır. Başqa bir səbəb isə kəngərlilərin İrana köçmələri ilə əlaqədardır. Kəngərli tayfaları içərisində sayca ən böyük yurdçu tayfası idi. Onlar 288 ailədən ibarət olub, əsasən Naxçıvan mahalında, Naxçıvan şəhərində, Məvazixatın mahalında, Dərələyəz mahalında yaşayırdı. Sonrakı yerləri cəmşidli, salahlı, bilici tayfası tuturdu. Kameral təsvirlərə görə, qeyd etdiyimiz kimi 37 kəngərli tayfası olmuş, bunlardan 23-ü həm də Naxçıvan şəhərində yaşamışlar [13, s.59]. Tədqiqatçı K.Smirnov qeyd edir ki, heç də bu tayfaların hamısı kəngərlilərə aid deyil, bəziləri özlərini kəngərli hesab edirlər. Belə ki, kəlfir tayfası kelxur kürd tayfaları, lakin onlar türkləşmişlər [20, s.17], bəydili tayfası da kəngərli deyil. Bununla belə, 1851-ci ildə Naxçıvan qəzasında yaşayan kəngərlilər üzrə ayrıca kameral təsvir tərtib edilmişdir.

Verilən məlumatlar ümumiləşdirilərkən aydın olur ki, Naxçıvan qəzasının 67 kəndində 1.540 Kəngərli ailəsi olmuşdur. Naxçıvan şəhərində isə bir neçə il ondan əvvəl 230 Kəngərli ailəsi qeydə alınmışdır. Deməli, Naxçıvan qəzasında 1.770 Kəngərli ailəsi yaşamışdır. Naxçıvan əyalətinin bir sıra mahallarında və Ordubad mahalının bir neçə kəndində yaşayan kəngərlilər qeydə alınmamışdır. Dərələyəz mahalının Sallı kəndində, Çivə, Danzik, Yaycı kəndlərində yaşayan torpaq mülkiyyətçiləri kəngərli bəylərinin nəsillərinə aid idi.

Başqa xanlıqlarda olduğu kimi, Naxçıvan xanlığının da piyada və süvari ordusu var idi. Piyada orduya sərbaz deyilirdi və onların sayı 800 nəfər idi. 200 nəfərdən ibarət süvari döyüşçülər də var idi. Bunlar da sərbaz adlanan qoşunun tərkibində olurdu. Sərbazları Naxçıvan əyalətinin və Ordubad dairəsinin kəndlərindən yığırdılar. Həmin qoşunun komandiri əsasən Naxçıvan hakimi olan kəngərli xanının qohumlarından olurdu. Polk komandiri vəzifəsinə uyğun gələn həmin hərbi vəzifə Sərhəd adlanırdı. Onun tabeliyində bir nəfər yavər, hər biri 100 nəfərin komandiri olan 8 sultan, hər biri 50 nəfərin komandiri olan 16 naib və yüzbaşılar olurdu [13, s.61]. Sərbazlar vergi və mükəlləfiyyətlərdən azad idilər və yalnız müharibə vaxtı qulluğa cəlb edilir, sülh vaxtı isə öz evlərində yaşayaraq əkinçiliklə məşğul olur, müəyyən vaxtlarda hərbi təlimlər üçün şəhərə çağırılırdılar. Sərbaz polku ilk dəfə Azərbaycan valisi Abbas Mirzə tərəfindən yaradılmışdı, ondan əvvəl Naxçıvanda nizami qoşun yox idi [19, s.59-60].

Süvari qoşun istinasız olaraq kəngərlilərdən təşkil edilmişdi. Naxçıvan hakimi olan kəngərli xanının qohumları içərisindən seçilən bu dəstənin komandirindən başqa, 2 sultan, 4 naib və lazımi miqdarda yüzbaşılar vardı. Süvari döyüşçülər verən və onların təminatını ödəyən kəngərli tayfası bütün vergi və mükəlləfiyyətlərdən azad idi [19, s.60].

Kameral təsvirlərdən aydın olur ki, inzibati-ərazi vahidləri üzrə kəngərli süvariləri Naxçıvan mahalı (75 nəfər), Naxçıvan şəhəri (50 nəfər), Xok mahalı (26 nəfər), Əlincəçay mahalı (9 nəfər) ərazilərindən toplanırdı. Mahallar üzrə ən çox süvari verən Naxçıvan (75) kəndləri üzrə isə Cəhri kəndi (40) idi. 200 nəfər kəngərli süvarisindən 30 nəfər daim xanın yanında olurdu və onun şəxsi mühafizəsini təşkil edirdi. Onların rəisi qullarağası adlanırdı [19, s.60].

Naxçıvan əyalətində qeydə alınmış ən çoxsaylı etnik qruplardan biri də Dərələyəz mahalında yaşayan qaraçorlular idi. Ə.Cəfəroğlu qaraçorluları türk mənşəli bir el hesab edir. Türkiyəli alim Y.Halaçoğlu da onları XVI əsrdə Ərzurum vilayətində məskunlaşmış türkmən eli hesab edir. V.Qriqoryevə görə qaraçorlular Şərqi Dərələyizə Nəbi bəyin başçılığı ilə gəliblər.

1831-ci ilin məlumatına görə Naxçıvan şəhərində 909 türk ailəsi yaşayırdı ki, bunun ümumi sayı 3.651 nəfər idi. On iki ildən sonra ailələrin sayı 793, əhalinin sayı 2.956 nəfər olmuşdu. Göründüyü kimi bu müddətdə əhalinin sayı artmaq əvəzinə azalmışdır, təqribən 20 faiz. Bu da məlumdur ki, 793 türk ailəsinin 90-ı buraya başqa yerdən gəlmişdi.

Kameral siyahıyaalmada hər bir mahalın və onun tərkibində olan kəndlərin əhalisi haqqında da məlumat verilir. Əlincəçay mahalının Baş Camaldın kəndində 44 nəfər, Ayaq Camaldında 168, Ərəzində 125, Qızılcada 63, Kırnada 171, Bənəniyarda 340, Saltaxda 155, Xaçaparaqda 87, Xanağada 176, Baş Anzırda 97 nəfər və digər kəndlərdə müsəlmanlar yaşayırdı. Həmin mahalın Əbrəqunis, Noraşen, Qazançı, Şurut, Paradaş kəndlərində İrandan köçürülmüş ermənilər də yaşayırdı.

Ordubad şəhərində 767 ailə, Əylis, Dəstə, Biləv, Çənnəb və Ordubad mahallarında 908 ailə, cəmi Ordubad dairəsində 1.675 ailə və 7.247 nəfər müsəlman yaşayırdı. Ordubad dairəsinin də bir neçə kəndinə ermənilər köçürülmüşdü. Ordubad dairəsində 5.078 "yerli", 11.983 İrandan köçürülən ermənilər məskunlaşmışdı. Xəstəliklərin baş verməsi ermənilərin də əyalət və mahallardan aralanması səbəb olmuşdu.

Konkret olaraq şəhər və mahalların müsəlman əhalisinə gəldikdə isə bu aşağıdakı kimi idi. Naxçıvan şəhərində 909 ailə 3651 nəfər [1, v.3], Əlincəçay mahalında 400 ailə 1848 nəfər [2, v.56], Naxçıvan mahalında 979 ailə 4191 nəfər [3, v.71], Məvazixatın mahalında 282 ailə 1497 nəfər [4, v.121], Xok mahalında 292 ailə 1375 nəfər [5, v.110], Dərələyəz mahalında 1001 ailə 4583 [13, s.508] nəfər əhali yaşayırdı. Cəmi ailələrin sayı 3863, əhalinin sayı isə 17.138 nəfər idi [13, s.49].

Ordubad dairəsinə gəldikdə isə Ordubad şəhərində 767 3262 nəfər [11, v.2], Ordubad mahalında 146 ailə [10, v.14], Akulis (Əylis) mahalında 77 ailə 347 nəfər [6, v.9], Dəstə mahalında 317 ailə 1533 nəfər [7, v.23], Biləv mahalında 289 ailə 1210 nəfər [8, v.22], Çənnəb mahalında 79 ailə 343 nəfər [9, v.8] əhali yaşayırdı. Bu diyarda yaşayan ailələrin sayı 1675, əhalinin sayı isə 7247 nəfər idi [13, s.49].

Beləliklə, aydın olur ki, qədim türk-oğuz yurdu Naxçıvan əyaləti və Ordubad dairəsinin əhalisi əsasən müsəlman türklərdən ibarət olmuşdur. Lakin Rusiya-Qacarlar və Rusiya-Osmanlı müharibələri nəticəsində çar Rusiyasının və ermənilərin əlinə düşən fürsətdən istifadə edilərək Azərbaycan, xüsusən də Naxçıvan ərazisində ermənilərin sayını artırmaq demoqrafik vəziyyətdə ciddi dəyişiklik yaratmaq üçün erməniləri buraya köçürməyə başladılar. Müsəlmanlar bundan narazı qalsalar da əməli bir iş görə bilmədilər. Nəticədə xeyli sayda yerli müsəlman əhalisinin bir qismi ərazini tərk edərək qonşu müsəlman dövlətlərinə köçdülər. Lakin yenə də azərbaycanlılar əhalinin 68-72 faizi səviyyəsində qaldı. 1831 və sonrakı illərdə aparılmış Kameral təsvirlər, yəni siyahıyaalmalar qeyd olunanları təsdiq edir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivi (AMDTA), f. 24, siy. 1, s.v. 353.
2. AMDTA, f. 24, siy. 1, s.v. 354.
3. AMDTA, f. 24, siy. 1, s.v. 355.
4. AMDTA, f. 24, siy. 1, s.v. 356.
5. AMDTA, f. 24, siy. 1, s.v. 357.
6. AMDTA, f. 24, siy. 1, s.v. 358.
7. AMDTA, f. 24, siy. 1, s.v. 359.
8. AMDTA, f. 24, siy. 1, s.v. 360.
9. AMDTA, f. 24, siy. 1, s.v. 361.
10. AMDTA, f. 24, siy. 1, s.v. 372.
11. AMDTA, f. 25, siy. 2, s.v. 6.
12. Eminov Z.N. Azərbaycanın əhalisi. Bakı, 2005, 560 s.
13. Əhmədli N. Naxçıvan əyalətinin və Ordubad dairəsinin Kameral təsviri. 1831-ci il. Bakı: Elm və təhsil, 2021, 712 s.
14. İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Z.Bünyadov, H.Məmmədov (Qaramanlı). Bakı: Elm, 1996, 184 s.
15. Kəngərli İ. Kəngərli elinin soy kitabı. Bakı: Nurlan, 2005, 296 s.

16. Quliyev M. 1832-ci il Kameral siyahısı kəngərli tayfası haqqında / AMEA Naxçıvan Bölməsinin Elmi əsərləri. İctimai və humanitar elmlər seriyası. Naxçıvan, 2021, Cild 17, №1, s. 27-32.
17. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 158 s.
18. Naxçıvan sancağının müfəssəl dəftəri (1727). Araşdırma, tərcümə, qeyd və şərhlərin müəllifləri: Z.Bünyadov, H.Məmmədov (Qaramanlı). Bakı: Elm, 2001, 374 s.
19. Григорьев В. Статистическое описание Нахичеванской провиции, СПб, 1833, 263 с.
20. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края, Тифлис, 1934, 156 с.
21. Шопен И.И. Исторический памятник состояния армянской области в эпоху ее присоединения к Российской империи. СПб, 1852, 1236 с.

## SUMMARY

**Ismayil Hajiyev**

### THE POPULATION OF NAKHCHIVAN PROVINCE AND ORDUBAD DAIRA AND THEIR DEMOGRAPHICS

The article is about the census of people on the general description in the 20-30s of the XIX century, Armenians' being transferred from Iran and Ottoman territories and settled in the villages of Nakhchivan province and Ordubad daira. after the Russo-Iranian and Russo-Turkish wars. The target of transfer policy by tsarist Russia was to increase the number of Armenians in the territory, change the demographics and establish the Armenian state. Due to the mentioned census besides the number of population, their settlement, and the ethnic content of the people are dealt with as well.

***Keywords:*** *province, daira, mahal, detailed book, overview book, general description, sanjag, kangarli, Nakhchivan, Ordubad*

## РЕЗЮМЕ

**Исмаил Гаджиев**

### ДЕМОГРАФИЧЕСКАЯ СИТУАЦИЯ И НАСЕЛЕНИЕ НАХЧЫВАНСКОЙ ПРОВИНЦИИ И ОРДУБАДСКОГО ОКРУГА

В статье говорится о переписи населения на основе камеральных описей в 20-30 годах XIX в., переселении армян из Ирана и Османской империи после русско-турецкой и русско-османской войн и расселении их в селах Нахчыванской, Ордубадской провинций и округов. Целью переселенческой политики царской России было увеличение численности армян на этих территориях, создание армянского государства в результате изменения демографической ситуации. В упомянутой переписи речь идет не только о численности населения, его расположении, но и об их этническом составе.

***Ключевые слова:*** *провинция, округ, квартал, Подробная тетрадь, сводная тетрадь, камеральное описание, санджак, кенгерли, Нахчыван, Ордубад*

---

***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 14-30
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 14-30
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 14-30

**EMİN ŞIXƏLİYEV**
*emin.amea@yahoo.com*
*AMEA Naxçıvan Bölməsi*

**UOT: 94(479.24)**

# KREMLİN "BÖYÜK GÜC" SİYASƏTİ: ERMƏNİSTAN-AZƏRBAYCAN MÜHARİBƏSİ İLƏ RUSİYA-UKRAYNA MÜHARİBƏSİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

*Qlobal məsələlərin təsiri işığında postsovet məkanında cərəyan edən hadisələrin təhlili olduqca böyük elmi, siyasi aktuallıq kəsb edir. Rusiyanın geosiyasi prioritetləri analiz edildiyində çox önəmli məqamlar ortaya çıxır. BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri olan Rusiya ona qarşı çıxan və meydan oxuyan dövlətlərin ərazi bütövlüyünü pozmuş və ya təhdid etmişdir. Bu vəziyyət Rusiyanın "böyük güc" reallığını əks etdirir. Heç təsadüfi deyildir ki, Cənubi Qafqaz, Ukrayna, Belarus, Moldova, Qazaxıstan və Orta Asiyada bu reallıq müşahidə edilir. Yuxarıda adları sadalanan regionlarda problem və münaqişələrin tamamilə həll edilməsi, sülhün bərqərar olması Rusiyanın regional təhlükəsizlik siyasətinin uzunmüddətli maraqları ilə heç bir şəkildə uzlaşmır. Məqalədə Kremlin "böyük güc" siyasəti təhlil edilmiş, Ermənistan-Azərbaycan və Rusiya-Ukrayna müharibələri arasında müqayisələr aparılmışdır.*

***Açar sözlər:*** *Rusiya, "böyük güc" siyasəti, geosiyasi rəqabət, Ermənistan-Azərbaycan müharibəsi, Rusiya-Ukrayna müharibəsi*

## Giriş

Ermənistan-Azərbaycan müharibəsi, bu savaşda Azərbaycan tərəfinin qələbə qazanması, amma buna baxmayaraq, hələ də müəyyən problemlərin olması, "sülhməramlı" adı altında Rusiyanın Qarabağa yerləşməsi, onun Cənubi Qafqazda təsir rıçaqlarını qorumaq məqsədi, müharibənin siyasi, diplomatik və informativ müstəvidə davam etdiyi, bununla yanaşı, rəsmi Kremlin təhlükəsizlik məsələləri adı altında yeritdiyi siyasət, Rusiyanın Ukraynanı istila etməsi və s. bu kimi məsələlər son günlərdə sosial şəbəkələrdə, Kütləvi İnformasiya Vasitələrində, dəyirmi masalarda, elmi dairələrdə, beynəlxalq arenada daha çox müzakirə olunan mövzulara çevrilib.

Bu bir həqiqətdir ki, hər bir böyük dövlətin özü kimi "böyük güc" siyasəti vardır və bu siyasət yolunda qarşıya çıxan maneələr amansızlıqla aradan qaldırılır. Lakin bunu da xüsusilə qeyd etmək lazım gəlir ki, bu maneələr məhz böyük güclər tərəfindən bir-birilərinə qarşı siyasi, iqtisadi, hərbi vasitə kimi planlı şəkildə yaradılaraq geosiyasi səhnəyə çıxarılır. Tarixən olduğu kimi, günümüzdə də böyük güclər arasında dünyanın strateji baxımdan əhəmiyyət daşıyan bölgələrinə nəzarət uğrunda rəqabət və "nüfuz savaşı" gedir. Bu mübarizədə isə uğrunda rəqabətlərin aparıldığı bölgələrin rəyi belə nəzərə alınmır, ölkələr sistematik şəkildə xaosa sürüklənir. Bu, böyük güclərin "Dünya Nizamı"dır. Qeyd etmək lazımdır ki, Dünya Nizamı özünü qloballaşma, demokratiya, insan hüquqları və s. adlar altında gizlətsə də, geosiyasətlə qarşı-qarşıya gəlmiş və toqquşmuşdur. Tarixən prinsip etibarilə sülhü qorumağı rəhbər tutan beynəlxalq sistemlər mövcud olub, bu gün də var. Lakin bu sistemlər geosiyasət qarşısında həmişə məğlubiyyətə düçar olublar.

Ümumiyyətlə, fərqli düşüncədə olan, ixtisasından, peşəsindən, tutduğu vəzifədən asılı olmayaraq, hər kəsi düşündürən belə bir sual var: müharibələr niyə baş verir? Cavab son dərəcə sadədir: müharibələr ədalətin bitdiyi anda baş verir. Ədaləti tənzimləyən sistem beynəlxalq hüquqdur. Beynəlxalq hüquq dünyanın aparıcı dövlətləri üçün həmişə arxa planda olub. Böyük güclərin ədaləti yox, geosiyasi

maraqları var. Bu, həmişə belə olub, bundan sonra da olacaq. Bu baxımdan geosiyasi maraqların toqquşduğu müasir dövrdə də sülh haqqında nikbin düşünmək məntiqə sığmır.

Bu bir həqiqətdir ki, müharibələrdə sülh olmaz, uzlaşma olar. Digər tərəfdən strategiyada "sülh" deyə bir anlayış yoxdur. Bu anlayış, belə demək mümkündürsə, bədii yaradıcılıqda yer alır, ədəbiyyatlarda daha çox rast gəlinir. "Sülh" anlayışı hərbi terminologiyada müharibəyə hazırlıq dövrüdür. "Sülh" anlayışı beynəlxalq arenada masaya əyləşən zaman uzlaşmaya varılan bir sözləşmənin və ya sazişin adıdır. Daha doğrusu, qalib tərəfin məğlub tərəfə öz şərtlərini və tələblərini zorla qəbul etdirdiyi diktənin adıdır. Beləliklə, müharibəni başladan və bitirən, sülhü yaradan və pozan millətlər deyil, məhz böyük güclərdir.

Qlobal miqyasda baş verən hadisələrin təhlili onu deməyə əsas verir ki, dövlətlərin ərazi bütövlüyünün pozulması, təzyiqlər, müdaxilələr, xaos, geosiyasi rəqabət, güc nümayişi ilə "sülh ideyası" carçısı olmaq arasında böyük paradoks vardır. Hal-hazırda yüksək tonla "dünyada sülh və əmin-amanlığın təmini", "regionlarda sabitliyin yaranmasına xidmət" və s. kimi səslənən şüarların arxasında şübhəsiz ki, müəyyən məqsədlər durur. Çox maraqlıdır ki, dünyanın bütün böyük dövlətlərinin şüarlarında həmin prinsiplər səslənir. Gündəmə gətirilən şüarlar, əlbəttə ki, real məqsədləri ört-basdır etmək üçündür.

**Rusiyanın "böyük güc" siyasəti**

Yuxarıda sadalanan qlobal məsələlərin təsiri işığında postsovet məkanında, xüsusilə Cənubi Qafqazda və Ukraynada cərəyan etmiş hadisələrin təhlili olduqca böyük elmi, siyasi aktuallıq kəsb edir. Rusiyanın geosiyasi prioritetləri analiz edildiyində çox önəmli məqamlar ortaya çıxır: BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri olan Rusiya ona qarşı çıxan və meydan oxuyan dövlətlərin ərazi bütövlüyünü pozmuş və ya təhdid etmişdir. Avrasiyacı fikirlərilə həmişə gündəmə gələn Rusiyanın məşhur strateqlərindən Prof. Dr. Aleksandr Duqin postsovet ölkələri ilə Rusiya arasındakı münasibətlərin perspektivlərini, Rusiyaya qarşı çıxan dövlətlərin aqibətini və gələcəyini belə dəyərləndirməkdədir: *"Hər hansı bir keçmiş sovet ölkəsinin ərazi bütövlüyünün təminatı Rusiya ilə münasibətləridir. Postsovet ölkələrindən hər hansı birinin Rusiya ilə münasibətləri yaxşıdırsa, onun ərazi bütövlüyü də təmin edilmiş olur. Əgər münasibətlər pisdirsə, o zaman o ölkə və ya ölkələrin ərazi bütövlüyü pozulur... Gürcüstan, Ukrayna, Moldova kimi Rusiya ilə pis münasibətlər quran ölkələrin hegemonluğu artıq pozulmuşdur"* [21].

Bu vəziyyət Rusiyanın "böyük güc" reallığını əks etdirir. Heç təsadüfi deyildir ki, Cənubi Qafqaz, Ukrayna, Belarus, Moldova, Qazaxıstan və Orta Asiyada bu reallıq müşahidə edilir. Yuxarıda adları sadalanan regionlarda problem və münaqişələrin tamamilə həll edilməsi, sülhün bərqərar olması Rusiyanın regional təhlükəsizlik siyasətinin uzunmüddətli maraqları ilə heç bir şəkildə uzlaşmır. Üstəlik, Rusiya öz təhlükəsizlik məsələlərini ön planda tutaraq yeri gəldikcə separatist amillərdən istifadə edir və postsovet ölkələrinin ərazi bütövlüyünü pozur. Postsovet məkanındakı bəzi dövlətləri Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına daxil etdirməklə onlar üzərində öz nəzarətini qurur, üzv olmayan dövlətlərin ərazilərində də münaqişə ocaqları yaradaraq ordusunu sülhməramlı adı altında həmin bölgələrə yeridir.

Ümumiyyətlə, əksər keçmiş sovet məkanında stabilliyin bərpa olunması, bu məkandakı müstəqil dövlətlər arasında cərəyan edən problemlərin öz real həllinə qovuşması Rusiya baxımından arzuedilən bir hal deyil. Rəsmi Moskvanın bu siyasətinin arxasında onun gələcəyə hesablanmış məqsədləri yatır: tərəfləri özündən asılı vəziyyətdə saxlamaq və regionda təsir rıçaqlarını qorumaq.

Qeyd etmək lazımdır ki, rəsmi Moskvanın uzun illərdir davam edən bu kimi addımları və ikili oyunları onun "sülh carçısı" dövlət missiyası üçün qəbuledilməzdir. Ümumiyyətlə, postsovet məkanında yer alan dövlətlərdə separatçı qüvvələrin mövcudluğunu Rusiyanın Cənubi Qafqazdakı varlığının təminatı kimi xarakterizə etmək daha məqsədəuyğundur.

İkinci Qarabağ müharibəsi, Rusiyanın "böyük güc" siyasətinə rəğmən Azərbaycanın düşünülmüş addımları

Təxminən 30 ilə yaxın idi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz siyasi, hüquqi həllini tapmır və ya buna mane olunurdu. Tərəflər anlaşa bilmədiklərinə görə, problemin həlli

ATƏT-in Minsk Qrupuna həvalə edilmiş, lakin bu qurumun cəhdləri uğursuz alınmışdır. Daha doğrusu, Minsk Qrupu münaqişənin həllinə ümumiyyətlə, cəhd etməmişdir. Həm beynəlxalq təşkilatların, həm ATƏT-in Minsk Qrupu üzvlərinin, həm də digər dövlətlərin yeritdikləri ikili standartlar siyasətinin nəticəsi idi ki, Ermənistan tərəfi problemin öz real həllinə yanaşmaq istəmir, üstəlik, atəşkəs rejimini də sıx-sıx pozurdu. Daim böyük dövlətlər tərəfindən dəstəklənəcəyini ümid edən Ermənistan təmas xəttini pozmağa davam etdi, psixoloji baxımdan Azərbaycana zərbə vurmağa çalışdı və qıcıqlandırma metodlarından istifadə etdi. Ermənistanın Baş naziri Nikol Paşinyanın *"Qarabağ Ermənistandır və nöqtə"* kimi özündən razı, beynəlxalq hüquqa zidd olan daha sərt bəyanatlar səsləndirməsi və yeni bir macəra həvəsiylə atdığı yanlış addımlar yeni müharibənin xəbərçisinə çevrildi. Onun məlum bəyanatı Ermənistanın etiraf xarakterli işğalçı siyasətini ortaya qoydu.

27 sentyabr 2020-ci il tarixində Ermənistan tərəfindən atəşkəsin pozularaq Azərbaycan torpaqlarına gerçəkləşdirdiyi hücum "ani müharibə"nin başlanmasının işarəsi oldu. Qeyd etmək lazımdır ki, Azərbaycanda həm rəsmi səviyyədə, həm də xalqda artan torpaqların qaytarılması arzusu da bu işarənin xəbərçisi idi. Nəticədə Azərbaycan tərəfi əks-hücum gerçəkləşdirərək işğal altındakı torpaqlarını qurtardı və Ermənistanı kapitulyasiyaya məcbur etdi. 26 illik atəşkəs anlaşmasından sonra siyasi konyunkturanın yaranması ilə Azərbaycanın Ermənistanın işğalı altında olan torpaqlarında irəliləməsi və nəzarəti ələ keçirdiyi bir zamanda regionda kilid önəmə sahib olan Rusiyanın mövqeyinin necə olacağı hər kəs tərəfindən düşündürücü idi. Heç təsadüfi deyildir ki, müəyyən vaxtlarda cərəyan edən toqquşmalarda və ya qısamüddətli müharibələrdə bir tərəfin üstünlüyü Rusiyanın ümumi siyasətinin xaricinə çıxmazsa, rəsmi Moskva bu cür toqquşmaya müvəqqəti olaraq səssiz qala bilir və ya öz varlığının əhəmiyyətini hiss etdirmək istəyərsə, buna icazə verirdi [19]. Heç təsadüfi deyildir ki, 2016-cı ilin aprel ayında gerçəkləşən "Dördgünlük müharibə"də də bunu göstərdi.

Ermənistanın 27 sentyabr 2020-ci ildə yeni macəra həvəsiylə başlatdığı hücumda şübhəsiz ki, bəzi planları var idi. Paşinyan hökuməti yuxarıdan aldığı təlimatlara uyğun olaraq müəyyən ssenarilər çərçivəsində Türkiyə ilə Rusiyanı müharibənin içərisinə çəkmək istəyirdi. Böyük ehtimalla Paşinyan Qərbin və Sorosun planını tətbiq edirdi. Qərbin əsas hədəfi Qarabağ probleminin miqyasını genişləndirmək, Rusiyanı bilavasitə aktiv fazaya daxil edərək Türkiyə ilə toqquşdurmaq, iqtisadi sarsıntılara məruz qoymaq, Rusiya daxilindəki etnik ünsürlərin müstəqillik mübarizəsini qızışdırmaq və s. idi. Lakin Qərb öz planlarını bu regionda reallaşdıra bilmədi. Yuxarıda da qeyd olunduğu kimi, Ermənistan yuxarıdan aldığı təlimatlara əsasən bu müharibədə Rusiyanın tam dəstəyini almağa və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının müdaxiləsinə şərait yaratmağa çalışsa da, rəsmi Moskva ikili münasibətlər və KTMT çərçivəsində sadəcə Ermənistana təhlükəsizlik təminatı verdiyini və bu təminatın Azərbaycanın bir parçası olan Qarabağı ehtiva etmədiyini bildirdi [24]. Hətta "Valday" beynəlxalq müzakirələr klubunun iclasında Rusiya Federasiyasının Prezidenti V.Putinin *"Azərbaycan torpaqlarının önəmli bir hissəsinin itirildiyi vəziyyət sonsuza qədər davam edə bilməz"* açıqlaması da Ermənistana vurulan ən böyük zərbə olaraq xarakterizə oluna bilər (25). Halbuki Ermənistan bu prosesdə Rusiyanı xilaskar olaraq görürdü. Rusiyadan lazımi dəstəyi ala bilməyən Ermənistan Avropada dəstək axtarışına çıxdı və Prezident Armen Sarkisyan NATO-nun Brüsseldəki mərkəzi qərargahında Baş katib Yen Stoltenberqlə görüşərək öz istəklərini xahiş etsə də, ona NATO-nun bu münaqişənin bir parçası olmadığı bildirildi [15; 20].

Ermənistanın atdığı addımlar, əlbəttə ki, Rusiya tərəfindən diqqətlə izlənilirdi. Amma bunu da nəzərdən qaçırmaq olmaz ki, Ermənistanda mövqeyindən asılı olmayaraq, hansı hökumət iqtidara gəlirsə gəlsin, heç bir halda Rusiyanın Qafqazdakı ən önəmli forpostu olan bu ölkədən əl çəkməsi mümkün görünmür. Məhz bu baxımdan 27 sentyabrda başlayan şiddətli müharibənin 13-cü günündə Rusiya təkrar müdaxilə etməyə çalışaraq Ermənistan və Azərbaycanın Xarici İşlər nazirlərini Moskvaya dəvət etdi və tərəfləri atəşkəs barəsində uzlaşdırdı. Oktyabrın 10-da humanitar məqsədlərlə hərbi əsirlər, digər saxlanılan şəxslər və ölənlərin meyitlərinin dəyişdirilməsi ilə bağlı humanitar atəşkəs elan olundu [8]. Cənubi Qafqazı öz "arxa baxça"sı olaraq dəyərləndirən Rusiya baxımından atəşkəsin təmin edilməsi olduqca vacib idi. Öz nüfuzunu ortaya qoyması və müharibədə kilid önəmə

sahib olduğunu bir daha dünyaya göstərməsi lazım gəlirdi. Lakin atəşkəsin müvəqqəti xarakter daşıdığı onsuz da bəlli idi. Toplantının ardından 24 saat (və ya daha az) belə keçmədən Gəncə, Mingəçevir, Bərdə, Goranboy, Tərtər və s. şəhər, rayon və kəndlərə Ermənistan ərazisindən raketlər atıldı. Xüsusilə mülki əhalinin hədəf alındığı, çox sayda insanın öldüyü və yaralandığı ikinci böyük şəhər olan Gəncənin vurulması həm erməni terrorunun yeni bir təzahürü oldu, həm də Rusiyanın xarizmasını cızma məqsədli bir akt olduğunu ortaya qoydu. Bu hal Ermənistanın sivillərə terror cinayətləri törədəcək qədər zavallı bir vəziyyətə düşməsi şəklində də xarakterizə oluna bilər. Rəsmi Yerevanın yeganə ümidi rəsmi Bakının bu hücuma Ermənistan ərazisinə əks-hücumla cavab verməsiylə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının dərhal müdaxilə etməsinə fürsət yaratmaq olsa da, əslində rəsmi Moskvanın nüfuz və xarizmasına ciddi bir zərbə oldu.

Atəşkəsin pozulması məsələsi Ermənistanın qərbyönümlü mövqeyini ortaya qoydu. Buna baxmayaraq, Rusiyanın müttəfiqi kimi Ermənistan rəsmi Moskvanın rəqiblərinin dəstəklədiyi bir sima olan, Qərb və Soros tərəfindən dəstəklənən Nikol Paşinyan tərəfindən idarə olunsa da, Rusiyanın bu dövlətdən əl çəkməsi mümkün görünmürdü. Onsuz da Azərbaycan Ermənistanın atəşkəsi pozacağını hesab edərək masaya əyləşdi. Bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də ifadəsi ilə desək, Azərbaycan tərəfindən Ermənistana verilən şans idi. Lakin buna baxmayaraq, Ermənistan atəşkəsi pozaraq sivillərə hücum etdi və danışıqlar yolu ilə işğal etdiyi torpaqları geri qaytarmayacağını göstərmiş oldu. Bundan başqa, oktyabrın 18-də və 26-da ATƏT-in Minsk Qrupunun digər həmsədrləri olan Fransa və ABŞ-ın da vasitəçiliyi ilə tərəflər arasında bir neçə dəfə atəşkəs elan edilsə də, Ermənistan tərəfindən yenidən pozuldu [9; 12; 16]. Döyüş meydanında Azərbaycan Ordusu qarşısında müqavimət göstərə bilməyən Ermənistan hər dəfə mülki əhalini hədəf seçdi. Atəşkəsi dəfələrlə pozmasına baxmayaraq, ballistik raketlərlə sivillərə hücum edən, aralarında uşaqların da olduğu çox sayda insanları qətlə yetirən Ermənistanın törətdiyi cinayətlər ATƏT-in Minsk Qrupunun həmsədrləri, aparıcı dövlətlər və nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən qınanmadı. Bunun əvəzinə müharibənin dayandırılması, silahların susması, dərhal müzakirələrə başlanması kimi ənənəvi ifadələrə yer verildi. Əgər beynəlxalq təşkilatlar və dövlətlər həqiqətən müharibədən narahat idilərsə, insan ölümünə səbəb olan bu vəziyyətdən gərgin hisslər keçirirdilərsə, ədalətin bərqərar olmasını istəyirdilərsə, işğalçı tərəf olan Ermənistanın BMT qətnamələrinə əməl edərək dərhal işğal etdiyi əraziləri boşaltmasını təmin etməli, lazım gələrsə təzyiq göstərməliydilər. Lakin bunu etmədilər. Ermənilərin təyini-müqəddəratı XX əsrin əvvəllərində gerçəkləşdirilib və onların Ermənistan adlı bir dövləti mövcuddur. Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin qurulması isə əsla mümkün deyil. Əgər ermənilər yaşadıqları hər yerdə təyini-müqəddərat məsələsini qəbul etdirməyə çalışsalar, o zaman dünyada çox sayda erməni dövləti yaranar. Əgər Rusiya, ABŞ və Fransa həqiqətən də Ermənistan üçün "self-determination" prinsipinin reallaşmasını istəyirlərsə, çox sayda ermənilərin yaşadıqları Krasnodar (Rusiya), Kaliforniya (ABŞ) və Marselə (Fransa) muxtariyyət statusu vermələri daha məqbul sayıla bilər.

Vasitəçilərin işğalçı dövlət ilə işğala məruz qalan dövlət arasında ədalətli seçim etməmələri və işğalçı dövləti dəstəkləyən addımları Ermənistanın təcavüzkar siyasətinin daha da şiddətlənməsi ilə nəticələndi. Azərbaycan müharibədə və diplomatiyada sonuna qədər öz haqlı mübarizəsinə davam etdi və ortaya çıxan fürsətləri öz lehinə çevirməyə çalışdı. Bu yolda uğurlu addımlar da atıldı. Prezident İlham Əliyevin tələbi istiqamətində müəyyənləşdirilən təqvim çərçivəsində Ermənistan 10 noyabr tarixinə qədər işğal etdiyi digər torpaqlardan çıxmamaqda müqavimət göstərdi və hər dəfə ağır itkilərə məruz qaldı. Noyabrın 8-də isə 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Şuşanın işğaldan azad edilməsi Ermənistanı tamamilə tərk-silah etdi, onun bütün manevr imkanları çökdü, ölkə və dünya ictimaiyyətini aldatmaq taktikası mənasını itirdi. Ermənistanın kapitulyasiya etməkdən başqa çıxış yolu qalmadı. Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın Baş naziri birgə bəyanat imzaladılar. Ermənistan 2020-ci ilin noyabr ayından dekabrın 1-nə qədər mərhələli şəkildə Azərbaycanın işğal altında olan Ağdam, Kəlbəcər və Laçın rayonlarından qoşunlarını çıxaracağı barədə öhdəlik götürdü [13]. Bəyanatda Rusiya Silahlı Qüvvələri sülhməramlı statusda

məhdud kontingentlə əraziyə yerləşdirilməsi nəzərdə tutulurdu. Anlaşmadan sonra Rusiya silahlı qüvvələri sülhməramlı statusda dərhal Qarabağa yerləşdirildi. Lakin gəldikləri tarixdən etibarən Qarabağda qanuni missiyalarından kənara çıxaraq erməni meyilli fəaliyyət göstərmələri Azərbaycanda ciddi reaksiyaya səbəb olmaqdadır.

Atəşkəs anlaşmasından 2 ay sonra, 11 yanvar 2021-ci ildə Rusiya Federasiyasının Prezidenti Putin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan Moskvada həm Qarabağ məsələsini, həm də digər zəruri məsələləri müzakirə etmək üçün bir araya gələrək müştərək bəyanat imzaladılar. Görüşdə tərəflərin Baş nazirlərin müavinləri səviyyəsində üçtərəfli işçi qrupunun və ekspertlərdən ibarət alt işçi qrupların yaradılması ilə nəqliyyat infrastrukturunun və bölgə iqtisadiyyatının inkişafı üçün konkret planların təqdim edilməsi qərarlaşdırıldı. Görüşlərin məzmunu bloklanmış vəziyyətdə olan iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsindən ibarətdir.

44 günlük Vətən müharibəsindən günümüzə qədər keçən vaxt içərisində Azərbaycan, Ermənistan və Rusiya dövlət başçılarının iştirakı ilə 26 noyabr 2021-ci ildə Soçidə sayca üçüncü üçtərəfli bəyanat, 22 fevral 2022-ci il tarixdə isə Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında bəyannamə imzalandı.

26 noyabr 2021-ci ildə Rusiya Federasiyasının Prezidenti V.Putin Soçi görüşünü keçirməklə həm Ermənistanın hərbi-siyasi rəhbərliyinə, Qərbyönümlü qüvvələrə, siyasi partiyalara, həm də Qərb dövlətlərinə Cənubi Qafqazın taleyi, gələcəyi ilə bağlı bütün tale yüklü qərarları Ermənistan olmadan da verə biləcəyini göstərdi. Bu faktor Ermənistanın artıq Rusiyanın bir müstəmləkəsi, bir əyaləti olduğunu sübut edən ən böyük amillərdəndir. Rusiya eyni zamanda bununla Ermənistanla bağlı vacib qərarların məhz Moskvadan verildiyini də Qərbə nümayiş etdirdi.

Bu baxımdan Soçi görüşünü Rusiyanın Qərb qarşısında dominantlığını sübut etmək üçün atılan addım kimi xarakterizə etmək mümkündür. Rəsmi Bakı isə bu görüşlə Ermənistan dövlətinə və ictimaiyyətinə hazırkı vəziyyətdə sülh, inkişaf, sabitlik şəraitində yaşamaq üçün Azərbaycanla dil tapmağın, onunla kompromisə gəlməkdən başqa seçim və yollarının olmadığı mesajını verdi. Bu, Azərbaycanın Ermənistanın siyasi gündəliyi ilə yanaşı, bölgənin də gündəliyinə necə təsir imkanlarına malik olduğunu göstərdi.

22 fevral 2022-ci il tarixdə Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında imzalanan 43 maddədən ibarət Moskva Bəyannaməsi isə tərəflər arasında bərabərhüquqlu münasibətləri yüksək səviyyədə tənzimləyən sənəd olub, hər iki tərəfin, o cümlədən Rusiyanın üzərinə ciddi öhdəliklər qoyur. Bu öhdəlik Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, separatizmə qarşı mübarizə, bir-birinin daxili işlərinə qarışmamaq və digər məsələləri əhatə etməklə yanaşı, iki ölkənin qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanan hərtərəfli və bərabərhüquqlu əməkdaşlığının genişləndirilməsinə dönməz sadiqliklərini ifadə edir: *"Rusiya Federasiyası ilə Azərbaycan Respublikası öz münasibətlərini müttəfiqlik qarşılıqlı fəaliyyəti, iki ölkənin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə və dövlət sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət, eləcə də bir-birinin daxili işlərinə qarışmamaq, hüquq bərabərliyi və qarşılıqlı fayda, mübahisələrin dinc yolla həlli və güc tətbiq etməmək və ya güclə hədələməmək prinsiplərinə sadiqlik əsasında qurarlar".*

Bəyannamədə tərəflərin öz milli maraqlarının müdafiəsinə yönəlmiş müstəqil xarici siyasət yürütmələri də vurğulanır. Bu məsələ günümüzün vacib məsələlərindən sayıla bilər. Sənəddə iki ölkənin münasibətlərinin heç vaxt üçüncü dövlətə qarşı yönəlmədiyinin öz əksini tapması da dövlətlərin bir-birinin suverenliyinə hörməti əks etdirir. Qeyd etmək lazımdır ki, Rusiya ilə imzalanan müttəfiqlik sənədi Türkiyə ilə imzalanmış 15 iyun 2021-ci il tarixli "Şuşa Bəyannaməsi"nin rolunu və gücünü azaltmır. Əksinə, hər iki bəyannamə Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə və təhlükəsizliyinə zəmanət verməklə yanaşı, Azərbaycanın öz müstəqil siyasətinə, təhlükəsizliyinə əlavə zəmanət qazandırır. Bu sənəd Azərbaycanın digər beynəlxalq təşkilatlar və birliklərdə də əməkdaşlığını gücləndirir. Moskva Bəyannaməsinin bərabərhüquqluğu Azərbaycanın müstəqilliyinin göstəricisidir.

Şuşa Bəyannaməsi kimi, Moskvada imzalanan müttəfiqlik sənədi də Ermənistanın Azərbaycana qarşı üçüncü tərəfdən istifadə etməsi imkanlarını məhdudlaşdırır. Bundan başqa, sənədə əsasən Moskva

Ermənistanın separatçıları dəstəkləməsinə qarşı çıxması üçün üzərinə öhdəlik qoyur. Bu baxımdan Moskva Bəyannaməsini Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin və təhlükəsizliyinin qarantı kimi xarakterizə etmək mümkündür [7; 14].

Burada bəzi məqamlara xüsusilə diqqət çəkmək lazım gəlir. Müharibə dövründə Ermənistan öz düşüncəsinə görə, guya ağıllı bir addım ataraq Rusiyadan və Qərbdən Azərbaycana qarşı təzyiq vasitəsi olaraq istifadə etməyə çalışdı. Lakin özü bu güclərin oyuncağına çevrildi və öz kritik dövründə bir çox dəstəkdən məhrum oldu. Ermənistan hər nə qədər Paşinyanın hakimiyyəti altında Qərbə meyil etməyə çalışsa da, Azərbaycan qarşısında aldığı ağır məğlubiyyətdən sonra yenidən Kremlin təsiri altına keçmiş oldu, eyni zamanda həm öz gücünün olduqca məhdud olduğunu, həm də Azərbaycanın qələbəsini qəbul etmək məcburiyyətində qaldı. Rusiya isə Qərbin verdiyi vəd və təminatların heç bir dəyəri olmadığını Ermənistana göstərərək, onsuz heç bir şey edə bilməyəcəyini açıq şəkildə sübut etmiş oldu. Ermənistan anlamalıdır ki, geosiyasi şahmat taxtasında yalnız və yalnız piyada statusuna malikdir. Bu dövlət dünyanın böyük oyunçuları ilə münasibətlərdə özünü ağır fiqur kimi təsəvvür edir. Lakin anlamaq istəmir ki, bu piyada sadəcə böyük güclər istədiyi üçün oyundadır, istənilən vaxt qurbana çevrilə bilər.

Ümumiyyətlə, Rusiyanın "böyük güc" siyasətinə rəğmən Azərbaycan son dərəcə düşünülmüş addımlar atdı. Rəsmi Bakı beləliklə, həm müəyyən mənada müharibədə Rusiyanın tərəfsizliyini təmin etmiş oldu, həm də ərazi bütövlüyünə qovuşdu. Düzdür, ortada bəzi problemlər olsa da, strateji məqam yetişdiyi zaman Azərbaycan yarım qalmış məsələləri də tamamlamağa çalışacaq.

Burada bəzi nüanslara xüsusilə aydınlıq gətirməyi vacib hesab edir, Ermənistan-Azərbaycan müharibəsi ilə Rusiya-Ukrayna müharibəsi arasında müqayisə və təhlillərin aparılmasını məqsədəuyğun sayırıq. Zaman göstərdi ki, bir çox dövlətlərdən fərqli olaraq, Azərbaycan böyük güclər arasında cərəyan edən geosiyasi mübarizənin obyektinə çevrilmədi və nəticədə dünyanın güc mərkəzləri arasındakı toqquşmanın qurbanı olmadı. MDB məkanında bəzi dövlətlərin müxtəlif liderlərinin rəngli inqilablardan sonra etdikləri bir çox səhvlər Azərbaycanda təkrarlanmadı [18]. Bu rəsmi Bakının xarici siyasətinin nə qədər uğurlu olmasının bariz sübutudur. Əks təqdirdə, türk-islam sivilizasiyasının daşıyıcısı olan Azərbaycan hərbi-siyasi poliqona çevrilər və regionda son dərəcə ciddi təhlükələr yarana bilərdi. Qarabağda və Ukraynada baş verən müharibələrin qarşılaşdırmalı müqayisəsi belə deməyə əsas verir ki, ölkəni və xalqı fəlakətlərdən, təlatümlərdən sığortalamaq üçün düşünülmüş, praqmatik, ağıllı siyasət, qlobal və geosiyasi reallıqları nəzərə almaq zəruridir. Qarabağ müharibəsinin gedişində yaranmış situasiyalarda Azərbaycanın doğru və düşünülmüş addımlar atdığı, döyüş və siyasət meydanında ortaya qoyduğu ağıllı gedişlər Ukraynada baş verənlərin fonunda bir daha təsdiqini tapmaqdadır. Soyuqqanlı davranmaq, doğru qərarlar vermək, vəziyyəti düzgün qiymətləndirmək, təxribatlara uymamaq və digər məqamlar Azərbaycanın həm cəbhədə, həm də siyasi arenada qalibiyyətini təmin etdi.

Rəsmi Bakı bütün qlobal və regional oyunçularla bərabərhüquqlu münasibətlər qurmaqla, qarşılıqlı öhdəlik və məsuliyyət sistemi formalaşdırmaqla həm Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi, həm də ölkəni mümkün geosiyasi kataklizmlərdən sığortaladı. Azərbaycan bu gün də beynəlxalq siyasi arenada baş verənlərə münasibətdə doğru davranış sərgiləyir. Azərbaycan Qoşulmama Hərəkatının fəaliyyətdə olan sədridir və dünyada gedən proseslərə həm də bu statusla üzərinə düşən öhdəliklər kontekstində yanaşır. Rəsmi Bakının verdiyi qərarlar dərin siyasi təhlilə əsaslanır, dövrün reallıqları nəzərə alınır, gələcək üçün real proqnozlar müəyyən edilir, istənilən qərarların qəbulunda milli maraqlar əsas götürülür. Bütün bunlar onu göstərir ki, Azərbaycan dövləti nəinki döyüş meydanında uğurlar qazanıb, siyasi və diplomatik müstəvidə də böyük bacarıq və ustalıq nümayiş etdirməkdədir. Bu gün Azərbaycan həm Türkiyə, həm də Rusiya ilə müttəfiqlik münasibətləri qurmaqla ən çətin dövrdə özünün təhlükəsizliyinə zəmanət alıb. Azərbaycan öz milli maraqları kontekstində düşünülmüş düzgün addımlar ataraq öz yardımsevər yanaşmasını da ortaya qoyur. Heç təsadüfi deyildir ki, Ukraynaya humanitar yardım və dərman ləvazimatları göndərilib, yanacaqla təmin edilib. Rusiya-Ukrayna müharibəsində Ukraynanın ərazi bütövlüyünü dəstəkləyən Azərbaycan bu qlobal məsələdə son dərəcə ölçülü və ehtiyatlı siyasət aparır. Bundan sonra da Azərbaycan gedişata

uyğun olaraq dünyanın Böyük Şahmat Taxtasında öz oyununu oynamalı, hər həmləyə qarşı yeni bir strategiya müəyyənləşdirməlidir. Bu bir geosiyasi reallıq və zamanın tələbidir.

"Böyük güc" siyasəti kontekstində Rusiyanın Ukraynaya hərbi müdaxiləsi

Rusiyanın Ukraynaya hərbi müdaxiləsi ilə bağlı çox sayda müxtəlif yanaşmalar ortaya qoyulur, Putinin rus imperializmini yenidən canlandırdığına dair fikirlər səsləndirilir, bununla yanaşı, Ukraynanın da öz ərazi bütövlüyü, ədalət və haqq yolunda mübarizə apardığına, ciddi itkilər verməsinə baxmayaraq, əsl qəhrəmanlıq nümayiş etdirdiyinə, hətta bütün Avropa üçün mücadilə apardığına, Rusiyanın boyunduruğundan xilas olmaq istəyən digər ölkələrə nümunə olduğuna dair bəyanlara da rast gəlinir. Bütün bunlarla bərabər, müharibənin pərdə arxasında ABŞ-ın olduğuna, Rusiyanın planlı şəkildə ssenariyə uyğun olaraq müharibəyə cəlb edildiyinə dair versiyalar də ortaya atılır. Bu sayı daha da artırmaq olar. Şübhəsiz ki, hər bir yanaşmada müəyyən mənada haqlı tərəflər olsa da, problemi ayrı-ayrılıqda hər bir dövlətin öz təhlükəsizlik məsələləri kontekstində dəyərləndirmək lazım gəlir.

Problemin Rusiyanın təhlükəsizlik məsələləri kontekstində dəyərləndirilməsi: Yuxarıda da qeyd olunduğu kimi, hər bir böyük gücün özü kimi "böyük siyasət" reallığı və "böyük güc" siyasəti var. Məqalənin əvvəlində Rusiyanın məşhur strateqlərindən Aleksandr Duqinin postsovet ölkələri ilə Rusiya arasındakı münasibətlərin perspektivləri, Rusiyaya qarşı çıxan dövlətlərin aqibəti və gələcəyi barəsində dəyərləndirmələrini qeyd etmişdik. Bu vəziyyət Rusiyanın "güclü dövlət" və onun təmsil etdiyi "böyük siyasət" reallığını bir daha əks etdirir. Lakin bir məsələni xüsusilə qeyd etmək lazım gəlir ki, Rusiyanın "böyük güc" siyasəti daha çox "sərt güc" *(hard power)* siyasətinə əsaslanır. Heç təsadüfi deyildir ki, Ukrayna məsələsində də Rusiyanın "sərt güc" siyasəti müşahidə olunur. Rəsmi Kreml məsələyə öz geosiyasi maraqları və təhlükəsizliyinin təminatı kontekstində yanaşır. Böyük dövlət olaraq əlbəttə ki, öz təhlükəsizlik məsələlərini, geosiyasi maraqlarını qorumalı və düşünməlidir. Lakin bu yanaşma bizim tərəfli olaraq Rusiyaya haqq qazandırmalı və onu haqlı hesab etməli olduğumuz mənasına gəlməz, sadəcə olaraq məsələni obyektiv şəkildə Rusiya prizmasından dəyərləndirməyə çalışırıq. Onun özünəməxsus "qırmızı cizgiləri" var və bu mənada Kreml Ukraynanı özünün "qırmızı cizgisi" olaraq görür. Rəsmi Moskva öz ətrafında NATO-nun genişlənməsinə qarşı çıxır və səbəbini vaxtilə NATO-nun SSRİ-yə qarşı yaradıldığı, hal-hazırda isə Rusiya Federasiyasının əleyhinə işləməsi ilə izah edir. Burada 1962-ci ildə Kuba və ya Karib böhranını xatırlatmaq yerinə düşər. Məlum olduğu kimi, bu böhran Soyuq müharibə dövründə dünyanın nüvə müharibəsinə daha çox yaxınlaşdığı an olaraq xarakterizə olunur. Böhranın başlanmasına səbəb SSRİ-nin ABŞ-ın Florida sahillərindən 90 mil uzaqda yerləşən Kubaya nüvə başlıqlı raketlərin yerləşdirilməsi idi. O dövrdə ABŞ son dərəcə sərt mövqe nümayiş etdirərək Sovet Rusiyasını geri addım atmağa məcbur etdi. Bu baxımdan Rusiyanın reaksiyası anlaşılandır. Kremlin izahına görə, Qərb dövlətləri Rusiyanı mühasirəyə almaq üçün alyansdan yararlanır və bu baxımdan Rusiya NATO-nun Şərqi Avropadakı hərbi fəaliyyətini dayandırmasını tələb edir. Müəyyən mənada Rusiyanın irəli sürdüyü fikirlər və yanaşma həqiqətə uyğun olsa da, məsələnin mahiyyətini bütünlüklə açmır. Burada diqqət çəkən əsas məqam Rusiyanın problemə özünün "böyük güc" siyasəti çərçivəsində baxmasıdır. Bu mənada qeyd etmək mümkündür ki, müharibə reallıqda sadəcə Rusiya-Ukrayna toqquşması deyil, eyni zamanda Rusiya-Qərb qarşıdurmasıdır.

ABŞ-ın məşhur strateqlərindən Zbiqnev Bjezinski "Böyük şahmat taxtası" adlı əsərində Ukraynanın Avrasiyanın şahmat taxtasında mühüm məkan və geosiyasi mehvər olduğunu göstərərək qeyd edir ki, onun müstəqil dövlət kimi varlığı Rusiyanı transformasiya etməyə kömək edir. Ukrayna olmadan Rusiya Avrasiya imperiyası olmur. Rusiya Ukrayna ilə birlikdə Avropa dövləti və dünya səviyyəli bir dövlət, Ukraynasız isə sıradan bir Asiya dövlətidir [3, s.45]. Ümumiyyətlə, Rusiyanın varlığı Avrasiyanın geniş ərazilərini əhatə edən keçmiş SSRİ məkanında müstəqillik əldə etmiş dövlətlərə hissolunacaq təsir göstərir. O, ambisioz geosiyasi məqsədlər bəsləyir və onları get-gedə daha açıq bildirir. Brzezinski onu da qeyd edir ki, istənilən halda Rusiya, hətta özünün bəzi "parçaları"nı və Avrasiya şahmat taxtasında həlledici mövqelərindən bəzilərini itirməsinə baxmayaraq, açıq şəkildə geostrateji aktor olmağa davam edir (3, s. 43).

Bu baxımdan Avrasiya miqyasında lider və beynəlxalq siyasətdə söz sahibi olmaq arzusundan əl çəkməyən və onu reallaşdırmaq istəyən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin əsl niyyətini ortaya qoyaraq verdiyi açıqlamalarında SSRİ-nin süqutuna daim mənfi münasibət bəslədiyini bildimiş və bu imperiyanın dağılmasını XX əsrin ən böyük geosiyasi fəlakəti kimi xarakterizə edərək, milyonlarla həmvətəninin ölkədən kənarda qalmasını rus xalqı üçün dram adlandırmışdır (22; 26; 28).

Putin bunu hələ 2005-ci ildə Rusiyanın Federal Məclisində gündəmə gətirsə də, günümüzdə də həmin fikrindən dönmədiyi onun yeritdiyi siyasətdə özünü bariz şəkildə göstərir. Heç təsadüfi deyildir ki, Putin 2014-cü ildə Krımın işğalını *"tarixi ədalətin bərqərar olunması"* kimi dəyərləndirib (27).

2008-ci ildə Gürcüstana edilən hücum, 2014-cü ildə Krımın anneksiyası, Donbasa müdaxilə Rusiyanın imperiya ambisiyasının bir parçası olaraq dəyərləndirilməlidir. Ümumiyyətlə, Vladimir Putinin rəngli inqilablarla bağlı təlaş içində olduğu aydın sezilir və bu təlaşın da ciddi əsasları var. Məsələnin pərdə arxasında əlbəttə ki, Qərb dayanır. Bu mənada 24 fevral 2022-ci il tarixdə baş verən Rusiya-Ukrayna müharibəsi də məhz geosiyasi toqquşmaların bir parçası kimi önə çıxır.

Problemə dair münasibət bildirən məşhur strateq və dövlət xadimləri, araşdırma aparan çox sayda tədqiqatçı, analitik və politoloqların bir qismi öz məqalə və təhlillərində Rusiyanın işğal siyasəti yeritdiyini bildirir, Putinin imperiya ambisiyalarının bərpası istiqamətində ciddi addımlar atdığına diqqət çəkirlər. Hətta Putinin düşüncəsi, niyyəti, planları və atdığı addımlarla Hitlerin xarici siyasət doktrinası arasında paralellik aparır və bənzətmə qururlar [11; 31]. Bu da təsadüfi olmayıb müəyyən haqlı nüansları özündə əks etdirir.

Məlum olduğu kimi, Birinci Dünya müharibəsində məğlub olmasından heç 10 il keçməmiş Avropada güclənməyə və Versal-Vaşinqton sisteminin yaratdığı kollektiv təhlükəsizlik sisteminə meydan oxumağa başlayan Almaniyanın hegemonluq iddiası ilə Avropada təhlükəsizlik cəhdləri arasında getdikcə güclənən qarşıdurma o dövrün beynəlxalq münasibətlərinin bütün sahələrinə öz təsirini göstərmişdi. Almaniyanın xarici siyasət doktrinasına uyğun olaraq, dünyanı yenidən bölüşdürmək uğrunda başladığı mübarizə Avropa sərhədlərini aşaraq başqa qitələrə də keçmişdi. Hitler öz xarici siyasət fəaliyyətini 3 mərhələ üzərində qurmuşdu:

1) *Versal zəncirlərinin qırılması,* yəni Almaniyanın Versal müqaviləsinin şərtlərindən qurtulması;

2) *"Ein Volk, Ein Reich: bir millət, bir dövlət prinsipi"*nin reallaşdırılması. Yəni Almaniyanın sərhədləri xaricində yaşayan bütün almanların bir dövlət çətiri altında birləşdirilməsi;

3) *Lebensraum: Həyat sahəsi.* Bu nasist imperializminin adı idi. Hitler almanların yaşamadığı digər ölkələri də öz sərhədləri içərisinə almağı planlaşdırırdı (2, s. 241).

Hitlerin məqsədi Almaniyanı sadəcə Birinci Dünya müharibəsindən əvvəlki vəziyyətə gətirmək deyil, daha da üstün gücə çevirmək idi (6, s.294). Bu baxımdan Hitler özünün xarici siyasət doktrinasına uyğun olaraq *"vahid xalq, vahid dövlət, vahid fürer"* şüarı altında almanlar yaşayan bütün torpaqları birləşdirmək uğrunda mübarizəyə başladı. İlk hədəf Hitlerin vətəni olan Avstriya oldu və anşlüs gerçəkləşdirildi (2, s.280). Avstriyanın ardınca Çexoslovakiya gəlirdi. Hitler Çexoslovakiyanın almanlar yaşayan Sudet vilayətini Almaniyaya birləşdirməyə çalışırdı. Bu baxımdan 1938-ci ilin sentybar ayının 30-da Münhendə Almaniya, Böyük Britaniya və Fransa arasında imzalanan, dünya tarixinə "Münhen sövdələşməsi" adı ilə düşən biabırçı anlaşma ilə Çexoslovakiya nasist Almaniyasına qurban verildi. Sentyabr ayında almanların yaşadığı Sudetlər bölgəsi Çexoslovakiyadan qoparılaraq Almaniyaya peşkəş çəkildi. 15 mart 1939-cu ildə Praqa işğal edildi və bununla Çexoslovakiyanın işğalı tamamlandı. Beləliklə, İkinci Dünya müharibəsinə aparan yolun əsası qoyuldu. Çexoslovakiyanın alman hakimiyəti altına girməsi Hitlerin xarici siyasət doktrinasının 3-cü mərhələsini təşkil edirdi. Südetlərin alınması ilə *"Ein Volk, Ein Reich: Bir Millət, Bir Dövlət"* siyasətinin son addımlarından biri atıldı. Halbuki Çexoslovakiyanın alman işğalı altına girməsiylə alman olmayan bölgələr də Almaniyanın sərhədləri içərisində qatılmışdı. Bu isə Hitler siyasətinin "Lebensraum", yəni *"Həyat Sahəsi"* mərhələsini açırdı [2, s.287-289]. Beləliklə, Birinci

Dünya müharibəsinin başa çatmasından 20 il sonra bəşəriyyət öz tarixinin ən qanlı və fəlakətli müharibəsinə cəlb olundu.

Eyni şəkildə Putin də rus imperializminin reallaşdırılması ilə bağlı niyyət və məramını fərqli adlar altında gündəmə gətirmişdir və hal-hazırda da bunu təkrarlamaqdan çəkinmir. Hətta birqütblü dünyanın, ümumiyyətlə, qəbuledilməz olduğunu hər fürsətdə bəyan etmişdir (23). Bu, bir növ Putinin Rusiyanın da dünyanın bölüşdürülməsində xüsusi rola sahib olması ilə bağlı mesaj xarakteri daşıyır. O da eyni Hitler kimi özünün xarici siyasət doktrinasında SSRİ-nin süqutu ilə barışmaq istəmədiyini bildirməkdədir. Kreml rəhbərinin məntiqinə əsasən, postsovet ölkələri ümumilikdə çar imperiyasının tərkib hissəsi olublar və bu ölkələr yenə də Rusiyanın tərkibində olmalıdırlar (11).

Putin həmin doktrinadan çıxış edərək Ukraynanı Rusiyanın bir parçası olaraq görür və Avrasiya imperiyası ola bilmək üçün bu dövləti özünə birləşdirmək istəyir. Heç təsadüfi deyildir ki, Kreml rəhbəri ortaq tarixi və mənəvi məkan hesab etdiyi Rusiya ilə Ukrayna arasında divar yaranmasını faciə kimi qəbul edir. Hətta bu barədə məqalə də yazıb. Ukraynanı "Sovet dövrünün məhsulu" adlandıran V.Putin qeyd edir ki, hazırda Ukraynada keçmişin təhrif olunmasına cəhd göstərilir. Halbuki tarixi yenidən yazmaq mümkün deyil və Rusiya ilə Ukraynanın ortaq mədəni irsi bölünməzdir. O, xalqa müraciətində bəyan edir ki, Lenin və onun tərəfdaşları əraziləri Rusiyadan qopararaq Ukraynanı yaratdılar. Kreml rəhbəri müasir Ukraynanın bütövlükdə kommunist Rusiyası tərəfindən yaradıldığını vurğulayaraq bildirir ki, Ukraynanı Vladimir İliç Lenin adına Ukrayna adlandırmaq olar, çünki Ukraynanın memarı Lenindir. Ukrayna Rusiya üçün təkcə qonşu deyil, həm də tarixin bir parçasıdır. Putin məqaləsində göstərir ki, *"bolşeviklər sözün əsl mənasında Donbası Ukraynaya birləşdiriblər. Müasir Ukraynanı tamamilə Rusiya, daha doğrusu, bolşevik kommunist Rusiyası yaradıb. Bu proses demək olar ki, 1917-ci il inqilabından dərhal sonra başladı, Lenin və onun tərəfdaşları bunu Rusiyanın özünə qarşı çox kobud şəkildə, öz tarixi ərazilərinin bir hisəsini ondan ayıraraq, qoparmaqla etdilər"* (29).

Rusiya Prezidenti V.Putinin məqaləsi heç də Ukraynaya qardaşlığı andıracaq səmimi tərzdə yazılmayıb. Bu, Kremlin Ukraynaya münasibətini dəyişmir. Çünki ortada işğal faktı var. Bildiyimiz kimi, Ukraynanın ən strateji ərazisi olan Krım və Sevastopolu Rusiya ilhaq edib, bununla da kifayətlənməyərək Donbası da de-fakto öz nəzarətinə götürüb. Amma dünya birliyi bu əraziləri Ukraynanın ərazisi kimi qəbul edir. Üstəlik, 2022-ci ilin fevral ayında baş verən işğal nəticəsində minlərlə dinc ukraynalı həlak olub, minlərlə insan yaralanıb, insanlar didərgin düşüb, ailələr başsız qalıb. Bu qədər qanlı faciələr və zülmlərdən sonra Rusiya ilə Ukrayna xalqlarının qardaşlığından bəhs edən məqalə yazmaq heç bir şəkildə səmimiyyəti və həqiqəti əks etdirmir. Çünki reallıqda hərbi əməliyyatların sayını artıran Rusiya mülki əhali arasında itkilərin çoxalmasına əhəmiyyət vermədən Ukraynanın hər yerində artilleriya və raket hücumlarını sürətləndirir, Rusiya Hərbi Hava Qüvvələri dağıdıcı hava zərbələri endirir, kritik infrastruktur obyektləri hədəf alır, elektrik və kommunikasiya xətlərini kəsir. Əsas məqsəd hökuməti devirmək və Moskvanın nəzarətində olan marionet qüvvələri hakimiyyətə gətirməkdir.

Bununla yanaşı, Putin öz xarici siyasət doktrinasını reallaşdırmaq istəyərkən Rusiyanın təhlükəsizlik məsələlərində müəyyən təhdidlərlə üzləşdiyini irəli sürərək müxtəlif yanaşmalar ortaya qoyur. Lakin Rusiyanın özünü sorğulaması lazım gələn müəyyən suallar yaranır: Rusiyaya qonşu olan dövlətlər niyə təhlükəsizlik zəmanəti üçün başqa hərbi ittifaqlara can atırlar? Cavab aydındır: Uzun illərdir, rəsmi Moskvanın baxış bucağı, hərəkət tərzi, diplomatik cavabları qonşu dövlətlərin ərazi bütövlüyünü pozmaq və separatçılığı dəstəkləməkdən kənara çıxa bilmir. Yumşaq güclə itirdiyini sərt güclə geri qaytarmağa çalışmaq strategiyası Rusiya siyasətinin əsasını təşkil edir.

Problemin Ukraynanın təhlükəsizlik məsələləri kontekstində dəyərləndirilməsi: Hər bir halda Ukrayna müstəqil dövlət olaraq özünə görə haqlıdır, eyni zamanda istədiyi quruma daxil olmaqda sərbəstdir. Lakin geosiyasi reallıq tamamilə başqadır. Bu vəziyyətdə belə bir sual yaranır: Ukrayna Rusiyaya meydan oxumaqla nə qazandı və nə itirdi? Bəri başdan qeyd etməyi vacib hesab edirik ki, belə bir təhlükəli vəziyyətdə Ukraynanı nə Avropa İttifaqına, nə də NATO-ya daxil etməzlər və etməyəcəklər. Çünki münaqişə vəziyyətində və sərhəd problemləri olan dövlətlərin təşkilata tam

hüquqlu üzv qəbul edilməsi NATO-nun planları daxilində deyil. Rusiya məhz bunu hesaba qataraq 2008 və 2014-cü illərdə həm Gürcüstanın, həm də Ukraynanın ərazi bütövlüyünü pozdu. Digər tərəfdən, Rusiya öz ordusunun artıq əvvəlki gücündə olmadığı fikrini bütün hafizələrdən silmək üçün bu addımı atmışdı. Eyni zamanda bütün postsovet ölkələrinə ABŞ-ın "dostluğu"nun, təminatlarının və vədlərinin heç bir dəyəri olmadığını da sübut etmək istəyirdi (4, s. 169-170). Rusiyanın Gürcüstana və Ukraynaya hərbi müdaxiləsi böyük bir dövlətin kiçik və orta səviyyəli dövlətlərə qarşı kiçik hücumu olaraq xarakterizə oluna bilər, ancaq bu müdaxilələr ABŞ-a daha çox meyil edən dövlətlərə qarşı hücum və eyni zamanda regionun digər dövlətlərinə qarşı açıq xəbərdarlıq idi. Gürcüstan məsələsi fərqli bir mövzu olduğuna görə, bu məqalədə toxunulmayacaq. Rusiyanın xəbərdarlığına baxmayaraq, Ukrayna Qərbə meyil etməkdə israrlı davrandı və nəticədə Rusiyanın hərbi müdaxiləsi ilə üzləşmək məcburiyyətində qaldı. Halbuki 5 dekabr 1994-cü ildə ABŞ, Böyük Britaniya, Rusiya və Ukrayna arasında imzalanan Budapeşt memorandumuna əsasən, Ukraynadakı 50 milyard dollar dəyərindən çox olan nüvə silahlarının Rusiyaya verilməsi əvəzində onun ərazi bütövlüyünə zəmanət verilmişdi (34). Hadisələrin gedişatı göstərdi ki, Ukraynanın ərazi bütövlüyünə zəmanət verən Rusiya artıq onun ərazi bütövlüyünü pozmuş, digər zəmanətçilər isə sadəcə sözdə dəstəkləməklə kifayətlənmişlər.

Bu müharibə, yuxarıda da qeyd olunduğu kimi, Rusiya-Ukrayna toqquşması olaraq görünsə də, əslində Rusiya-ABŞ qarşıdurmasıdır. Daha doğrusu, Rusiya ilə ABŞ-ın rəhbərlik etdiyi Qərb arasında Yeni Dünya Nizamının yenidən müəyyənləşdirilməsi məqsədilə aparılan müharibədir. Ukrayna sadəcə olaraq yem və bəhanə olaraq seçilib. Görünən odur ki, Qərb bu savaşda tərəf olmadan müharibəni bəhanə edərək iqtisadi sanksiyalarla Rusiyanın supergüc olma imkanlarına əngəl yaratmaq istəyir. Tarixən olduğu kimi, geosiyasi toqquşmaların ortaya çıxmasına zəmin hazırlayan bəhanələr kimi bu da səhnəyə çıxarılıb. Birinci Dünya müharibəsində necə ki, bəhanə olaraq Avstriya-Macarıstan vəliəhdi Frans Ferdinandın qətli planlaşdırılmışdısa, bu məsələdə də Ukrayna yem olaraq seçilib və Rusiya təhrik olunub. Bu vəziyyətdə yeni bir sual ortaya çıxır: Rusiya kimi böyük bir dövlətin və Putin kimi ağıllı dövlət başçısının belə bir təhrikə uyması və özünü müharibəyə cəlb etdirməklə Qərbin oyununa gəlməsi nə dərəcədə məntiqlidir? Qənaətimizcə, Putinin imperiya ambisiyası ilə Qərbin planları zaman və məkan baxımından üst-üstə düşdü. Daha doğrusu, ABŞ Rusiyanın imperiya ambisiyasını fürsətə çevirdi. Eyni Napoleon Bonapart və Adolf Hitlerin strateji hesablamalarında olduğu kimi, Putinin də strateji plan və hesablamalarında xəta ehtimal oluna bilər. Putin Rusiyanın 2008-ci ildə Gürcüstana və 2014-cü ildə Ukraynaya hərbi təcavüzü zamanı Qərb dövlətlərinin güclü müqaviməti ilə rastlaşmamasından ilham və cəsarət alaraq, daha doğrusu, şirniklənərək, ölkəsini dünyanın supergüclərindən biri olaraq deyil, məhz supergücü hesab etdiyindən 2022-ci ilin fevral ayında Ukraynaya yenidən hücum əmrini verdi. Lakin hesablamalarında bu dəfə yanıldı. ABŞ Rusiyanın imperiya ambisiyasını mərhələ-mərhələ, tədricən fürsətə çevirdi ki, gəlinən nəticə artıq ortadadır.

Burada ABŞ-ın keçmiş prezidentlərindən olan Franklin Delano Ruzveltin söyləmiş olduğu məşhur sözü xatırlatmaq yerinə düşərdi: *"...Siyasətdə heç bir şey təsadüfi deyil. Hər hansı bir hadisə vaqe olarsa, o hadisənin müəyyən formada zühur edəcəyinin əvvəlcədən planlanmış olduğuna əmin ola bilərsiniz..."* [1, s.13].

Məhz həmin bəhanədən istifadə edilərək Rusiyaya qarşı sanksiyaların tətbiq edilməsinə başlanıldı. Rusiya bankları SWIFT-dən çıxarıldı. Çünki Rusiya neft və qaz ixracında SWIFT sistemindən çox asılıdır. Nədir SWIFT? SWIFT *(Society for Worldwide Interbank Financial Telecommunication – Qlobal Banklararası Maliyyə Rabitəsi Assosiasiyası)* pulun bir hesabdan digərinə köçürülməsinə imkan verən beynəlxalq maliyyə strukturudur. 1973-cü ildə yaradılmış, baş ofisi Brüsseldə yerləşən bu sistemin 200 ölkədən toplam 11 min üzvü (maliyyə institutu və banklar) var. SWIFT heç bir qurumun beynəlxalq ödəniş sistemi yaratmasını və bu sahədə monopolist olmasını istəməyən Amerika və Avropa banklarının birgə qurduğu sistemdir. 2 mindən çox bank və maliyyə institutu SWIFT şəbəkəsinin ortaq sahibidir. Amma SWIFT klassik bank deyil. Bu, istifadəçilərə köçürülən pulun bir hesabdan çıxıb digərinə daxil olduğunu xəbər verən onlayn rejimli

mesajlaşma sistemidir. Bu sistem vasitəsilə hər gün 40 milyondan çox mesaj göndərilir və trilyonlarla dollarlıq maliyyə vəsaiti şirkətlər və ya hökumətlər arasında əl dəyişir [35].

Şübhəsiz ki, SWIFT-dən kənarlaşdırma sanksiyaları, eyni zamanda valyuta konvertasiyasının məhdudlaşdırılması, ixrac nəzarətinin gücləndirilməsi, ixrac və idxalın məhdudlaşdırılması və qadağan olunması, mühüm texnologiyaların əldə edilməsi ilə bağlı məhdudiyyətlərə dair tətbiq edilən bu və ya digər çox sayda sanksiyalar Rusiyanın iqtisadiyyatına ağır şəkildə təsir edəcək. Lakin buna baxmayaraq, Rusiya geri addım atmamaqda təkid edir. Əslində Kreml özü "qırmızı cizgiləri" aşaraq Ukraynaya hərbi müdaxilə planı həyata keçirdi. Bu addım müstəqil bir dövlətin hüquqlarının pozulması deməkdir. Moskva danışıqlar tələb edir, amma özünün diktəsi ilə masaya əyləşmək istəyir. Ukraynadakı vəziyyətin stabilləşməsi üçün Rusiyanın tələbləri aşağıdakılardan ibarətdir:

*Krım üzərində Rusiyanın suverenliyinin tam şəkildə tanınması;*

*Donbas "respublikaları"nın tanınması;*

*Ukrayna dövlətinin demilitarizasiyası və denazifikasiyası;*

*Ukraynanın neytral statusunun təmin edilməsi.*

Əlbəttə ki, bu cür tələblər Ukrayna baxımından qəbuledilməzdir. Qərbin və NATO-nun ümumi mövqeyi belədir ki, hər bir ölkə xarici və təhlükəsizlik siyasətini seçməkdə sərbəstdir. Ukrayna, Gürcüstan və ya digər dövlətlər Qərbin iqtisadi və hərbi blokuna qəbul olmaq istəyirsə, bu seçimə hörmət etmək lazımdır. Amma Rusiya bu seçimi heçə sayaraq, Ukraynanı istila etdi. Ukraynanın nə qədər müqavimət göstərəcəyini zaman göstərəcək. Lakin Putin bu addımı ilə elə bir vəziyyət yaratdı ki, özünün timsalında Ukrayna və digər slavyan xalqlarının, hətta bütün dünyanın gözündə "qatil" obrazı formalaşdırdı, qardaş qırğınına səbəb oldu və tarixə qara ləkə kimi düşdü.

Belə bir vəziyyətdə müharibənin nəticələri ilə bağlı hamını dərindən düşündürən ssenarilər yaranır. BBC-nin diplomatiya üzrə müxbiri Ceyms Landale belə bir ssenari ortaya qoyur: *"Prezident Zelenski öldürülür və ya qaçmağa məcbur edilir, Putin öz qələbəsini elan edib Rusiya hərbi qüvvələrinin bir hissəsini geri çəkir, bu ölkədə Ukraynanı nəzarətdə saxlamağa yetəcək qədər qoşun saxlayır, minlərlə insan Qərbə qaçır, Belarus kimi Ukrayna da Rusiyanın peyk dövlətinə çevrilir".* C.Landale bu ssenarini tam da mümkünsüz hesab etmir, amma bunun bir neçə faktorun dəyişməsindən, məsələn, Rusiya ordusunun üstünlüyü ələ keçirməsindən və Ukrayna ordusunun müqavimətinin qırılmasından asılı olduğunu bildirir, eyni zamanda göstərir ki, *"bu variantda Putin Kiyevdə rejim dəyişikliyinə nail olmaq və Ukraynanın Qərblə inteqrasiyasına son qoymaq kimi hədəflərinə çata bilər. Amma Rusiya yönümlü hökumət qeyri-legitim hesab oluna və üsyanlarla qarşılaşa bilər. Ona görə də bu, qeyri-sabitlik və iğtişaşlarla nəticələnmə ehtimalı yüksək olan ssenaridir"* [32].

Bundan başqa, Landale digər bir ssenarini də önə sürür: *"Münaqişələrin uzunmüddətli müharibəyə çevrilməsi ehtimalı daha çoxdur. Döyüş ruhunun aşağı, maddi-texniki təminatın və rəhbərliyin zəif olması səbəbindən Rusiya hərbi qüvvələri irəliləməkdə çətinlik çəkə bilər. Rusiyanın Kiyev kimi şəhərləri küçə-küçə döyüşərək ələ keçirməsi daha çox vaxt ala bilər, uzun sürən mühasirələr yaranar. Rusiya qoşunları Ukraynanın şəhərlərinə daxil olsalar belə, total nəzarət mühiti yaratmaqda çətinlik çəkə bilərlər. Bəlkə də orda Rusiya bu qədər böyük bir ölkəni nəzarət altında saxlamağa yetəcək sayda hərbi qüvvənin olmasını təmin edə bilməz. ...Müharibədə Rusiyanın mövqeyi zəifləyə bilər, sanksiyalar Rusiyanın iqtisadiyyatına ağır təsir edər. Əsgər cənazələrinin sayı artdıqca, ölkədə müxalifətçilərin də sayı artar"* [32].

"Kings College"nin müharibə tədqiqatları üzrə professoru Lavrens Fridman isə olduqca kəskin bir fikir ortaya qoyur: *"Artıq Moskvada hakimiyyət dəyişikliyi Kiyevdəki hakimiyyət dəyişikliyi qədər realdır"* (33). Şübhəsiz ki, L.Fridmanı belə bir ssenari üzərində durmağa vadar edən səbəblər vardır. Müharibə uzandıqca bu, Rusiyada fəlakətə səbəb ola bilər, ölkənin minlərlə əsgəri ölər, iqtisadi sanksiyalar ciddi problemlərə gətirib çıxarar, Putin xalqın dəstəyindən məhrum olar, böyük ehtimalla xalq üsyanı təhlükəsi yaranar, Kreml rəhbəri zor tətbiq edərək müxalifəti məğlub etməyə çalışar, işlər yolunda getməzsə ordunun, iqtisadi və siyasi elitanın önəmli bir hissəsi ona qarşı çıxmağa başlayar, çevriliş nəticəsində Putin hakimiyyətdən uzaqlaşdırıla bilər, gələcəkdə beynəlxalq cinayət tribunalına

çıxarıla bilər.

*"Tarixin sonu və sonuncu insan"* əsəri ilə bütün dünyaya səs salan tanınmış amerikan filosofu, politoloq, siyasi iqtisadçı və yazıçı Frensis Fukuyama "American Purpose" jurnalında Rusiya-Ukrayna müharibəsi və onun nəticələrinə dair *"Məğlubiyyətə hazırlıq" (Preparing for defeat)* adlı məqaləsində Rusiyanın Ukraynada hərbi məğlubiyyətinin ani və faciəvi olacağı, müharibənin diplomatik şəraitdə başa çatmasının mümkün olmadığı, həm Rusiyanın, həm də Ukraynanın verdikləri böyük itkilərin indiki məqamda kompromis şəraitini qeyri-mümkün etməsi, Rusiyanın məğlubiyyətinin "yeni azadlığın doğulması"nı mümkün edəcəyi, "qlobal demokratiyanın enişi" ilə bağlı narahatlıqlara son qoyacağı və s. kimi 12 bənddən ibarət proqnozlar vermişdir [30].

Əlbəttə ki, bunlar sadəcə olaraq ssenari, proqnoz və yanaşmalardır. Ola bilsin ki, müharibə uzunmüddətli də ola bilər. Lakin belə bir sual da ortaya çıxır: Bəs, Rusiya tam olaraq qalibiyyət əldə etdiyi təqdirdə dünyanın və regionun geosiyasi mənzərəsi necə olacaq? Heç şübhəsiz, belə bir vəziyyətdə Rusiya dünyanın birqütblü olmadığını nümayiş etdirəcək, hədəflədiyi imperiya ambisiyalarını reallaşdıracaq, çox sayda dövlətlər yenidən Rusiyanın ya təsiri altına keçəcək ya da müstəmləkəsinə çevriləcəklər.

Rusiya ilə Qərb arasında cərəyan edən bu müharibəni "qol gürəşi" kimi xarakterizə etmək olar. Geosiyasi mənzərənin dəyişməsi tərəflərdən birinin zəfərindən və ya məğlubiyətindən asılı olacaq. Lakin hər iki halda da əvvəlki dünya olmayacaq.

Problemin ABŞ-ın qlobal maraqları kontekstində dəyərləndirilməsi: Son dövrlərdə Qərb geosiyasi məkanında fikir ayrılıqlarının dərinləşdiyi, əsas olaraq ABŞ ilə Avropa İttifaqı arasında müxtəlif sahələrə aid ixtilafların yarandığı müşahidə olunurdu. Ənənəvi olaraq onlar təbii və tarixi müttəfiq hesab olunsalar da, ABŞ-ın dünya ağalığını davam etdirmək üçün daha çox öz maraqlarına üstünlük verməsi səbəbindən onun Avropa İttifaqı ilə münasibətlərində əvvəllər müşahidə edilməyən mənfi əlamətlər özünü göstərməkdəydi. Hətta əksər Avropa dövlətləri tərəfindən *"Vaşinqton xarici siyasətini G7-də olan tərəfdaşları ilə koordinasiya etməlidir"* və yaxud *"NATO-nun beyin ölümü gerçəkləşdi"* şəklində ABŞ-ın iradəsinin əleyhinə fikirlər səsləndirildi. Bu isə rəsmi Vaşinqtonun qlobal geosiyasi maraqlarına uyğun deyil. Qlobal miqyasda siyasi, sosial-iqtisadi, ticari və energetik sferaları əhatə edən proseslər mövcuddur. Son dövrlərə qədər Avropa dövlətləri ABŞ-ın patronajlığı ilə öz təhlükəsizliklərini təmin etmək istəmirdilər. ABŞ isə daha ciddi inadla öz xəttini reallaşdırmağa davam etdi. Bu mənada Rusiya-Ukrayna qarşıdurmasından istifadə edən ABŞ hər bir halda qazanmağa davam edir. O, bir tərəfdən, Putinin imperiya ambisiyalarını fürsətə çevirərək, hərəkət və açıqlamaları ilə müharibəni alovlandırdı, digər tərəfdən də rus təhlükəsi ilə Avropaya mesaj verdi, ABŞ olmadan Avropanın çıxılmaz vəziyyətdə olduğunu məhz onların özlərinə bir növ sübut etmiş oldu. Avropanın necə bir təlaş içərisində olduğu açıqdır və artıq ABŞ-a ehtiyacı var. Nəticə etibarilə, ABŞ öz patronajlığını Avropa dövlətlərinə qəbul etdirdi, ondan uzaqlaşmaq istəyən Avropanı yenidən qanadları altına aldı. Ukraynanın "taleyi" Qərbi qətiyyən maraqlandırmır və əsas məqsəd Rusiyanın geosiyasi hədəflərinin qarşısını almaq, iqtisadi sanksiyalarla onu zəiflətməkdir. Əlbəttə ki, proseslər çox dinamik olduğu üçün birmənalı proqnozlar vermək mümkün deyil. Ancaq hər halda bu müharibə ilə Rusiyanın hərbi, iqtisadi və psixoloji baxımdan test edildiyi inkaredilməzdir, onun nəyə qadir olduğu (zəif və ya güclü) bütün dünyaya nümayiş etdirildi. ABŞ *"Ukraynaya girə bilməzsən, yoxsa başqa cür olar",* – deyərək Rusiya ilə söz duellosuna çıxdı, Kreml də əsəbiləşərək *"girdim, neyləyəcəksən?"* məntiqi ilə qardaş qırğını törətdi.

Bəzi yazılarda və paylaşımlarda, efirlərdə, siyasi xarakterli proqramlarda, eyni zamanda rəsmi və ya qeyri-rəsmi bəyanlarda Rusiyanın ABŞ və İngiltərə tərəfindən tələyə düşürüldüyü və təhrik edildiyinə dair ifadə və fikirlərə rast gəlinir. Müəyyən mənada bu kimi yanaşmalar ağırlıqda olsa da, həqiqəti tam şəkildə əks etdirmir. Dünyanın super güclərindən biri olaraq Rusiya və onun peşəkar rəhbəri tələyə düşəcəyini hesablaya bilmirdimi? Belə çıxır ki, sanki Rusiyanın heç bir günahı yoxdur, digər böyük güclər və rəqiblər tərəfindən təhrik olunub, əsas günahkarlar məhz ABŞ və İngiltərədir. Söz yox ki, bu dövlətlərin mütləq şəkildə plan və maraqları vardır, lakin Rusiyanın və onun dövlət

rəhbərinin imperiya ambisiyalarını da görməzdən gəlmək olmaz. Daha əvvəl də qeyd olunduğu kimi, rəsmi Moskva öz ətrafında NATO-nun genişlənməsinə qarşı çıxır və bunu hər fürsətdə bəyan edir. Lakin reallıq bundan ibarətdir ki, Rusiya NATO Şərqə doğru, daha dəqiq bir ifadəylə, onun sərhədlərinə qədər genişləndiyi üçün, eyni zamanda Ukraynanı gələcəkdə nüvə təhdidi olaraq gördüyü üçün bu ölkədə hərbi əməliyyatlar aparmır. Rusiya Zbiqnev Bjezinskinin də təbirincə desək, Ukraynasız imperiya ola bilməyəcəyini, Avrasiya imperiyası ola bilməsi üçün məhz Ukraynanın ilhaq edilməsinin vacibliyini hesablayaraq bu dövlətə qarşı hərbi əməliyyat təşkil etdi. Digər bir ifadə ilə, Rusiya Ukraynanı işğal etmək istədiyi üçün onun NATO-ya girməsinin əleyhinədir. Yoxsa ki, NATO onsuz da bu quruma üzv olan digər ölkələr sayəsində Rusiyanın sərhədindədir. Müqayisə üçün belə bir təhlil aparaq: Rusiya digər sərhəd qonşusu olan Finlandiya və Skandinav ölkələrindən İsveçin NATO-ya daxil olmaq istəkləri qarşısında bu iki ölkəyə hərbi müdaxiləyə təşəbbüs edərmi? Fərqli yanaşmalar olsa da, biz etməyəcəyi qənaətindəyik. Sadəcə olaraq təhdidlərlə kifayətlənər. Əslində Finlandiya ilə İsveçin NATO-ya üzv qəbul edilməsi Rusiya üçün Ukraynadan daha böyük təhdid hesab oluna bilər. Çünki belə bir vəziyyətdə NATO Baltik dənizində və Arktikada Rusiyanı sıxışdıracaq. Əgər əsas problem Rusiyanın Qərb cəbhəsi qarşısında dövlət təhlükəsizliyinin qorunmasıdırsa, rəsmi Kremlin mövqeyi daha sərt olmalıdır. Belə çıxır ki, ortada geosiyasi bir müəmma var. Həmin dövlətlərdən fərqli olaraq, Rusiya Ukraynanı özünün “qırmızı cizgisi” olaraq görür. Ukrayna NATO-ya daxil olduğu təqdirdə, Rusiya qətiyyən bu ölkəni işğal edə bilməzdi. İşğal etmək istədiyi üçün də rəsmi Kiyevin NATO-ya üzvlyünə qarşı çıxdı, sonra onun ərazi bütövlüyünü pozdu, daha sonra isə Ukraynaya hərbi müdaxilə gerçəkləşdirdi. ABŞ və İngiltərə də öz növbəsində Rusiyanın bu müdaxiləsini və imperiya ambisiyalarını fürsətə çevirdi.

Ermənistan-Azərbaycan və Rusiya-Ukrayna müharibələri fonunda Qərbin ikili standartlar siyasəti: Qərbin Şərqə baxışı

Ermənistan-Azərbaycan və Rusiya-Ukrayna müharibələri fonunda Qərbin yanaşma tərzi olduqca diqqət çəkir. Təxminən 30 ilə yaxın idi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq maneələr özünü göstərirdi. Həm beynəlxalq təşkilatların, həm ATƏT-in Minsk Qrupu həmsədrlərinin, həm də digər dövlətlərin yeritdikləri ikili standartlar siyasətinin nəticəsi idi ki, Ermənistan tərəfi problemin öz real həllinə yanaşmaq istəmir, üstəlik, atəşkəs rejimini sıx-sıx pozurdu. Bundan başqa, BMT Təhlükəsizlik Şurasının Ermənistanın işğal etdiyi torpaqlardan qeyd-şərtsiz çıxarılması ilə bağlı 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrə də məhəl qoyulmurdu. Bu, BMT-nin nüfuzuna xələl gətirən ən böyük amillərdən biri kimi xarakterizə olunsa da, ikili standartların bariz təcəssümü idi.

Digər bir fraqment: Məlum olduğu kimi, 10 mart 2022-ci il tarixdə Avropa Parlamenti tərəfindən Qarabağda erməni mədəni irsinin məhv edilməsi ilə bağlı qətnamə qəbul olundu (10; 17). Bu qətnamə Avropa dövlətlərinin keçmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində davam etmiş uzun illik diplomatik prosesdə ölkəmizə qarşı həyata keçirdiyi ikili standartların və riyakar siyasətin, həm 44 günlük Vətən müharibəsində, həm də Azərbaycanın zəfərindən sonra dövlətimizə qarşı nümayiş etdirdiyi ayrıseçkiliyin daha bir təzahürüdür. Əslində, Avropa dövlətlərinin və bir sıra nüfuzlu beynəlxalq təşkilatların illərlə davam etdirdikləri bu cür siyasətin nəticəsi idi ki, dünyanın ilkin sivilizasiya mərkəzlərindən biri olan Qarabağ kimi qədim tarixə və zəngin mədəniyyətə malik bir regionda “gəlmə element” hesab edilən ermənilər bu bölgənin yerli əhalisi olan azərbaycanlıların tarixən yaratdıqları maddi-mədəni və dini irsini məhv edəndə işğalçı dövlətin törətdiyi bu vandalizmə qarşı heç bir çəkindirici hüquqi tədbir həyata keçirilməmişdi. Halbuki, Ermənistanın işğaldan sonra Qarabağda törətdiyi dağıntılar Azərbaycan xalqının minilliklər ərzində yaratdığı tarixi, maddi-mədəni və dini irsini məqsədli şəkildə məhv etməklə yanaşı, həm də ümumilikdə bəşəriyyətin və İslam sivilizasiyasının maddi mədəniyyətinə qarşı ən böyük vandalizm aktı idi. Buna görə də Avropa Parlamenti tərəfindən qəbul olunan “Erməni mədəni irsinin məhv edilməsi” ilə bağlı qətnamə Azərbaycanın əleyhinə olmaqla yanaşı, Cənubi Qafqaz regionundakı tarixi və müasir reallığın təhrifindən ibarətdir. Diqqət yetirdikdə məlum olur ki, bugünkü beynəlxalq hüquq və onun prinsipləri bir sıra böyük dövlətlərin maraqlarını təmin etmək üçün digər dövlətlərə

qarşı daha çox təsir, təhdid və təzyiq vasitəsinə çevrilib. Ermənistandan fərqli olaraq, multikultural və çoxkonfessiyalı ölkə olan Azərbaycan isə tarix boyu digər din və mədəniyyətlərə tolerant münasibət nümayiş etdirmiş, zamanın heç bir dönəmində ölkəmizdə dinlərarası hansısa problem yaşanmamışdır.

Rusiyanın Ukraynaya hərbi müdaxiləsində isə Azərbaycana münasibətdən fərqli olaraq, Qərb dövlətləri böyük həmrəylik nümayiş etdirərək Ukraynanın yanında olduqlarını bildirdilər. Şübhəsiz ki, Rusiyanın Ukraynanın ərazi bütövlüyünü pozması, yeritdiyi işğalçı siyasət, törətdiyi cinayətlər kontekstində məsələyə yanaşıldığı zaman, baş verən dağıntılar, insan tələfatı, ölümlər və qətliamlarla müşahidə olunan hərəkətlərə heç bir şəkildə haqq qazandırmaq olmaz. Çünki ortada "insan" amili var, azyaşlılar, qocalar, dinc əhali müharibənin qurbanına çevrilib, şəhərlər, binalar dağıdılıb, çox sayda insan evsiz qalıb, didərgin düşüb, qonşu dövlətlərə sığınmağa məcbur olublar. Əlbəttə ki, bütün bunlar ədalətsiz müharibənin gətirdiyi faciələrdir. Bununla yanaşı, ortada ziddiyyətli məqamlar da mövcuddur. Qərb dünyası istər rəsmi səviyyədə, istər media vasitəsi ilə, istərsə də fərdi olaraq Rusiyanın Ukraynanı istila etməsi nəticəsində ölən ukraynalıları mavigözlü, sarısaçlı, bəyaz, avropalı, mədəni insanlar, xristian, öz mədəniyyətlərinin daşıyıcısı, qısacası, özlərindən bir parça kimi dəyərləndirib fərqli bir yanaşma tərzi ortaya qoyurlar. Hətta açıq şəkildə Ukrayada həlak olan insanları Suriyadakı, İraqdakı, Əfqanıstandakı insanlardan ayrı tutduqlarını, digər bir ifadə ilə, Şərq insanından fərqləndirərək buna açıq-aşkar etirazlarını bildirir, həmin bölgələrdə yaşayan insanları marginallaşdırırlar. Belə bir vəziyyətdə sual yaranır: Qərb eyni dəstəyi nəyə görə vaxtilə soyqırıma uğramış, şəhərləri dağıdılmış, ərazisinin 20%-i işğal altına düşmüş Azərbaycana vermədi? Dinc əhalini, azyaşlı uşaqları, qocaları, qadınları qətl edən, qanlı cinayətlər törədən işğalçı Ermənistan qarşısında dünya birliyi nəyə görə səssiz qaldı, niyə öz haqqını tələb edən Azərbaycanın haqq səsinə cavab verilmədi? Çünki azərbaycanlılar o mədəniyyətdən deyil, türk-islam sivilizasiyasının daşıyıcısıdırlar, xristian deyil, onların nəzərində marginaldırlar. Gəlinən nəticə budur ki, Qərbin düşüncə tərzi, əxlaq dəyərləri, insan anlayışı tamamilə fərqlidir. Bu fərqlilik davam etdikcə, Qərbin özündən olmayanları marginallaşdırma siyasəti öz aktuallığını daim qoruyacaq.

Qərbin ümumi mənada Şərq ölkələrinə və Şərq insanına baxışında da son dərəcə düşündürücü və qıcıqlandırıcı nüanslar nəzərə çarpır. Qərb Şərq insanını cahil, qeyri-mədəni, terrorizmə meyilli, hətta daha da irəli gedərək terrorist olaraq görür və ümumilikdə aşağı sinif insan kateqoriyasına daxil edir. Bu baxış uzun illərdir ki, Qərb təfəkküründə möhkəmlənərək davam edir. Təəssüf doğuran məqam budur ki, hal-hazırda insanlığın tərifi Qərb mədəniyyətinə uyğun şəkildə verilir, əxlaq anlayışları və dəyərlər Qərb tərəfindən müəyyən edilməyə çalışılır. Bu gün dünyada Qərb mentalitetinə əsaslanan "universal qanunlar" deyə bir model mövcuddur. Bu qanunları "universal qanunlar" deyil, "universallaşdırılmış qanunlar" şəklində xarakterizə etmək daha məqsədəuyğundur. Günümüzdə "sivilizasiyalararası, dinlərarası dialoq və sülh" çağırışları səslənir. Dünyada təxminən 2,5 milyard insan acınacaqlı bir vəziyyətdə cüzi bir gəlirlə yaşayarkən, hansı sülh və əmin-amanlıqdan söz edilə bilər? Qərbin anlayışına görə, "sülh" deyilən anlayış insanların məcburən Qərb mədəniyyətini, dəyərlərini və qanunlarını mənimsəməsidir. İtaliyanın sabiq Baş naziri Silvio Berluskoninin Şərq və İslam mədəniyyəti ilə bağlı dediyi sözlər olduqca düşündürücüdür: *"...Şərqi qərbliləşdirmək (oxu: mədəniləşdirmək – E.Ş.) və Şərq xalqlarını fəth etməyə davam etmək Qərbin alın yazısıdır. Qərb bunu kommunist dünyasında və İslam aləminin bir hissəsində etmişdir. 1400 ildir ki, heç bir irəliləyişə nail olmayan İslam dünyasında da eyni şeyi edəcək. Mədəniyyətimizin üstünlüyündən və gücündən əmin olmalıyıq. Bizim mədəniyyətimizdə insan hüquqlarına və dinlərə hörmət var. Amma İslam ölkələrində bu hüquqlara və dinlərə olan hörmət aşağı səviyyədədir..."* [5, s.39].

Əgər Berluskoninin qeyd etdiyi kimi, Qərb mədəniyyətində insan hüquqlarına və dinlərə hörmət varsa, İslam ölkələrində isə bunlara əks münasibət göstərilirsə, bəs o zaman Yaxın Şərqdə böyük güclər tərəfindən baş verən terror və cinayətləri, Avropanın bəzi ölkələrində camilərin dağıdılması barəsində qəbul edilən qərarları, müsəlmanlara qarşı təhqiredici davranış və hərəkətləri, İslam peyğəmbərinə ünvanlanan təhqiramiz ifadələri hansı mədəniyyətin adına yazmaq lazımdır? Məgər onlar Qərb mədəniyyətinin daşıyıcıları deyillərmi?

Etiraf etmək lazımdır ki, İslama ən böyük zərbə heç şübhəsiz, cahil düşüncə tərzi və mövhumatçı təfəkkürdən gəlir. Lakin bunu da nəzərdən qaçırmaq olmaz ki, Şərq insanını, müsəlmanları terrorizmin, cəhalətin ünvanı kimi təqdim edən və bu mənzərəni yaradanlar məhz əks sivilizasiyanın, yəni Qərb sivilizasiyasının hakim daşıyıcılarıdır.

Birinci və İkinci Dünya müharibələrini başladanlar, həmin müharibələr nəticəsində milyonlarla insanın ölümünə səbəb olanlar, kütləvi qırğın silahlarını istehsal edənlər, sonra bu silahları Şərqin zəif inkişaf etmiş ölkələrinə ixrac edənlər, dinçi terrorist təşkilatlar ərsəyə gətirənlər, onları maliyyələşdirənlər və silahlandıranlar, tarixi təcavüzkarlıq müharibəsi aparanlar, dövlətlər, xalqlar, dinlər və sivilizasiyalar arasında ziddiyyət və toqquşmalar yaradanlar da yenə məhz Qərb sivilizasiyasının hakim daşıyıcılarıdır.

Burada əsas məqsədimiz Qərb sivilizasiyasının daşıyıcıları olan xalqları eyni qəlib içərisində dəyərləndirmək deyil, qanlı aksiyalara imza atmış hakim dövlətlərin niyyət və məramlarını ortaya qoymaqdır. Lakin həqiqətin bir üzü var. Qərb dövlətlərinin ümumilikdə Şərq insanını aşağı sinif insan kimi dəyərləndirib qeyri-obyektiv yanaşma ortaya qoymaları reallığı dəyişdirməz. Təəssüf ki, Qərb mədəniyyətinin əksər daşıyıcıları məhz özlərini insan olaraq görür, digərlərini marginallaşdırır, yəni sosial təcrid edir, beyinlərində formalaşdırdığı “insan” kateqoriyasına daxil etmirlər. Nə qədər ki, marginallaşdırma davam edir, insanlığın tərifi Qərb mədəniyyətinə uyğun olaraq ortaya qoyulur, əxlaq anlayışları və dəyərlər Qərb tərəfindən müəyyən edilir, ayrı-seçkiliklər, ikili standartlar siyasəti daim var olacaq, beynəlxalq hüquq və liberal dəyərlərin dəyərsizliyi dəyişməz qalacaq.

## ƏDƏBİYYAT


1. Akar Atilla. Derin dünya devleti: gizli doktrinin küresel efendileri. İstanbul: Timaş yayınları, 2003, 302 s.
2. Armaoğlu Fahir. 20. yüzyıl siyasi tarihi (1914-1980): 2 ciltte, Ankara: Türkiye İş Bankası Kültür yayınları, 1991, I c., 884 s.
3. Brzezinski Zbigniew. Büyük satranç tahtası: Amerika’nın önceliği ve bunun jeostratejik gerekleri. İstanbul: Sabah kitapları, 1998, 192 s.
4. Friedman George. Gelecek 10 yıl. İstanbul: Pegasus yayınları, 2011, 317 s.
5. Gündüz Süleyman. Taliban, Ladin ve Amerika kıskacında Afganistan / Afganistan, Taliban ve Ladin. İstanbul: Birey yayıncılık, 2001, s. 11-42.
6. Kissinger Henry. Diplomasi, Ankara: Türkiye İş Bankası Kültür yayınları, II baskı, 2000, 811 s.
7. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə. https://president.az/az/articles/view/55498
8. Azərbaycan, Rusiya və Ermənistanın XİN başçıları bəyanat qəbul ediblər. https://report.az/dagliq-qarabag-munaqishesi/azerbaycan-ve-ermenistan-xin-bascilarinin-ucterefli-gorusu-basa-catdi/
9. Azərbaycan və Ermənistan humanitar atəşkəs barədə razılığa gəldi. https://modern.az/az/news/260857
10. Avropa parlamentinin qərəzli qətnaməsi – VİDEO. https://www.realtv.az/news/az/104532/-avropa-parlamentinin-qerezli-qetnamesi-video
11. Bjezinski: ABŞ Ukraynadakı prosesləri yönləndirməlidir. 10 aprel 2015. http://newtimes.az/az/geopolitics/3439/
12. Ermənistan-Azərbaycan arasında daimi atəşkəs yalnız BMT qətnamələrinin şərtləri daxilində mümkündür.https://fed.az/az/qarabag/turkiye-xin-ermenistan-azerbaycan-arasinda-daimi-ateskes-yalniz-bmt-qetnamelerinin-sertleri-daxilinde-mumkundur-91600
13. İlham Əliyev xalqa müraciət edib. https://president.az/articles/45924
14. Moskva Bəyannaməsi - ərazi bütövlüyü və təhlükəsizliyinə daha bir qarant. https://report.az/analitika/moskva-beyannamesi-erazi-butovluyu-ve-tehlukesizliye-daha-bir-qarant/

15. Paşinyanın Rusiyaya növbeti xeyaneti: Ermenistan bu defe NATO-dan imdad dileyir. https://azerbaijan.az/news/4425
16. Pompeo Azərbaycan ve Ermənistan Xarici İşlər nazirləri ilə görüşdü. www.amerikaninsesi.org/a/pompeo-azərbaycan-və-ermənistan-xarici-işlər-nazirləri-ilə-görüşüb/5633126.html
17. Rauf Hacıyev. Avropa Parlamentinin qətnaməsi Avropa dövlətlərinin Zəfərimizdən sonra Azərbaycana qarşı nümayiş etdirdiyi ayrı-seçkiliyin daha bir təzahürüdür. https://azertag.az/xeber/Avropa_Parlamentinin_qetnamesi_Avropa_dovletlerinin_Zeferimizden_sonra_Azerbaycana_qarsi_numayis_etdirdiyi_ayri_sechkiliyin_daha_bir_tezahurudur-2050616
18. Zaur Məmmədov. Avropa ölkələri Azərbaycana xüsusi önəm verir. https://apa.az/az/siyasi/avropa-olkeleri-azerbaycana-xususi-onem-verir-tehlil 691311?fbclid=IwAR1ULezyr173wiWTME-wFikn-RyKMBthYT7lfaSGo08GHfU6NbuYgPZ5Xb8
19. Araz Aslanlı. Karabağ’da hiç kesilmeyen ateş ve Rusya. 4 aprel 2016. http://aljazeera.com.tr/gorus/karabagda-hic-kesilmeyen-ates-ve-rusya
20. Ömer Tuğrul Çam. NATO: Dağlık Karabağdaki çatışmanın tarafı değiliz. https://www.aa.com.tr/tr/turkiye/nato-daglik-karabagdaki-catismanin-tarafi-degiliz/2014340
21. “Rusya’ya karşı gelenlerin toprak bütünlüğü ihlal ediliyor – Gürcistan, Ukrayna, Moldova…” – Aleksandr Dugin. https://yenicag.info/rusyaya-karsi-gelenlerin-toprak-butunlugu-ihlal-ediliyor-gurcistan-ukrayna-moldova-aleksandr-dugin/embed
22. Владимир Путин: «Распад СССР - крупнейшая геополитическая катастрофа века». https://regnum.ru/news/economy/444083.html
23. Выступление и дискуссия на Мюнхенской конференции по вопросам политики безопасности / archive.kremlin.ru. 10 февраля 2007 года.
24. Путин: События в Карабахе – это трагедия, мы очень переживаем (видео). https://moscow-baku.ru/news/politics/putin_sobytiya_v_karabakhe_eto_tragediya_my_ochen_perezhivaem/
25. Путин: Ситуация, при которой значительная часть территории Азербайджана утрачена, не может продолжаться вечно (видео). https://moscow-baku.ru/news/politics/putin_u_rossii_osobye_svyazi_i_s_armeniey_i_s_azerbaydzhanom/
26. Путин: Не нужно было разваливать СССР. https://regnum.ru/news/polit/2184253.html
27. Путин назвал аннексию Крыма «восстановлением исторической справедливости». https://www.unian.net/politics/956925-putin-nazval-anneksiyu-kryima-vosstanovleniem-istoricheskoy-spravedlivosti.html
28. Распад СССР Путин назвал самой большой геополитической катастрофой. https://www.pravda.com.ua/rus/news/2005/04/25/4387750/
29. Статья Владимира Путина «Об историческом единстве русских и украинцев». 12 июля 2021 года. http://kremlin.ru/events/president/news/66181
30. Francis Fukuyama. Preparing for defeat. 10 March 2022. https://www.americanpurpose.com/articles/preparing-for-defeat/
31. Interview with Henry Kissinger: ‘Do We Achieve World Order Through Chaos or Insight?’ / spiegel.de, 13 November 2014
32. James Landale. Ukraine: how might the war end? Five scenarios. BBC News. 3 March 2022. https://www.bbc.com/news/world-europe-60602936
33. Lawrence Freedman. Putin is running out of options – The New Statesman. https://www.newstateman.com/world/europe/ukraine/2022/03/putin-is-running-out-of-options
34. Memorandum on Security Assurances in connection with Ukraine’s accession to the Treaty on the Non-Proliferation of Nuclear Weapons. http://www.pircenter.org/media/content/files/12/13943175580.pdf
35. Russell Hotten. Ukraine conflict: what is SWIFT and why is banning Russia so significant? BBC News. 27 February 2022. https://www.bbc.com/news/business-60521822

## SUMMARY

**Emin Shikhaliyev**

## THE KREMLIN'S "GREAT POWER" POLICY: COMPARATIVE ANALYSIS OF THE ARMENIA-AZERBAIJANI WAR AND RUSSIA-UKRAINE WAR

Given the impact of the global issues, an analysis of the developments that have occurred in the former Soviet states, has a great scientific and political relevance. Overall, tremendously important points may be made when studying the Russia's geo-political priorities. Russia, which is one of the five permanent UNSC members, has violated or threatened the territorial integrity of the countries countering or defying it. The current situation once again reflects the reality of "great power". It is not a mere coincidence that this reality was observed in the South Caucasus, Ukraine, Belarus, Moldova, Kazakistan and Central Asia. region and with regard to the Armenia-Azerbaijan relations and the Karabakh war in particular. This reality, which remains relevant to this day. Complete resolution of conflicts and disputed issues, establishment of peace in the in the regions named above does not comply with long-term interests of Russia's regional security policy in any way. In this article was analyzed the Krmelin's "great power" policy, comparisons were made between Armenia-Azerbaijani and Russia-Ukraine wars.

***Key words:*** *Russia, policy of "great power", geopolitical rivalry, Armenia-Azerbaijani war, Russia-Ukraine war.*

## РЕЗЮМЕ

**Эмин Шихалиев**

## ПОЛИТИКА «БОЛЬШОЙ СИЛЫ» КРЕМЛЯ: СРАВНИТЕЛНЫЙ АНАЛИЗ АРМЯНО-АЗЕРБАЙДЖАНСКОЙ ВОЙНЫ И РОССИЙСКО-УКРАИНСКОЙ ВОЙНЫ

В свете влияния глобальных процессов анализ текущих событий на постсоветском пространстве имеет достаточно большую научную и политическую значимость. Когда анализируются геополитические приоритеты России, выявляются очень важные моменты. Являясь одним из 5 постоянных членов Совета Безопасности ООН, Россия нарушает или угрожает территориальной целостности государств, которые выступают против нее или бросают ей вызов. Эта ситуация является ярким выражением проводимой Россией политики «большой силы». Подобная ситуация наблюдается на Южном Кавказе, в Украине, Белоруссии, Молдове, Казахстане и Средней Азии. Полное разрешение проблем и конфликтов в вышеперечисленных регионах, установление в них мира никоим образом не отвечает долгосрочным интересам политики региональной безопасности России. В статье анализируется политика «большой силы» Кремля, проводится сравнительный анализ между армяно-азербайджанским и российско-украинским войнами.

***Ключевые слова:*** *Россия, политика «великой силы», геополитическая конкуренция, фрмяно-азерьайджанская война, Российско-Украинская война.*

---

***Məqaləni çapa təqdim etdi:*** *tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədov*
***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 31-35
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 31-35
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 31-35

**İSMAYIL ZEYNALOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 94(479.24)**

# ŞANLI ZƏFƏR YOLUNUN BAŞLANĞICI VƏ NƏTİCƏSİ

*Məqalədə dahi şəxsiyyət və ürəyi azərbaycançılıq məfkurəsi ilə döyünən ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəldiyi birinci dövrdə (14 iyul 1969-cu il), istərsə də xalqın tələbi və təkidi ilə hakimiyyətə gəldiyi ikinci dövrdə (1993-2003-cü illərdə) bütün varlığı ilə Azərbaycanın müstəqilliyinə və ərazi bütövlüyünə nail olmaq üçün səy göstərməsi öz əksini tapır.*

*Məqalədə aydın şəkildə göstərilir ki, ulu öndərin həyata keçirdiyi bütün tədbirlər, o cümlədən iqtisadiyyatın inkişaf etdirilməsi, ordu quruculuğu, beynəlxalq əlaqələrin genişləndirilməsi Azərbaycanı 200 ilə yaxın olan əsarətdən qurtarılması və ərazi bütövlüyünə nail olmaq üçün zəfər yolunun başlanğıcının qoymasından bəhs edilir.*

*Bu çətin və şərəfli işi, onu vəfatı ilə əlaqədar tam başa çatdırmaq mümkün olmasa da, ulu öndərin siyasətinə sadiq olan xalqın sevimli prezidenti İlham Əliyev tərəfindən başa çatdırılması vurğulanır. Bu məsələnin həlli isə prezident cənab İlham Əliyevin gərgin əməyi və düzgün apardığı siyasətin nəticəsində mümkün olduğu göstərilir. Bununla yanaşı, prezident Ali Baş Komandan İlham Əliyevin ən əvvəl iqtidar xalq birliyini yarada bilməsi, ölkənin iqtisadi və hərbi qüdrətinin möhkəmləndirilməsi, eləcə də ölkənin beynəlxalq nüfuzunun təmin olunması hesabına 44 gün müddətində erməni faşizmi üzərində parlaq qələbə çalmaqdan və zəfər yolunun başa çatdırılmasından bəhs olunur.*

***Açar sözlər:*** *şanlı, şəxsiyyət, idarəçilik, dəmir yumruq, iqtidar xalq, müzəffər ordu, zəfər yolu*

Adlarını şanlı tariximizə qızıl hərflərlə yazmış cümhuriyyət qurucularının 1920-ci ildə yarımçıq qalmış arzularını, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 14 iyul 1969-cu ildə Azərbyacanda birinci dəfə hakimiyyətə gəldiyi dövrdən reallığa çevirməyə başlamışdır.

Ulu öndərin hakimiyyətə gəldiyi həmin gündən müstəqil və qüdrətli Azərbaycan dövlətinin yaradılması uğrunda bütün sahələrdə məqsədli siyasət həyata keçirildi. Ulu öndər bu dövrdən etibarən iki əsrə yaxın işğal altında olan (yəni 1828-ci il Türkmənçay sülh müqaviləsindən sonra) torpaqlarımızın azad olunması üçün zəfər yolunun başlanğıc tarixini qoymuş oldu. Ulu öndər Heydər Əliyev Azərbaycanın iqtisadi-ictimai, siyasi, mədəni və hərbi sahələrinin yenidən qurulması və inkişafına xüsusi diqqət yetirməyə başladı.

Dahi şəxsiyyət hakimiyyətə gəldiyi ilk gündən (14 iyul 1969-cu ildə) əvvəlcə milli düşüncəni oyatmış və gələcəkdə müstəqil, vahid Azərbaycan dövlətini yaratmaq üçün onun potensial bazasını möhkəmləndirməyə səy göstərmişdir.

Həmin dövrün idarəçiliyi amirlik formasında olmasına baxmayaraq, dahi şəxsiyyət öz bilik və bacarığı sayəsində xalqın gələcək müstəqilliyi üçün milli vəzifə borcunu layiqincə yerinə yetirmişdir.

Bu dövrdə Azərbaycan Sovet ittifaqı tərkibində olduğundan öz sərvətlərindən yararlana bilmədiyindən, ittifaq tərkibində olan digər respublikalardan geridə qalırdı.

1969-cu ilə qədər SSRİ-nin geridə qalmış aqrar ölkəsi kimi tanınan Azərbaycan, ulu öndərin yorulmaq bilməyən ciddi səyləri nəticəsində geridə qalmış aqrar ölkədən inkişaf etmiş aqrar sənaye ölkəsinə çevrilmiş, həmçinin ölkəmizin tarixinin milli mədəniyyətinin tədqiqi və təbliğinə xüsusi diqqət yetirilmişdir.

Bu dövrdə görkəmli dövlət xadimi Heydər Əliyevin ən çox diqqət və qayğı göstərdiyi məqamlardan biri də respublikada milli kadrların yetişdirilməsi ilə bağlı görüləcək işlər oldu. O, yaxşı

bilirdi ki, bir ölkənin müstəqilliyi və inkişafı, savadlı və bilikli kadr olmadan mümkün deyil.

Ona görə də dahi şəxsiyyət, ölkə ali məktəblərində təhsilin inkişafına xüsusi fikir verməklə yanaşı, öz şəxsi nüfuzundan istifadə edərək, SSR-nin 50-dən artıq böyük şəhərlərinin ən nüfuzlu ali məktəblərində ən zəruri ehtiyac duyulan sahələr üzrə 15 min tələbənin təhsil almasına nail ola bilmişdi. Hansı ki, həmin kadrların əksəriyyətinin sonralar ölkəmizin müstəqillik qazanmasında və inkişafında böyük xidmətləri olmuşdur, eləcə də hazırda ölkəmizin inkişafı və müstəqlliyinin qorunması naminə müxtəlif sahələrdə fəaliyyət göstərirlər.

Ulu öndər Heydər Əliyevin uzaqgörənliklə həmin dövrdə həyata keçirdiyi mühüm tədbirlərdən biri də respublikada milli hərbçi kadrların yetişdirilməsi barədə qəbul etdiyi tarixi qərarlar olmuşdur. Çünki, gələcəkdə müstəqil Azərbaycan dövlətinin qurulmasının məhz hərbi kadrlardan və ordu quruculuğundan asılı olduğunu müdrik lider yaxşı bilirdi.

Məhz bu məqsədlə də onun səyi nəticəsində Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradıldı. Bu məktəbi qurtaranlar isə keçmiş sovetlər birliyində mövcud olan qabaqcıl ali hərbi məktəblərə və hərbi akademiyalara təhsil almağa göndərilirdi. Bu isə öz növbəsində müstəqil dövlət quruculuğu və zəfər yolu istiqamətində atılan mühüm addımlardan biri idi.

Bununla yanaşı, ulu öndər SSRİ məkanında rus dilinin hakim və rəsmi dil olduğuna baxmayaraq, ana dilimizə və milli dəyərlərimizə xüsusi önəm verirdi. Tarixdə misli görülməmiş bir cəsarət nümayiş etdirərək Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr olunmuş təntənəli tədbirdə Azərbaycan dilində çıxış edir, milli dəyərlərimizə sahib çıxacağını nümayiş etdirdi. Həmçinin müdrik siyasətçi rus dilinin rəsmi dil olduğu bir şəraitdə 1978-ci ildə “Azərbaycanın SSR-də konstutitusiyanın qəbulu zamanı dövlət dili Azərbaycan dilidir” müddəasının salınmasına nail oldu. Heydər Əliyevin düşünülmüş bu addımı xalqımızın gələcək müstəqil dövlətinin yaradılması uğrunda həyata keçirilən misilsiz tarixi xidmətlərdən biri olmuşdur.

Ulu öndər Heydər Əliyevin o dövrdə həyata keçirdiyi tədbirlər 1990-cı ildə müstəqil dövlətin yaradılmasında və ondan sonra da öz bəhrəsini vermiş oldu. Xüsusən SSR dövründə hərbi kadrların hazırlanması, sonralar Azərbaycanda ordu quruculuğunda müstəsna rol oynadı.

1991-1993-cü illərdə Azərbaycana rəhbərlik edən AXC və Müsavat cütlüyünün səriştəsizliyi ucbatından iqtiadiyyat və idarəetmədə olduğu kimi, orduda da özbaşınalıq və anarxiya hökm sürməyə başladı. Vahid komandanlığa əsaslanan nizami və mütəşəkkül ordu yaradılmadığından müstəqilliyimizə və dövlətçiliyimizə qarşı çıxan dövlətlərə qarşı müharibə aparmaq iqtidarında olmayan ordu fəaliyyət göstərirdi.

Bu dövrdə, yəni 1990-cı ildə 20 yanvar hadisəsindən sonra xalqını darda qoymayan və Moskvadan vətəninə qayıdan ulu öndər Heydər Əliyev Naxçıvanda böyük izdihamla qarşılandı.Heydər Əliyev müstəqilliyin qorunması üçün dərhal ordu quruculuğuna xüsusi fikir vermiş oldu və Naxçıvanı erməni işğalından xilas etmək üçün planlı diplomatik fəaliyyətə başladı.

Xalqın təkidli tələbi ilə Naxçıvanda Ali Məclisin Sədri seçiləndən sonra onu səyi nəticəsində 1991-ci il sentyabrın 7-də sovet ordusunun Naxçıvanda yerləşən hərbi hissəsinin bazasında Naxçıvan Müdafiə Komitəsinin yaradılmasına nail omuş və 1992-ci il sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvanın müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili barədə” qərar qəbul edilmişdir.

Həmin ilin oktyabr ayının 19-da Naxçıvan şəhərində keçirilən ilk hərbi parad hərb tariximizə qızıl hərflərlə yazılmışdır. O dövrdə yaradılan ordu quruculuğu, Naxçıvanı erməni faşizminin hücumlarından qorumaqla yanaşı, həm də Azərbaycanda Milli ordu quruculuğu prosesinin başlanğıcı oldu, eyni zamanda Zəfər yoluna istiqamət verdi.

Heydər Əliyev xalqın ciddi təkidi ilə ikinci dəfə 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdışı ilə zəfər yolunu daha da reallığa çevirmiş oldu. Azərbaycanın iqtisadi qüdrəti artdı, beynəlxalq əlaqələri genişləndi və silahlı qüvvələrinin təşkili yeni vüsət aldı. Hərbi sahədən qeyri-peşəkar kadrlar təmizləndi; XX-əsrin 90-cı illərinin əvvəllərində özfəaliyyət kimi idarə olunan hərbi birləşmələr nizami orduya çevrildi. Yeni yaradılan ordu birləşmələri mərkəzi komandanlığa tabe olaraq Ermənistan hücumlarının qarşısını almaqla yanaşı, 1993-cü ildə Fizuli və Cəbrayıl rayonları

istiqamətində uğurlu əməliyyatlar apararaq, çoxsaylı yaşayış məntəqələri və strateji əhəmiyyətli yüksəklikləri düşmən işğalı altından azad etməklə yanaşı, 1994-cü ilin may ayının 12-də atəşkəs elan olunmasına da nail olmuşdur.

Sonrakı illərdə düşmən tapdağı altında olan torpaqlarımızın azad edilməsinə nail olmaq üçün dahi şəxsiyyətin rəhbərliyi ilə çoxmillətli Azərbaycan silahlı qüvvələrinin strukturunda tam formalaşdırılmış bütün növ hərbi birləşmələr (piyada tank, artilleriya, hərbi hava qüvvələri, hərbi dəniz) yaradılmışdır. 1999-cu ildə ordu quruculuğunu təkmilləşdirmək üçün Bakıda Silahlı Qüvvələrin hərbi akademiyası yaradılmışdır. Ulu öndər Heydər Əliyev bu barədə demişdir: "Azərbaycanın dövlət quruculuğunda əsas yerlərdən biri güclü ordunun yaradılmasıdır. Çünki Azərbaycan bir tərəfdən Ermənistanın təcavüzünə məruz qaldığına görə, ikinci tərəfdən isə təkcə bu gün yox, gələcəkdə də öz torplarımızı qorumaq üçün lazımdır".

Məhz bu məqsəd üçün də ordunun qanunvericilik bazası yaradılmış, beynəlxalq əlaqələrin qurulması da diqqət mərkəzində olmuşdur. O cümlədən 1994-cü ildə Azərbaycan Respublikası NATO-nun "Sülh Naminə Tərafdaşlıq Proqramı"na qoşulmuşdur.

Prezident İlham Əliyev ata vəsiyyətlərini əldə rəhbər tutaraq torpaqlarımızı işğal altından azad etmək və düşmən üzərində qələbə çalmaq məqsədi ilə ordunun vahid rəhbərlik ətrafında bir yumruq kimi birləşməsi üçün ciddi iş aparmaqla yanaşı, həm də ordu quruculuğu üçün dövlət büdcəsindən xeyli vəsait ayrılmasına nail oldu. Bu vəsait isə bütövlükdə götürdükdə Ermənistanın dövlət büdcəsindən xeyli çox olmuşdur.

Aydın məsələdir ki, ordu quruculuğu ilə yanaşı, müasir hərb sənətini bilən peşəkar zabit heyəti yaradılmadan ordunu idarə etmək və döyüş tapşırıqlarını yerinə yetirmək mümkünsüzdür. Eyni zamanda 1998-ci ildə Naxçıvanda Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılması hərbi kadrların formalaşmasında və bu sahədə çatışmazlığın aradan qaldırılmasında müstəsna rol oynamışdır. Sonralar isə ulu öndərin adını əbədiləşdirmək üçün bu liseyə Heydər Əliyevin adı verilmişdir. 2004-cü ildən etibarən isə Naxçıvanda müstəqil fəaliyyət göstərən və ümummilli liderimizin adını daşıyan bu hərbi liseyin qısa zaman kəsiyində ölkə rəhbərliyi tərəfindən qarşıya qoyulan məsələlərin həllində müstəsna rolu olmuşdur. Ölkə prezidenti peşəkar ordu quruculuğu ilə yanaşı, zəfər yolunu tezləşdirmək üçün ölkənin iqtisadi qüdrətini artırmaqla yanaşı, beynəlxalq təşkilatların, o cümlədən BMT-nin, ATƏT-in vasitəsi ilə Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizin geri qaytarılması ilə əlaqədar danışıqlar aparılmasına səy göstərmiş və dünya dövlətlərinə Ermənistanın işğalçı dövlət kimi tanıdılması sahəsində uğurlu diplomatik siyasət həyata keçirdi.

BMT Təhlükəsizlik Şurasının iclasında 1993-cü il aprelin 20-də 822, avqust ayında 853, sentyabr ayının 15-də 874, noyabr ayında 884 saylı qəbul edilən 4 qətnaməsinə, eləcə də ATƏT-in Minsk qrupunun 30 ilə yaxın apardığı danışıqlara, həmçinin bir sıra təşkilatların səylərinə məhəl qoymayan Ermənistan rəhbərliyi "böyük Ermənistan" yaratmaq xülyası ilə fasilələrlə Azərbaycanın yeni ərazilərini ələ keçirmək üçün tez-tez təxribatlar törədirdilər. Məhz bu səbəbdən də ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev təxribatların qarşısını almaq üçün orduya lazımi tapşırıqlar verdi. 2016-cı ilin aprel ayının 1-də başlanan müharibədə düşmənə tutarlı cavab verildi, Mərcanlı kəndi və Lələtəpə yüksəkliyi ələ keçirildi. Amma aprel ayının 5-də beynəlxalq təşkilatların müraciəti ilə əlaqədar müharibə dayandırıldı və atəşkəs elan olundu.

2018-ci ilin may ayının sonunda isə 1992-ci ildən işğal altında olan 11 min hektar əraziyə malik olan Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Günnüt kəndi də erməni işğalından azad edildi. Bütün bu hadisələr isə zəfər yolunu daha da sürətləndirmiş oldu.

Azərbaycanın qətiyyətli fikri ilə razılaşmayan Ermənistan 2020-ci ilin avqust və sentyabr aylarında Tovuz rayonu istiqamətində yeni təxribatlar törətdi. Ona görə də yaratdığı güclü orduya, iqtidar xalq birliyinə arxalanan ölkə prezidenti, Ali Baş Komandan işğal altında olan torpaqlarımızı heç kimsənin köməyi olmadan, öz gücümüzə azad etmək yolunu seçdi. Bu seçim isə zəfər yolunun tamamlanması yolu oldu.

2020-ci il sentyabr ayının 27-də başlanan İkinci Qarabağ müharibəsi işğal altında olan

torpaqlarımızı hərbi yolla azad etmək yolu idi. Bu dövrdə cənab prezident, Ali Baş Komandan üç istiqamətdə müharibə aparmalı oldu və üçündə də qalib gəldi.

Bu müharibə dövründə birinci tərəf pandemiyaya qarşı mübarizə idi ki, Azərbaycan xalqının sağlamlığı daim diqqət mərkəzində saxlanmalı idi. İkinci istiqamət informasiya müharibəsi idi ki, xarici dövlətlərin nümayəndələri və jurnalistlərə tutarlı cavab verərək onları hadisənin gerçək mahiyyəti ilə tanış etdi. Üçüncü müharibə istiqaməti isə Vətən müharibəsi idi ki, bu da 44 günə zəfər yolunu tamamladı. Müzəffər ordumuz Ali Baş Komandanın rəhbərliyi ilə 2020-ci ildə Cəbrayıl rayonunu 4 oktyabr, Füzulini 17 oktyabr, Zəngilanı 20 oktyabr, Qubadlını 25 oktyabr, Şuşanı 8 noyabr tarixlərdə azad etdi. Dəmir yumruq düşmənin belini elə qırdı ki, prezident, cənab İlham Əliyevin dediyi kimi: "çətin ki, onların beli düzələ, hətta belə buna ehtimal da yoxdur".

8 Noyabr "Zəfər Günü"ndən sonra 10 noyabr 2020-ci il tarixdə üç ölkənin dövlət başçıları, Rusiya Federasiyasının prezidenti Vladimir Putin, Azərbaycan prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən Moskvada üçtərəfli bəyannamə imzalandı.

Bəyannamədə 10 noyabr 2020-ci il tarixdə Moskva vaxtı ilə 00:00-dan etibarən Qarabağ bölgəsindəki bütün hərbi əməliyyatların dayandırılması elan edildi.

Moskva bəyannaməsində azad edilmiş ərazilərin Azərbaycanın əlində saxlanılması, sülhməramlı rus qoşunlarının bölgədə yerləşdirilməsi, Türk-Rus ortaq manitorinq mərkəzinin qurulması üçün anlaşma memorandumu imzalanması, Naxçıvan Muxtar Respublikasını blokadadan çıxarmaq və Avropa ilə əlaqələr yaratmaq üçün Zəngəzur dəhlizinin açılması və sairə kimi məsələlər öz əksini tapdı.

Birgə bəyannamənin imzalanmasından sonra heç bir silah işlədilmədən 2020-ci il noyabrın 20-də Ağdam, 2020-ci il noyabrın 25-də Kəlbəcər, 2020-ci il dekabrın 1-də Laçın rayonlarının boşaldılması qərarlaşdırıldı. Beləliklə, 2020-ci il sentyabrın 27- də başlanmış və 44 gün davam etmiş İkinci Qarabağ müharibəsi böyük zəfərlə başa çatdırılmış oldu. 8 noyabr tarixə Azərbaycanın zəfər günü kimi yazıldı.

## ƏDƏBİYYAT


1. Heydər Əliyev. Müstəqil Azərbaycan dövlətinin qurucusudur. Bakı: Azərnəşr. 2003, səh 637.
2. Murtuz Ələsgərov. "Qurtuluş". Bakı: 1998, səh. 462.
3. Yaqub Mahmudov. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: 2002. səh. 322
4. Şahlar Əsgərov. Heydər Əliyev fenomeni haqqında düşüncələr. Bakı: Azərnəşr, səh. 637
5. Cahid İmanov. "Dəmir yumruq" Vətən müharibəsi 44 gün zəfər tarixi. Bakı: 2021, Zəka print yayımları
6. Musa Qasımov. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı: Gənclik, 1996
7. Zəfər tarixi kursu üzrə ümumi təhsil müəssisələrinin 9-cu sinifləri üçün dərs vəsaiti. "Şərq-qərb" açıq səhmdar cəmiyyəti. Bakı: 2021-ci il
8. "Şərq qapısı" qəzeti. 14 iyul 2021-ci il
9. "Şərq qapısı" qəzeti. 28 iyul 2021-ci il
10. "Şərq qapısı" qəzeti. 6 oktyabr 2021-ci il
11. "Yeni fikir" qəzeti. 31 mart 2021-ci il, №3(37)
12. "Yeni fikir" qəzeti. 12 may 2022-ci il, №3(45)
13. Dərələyəz qəzeti. №9 (132) 23 sentyabr 2021-ci il

**SUMMARY**

**Ismail Zeynalov**

**THE BEGINNING AND CONCLUSION OF THE GLORIOUS ROAD OF VICTORY**

In the article, the great leader Heydar Aliyev, who was a genius and whose heart was beating with the ideology of Azerbaijaniism, came to power in Azerbaijan in the first period (July 14, 1969) and in the second period when he came to power at the request and insistence of the people (1993-2003). it is reflected in its efforts to achieve its independence and territorial integrity.

The article clearly shows that all the measures implemented by the great leader, including the development of the economy, the building of the army, the expansion of international relations, the liberation of Azerbaijan from almost 200 years of slavery and the beginning of the path of victory to achieve territorial integrity are mentioned.

Although it is impossible to complete this difficult and honorable task due to his death, it is emphasized that it was completed by the beloved president of the people, Ilham Aliyev, who is loyal to the policy of the great leader. It is shown that the solution of this issue is possible as a result of the hard work and correct policy of President Mr. Ilham Aliyev. At the same time, it is said that President-in-Chief Ilham Aliyev was the first to create a ruling people's union, to strengthen the country's economic and military power, as well as to ensure the country's international reputation, winning a brilliant victory over Armenian fascism in 44 days and completing the path to victory.

***Key words****: glorious, personality, administration, iron fist, power people, victorious army, victory road*



**РЕЗЮМЕ**

**Исмаил Зейналов**

**НАЧАЛО И ЗАВЕРШЕНИЕ СЛАВНОГО ПУТИ ПОБЕДЫ**

В статье великий лидер Гейдар Алиев, который был гением и сердце которого билось идеологией азербайджанства, пришел к власти в Азербайджане в первый период (14 июля 1969 года) и во второй период, когда он пришел к власти. по просьбе и настоянию народа (1993-2003 гг.) это нашло отражение в его усилиях по достижению своей независимости и территориальной целостности.

В статье наглядно показано, что все меры, осуществленные великим лидером, включая развитие экономики, строительство армии, расширение международных связей, освобождение Азербайджана от почти 200-летнего рабства и начало пути победы для достижения территориальной целостности.

Хотя выполнить эту трудную и почетную задачу невозможно из-за его смерти, подчеркивается, что ее выполнил любимый президент народа Ильхам Алиев, верный политике великого лидера. Показано, что решение этого вопроса возможно в результате напряженной работы и правильной политики Президента Ильхама Алиева. При этом говорится, что главнокомандующий Ильхам Алиев первым создал правящий народный союз, укрепил экономическую и военную мощь страны, а также обеспечил стране международную репутацию, одержав блестящую победу над Армянский фашизм за 44 дня и завершение пути к победе.

***Ключевые слова:*** *славный, личность, администрация, железный кулак, властный народ, победоносная армия, путь победы.*



***Məqaləni çapa təqdim etdi:*** *tarix elmləri doktoru Xəzər Hüseynov*

***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*

***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 36-41
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 36-41
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 36-41

**ABDULLA MUSTAFAYEV**
*mustafayevabdulla78@gmail.com*
**RUHİYYƏ RZAYEVA**
*ruhiya.rzayeva@mail.ru*
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 930**

# ERMƏNİLƏRİN AZƏRBAYCAN TORPAQLARINA KÖÇÜRÜLMƏSİNDƏN SONRA İRƏVAN QUBERNİYASINDA BAŞ VERƏN DEMOQRAFİK DƏYİŞİKLİKLƏR

*Elmi məqalədə XIX əsrin əvvəllərində Rusiyanın İran və Türkiyə ilə apardığı müharibələrdən qalib çıxmasından sonra erməniləri Cənubi Qafqaza, xüsusilə də qədim Azərbaycan torpaqlarına köçürməsindən bəhs edilir. Göstərilir ki, Azərbaycan torpaqlarının işğal edilməsində xüsusi fəallıq göstərən ermənilər hamilərinin dəstəyi ilə Naxçıvanda və Qarabağda yerləşdirildikdən sonra demoqrafik vəziyyəti öz xeyirlərinə dəyişmək məqsədilə yerli əhalini sıxışdırmağa başlamışdılar.*

*Qeyd olunmuşdur ki, bölgədə etnik-dini şəraitin dəyişdirilməsinə yönəldilmiş rus müstəmləkə siyasətinin praktik surətdə həyata keçirilməsi prosesi fasiləsiz olaraq XIX əsrin əvvəllərindən başlayaraq XX əsrin əvvələrinə qədər getmiş, Sovet dövründə bu siyasət daha incə formada davam etdirilmişdi.*

*Müəlliflər eyni zamanda qeyd edirlər ki, ermənilərin Cənubi Qafqaza köçürülməsi XIX əsrin II yarısında, xüsusilə də 1853-1856 və 1877-1878-ci illər rus-türk müharibələrindən sonra daha da genişlənmişdi. Məhz bu müharibələrin nəticəsində XIX əsrin II yarısında quberniyada erməni əhalisinin sayı artaraq 67,4% təşkil etmişdir.*

*Beləliklə də, çar Rusiyasının simasında özünə möhkəm arxa yaradan ermənilər bütün vasitələrlə bölgədə hakim millətə çevrilməyə çalışmış, təssüflər olsun ki, çox halda buna nail ola bilmişlər. Ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi, İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində qondarma erməni vilayətinin yaradılması və Rusiya çarının çoxsaylı titullarına onun erməni vilayətinin hakimi titulunun də əlavə edilməsi artıq Qafqazda güclü bir erməni ekspansiyasının başlanmasının ilk əlamətləri idi.*

***Açar sözlər:*** *Rusiya-İran müharibəsi, Rusiya-Türkiyə müharibəsi, Gülüstan sülh müqaviləsi, Türkmənçay sülh müqaviləsi, Naxçıvan əyaləti, "Erməni vilayəti"*

Rusiya-İran (1826-1828) və Rusiya-Türkiyə (1828-1929) müharibələrinin uğurla başa çatması ilə ermənilərin Cənubi Qafqaza köçürülməsi üçün geniş imkanlar açıldı.

Rusların Azərbaycan torpaqlarını, xüsusən İrəvan və Naxçıvan xanlıqlarını işğal etməsində ermənilər xüsusi fəallıq göstərmişdilər. Erməni kilsəsi, arxiyepiskop Nerses rus qoşunlarının canlı qüvvə, ərzaq və silahla təchiz edilməsində bilavasitə iştirak edirdi. Erməni silahlı dəstələri hərbi əməliyyatlarda rus qoşunlarının tərkibində çıxış edirdilər.

1828-ci ilin fevralın 29-da general Paskeviç göstəriş verdi ki, ermənilər başlıca olaraq İrəvan və Naxçıvan vilayətlərində və qismən Qarabağda yerləşdirilsin, bir sıra müsəlman kəndləri dindaşlarının ən çox məskunlaşdığı yerlərə köçürülsün və həmin yerlər ermənilərə verilsin (2, s.103). Əslində bu azərbaycanlıları öz doğma torpaqlarından deportasiya edilməsinə istiqamət verilməsi demək idi. Veliçkonun yazdığı kimi bu göstəriş, Zaqafqaziyanın bəzi hissələrinin ermənilər tərəfindən müstəmləkələşdirilməsinin başlanması idi (3,s.123). Paskeviçin başqa bir direktivi belə idi: Xristianları Naxçıvan və İrəvan vilayətlərinə getməyə razı salmaq lazımdır. Bu vilayətlərdə xristian əhalisini nə qədər mümkündürsə, çoxaltmaq lazımdır (2,s.103). Erməniləri Azərbaycan

torpaqlarında kompakt şəkildə yerləşdirməklə, Rusiya özünün müstəmləkə, imperiya siyasətinin əsas məqsədini-işğal edilmiş, din, dil, etnik-mədəni cəhətdən ona yad bir ölkədə öz gələcək hökmranlığı üçün etno-konfissional dayaq yaratmaq məqsədini reallaşdırmağa çalışırdı. Qarşıya qoyulmuş məqsədi həyata keçirmək üçün xüsusi köçürmə komitəsi təşkil edilmiş, bu komitəyə ermənilərdən ibarət "ayrıca dairələr və mahallar yaratmaq" tapşırığı verilmişdi (4, səh. 159).

Ermənilərin Cənubi Qafqaza köçürülməsinin əsas təşəbbüskarı A.S.Qriboyedov, bu işə bilavasitə rəhbərlik edən isə erməni əsilli rus polkovniki X.E.Lazarev idi [5].

1828-ci ilin fevralın 10-da Türkmənçay sülhünün bağlanması ilə 1826-1828-ci illər Rusiya-İran müharibəsinə son qoyuldu. Bu müqavilə ilə İrəvan və Naxçıvan xanlıqları Rusiyanın ərazisinə qatıldı. Martın 20-də çar I Nikolay bu müqaviləni təsdiq etdi və ertəsi gün həmin ərazilərdə "Erməni vilayəti"nin yaradılması haqqında fərman verdi (5, I hissə, s.178-179). Yeni yaradılmış inzibati ərazi İrəvan və Naxçıvan əyalətlərindən və Ordubad dairəsindən ibarət idi.

1829-cu ildə Paskeviçin göstərişi ilə İ.Şopen yeni yaradılmış vilayətdə kameral siyahıyaalma keçirdi. Siyahıyaalmaya görə İrəvan vilayətində 521 kənd (Naxçıvanda 179, Ordubad dairəsində 52) mövcud idi. Müharibə nəticəsində vilayətin ərazisində 359 kənd, o cümlədən İrəvan əyalətində 310, Naxçıvan əyalətində 42, Ordubad dairəsində isə 6 kənd dağıdılmış, əhalisi qaçqın düşmüşdü (6, s.442-446). Siyahıyaalmanın nəticələrinə görə, vilayətdə 81.749 müsəlman və 25.131 erməni qeydə alınmışdı. Siyahıyaalmanın üstün cəhəti onda idi ki, İrandan və Türkiyədən köçürülən ermənilərin sayı və onların hansı yaşayış məntəqələrində məskunlaşdırılması dəqiq göstərilmişdi. Belə ki, 1828-1829-cu illər ərzində İrandan Şimali Azərbaycana köçürülmüş ermənilər 6.946 ailə və 35.560 miqrant təşkil edirdi (6, s.539). Köçürülən ermənilərdən 23.568 nəfər (8599 ailə) İrəvan əyalətinin 129 kəndində, 10.562 nəfər (2137 ailə) Naxçıvan əyalətinin 61 kəndində, 1340 nəfər isə (250 ailə) Ordubad dairəsinin 12 kəndində yerləşdirildi. 1828-1829-cu illər Rusiya-Türkiyə müharibəsindən sonra vilayətin ərazisinə 21.666 nəfər erməni, 324 nəfər yezidi kürdü köçürüldü və onlar vilayətin 129 kəndində yerləşdirildi (6, s.636-642). Ermənilərin İrəvan vilayətinə köçürülməsi sonrakı illərdə də davam etdirilirdi.

Ümumiyyətlə, Türkmənçay və Ədirnə müqavilələrinin bağlanmasından sonra "Erməni vilayəti"nə (İrəvan və Naxçıvan xanlıqlarına) 57.266 nəfər erməni köçürülmüşdü. Halbuki köçürülmədən əvvəl həmin ərazidə cəmi 25.151 erməni yaşayırdı, qalan əhalinin 81.749-u türk, 324-ü kürdlərdən ibarət idi (7). Kütləvi köçürmələrdən sonra ermənilər 82.397, müsəlmanlar isə 81.749 nəfər təşkil edirdi (6, s. 642). Beləliklə, keçmiş İrəvan quberniyası ərazisində ermənilər ilk dəfə olaraq sayca üstünlük qazanmışdılar. Göstərilən ərazilərdə türk-müsəlman əhalisinin üstünlük təşkil etdiyini erməni müəllifləri də təsdiq edirlər. V.A.Parsamyan rus işğalına qədər Qafqaz Ermənistanının etnik tərkibindən danışarkən göstərirdi ki, oradakı 169 min əhalinin 57.368 (34 %) ermənilər, 84.500 (50 %) türklər, 27.040 (16%) kürdlər təşkil edirdi (8, s.12). Q.Qaloyan isə XIX əsrin əvvəllərində İrandan Rusiya sərhədləri daxilinə 40 min, Türkiyədən 90 min erməninin köçürüldüyünü qeyd edir (9, s.12). Göründüyü kimi, erməni müəllifləri də Cənubi Qafqazda erməni əhalisinin sayının mexaniki hərəkət (köçürülmə) sayəsində artdığını etiraf edirlər.

İlk mənbələrdə ermənilərin Naxçıvan əyalətində və Ordubad dairəsində məskunlaşdırılması haqqında da dəyərli məlumatlar vardır. Yuxarıda qeyd edildiyi kimi, oraya İrandan 13.632 erməni (2.558 ailə) köçürülmüşdü (10, s.125-127). Rusiyanın işğalına qədər Naxçıvan və Ordubadda cəmi 434 erməni ailəsinin yaşadığını nəzərə alsaq (10, səh. 31), nəticədə Naxçıvan əyalətində ermənilərin xüsusi çəkisinin 7 dəfə artdığını (2.992 ailə) (590 %) görərik.

Bütün bunlar ermənilərin Cənubi Qafqaza, ilk növbədə Azərbaycana kütləvi və məqsədəuyğun şəkildə köçürülməsinin başlanğıcı idi. Bölgədə etnik-dini şəraitin dəyişdirilməsinə yönəldilmiş rus müstəmləkə siyasətinin praktik surətdə həyata keçirilməsi prosesi fasiləsiz olaraq XX əsrin əvvələrinə qədər getmiş, Sovet dövründə bu siyasət daha incə formada davam etdirilmişdi. Bunu rus müəllifləri Dubrovin, Ezov, Qriqoryev, Veliçko, Qriboyedov, Şavrov və başqaları da təsdiq edirdilər.

N.Şavrov Rusiyanın Cənub Qafqazdakı müstəmləkəçilik siyasəti haqqında yazırdı: "Biz müstəmləkəçilik fəaliyyətimizə Zaqafqaziyada rusların deyil, bizə yad olan xalqların

yerləşdirilməsindən başladıq. 1828-ci ildən 1830-cu ilədək Zaqafqaziyaya 40 min İran və 84 min Türkiyə ermənilərini köçürmüş və onları Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı dövlət torpaqlarında yerləşdirmişdik ki, orada erməni əhalisi cüzi idi….Nəzərə almaq lazımdır ki, 124 min rəsmi köçürülən ermənilərlə yanaşı, qeyri-rəsmi köçənlər də çoxdur və ümumiyyətlə, köçənlərin sayı 200 min nəfərdən artıqdır" (11, s.63).

XIX əsrin II yarısında ermənilərin Cənubi Qafqaza miqrasiyası daha da sürətləndi. 1853-56-cı illər Krım, 1877-1878-ci illər rus-türk müharibələri bu prosesə təkan verdi. 1873-cü ilin göstəricilərinə görə, İrəvan quberniyasında 221.191 erməni, 1886-cı ildə 375.700, 1897-ci ildə 439.926 erməni var idi. XX əsrin əvvəllərində də quberniyada onların sayı artmaqda davam etmiş və 1917-ci ildə 669.871 nəfər təşkil etmişdi (12, v.9-10). Y.Veydenbaumun məlumatına görə XIX əsrin II yarısında quberniyanın əhalisinin 67,4%-ni artıq ermənilər təşkil edirdi (13, s.78).

Azərbaycanın digər bölgələrində də ermənilərin sayı mexaniki surətdə artmış, süni xarakterli "demoqrafik partlayış" baş vermişdi. N.Şavrov yazır ki, ermənilərin köçməsi 1893-1894-cü illərdə Türkiyədəki erməni ixtişaşlarından sonra daha da genişlənmiş və Q.Qolitsinin 1897-ci ildə Qafqaza canişin təyin olunmasına qədər gəlmə ermənilərin sayı artıq 1884-cü ildəki kimi 100 min deyil, 900 minə yaxın idi. Onların hamısı rus təbəəliyini qəbul etmiş və əvvəllər buraya köçürülmüş erməni əhalisinin içində itib-batmışdılar. N.Şavrov qeyd edir ki, XX əsrin əvvəllərində Zaqafqaziyada yaşayan 1.300 min ermənin 1 mln-dan çoxu yerli ermənilər deyil, rusların vasitəsilə məskunlaşmış ermənilərdir (11, s.63-64).

Beləliklə, rusların simasında möhkəm arxa tapan ermənilər hər vasitə ilə Cənubi Qafqazda hakim millətə çevrilmək üçün çalışırdılar. Rus ordusunda və Qafqaz administrasiyasında çalışan Lazerev, Loris-Melikov, Qukasov, Mədətov, Behbudov, Ter-Qukasov və başqa erməni generalların və məmurların sayəsində onlar istədiklərinin çoxusuna nail ola bilmişdilər. Ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi, İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində qondarma erməni vilayətinin yaradılması və Rusiya çarının çoxsaylı titullarına onun erməni vilayətinin hakimi titulunun də əlavə edilməsi artıq Qafqazda güclü bir erməni ekspansiyasının başlanmasının ilk əlamətləri idi.

V.Veliçkonun qeyd etdiyi kimi, ermənilər diyarda real qüvvəyə çevrilmiş, ermənilərin tuzları (nüfuzlu adamları –M.A.) maneəsiz olaraq bütün həyat mənbələrini-bazarları, bankları hətta qulluqçu insanların taleyini öz əllərinə keçirmiş və tam cəzasızlıqdan sui-istifadə edirlər. Ermənilərin Qafqazda azğınlığı o dərəcəyə çatmışdı ki, hətta V.Veliçko "Qafqazın erməniləşdirilməsinə qarşı radikal ölçülər götürmək zəruriliyindən" bəhs etmişdi (3, s.59).

Çar hakimiyyət orqanlarının bilavasitə havadarlığı ilə köçmə ermənilər yerli azərbaycanlıları sıxışdırmağa başladılar. Qriboyedovun özü etiraf edirdi ki, "müsəlman mülkədarlarının torpaqlarında yerləşdirilmiş" erməni köçkünləri müsəlmanları sıxıntılı vəziyyətə salır və müsəlmanlar ehtiyat edirlər ki, ermənilər bir dəfə buraxıldıqları torpaqlara həmişəlik yiyələnəcəklər (14, s.54).

İndiki Ermənistan ərazisindən Azərbaycan türklərinin ilkin deportasiyası XIX əsrin ilk əvvəllərində - Rusiyanın Cənubi Qafqazı ilhaqına başlaması ilə üst-üstə düşür. Ruslara tabe olmaqdan imtina edən Pəmbək türkləri Rəhimbəy və Səid bəyin başçılığı ilə bölgəni tərk edərək Qars paşalığına sığınmağa məcbur olmuşdular (5).

Rus qoşunları Şörəyeli tutduqdan sonra həmin ərazidə yaşayan yerli qarapapaq tayfasının bir hissəsi (təqribən 26 ailə) də Qarsa mühacirət etməli olur (5). I Rusiya-İran müharibəsi nəticəsində Şörəyelin kəndləri dağıdılmış, əhalisi isə qaçqın düşmüşdü. Sonralar həmin kəndlərdə Türkiyədən gələn ermənilər məskunlaşmışdı (5). Müharibə dövründə 500 ailəlik İrəvan azərbaycanlılarının Qarsa köçməsi haqqında məlumat mövcuddur (5).

Rus ordusu İrəvan xanlığını zəbt etdikdən sonra həmin ərazidə yaşayan köklü türk əhalisinin bir hissəsi məcburi olaraq öz doğma torpaqlarını tərk edərək Türkiyə və İrana köçməli oldular. Paskeviçin Qraf Nesselorda göndərdiyi 27 iyul 1828-ci il tarixli məktubunda qeyd edilirdi ki, Qarapapaq tayfasından 100 ailə, ayrımlardan 300 ailə Qarsa, Uluxanlı tayfasından 600 ailə Bəyazidə, müsəlman cəlalı kürdləri Muşa qaçmışdır. Qarapapaqlardan digər 800 ailə isə Arazı keçərək Həsən

xanın (İrəvan xanı Hüseyn xanın qardaşı) dəstəsinə qoşulmuşlar. Onlarla birgə 700 ailədən ibarət Cəmədinli kürdləri, 400 ailə birukilər, 400 ailə dovmanlılar, 200 ailə çobankərəlilər, 1000 ailə zilanlı kürdü Türkiyəyə keçmişdilər (5, VII cild, sənəd 512.)

Ümumiyyətlə, 1826-1828-ci illər Rus-İran və 1828-29-cu illər Rus-Türk müharibələri nəticəsində İrəvan və Naxçıvan xanlıqlarının ərazisindən yerli müsəlman əhalisinin xeyli hissəsi qaçqın düşmüş, orada yalnız 81.749 nəfər (17078 ailə) müsəlman qalmışdı (5, s.642).

Ermənilər Azərbaycan torpaqlarına köçürüldükdən sonra əhalinin 80 %-ni təşkil edən yerli azərbaycanlıların İrəvan quberniyasında (1849-cu ildən) sayı getdikcə azalır və onlar burada azlığa çevrilirlər. Məsələn, təmiz Azərbaycan türklərindən ibarət Kavar kəndi 1830-cu ildən sonra Bəyaziddən gəlmiş ermənilərin hesabına məskunlaşdırılır və o Yeni Bəyazid adını alır. XIX əsrin 50-ci illərində burada 2.560 erməni yaşayırdı. Yeni yaradılmış Yeni Bəyazid qəzasında 23.038 erməni, 8.207 (36 %) azərbaycanlı yaşayırdı (15). Oxşar şərait Aleksandropol qəzasının Pəmbək, Şorayel sahələrində də yaranmışdı. Beləliklə, keçmiş İrəvan xanlığının ərazisində yerli azərbaycanlılarla gəlmə ermənilərin nisbəti sonuncuların xeyrinə dəyişməyə başlamışdı.

İ.Şopenin göstərdiyinə görə, İrəvan əyalətində 2.984 müsəlman ailəsindən cəmi 847 (28%) qalmış, onların sayı təqribən 3 dəfə azalmışdı. Onlar əsasən qonşu dövlətlərə-Türkiyə və İrana köçmüşdülər (6,s.541). Əlbəttə, müsəlmanların İrəvan quberniyasından mühacirəti təkcə qonşu dövlətlərə deyildi. Ermənilərin üstünlük təşkil etdiyi ərazilərdən köçən azərbaycanlılar, əsasən, müsəlmanların çoxluq təşkil etdiyi qonşu vilayətlərə - Elizavetpol, Bakı quberniyalarına köçməli olurdular (16, s.224).

Yerli azərbaycanlıların öz torpaqlarında sayının azalması prosesi Naxçıvanda da özünü göstərirdi. V.Qriqoryevin məlumatına görə 1827-28-ci illərdə Naxçıvan xanlığında 4.600 ailədən 4.170 ailə azərbaycanlılardan ibarət idi (90 %). 1832-ci ildə köçürülmə siyasəti nəticəsində onların sayı 2.791-ə düşmüş, təqribən 60 % azalmışdı (10, s.31). Akademik T. Köçərli isə 1828-ci ildə Naxçıvan, Ordubadda 4.149 azərbaycanlı ailəsinin (83,6 %) və 810 erməni ailəsinin olduğunu, iki ildən sonra erməni ailələrinin sayının 3.321-ə çatdığını qeyd edir (17, s.239). Çox təəsüf ki, müəllif bu məlumatın mənbəyini göstərməmişdir. Lakin ermənilərin və rusların bütün cəhdlərinə baxmayaraq, Naxçıvan diyarında etnik vəziyyəti ermənilərin xeyrinə dəyişdirmək mümkün olmamışdır. Belə ki, ermənilərin buraya kütləvi köçürülməsinə baxmayaraq, 1897-ci ilin siyahıyaalınması göstəricilərinə görə Naxçıvan və Şərur-Dərələyəz qəzalarında yalnız 55 min 398 nəfər erməni, 125 min 712 nəfər azərbaycanlı yaşayırdı (17, s.239).

Bu faktlar XIX əsrdə və XX əsrin əvvəllərində guya Naxçıvan əhalisinin əksəriyyətini ermənilərin təşkil etdiyi barədə uydurmaları bir daha təkzib edir və diyarın əzəli türk torpağı olduğunu təsdiqləyir.

Ələ keçirdikləri ərazilərdə ermənilər demoqrafik vəziyyəti öz xeyirlərinə dəyişdirməklə bərabər, bu ərazilərin erməniləşdirilməsinə başladılar. Bütün Azərbaycanda, xüsusən İrəvan quberniyasında islam maddi mədəniyyət abidələri genosidə məruz qalır, türk toponimlərinin dəyişdirilməsinə cəhdlər edilir, qədim alban abidələri ermənilərin adına çıxarılırdı.

## ƏDƏBİYYAT

1. Эзов Г. Сношение Петра Великого с армянским народом. Документы, СПб., 1898, 509 с.
2. Глинка С. Описание переселения армян азербайджанских в пределы России. Москва:1831, Баку, Элм, 1990, 144 с.
3. Величко В. Кавказ . Русское дело и междуплеменные вопросы. Баку: Элм, 1990, 244 с.Собрание актов, относящиеся к обозрению истории армянского народа, ч. II, Москва: 1832, 504 с.
4. Акты, собранные Кавказской Археологической Комиссией (АКАК), Тифлис: 1867-1888 гг.
5. Шопен И. Исторический памятник состояние армянской области в эпоху ее

присоединения к Российской империи, СПб., 1852, 1231 с.
6. Ерицов А. Данные об армянском населении в России. Известия КОИРГО, том VII, Тифлис: 1881, 62-71 с.
7. Парсамян В. История армянского народа, Ереван: 1972, 393 с.
8. Галоян Г. Исторические корни русской ориентации армянского народа и прогрессивное значение присоединения Восточной Армении к России. Вопросы истории. Москва: 1972, № 8, с. 47-66
9. Григорьев В. Статистическое описание Нахичеванской провинции. СПб., 1833, 204 с.
10. Шавров Н. Новая угроза русскому делу в Закавказье, предстоящая распродажа Мугани иностранцам. СПБ., Баку: 1990, 156 с.
11. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi, f.1009
12. Nəsiman Y. Məmməd Əmin Rəsulzadə. Bakı: Gənclik 1991, 308 s.
13. Грибоедов А. Записка о переселении армян из Персии в наши области. История Азербайджана по документам и публикациям. Баку: Елм, 1990, с. 56-59
14. Кавказский календар. 1855-1906 гг., Тифлис: 1905 г.
15. Обозрение русских владений за Кавказом, ч. I, СПб., 1903, 401 с.
16. Köçərli T. Qarabağ. (Qarabağ tarixinin saxtalaşdırılması əleyhinə). Bakı: Elm, 2002, 472 s.

## SUMMARY

**Abdulla Mustafayev, Ruhiya Rzayeva**

### AFTER THE RESETTLEMENT OF ARMENIANS TO THE LANDS OF AZERBAIJAN DEMOGRAPHIC CHANGES IN YEREVAN GOVERNORATE

The scientific article talks about the transfer of Armenians to the South Caucasus, especially to the ancient lands of Azerbaijan, after Russia won the wars with Iran and Turkey at the beginning of the 19th century. It is shown that the Armenians, who were particularly active in the occupation of Azerbaijani lands, began to oppress the local population in order to change the demographic situation in their favor after being placed in Nakhchivan and Karabakh with the support of their supporters.

It was noted that the process of the practical implementation of the Russian colonial policy aimed at changing the ethnic-religious conditions in the region went continuously from the beginning of the 19th century to the beginning of the 20th century, and this policy was continued in a subtler form during the Soviet period. At the same time, the authors note that the resettlement of Armenians to the South Caucasus expanded further in the second half of the 19th century, especially after the Russian-Turkish wars of 1853-1856 and 1877-1878. As a result of these wars, in the second half of the 19th century, the number of Armenian population in the governorate increased to 67.4%.

Thus, the Armenians, who created a strong support for themselves in the face of tsarist Russia, tried to become the ruling nation in the region by all means, and unfortunately, they were able to achieve this in most cases. Mass transfer of Armenians to Azerbaijani lands, establishment of a so-called Armenian province in the territories of the Iravan and Nakhchivan khanates, and the addition of the title of ruler of the Armenian province to the numerous titles of the Russian tsar were the first signs of the beginning of a strong Armenian expansion in the Caucasus.

***Key words:*** *Russian-Iranian war, Russian-Turkish war, Gulistan peace treaty, Peace Treaty of Turkmenchay, Nakhchivan Province, "Armenian Province"*

**РЕЗЮМЕ**

**Абдулла Мустафаев, Ругия Рзаева**

**ДЕМОГРАФИЧЕСКИЕ ИЗМЕНЕНИЯ В ЕРЕВАНСКОЙ ГУБЕРНИИ ПОСЛЕ ПЕРЕСЕЛЕНИЯ АРМЯН НА АЗЕРБАЙДЖАНСКИЕ ЗЕМЛИ**

В научной статье говорится о переселении армян на Южный Кавказ, особенно на исконные земли Азербайджана, после победы России в войнах с Ираном и Турцией в начале XIX века. Показано, что армяне, особенно активно занимавшиеся оккупацией азербайджанских земель, начали притеснять местное население с целью изменить демографическую ситуацию в свою пользу после того, как были размещены в Нахчыване и Карабахе при поддержке своих покровителей.

Отмечено, что процесс практической реализации российской колониальной политики, направленной на изменение этноконфессиональной обстановки в регионе, шел непрерывно с начала XIX до начала XX века, и эта политика получила продолжение в более тонкой форме в советский период.

В то же время авторы отмечают, что переселение армян на Южный Кавказ еще больше расширилось во второй половине XIX века, особенно после русско-турецких войн 1853-1856 и 1877-1878 годов. В результате этих войн во второй половине XIX века численность армянского населения в губернии увеличилась до 67,4%.

Таким образом, армяне, создавшие себе мощную опору в лице царской России, всеми способами пытались стать правящей нацией в регионе, и, к сожалению, в большинстве случаев им это удавалось. Массовое переселение армян на азербайджанские земли, создание на территории Иреванского и Нахчыванского ханств так называемой армянской губернии, добавление к многочисленным титулам русского царя титула правителя армянской губернии были первыми ласточками начала мощной армянской экспансии на Кавказе.

***Ключевые слова:*** *Русско-Иранская война, Русско-Турецкая война, Гюлистанский мирный договор; Туркменчайский мирный договор, Нахчыванская область, "Армянская провинция"*

---

***Məqaləni çapa təqdim etdi:*** *tarix elmləri doktoru Xəzər Hüseynov*

***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*

***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 42-47
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 42-47
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 42-47

**RUHİYYƏ RZAYEVA**
*ruhiya.rzayeva@mail.ru*
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 902**

# NAXÇIVANIN ARXEOLOJİ ABİDƏLƏRİNİN TƏDQİQİ

*Məqalədə hələ XIX əsrin 30-cu illərindən başlayaraq Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən və tarixin bütün mərhələlərində insanların məskunlaşdığı ərazilərdən biri biri olan Naxçıvan bölgəsində aparılmış arxeoloji tədqiqatların tarixinə qısa bir tarixi nəzər salınmışdır. Göstərilmişdir ki, özünün münbit torpaqları, geniş otlaqları ilə əkinçilik və maldarlıq üçün çox əlverişli olduğundan bu ərazidən tarixin bütün mərhələlərini özündə əks etdirən arxeoloji abidələr aşkar edilmişdir.*

*Məqalədə məşhur şərqşüns V.N.Xanıkovun hazırladığı "Müsəlman ruhanilərin ali təriqətinin vəziyyəti haqqında layihə"də Naxçıvanın maddi-mədəniyyət abidələrinin siyahısı ilə yanaşı, onlar haqqında məlumat verməsindən, arxeoloq İ.S.Polyakovun 1879-cu ildə Naxçıvanda, Ordubad rayonunun Kilid kəndi ərazisində apardığı arxeoloji qazıntılardan,1927-1928-ci illərdə Qafqaz Tarixi-Arxeoloji İnstitutu tərəfindən göndərilən ekspedisiyaların Araz çayı boyunda apardıqları qazıntılardan, 1983-cü ildə M.Hüseynovun və Ə.Cəfərovun Naxçıvan ərazisində ilk dəfə olaraq daş dövrü abidələrini öyrənmək məqsədilə apardıqları arxeoloji kəşfiyyat işlərindən və s. geniş bəhs edilir. Qeyd olunur ki, müstəqilliyimizin bərpasından sonra ümummilli lider Heydər Əliyev, onun layiqli davamçısı olan Prezident cənab İlham Əliyev tərəfindən imzalanmış müvafiq sərəncamlardan sonra bölgədə genişmiqyaslı arxeoloji tədqiqatlar aparılmış və tarixin müxtəlif dövrlərinə aid zəngin maddi-mədəniyyət nümunələri aşkar edilmişdir.*

***Açar sözlər:*** *Naxçıvan, Neolit dövrü, Eneolit dövrü, Tunc dövrü, Sirabçay hövzəsi, Qahabçay hövzəsi, Gəmiqaya.*

Özünəməxsus təbii-coğrafi şəraitə malik olan Naxçıvan diyarı Azərbaycanınən qədim mədəniyyət mərkəzlərindən biri olmaqla, tarixin bütün mərhələlərində insanların məskunlaşdığı ərazilərdən biri olmuşdur. Naxçıvan bölgəsi şimaldan Kiçik Qafqazın Zəngəzur və Dərələyəz dağ silsilələri ilə, cənub istiqamətdən Araz çayı ilə sərhədlənir. Özünün münbit torpaqları, geniş otlaqları ilə əkinçilik və maldarlıq üçün çox əlverişli olduğundan bu ərazidən tarixin bütün mərhələlərini özündə əks etdirən arxeoloji abidələr aşkar edilmişdir.

Naxçıvan ərazisində xeyli sayda qədim dövrə aid abidələr mövcuddur. Qədim dövrə aid abidələrlə zəngin olan bu diyarda XIX əsrin 30-cu illərindən etibarən arxeoloji qazıntılar aparılmağa başlanılmışdır (6, s.4). Arxeoloji qazıntılar nəticəsində bölgədən tarixin müxtəlif dövrlərini özündə əks etdirən maddi-mədəniyyət abidələri qeydə alınmış və bu abidələrin əksəriyyətində arxeoloji qazıntılar aparılmış, tariximiz üçün əhəmiyyətli olan tapıntılar əldə edilmişdir.

Məşhur şərqşünaslardan biri olan V.N.Xanıkov hələ 1847-1849-cu illərdə qraf Vorontsov Daşkovun tapşırığına əsasən "Müsəlman ruhanilərin ali təriqətinin vəziyyəti haqqında layihə" hazırlamış və bu layihədə Azərbaycanın bir çox bölgələrinin, o cümlədən Naxçıvanın maddi-mədəniyyət abidələrinin siyahısı ilə yanaşı, onlar haqqında məlumat da vermişdir (11). Daha sonra rus həvəskar arxeoloqu İ.S.Polyakov 1879-cu ildə Naxçıvanda, Ordubad rayonunun Kilid kəndi ərazisində arxeoloji qazıntılar aparmış və bir sıra maddi mədəniyyət abidələri aşkara çıxarmışdır (7). Sonrakı illərdə muxtar respublika ərazisində aparılan arxeoloji tədqiqatların miqyası və sahəsi daha

da genişlənmişdir. Belə ki, 1927-1928-ci illərdə Qafqaz Tarixi-Arxeoloji İnstitutu tərəfindən göndərilən ekspedisiyalar Araz çayı boyunda, Culfa şəhəri və yaxınlıqda yerləşən Xanağa, Xaraba-Gilan ərazisində qazıntı işləri aparmış və nəticədə burada ilk şəhər mədəniyyətinin izləri üzə çıxarılmışdır.

1975-ci ildən başlayaraq Azərbaycanın bir çox bölgələrində, o cümlədən Naxçıvanda arxeoloji ekspedisiyalar təşkil olundu (8, s.5). 1983-cü ildə AMEA Tarix İnstitutunun Paleolit arxeoloji ekspedisiyası M.Hüseynovun və Ə.Cəfərovun rəhbərliyi altında Naxçıvan ərazisində ilk dəfə olaraq daş dövrü abidələrini öyrənmək məqsədilə arxeoloji kəşfiyyat işləri aparmışlar. Aparılmış qazıntılar nəticəsində Ordubad rayonu ərazisində möhtəşəm Kilid mağarası, Şərur rayonu ərazisində Qazma mağarası qeydə alımışdır (12). 1983-cü ildən Qazma mağarasında, 1988-ci ildən isə Maxta kəndi ərazisində aparılan qazıntı işləri nəticəsində əldə olunmuş materiallar qədim insanların bu mağarada hələ 3200 il bundan əvvəl yaşamaları haqqında məlumat verir (16). Maxta kəndində 2006-cı ildə Azərbaycan arxeoloqları ilə Amerika arxeoloqları birgə ekspedisiya təşkil etmiş, əldə edilmiş materialların ABŞ-da radiokarbon analizlərinin nəticələri abidənin daha qədimə, e.ə. IV minilliyə aid olduğunu göstərmişdir. 2008-ci ildə də bu iş davam etdirilmiş və AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "Maxta arxeoloji ekspedisiyası" kənddə qazıntılar aparmışdır (16). Maxta kəndi ərazisində yerləşən Qarabulaq kurqanlarında 1989-1990-cı illərdə başlanmış tədqiqat işləri 2002-ci ildə yenidən davam etdirilmişdir. 2008-ci ildə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun, AMEA Naxçıvan Bölməsinin mütəxəssisləri ABŞ-ın Pensilvaniya Universitetinin əməkdaşları ilə birgə Şərur rayonu ərazisində yerləşən Oğlanqala yaşayış yerində arxeoloji tədqiqatlar aparmışlar.

Ümumiyyətlə, Naxçıvan bölgəsinin arxeoloji abidələrinin tədqiqində əsas dönüş XX əsrin sonlarındaAzərbaycanın ikinci dəfə müstəqilliyini əldə etməsindən sonra yaranmışdır. Müstəqilliyimizin elanından sonrakı dövrdə, xüsusilə də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra ictimai həyatımızın bütün sahələrində olduğu kimi, arxeologiya elminin inkişafında da əsaslı bir dönüş baş verdi. Ulu öndərin AMEA Naxçıvan Bölməsinin təsis edilməsi barədə Sərəncamında "Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə, bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi - həm təbiətinin, həm adət-ənənələrinin, etnoqrafiyasının öyrənilməsi barədə çox az iş görülübdür. Bunları nəzərə alaraq, mən bu Sərəncamı vermişəm" dediyi sözləri əldə rəhbər tutan tarixçi və arxeoloqlarımız bu qədim diyarın tarixinin araşdırılması istiqamətində çox böyük işlər görməyə başlamışlar (14).

Naxçıvan abidələrinin Azərbaycanın qədim və zəngin tarixinin öyrənilməsində müstəsna rolu və əhəmiyyəti vardır. Bunları nəzərə alan ulu öndər 2001-ci ildə muxtar rüspublikaya geniş tərkibdən ibarət arxeoloji ekspedisiyanın ezam edilməsi barədə göstəriş vermişdir. Bu göstərişdən sonra 2001-2002-ci illərdə Naxçıvan-Gəmiqaya ekspedisiyası təşkil olunmuşdur (8, s.7).

Ümummilli liderin həyata keçirdiyi siyasəti layiqli şəkildə davam etdirən Prezident İlham Əliyev "Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən 2008-2009-cu illərdə aparılması nəzərdə tutulan arxeoloji ekspedisiyaların maliyyələşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2008-ci il fevral ayının 5-də Sərəncam imzalamışdır. Bu sərəncam Azərbaycanda, eyni zamanda Naxçıvanda arxeologiya elminin inkişafına yeni bir təkan verdi (4). Sərəncamın verilməsindən sonra Arxeologiya və Etnoqrafiya İnstitutu respublikamızın müxtəlif bölgələrinə təqribən 40 ekspedisiya təşkil etdi ki, bunlardan da 8 ekspedisiya muxtar respublikaya göndərilmişdir. Bu ekspedisiyalar AMEA Naxçıvan Bölməsinin mütəxəssisləri ilə birlikdə muxtar respublikanın müxtəlif rayonlarında araşdırmalar aparmışlar.

Müstəqillik illərində ABŞ və Fransa alimlərinindən ibarət beynəlxalq ekspedisiyalar da yerli mütəxəssislərlə birlikdə muxtar respublika ərazisində arxeoloji qazıntılar aparmışlar. Bu qazıntılar nəticəsində əldə edilmiş materiallar qədim daş dövründən başlayaraq insanların təsərrüfat və mənəvi həyatlarını ardıcıl surətdə öyrənməyə imkan verir.

Azərbaycanın iqtisadi qüdrəti artdıqca bütün sahələrdə olduğu kimi, arxeologiya sahəsində də

geniş tədqiqatlar aparmağa imkan yaranmışdır. Məhz bu inkişafın nəticəsidir ki, muxtar respublikada aparılmış genişmiqyaslı qazıntılar nəticəsində xeyli sayda qiymətli materiallar əldə edilmişdir. Naxçıvan ərazisində son dövrlərdə beynəlxalq arxeoloji ekspedisiyaların apardıqları arxeoloji tədqiqatlar və bu qazıntılar nəticəsində əldə edilmiş materialların əhəmiyyətini xüsusilə vurğulamaq lazımdır. Bu tədqiqatların əhəmiyyəti ondadır ki, qazıntılar zamanı bölgənin Neolit, Eneolit və Tunc dövrü abidələrinin yerləşmə xüsusiyyətlərini, yayıldığı coğrafi arealı, əhalinin məskunlaşması və s. məsələlər tədqiq edilmişdir.

Muxtar respublika ərazisində əvvəlki dövrlərdə aparılmış qazıntılar zamanı tarixin müxtəlif dövrlərinə aid maddi-mədəniyyət nümunələri aşkar edilsə də, Neolit və Eneolit dövrlərinə aid olan abidələr və bu abidələrin mənşəyi ilə bağlı olan məsələlər tam şəkildə araşdırılmamışdır. Yalnız müstəqilliyimizin bərpasından və yuxarıda adlarını qeyd etdiyim Sərəncamların imzalanmasından sonra Naxçıvan ərazisində Neolit və Eneolit abidələrinin mövcudluğunun üzə çıxarılması sahəsində tədqiqatlar aparılmış, qazıntılar nəticəsində bu dövrlərə aid müəyyən nəticələr əldə edilmişdir. Aparılmış bu qazıntılar zamanı qədim daş dövründən başlayaraq tarixin müxtəlif mərhələlərinə aid zəngin maddi-mədəniyyət nümunələri aşkarlanmışdır.

Baxmayaraq ki, XX əsrin 50-ci illərinin əvvəllərinə qədər Naxçıvanda qədim insan düşərgələrinin mövcud olmadığı barədə fikirlər mövcud idi, lakin qeyd etdiyim kimi, Naxçıvan arxeoloqlarının AMEA NB Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun və ABŞ, Fransa arxeoloqları ilə son dövrlərdə birgə apardıqları qazıntılar nəticəsində muxtar respublika ərazisində ibtidai insanların hələ iki milyon il bundan əvvəl yaşamağa başladıqları əldə olunmuş maddi-mədəniyyət nümunələri ilə sübuta yetirilmişdir.

AMEA Naxçıvan Bölməsinin 2007-ci ildə Fransa Beynəlxalq Araşdırma Mərkəzi ilə birlikdə apardıqları ekspedisiya nəticəsində Eneolit dövrünün sonuna və Kür-Araz mədəniyyətinə aid edilən abidələr aşkar edilmişdir (9, s.4). 2014-2015-ci illərdə də Azərbaycan-Fransa beynəlxalq arxeoloji ekspedisiyası Sirabçay vadisində arxeoloji qazıntılar aparmışlar (5,s.8). Qazıntılar zamanı Sirabçayın Naxçıvançaya birləşdiyi yerdə, Uzunoba yaşayış yerində Eneolit dövrünün erkən və son dövrlərinə aid materiallar əldə olunmuşdur. Həmçinin, I Kültəpə yaşayış yerində 2013-2016-cı illərdə Fransa arxeoloqları ilə birgə aparılan qazıntılar zamanı üzə çıxarılmış 8 metrlik mədəni təbəqənin Son Neolit dövrünə aid olduğu müəyyənləşmişdir (9, s.4). Ümumiyyətlə isə, Sirabçay və Qahabçay hövzəsində 30-a yaxın Neolit və Eneolit dövrlərinə aid yeni arxeoloji abidə bu məqalənin müəllifinin də iştirakı ilə tədqiqata cəlb edilmişdir. Bu abidələr Neolit, Eneolit dövrlərindən başlayaraq Orta əsrlər dövrünə qədər Naxçıvan tarixinin böyük bir mərhələsini əhatə edir.

Naxçıvan Muxtar Respublika Ali Məclisi Sədri tərəfindən imzalanmış 20 aprel 2012-ci il tarixli "Naxçıvan: ilkin şəhər və Duzdağ" adlı Sərəncamda qeyd edildiyi kimi, "...bu ərazidə ikinci sivilizasiyanın vacib elementi olan ilkin şəhər mədəniyyəti formalaşmışdır" (13, s.3-4). Aparılmış qazıntılar zamanı Sirabçay və Qahabçay vadisindən xeyli yeni tapıntılar aşkar edilmiş, bu tapıntılarla dünya mədəniyyətinin beşiyi hesab olunan Mesopotomiya tapıntıları arasında oxşarlığın olması müəyyən edilmişdir. Eyni zamanda, bu tapıntılar Sirabçay və Qahabçay vadisində mövcud olan mədəniyyətin bütün Cənubi Qafqaz üçün nə dərəcədə əhəmiyyətli olmasının bir göstəricisidir.

Son illərdə arxeoloq Vəli Baxşəliyevin rəhbərlik etdiyi arxeoloji ekspedisiyanın Naxçıvan Muxtar Respublikasında apardıqları tədqiqatlar nəticəsində yüzlərlə yeni tarix və mədəniyyət abidələri qeydə alınmış, qazıntılar zamanı əldə olunmuş bu abidələr ibtidai insanların həyat tərzinin öyrənilməsində dəyərli materiallar əldə etməyə imkan vermişdir.

Vəli Baxşəliyev və Zaleh Novruzovun Sirabçay, Qahabçay hövzəsində birgə apardıqları arxeoloji qazıntılar zamanı təkcə Eneolit dövrünə aid 23 yeni abidə qeydə alınmış, 2010-2014-cü illər arasında bu abidələrin bir neçəsində arxeoloji qazıntılar aparılmışdır. Bu abidələrin əhəmiyyəti nəzərə alınaraq, 2014-2017-ci illərdə Azərbaycan-Fransa birgə ekspedisiyası tədqiqatları daha da genişləndirmişdir. Müəyyən olunmuşdur ki, bu abidələrin əksəriyyəti Eneolit dövrünə aid olsa da, Erkən və Orta Tunc dövrünün müəyyən mərhələləri də izlənilmişdir. Əldə olunmuş nümunələrdən götürülən karbon analizləri tapılmış materialların e.ə. V minilliyin I yarısına aid olduğunu

göstərmişdir (15).

Beynəlxalq Azərbaycan-Fransa arxeoloji ekspedisiyası Babək rayonu ərazisində geniş tədqiqat işləri aparmış və nəticədə Naxçıvançay və Sirabçay hövzəsində yeni-yeni abidələr aşkar olunaraq tədqiqata cəlb olunmuşdur. Sirabçay və Qahabçay vadisindən aşkar edilmiş abidələrin tədqiq edilməsi nəticəsində metallurgiyaya və metalişləməyə aid yeni məlumatlar əldə edilmişdir. Bu məlumatlar duz, mis, obsidan və s. xammal ehtiyatlarının istifadəsində Naxçıvançay və Sirabçay tayfalarının mühüm rola malik olduqlarını, bölgənin Cənubi Qafqaz ilə Yaxın Şərq ölkələri arasında keçid məntəqəsi rolunu oynadığını göstərir.

I Kültəpə yaşayış yerindən Xələf tipli keramika (siramik) tapılmışdır ki, bu da e. ə. V minillikdən Naxçıvan ərazisində tayfaların məskunlaşmasını və bu tayfaların Mesopotamiya ilə sıx əlaqəsinin olduğunu təsdiq etdi (9, s.6-13).

Sirabçay vadisində yerləşən bir sıra abidələrdə, o cümlədən Sərinbulaq, Şorsu, Zirincli, Uçan Ağıl abidələrində aparılmış irimiqyaslı arxeoloji qazıntılar nəticəsində tarixin müxtəlif dövrlərində bu abidələrdə köçmə maldarlıqla məşğul olan tayfaların yaşadıqları müəyyən edilmişdir (5, s. 7).

Qeyd etmək lazımdır ki, Cənubi Qafqazda Eneolit dövrünün erkən və orta mərhələsinə aid olan abidələr azdır. Bu dövrə aid abidələrin aşkar edildiyi Uzunoba və Uçan Ağıl yaşayış yerləri bu baxımdan mühüm əhəmiyyət daşıyırlar. Belə ki, arxeoloq Vəli Baxşəliyev tərəfindən adları çəkilən abidələrdən götürülən nümunələrin karbon nümunələrinin analizlərinin nəticələri onların e.ə. 4690-4450-ci illərə aid olduğu müəyyənləşdirməyə əsas verir (10).

Sirabçay vadisində aparılmış arxeoloji qazıntılar öz müsbət nəticələrini vermiş, Eneolit dövrünə aid xeyli sayda abidələr üzə çıxarılmışdır. Bu dövrə aid abidələrin çoxluğu imkan vermişdir ki, ərazidə arxeoloji qazıntıların miqyası daha da genişləndirilsin. Sirabçay vadisi abidələri bir də ona görə əhəmiyyətlidir ki, bu abidələr Naxçıvanın Yaxın Şərq ölkələri ilə qarşılıqlı əlaqələrinin olmasını sübut edir.

Beləliklə, muxtar respublika ərazisində aparılmış arxeoloji tədqiqatlar Naxçıvan əhalisinin mədəniyyəti, mənəviyyatı, dəfn adətləri, qonşu ölkələrlə qarşılıqlı əlaqələri və s. baxımından Azərbaycan elminə böyük töhfələr vermişdir. Bu abidələrdə aparılmış tədqiqatlar nəticəsində sübut olunmuşdur ki, bölgədə munilliklər ərzində davamlı olaraq həyat davam etmişdir. Ona görə də Naxçıvan abidələri xalqımızın avtoxton olduğunu sübut edən böyük tarixi əhəmiyyətə malik olan abidələrdir.

## ƏDƏBİYYAT


1. Vəli Baxşəliyev, Fizzə Quliyeva. Naxçıvanın tarixi abidələri. Bakı: Nurlan, 2017, 212 s.
2. Baxşəliyev Vəli. Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm, 2008, 304 s.
3. Baxşəliyev Vəli, Lauren Ristvet, Hilary Gopnik, Səfər Aşurov. Naxçıvanda arxeoloji tədqiqatlar (II Kültəpə, I Maxta Kültəpəsi, Oğlanqala və digər abidələrdə aparılan tədqiqatların ilkin nəticələri). Naxçıvan: 2010, 61 s.
4. Sarıyeva İradə. Azərbaycan arxeologiya elminə dövlət qayğısı. https://wwwbaki-xeber.com
5. Baxşəliyev Vəli. Sirabda arxeoloji araşdırmalar. Bakı: Oskar, 2010, 160 s.
6. Baxşəliyev Vəli. Azərbaycan arxeologiyası. I cild, Bakı: 2006, 236 s.
7. Zeynalov Azad. Naxçıvan ərazisi orta paleolit dövründə. http://qedim.nakhcivan.az
8. Azərbaycan arxeologiyası (daş dövrü). Altı cilddə, birinci cild. Bakı: 2008, 227 səh.
9. Baxşəliyev Vəli, Catherine Marro, Remi Berthon, Zeynəb Quliyeva, Savaş Sarıaltın. Kültəpədə arxeoloji tədqiqatlar (2013-2016), Bakı: Nurlan, 2017, 164 s.
10. Beynəlxalq ekspedisiya Naxçıvanda yerləşən arxeoloji abidəni tədqiq edir. http://interfax.az
11. Azərbaycanda memarlıq və arxeoloji abidələrin öyrənilməsi. http://medeniyyet.az
12. Cəfərov Əsədulla. Naxçıvanın qədim insan düşərgələri. http://www.qedim.nakhcivan.az
13. Naxçıvan: İlkin şəhərvə Duzdağ (27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq simpoziumun

materialları). Naxçıvan: 2013, 360 s.
14. AMEA-nın Naxçıvan Bölməsinin fəaliyyəti və qarşıda duran vəzifələr barədə müşavirə keçirilib. https://science.gov.az
15. AMEA Naxçıvan Bölməsində arxeoloji ekspedisiyaların yekunları müzakirə edilib. https://azertag.az
16. Aşurov Səfər. Naxçıvanda beynəlxalq araşdırmalar erməni yalanlarına son qoyub. http://davam.az

## SUMMARY

**Ruhiyya Rzayeva**

## RESEARCH OF ARCHAEOLOGICAL MONUMENTS OF NAKHCHIVAN

The article deals with a brief historical overview of the history of archaeological research conducted in the Nakhchivan region, which is one of the ancient cultural centers of Azerbaijan and inhabited by people at all stages of history, starting from the 30s of the 19th century. It is stated that, archaeological monuments representing all stages of history have been discovered from the areas which are very suitable for farming and cattle breeding due to its fertile lands and large pastures.

The article deals with the information about material and cultural monuments of Nakhchivan, along with the list of them in his "Project on the State of the Supreme Order of Muslim Clergy", the archaeological excavations conducted by archaeologist S. Polyakov in 1879 in Nakhchivan, in the area of Kilid village of Ordubad district, the excavations conducted by the expeditions sent by the Caucasian Historical and Archaeological Institute in 1927-1928 along the Araz River, M. Huseynov and A. Jafarov's archaeological exploration in the Nakhchivan area for the first time in order to study the stone age monuments in 1983. It is highlightened that large-scale archaeological researches have been conducted in the region and rich material-cultural samples from different periods of history have been discovered after the restoration of our independence and after the respective Orders signed by national leader Heydar Aliyev, his worthy successor, President Mr. Ilham Aliyev.

***Key words:*** *Nakhchivan, Neolithic Age, Chalcolithic Age, Bronze Age, Sirabchay basin, Gahabchay basin, Gamigaya.*

## РЕЗЮМЕ

**Рухия Рзаева**

## ИЗУЧЕНИЕ АРХЕОЛОГИЧЕСКИХ ПАМЯТНИКОВ НАХЧЫВАНА

В статье представлен краткий исторический обзор древних культурных центров Азербайджана, начиная с 30-х годов XIX века, и археологических исследований, проводимых в Нахчыванском регионе, одном из районов расселения людей на всех этапах истории. Было показано, что благодаря своим плодородным почвам, обширным пастбищам, очень благоприятным для сельского хозяйства и животноводства, на этой территории были обнаружены археологические памятники, охватывающие все этапы истории.

В статье известный востоковед В. N. В подготовленном ханыковым"проекте о состоянии высшей секты мусульманского духовенства " наряду со списком материально-культурных памятников Нахчывана была дана информация о них, археолог И. S. Из археологических раскопок, проведенных Поляковым в 1879 году в Нахчыване,на территории села Килид Ордубадского района, из раскопок, проведенных экспедициями, направленными Кавказским историко-археологическим институтом в 1927-1928 годах вдоль реки Араз, в 1983 году М. Вып. Джафарова впервые на территории Нахчывана была проведена археологическая разведка с целью изучения памятников каменного века и др. широко обсуждается. Отмечается, что после восстановления независимости, после соответствующих распоряжений, подписанных общенациональным лидером Гейдаром Алиевым, его достойным преемником Президентом Ильхамом Алиевым и председателем Верховного Меджлиса Нахчыванской АР господином Васифом Талыбовым, в регионе были проведены масштабные археологические исследования и обнаружены богатые материально-культурные образцы, относящиеся к разным периодам истории.


***Ключевые слова:*** *Нахчыван, Неолитический период, Энеолитический период, Бронзовый период, Сирабчайский бассейн, Гахабчайский бассейн, Гамигая.*

---

***Məqaləni çapa təqdim etdi:*** *tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədov*
***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 48-52
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 48-52
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 48-52

**NAZLI SEYİDOVA**
*nazliseyidova2@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 930:37.016**

# TARİXİ TƏSƏVVÜRLƏRİN NÖVLƏRİ VƏ TARİXİ BİLİKLƏRİN FORMALAŞMASI PROSESİNDƏ ONLARIN ROLU

*Elmi məqalədə tarixi təsəvvürlərin növləri və tarixi biliklərin formalaşması prosesində onların rolu araşdırılır. Göstərilir ki, məktəbdə tarix kursunun ən mühüm təlim və tərbiyəvi əhəmiyyəti tarixi faktların öyrənilməsindən və şagirdlərdə bu barədə lazımi təsəvvürlərin yaradılmasından ibarətdir. Belə ki, tarixin tədrisi prosesində məktəblilərdə canlı təsəvvürlərin yaradılması ideya və mənəvi tərbiyənin formalaşmasına köməklik göstərir.*

*Məqalədə qeyd olunur ki, tarixi keçmişin şagirdlərə çatdırılması zamanı müxtəlif üsullardan, o cümlədən hekayə, şərh və izah formalarından istifadə olunur.*

*Təlim prosesində müəllimlər bir sıra çətinliklərlə qarşılaşırlar ki, bunlardan biri də tarixi təsəvvürlərin həddindən artıq çox olması ilə bağlıdır. Bu isə öz növbəsində dərsin şagirdlər tərəfindən çətin qavranılmasına səbəb olur.*

*Göstərilir ki, şagirdlərdə anlayışların formalaşdırılması həm onların yaş xüsusiyyətləri ilə, həm öyrənilən materialın həcmindən, həm də materialın nə dərəcədə vacib olması ilə də bağlıdır. Əgər şagirdlər anlayışların mənimsənilməsində çətinlik çəkirlərsə, o zaman ilk növbədə onlarda anlayışlar haqqında təsəvvürlər yaratmaq lazımdır.*

*Tarixin təlimi prosesində zaman-zaman bəzi anlayışlar öz əhəmiyyətini itirir, onlar yeniləri ilə əvəz olunurlar. Ona görə də göstərilir ki, anlayışların müxtəlifliyi tarix müəllimindən müxtəlif üsul və vasitələr axtarıb tapmağı tələb edir. Anlayışların tətbiqi zamanı isə, qeyd etdiyimiz kimi, şagirdlərin yaş xüsusiyyətləri mütləq nəzərə alınmalıdır.*

***Açar sözlər:*** *tarixi anlayışlar, mənəvi tərbiyə, tarixi təsəvvürlər, təlim prosesi, xüsusi tarixi anlayışlar, ümumi tarixi anlayışlar, tarixi faktlar*

Tarixin təliminin əsas xarakterik cəhətlərindən biri də odur ki, dəqiq, düzgün tarixi fakt barədə olan canlı təsəvvürlər birbaşa ümumi anlayışlar, ideya və son nəticələr üçün əsas rolunu oynayır. Məktəbdə tarix kursunun bir sıra çox mühüm təlim, eyni zamanda tərbiyəvi əhəmiyyəti vardır ki, onlardan da biri tarixi faktların hərtərəfli öyrənilməsi ilə yanaşı, müvafiq təsəvvürlərin yaradılmasından ibarətdir. Tarixi keçmişin obrazlar vasitəsi ilə dərk edilməsi, başa düşülməsi ən vacib və ən mühüm məsələlərdən biridir. Tarixi anlayışların formalaşdırılması ilə bərabər tarixi təsəvvürlərin yaradılması istiqamətində də aparılan işlər həm idraki, eyni zamanda həm də tərbiyəvi əhəmiyyət daşımaqdadır. Orta məktəb şagirdlərində tarixi keçmişin canlı mənzərəsinin yaradılması onlarda bir tərəfdən həyəcan yaratmaqla bərabər, digər tərəfdən rəhm, nifrət, qürur, fəxr kimi hissləri də formalaşdırır. Məsələn, tarixi qəhrəmanlarımızın obrazlarının yaradılması onlarda ideya-mənəvi tərbiyənin formalaşmasına köməklik göstərir. 44 günlük və yaxud II Qarabağ müharibəsində əsgərlərimizin misilsiz qəhrəmanlıqları şagirdlərdə vətənpərvərlik hisslərinin aşılanmasına xeyli dərəcədə müsbət təsir göstərmişdir. Şagirdlərdə mənəvi tərbiyənin formalaşmasına da tarixi təsəvvürlər çox böyük təsir göstərir.

Şagirdlərdə tarixi keçmiş haqqında təsəvvürlərin formalaşdırılmasında təbii ki, müəyyən çətinliklər də mövcuddur. Bu isə, hər şeydən əvvəl onunla əlaqədardır ki, bildiyimiz kimi, tarixi keçmiş təkrar olunmur, onu yenidən yaşamaq mümkün deyil. Ona görə də tarixi keçmişin şagirdlərə

çatdırılmasında müxtəlif üsullardan istifadə olunur. Belə ki, tarixi keçmiş şagirdlərə hekayə şərh, izah və s. formalarda çatdırılır (1,s.150-153). Şagirdlər quldarlıq quruluşu və bu quruluşda insanların hüquqsuz olmaları, kəndlilərin təhkimli halında yaşamaları və s. barədə olan təsəvvürləri mənimsəməkdə çətinlik çəkirlər. Bu məqsədlə də şagirdlərdə tarixi təsəvvürləri formalaşdırarkən müxtəlif üsul və vasitələrdən istifadə olunur. Tarixi təsəvvürlərin həddən artıq çoxluq təşkil etməsi də təlim prosesində müəllimlərə çətinlik yaradır. Çünki bu da dolayısı yolla hadisələrin şagirdlər tərəfindən mənimsənilməsinə təsir göstərir. Eradan əvvəlki minilliklərdən insanların əmək məşğuliyyətləri ilə bağlı olan təsəvvürlər də buraya aiddir (2, s.78).

Təbii ki, aşağı sinif şagirdləri ilə yuxarı sinif şagirdləri arasında mənimsəmə imkanları eyni deyil, fərqlidir. Bununla yanaşı, şagirdlər arasında olan yaş xüsusiyyətləri, materialın həcmi, öyrədilən materialın nə qədər vacib olması da anlayışların mənimsənilməsinə təsir edən amillərdəndir. Ona görə də, əgər istənilən yaş dövründə anlayışların mənimsənilməsi şagirdlər üçün çətinlik törədirsə, o zaman ilk növbədə şagirdlərdə anlayışlar haqqında təsəvvürü formalaşdırmaq lazımdır. Müəyyən təzahürlərin ümumiləşmiş məcmusu olan bu təsəvvürlərin əsasında şagirdlərdə anlayışlar formalaşdırmaq mümkündür.

Şagirdlər tərəfindən tarixi anlayışların mənimsənilməsi imkan verir ki, onlar tarixi faktların mühüm əlamətlərini dərk etsinlər. Şagirdlərdə tarixi təsəvvürlər ilə tarixi anlayışlar eyni vaxtda formalaşdırılsa da, təsəvvürlər anlayışlardan fərqlidir. Çünki eyni sinifdə oxuyan hər bir şagird üçün təsəvvürlər ayrı-ayrı yollarla formalaşdırılır, yəni burada artıq təsəvvürlərin formalaşdırılması fərdiləşdirilir. Qeyd etdiyimiz kimi, bu şagirdlərin xarakterindən asılıdır (8).

Müasir dövrdə tarixin təlimi prosesində elə anlayışlar vardır ki, artıq onlar öz əhəmiyyətlərini itirib, bunun müqabilində yeni-yeni anlayışlar ortaya çıxıbdır. Tarixin təlimi prosesində formalaşan anlayışlar iqtisadi, sosial-siyasi, tarixi-mədəni və ideoloji əsaslara görə qruplaşdırılıblar (3, səh. 47).

Bu cür müxtəlif anlayışların istifadə olunduğu yeganə fənn tarix fənnidir. Anlayışların müxtəlif olması tarix dərslərini tədris edən müəllimlərindən onların hər birinə aid müvafiq üsul və vasitələr axtarıb tapmağı tələb edir. Anlayışları qruplaşdıran zaman şagirdlərin yaş xüsusiyyətlərini mütləq nəzərə almaq lazımdır. Bu zaman isə hər bir dövrə aid olan faktların özünəməxsus olan xüsusi keyfiyyətlərinin öyrənilməsi üçün zəruri olan, tarixi təzahürlərin mahiyyətini öyrənmək üçün zəruri olan, yeni tarixi faktların öyrənilməsi üçün zəruri olan meyarları mütləq nəzərə almaq lazımdır.

Anlayışlar ümumiləşdirilmə dərəcəsinə görə aşağıdakı qruplara bölünürlər: Birinci qrup anlayışlara xüsusi-tarixi (vahid) anlayışlar, ikinci qrup anlayışlara ümumi-tarixi anlayışlar, üçüncü qrup anlayışlara isə, sosioloji anlayışlar daxildir.

Xüsusi-tarixi anlayışlar öz növbəsində iki yarımqrupa bölünür: birinci yarımqrupa ilkin tarixi faktların ümumiləşməsindən əmələ gələn tarixi faktlar, ikinci yarımqrupa isə ümumi anlayışları daha da konkretləşdirən anlayışlar daxildir. Ümumi-tarixi anlayışlardan fərqli olaraq xüsusi-tarixi anlayışlar uzun bir tarixi dövrü əhatə edir.

Ümumi-tarixi anlayışlar həm sosial-iqtisadi, həm də siyasi quruluş cəhətdən oxşar olan ölkələr üçün xarakterik olan anlayışlardır. Bu cür anlayışların formalaşdırılması üçün bilik ehtiyatının olması vacib şərtdir. Ümumi tarixi anlayışlar üzərində şagirdlərlə iş tam məktəb tarix kursu boyunca davam edir (3, s.25). Bu anlayışları formalaşdırmaq üçün sxemlərdən, planlardan, ümumiləşdirici cədvəllərdən istifadə olunur. Sosioloji anlayışlar dünyanın hər yerində olan anlayışlardır. Bu cür anlayışlar daha çox ümumiləşdirmə dərəcəsinə malik hadisələr əsasında formalaşır.

Anlayışların quruluşunu dəqiq təsvir etmək yolu ilə onlarla məqsədyönlü şəkildə iş aparmaq olar. Yəni anlayışlara uyğun terminləri müəyyənləşdirərək onların quruluşunu təsəvvür edə bilərik. Tarixin təlimində anlayışların formalaşdırılması induktiv yol ilə getməlidir, yəni əvvəlcə çar, firon, şah, hökmdar s. kimi tarixi anlayışları, sonra isə "dövlət" anlayışını formalaşdırmaq lazımdır. Bu yola induktiv yol deyilir. Bunun əksinə olan yol isə deduktiv yoldur. Burada bir məsələni yadda saxlamaq lazımdır ki, anlayışların və təsəvvürlərin həm yaradılması, həm də mahiyyəti hər bir dövlətin yeritdiyi siyasətlə bağlıdır. Məsələn, qeyd edək ki, sovet hakimiyyəti dövründə istismarçılarla istismar olunanlar, feodal, kapitalist, mülkədar, qolçomaq kimi anlayışlar ideoloji cəhətdən formalaşdırılmış

anlayışlar idi. Təbii ki, bütün bunlar da son nəticədə şagirdlərdə anlayışlar haqqında yanlış təsəvvürlərin yaranmasına gətirib çıxarırdı. Bütün bu deyilənlərə əsasən də göstərə bilərik ki, şagirdlərdə təsəvvürlərin və anlayışların düzgün formada formalaşdırılmasına müəllim cavabdehdir.

Tarixi anlayışların təşəkkülünün əsasını tarixi təsəvvürlər təşkil edir. Şagirdlərin hafizəsində obraz və mənzərələr zəngin olarsa, o zaman bunların əsasında formalaşan anlayışlar da bir o qədər məzmunlu olar. Qeyd etdiyimiz bu amil təsəvvürlərin nə qədər əhəmiyyət daşıdığının göstəricisidir. Bunlardan əlavə, keçmişdə baş vermiş tarixi hadisələrin şagirdlərin beynində işıqlandırılması, baş vermiş hadisələrin ən mühüm əlamətlərinin izah edilməsi, bu əlamətlərin xarakteri, onların şərhi, tarixi anlayışların vacib əlamətlərinin izah edilməsi dərslərin şagirdlər tərəfindən yaxşı mənimsənilməsi üçün çox vacibdir. Çünki hər hansı bir qəhrəman barədə şagirdlərdə təsəvvür formalaşırsa, şagird onu özü üçün ideal seçir, ona bənzəməyə çalışır. Bu baxımdan, tarixi təsəvvürlər mənəvi-siyasi tərbiyədə əsas vasitədir.

Tarixi faktın xüsusiyyəti müəyyən zaman çərçivəsində təyin edilir. Belə ki, hər hansı bir tarixi faktın vaxtı müəyyən edildikdən sonra həmin hadisənin ondan əvvəlki və ondan sonrakı hadisələrlə bağlılığını müəyyənləşdirmək olur.

Məlumdur ki, şagirdlər xronologiyanı bir dəfəyə öyrənə bilmirlər. Onlar böyük zəhmət hesabına bunu öyrənirlər. Uzun müddət şagirdlərin çəkdikləri zəhmətin nəticəsində onların yaddaşlarında hələlik boş olan əsrlər yeni-yeni məlumatlarla dolur, baş verən hadisələr xronoloji ardıcıllıqla beyinlərinə yazılır (4). Son nəticədə isə onların əsr və minilliklər barədə anlayış və təsəvvürləri formalaşır.

Ümumilikdə, müəllimlərin gərgin əməyi hesabına şagirdlər tədricən buraxdıqları nöqsanları, daha doğrusu, səhvləri düzəldirlər. Tədris prosesində müəllimlərin şagirdlərə hirslənmələri, acıqlanmaları, onları təhqir etmələri və s. yolverilməzdir, buna imkan vermək olmaz.

Dərsliklərə fikir versək görərik ki, aşağı siniflərin kitablarında tarixi hadisələr, bu hadisələrin baş verdiyi illər, hadisələrin səbəb və nəticələri və s. qara və qalın xətlə yazılır. Bu heç də təsadüfi bir hal deyil. Bunlar ona görə qara və qalın hərflərlə yazılır ki, şagirdlərin diqqətini çəksin, onu diqqətlə oxusunlar və yaddaşlarında saxlasınlar. Bu yazılar xüsusi əhəmiyyət daşıdığı üçün bu şəkildə verilir.

Baş verən ən mühüm tarixi hadisələrin məktəbli uşaqların yaddaşlarında uzun müddət qalmasını təmin etməyin əhəmiyyətli yollarından biri bu hadisələrdə iştirak etmiş tarixi şəxsiyyətlərin həyatları haqqında, onların baş vermiş hadisələrdə iştirak etməsinə səbəb olan bağlılıq haqqında məlumat vermək, daha dəqiq ifadə etsək, bu şəxsiyyətlərin həmin hadisələrlə əlaqələri haqqında bilgi verməkdir (6, s.204-209).

Şagirdlərin xronologiyanı mənimsəmələri təkcə baş vermiş hadisələrin vaxtını mənimsəmələri demək deyil, bu həm də baş vermiş tarixi hadisələrin ardıcıllıqla yaddaşlarında saxlamaları deməkdir. Bu baxımdan, hadisələri şüurlu şəkildə mənimsəmək vacib faktordur. Onları unutmamaq, baş verən hadisələr arasında səbəb-nəticə əlaqələrini başa düşmək sahəsindəki əhəmiyyəti baxımından xronologiyanın çox mühüm rolu vardır. Dərsin gedişində mövzuya aid xronologiya tərtib etməklə şagirdlər hadisələri unutmur, hafizələrinə həkk edirlər. Bu cür cədvəllərdə hadisələr xronoloji ardıcıllıqla yazılır. Tarixi hadisələri dərk etmənin ən mühüm vasitələrindən biri xronoloji cədvəlin tərtib edilməsidir.

Bir sıra metodlarınköməkliyi ilə şagirdlərin yaddaşlarında canlı təsəvvürlər yaradılır. Məsələn, müəllimin canlı nitqi, onun təsirli nağıl danışması, əyani vasitələrdən istifadə, bədii ədəbiyyatdan istifadə və s. (4).

Keçmiş zamanlarda baş vermiş hadisələrin tarixi ilə yanaşı, onların baş verdiyi yerin də (məkan və zaman anlayışı-S.N.) öyrənilməsinin xüsusi əhəmiyyəti vardır. Çünki hadisənin baş verdiyi yeri və zamanı bilmədən mövzunu izah etmək olmaz. Bu, yersiz və mənasız olar, mücərrəd xarakter daşıyar. Biliklərin şagirdlərin yaddaşlarında şüurlu şəkildə qalmasının ən vacib şərtlərindən biri hadisənin baş vermə tarixini və yerini bilməkdir. Coğrafi mühitin də öz növbəsində hadisənin baş verdiyi zamana və məkana təsiri vardır. Biz coğrafi mühit dedikdə təbii şəraiti başa düşürük.

Hadisənin baş verdiyi ərazinin xəritə əsasında şagirdlərə çatdırılmasının çox böyük əhəmiyyəti

vardır. Belə ki, bu zaman dərs keyfiyyətli şəkildə şagirdlər tərəfindən mənimsənilir (7). Tarix dərslərinin tədrisi zamanı müəllim mütləq xəritədən istifadə etməlidir. Çünki müəllim dərsi nə qədər ətraflı, dolğun şəkildə izah edirsə etsin, xəritədən istifadə etmirsə dərsin şagirdlər tərəfindən mənimsənilməsi çox zəif olur. Xəritədən istifadə dərsin mənimsənilməsinə, dərsin təhlil edilməsinə və s. çox böyük təsir edir. Məhz xəritələrin köməkliyi ilə şagirdlər baş verən hadisələrin ümumi cəhətlərini ayırd edə bilirlər. Məsələn, xəritədən istifadə etməklə bir sıra qədim dövlətlərin (Hun imperiyası, Göytürk dövləti, Bizans imperiyası və s.) ümumi cəhətlərini ayırd edirlər. Məsələn, bu dövlətlərin yaranmasında olan bir ümumi cəhət onların çay kənarlarında yaranmasıdır. Ona görə də A.Vagin tarix materialının şagirdlər tərəfindən mənimsənilməsində xəritələrin rolunu, əhəmiyyətini yüksək şəkildə qiymətləndirirdi, qeyd edirdi ki, biz tarix materialının mənimsənilməsində xəritələrin köməyindən istifadə edərək tarixi əlaqələri, xüsusilə də bu əlaqələrin səbəblərini əyani surətdə göstəririk (5, s.241). Xəritələr tarix materialının təhlilində, ümumiləşdirilməsində bizə köməklik edir və şagirdlər tarixi inkişaf qanunauyğunluqlarını xəritələrin köməyi ilə başa düşürlər. A.Vagin göstərirdi ki, xəritələr eyni zamanda, tarixi hadisələri yaxından izləməyə kömək edərək materialın təkrar edilməsində və şagirdlərin hafizəsində möhkəmləndirilməsində mühüm rol oynayırlar (5, s.241).

## ƏDƏBİYYAT


1. Əzimzadə Aynur. Tarix dərslərində tarixi təsəvvür və anlayışların formalaşdırılması, Azərbaycan Respublikası Təhsil İnstitutu, Elmi əsərlər, cild 85, № 4, Bakı: 2018, s.150-153.
2. Cəbrayılov İ. Azərbaycan tarixinin tədrisi metodikası, Bakı: 2006, 236 s.
3. Məmmədova A. Ümumi tarix. VI sinif: Metodik vəsait. Bakı: 2013, 130 s.
4. Tarixi təsəvvürlərin növləri və tarixi biliklərin formalaşması prosesində onların rolu http://metodiktövsiyye.blogspot.com
5. Vagin A. Orta məktəbdə tarixin tədrisi metodikası. Bakı: 1973, 455 s.
6. Talıbova Maral. Şagirdlərdə tarixi təsəvvürlərin yaranması və tarixi anlayışların təşəkkülü, “Tarix və onun problemləri”, № 3, Bakı: 2010, s. 204-209
7. Hüseynov Ramiz. Ümumtəhsil məktəblərində fənn kurikulumlarının tətbiqi ilə əlaqədar tarix dərslərində xəritə üzərində işin təşkilinə dair, http://tarixklubu.blogspot.com
8. Mirzəyeva Jalə. Azərbaycan tarixinin tədrisində tarixi anlayışlar və onların əhəmiyyəti. https://muhaz.org


## SUMMARY

**Nazli Seyidova**

### TYPES OF HISTORICAL IMAGINATIONS AND THEIR ROLE IN THE PROCESS OF FORMATION OF HISTORICAL KNOWLEDGE


The scientific article studies the types of historical imaginations and their role in the formation of historical knowledge. It is noted that the most important educational importance of the history course in the school is the study of historical facts and the creation of the necessary ideas about it.

Thus, in the process of teaching history, the creation of a vivid imagination in schoolchildren contributes to the formation of ideas and moral education. In the article, it is noted that various means are used for conveying the historical facts to students, including narrative, interpretation and explanation methods.

Teachers face a number of difficulties, one of which is associated with too many historical representations in the teaching process. This, in its turn, makes it difficult for students to understand the lesson. It is shown that the formation of concepts in students depends on their age, the volume and the importance of the studied material.

If students experience difficulties in mastering concepts, first of all, it is necessary to form their ideas about concepts. In the process of teaching history, some concepts lose their importance from time to time, and are replaced by new ones. Thus, it is shown that the variety of concepts requires the teacher of history to search for various methods and means. When applying concepts, as we mentioned, the age characteristics of the students must be taken into account.

***Key words:*** *historical concepts, moral education, historical imaginations, training process, specific historical concepts, general historical concepts, historical facts*

## РЕЗЮМЕ

**Назлы Сеидова**

## ВИДЫ ИСТОРИЧЕСКИХ ПРЕДСТАВЛЕНИЙ И ИХ РОЛЬ В ПРОЦЕССЕ ФОРМИРОВАНИЯ ИСТОРИЧЕСКОГО ЗНАНИЯ

В научной статье рассматриваются виды исторических представлений и их роль в процессе формирования исторического знания. Показано, что важнейшее учебно-воспитательное значение курса истории в школе заключается в изучении исторических фактов и создании у учащихся необходимых представлений о них. Так, создание у школьников ярких представлений в процессе обучения истории способствует формированию идейно-нравственного воспитания.

В статье отмечается, что при донесении до учащихся исторического прошлого используются различные приемы, в том числе повествовательные, интерпретационные и повествовательные формы.

В процессе обучения учителя сталкиваются с рядом трудностей, одна из которых связана с избытком исторических представлений. А это, в свою очередь, приводит к трудному восприятию урока учащимися.

Показано, что формирование понятий у учащихся связано как с их возрастными особенностями, так и с объемом изучаемого материала, а также с тем, насколько важен материал. Если учащиеся испытывают трудности в усвоении понятий, то в первую очередь необходимо сформировать у них представления о понятиях.

В процессе обучения истории время от времени некоторые понятия теряют свое значение, их заменяют новыми. Поэтому показано, что многообразие понятий требует от учителя истории поиска различных методов и средств. Однако при применении понятий, как мы уже отмечали, необходимо обязательно учитывать возрастные особенности учащихся.

***Ключевые слова:*** *исторические понятия, нравственное воспитание, исторические представления, учебный процесс, специальные исторические понятия, общеисторические понятия, исторические факты*

---

***Məqaləni çapa təqdim etdi:*** *tarix üzrə fəlsəfə doktoru, dosent Elçin Zamanov*

***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*

***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 53-58
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 53-58
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 53-58

# SOSİAL ELMLƏR VƏ HÜQUQ

**QƏRİB ALLAHVERDİYEV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 331.104; 349.22**

## ƏMƏYİN MAHİYYƏTİ (SOSİAL-FƏLSƏFİ TƏHLİL)

*Məqalədə əməyin mahiyyəti təhlil edilir. Göstərilir ki, insanın əmək fəaliyyəti heyvanların fəaliyyətindən onunla fərqlənir ki, o heç bir o qədər də instinq deyil, ideal olaraq məqsədin dərk edilməsinə əsaslanır. İnsan əməyi tarixən inkişaf edən şüurdan, daha çox şaxələnən məqsədlərin qarşıya qoyulmasından ayrılmazdır, təkcə yeni təzahürlərin deyil, həm də predmetlərin mahiyyətlərinin dərk edilməsi ilə əlaqəli olan əmək fəaliyyəti yeni ideal modellər formalaşdırır və onların realizə ediməsinə həvəsləndirir, fəaliyyətin məqsədyönümlülüyü insanın xarakterik cizgisidir, o, insanların istər təbiətlə qarşılıqlı əlaqəsinə, istərsə də mənəvi fəaliyyətinə aiddir. O da vurğulanır ki, əmək fəaliyyətinin cizgiləri başlıca olaraq həqiqətin mənəvi deyil, praktiki dərk edilməsinə xasdır.*

*Məqalədə "zəhmətkeş" anlayışı geniş izah edilir. Belə bir məqam xüsusi vurğulanır ki, tək fiziki işlə məşğul olan insanlar zəhmətkeş deyil, eyni zamanda əsərləri bəşəriyyətin mənəvi mədəniyyətinin zirvəsini təşkil edən böyük yazıçılar, şairlər, elm xadimləri də zəhmətkeşdirlər, cəmiyyətin siyasi idarəetmə təbəqəsinin böyük bir dəstəsi də zəhmətkeşdir. Əməyin sosial kulturoloji anlayışı açıqlanır, qeyd edilir ki, əmək maddi istehsalın, cəmiyyətin məhsuldar qüvvələrinin əsasını təşkil edir.*

***Açar sözlər:*** *əmək, əmək fəaliyyəti, əməyin kulturoloji anlayışı, əməyin tərifi, əmək anlayışı, sosial-iqtisadi, zəhmətkeş*

Cəmiyyət öz mövcudluğu üçün lazımı məhsulun istehsalını və təkrar istehsalını qarşılarına məqsəd qoyan, qarşılıqlı əlaqədə olan insanların müəyən bir çoxluğunu özündə əks etdirir. Təkbaşına fərd necə olmasından asılı olamayaraq ictimai qrupu təşkil edə bilməzdi, özü "cəmiyyət", onun şüuru isə - sosial ola bilməzdi, yəni o, insan da olmazdı. Cəmiyyət tarixən məlum minimal qarşılıqlı əlaqəyə malik, özlərinin fərqliliklərinə baxmayaraq, ümumi tələbatları, maraqları və məqsədləri olan fərdlərin mövcud olması zamanı yaranır. Belə məqsədlərdən biri birgə əmək fəaliyyəti hesab edilir, hansı ki, onun vasitəsi ilə qida əldə edilir, yaşayış yeri tikilir və s. və bununla yanaşı, ilkin başlanğıc təfəkkür və kommunikasiya vasitəsi – dil inkişaf edir. Əmək cəmiyyətin təzahürü və inkişafıdır.

İnsan əməyinə bir neçə komponent, o cümlədən mənəvi komponent – məqsədyönümlülük daxildir. Fəaliyyət, ümumiyyətlə, götürəndə heyvanat dünyasının bir çox nümayəndələrinə, məsələn, bənd tikən qunduzlara, yuva quran quşlara da xasdır. Lakin insanın əmək fəaliyyəti belə növ "işdən" onunla fərqlənir ki, o, heç bir o qədər də instinktə deyil, ideal olaraq məqsədin dərk edilməsinə əsaslanır. İnsan əməyi tarixən və ya sonradan inkişaf edən şüurdan, daha çox şaxələnən məqsədlərin qarşıya qoyulmasından ayrılmazdır. Təkcə yeni təzahürlərin deyil, həm də predmetlərin mahiyyətlərinin dərk edilməsi ilə əlaqəli olan əmək fəaliyyəti yeni ideal modellər formalaşdırır və onların realizə edilməsinə həvəsləndirir. Fəaliyyətin məqsədyönümlüyü insanın xarakterik cizgisidir. O, insanların istər təbiətlə qarşılıqlı əlaqəsinə, istərsə də mənəvi fəaliyyətinə aiddir.

Əmək fəaliyyətinin digər cizgiləri başlıca olaraq həqiqətin mənəvi deyil, praktiki dərk edilməsinə xasdır. İnsan obyektin maddi müqaviməti ilə üzəlişər ki, bu ondan özünün fiziki gücünün, əzələ gərginliyinin və s. sərf olunmasını tələb edir; insan onunla qarşılıqlı əlaqəda olan təbiət mühitinin enerji və strukturları kimi enerji sərf etməklə fizioloji fəaliyyət göstərir; o, bir qədər fərqli

təbiət sisteminə daxil edilmiş maddi təbiət sistemi kimi çıxış edir. Sual vermək olar: bəs musiqini yaradan bəstəkar və ya yazıçı, alim, filisof özlərinin əsərlərini yaradarkən belə fiziki gərginliyə malik olmurlar? Əlbəttə ki, olurlar. Lakin həmin gərginliklər burada tabeçilik xarakteri daşıyır və onun xarakteri həmin əməyin maddi-substantı deyil, əsasən mənəvi nəticəsi ilə müəyyən edilir.

Praktika kimi əmək fəaliyyətinin daha bir cizgisi maddi sistemlərin əmələ gəlməsidir. Belə sistemlərin elementlərinin heç də istənilən yerdəyişmələri və ya həmin sistemlərin strukturlarının dəyişiklikləri və insanın istənilən predmet-hiss aksiyaları “praktika” olmayacaq, yalnız elələri olacaq ki, onlar real həqiqətdə elementlərin, altsistemlərin və bütövlükdə sistemin keyfiyyətini dəyişir, mövcud xarici sistemlərin ləğvinə, dağılmasına və ya əksinə onların inkişafına, təkmilləşməsinə və ya yeni maddi sistemlərin yaranmasına gətirib çıxarır.

Yalnız üçü bir yerdə götürülən əlamət – məqsədyönlülük, predmet-hiss xarakteri və maddi sistemlərin çevrilmələri – qnoseoloji fenomen olaraq praktikanı təşkil edir.

Əmək praktikadan başlıca olaraq onunla fərqlənir ki, bu sosial-fəlsəfi anlayışdır, “təcrübə” isə - qnoseoloji kateqoriyadır. Əgər “praktika” “bilik ilə uyğundursa, yalnız qismən cəmiyyətin əldə etdiyi məlumatı özünə daxil edir, lakin əmək insanı təkcə fərdin istehsal etdiyi ərzağı, istehsal vasitələrini, kompüterləri və s. deyil, həm də bədii, estetik dəyərləri, əxlaqi, hüquqi normaların yaradılmasını, elmi prinsipləri, nəzəriyyələri verir; bura təkcə praktiki əmək fəaliyyətinə daxil edilən bilik komponenti deyil, həm də insanın yeni informasiyanın axtarışına, ola bilsin ki, heç bir zaman praktikanın komponentinə çevrilməyə qadir olmayan yeni fərziyyələrin yaradılmasına istiqamətlənmiş əmək fəaliyyətləri daxildir.

Əmək anlayışının tərifi: “Əmək – insanın fərdin və cəmiyyətin mövcudluğu üçün zəruri olan maddi və mənəvi rifahların yaradılmasına istiqamətlənmiş məqsədəuyğun fəaliyyəti – təbiətlə maddələr mübadiləsinin ümum şərti; insanın mövcudluğunun ictimai həyatın bütün formaları üzrə ümumi olan başlıca istinadıdır”(3, s.581-582).

Son vaxtlara qədər elmi ədəbiyyatda yayılmış ikinci tərif K.Marksın siyasi iqtisadiyyatda yer vermiş olduğu əmək anlayışının şərhindən ilhamlanmışdır. Lakin burada iki cəhəti nəzərə almaq lazımdır: birincisi, “əmək” kateqoriyasının öz mənasına malik və XIX əsrdə kapitalizmin iqtisadi münasibətlərinin elmi təhlilinə tətbiq oluna bilən özəl siyasi iqtisad elmidir, digəri isə onun sosial fəlsəfədə daha geniş başa düşülməsidir. Yeri gəlmişkən, fəlsəfədə ilkin bazis kimi qəbul edilə bilən, V.A.Vazyulinin verdiyi tərifdə, fikrimizcə, əməyin bəzi mühüm tərəfləri nəzərə alınmamışdır. Belə ki, qeyd edilməmişdir ki, fərdin mənəvi özünü təkmilləşdirməsi bəzən fəhlənin fəaliyyətindən heç də az gərgin olmayan əmək sayəsində əldə edilir. Əmək eləcə də idarəertmə, təşkilati fəaliyyətin geniş palitrasını əhatə edir. Bu mənada zəhmətkeşlər təkcə dəzgahın arxasında işləyən və ya maşinist, həyət təmizləyən və yaxud qışda və ya yazda tərəvəz bazasında kartof təmizləyən fərd deyil, həm də bu və ya digər müəssisənin rəhbəri, təşkilatçısıdır. Bu cür zəhmətkeşlər öz gücünü, o cümlədən əqli qüvvəsini sərf edir və fiziki enerjinin sərf edilməsi ilə əlaqəli olan müəyyən hərəkətləri yerinə yetirir.

Zəhmətkeşliyin iki konsepsiyasına (V.S.Barulinə görə) diqqət yetirmək lazımdır. Birincisi – sosial-iqtisadi, ikincisi – yaradıcı-kulturoloji. Birinciyə uyğun olaraq, zəhmətkeşlər -əmək haqqı alan yaradıcılar, muzdlu işçilərdir, bu məzlumlar, istismar olunanlardır; yerdə qalanlar isə - “qeyri-zəhmətkeşlərdir”. İkinci konsepsiya zəhmətkeşin digər, daha geniş meyarlarını irəli sürür – bütün çoxsahəliyi ilə cəmiyyətin, mədəniyyətin məcmusu: maddi, mənəvi və istənilən sərvətin yaradılması. Zavodda işləyən fəhlələr əlbəttə ki, zəhmətkeşdirlər. Lakin əsərləri bəşəriyyətin mənəvi mədəniyyətinin zirvəsini təşkil edən və yaratdıqları onların müəlliflərinə gərgin əmək sayəsində başa gələn Nizami Gəncəvi, Məhəmməd Füzuli, L.N.Tolstoy da zəhmətkeş idilər. Ayrı-ayrı istehsal alətləri və vasitələrinin sahibləri, yəni istənilən fabrik sahibi, səhmdar cəmiyyətin rəhbəri, bankın idarə heyətinin üzvü və başqaları da zəhmətkeşdirlər. Çünki onlar öz müəssisələrinin, şirkətlərinin, banklarının işlərində fəal iştirak edirlər.Buna əsaslanıb deməliyik ki, onlar istehsalın, ticarət qurumunun, maliyyə müəssisəsinin rəhbəri, təşkilatçısı kimi zəhmət çəkir, ona görə də sözün birbaşa və bilavasitə mənasında zəhmətkeşdirlər. Məsələn, Kitiro Toyoda, Fordu misal göstərmək olar.

Cəmiyyətin siyasi-idarəetmə təbəqəsinin böyük bir dəstəsini zəhmətkeşlərin bu sırasına daxil

etməmək üçün heç bir əsas yoxdur. Məgər hər bir idarəçinin, siyasətçinin hərəkətləri, cəmiyyətdəki ictimai münasibətlərin mürəkkəb şəbəkəsinin yaradılması, insanların birgə fəaliyyətinin təşkilinin yeni-yeni formalarının tapılması yolunda irəli aparmır? Məgər onlar yaradıcı deyil? Əlbəttə ki, bu hərəkətlər insandan şəxsi səylər, iradə, məqsədyönlülük, istedad tələb edir. Müəyyən mənada Birinci Pyotr, Napoleon, Ruzvelt, Heydər Əliyev və başqaları – onlar hamısı zəhmətkeşlərdir. Zəhmətkeşlərin qeyd edilən iki konsepsiyasını nəzərdən keçirərək V.S.Barulin haqlı olaraq qeyd edirdi ki, baxmayaraq ki, birinci konsepsiya cəmiyyəti dərk etmək sahəsində ədalətli konsepsiya idi, lakin müasir dünyanın inkişafı yaradıcı-kulturoloji konsepsiyaya daha çox diqqət ayrılmasını tələb edir. (1, s.39-43)

Deyilənlər heç də onu göstərmir ki, cəmiyyət daxilində ümumi əməkdə iştirak etmək istəməyən insanlar olmayıb, yoxdur və olmayacaq. Lakin müəyyən sayda parazitlərin (həm də dünyadakı hər şey barəsində durmadan mühakimə yürüdən) mövcud olması, o demək deyil ki, onlar zəhmətkeşdirlər. “Əməyin” xüsusi növü də mövcuddur, məsələn, korrupsionerlərdə və ya oğrularda olduğu kimi. Məgər bu ictimai dəyərli əməkdir? Lakin eyni dərəcədə də düzgün olmazdı ki, biz əmək qabiliyyətli olmayan və ya ağır xəstə insanların əməyə münasibətini mənfi qiymətləndirək. Bütün bunlar insan cəmiyyətinin sosial sistem olaraq mövcudluğu, normal fəaliyyəti üçün əməyin ümumi müsbət və mühüm dəyərini dəyişmir.

Əməyin sosial-kulturoloji anlayışı zərrə də olsun onun iqtisadi izahının rolunu azaltmır. Əgər əməyin xarakteristikasını onun kulturoloji miqyası ilə tamamlamasaq, əksinə, əməyin növlərinin nisbətində daha dərinlərə baxsaq, biz yekunda ona gəlib çıxarıq ki, birinci konsepsiya (daha dəqiq desək – birinci yanaşma) əməyin, həm də elə bütövlükdə cəmiyyətin başa düşülməsində başlanğıc, ilkin həddir. Romanlar yazmaq, musiqi əsəri yaratmaq, insanları idarə etmək üçün lazımdır ki, yazıçı, musiqiçi və ya idarəçi qidaya, geyimə və maddi əşyalardan olan daha bir çox şeylərə malik olsun, bütün bunlar isə, məlum olduğu kimi, yağış kimi buludlardan yerə düşmür, insanlar tərəfindən onlar maddi-istehsal sahəsində istehsal edilir. Alimlər üçün cihazlar (mikroskop, ensefaloqraf və s.), onların maddi-istehsal fəaliyyəti zamanı əldə etdikləri kağız və ya karandaş zəruridir. Lakin əgər bu fəaliyyətdən əməyin digər növlərini çıxarsaq, bu isə yolverilməndir, əmək fəaliyyətinin cəmiyyətin çoxaspektliyini, onun maddi və mənəvi mədəniyyəti xarakterizə edən müxtəlif növlərinin özünənəməxsusluğunu da görmək lazımdır.

Biz zəhmətkeşliyin hansı konsepsiyasına tərəf olsaq da əməyin anlayışı prinsipcə eyni qalır. Əmək cəmiyyətin fəaliyyəti və inkişafının maddi əsasıdır.

İndi isə bilavasitə maddi istehsal strukturu ilə tanış olaq. Burada ənənəvi olaraq məhsuldar qüvvələri və istehsal münasibətlərini fərqləndirirlər.

Əmək maddi istehsalın, cəmiyyətin məhsuldar qüvvələrinin əsasını təşkil edir. Ənənələrə hörmətlə yanaşaraq göstərmək olar ki, məhsuldar qüvvələr əmək vasitələrindən və müəyyən biliklər və vərdişlərlə silahlanmış, həmin əmək vasitələrini hərəkətə gətirən insanlardan ibarətdir. Əmək vasitələrinə əmək alətlərini, maşınları, maşın komplekslərini, kompüterləri, robotları və s. aid edirlər. Özü özlüyündə onlar əlbəttə ki, heç nə istehsal edə bilməzlər. Başlıca məhsuldar qüvvə – insanlardır. İnsanlar canlı əməyi, əmək vasitələri isə - toplanmış əməyi əks etdirir. Bütün maddi istehsal canlı və toplanmış əməyin vəhdətidir.

Ötən yüzilliyin 90-cı illərinə qədər fəlsəfə üzrə əksər dərsliklərdə məhsuldar qüvvələrin təqdim edilən iki tərəfi və ya altsistemi məhz belə idi. Lakin marksist ənənəyə əsaslanan belə təqdimetmə kifayət qədər tam deyildi. Məhsuldar qüvvələrin altsistemlərinə texnologiyanı, istehsal prosesini, o cümlədən ona daxil edilən kompüterlərlə idarə olunmasını qoşurlar. Bu üçüncü altsistem dördüncü altsistem ilə-istehsal-iqtisadiyyat infrastrukturla tamamlanır. İstehsal-iqtisadiyyat infrastrukturlara iqtisadi prosesin konkret müəssisəsi, bu və ya digər region hüdudlarında müəssisələrin cəmi və ya bütövlükdə xalq təsərrüfatının normal fəaliyyətini təmin edən, tabeçilik, yardımçı xarakter daşıyan hissələri və ya elementləri aiddir. İstehsal-iqtisadiyyat infrastrukturuna nəqliyyat, dəmir və şosse yolları, istehsal və yaşayış binaları, kommunal təsərrüfat və s. daxil edilir.

Məhsuldar qüvvələrə elmi də aid etmək lazımdır. Artıq K.Marks qeyd edirdi ki, elm cəmiyyətin

məhsuldar qüvvələrinə çevrilir. O, hesab edirdi ki, elmi bilik “ümumi məhsuldar qüvvədir”; K.Marksa görə biliklərin və vərdişlərin toplanması “ictimai beyinin bütün ümumi məhsuldar qüvvələrinin toplanmasının” mahiyyətidir. (5, s.205) Sonralar ortodoksal marksistlər düz XX əsrin sonuna qədər, görünür təftişçilikdə ittiham olunmaqdan ehtiyat edərək bəyan etməkdə davam edirdilər ki, məhsuldar qüvvə yalnız iki altsistemdən ibarətdir, elm isə elə XX əsrdə də yalnız məhsuldar qüvvə “olmağa” davam edir. Eyni zamanda ən yeni elmi-texniki inqilabın başlaması ilə, yəni təxminən XX yüzilliyin ortalarından elmin cəmiyyətin məhsuldar qüvvəsinə çevrilməsi kimi bir təzahür özünün tarixi əhəmiyyətinə görə açıq-aşkar göründü. Məsələn, D.Bell 1976-cı ildə yazırdı ki, postindustrial cəmiyyətin əsas cizgilərinə hər şeydən əvvəl “nəzəri biliklərin mərkəzi rolu” aiddir. O, izah edirdi: “Hər bir cəmiyyət həmişə biliklərə əsaslanıb, lakin yalnız bizim dövrümüzdə nəzəri biliklərin nəticələrinin sistemləşdirilməsi və materialşünaslıq texnoloji innovasiyaların əsasına çevrilir. Bu ilk növbədə sənayenin yeni, elm tutumlu sahələrində özlərinin inkişafı ilə yüzilliyin sonuncu üçdə birini əlamətdar edən kompüterlərin, elektron, optik texnikanın, polimerlərin istehsalında nəzərə çarpır” (2). Rusiyanın “Fəlsəfə lüğəti”ndə bu məsələyə baxışların təkamülünü qeyd etmək maraqlı olar. 1991-ci ilin nəşrində göstərilirdi: “Elm daha da çox bilavasitə məhsuldar qüvvəyə çevrilir” (s.282, 284).

Elmə digər qiymət isə artıq onun növbəti nəşrində verilir. Orada yazılır: “XX əsrin ikinci yarısında baş verən elmi-texniki inqilabın əsas texnoloji məzmunu elmin cəmiyyətin bilavasitə məhsuldar qüvvəsinə çevrilməsindən ibarətdir: sistematik elmi bilik tədricən əhəmiyyətinə görə cəmiyyətin rifahının təbii sərvətlər və xammal, əmək və kapital kimi ənənəvi mənbələri ilə müqayisədə üstün əhəmiyyətə malik olan amil olur. Maddi və əhəmiyyətli dərəcədə mənəvi istehsal tədricən müasir elmin praktiki tətbiqinə çevrilirlər: bu zaman elm, məhsuldar qüvvə kimi fasiləsiz təkmilləşdirilən texnika və işçilərin artan peşə biliklərində təcəssüm edir”(7, s.357).

Beləliklə, məhsuldar qüvvələrin strukturuna daxildir: 1) istehsal işçiləri; 2) elmi bilik; 3) əmək vasitələri; 4) istehsal prosesinin texnologiyası və 5) istehsal-iqtisadiyyat infrastrukturu.

Maddi istehsal prosesi istehsal münasibətləri olmadan mümkünsüzdür. Bu münasibətlər kompleksinin tərkib elementləri və ya altsistemləri aşağıdakılardır: 1) mülkiyyətə münasibət; 2) fəaliyyət nəticələrinin mübadiləsi münasibətləri və 3) istehsal məhsullarının bölünməsinə münasibət. İstehsal münasibətlərinin kompleksində əhəmiyyətli rolu əməyin təkcə müəssisə və ya hətta istehsal sahəsi üzrə deyil, həm də bir çox amillərdən-iqlim şəraiti, təbiət resursları, mədəniyyət əlaqələrindən asılı olaraq bölünməsi başlıca rol oynayır. Bu da böyük insan qrupları, millətlər, dövlətlər arasındakı iqtisadi münasibətlərin spesifikliyini şərtləndirir.

İstehsal münasibətləri sistemində açar mövqeni mülkiyyət tutur.Mülkiyyətin iqtisadi münasibətləri hüquqi rəsmiləşdirməyə malikdir, hüquqi aktlarla təsbit edilir.

Mülkiyyət münasibətləri müxtəlif növlərdə olur: sahib olma, sahib olmama, birgə sahiblik, istifadə, sərəncam. Xüsusi mülkiyyət formasına isə incəsənət əsərləri, elmi kəşflər və s. intellektual-mənəvi sərvətlər aid edilir (6, s. 582).

Cəmiyyətin inkişafının lap əvvəllərində mülkiyyət mövcud olmayıb. Lakin nəzərə alsaq ki, insanlar ov, balıq tutmaq, torpaq becərmək zamanı özlərinin bütün vasitələrini və səylərini birləşdirməyə məcbur idilər. Bu zaman dəqiq ifadə etsək, göstərməliyik ki, tayfa, icma daxilində xüsusi mülkiyyət olub və “icmanın”, “tayfanın”, “şəxslər toplusunun” mülkiyyəti adını alıb. Belə kooperasiya zamanı – qadınlar və kişilər, böyüklər və uşaqlar müxtəlif vərdişlər qazanır, öz aralarında əməyin bölünməsində bu vərdişlərdən istifadə edirdi, əldə edilən rifahların (məhsulun) bölünməsi isə nə özünə, nə də həmqəbilələrinə ölməyə imkan verməmək göstərişi ilə aparılırdı. Sonradan o qədər miqdarda ərzaq və digər rifahlar yaranmağa başladı ki, fərdlər təkcə özlərini deyil, həm də bəzi həmqəbilələrini və ya digər qəbilələrdən olanları doyurmağı bacardılar, digər insan qrupları ilə toqquşmalarda əldə edilən əsirləri öldürmək deyil, işçi qüvvəsi kimi istifadə etmək və bununla da mülkiyyət toplamaq zərurəti yarandı.

Dövlət strukturlarının yaranması xüsusi mülkiyyətin hüquqi təsbitinə gətirib çıxardı. Mülkiyyətçinin nəzər nöqtəsinə görə hər hansı bir əmək alətinə sahib olmaq az idi, mühüm idi ki,

onların oğurlanması zamanı o, onların sahibi olaraq qalsın və hüquq (məhkəmə araşdırması halında) onun tərəfindən olsun. Hegel qeyd edirdi: "Mülkiyyət üçün nə isə mənim olmalıdır kimi mənim daxili təsəvvürüm və mənim iradəm şəxsiyyətin şəxsi mövcudluğunun olması üçün azdır, bunun üçün onun sahibliyinə daxil olmaq tələb edilir. Mənim iradəmin daxili aktı, hansı ki, nəyinsə mənim olduğunu deyir, digərləri tərəfindən də tanınmış olmalıdır" (4, s.230).

D.Bell qeyd edirdi ki, indi ən azı sənaye cəhətdən inkişaf etmiş ölkələr üçün sənaye kapitalizminin marksist iqtisadi təhlilinin mühüm siyasi nəticələri öz qüvvəsini itirir. 1976-cı ildə o yazırdı: "Tarixi inkişafa proletariatın qaçılmaz qələbəsinə aparan kimi bir baxış partiya təliminin əsası olduğundan belə bir doqmaya riayət etmək olarmı ki, əgər proletariat postindustrial cəmiyyətin əsas sinfi deyil?" (2).

## ƏDƏBİYYAT


1. Барулин В. С. Социальная философия. М.: 2000, 560 с.
2. Белл Д. Грядущее постиндустриальное общество. М.: 1999, 944 с.
3. Вазюлин В.А. Труд // Философский словарь. М.: 2001, 719 с.
4. Гегель Г. В. Ф. Работы разных лет. М.: 1971. Т. I, 668 с.
5. Маркс К., Энгельс Ф. Соч. Т. 26. Ч. 1, 476 с., Т. 46. Ч. 1, 560 с.
6. Новая философская энциклопедия. М.: 2001. Т. 3, 910 с.
7. Философский словарь. М.: 2001, 719 с.


## SUMMARY

**Garib Allahverdiyev**

## THE ESSENCE OF LABOR (SOCIO-PHILOSOPHICAL ANALYSIS)


The article analyzes the nature of labor. It is noted that human activity differs from animal activity because human labor is less instinctive. Human labor is inseparable from the historically developing consciousness, from the setting of more realistic goals. Labor activity associated with the development of not only new phenomena, but also the essence of objects, forms new ideal models and encourages their implementation. Purposefulness of activity is a characteristic feature of a person, it refers to both the interaction of people with nature and their spiritual activity. It is also emphasized that the features of labor activity are mainly characteristic of practical comprehension of the truth, and not spiritual.

The concept of "worker" is also explained in the article. It is especially emphasized that not only the people who are engaged in physical labor are not workers, but also great writers, poets, scientists, whose works constitute the pinnacle of the spiritual culture of mankind, and a large group of the political management class of society as a whole are considered to be a hard worker. The article clarifies the socio-cultural understanding of labor, it is noted that labor is the basis of material production, the productive forces of society.


***Key words:*** *labor, labor activity, cultural concept of labor, definition of labor, concept of labor, socio-economic, worker*

**РЕЗЮМЕ**

**Гариб Аллахвердиев**

## СУЩНОСТЬ ТРУДА (СОЦИАЛЬНО-ФИЛОСОФСКИЙ АНАЛИЗ)

В статье анализируется сущность труда. Показано, что трудовая деятельность человека отличается от деятельности животных тем, что она отнюдь не столько инстинктивна, сколько в идеале основана на понимании цели. Труд человека неотрывен от исторически развивающегося сознания и от постановки все более и более разветвляющихся целей. Трудовая деятельность, связанная с освоением не только новых явлений, но и сущностей предметов, формирует новые идеальные модели и побуждает к их реализации. Целенаправленность деятельности есть характерная черта человека. Она относится к взаимодействию с природой и к духовной деятельности людей. Так же отмечается, что черты трудовой деятельности свойственны, главным образом, практическому, а не духовному постижению действительности.

В статье разъясняется понятие «трудящийся». Особо отмечается тот момент, что трудящиеся – не только люди, занимающиеся физическим трудом, но также трудящиеся великие писатели, поэты, научные деятели, чьи произведения составляют вершины духовной культуры человечества. Большой отряд политико-управленческого слоя общества тоже трудящиеся.


***Ключевые слова:*** *труд, трудовая деятельность, культурологическое понятие труда, определение труда, понятие труда, социально-экономическое, трудовое*

***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 59-64
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 59-64
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 59-64

**SƏFTƏR RƏHİMLİ**
*sefterrehimli@yahoo.com*
*Bakı Dövlət Universiteti*

**UOT: 342.03**

# DÖVLƏTİN DAVAMLILIĞINDA ƏRAZİ SUVERENLİYİ

*Təcavüzə məruz qalmış dövlət müvəqqəti olaraq özünün faktiki ərazi hakimiyyətini, sosial şəxsiyyətini itirir. Lakin hüquqi baxımdan ərazi hakimiyyətini saxlayır. Xalq onun şəxsiyyətini davam etdirir. Dövlətin ərazisinin başqa dövlətin təcavüzkar məqsədinin obyekti ola bilməməsi ilk dəfə Millətlər Liqasının Statutunun 10-cu maddəsində, daha sonra BMT Nizamnaməsində (m.2.4) təkrar təsbit edilmişdir. Millətlər Liqasının Statutunun 10-cu maddəsi dövrünün (1920) ən mütərəqqi jus cogens norması kimi qəbul edilməlidir. Həmin normaya görə üzv dövlətlər bir-birilərinin ərazi bütünlüyünə sayğı göstərəcəklərini və hər hansı bir xarici təcavüz olarsa, ona qarşı çıxacaqlarını bəyan etmişlər. Millətlər Liqasının Statutunun hazırlandığı və I Dünya müharibəsinə son verən Paris sülh konfransı ilə ərazi əldə edilməsinin yeni beynəlxalq hüquq qaydası yaradılır. Bu dövrə qədər yalnız "sahibsiz ərazilərə münasibətdə istifadə edilən" "kəşf etməklə" (discovery) əldə edərək paylaşmaq və "anneksiya" (ilhaq) dövrü hüquqi baxımdan bitmiş oldu. Beləliklə, Paris sülh konfransından sonrakı dövrdə törədilən bütün qanunsuz anneksiyalar müddətsiz mühakimə prinsipinə tabe tutulmalıdır.*

***Açar sözlər:*** *BMT, Millətlər Liqası, beynəlxalq hüquq, hüquqi rejim, qarışıq rejim, suverenlik, təcavüz, hakimiyyət, ərazi, əhali*

Dövlətin davamlılığında ərazi suverenliyinin tədqiqi beynəlxalq münasibətlərin, dövlətlərin qarşılıqlı münasibətlərinin sabitliyinin təmini baxımından əhəmiyyətlidir. Beynəlxalq münasibətlərdə mütəmadi dəyişiklik yaradan, sabitliyə mənfi anlamda təsir edən məsələlərdən biri də bir dövlətin başqa bir dövlətlə birləşməsi, dövlətin bir hissəsinin əvvəlkindən ayrılması, yaxud bu dövlətin bir neçə müstəqil dövlətə parçalanması, xarici təcavüzə məruz qalmış dövlətin müstəqilliyinin bərpası faktıdır. Buna misal olaraq 1990-cı ildə keçmiş Almaniya Demokratik Respublikasının Almaniya Federativ Respublikasının tərkibinə daxil olması; 1991-ci ildə Baltikyanı dövlətlərin - Latviya, Litva və Estoniyanın SSRİ-dən ayrılması ilə müstəqilliklərinin bərpası; yenə də Qafqazda Azərbaycan Respublikası, Gürcüstan və digər sovet respublikalarının da müstəqillik bəyannamələri ilə SSRİ-nin bir dövlət kimi varlığına son qoyulması qeyd edilə bilər. Bir dövlətin başqa bir dövlətlə birləşməsi, dövlətin bir hissəsinin əvvəlkindən ayrılması, yaxud bu dövlətin bir neçə müstəqil dövlətə parçalanması ilə əlaqədar dəyişikliklər dünya hüquq sisteminə, beynəlxalq münasibətlərin tənzimetmə əsası olan beynəlxalq hüquqa əhəmiyyətli formada təsir etməklə bütövlükdə geopolitik vəziyyəti dəyişdirmiş olur. Buna görə də prosesin düzgün qiymətləndirilməsi beynəlxalq təhlükəsizliyin və sabitliyin təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu prosesin əsas istiqamətləndirici institutlarından biri kimi dövlətin əhalisi ilə bərabər ərazisinin status məsələsi gündəmə gəlir.

Dövlətin əhali əlaməti siyasi iradə daşıyıcısı olmaq baxımından dövlətin davamlılığı üçün nə qədər müəyyənedicidirsə ərazi elementi də o qədər həlledicidir. Əhali kimi siyasiləşmiş topluluq – xalqın müəyyən bir əraziyə malik olub həmin ərazidə hakimiyyət etməsidir. Əhalini formalaşdıran xalq bir millətdən deyil, müxtəlif etnik, dil və ya dini qruplardan ibarət ola bilər. Baxmayaraq ki, bəzən dövlətçilik əlamətləri olmayan milli, etnik qrupları da xalq kimi ifadə etməyə çalışırlar. Ayrı – ayrı qrupların dövlət yaratmaq keyfiyyəti olmadığı üçün onların ayrı – ayrılıqda siyasi hakimiyyət

iradəsi üçün də əsaslar yetərli olmur. Bu mənada bütün qruplardan ibarət vahid siyasi cəmiyyət və onun bir suvereni – dövləti meydana gəlir. Xalqı formalaşdıran qrupların dövləti yaratmaq üzrə iradə səviyyəsi hüquqi məsələdən daha çox sosial, iqtisadi, coğrafi meyarlara, daha doğrusu, əraziyə bağlıdır.

Ədəbiyyatda da qeyd edildiyi kimi, dövlətin əsas əlamətlərindən biri kimi onun əhalisinin müəyyən ərazi vahidi üzrə yerləşməsidir [7, s.57]. Dövlətin ərazisi əhali ilə birlikdə onun maddi əsasını təşkil edir. Beynəlxalq Ədalət Məhkəməsi özünün 1975-ci il "Qərbi Saxara" işi üzrə konsultasiya rəyində köçəri əhalinin siyasi təşkilatlanmasına diqqət çəkmiş və həmin ərazini onların dövlətinin və ya beynəlxalq hüquqla qəbul edilən siyasi qurumunun əsas elementi kimi dəyərləndirmişdir [10, s.63].

Ərazi sözü latınca *(terra)* torpaq anlamına malikdir. Beynəlxalq hüquqa görə ərazi *(territory)* - yer kürəsinin quru hissəsi və su səthi, yerin təki, onun üzərindəki hava məkanı, kosmik fəza kimi qəbul edilir. Hüquqi rejiminə görə: beynəlxalq; qarışıq; və dövlət ərazisi fərqləndirilir. Beynəlxalq rejimli ərazilərə, bütün dövlətlərinin istifadəsində olan və istifadə rejimi beynəlxalq hüquq ilə tənzimlənən məkanlar aid edilir. Beynəlxalq ərazilər bu və ya digər dövlətlin suverenliyində olmayan bəşəriyyətin ümumi irsi *(common heritage of mankind),* kimi qəbul edilir. Qarışıq rejimli ( məsələn, kontinental şelf və müstəsna iqtisadi zona kimi) ərazilərə isə - eyni vaxtda həm beynəlxalq hüququn, həm də dövlətlərin daxili qanunlarının tətbiq edildiyi məkanlar aiddir. Bu ərazilərdə sahilyanı dövlətlər müstəsna yurisdiksiyaya malikdirlər.

Dövlətin ərazisi dedikdə, dövlət hakimiyyətinin həyata keçirildiyi məkan başa düşülür [8, s.155]. Dövlətin ərazisinin hüquqi təbiəti haqqında irəli sürülən nəzəriyyələr (sivilistik; dominium publicum - məkan nəzəriyyəsi və səlahiyyətlər nəzəriyyəsi) də dövlət ərazisini hər bir halda hakimiyyətinin həyata keçirildiyi məkan kimi təqdim etmişdir [17, s.36].

Dövlətin suverenliyi altında olan ərazisinin hüquqi rejimi dövlətdaxili qanunvericilik və dövlətin beynəlxalq aktlarının qaydaları ilə müəyyən edilir. Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsinin II hissəsinə əsasən, Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir [13]. Həmin ərazidə dövlət öz ərazi üstünlüyünü həyata keçirir.

Dövlətlər suverenliyin ayrılmaz xüsusiyyəti kimi öz ərazisində ali, tam və müstəsna hakimiyyətə malikdir. Ali, tam və müstəsna hakimiyyətə malik olmaq ərazi üstünlüyündə - ali hakimiyyət (***imperium)*** və suveren sahiblikdə ***(dominium)*** ifadə edilir [6, s.13]. Dövlətin ərazi üstünlüyü hakimiyyətin bütün fiziki və hüquqi şəxslərə münasibətdə aliliyini və ali hakimiyyətin qanunverici, icraedici və məhkəmə orqanlarını əhatə etməsi və onlar vasitəsi ilə həyata keçirilməsini ehtiva edir. Azərbaycan Respublikası Konstitusiyasının II fəslində - dövlətin əsaslarını təsbit edən 7-ci maddəsinin IV hissəsi qanunverici, icraedici və məhkəmə hakimiyyətinin qarşılıqlı fəaliyyətinə və müstəqilliyinə həsr edilib [13].

Dövlətin ərazi üstünlüyü, həm də hakimiyyətin həmin ərazidə şəriksiz olmasında, başqa hakimiyyətin ola bilməməsində ifadə edilir. Azərbaycan Respublikası Konstitusiyasının 8-ci maddəsinin III hissəsi Azərbaycan dövlətinin müstəqilliyinin suveren təminatını təsbit edir. Dövlətin ərazi üstünlüyü dövlətin ona məxsus ərazisindən məhrum edilə bilməməsi anlamı kəsb edir. Azərbaycan Respublikası Konstitusiyasının 11.I maddəsində deyilir ki, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir [13].

Dövlətin ona məxsus ərazisindən məhrum edilə bilməməsindən istisna halı da ali hakimiyyət iradəsinin mənbəsi kimi xalq ifadə edilib. Yenə də Konstitusiyasının 11.III maddəsinə görə Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycanın bütün əhalisi (daha doğrusu *vətəndaşları* – S.R.) arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər [13].

Beynəlxalq hüquqa (təbii ehtiyatlar və bütün iqtisadi fəaliyyət üzərində dövlət suverenliyi

prinsipinə uyğun olaraq) [4] dövlətin ərazisi, o cümlədən yer və onun təki, dövlətin razılığı olmadan xarici dövlətlər, onların hüquqi və fiziki şəxsləri tərəfindən istifadə edilə bilməz. İstisna müvafiq dövlətin milli qanunu və iştirak etdiyi beynəlxalq müqavilədə ifadə etdiyi razılıq əsasında reallaşa bilər [2, s.249-250].

Dövlətin razılığı olmadığı halda onun ərazisindən, o cümlədən yer və onun təkindən istifadə təcavüz və ya qanunsuz anneksiya kimi qiymətləndirilir. Əməli fəaliyyətdə olan operatorlar isə "qanunsuz sahibkarlıq", "qaçaqmalçılıq" və d. hüquq pozuntusunun subyektinə çevrilmiş olurlar. Buna nümunə kimi Azərbaycan Respublikasının ərazisinin Ermənistan tərəfindən işğal edilməsindən sonra həmin ərazidə işğalçı dövlətin təşviqi ilə xarici şirkətlərin qanunsuz fəaliyyətləri göstərilə bilər [1].

Ərazi hakimiyyəti dövlətin yurisdiksiyasını formalaşdırır. Qanunvericilikdə (məsələn, Azərbaycan Respublikasının Cinayət Məcəlləsi m.11;12) [13] həcminə görə (tam və məhdud), tətbiq sferasına görə (ərazi və ərazidənkənar (qoruyucu və ya təhlükəsizlik)), xarakterinə görə (qanunverici, icra və məhkəmə), göstəriş səviyyəsinə görə (əmredici, məhkəmə, məcburiyyət), fəaliyyətin miqyasına görə (obyektiv və subyektiv ərazi yurisdiksiyası), şəxslər üzrə (personal ), daxili və beynəlxalq publik qaydanın (erga omnes öhdəliklərin) mühafizəsi məqsədilə universal yurisdiksiya fərqləndirilir. Beynəlxalq hüquqda universal yurisdiksiyanın təsirində olan və Beynəlxalq Cinayət Məhkəməsinin də Statusunda (m.5) [18] pozitivləşdirilən cinayətlərdən biri də 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinə qarşı həyata keçirilən təcavüz cinayətidir.

Dövlətin ərazi və ya hakimiyyət üstünlüyü mütləq xarakter daşımır və beynəlxalq hüquq çərçivəsində fəaliyyətdədir. Beynəlxalq hüquqa uyğun olaraq dövlətin ərazi üstünlüyü hər hansı sui-istifadəyə, o cümlədən digər dövlətin ərazisinə silahlı birləşmələrin keçməsinə, ərazisindən başqa dövlətə qarşı təcavüz niyyətli fəaliyyətə, müharibə təbliğatına, beynəlxalq hüquq normalarına zidd qonşu dövlətlərə münasibətdə milli-etnik ayrı-seçkiliyə və s. yol verməməlidir. Dövlətin ərazisi onun sərhədləri ilə müəyyən edilir. Dövlət sərhədi haqqında Azərbaycan Respublikasının 1991-ci il Qanununun 1-ci maddəsinə görə, Azərbaycan Respublikasının dövlət sərhədi Azərbaycan Respublikasının dövlət ərazisinin (quru və su ərazisinin, yerin təkinin, dəniz və hava fəzasının) hüdudlarını müəyyən edən xətt və bu xətt üzrə keçən şaquli səthdir. Azərbaycan Respublikasının dövlət sərhədi Azərbaycan Respublikasının dövlət suverenliyinin *ərazi* hüdududur [13].

Dövlət sərhədləri bir dövlətin ərazisini başqa dövlətin ərazisindən ayırır və adətən, yerin relyefi nəzərə alınmaqla həmhüdud dövlətlər arasında beynəlxalq müqavilə qaydasında müəyyən edilir. Dövlət sərhədinin müəyyən edilməsi delimitasiya (sərhəd xəttinin müqavilə qaydasında təsviri) və demarkasiya (dirəklər, müəyyənedici nişanlar və s.) qaydasında həyata keçirilir. Həmsərhəd dövlətlər daxili qanunvericilik və beynəlxalq müqavilələri ilə sərhəd rejimi müəyyən edirlər.

Dövlət sərhədlərinin, xüsusən də ənənəvi sərhədlərin müqavilə bağlamadan da, mövcud adət normaları əsasında tanınması da beynəlxalq praktika üçün xarakterikdir. Kamboca ilə Tayland arasında sərhəd mübahisəsinin həllində BM Ədalət Məhkəməsinin 1962-ci il qərarında sərhədlər üzrə tərəflərin qəbul edilmiş mövqeyinə istinad etmişdir [19, s.6,31].

Dövlət sərhədləri üzrə beynəlxalq müqavilələrin bir sıra xüsusiyyətləri də vardır. Dövlət sərhədləri üzrə beynəlxalq müqavilələr daimi xarakterli müqavilələr olduğu üçün denonsasiya üzrə müddəalar nəzərdə tutmurlar. Ən mühüm xüsusiyyətlərindən biri də dövlətlərin varisliyi və kontinuiteti meydana çıxdığı zaman toxunulmamış qalır. Müharibə vəziyyətində də hüquqi qüvvəsini itirmir. Ərazi suverenliyi ilə bağlı olduğundan müqavilənin subyektinin yox olması səbəbi ilə də xitam edilmir. Dövlət sərhədləri üzrə beynəlxalq müqavilə üzrə dəyişiklik yalnız tərəflərinin qarşılıqlı razılığı əsasında mümkündür. Qarşılıqlı razılıq yalnız sərhəd məsələlərinin həllində deyil, eləcə də dövlət ərazisinin dəyişdirilməsinin də hüquqi əsaslarını və üsullarını müəyyən edir.

Dövlət ərazisinin dəyişdirilməsinin hüquqi əsası kimi "xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə" prinsipi çıxış edir [17; 5, s.13-24; 9, s.52; 11, s.148; 14; 16]. Beynəlxalq hüquq (1970-ci il Birləşmiş Millətlərin Nizamnaməsinə uyğun olaraq, dövlətlər arasında dostluq və əməkdaşlıq münasibətləri üzrə beynəlxalq hüquqa dair prinsiplər haqqında Bəyannamə) [12] dövlətlərin ərazi bütövlüyünə təminat verməkdədir. Ərazi məsələlərinin həllində xalqın özünü təyin

etmə hüququnun həyata keçirilməsində geniş tətbiq edilən formalarından referendum, plebissit, seçkili nümayəndəli orqanın qərarı, azadlıq mübarizəsi əsası qeyd edilə bilər. Ərazi və sərhəd məsələləri bütün əhalinin mənafeyi ilə bağlı olduğundan Azərbaycan Respublikasının Konstitusiyasının 2, 3 və 11-ci maddələrində də öz təsbitini tapan referendum xalqın suveren hüquqlarının, iradə ifadəsinin əsas realizə forması kimi çıxış edir.

Beynəlxalq hüquq praktikasında ərazi dəyişikliyinin üsullarından ərazinin mübadiləsi, güzəşti (cession), alqı-satqısı, adyudikasiya çıxış edir. Ərazi dəyişikliyinin ən geniş yayılmış üsullarından biri ərazinin mübadiləsidir. Dövlətlərin birtərəfli ərazi güzəştləri (cession) əsasında əsasən sərhədyanı ərazinin digər dövlətə verilməsidir [130, s.130]. Ərazinin əldə edilməsi üsullarından biri də beynəlxalq məhkəmə qərarına əsasən ərazinin əldə edilməsidir (adyudikasiya). Bir qayda olaraq, təcavüzkar dövlətə münasibətdə tətbiq edilir.

Beynəlxalq hüquq baxımından ərazinin böyüklüyü, coğrafi yerləşməsi əhəmiyyətli deyil. Lakin suverenliyinin sərbəst formada həyata keçirilməsi üçün dövlətin ərazisinin qorunması əhəmiyyətlidir. Keçən yüzilliyin əvvəllərindən etibarən "dövlət ərazisinin bütövlüyü" *(principle of territorial integrity)* "güc tətbiq etməmək və ya güclə hədələməmək" və d. prinsiplər dövlət ərazisinin mühafizəsinə yönəldilir.

Qanunsuz anneksiya - başqa dövlətin ərazisini zorakı yolla zəbt etmək qadağan edilir. Təcavüzə məruz qalmış dövlət müvəqqəti olaraq özünün faktiki ərazi hakimiyyətini, sosial şəxsiyyətini itirir. Lakin hüquqi baxımdan ərazi hakimiyyətini saxlayır. Xalq onun şəxsiyyətini davam etdirir. Dövlətin ərazisinin başqa dövlətin təcavüzkar məqsədinin obyekti ola bilməməsi ilk dəfə Millətlər Liqasının Statutunun 10-cu maddəsində, daha sonra BM Nizamnaməsində (m.2.4) təkrar təsbit edilmişdir. Millətlər Liqasının Statutunun 10-cu maddəsi dövrünün (1920) ən mütərəqqi *jus cogens* norması kimi qəbul edilməlidir. Həmin normaya görə üzv dövlətlər bir-birilərinin ərazi bütünlüyünə sayğı göstərəcəklərini və hər hansı bir xarici təcavüz olarsa, ona qarşı çıxacaqlarını bəyan etmişlər. Bundan sonra 1928-ci ildə qəbul edilən, ABŞ və Fransanın xarici işlər nazirlərinin adı ilə adlandırılan Brian-Kelloq paktında da təcavüzkar müharibələr xarici siyasət vasitəsi kimi qadağan edilir. Təcavüzkar müharibələri xarici siyasət vasitəsi kimi qadağan edən Brian-Kelloq paktı qısa müddətdə hüquqi qüvvəyə minməklə hələ II Dünya müharibəsindən çox öncə yeni qaydaları təsis etməyə yönəlmişdi.

I Dünya müharibəsinə son verən Paris sülh konfransının beynəlxalq hüququ "işğal hüququna" son qoymuş oldu. İşğal qaydasında ərazi dəyişikliyinin qanunsuz elan edilməsi üzrə normaların kifayət qədər müqavilə norması kimi kodifikasiya edilməməsi onların hüquqi əhəmiyyətinə şübhə yaratmamalıdır. Hüquqi ideyanın mövcudluğu artıq adət hüquq normasının formalaşmasından xəbər verirdi.

Nəzərə almaq lazımdır ki, Millətlər Liqasının Statutunun 10-cu maddəsi və bundan öncə 1907 – ci il Quru ərazisində döyüş qaydaları üzrə IV Haaqa Konvensiyasının Quru ərazisində müharibə qanunları və adətləri haqqında Qaydalar (Əlavə) m. 43 (ictimai həyata və qaydalara hörmət), m. 46 və 50 (mülki əhalinin şəxsi və mülkiyyət hüquqlarının qorunması) "işğal zamanı suverenliyin işğalçı dövlətə keçməməsi" haqqında ümumtanınmış prinsip dövlətlərin ərazi suverenliyi və onun dəyişdirilməsi üsulu üzrə yeni dünya düzəninin formalaşdırılmasını nəzərdə tuturdu.

Millətlər Liqasının Statusunun hazırlandığı və I Dünya müharibəsinə son verən Paris sülh konfransı ilə ərazi əldə edilməsinin yalnız "sahibsiz ərazilərə münasibətdə istifadə edilən" [3, s.45] "kəşflə" (discovery) əldə edərək paylaşmaq və "anneksiya" (ilhaq, fəth) dövrü hüquqi baxımdan bitmiş oldu. Dolayısı ilə bu dövrdəki bütün anneksiyalar müddətsiz mühakimə prinsipinə tabe tutulmalıdır.

## ƏDƏBİYYAT


1. Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz fəaliyyət göstərən şirkətlər barəsində cinayət işi başlanıb. https://report.az
2. Beynəlxalq hüquq: Dərslik / Ümumi hissə. Bakı: Ləman Nəşriyyat Poliqrafiya MMC, 2018, 420 s.
3. BM Ədalət Məhkəməsinin Şərqi Qrelandiyanın Hüquqi Statusu üzrə 1933-cü il qərarı. C.P.J.,I. Serie A/B, No53.p.45
4. Sadıqov Ə. İ. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı: "Bakı Universiteti" nəşriyyatı. 2008, 396 s.
5. Задохин А.Г. Самоопределение народов и территориальная целостность государств: категории, проблемы, перспективы // Обозреватель. 2011. № 5. с. 13-24
6. Лукашук И.И. Международное право. Особенная часть. Учебник, М.: Издательство БЕК. 1997, 410 с.
7. Марченко М. Н. Теория государства и права: Учебник. – 2-е изд., перераб. и доп. М.: ТК Велби, Изд-во Проспект, 2004, 648 с.
8. Территория в публичном праве: Монография / С.В. Нарутто, Е.С. Шугрина и др. М.: Норма, Инфра-М, 2013, 320 с.
9. Barry E.Carter, Allen S.Weiner. International Law. New York, 2011, p.52
10. C.I.J., Recueil.1975. s.63
11. Crawford J. The Right to self determination in International Law: its Development and Future // In book Peoples? Rights. Edited by P. Alston. Oxford, 2001. P.148
12. Declaration on Principles of International Law Concerning Friendly Relations and Cooperation among States in Accordance with the Charter of the United Nations // 2625 (XXV), 24 October 1970 // Mode of access: http://www.un.org/documents/ga/res/25/ares25.htm
13. https://www.e-qanun.az
14. Hurst H. Autonomy, Sovereignty, and Self-Determination: The Accommodation of Conflicting Rights. Pennsylvania, 1996.
15. Judgment of the Supreme Court of Canada Concerning Certain Questions Relating to the Secession of Quebec from Canada, 1998, para. 130. URL: http://scc.lexum.org/decisia-scc-csc/scc-csc/scc-csc/en/item/1643/index
16. Malcolm N. Shaw. International law. Sixth edition. Cambridge, CUP. 2008
17. Marceelo G.K. Territoriality and International Law. Elgar. International II. Switzerland, 2016, 704 p.
18. Rome Statute of the international Criminal Court. https://www.icc-cpi.int
19. Temple of Preah Vihear (Cambodia v. Thailand) ICJ. Reports.1962. p.6,31


## SUMMARY

**Saftar Rahimli**

**TERRITORIAL SOVEREIGNTY IN THE CONTINUITY OF THE STATE**

State exposed to agression temporarily loses its de-facto territorial authority and social identity. However, from a legal point of view, it retains territorial authority.The people continues its identity. The interdiction of a state's territory to be the object of another state's aggressive purpose was first reaffirmed in Article 10 of the Statute of the League of Nations and later in the UN Charter (Article 2.4). Article 10 of the Statute of the League of Nations should be accepted as the most progressive jus cogens norm of the period (1920). According to this norm, the member states affirmed that they would respect each other's territorial integrity and would oppose any foreign aggression. The Paris Peace Conference, which drafted the Statute of the League of Nations and ended

World War I, established a new rule of international law for the acquisition of territory. Thus, all illegal annexations committed after the Paris Peace Conference must be subject to the principle of indefinite trial.

***Key words:*** *UN, League of Nations, international law, legal regime, mixed regime, sovereignty, aggression, government, territory, population.*

## РЕЗЮМЕ

**Сафтар Рагимли**

**ТЕРРИТОРИАЛЬНЫЙ СУВЕРЕНИТЕТ В УСТОЙЧИВОСТИ ГОСУДАРСТВА**

Государство-агрессор временно утрачивает де-факто территориальную власть и социальную идентичность. Однако с юридической точки зрения он сохраняет за собой территориальную власть. Народ продолжает его личность. Неспособность территории государства быть объектом агрессивных целей другого государства впервые была подтверждена в статье 10 Устава Лиги Наций, а затем и в Уставе ООН (статья 2.4). Статью 10 Устава Лиги Наций следует признать наиболее прогрессивной нормой jus cogens периода (1920 г.). В соответствии с этой нормой государства-члены заявили, что будут уважать территориальную целостность друг друга и будут противостоять любой иностранной агрессии. Парижская мирная конференция, которая разработала Статут Лиги Наций и положила конец Первой мировой войне, установила новую норму международного права для приобретения территории. До сих пор период «открытия» и «аннексии», который применялся только в отношении «раскулаченных территорий», юридически закончился. Таким образом, все незаконные аннексии, совершенные после Парижской мирной конференции, должны подлежать принципу бессрочного судебного разбирательства.

***Ключевые слова***: *ООН, Лига Наций, международное право, правовой режим, смешанный режим, суверенитет, агрессия, правительство, территория, население.*

---

***Məqaləni çapa təqdim etdi:*** *fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayev*
***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 65-38
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 65-38
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 65-38

**İLQAR MİRZƏYEV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 343.24**

# CİNAYƏT MÜHAKİMƏ İCRAATI ZAMANI HƏQİQƏT VƏ ÇƏKİŞMƏ PRİNSİPİNİN BƏZİ ASPEKTLƏRİ

*Məqalədə Azərbaycan Respublikasının müasir cinayət mühakimə icraatında çəkişmə prinsipinin formalaşması problemləri, cinayət-prosessual qanunvericiliyində çəkişmə və həqiqət, cinayət mühakimə icraatında sübut və sübutetmə məsələləri ilə yanaşı, həqiqət məsələsinə müəllif yanaşması təqdim edilmişdir. Obyektiv həqiqət və cinayət prosesinin çəkişmə prinsipi, çəkişmə, tərəflərin bərabərliyi və cinayət işi üzrə obyektiv həqiqətin müəyyən edilməsi arasında qarşılıqlı əlaqə problemləri təhlil edilir.*

***Açar sözlər:*** *Həqiqət, çəkişmə prinsipi, cinayət, məcəllə, qanun, icraat, ittiham tərəfi, müdafiə tərəfi*

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində bir sıra yeni və mütərəqqi ideyalarla yanaşı, çəkişmə prinsipi də öz təsbitini tapmışdır. Çəkişmə prinsipi cinayət mühakimə icraatının tipini və formasını müəyyən edir. Bu prinsip cinayət prosesində qarşı-qarşıya duran iki tərəfin hüquq bərabərliyi və işi həll edən məhkəmənin tərəfsizliyi ideyasına əsaslanır. Çəkişmə prinsipi cinayət prosesində həll edilən hər bir məsələdə ittiham və müdafiə tərəflərinin hüquqlarında balansın gözlənilməsini tələb edir.

Cinayət prosesinin vəzifələrinə həqiqətin müəyyən edilməsi, cinayətin açılması, cinayət törətmiş şəxslərin ədalətli cəzalandırılması ilə yanaşı, cinayət törətməkdə təqsiri olmayanların cinayət məsuliyyətindən və cəzadan müdafiəsi aiddir.

Cinayət işlərində həqiqətin müəyyən edilməsi işin hallarının hərtərəfli, tam və obyektiv araşdırılmasından asılıdır. Cinayət prosesində belə araşdırma ancaq tərəflərin bərabərliyi və çəkişməsi prosesində həyata keçirilə bilər.

Həqiqət nədir? Fəlsəfə elminin əsas sualı müasir dövrdə cinayət ədalət mühakiməsinin liberal islahatının digər nailiyyətlərində cinayət prosesi doktrinasında, ilk növbədə, onun çəkişmə prinsipi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, təqsirsizlik prezumpsiyası ilə (həqiqət) uyğunluğu kontekstində öz spesifik əksini tapmışdır.

Klassik mənada həqiqət, hissi və intellektual öyrənmə və ya obyekt haqqında məlumatın qəbulu yolu ilə əldə edilən və etibarlılıq baxımından xarakterizə edilən obyekt haqqında adekvat məlumatdır. Daha sadələşdirilmiş şərh aşağıdakı tezislə üst-üstə düşür: həqiqət reallığın şüurda adekvat əks olunmasıdır. Həqiqətin biliyin və əşyaların uyğunluğu kimi başa düşülməsi antik dövrdə Demokrit, Epikur, Lukretsi Kar üçün xarakterik idi.

Həqiqət reallığa uyğun gələn və düşünənin qiymətləndirmə fikrindən asılı olmayan obyektiv bilikdir. Bu, insanın idrakında zamanın müəyyən anında mövcud olan mücərrəd anlayışdır. Dilimiz məhdud olduğundan həqiqəti sözlə ifadə etmək olmaz. Onu görmək və hiss etmək olmaz, onu başa düşmək və ya dərk etmək olar. Biliyin özünü və başa düşülən reallığı həqiqət adlandırmaq olar.

Həqiqət və gerçək (doğru) nəinki fərqli yazılır, həm də fərqli mənalar daşıyır. Lüğətlər bu sözləri sinonim kimi qəbul etsə də, yenə də fərqlər var: Həqiqət - varlığın ümumi qanunları haqqında biliklər verir, obyektivdir, yeganədir, fəlsəfi və dini kateqoriyadır. Obyektiv həqiqət - bu, insandan asılı olmayan biliyin məzmunudur. Gerçək (doğru) - ümumi mənzərənin ayrı-ayrı fraqmentləri haqqında biliklər verir, hər kəsin özünə məxsus, gündəlik həyata aid subyektiv kateqoriyadır.

Fəlsəfədə həqiqət idrak nəzəriyyəsinin əsas və mərkəzi məsələlərindən biri hesab edilir, onun mütləq və nisbi anlayışları mövcuddur.

Mütləq həqiqət - bu, təbiət, insan və cəmiyyət haqqında hərtərəfli, etibarlı bilikdir; heç vaxt təkzib edilə bilməyən bilik.

Nisbi həqiqət - bu, cəmiyyətin müəyyən inkişaf səviyyəsinə uyğun gələn natamam, qeyri-dəqiq biliklərdir, bu biliklərin əldə edilməsi yollarını müəyyən edir; bu biliklər müəyyən şərtlərdən, alındığı yerdən və vaxtdan asılıdır.

"Həqiqət" anlayışı, həmçinin hüquqda, xüsusilə prosessual hüquqda əhəmiyyət kəsb edən məsələlərdən biridir. Eyni zamanda, bu məsələ ilə bağlı hüquq nəzəriyyəsində və təcrübədə mübahisə doğuran bəzi məqamlar mövcuddur. Bir çox halda hüquqşünasların qarşısında belə suallar meydana çıxır: məhkəmə iş üzrə həqiqəti müəyyən etmək üçün fəallıq göstərməlidirmi və ya məhkəmə tərəflərin öz tələb və etirazlarını sübut etməsi zamanı çəkişmələrini müşahidə etməli və yalnız onlar tərəfindən təqdim olunan sübutlara əsaslanmalıdır? Məhkəmə hansı həqiqəti müəyyən etməlidir, formal və yaxud obyektiv (real) həqiqəti?

Hüquq ədəbiyyatında həqiqətin iki növü mövcuddur:

-işin həqiqi hallarına müvafiq olaraq məhkəmənin gəldiyi nəticə (obyektiv həqiqət);

-işdə olan sübutlar əsasında məhkəmənin gəldiyi nəticə (formal həqiqət).

Cinayət prosesində obyektiv həqiqət məhkəmənin, hakimin, müstəntiqin, təhqiqat orqanının rəhbərinin biliklərinin (nəticələrdə əks olunmuş) onların ictimai həyatında müəyyən cinayət məsuliyyəti nəzərdə tutan hadisənin hallarına dəqiq uyğunluğudur.

Bununla əlaqədar olaraq, gəlin cinayət prosesində həqiqətlə bağlı müzakirələrə utilitar (utilitarizm - (lat. utilitas - fayda, fayda) - bütün hadisələri yalnız faydalılığına, hər hansı məqsədə çatmaq üçün vasitə kimi xidmət etmək qabiliyyətinə görə qiymətləndirmə prinsipi) nöqteyi-nəzərdən baxmağa və suala cavab verməyə çalışaq: cinayət prosesində həqiqətin müəyyən edilməsi institutu praktiki baxımdan nədir və onu çəkişməli məhkəmə prosesinə daxil etmək mümkündürmü?

Əgər sübutetmədə təşəbbüs tərəflərə məxsusdursa və məhkəmə nisbətən passiv qalaraq, tərəflər arasında mübahisədə yalnız müstəqil arbitr kimi çıxış edirsə, burada formal (hüquqi) həqiqətdən danışmaq olar. Düşünməsi böyük səhv olardı ki, passiv məhkəmə həqiqəti üzə çıxarmağa çalışmır. Ancaq tərəflərin mübahisəsində çəkişmə zamanı həqiqət ortaya çıxır. Eyni zamanda, tərəflər sübutları müstəqil surətdə toplayıb məhkəməyə təqdim edir, lakin obyektiv, hərtərəfli və qərəzsiz hərəkət etməyə borclu olan müstəqil orqan olmadıqda, onlar sübutların qarşılıqlı açıqlanması ilə bağlı müəyyən prosedurlara riayət etməyə məcbur olurlar ki, bu da məhkəməyə verilən məlumatların obyektivliyini xeyli dərəcədə təmin edir.

Yuxarıda göstərilənlərə əsaslanaraq, belə nəticəyə gəlmək olar:

a) fəlsəfi mənada həqiqət anlayışı cinayət prosesində həqiqət anlayışı ilə eyni deyil, ona görə də bir anlayışın digəri tərəfindən şərtləndirilməsinə əsaslanan hər hansı fəlsəfi mübahisələrin praktiki əhəmiyyəti yoxdur;

b) cinayət prosesində həqiqət hüquqi həqiqətin mahiyyətini təşkil edir, çünki heç bir mövcud prosessual qayda onun hüquqi prosedurlardan təcrid olunmuş şəkildə müəyyən olunmasını nəzərdə tutmur;

c) cinayət prosesində həqiqətin müzakirəsi mahiyyət etibarilə cinayət-prosessual sübutetmənin optimal modelinin seçilməsi ilə nəticələnir, lakin bu, mövcud modellərin hər birinin həqiqəti özünəməxsus şəkildə tapmağa çalışmasına mane olmur.

Hüquqi müzakirənin tərkib hissəsi kimi cinayət prosesində həqiqətin müəyyən edilməsi institutunun özünün çəkişmə prinsipi ilə ziddiyyət təşkil etməsi barədə fikir irəli sürülür. Bunun belə olub-olmadığını anlamaq üçün ilk növbədə bu prinsipin məzmununu anlamaq lazımdır. Çəkişmə prinsipinin məzmununa vahid yanaşma olmadığından belə təhlil müəyyən çətinlik yaradır. Ən ümumi formada cinayət prosesində bu prinsip aşağıdakı tezislərə söykənir:

a) cinayət təqibinin, müdafiənin və işin həllinin prosessual funksiyalarının ciddi şəkildə məhdudlaşdırılması, onların bir şəxsdə birləşdirilməsinin qadağan edilməsi;

b) ittiham və müdafiə tərəflərinə öz mövqelərini məhkəmə qarşısında müdafiə etmək üçün bərabər hüquq və imkanların verilməsi;

c) tərəflərin öz prosessual öhdəliklərini yerinə yetirmələri və onlara verilmiş hüquqları həyata keçirmələri üçün zəruri şərait yaratmaqla məhkəmənin prosesdə rolunun məhdudlaşdırılması.

Azərbaycan Respublikasının 2000-ci il tarixli CPM-də bir sıra yeni və mütərəqqi ideyalarla yanaşı, çəkişmə prinsipi də öz təsbitini tapmışdır. Çəkişmə prinsipi cinayət mühakimə icraatının tipini və formasını müəyyən edir. Bu prinsip cinayət prosesində qarşı-qarşıya duran iki tərəfin hüquq bərabərliyi və işi həll edən məhkəmənin tərəfsizliyi ideyasına əsaslanır. Çəkişmə prinsipi cinayət prosesində həll edilən hər bir məsələdə ittiham və müdafiə tərəflərinin hüquqlarında balansın gözlənilməsini tələb edir.

Həmin prinsipə əsasən proses mübahisə və müzakirə şəraitində aparılır ki, bu da öz növbəsində məhkəmə qarşısında duran vəzifələrin həyata keçirilməsinə təminat yaradır. Bu prinsip özünün tam və aydın ifadəsini məhkəmə baxışı mərhələsində tapır, tərəflər arasında gedən prosessual mübahisənin daha obyektiv, hərtərəfli və real olması və bu çəkişmənin nəticələrinin məhkəmə üçün həqiqəti müəyyən etmək imkanı yaratmaq məqsədilə cinayət-prosessual qanunvericiliyində tərəflərin bərabər prosessual hüquqlara malik olmalarını təsbit etmişdir. Beləliklə, çəkişmə prinsipi cinayət prosesinin və ədalət mühakiməsinin demokratik əsaslarından biri olub, təqsirləndirilənin hüquqlarının və qanuni mənafeyinin real həyata keçirilməsinin, işin hallarının hərtərəfli, tam və obyektiv araşdırılmasını, habelə məhkəmə hökmlərinin qanuni, əsaslı və ədalətli olmasını təmin edir.

Çəkişmə prinsipinin müasir dövrdə formalaşması tarixi yol keçmidir. Şimalı Azərbaycan Çar Rusiyayasına qatılanadək ölkə şəriət qanunları əsasında idarə olunurmuş. Bu qanunlar eynilə cinayət-hüquq və cinayət-prosessual münasibətlərə də aid edilirdi. Çar Rusiyasının qeyd olunan dövrə aid olan qanunları əsasən Qərb təmayüllü olmaqla bir çox sahələrdə Avropa hüququnu təkrarlayırdı. Belə hüquq aktlarından biri də 1864-cü ildə aparılan məhkəmə-hüquq islahatlarının tərkib hissəsi kimi qəbul olunmuş Cinayət mühakimə icraatının nizamnaməsi idi. Nizamnamə Rusiyanın tarixində ilk dəfə olaraq cinayət prosesinin çəkişmə əsasında həyata keçirildiyini təsbit etmişdi. Həmin aktda çəkişmə prosesi məhkəmə həqiqəti, məqsədyönlülük, sərbəstlik, təqsirsizlik prezumpsiyası kimi prinsiplərlə əlaqələndirilirdi. Məhkəmə hakimiyyətinin ittiham hakimiyyətindən ayrılması cinayət prosesi üçün səciyyəvi idi. Bununla belə müdafiə tərəfi müdafiə və tərəflərin bərabərliyi hüququndan icraatın ancaq müəyyən mərhələlərində istifadə edə bilərdi (1, s.90**)**.

AR Konstitusiyasının 127-ci maddəsinin VII hissəsinə əsasən məhkəmə icraatı çəkişmə prinsipi əsasında həyata keçirilir (2). Konstitusiyaya əsasən məhkəmə icraatı tərəflərin çəkişməsi və bərabərliyi əsasında həyata keçirilir. Bu prinsip cinayət prosesinin bütün mərhələlərinə şamil edilməli olmasına baxmayaraq, hələ də yalnız məhkəmə instansiyalarında özünü tam şəkildə büruzə verir.

Çəkişmə prinsipi ittiham və müdafiə tərəfinin prosessual funksiyalarını fərqləndirməkdən ibarətdir. Onlar bir-birindən ayrıdır və heç kimin funksiyaları eyni orqana və ya eyni vəzifəli şəxsə həvalə edilə bilməz.

Eyni zamanda, məhkəmə cinayət təqibi orqanı deyil, tərəf tuta bilməz. Məhkəmənin vəzifəsi ittiham və müdafiə tərəfinin öz prosessual vəzifələrini yerinə yetirmələri və təqdim olunmuş hüquqlardan istifadə etmələri üçün belə zəruri şərait yaratmaqdır. Eyni zamanda, ittiham tərəfi ilə müdafiə tərəfi məhkəmə qarşısında bərabərdir.

Azərbaycan Cinayət-Prosessual Məcəlləsinini 32-ci maddəsində çəkişmə prinsipi aşağıdakı kimi formulə edilmişdir:

Azərbaycan Respublikasında cinayət mühakimə icraatı ittiham və müdafiə tərəfinin çəkişməsi əsasında həyata keçirilir. Bu məqsədlə:

-hər bir tərəf məhkəmədə təmsil olunur;

-hər bir tərəf məhkəmədə öz mövqeyini müdafiə etmək üçün bərabər hüquqlara və imkanlara malikdir;

-ittiham tərəfi cinayət hadisəsinin baş verməsini, cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin əlamətlərinin mövcudluğunu, bu əməlin törədilməsinə təqsirləndirilən şəxsin aidiyyətini, cinayəti

törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb olunmasının mümkünlüyünü sübut edir, təqsirləndirilən şəxsin əməlinin hüquqi tövsifinə və məhkəmənin yekun qərarına dair öz təkliflərini verir;

-müdafiə tərəfi cinayət təqibi ilə bağlı irəli sürmüş ittihamı təkzib edir və ya cinayət prosesini həyata keçirən orqanın diqqətini təqsirləndirilən şəxsin cinayət məsuliyyətindən azad edilməsinə və ya cinayət məsuliyyətini yüngülləşdirən halların mövcudluğuna cəlb edir, təqsirləndirilən şəxsin əməlinin hüquqi tövsifinə, məhkəmənin yekun qərarına dair öz təkliflərini verir;

-hər bir tərəf heç kimdən asılı olmayaraq, müstəqil surətdə öz mövqeyini seçir, onu müdafiə etmək üçün vasitə və üsullarını müəyyən edir;

-məhkəmə cinayət prosesi tərəflərindən hər birinin vəsatəti ilə əlavə olaraq zəruri materialların əldə edilməsinə kömək göstərir;

-məhkəmə tərəfindən hökm yalnız cinayət prosesi tərəflərinin iştirakı bərabər əsaslarla təmin edilməklə tədqiq olunmuş sübutlarla əsaslandırılır;

-dövlət ittihamçısı və xüsusi ittihamçı cinayət təqibini həyata keçirir və cinayət təqibindən imtina edir;

-təqsirləndirilən şəxs sərbəst olaraq təqsirli olduğunu inkar edir və ya özünü təqsirli bilir;

-mülki iddiaçı iddiadan imtina edir və ya mülki cavabdehlə barışıq sazişi bağlayır;

-mülki cavabdeh iddianı qəbul edir və ya mülki iddiaçı ilə barışıq sazişi bağlayır (3).

Göründüyü kimi, cinayət prosesinin tərəfləri — çəkişmə və hüquq bərabərliyi əsasında cinayət mühakimə icraatında ittihamı və müdafiəni həyata keçirən cinayət prosesinin iştirakçılarıdır. Ona görə də cinayət-prosessual qanunvericiliyin mənbələri kimi cinayət-prosessual fəaliyyət daxilində və ədalət mühakiməsinin həyata keçirilməsində çəkişmə prinsipini pozan normativ hüquqi aktlar tətbiq edilə bilməz.

AR Konstitusiya Məhkəməsinin “AR CPM-in 420.3-cü maddəsinin şərh edilməsinə dair” 09 aprel 2002-ci il tarixli Qərarında qeyd edilir ki: “… çəkişmə hüququ çəkişən tərəflərin mövqeyi və tələblərini əsaslandırmaq üçün bərabər vasitələr və imkanlardan istifadə etmək, digər tərəfin mövqeyi və tələbləri ilə razı olmamaq hüququnun tanınmasını nəzərdə tutur … prosessual bərabərlik o deməkdir ki, ittiham tərəfi cinayət təqibi ilə bağlı ittihamı sübuta yetirmək, müdafiə tərəfi isə ittihamı təkzib etmək üçün məhkəmə prosesində eyni hüquqlara malikdir. Təqsirləndirilən şəxs (məhkum) kimi, zərər çəkmiş də məhkəmə iclasında yaranan və hökmlə həllini tapan bütün məsələlərə, o cümlədən təqsirləndirilən şəxsin əməlinin hüquqi tövsifinə və məhkəmənin yekun qərarına dair öz təkliflərini irəli sürə bilər … Cinayət-Prosessual Məcəlləsində təqsirləndirilən şəxsin, sonra isə məhkumun cinayətin tövsifi və ona təyin edilmiş cəzanın tətbiqi ilə bağlı heç bir məhdudiyyət qoyulmadan öz təkliflərini irəli sürmək hüququnun olması, zərər çəkmişin isə belə hüquqdan tam istifadə edə bilməməsi zərər çəkmişin Konstitusiyada təsbit olunmuş məhkəmə müdafiəsi hüququnu əsassız olaraq məhdudlaşdırır, məhkəmə icraatının çəkişmə əsasında həyata keçirilməsi, tərəflərin məhkəmə qarşısında bərabərlik prinsiplərini pozmuş olur” (4).

AR Konstitusiya Məhkəməsinin “AR CPM-in 409-cu maddəsinin şərh edilməsinə dair” 19 iyul 2002-ci il tarixli Qərarında göstərilir ki: “… qanunverici tərəfindən cinayət mühakimə icraatının çəkişmə prinsipinə müvafiq olaraq həyata keçirilməsinin müəyyənləşdirilməsi, tərəflərin müəyyən hədlərdə prosessual müstəqilliyinin təmin olunmasına, onların prosessual mövqe və məqsədlərinin konkretləşdirilməsinə, həmçinin prosessual funksiyaların tarazlaşdırılmasına yönəlmişdir … ittiham və müdafiə tərəflərinin çəkişməsi cinayət mühakimə icraatının bütün mərhələlərini əhatə edir və məhkəmə tərəfindən qanuni, əsaslı və ədalətli hökm çıxarılmasına şərait yaradır” (5).

Maddi (obyektiv) həqiqətin müəyyən edilməsi institutunun əleyhdarlarını və tərəfdarlarını düşündürən bir sual ortaya çıxır: məhkəmə həqiqətin axtarışında fəal iştirakçı olmalıdırmı və yaxud tərəflərin prosesdəki fəallığından asılı olaraq, onun rolu mübahisədə passiv arbitrə endirilməlidir? Məhkəmənin fəaliyyəti praktiki mənada onun məhkəmə araşdırmasının tam və obyektiv aparılması üçün öz təşəbbüsü ilə şahidləri müstəqil dindirmək və başqa üsullarla sübutlar toplamaq qabiliyyəti deməkdir. Obyektiv həqiqətin müəyyən edilməsi institutunun əleyhdarlarının fikrincə, məhkəmənin bu cür fəaliyyəti praktikada ibtidai istintaqın natamamlığının doldurulmasına çevrilə bilər ki, bu da

məhkəmə üçün yolverilməz olan ittiham tərəfi funksiyasının həyata keçirilməsi deməkdir. İstənilən halda qeyd etmək olar ki, həqiqəti üzə çıxarmağa çalışan məhkəmənin fəal rolu cinayət prosesinin gedişində dövlətin onun bütün güc institutlarına həddindən artıq müdaxiləsi nöqteyi-nəzərindən xalis rəqabətin tərəfdarları tərəfindən kənarlaşdırılır. Bu mənada belə həddindən artıq müdaxilə tərəflərin maraqlarına toxunmaya bilməz (xüsusilə ibtidai istintaq zamanı cinayət işinin materiallarını obyektiv və qərəzsiz araşdırmaq tələb olunan bütün iştirakçılar ittiham tərəfində olduqda) hansı ki, məqbul sayıla bilməz.

Çəkişmə məhkəmə icraatının prinsipi olduğuna görə məhkəmə mübahisəni tərəflərin özlərinin çəkişməsi əsasında həll edir ki, hansı hüquq normalarının tətbiq etmək və ya tətbiq etməmək, onları necə şərh etmək, mübahisə edilən faktları və əsasları tərəflərin özləri sübut edir.

Azərbaycan Respublikasının mövcud Cinayət Prosessual Məcəlləsində nə həqiqət, nə də ona nail olmaq üçün vasitələr qeyd edilmir. Ancaq daha yaxından araşdırdıqda məlum olur ki, Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi, əslində, sırf çəkişmə ruhunda norma-bəyannamələrlə fəal şəkildə təqdim olunmuş cinayət prosesinin klassik qarışıq modelini birləşdirir. Belə ki, Cinayət-Prosessual Məcəlləsinin 7.0.2.1-ci maddəsində müstəntiq ittiham tərəfi kimi göstərilir. Buna görə, ona müdafiə tərəfi funksiyaları həvalə edilə bilməz. Lakin eyni zamanda, o, istintaq çərçivəsində əməlin cinayət və cəzalanmalı olmasını istisna edən halları müəyyən etməyə borcludur. Cinayət Prosessual Məcəlləsinin 41.1-ci maddəsinə əsasən təhqiqatçı, müstəntiq və ya prokuror cinayət təqibi üzrə icraatın məhkəməyədək hər hansı mərhələsində bu Məcəllənin 39-cu maddəsində (cinayət təqibini istisna edən hallar) göstərilən halları aşkar edərsə, cinayət təqibinə xitam verilməsi barədə (o cümlədən cinayət işi üzrə icraata xitam verilməsi barədə qərar çıxarır. Bu isə nəzəri cəhətdən müstəntiqə müəyyən hallarda müdafiə maraqları naminə hərəkət etmək öhdəliyi qoyur. Müstəntiqin prosessual vəziyyətinin məzmunlu təhlilini aparmaq cəhdi belə bir qənaətə gəlməyə əsas verir ki, ibtidai istintaq mərhələsində cinayət işinin materiallarının hərtərəfli, tam və obyektiv öyrənilməsi yolu ilə maddi həqiqətin müəyyən edilməsi prinsipi həyata keçirilir.

Məhkəmənin fəaliyyəti həqiqətən də Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin müddəaları ilə məhdudlaşır ki, bu da maddi həqiqətin müəyyən edilməsi prinsipinin hazırda məhkəmə mərhələlərinə şamil edildiyini söyləməyə imkan vermir. Əvvəlki Cinayət Prosessual Məcəlləsindən fərqli olaraq, məhkəmə öz təşəbbüsü ilə cinayət işi başlamaq, materialı əlavə istintaq üçün qaytarmaq, öz istəyi ilə şahidləri dindirmək və ya ibtidai istintaqın natamamlığını başqa yolla kompensasiya etmək hüququna malik deyil.

Digər məsələlərlə yanaşı, dövlət ittihamçısının ittiham irəli sürməkdən imtinasının nəticələrini nəzərə alaraq, əminliklə deyə bilərik ki, cinayət prosesinin gedişində maddi həqiqət tam uyğun olaraq öz yerini formal çəkişmə prinsipinə verir.

Eyni zamanda, qeyd etmək lazımdır ki, praktikada çox vaxt məhkəmə tərəfindən bu məhdud funksiyalarının açıq şəkildə rədd edilməsinə (məsələn, dövlət ittihamçısının əvəzinə şahidlərin və faktiki olaraq zərərçəkmişin məhkəmə tərəfindən fəal dindirilməsi) rast gəlinir. Bu, habelə prosessual qanunun tələbləri pozulmaqla əldə edilmiş sübutların məqbulluğunun bərpasında sonuncuya köməklik göstərilməsini irəli sürür. Bu, daha çox onunla bağlıdır ki, dövlət ittihamçısı prosesdə özünü passiv aparır, məhkəmə isə çəkişməyə dair deklorativ normalara baxmayaraq, özünü həqiqəti üzə çıxarmağa, yəni müstəqil şəkildə prokurorun işini görməyə borclu hesab etməkdə davam edir.

1. Ona görə də cinayət prosesində əsas və yeganə vacib funksiyasını (cinayət işinin həlli funksiyası) həyata keçirən məhkəmə, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsi ilə başa düşüldüyü kimi, tam mənada sübutetmənin subyekti ola bilməz, yəni məhkəmə sübutetməyə borclu deyil, ona qiymət verir.

Buna görə də məhkəmə araşdırması zamanı məhkəmə yalnız tərəflərin sübut potensialına yenidən baxır ki, son nəticədə onu ittiham tərəfinin təklif etdiyi əməlin hüquqi tövsifi baxımından, onu ittiham aktının məcmusu ilə, həm təqsirlilik, həm də oradakı tezislərin həqiqiliyi və ya həqiqi olmaması baxımından əlaqələndirilməsini təftiş edir. Onun öz təşəbbüsü ilə sübut toplamaq hüququ yoxdur, çünki bunun əksi istər-istəməz onu işin funksional həllinin ittiham və ya müdafiə tərəfinə

doğru aparır.

2. Cinayət təqibi orqanının qanunla ona həvalə edilmiş funksiyanı (cinayət təqibi) həyata keçirməsi tam, obyektiv və hərtərəfli araşdırma olmadan mümkün deyil. Öz növbəsində, istintaqın hərtərəfli və obyektiv olması zərurəti bizi cinayət təqibi funksiyasını cinayət prosesində müstəqil funksiyadan xüsusi səlahiyyətli və müstəqil vəzifəli şəxs olan müstəntiq tərəfindən həyata keçirilən cinayət işinin istintaqı funksiyasından aydın şəkildə ayırmağa məcbur edir. Digər tərəfdən müstəntiq prosessual məcburiyyət tədbirlərinin tətbiqinin zəruriliyi ilə bağlı tərəflərin (xüsusən də ittiham tərəfinin) mövqeyindən asılı olmamalıdır.

3. Cinayət işinin təhqiqatının obyektivliyinə və hərtərəfliliyinə, digər məsələlərlə yanaşı, müdafiə tərəfinə (tərəfinin bu imkandan istifadə etmək istəyindən asılı olmayaraq) ümumilikdə sübutların toplanması prosesində fəal iştirak etmək, ittiham tərəfinin sübutlarının təkzib etmək imkanı yaratmaqla təmin edilməlidir (məsələn, müdafiə tərəfinə ittiham tərəfinin şahidlərinə çarpaz dindirilməsi imkanının verilməsi və s).

M.S.Stroqoviçin müəyyən etdiyi kimi, çəkişmə elə məhkəmə baxışının qurulmasıdır ki, burada ittiham işin həllində məhkəmədən ayrılmışdır və ittiham və müdafiə öz iddialarını müdafiə etmək və əks tərəfin iddialarını mübahisə etmək üçün bərabər hüquqlara malik olan səxslər tərəfindən həyata keçirilir, özü də təqsirləndirilən şəxs (məhkum) müdafiə hüququ olan tərəfdir; məhkəməyə isə prosesə rəhbərlik, işin hallarının fəal araşdırılması və işin həlli məxsusdur (6, s.80).

Hökm çıxararkən, həqiqiliyi mütləq bilinməli olan hallar aşağıdakılardır:

• ittiham olunan əməlin baş verməsi;

• bu əməlin ictimai təhlükəli və qanunsuz olması;

• bu əməlin hərəkət və ya hərəkətsizliklə baş verməsi;

• bu əməldə cinayət tərkibinin olması;

• təqsirləndirilən şəxsin bu əməlin törədilməsində iştirakının olması;

• cinayət məsuliyyəti müəyyən edən cinayət qanununun ona cinayətin törədildiyi vaxtdan və yerdən asılı olaraq, tətbiq edilməsi;

• şəxsin bu əməldə təqsiri.

Qanunvericilik "formal həqiqətin müəyyən edilməsi"ni ayrıca prinsip kimi nəzərdə tutmayıb, məhkəmənin üzərinə yalnız işdə olan sübutlar əsasında həqiqəti müəyyən etmək vəzifəsi qoyulub.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu Azərbaycan Respublikası Konstitusiyasının 125 maddəsinin VII hissəsinin Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi baxımından şərh edilməsinə dair 18 noyabr 2019-cu il qərarında həqiqətin müəyyən edilməsində məhkəmənin rolunu mülki icraat zamanı müəyyən etmişdisə, bunu cinayət mühakimə icraatı zaman analogiya kimi tətbiq etmək olmaz.

Cinayət mühakimə icraatında hüquqi həqiqət çəkişmədə doğulur.

Cinayət mühakimə icraatının çəkişmə prinsipi məhkəmə araşdırılmasının və işin hallarının tədqiqinin elə bir prosessual formasıdır ki, bu zaman prosesin ittiham (dövlət və xüsusi ittihamçı, zərərçəkmiş şəxs, onun qanuni nümayəndəsi, mülki iddiaçı) və müdafiə tərəfindən (təqsirləndirilən şəxs, onun qanuni nümayəndəsi, müdafiəçi, mülki cavabdeh, onun qanuni nümayəndəsi) olan iştirakçılarının özlərinin prosessual funksiyalarını tam həyata keçirmək və müstəqil məhkəmənin nəzarəti altında özünəməxsus, yaxud müdafiə etdiyi hüquq və mənafeləri bərabər şərtlərlə fəal surətdə müdafiə etmək imkanı təmin olunsun.

Bu funksiyaların bir şəxsdə birləşməsi məntiq və psixologiya qanunlarına uyğun gəlmir. Prosesin belə qurulması ilə tərəflər öz hüquqlarını həyata keçirmək imkanından məhrum olur və məhkəmə istər-istəməz tərəflərdən birinin, əksər hallarda ittiham tərəfinin himayədarına çevrilir. Əgər tərəflər bir-birindən asılı olmayaraq ittiham və müdafiə funksiyalarını yerinə yetirirlərsə, onda ittihamı obyektiv həll edən məhkəmə onlardan müstəqil olmalıdır. Yalnız bu şərtlə müdafiə öz hüquq və maraqlarını müdafiə etmək üçün real imkan əldə edir. Məhz məhkəmə prosesinin bu cür qurulması işin tam və hərtərəfli tədqiqini və onun düzgün, ədalətli həllini təmin edir. Hər sübut yoxlanılır və hər bir hal ittiham və müdafiə baxımından tədqiq olunur; məhkəmə həm ittihamın lehinə, həm də

təqsirləndirilənin (məhkumun) xeyrinə bütün arqumentləri və məlumatları müəyyənləşdirmək və çəkindirmək imkanına malikdir. Bunun əksinə olsa isə, məhkəmənin əlində hər üç funksiyanın birləşdirilməsi qaçılmaz olaraq onun fəaliyyətinə birtərəfli xarakter verər və işin bütün hallarının obyektiv və tam aydınlaşdırılmasına mane olar.

Bildiyimiz kimi, dünyada anqlo-sakson və roman-german hüquq sistemləri mövcuddur. Bu sistemlərin "həqiqət" anlayışına yanaşmaları da fərqlidir. Əgər anqlo-sakson hüquq sistemi məhkəmənin cinayət prosesində formal həqiqətin ortalığa çıxarılmasında tam passiv mövqedə duraraq işi ittiham ilə müdafiə tərəflərin çəkişməsinə buraxırsa, roman-german hüquq sisteminə aid Avropa ölkələrində əvvəllər məhkəmə bu istiqamətdə passiv arbitr rolunda deyildi, prosesə fəal müdaxilə edərək formal həqiqəti müəyyən etmək üçün özü istintaqı həyata keçirən orqanın rolunu oynayırdı. Sonralar bu sistemdə də məhkəmənin bu aktivliyi çəkişməli cinayət məhkəmə prosesinə üstünlük verilərək azalmışdır. Azərbaycan Respublikası da roman-german hüquq sisteminə aid hissəsi kimi cinayət prosessual hüququnun islahatında formal həqiqətin aydınlaşmasında müəyyən islahatlar keçirmişdir. Belə ki, əgər əvvəlki cinayət prosessual qanunvericiliyində həqiqətin müəyyən edilməsində aktiv rol oynayırdısa, bu nəyin bahasına olursa olsun, təqsirkarın əməlini sübuta yetirmək üçün öz təşəbbüsü ilə sübutlar toplamaq, həqiqəti müəyyən etmək üçün qanunla nəzərdə tutulan bütün tədbirləri görmək idisə, 2000-ci ildən sonra cinayət prosessual qanunvericiliyin formatı dəyişərək, qanunvericinin həqiqətin müəyyən edilməsinə olan yanaşması, baxışı dəyişmişdir. Həqiqətin müəyyən edilməsində çəkişmə prosesi zamanı bu aktivlik tərəflərin özlərində bərqərar olundu, hakimə isə bu işdə passiv arbitr rolu düşürdü. Bu prinsipə görə, məhkəmə həqiqətin müəyyənləşdirilməsində ədalət mühakiməsi funksiyaları ilə uyğun gəlməyən səlahiyyətlərdən azad olunmuş, işin faktiki hallarının müəyyən edilməsində müdafiə və ittiham tərəfin hüquqlarına üstünlük verilmişdir.

Əgər məhkəmənin fəallığı çəkişmə prinsipindən kənara çıxmırsa, qarşısını almırsa, əksinə onun təmin edilməsində vasitəçilik edirsə, bu zaman belə fəallıq yolverilən, bəzi hallarda isə zəruri hesab edilməlidir (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 372-ci maddəsinin apellyasiya baxışının hədləri barədə müddəalarının həmin Məcəllənin 372.1 və 372.7-ci maddələrinin tələbləri baxımından şərh edilməsinə dair" 2011-ci il 20 may tarixli Qərarı).

Konstitusiya Məhkəməsinin Plenumu əvvəlki hüquqi mövqeyini inkişaf etdirərək, ilk növbədə qeyd etməyi lazım bilir ki, mülki məhkəmə icraatında Konstitusiyanın 125-ci maddəsinin VII hissəsinin "Məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir" müddəası ədalət mühakiməsinin əsas prinsipləri və şərtlərini müəyyən edən Konstitusiyanın 127-ci maddəsinin II hissəsinin "Hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar", həmin maddənin IV və VII hissələrinin "Ədalət mühakiməsi vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilir. Məhkəmə icraatı çəkişmə prinsipi əsasında həyata keçirilir" və Konstitusiyanın 129-cu maddəsinin III hissəsinin "Məhkəmə qərarı qanuna və sübutlara əsaslanmalıdır" müddəaları ilə əlaqəli şəkildə tətbiq olunmalıdır (7).

Hakim qərarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, təqdim etdikləri sübutlara, onların verdiyi izahatlarla, sənədlərlə əsaslandırmalıdır.

Hakim tərəfindən işin faktiki hallarının müəyyən edilməsi ilə həqiqətin müəyyən edilməsi üst-üstə düşməyə bilər. Proses zamanı yalnız sübutetmə predmetinə aid olan hüquqi əhəmiyyət daşıyan hallar müəyyən edilir ki, bu işin faktiki hallarıdır. Bunların müəyyən edilmə üsulu da fərqlidir. Belə ki, işin faktiki halları istənilən üsulla deyil, məhkəməyə təqdim olunmanın qanunla yol verilən üsulunu nəzərdə tutur. Beləliklə, işin faktiki halların müəyyən edilməsi obyektiv həqiqəti deyil, "hüquqi həqiqəti", yəni hər kəsin özünə məxsus, subyektiv kateqoriya olan "gerçək həqiqəti" müəyyən edir. Yəni tərəflər işin faktiki hallarını müəyyən edən sübutlar təqdim edir, məhkəmə isə məhz bu sübutları qiymətləndirməklə hüququ tətbiq edir və hüquqi həqiqəti müəyyən edir.

## ƏDƏBİYYAT


1. Abbasova F.M. Cinayət mühakimə icraatının prinsipləri sistemində çəkişmə prinsipinin yeri. Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası. Bakı: 2008, № 4, s.90
2. Azərbaycan Respublikasının Konstitusiyasının 125-ci mad. VII hissəsi.
3. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 32-ci mad.
4. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin "AR CPM-in 420.3-cü maddəsinin şərh edilməsinə dair" 09 aprel 2002-ci il tarixli Qərarı. Bakı şəhəri.
5. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin "AR CPM-in 409-cu maddəsinin şərh edilməsinə dair" 19 iyul 2002-ci il tarixli Qərarı. Bakı şəhəri.
6. Лукичев Н. А. Состязательность и равноправие сторон в уголовном судопроизводстве. - Саратов, 2003. С. 80.
7. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin Plenumunun Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VII hissəsinin Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi baxımından şərh edilməsinə dair 18 mart 2019-cu il Qərarı. Bakı şəhəri.


## SUMMARY

**Ilgar Mırzayev**

### SOME ASPECTS OF THE PRINCIPLE OF TRUTH AND TRIAL IN CRIMINAL PROCEEDINGS

The article presents the author's approach to the issue of truth along with the problems of the formation of the principle of competition, the problems of competition and truth in criminal procedure legislation, as well as issues of evidence and proof in modern criminal proceedings of the Republic of Azerbaijan. The problems of the correlation of objective truth and the adversarial nature of the criminal process, the relationship between the adversarial nature, equality of the parties and the establishment of objective truth in a criminal case are analyzed.

***Key words:*** *- truth, the principle of competition, crime, code, law, proceedings, prosecution, defense.*

## РЕЗЮМЕ

**Ильгар Мирзаев**

### НЕКОТОРЫЕ АСПЕКТЫ ПРИНЦИПА ИСТИНЫ И СУДЕБНОСТИ В УГОЛОВНОМ СУДОПРОИЗВОДСТВЕ

В статье представлен авторский подход к вопросу истины наряду с проблемами формирования принципа состязательности, проблемами состязательности и истины в уголовно-процессуальном законодательстве, а также вопросами доказательств и доказывания в современном уголовном судопроизводстве Азербайджанской Республики. Анализируются проблемы соотношения объективной истины и состязательности уголовного процесса, взаимосвязи между состязательностью, равенством сторон и установлением объективной истины по уголовному делу.

***Ключевые слова:*** *- истина, принцип состязательности, преступление, кодекс, закон, производство, сторона обвинения, сторона защиты.*

***Məqaləni çapa təqdim etdi:*** *fəlsəfə üzrə elmlər doktoru, dosent Qərib Allahverdiyev*
***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 73-77
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 73-77
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 73-77

**KAMRAN VƏLİZADƏ**
**MƏHƏRRƏM HƏSƏNOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 340.11:316**

# AZADLIQ FENOMENİN SOSİOMƏDƏNİ TƏBİƏTİ

*Məqalədə azadlıq fenomeninin fəlsəfi mahiyyəti açıqlanır və onun hüquqi dövlətin mənəvi-əxlaqi və təşkilati sosial normaları ilə qarşılıqlı əlaqədə olduğu bildirilir. Müəlliflər siyasi, hüquqi, iqtisadi, mənəvi-əxlaqi sosial normaların azadlığa təsiri, hüquqi dövlətin tətbiq etdiyi qanunların və normaların azadlığın reallaşmasındakı roluna diqqəti yönəldirlər. Azərbaycan dövlətçiliyində qanunun aliliyinin, sosial ədalətin, təhlükəsizliyin, azadlığın, inamın, insanların mənəviyyatının hüquqi və qanuni maraqlarının müdafiəsində əsas rol oynadığı qeyd olunur.*

*Hüquqi dövlətin əsasını təşkil edən azadlıq, sosial ədalət və bərabərlik bir-birilə vəhdət təşkil edən siyasi aksioloji kateqoriyalar kimi nəzərdən keçirilir. Qeyd olunur ki, Azərbaycanda hüquqi dövlət quruculuğu yolunda əldə edilmiş nailiyyətlər azadlıq, bərabərlik və ədalət ideallarının gerçəkləşməsilə müşayiət olunur.*

***Açar sözlər:*** *cəmiyyət, azadlıq, ədalət, siyasi aksiologiya, hüquqi dövlət, dəyərlər, bərabərlik*

## Giriş

Azadlıq hüquqi dövlətin mənəvi-əxlaqi və təşkilati sosial normaları ilə qarşılıqlı əlaqədədir. Burada siyasi, hüquqi, iqtisadi, mənəvi-əxlaqi sosial normaların azadlığa təsiri, hüquqi dövlətin tətbiq etdiyi qanunların və normaların azadlığın reallaşmasında oynadığı mühüm rol diqqəti xüsusi olaraq cəlb edir. Demokratik cəmiyyəti anarxiyadan qoruyan başlıca amil azadlığın məsuliyyətlə vəhdət təşkil etməsidir. Demokratiyanın mənimsənilməsi, hüquqi dövlət quruculuğunun inkişafı bu vəhdəti daha da möhkəmləndirir. Azadlığın bütün növləri məsuliyyətin müxtəlif formaları - hüquqi, siyasi, mənəvi-mədəni məsuliyyətlə sıx şəkildə əlaqəlidir.

## Əsas hissə

Siyasi aksiologiyanın tərkib hissələrindən biri olan azadlıq fenomeni özünün sosiomədəni təbiətilə fərqlənir. Q.Allahverdiyev azadlığın sosial-fəlsəfi təhlili zərurətini müasir dövrdə dəyərlərin yenidən mənalandırılmasının universal prosesinin tələblərilə əlaqələndirir. O bildirir ki, azadlığın universal dəyər olması yeni tərzdə qiymətləndirilməyə başlanmışdır. Təkcə azadlıq deyil, humanizm, demokratiya, ədalət və s. kimi universal dəyərlər də yeni baxış bucağından qiymətləndirilir. Azadlıq bu dəyərlər ilə sıx bağlıdır. Müəllifin fikrincə, hazırda azadlıq haqqında yeni dünyagörüşü səviyyəsində daha dərindən fəlsəfi araşdırmalar aparılmalıdır [3, s.7]. Bununla da azadlığın siyasi aksioloji fenomen kimi ümumbəşəri dəyərlər sistemində mühüm yer tutduğu diqqətə çatdırılır.

Ulu öndər Heydər Əliyev ölkəmizdə yürüdülən daxili siyasətdən bəhs edərək deyirdi: "Daxili siyasət Azərbaycanda demokratik, hüquqi dövlət qurmaq, bazar iqtisadiyyatı yaratmaq və iqtisadi islahatlar aparmaqdan, Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq, hüquqlarının qorunmasını təmin etmək və öz rifahı halını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarətdir" [2, s.90-91]. Burada ədalətli, azad, demokratik hüquqi dövlətin zəruriliyi önə çəkilir. Azərbaycanın strateji məqsədlərinin hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun reallaşması azadlığın həyata keçirilməsilə müşayiət olunur. Bu zaman azadlıq demokratiya, humanizm, ədalət kimi ümumbəşəri dəyərlərlə vəhdət təşkil edir. Məhz bu dəyərlərin reallaşması əsasında hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu uğurla inkişaf edir.

Müəyyən obyektə və subyektə malik olan azadlıq təzahürünə görə təbii və sosial növlərə

bölünür, özününəzarət və özünütənzimləmə xüsusiyyətlərilə fərqlənir. Bundan başqa, azadlığın pozitiv və neqativ, daxili və xarici növləri də vardır. İradə, düşüncə, fikir, seçim azadlığı da mövcuddur. Ümumən azadlıq idealının gerçəkləşməsi demokratiyanın genişlənməsində, hüquqi dövlət quruculuğunda misilsiz əhəmiyyət kəsb edir.

Azadlığın sosial-fəlsəfi aspektdən geniş və hərtərəfli tədqiqatçılarından olan Q.Allahverdiyev göstərir ki, demokratik cəmiyyət və hüquqi dövlətdə azadlıq məsuliyyətin olmasını tələb edir. Belə ki, bu sistemdə onlar bir-birini tamamlayır. Doğrudur, cəmiyyətdə onların hər birinin öz yeri vardır, bununla belə onlar bir-birilə qırılmaz əlaqədədir [4, s. 82]. Bu fikirdən aydın olur ki, demokratik cəmiyyətdə və hüquqi dövlətdə mövcud olan siyasi hüquqi, iqtisadi, sosial və mənəvi azadlıqlar fərdin, sosial qrupun, bütövlükdə millətin müvafiq məsuliyyət formalarına əsaslanır.

Hüquqi dövlət quruculuğunda azadlıqla mənəvi dəyərlər də qarşılıqlı əlaqə təşkil edir. Hüquqi dövlət quruculuğu prosesində azadlığın reallaşması təmin edilir.

Şübhəsiz aydın olur ki, hüquqi dövlət azadlığın bütün növlərinin məcmu şəkildə tam həyata keçirilməsini təmin edən demokratik təsisatdır.

Hüquqi dövlətin əsasını təşkil edən azadlıq, sosial ədalət və bərabərlik bir-birilə vəhdət təşkil edən siyasi aksioloji kateqoriyalardır. Azərbaycanda hüquqi dövlət quruculuğu yolunda əldə edilmiş nailiyyətlər azadlıq, bərabərlik və ədalət ideallarının gerçəkləşməsilə müşayiət olunur. Azadlıqlardan geniş bəhrələnmək, bərabərlik və ədalət prinsiplərinin pozulmaması hüquqi dövlətin əsas strateji məqsədlərindən biridir. Hüquqi dövlətdə mənəvi idealın reallaşması üçün azadlığın təmin olunması əsas rol oynayır. Mənəvi ideal və azadlıq bir-birlərinə qarşılıqlı təsir edən fenomenlərdir.

Hüquqi dövlət quruculuğunda əsas yer tutan siyasi aksioloji kateqoriyalardan biri də inam, etimad (etibar) anlayışıdır. İnam insan təbiətinin təzahürü olub, şəxsiyyətə xeyirxah münasibəti ifadə edir, emosional sahədə məhəbbət, dostluq, ümid, əməkdaşlıq üçün əsas yaradır.

İnam ümumi norma və dəyərlər əsasında cəmiyyətin birləşdirici və tənzimləyici vasitəsi kimi çıxış edir. İnamın şəxsi və sosial amilləri bir-birilə qarşılıqlı surətdə bağlıdır.

İnam öhdəyə götürülmüş vəzifələrin məsuliyyət və borcun yerinə yetirilməsi, umidvericilik, xeyirxahlıq, əxlaqi öhdəliyə haqq qazandırılması ilə səciyyələnən bir fenomendir. Etimad əsas dəyərlərdən biri kimi bütün ictimai həyat sahələrində keçərlidir. Cəmiyyətdəki insanların milli şüurun inkişafındakı maraq və mənafelərinin ümumiliyi də etimad məsələsi ilə bağlıdır. Etimad azadlıq və ədalət ilə də sıx bağlıdır [5]. Göründüyü kimi, etimad hüquqi dövlətin əsasını təşkil edən siyasi aksioloji kateqoriyaların - ədalət, azadlıq haqqında təsəvvürlərin, siyasi, hüquqi mənəvi amillərin gerçəkləşməsində həlledici rol oynayan anlayışdır.

Etibarlılıq hüquqi dövlətin ictimai və şəxsi həyat sahələrində - şəxsi münasibətlərdə məhəbbət və dostluğun yaranmasında, ailədə, işdə, bazarda, səhiyyədə, kredit sahəsində, iqtisadiyyatda harmoniyaya, ahəngdarlığa səbəb olur. İnsan kapitalı, sosial kapital və maliyyə kapitalı arasında etimad yaradılması zəruri və mühüm amildir. Bütün sahələrdə etimadsızlığın yaradılması olduqca dağıdıcı rol oynayan neqativ prosesdir.

Burada əsasında etimadın, inamın durduğu praktika-hüquqi dövlət, bazar iqtisadiyyatı və vətəndaş cəmiyyətinin real konstruktivliyinin qarşılıqlı təsirini ifadə edən sosial əməkdaşlıq mühüm rol oynayır. Etimad, sosial əməkdaşlıq, hüquqi dövlət quruculuğu prosesinə təsir edən ictimai əlaqələr, qarşılıqlı təsir, birləşdirmə, möhkəmləndirmə forması olub, ekologiya, təhlükəsizlik, sağlamlıq, təhsil, incəsənət və elmdə, dərin kommersiya rejimi şəraitində bazar iqtisadiyyatının təmin etdiyi sosial rifahın yaranmasında əsas rol oynayan amillərdir.

Hüquqi dövlətin ali dəyərləri arasında siyasi aksiologiyanın yüridik və dövlət-idarəçilik anlayışları da əsas yer tutur. Şübhəsiz ki, burada dar mənada işlənən "dövlət anlayışı deyil, geniş mənada ərazi, əhali və kütləvi hakimiyyəti özündə birləşdirən "dövlətçilik" və "ali dəyərlər" diqqəti cəlb edir. Bu gün siyasi aksiologiya artıq hüquqi dövlət praktikası ilə birləşmişdir. Postsovet ölkələrindən olan Azərbaycanda da Qərb–Şərq dəyərləri əsasında spesifik, özünəməxsus dəyərlərimiz formalaşmışdır. Dəyərləri tarixi zaman miqyasına görə aşağıdakı kimi təsnif edirlər: bəşəriyyət üçün bütün dövrlərdə əhəmiyyətli olan əbədi dəyərlər, sivilizasiyaların və xalqların mövcudluğu

miqyasındakı meqatarixi dəyərlər, dövrlər miqyasındakı nəsli dəyərlər və cari hadisələr miqyasında konyunktur dəyərlər. Aksioloji məkan fərqlərinə görə isə aşağıdakı dəyər tipləri mövcuddur: universal, milli, lokal-qrup və fərdi dəyərlər.

Azərbaycanın qədim dövlətçiliyindən bugünkü müstəqil, milli demokratik hüquqi dövlətə aksioloji dəyərlər irsən keçərək onlardan bəziləri (əbədi, meqatarixi, dövri, universal, milli dəyərlər) ali dəyər əhəmiyyəti kəsb etmişdir.

Azərbaycan Respublikasının yaradılmasında dünyanın demokratik dövlətlərinin təcrübəsindən, qabaqcıl siyasi aksioloji prinsiplərdən istifadə edilməsinə də xüsusi əhəmiyyət verilir. Ulu öndər Heydər Əliyev göstərirdi ki, "biz demokratik, hüquqi, dünyəvi dövlət qurmaq üçün inkişaf etmiş Qərb ölkələrinin dövlət quruculuğu, demokratik prinsiplərinin bərqərar olması sahəsində əldə etdiyi nailiyyətlərindən istifadə edirik və edəcəyik [1, s. 409]. Ona görə də Azərbaycanda milli və ümumbəşəri siyasi aksioloji prinsiplərin əhəmiyyəti və zərurəti mühüm rol oynayır, xalqın nəzarəti hüquqi dövlətin yaranmasına və siyasi aksioloji prinsiplərin reallaşmasına, hüquqi, iqtisadi, siyasi və sosial stabilliyin, sülhün, əmin-amanlığın və təhlükəsizliyin təmin edilməsinə təsir edir. Hüquqi dövlətin əsas siyasi aksioloji əlamətlərindən biri insan varlığının, onun ləyaqətli həyat keyfiyyətinin təmin edilməsi, demokratik siyasi institutların ayrılmaz tərkib hissəsi olan hüquq sistemidir.

Sosial fəlsəfədə hüquqi dövlət və siyasi aksiologiyanın qarşılıqlı münasibətlərinə dair iki nəzəriyyə: liberal-demokratik və radikal demokratik nəzəriyyələr mövcuddur. Liberal-demokratik konsepsiyaya görə, hüquqi dövlətdə azad insan, onun əxlaqi azadlığı öz həyatı ilə müəyyən olunur. Hüquqi dövlət hər bir fərd üçün bərabər hüquq verir. Radikal-demokratik konsepsiyaya görə isə ağıllı insan azad varlıq kimi yalnız təbii vəziyyətdə mövcud ola bilər, ictimai vəziyyətdə isə o sosial insan kimi cəmiyyətin dəyərlərini rasionalcasına qəbul edə bilər. Hüquqi dövlət müqavilə əsasında əmələ gəlir və cəmiyyəti dəyərlərlə və siyasi aksioloji prinsiplərlə idarə edə bilər. Onun daşıyıcısı kimi xalq çıxış edə bilər. İctimai vəziyyətdə insanın azadlığını dövlətə qanunlar vermək idarəsinə malik xalq təmin edə bilər.

Azərbaycan Qərbin demokratik siyasi aksioloji prinsiplərini qəbul etdi, lakin liberal-demokratik dəyərlərdən özünün milli ənənələrinə uyğun olanları istifadə edərək milli hüquqi dövlət quruculuğunu həyata keçirdi. Ölkəmizdə milli hüquqi dövlət quruculuğunun xarakterini aşağıdakı siyasi aksioloji prinsiplərlə səciyyələndirmək olar:

-cəmiyyətdə hüquqi mədəniyyətin və hüquqi şüurun elə səviyyəsi yaranır ki, həm idarə edənlərin, həm də idarə olunanların təbii hüquqi baxışları biri digərinə uyğun gəlir;

- cəmiyyət üzvləri hakimiyyəti şüurlu surətdə qəbul edir, bir-birinə qarşı qarşılıqlı etimad göstərir;

- dövlət qanunlar və normativ aktlar qəbul edir və onlar insanların təbii hüquqi vəziyyətləri ilə üst-üstə düşür, həm cəmiyyət üzvləri, həm də dövlət adamları ona tabe olur və onu icra edirlər.

Hüquqi dövlət özünü iki aspektdə büruzə verir:1) vətəndaşların suverenliyi; 2) dövlətin suverenliyi.

Vətəndaşların suverenliyi özünü aşağıdakı yollarla reallaşdırır: birinci, cinsindən, etnik mənsubiyyətindən, dini əqidəsindən, irqi fərqlərindən asılı olmayaraq, qanun qarşısında hamının eynihüquqlu olması; şəxsiyyətin müstəqilliyi, özünü təsdiq edə bilməsi; ailələrin və şəxsi mülkiyyətin təhlükəsizliyinin qorunması; cəmiyyətin ictimai-siyasi həyatında iştirak [6, s.167-169]. Müəllif milli, hüquqi dövlət quruculuğunda hüquq və hüquq mədəniyyətinin siyasi aksioloji aspektlərinə toxunaraq azərbaycanlıların və Azərbaycanın milli suverenliyinin daxildə və xaricdə təmin olunması məsələsini önə çəkən ölkədə hüququn, azadlıq və bərabərliyin humanist xarakter daşıdığını, milli və ümumbəşəri sərvət, ideal dövlət modelinin rasional təşkili və ictimai quruluşun bütün sisteminin dəyişdirilməsini, milli maraqlara xidmət etməsini diqqətə çatdırır.

Hüquqi dövlət orqanlarının siyasi-hüquqi institut kimi formalaşmasının humanistləşməsinin əsasında aksioloji fundament, o cümlədən siyasi aksioloji prinsiplər, aksioloji yanaşma konsepsiyası və aksioloji modelləşdirmə metodologiyası durur. Bu prosesdə əsas siyasi aksioloji prinsiplər aşağıdakılardır:- milli özünüidentiklik və milli özünüifadə; -sivilizasion-mədəni şərtlənmə;

- multikulturalizm və dözümlülük; - azadlıq və məsuliyyətlə həmrəylik;-demokratiya, obyektivlik

və aşkarlıq;-regional inkişafın uyğunluğu [7]. Burada siyasi aksioloji prinsiplərin kompleks xarakter daşıdığını, bir-birilə qarşılıqlı əlaqədə və qarşılıqlı asılılıqda olduğunu nəzərdə saxlamaq lazımdır. Bu siyasi aksioloji prinsiplərin reallaşması hüquqi dövlətin formalaşmasına aksioloji yanaşma konsepsiyası çərçivəsində həyata keçirilir. Bu konsepsiya insana, cəmiyyətə və hüquqi dövlətə humanist baxışlar sistemini əks etdirir. Hüquqi dövlətə humanist baxışların siyasi aksioloji konsepsiyası sivilizasion-mədəni etnomilli, milli dövlətçilik, siyasi hüquqi müxtəlifliyin qəbul edilməsini əks etdirir. Hüquqi dövlət quruculuğu prosesində siyasi aksioloji modellərin metodologiyası şəxsi inkişaf və hüquqi dövlət orqanlarının formalaşması konteksində dörd səviyyədə: ümumbəşəri, etnomilli, sivilizasion-mədəni, sosial ümummillik və birlik səviyyələrində reallaşır.

Ümumbəşəri səviyyədə daxili və xarici qarşılıqlı təsir demokratizm, ümumi və regional inkişafın ahəngdarlığı, etno-milli və sivilizasion-mədəni səviyyədə milli özünüidentiklik, sivilizasion-mədəni şərtlənmə və tolerantlıq, sosial ümumilik və birlik səviyyəsində dialoqluq, qarşılıqlı siyasi-hüquqi sosial məsuliyyət kimi siyasi aksioloji prinsiplər əsasında həyata keçirilir. Hüquqi dövlətin formalaşması, humansitləşməsi aşağıdakı meyarlarla ifadə olunur: insanın həyati mövqeyi, siyasi fəallığı və siyasi potensialının formalaşması; siyasi-hüquqi münasibətlərin subyekti kimi öz siyasi idealları, ideyaları, seçimləri vasitəsilə öz insanlığının qoruması; fəaliyyətin ümumbəşəri, etnososial sivilizasion-mədəni dəyərlərə yönəlmiş siyasi-hüquqi strategiyasının reallığı; hüquqi dövlət orqanlarının siyasi aksioloji yönümü əsasında yeniləşməsi reallığı.

Bu gün əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycanın hüquqi dövlət quruculuğu onun layiqli siyasi davamçısı dövlət başçısı İlham Əliyev tərəfindən inkişaf etdirilərək siyasi aksioloji prinsiplərin təsiri ilə güclü modernləşmiş dövlətə çevrilmişdir. Bu kursun uğurla həyata keçirilməsi nəticəsində Azərbaycan günü-gündən inkişaf edir, dövlətçilik siyasətinin həyata keçirilməsində milli maraq və mənafelər nəzərə alınır, iqtisadiyyat möhkəmlənir, xarici əlaqələr genişlənir, demokratik dəyərlərə əməl olunur, hüquqi dövlət quruculuğunun bütün meyarlarına riayət olunur, vətəndaş cəmiyyətinin strukturları öz fəaliyyətini artırır, qanunların və qanunvericilik aktlarının qəbulunda beynəlxalq standartlar nəzərə alınır, insanlara ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi üçün imkanlar yaradılır.

**Nəticə.** Hüquqi dövlət quruculuğu prosesində siyasi aksioloji prinsiplər mühüm yer tutur. Siyasi aksiologiya milli, mənəvi aksiologiya ilə qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdə olub, demokratik, unitar, hüquqi Azərbaycan dövlətində əsas amil kimi çıxış edir. Siyasi aksiologiya müxtəlif yönümlü dəyərlər sistemi kimi Azərbaycan dövlətçiliyində qanunun aliliyinin, sosial ədalətin, təhlükəsizliyin, azadlığın, inamın, insanların mənəviyyatının hüquqi və qanuni maraqlarının müdafiəsində əsas rol oynayır. Bu gün siyasi aksiologiyanın əsas dəyərləri, formaları və institutları hüquqi dövlət quruculuğu prosesində həlledici əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT


1. Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında/H.Ə.,Əliyev. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2001. 132 s.
2. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir. 32-ci kitab/ H.Ə.Əliyev. Bakı: Azərnəşr, -2010. - 608 s.
3. Allahverdiyev Q. Azadlıq (sosial-fəlsəfi təhlil)/Q.Allahverdiyev. Bakı: Adiloğlu, 2009. 262 s.
4. Allahverdiyev Q. Azadlığın sosial-fəlsəfi təhlili və tədrisinin metodoloji məsələləri/ Q.Allahverdiyev. Bakı: Adiloğlu, 2016. 125 s.
5. Доверие–Политическая философия: [Электронный ресурс] / Москва, https:/studme.org/1314011229578/filosofiya/doverie
6. İbadova A. Milli hüquqi dövlət quruculuğu məsələləri//Müasir qlobal siyasi proseslər və milli dövlət ideyası.-Bakı: Səda, -2006. s.165-175
7. Гуманизация порядка формирования государственных органов и ее аксиологическая начала: [Электронный ресурс]/Москва, /https/lawbook.online/qosudarstvennıx-pra-va-teoriya/qumanizatiya-poruadka-formiorvaniya-71861/html.21.05.2015/

**SUMMARY**

**Kamran Valizadeh, Maharram Hasanov**

**SOCIO-CULTURAL NATURE OF THE PHENOMENON OF FREEDOM**

The article studies the philosophical nature of the phenomenon of freedom and its interaction with the moral and organizational social norms of the rule of law. The author focuses on the influence of political, legal, economic, spiritual and moral social norms on freedom, the role of laws and norms imposed by the legal state in the realization of freedom. It is noted that the rule of law, social justice, security, freedom, faith, morality of people play a key role in the protection of law and legal interests of the Azerbaijani statehood. Freedom, social justice and equality, which form the basis of a legal state, have been considered as political axiological categories of unity with each other. It has been noted that the achievements obtained in the way of building a legal state in Azerbaijan are accompanied by the realization of the ideals of freedom, equality and justice.

***Key words:*** *society, freedom, justice, political Axiology, legal state, values, equality*

**РЕЗЮМЕ**

**Камран Велизаде, Магеррам Гасанов**

**СОЦИОКУЛЬТУРНАЯ ПРИРОДА ФЕНОМЕНА СВОБОДЫ**

В статье раскрывается философская природа феномена свободы и утверждается, что она взаимодействует с нравственными и организационными социальными нормами правового государства. Автор акцентирует внимание на влиянии политических, правовых, экономических, духовно-нравственных социальных норм на свободу, роли законов и норм, применяемых правовым государством в реализации свободы. Отмечается, что верховенство права, социальная справедливость, безопасность, свобода, доверие и нравственные интересы людей играют ключевую роль в защите правовых и правовых интересов азербайджанской государственности. Свобода, социальная справедливость и равенство, составляющие основу правового государства, рассматриваются как политические аксиологические категории, образующие единство друг с другом. Отмечается, что достижения, достигнутые на пути построения правового государства в Азербайджане, сопровождаются реализацией идеалов свободы, равенства и справедливости.

***Ключевые слова:*** *общество, свобода, справедливость, политическая аксиология, правовое государство, ценности, равенство.*

***Məqaləni çapa təqdim etdi:*** *fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayev*
***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 78-81
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 78-81
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 78-81

**NAZLI YAQUBOVA**
*nazliyaqubova92@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 327**

# AZƏRBAYCANIN QƏRB DÖVLƏTLƏRİ İLƏ ƏLAQƏLƏRİ (1990-1993)

*Qərbi Avropa dövlətləri beynəlxalq münasibətlərə təsiretmə gücünə görə dünya siyasətinin yönümünü müəyyən edən və beynəlxalq aləmin ən ümdə problemlərinin həllində xüsusi çəkisi olan ölkələr sırasına daxildir. Dünya siyasətini müəyyən edən BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən ikisi –Fransa və Böyük Britaniya, eləcə də özünün iqtisadi potensialına görə dünyanın lider dövlətlərindən hesab olunan Almaniya və İtaliya Avropa qitəsinin həmin aparıcı dövlətləri sırasındadır. Müstəqillik yolu tutmuş Azərbaycan Respublikası üçün dünyanın bütün dövlətləri, o cümlədən Qərbi Avropanın ən böyük və nüfuzlu dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlıq, dostluq əlaqələri qurmaq çox böyük siyasi və beynəlxalq əhəmiyyət kəsb edir.*

***Açar sözlər:*** *Müstəqil Azərbaycan Respublikası, Qərb dövlətləri, BMT, siyasət, tanınma, Avropa*

1990-cı illərdə beynəlxalq münasibətlər sahəsində çox ciddi dəyişikliklər oldu. SSRİ-nin zəifləməsindən istifadə edən dövlətlərdə müstəqillik hərəkatları daha da genişləndi. Həmçinin də Azərbaycan xalqı yetmiş illik əsarətdən, milli, mədəni, mənəvi imperializmdən, SSRİ-nin xalqımıza, milli sərvətlərimizə qarşı törətdiyi soyqırmdan qurtulmağa tam hazır idi. Azərbaycan yenidən öz müstəqilliyinə qovuşur. Nəhayət SSRİ süqut edir. Soyuq müharibə sona çatır. Moskva mərkəzdənqaçma qüvvəsini zəiflətmək üçün ənənəvi "parçala, hökm sür" siyasətindən daha geniş istifadə edir, milli münaqişələri qızışdırır, xalqlar arasında qanlı nifaq salırdı. Kreml mühüm coğrafi-siyasi ərazi olan Azərbaycanı və bütün Cənubi Qafqazı əldə saxlamaq üçün uydurma "Dağlıq Qarabağ problemini" qızışdırdı. Sovet imperiyasını dağıtmaq üçün milli münaqişələr törətməyi mühüm vasitə hesab edən Qərb dövlətləri də bu işdə fəal iştirak etdilər. Bu hadisələrə baxmayaraq Azərbaycan öz müstəqilliyini elan edə bildi. Azərbaycan Respublikasının müstəqilliyini dünya dövlətləri tanıdı. 1992-ci il martın 2-də Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatına üzv qəbul olundu, bu təşkilatın qəbul və təsdiq etdiyi bir çox mühüm beynəlxalq konvensiya və paktlara qoşuldu (2, s.67).

Müstəqilliyi ikinci dəfə əldə etmək keçmiş Sovet İttifaqının digər ölkələri ilə müqayisədə Azərbaycanda daha çətin olub, bu yolda Vətənimizin yüzlərlə qəhrəman övladı xalqımızın azadlığı uğrunda mübarizə apararaq şəhidlik zirvəsinə yüksəlib. Ancaq qarşıda duran əsas məsələ bu müstəqilliyi itirməmək idi. Məhz həmin illər bir daha göstərdi ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan daha çətindir.

Müasir dünyada cərəyan edən proseslərdə xüsusi geosiyasi çəkiyə və iqtisadi potensiala malik mərkəz kimi Avropa mühüm rol oynayır. Geosiyasi anlamda Avropanın ərazisi keçmiş Roma imperiyasının sərhədləri çərçivəsində müəyyən edilir. Əslində, coğrafi anlamda Avropa qitəsinin ərazisi daha genişdir. Lakin Avropa deyəndə, ictimai fikirdə əsasən Qərbi Avropa nəzərdə tutulur. Qərbi Avropa ərazisi dünyanın ən əlverişli coğrafi məkanlarından biridir. Çayların bütün il boyu gəmiçilik üçün açıq olması, sənaye və kənd təsərrüfatının inkişafına imkan verən mülayim iqlim, dəniz yollarına və kommunikasiyalara sərbəst çıxış və s. bu bölgənin tərəqqisinə həmişə xüsusi təsir göstərmişdir. Qərbi Avropanın təxminən 3,7 mln. km2 ərazisində 370 milyon nəfərə yaxın əhalisi olan 26 dövlət yerləşir. Bu dövlətlər siyasi, iqitsadi və mədəni inkişafına görə təxminən eyni

səviyyədə olsa da, həmin ölkələri təmsil edən xalqlar mental dəyərlərinə görə bir-birindən ciddi şəkildə fərqlənir. Müstəqillik yolu tutmuş Azərbaycan Respublikası üçün dünyanın bütün dövlətləri, o cümlədən Qərbi Avropanın ən böyük və nüfuzlu dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlıq və dostluq əlaqələri qurmaq çox böyük siyasi və beynəlxalq əhəmiyyət kəsb edir. Bu əlaqələrin siyasi əhəmiyyəti onunla şərtlənir ki, həmin dövlətlər Azərbaycanın üzv olduğu bütün beynəlxalq və regional təşkilatlarda ləyaqətlə təmsil olunmasına, onun beynəlxalq təhlükəsizlik və iqtisadi əməkdaşlıq sisteminə, Avropanın müxtəlif struktur və institutlarına inteqrasiyasına hərtərəfli əməli yardım göstərmək imkanına malikdirlər. Digər tərəfdən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ATƏT-in prinsip və qərarlarının həyata keçirilməsinə, Qafqaz bölgəsində sülhün və təhlükəsizliyin bərqərar olmasına da çox mühüm təsir göstərmək imkanına malikdirlər. Nəhayət, enerji ehtiyatları ilə zəngin olan Xəzərin Azərbaycan sektorunun ölkəmizin taleyüklü məsələlərinin həllində həyati əhəmiyyət kəsb etdiyini nəzərə alsaq, Qərbi Avropa dövlətləri ilə bu sahədə səmərəli iqtisadi əməkdaşlığın da Azərbaycan üçün çox böyük siyasi və iqtisadi dəstək rolu oynaması şübhə doğurmamalıdır (2, s.275). Xüsusən Xəzərin statusu ətrafında ayrı-ayrı dövlətlərin əsassız iddiası və münaqişə törətmək cəhdlərinin aradan qaldırılmasında, Xəzərin ədalətli sektor bölgüsünün bütün dünyada dəstəklənməsində həmin dövlətlərin rolu əvəzolunmazdır. Azərbaycanın Qərbi Avropa dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlığı və dostluğu həm də çox mühüm iqtisadi amillərlə şərtlənir. Bu baxımdan, əvvəla, Qərbi Avropa ölkələri Azərbaycanın təbii-coğrafi ehtiyatlarının işlənməsində və bununla respublika iqtisadiyyatının sürətlə yüksəlməsində çox geniş potensiala malikdirlər. Onların həm böyük maliyyə imkanları, qabaqcıl texnologiyası, həm də bütün dünyada mühüm iqtisadi və dövlətlərarası siyasi əlaqələri mövcuddur. Bu dövlətlər nəinki təkcə Azərbaycanın neft ehtiyatlarının işlənməsi və dünya bazarına çıxarılması sahəsində, həmçinin neft kimyası, neft maşınqayırması, metallurgiya, emal sənayesi və s. kimi mühüm əhəmiyyət kəsb edən sahələrin yenidən qurulması, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatı ilə inteqrasiya olunmasını sürətləndirmək sahəsində ölkəmizlə səmərəli tərəfdaşlıq imkanlarına malikdirlər. Bütün bu siyasi və iqtisadi amillər sistemi müstəqillik qazanmış Azərbaycan dövləti ilə Qərbi Avropa dövlətləri arasında fəal və səmərəli qarşılıqlı münasibətlər yaradılmasını zəruri etmişdir. Azərbaycanın Qərbi Avropa ilə əlaqələrini xarakterizə edən və şərtləndirən cəhətlərdən biri də həmin ölkələrin rəsmi dairələrinin və iş adamlarının özlərinin bu əlaqələrə və qarşılıqlı əməkdaşlığa can atmaları olmuşdur. Ümumiyyətlə, bu dövlətlərin Azərbaycanla bağlı yeritdikləri siyasət tarixən özünün bir çox xüsusiyyətləri ilə fərqlənir. Hər şeydən əvvəl qeyd edilməlidir ki, dünyanın inkişaf etmiş və nüfuzlu dövlətləri kimi Qərbi Avropa ölkələri Qafqazda, o cümlədən Azərbaycanda xüsusi strateji siyasi və iqtisadi maraqlara malikdirlər. Onu da nəzərə almaq lazımdır ki, bu dövlətlər bütün dövrlərdə öz maraqlarını qorumağa cəhd göstərən ölkələr sırasında həmişə fəallıqları ilə seçilmişlər. Təsadüfi deyildir ki, özünün regiondakı yeri və rolu, zəngin neft yataqları ilə Avropa siyasətçiləri və iş adamlarını keçən əsrin əvvəlində də, sonunda da eyni dərəcədə özünə cəlb edən Azərbaycan Qərb ölkələrinin Qafqaz siyasətinin fəal və daha məqsədyönlü mahiyyət kəsb etməsində əsas amil olmuşdur. İkincisi, Qərb dövlətləri Azərbaycanın potensial iqtisadi imkanlarını layiqincə dərk edərək, öz maliyyə və texnoloji vəsaitlərini həvəslə tətbiq edir və bunun yaxın gələcəkdə hər iki tərəfə verə biləcəyi faydanı düzgün qiymətləndirirlər. Bu mənada Azərbaycanda istehsal olunan sənaye və kənd təsərrüfatı məhsullarının Avropanın qabaqcıl sənayesi üçün böyük əhəmiyyət kəsb etdiyi, o cümlədən Azərbaycanın bu ölkələrin sənaye məhsullarını realizə etmək üçün xüsusi bazar və ötürücü məntəqə ola biləcəyi imkanı da Qərb dairələrinin diqqətindən yayınmamışdır (2, s.276). Qərbi Avropa dövlətlərini Azərbaycanla dostluğa və əməkdaşlığa sövq edən bir sıra digər amillər də mövcuddur. Əvvəla, Azərbaycanın əlverişli, əhəmiyyətli geosiyasi vəziyyəti və onun Avropa-Asiya nəqliyyat-kommunikasiya əlaqələrinin mərkəzində yerləşməsi; ikincisi, MDB respublikaları arasında tam müstəqil siyasət yeritməsi, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu və bazar iqtisadiyyatı yolu tutması; üçüncüsü, xarici siyasətində Qərbə, xüsusən də Avropaya meyl göstərməsi, regionda Avropanın əsas nüfuz və maraq dairəsinə çevrilməsi və s. bu amillər sırasındadır. Beləliklə, yuxarıda qeyd edilən bütün siyasi, iqtisadi və digər amillər Azərbaycan və Qərbi Avropa ölkələri əlaqələrinin

qarşılıqlı faydalı əməkdaşlıq və tərəfdaşlıq münasbətləri üzərində qurulmasını şərtləndirmiş və zəruri etmişdir. Bu zərurəti dərk edən, qarşılıqlı əlaqələrin hər bir dövlət üçün verdiyi və verə biləcəyi faydanı yüksək qiymətləndirən Azərbaycan Respublikası və Qərbi Avropa ölkələrinin dövlət və hökumət rəhbərləri diplomatik münasibətlərin qurulmasından sonra qarşılıqlı əlaqələrin inkişafı sahəsində müvafiq addımlar atmış və ikitərəfli münasibətləri tənzimləyən çoxsaylı sənədlər imzalamışlar. Azərbaycanın dövlət müstəqilliyi Böyük Britaniya tərəfindən 1991-ci ilin dekabrında, Fransa, Almaniya və İtaliya tərəfindən isə 1992-ci ilin yanvarında tanınmış və həmin ilin əvvəllərində diplomatik münasibətlər yaradılmışdır. 1992-ci ilin martında Fransa, sentyabrında Almaniya, 1993-cü ilin sentyabr ayında isə Böyük Britaniya Azərbaycanda öz səfirliyini açmışdır. Azərbaycan isə əvvəl Almaniyada (1992, sentyabr), daha sonra Böyük Britaniya (1994, yanvar) və Fransada (1994, oktyabr) diplomatik nümayəndəliyini təsis etmişdir. İtaliyanın Azərbaycanda səfirliyi bir neçə il sonra – 1997-ci ildə, Azərbaycanın İtaliyada səfirliyi isə 2003-cü ildə açılmışdır. İkitərəfli əməkdaşlıq əlaqələrini tənzimləyən hüquqi-normativ sənədlərin imzalanması və həyata keçirilməsi sahəsində ilk illər heç bir addım atılmadı. Yalnız 1993-cü ilin dekabr ayında Prezident Heydər Əliyevin Fransaya rəsmi səfəri Azərbaycanın Qərbi Avropa ölkələri ilə əlaqələrində intensiv inkişafın başlanğıcını qoydu. Səfər dövründə qarşılıqlı maraq doğuran məsələlər hərtərəfli müzakirə olundu, "Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşılq haqqında" müqavilə və digər sənədlər imzalandı (5, s.356). Azərbaycanın fəal xarici siyasət yeritməsi və Avropa dövlətləri ilə inteqrasiya sahəsində ardıcıl addımlar atması Qərbdə Azərbaycana olan marağın artmasına səbəb olurdu. Məhz bunun nəticəsində Böyük Britaniyaya rəsmi səfərə dəvət olunan Azərbaycan Prezidenti Heydər Əliyev 1994-cü ilin fevralında Londonda bir sıra yüksək səviyyəli görüşlər keçirdi. Müzakirələrin yekunu olaraq iki ölkə arasında "Dostluq və əməkdaşlıq haqqında" Birgə Bəyannamə və başqa ikitərəfli sənədlər imzalandı. Bununla da Azərbaycanın Avropa ölkələri ilə inteqrasiyası yolunda növbəti addım atıldı  (5, s.456).

Nəticə

Əsası Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qoyulmuş dövlətçilik ənənələrinin, mədəni, elmi, iqtisadi kadr potensialının mövcudluğu xalqımıza öz varlığını, mədəniyyətini, 15 respublikadan biri olmağa, onun süqutundan sonra isə yenidən dirçəlib Azərbaycan Respublikası kimi tarixin səhnəsinə çıxmağa imkan verdi. Müstəqil Azərbaycan dövləti hər iki müstəqilliyi dövrünü tarixin ən çətin dönəmində elan etmişdir. Buna baxmayaraq müstəqilliyi alın yazısı seçən Azərbaycan xalqı bunun öhdəsindən layiqincə gəlmişdir. Müstəqilliyi qoruyub saxlamaq daha çətindir. Azərbaycan qərb dövlətləri ilə yaxın siyasi əlaqələr qurmağa və qərbə inteqrasiya etməyə çalışmışdır. Nəticədə Azərbaycanın uğurlu və davamlı xarici siyasət kursu onu beynəlxalq hüququn ən önəmli subyektlərindən birinə çevirmişdir.

## ƏDƏBİYYAT


1. Aslanlı Araz. Yeni  küresel mücadelede Kafkasya və Qarabağ sorunu. Ankara:  EkoAvrasya yayınları, 2013, 43 s.
2. Babaoğlu Hikmət. Azərbaycan beynəlxalq münasibətlərin aktoru kimi.  Bakı: Elm, 2007, 515 s.
3. Elxan Süleymanov, Vurğun Süleymanov. Ermənistanın Azərbaycana qarşı silahlə təcavüzü və  işğalın ağır nəticələri. Bakı: 2012, 181 s.
4. Elşad Abdullayev. Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində. Bakı: Təhsil, 2004, 216 s.
5. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, 631 s.
6. Dağlıq Qarabağ münaqişəsi: Tammətnli elektron materiallar məcmuəsi. Bakı: 2005, 127 s.
7. Şıxəliyev E. Erməni iddialarının siyasi mahiyyəti. Bakı: Nurlan, 2006, 187 s.
8. Şıxəliyev E. Rusiya, İran, Türkiyə rekabetleri və Erməni faktoru. Ankara: Naturel yayınları, 2004, 378 s.

**SUMMARY**

**Nazlı Yagubova**

**AZERBAIJAN'S RELATIONS WITH WESTERN COUNTRIES (1990-1993)**

Western European states are among the countries that determine the direction of world politics due to their influence on international relations and have a special weight in solving the most important problems of the international community. Two of the five permanent members of the UN Security Council, France and Great Britain, as well as Germany and Italy, which are among the world's leading countries in terms of their economic potential, are among the leading countries of the European continent. For the Republic of Azerbaijan, which has taken the path of independence, all the countries of the world, including the largest and most influential states of Western Europe.

***Key words:*** *Independent Republic of Azerbaijan, Western states, UN, politics, recognition, Europe*



**РЕЗЮМЕ**

**Назлы Ягубова**

**ОТНОШЕНИЯ АЗЕРБАЙДЖАНА С ЗАПАДНЫМИ ГОСУДАРСТВАМИ (1990-1993)**

Западноевропейские государства по силе воздействия на международные отношения относятся к числу стран, определяющих направленность мировой политики и имеющих особый вес в решении наиболее острых проблем международной сферы. Из пяти постоянных членов Совета Безопасности ООН, определяющих мировую политику, в число этих ведущих государств Европейского континента входят два –Франция и Великобритания, а также Германия и Италия, которые по своему экономическому потенциалу считаются ведущими государствами мира. Для Азербайджанской Республики, которая пошла по пути независимости, все государства мира, в том числе крупнейшие и влиятельные государства Западной Европы.

***Ключевые слова:*** *независимая Азербайджанская Республика, западные государства, ООН, политика, признание, Европа*



***Məqaləni çapa təqdim etdi:*** *tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədov*

***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*

***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 82-89
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 82-89
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 82-89

**TURAL HÜSEYNOV**
**ATİLLA ÖZTÜRK**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 40.23.35**

# KOMMERSİYA HÜQUQİ ŞƏXSLƏRİNDƏ MÜASİR (KORPORATİV) HÜQUQ STRUKTURLARININ UĞUR MEYARLARI: HÜQUQ DEPARTAMENTLƏRİNİN FUNKSİYALARINA DAXİL EDİLƏN SƏLAHİYYƏTLƏR

*Bu məqalə korporativ idarəetmənin prinsip və əsaslarına istinad edilərək tədqiq etmişdir. Müasir dövrdə kommersiya hüquqi şəxslərinin hüquq strukturları heç də korporativ idarəetmənin tələbkərinə cavab vermir. Hazırkı vəziyyətdə, bir çox kommersiya hüquqi şəxslərində hüquq deportamentlərinin və ya hüquqşünaslarının şirkətin və ya şirkətin digər struktur bölmələri ilə, xüsusən də biznes fəaliyyəti göstərən bölmələri ilə münasibətlərinin bəzən gərgin olduğunu müşahidə etmək olar. Lakin buna baxmayaraq bir tərəfdən, biznes fəaliyyətinə hüquq deportamentinin dəstəyi çox lazımdır, ancaq digər tərəfdən inkişafa ayaq uydurmayan hüquqşünasların konservativ çərçivədə yanaşmaları biznes strukturunu narazı salır. Əlbəttə bir fakt danılmazdır ki, şirkət daxili müasir (korporativ) hüquq deportamenti və ya hüquqşünası dəstək funksiyasını həyata keçirir, özüdə ki, zəruri və çox vacib dəstək fuksiyasını... Şirkətin əsas fəaliyyəti hüquqi xidmətlərin göstəriliməsindən ibarət deyilsə (hüquq firması deyilsə), o zaman, hüquq fəaliyyətinin gəlir gətirən funksiya olduğunu gözləmək düzgün olmaz. Hər bir halda şirkət daxili korporativ hüquq deportamenti və ya hüquqşünasın uğur meyarları onun funksiyalarına daxil edilən səlahiyyətlərəri korporativ idarəetmənin prinsip və əsaslarına söykənməli olduğu üçün avtomatik olaraq köhnə konservativ yanaşmadan uzaqlaşacaq, nəticədə bazar iqtisadiyyatı mühitində korporativ hüquq strukturları şirkətlər üçün zəruri tələbata çevriləcəkdir. Eyni fikirləri ali təhsil müəssisələrində hüquq təhsilinin inkişafi üçün də demək olar. Müasir şirkətlərdə onların fəaliyyət sahəsi, həcmi və strategiyasından asılı olaraq korporativ hüquq deportamentinin və ya korporativ hüquqşünasların formalaşdırılmasının müxtəlif üsul və yolları vardır ki, bunun da əsası hissəsini hüquq fənlərinin yüksək keyfiyyətdə tədrisi təşkil edir.*

*Bu səpkidə islahatların aparılması, hüquq təhsilinə müasir yanaşma ilə diqqətin artırılması, korporativ sahədə daha etibarlı və davamlı münasibətlərin qurulmasına imkan yaradacaqdır.*

***Açar sözlər:*** *hüquq, departament, struktur bölmə, korporotiv*

Müasir biznes mühitində korporativ fəaliyyətdə hüquqşünas ixtisası sahiplərinin peşəkar fəaliyyəti çox vacibdir. Lakin bir çox hallarda şirkətin hüquq deportamentinin (hüquqşünaslarının) həddindən artıq mühafizəkar yanaşmaları, onları biznes və korporativ funksiyalardan təcrid olunmuş formada fəaliyyətə məcbur edir, yada ki, müasir tələblərə cavab verməyən peşə səviyyələri, onların "təsirsiz işçi" statusu qazanmalarına və hüquq deportamentinin (hüquqşünas ştatının) lazımsız fəaliyyət sahəsinə çevrilməsinə gətirib çıxarır.



Əksər hallarda Hüquq Departamentləri hesab edirlər ki, onların işi problem başlamazdan əvvəl onun qarşısını almaqdan ibarətdir. Lakin bu o demək deyil ki onlar konservativ yanaşma sərgiləyib hər biznes fəaliyyətinin başlanmasının qarşısını almalıdırlar.

Real vəziyyətin nəzərdən keçirilməsinə (yəni, monitorinqə – izləmə, təqib, analiz, nəticəyə istiqamətlənmiş sənədləşdirmə) əsaslanan bu araşdırma materialında, əsasən şirkətlərdə hüquq xidmətlərinin göstərilməsinin əhəmiyyəti, mövcud hüquq departamentlərinin (hüquqşünasların) zəif tərəfləri, inkişaf etdirilməli xüsusiyyətləri və şirkət üçün faydalı olan müasir hüquq departamenti və ya korporativ hüquqşünasların inkişaf prinsipləri (müasir tələblər) haqqında bəhs olunur.

Hazırkı vəziyyətdə, bir çox kommersiya hüquqi şəxslərində hüquq deportamentlərinin (hüquqşünasların) şirkətin və ya şirkətin digər struktur bölmələri ilə (xüsusən də biznes fəaliyyəti göstərənlərlə) münasibətlərinin bəzən gərgin olduğunu müşahidə etmək olar. Lakin buna baxmayaraq (hərbir halda) bir tərəfdən, biznes fəaliyyətinə hüquq deportamentinin dəstəyi çox lazımdır, ancaq digər tərəfdən inkişafa ayaq uydurmayan hüquqşünasların konservativ çərçivədə yanaşmaları biznes strukturunu narazı salır. Əlbəttə bir fakt danılmazdır ki, şirkət daxili müasir (korporativ) hüquq deportamenti (korporativ hüquqşünas) dəstək (support) funksiyasını həyata keçirir, özüdə ki, zəruri və çox vacib dəstək fuksiyasını... Şirkətin əsas fəaliyyəti hüquqi xidmətlərin göstəriliməsindən ibarət deyilsə (hüquq firması deyilsə), o zaman, hüquq fəaliyyətinin gəlir gətirən funksiya olduğunu gözləmək düzgün olmaz (təsüf ki, qeyri-hüquq xidmətləri və ya kommersiya fəaliyyəti göstərən şirkətlərdə, hüquq departamentinin gəlir gətirən sahə olmaması səbəbindən digər sahələr, bölmələr və ya ixtisas sahibləri tərəfindən çox asanlıqla sahibkarın və ya təsisçilərin gözündən salına bilir).

Sovet İttifaqı dövründə kommersiya/biznes (və ya sahibkarlıq) fəaliyyəti olmadığından o zamankı hüquqi şəxslərin də fəaliyyəti mənfəətə və keyfiyyətə istiqamətləndirilməmişdir. Azad rəqabətin olmadığı və hər şeyin monopoliya altında olduğu dövrdə uğurlu iqtisadiyatın formalaşması mümkün deyildi və Sovet İttifaqının süquta uğramasına səbəb olan ən bariz faktorlardan biri məhz elə bu idi (Sosialist dövlətlərə istisna kimi, Cin Xalq Respublikasını göstərmək olar: sosializmlə yanaşı azad iqtisadi rəqabətin inkişafı və monopolyanın məhdudlaşdırılması istiqamətində ciddi islahatlar apardığı üçün dünya iqtisadiyyatında çox mühüm yer tuta bildi). Həmin mühitdə işləyən hüquqi şəxslərin (idarə və müəssisələrin) hüquqşünasları da (hüquq deportamentləri də) əksər hallarda nominal xarakter daşıyaraq daha çox kargüzarlıq, kadr və katiblik funksiyalarını və ya elementlərini özündə əks etdirirdi (lazım gələrsə bir dəfəyə məxsus təftiş səlahiyyətləri verilirdi).

Sözsüz ki, digər vacib amil hüquq təhsili idi. O vaxtkı hüquq fakultələri əsasən hüquq-mühafizə və məhkəmə orqanları üçün işçilərin hazırlanması istiqamətində çalışdığından hüquq təhsili əsasən “qadağan etmə” prinsipi əsasında qurulurdu (qanunvericiliyin əsasən qadağan edici normalarını tətbiq etməklə məsələni həll etmək və missiyanın uğurla həyata keçirilməsi tədris olunurdu). Həmçinin, əksər hallarda qanunun hərfi mənasına görə tətbiqetmə prizmasından yanaşmaya üstünlük verilirdi. Məhz həmin dövrdə, cinayət qanunvericiliyindən başqa heç bir qanunun elmi-şərhinin belə olmaması, bu deyilənlərin əyani sübutu deyildirmi?. Nəticədə böyük əksəriyyətdə qanunvericiliyi hərfi

mənasına görə tətbiq edən və əsasən nəyinsə qadağan olub-olmaması prinsipi ilə işləyən hüquqşünaslar, başqa cür desək, qanunşünaslar və ya mətnşünaslar hazırlanırdı. Bu məzunların çox az hissəsi bir çox çətinliklərə baxmayaraq öz üzərində işləyərək mütərəqqi hüquqşunas kimi özlərini formalaşdırmağı bacarmışlar (hansı ki biz onları, dövlət və özəl sektorda sözün əsl mənasında istedadlı, qabaqcıl hüquqşünas kimi görə bilirik).

Sovet rejiminin 30 ildən artıqdır ki süquta uğramasına bağmayaraq, ölkəmizdə köhnəlmiş konservativ yanaşma bir çox ali təhsil müəssisələrində, habelə hüquq sektorunda hələ də davam etməkdədir (təbii ki, xaricdə hüquq təhsili alan hüquqşünaslar istisnadır, bunların da sayı ölkədə fəaliyyət göstərən hüquqşünasların o qədər cüzi bir hissəsini təşkil edir ki, 1/100-lə belə ifadə etmək mümkün deyil). Əksər hüquq fakültəsində müəllim heyətinin təxmini 5-10 faizini sözün əsl mənasında fədakar müəllim saymaq olar ki, onlar innovativ yanaşma və metodlar ilə hüquq təhsilinin səviyyəsini yüksəltməyə çalışırlar. Bu qrupa daxil olan müəllimlərin əksəriyyəti eyni zamanda özəl sektorda və ya fərdi qaydada çalışan hüquqşünaslardır.

Təbii ki, bütün bu amillər hazırkı hüquq təhsilinin də, buna müvafiq olaraqda hüquq sektorunun müasir biznes tələblərindən geri qalmasına səbəb olur. Artıq beynəlxalq səviyyəyə qalxmış və dinamik Azərbaycan biznesinə kreativ (probleme, yaxud situasiyaya yeni baxış bucağından nəzər yetirmək üsulu), çevik və problemi həll etmə (problem solving) düşüncə tərzinə sahib hüquqşünaslar lazımdır, lakin təəssüf ki, reallıqda əsasən konservativ (mühavizəkar), problemlərə çoxsəpkili yanaşmağı bacarmayan, qadağan edici düşüncə tərzinə malik, biznes proseslərində qabaqlayıcı hərəkətlər və arzuolunmaz hadisələrdən yayınmaq mövqeyindən çıxış etməyi bacarmayan hüquqşünaslar üstünlük təşkil edir.

Nəticə etibarı ilə, bu da öz növbəsində (digər amillərlə yanaşı) hüquq peşəkarları və biznes peşəkarlarının fikr ayrılığına səbəb olur. Hər iki tərəf, qarşı tərəfə haqlı narazılığını bildirir. Hüquq deportamentləri və ya hüquqşünasların mövqeyinə görə, onlar öz imtinaları ilə şirkət biznesni bir çox risklərdən qoruyurlar. Biznes strukturlarının mövqeyi ondan ibarətdir ki, bu yanaşma ilə hüquq deportamenti və ya hüquqşünaslar biznesi "öldürür". Real olaraq həqiqət hamı üçün aşkardır.

Ola bilsin ki, burda vacib amillərdən biridə konservativliyə üstünlük verən hüquqşünasların risk dözümlülüyünün aşağı olması və eyni zamanda biznes proseslərindən uzaq olmalarıdır. Lakin, keşmişdən bu günə dəyişməyən bir qayda vardır ki (böyük ehtimal ki bu gələcəkdədə belə olacaqdır), bu da təbii olaraq biznes fəaliyyətinin özündə risk ehtiva etməsidir. Deməli, kommersiya fəaliyyətinin əsas və mühüm elementlərindən biri olan risk amili, heç vaxt ortadan qalxmayacağına görə, korporativ hüquq fəaliyyətində risk tolerantlığının yüksəldilməsi və biznes proseslərinin mənimsənilməsi üçün müasir tələblərə cavab verən zəruri yeniliklələin edilməsi vacib şərtdir!

Hazırkı dövrdə, müxtəlif sektorlarda biznesin inkişafını və dəyişməsini görmək mümkündür. Lakin, aparılmış monitorinq (real vəziyyətin nəzərdən keçirilməsi ilə aparılmış mütərəqqi müşahidələrin) nəticələri onu göstərirki, konsaltinq şirkətlərini və az sayda digər şirkət və banklar istisna olmaqla, şirkətlərin hüquqi strukturlarında müasir tələblərə cavab verən zəruri yeniliklər çox ləng gedir. Yəni böyük bir sahəni əhadə edən digər kommersiya fəaliyyəti göstərən hüquqi şəxslərin hüquq deportamentləri (hüquqşünasları) müasir biznesin tələbləri ilə ayaqlaşa bilmirlər.

Əvvəlki dövrlərdə, əsasən biznes strukturlarının funksiyalarına aid olan "strategiya", "təməl/əsas iş hədəfləri üçün effektivlik, səmərəlilik göstəricilərinin təsdiqləyicisi" (KPİ - *Key Performance Indicator*: Açar/təməl göstəricilərin təsdiqləyicisi), "illik, rüblük fəaliyyət planı" (operational plan), "hərəkət-fəaliyyət planlaması" (action planning), "büdcənin hazırlamasında və idarə edilməsində iştirak" (budgeting, budget management), "maliyyə hesabatı"nın (financial statement) hazırlanmasına nəzarət, "mühasibat uçotunun təftişi" (auditing of accounting), "mülkiyyətin hüquqi rejimi" (legal regime of property), "layihə hazırlama və (vəya) idarə etmədə iştirak" (preparing project, project management), "fövqəladə və digər fors-major vəziyyətlərə hazırlıq" və sair ifadələr (və ya müvafiq səlahiyyətlər), artıq şirkətlərin hüquq strukturlarına daxil edilmişdir. Şirkətlərin müdiriyyətləri hüquq deportamentlərindən (hüquqşünaslardan) qeyd edilən prosedurların həyata keçirilməsini, sənədlərin hazırlanmasını, dəyişən biznes reallığına uyğunlaşmalarını tələb edirlər. Bəzən hüquq strukturları

tərəfindən (hətta, digər struktur bölmələri tərəfindən) bu tələblər və yeniliklər müəyyən etirazla qarşılanır, öz mövqelərindən yanaşaraq iradlar bildirilir. Lakin bu irad və etirazlara baxmayaraq, həmin tələblərərin icrası və yeniliklərin təşkili qaçılmaz bir prosesdir, dəyişən və inkişaf edən biznes mühitinə uyğunlaşmaq və müasir biznesin tələblərinə cavab vermək lazımdır. Nəticə etibarilə, şirkətin hüquq strukturları biznesə dəstək funksiyasını icra edir və bu funksiyanın öhdəsindən gələ bilməyən hüquqşünaslar unutmamalıdırlar ki, "peşəkarlar arasında artan rəqabətli mühitdə əvəzedilməz kadrlar olmur" (peşəkarların olmadığı və ya tək-tük olduğu mühitdə hər hansısa rəqabətdən söz getməyəcəyinə görə, "əvəz edilməz kadr" məfumu yalnız müstəsna səlahiyyətdən istisna edərək, yəni inzibatçılıqla iradə nümayiş etdirilib aradan qaldırıla bilər. Təbii ki, bu halda da, təsadüfən peşəkar kadr təyin olunmazsa, hansısa səmərəli fəaliyyətin təşkilindən danışmaq sadəlövlük olardı). Ən nəhayətində, təsisçi və ya sahibkar öz kommersiya (və ya korporativ) maraqlarının qorunması naminə ciddi kadr islahatları aparmaq məcburiyyətində qalacaqdır!




Köhnə yanaşmanın məhsulu olan ənənəvi sistemdə, şirkətin hüquq strulturlarının fəaliyyətinin bir qismi məhkəmələrdə şirkəti təmsil etməkdən, digər qismi isə, müəyyən kadr işinə dəstək və bəzi kiçik müqavilə layihələrinin hazırlanması və ya bununla bağlı işin təşkilindən (vizaların qoyulmasından) ibarət idi. Hətta müqavilələr çox vaxt biznes strukturlarında hazırlanıb oxunaraq viza verilməsi üçün hüquq strulturlarına təqdim edilirdi. Hazırda bu modelə, bir çox kommersiya hüquqi şəxslərində rast gəlmək olar. Təbii ki, inkişaf etməyi, korporativ və iqtisadi baxımdan güclənməyi prioritet məsələ kimi qarşısına qoyan şirkətlər istisnadır.

Biznes fəaliyyəti göstərən hüquqi şəxslərin korporativ hüquq strukturlarının qarşısında duran müasir tələblər, artıq onların rollarına, funksiyalarına və alətlərinə yeni baxış bucağından nəzər yetirmək üsulu ilə yanaşmağı tələb edir. Artıq şirkətlərə təhlükə baş verəndə onları aradan qaldırmağa çalışan yox, riskləri öncədən müəyyən edən və biznesə dəstək olan korporativ hüquq komandası

gərəkdir! (Əks təqdirdə hətta komanda şəklində yox, tək işçi kimi fəaliyyət göstərən peşəkar korporativ hüquqşünasın da yüksək səmərə verməsi, heç də gözlənilən deyil).

Qeyd etdiyimiz kimi, təcrübədə biznes strukturlarının konservativ hüquq strukturları ilə hətta müəyyən münaqişələri də olur. Baxmayaraq ki, hər iki tərəf öz rollarını doğru-düzgün icra etməyə çalışır (təbii ki, mənəm-mənəmliklə öz vəzifələrini icra etməyə çalışanlar istisnadır). Bəzi hallarda, şirkətlərin daha çox biznes yönümlü rəhbərliyi də hüquq strukturlarını bir az məsafədə saxlamağa çalışırlar. Lakin real aləmdə, müasir üsul və vasitələrlə şirkətlərinin inkişaf etməsini (böyüməsini) qarşısına məqsəd qoyan uzaqgörən biznes sahibləri korporativ hüquq deportamentlərinin biznes strukturlarının fəaliyyətində aktiv iştirakına şərait yaradır.

Şirkətlərin ənənəvi hüquq strukturları, şirkətin bir "arxa ofisi"nin (back office) tərkib hissəsi olan daxili konsultasiya xidməti göstərən deportamentidir. Hazırki dövrdə korporativ hüquq deportamentləri şirkətlərdə öz ənənəvə funksiyaları ilə yanaşı, həmçinin biznes fəaliyyətinin bir inteqral hissəsinə çevrilməlidirlər. Onların rolu, əvvəlkindən daha çox kompleksli (şaxəli) olmalıdır. Artıq problemlərin məhkəmə yolu ilə həll olunması prioritet hesab edilmir, xüsusi ilə şirkətlərin ictimai qiymətinin (reputasiyasının) aşağı düşmə riskini nəzərə alaraq... Bəzi hallarda həmin məsələlərdəki uğur, məşur "Pirr qələbəsi" ola bilər, yaxud da, sonuncu Pirr döyüşü kimi nəzarətdən çıxan, idarə oluna bilməyən vəziyyət yarana, arzuolunmaz nəticələr baş verə bilər.

Artıq, müasir (korporativ) hüquq deportamentlərinin üzərinə idarəetmə funksiyaları qoyulur, onlar digər strukturlarla yanaşı korporativ öhdəlik və məsuliyyəti bölüşməlidirlər. Korporativ hüquq strukturları şirkətin bir çox məsələlərində və qərarların qəbulunda iştirak etməlidirlər, müxtəlif yeniliklərin hazırlanmasında iştirak etməlidirlər. Artıq tələb olunur ki, korporativ hüquq strukturları mövcud hüquq və digər riskləri proses daxilində müəyyən etsinlər və qərar vermədə (və təbii ki məsuliyyətin bölüşülməsində) iştirak etsinlər. Şirkətlərin hüquq strukturları biznes fəaliyyətindən təcrid olunmaları artıq qəbul edilməzdir. Gözləntilər bundan ibarətdir ki, müasir hüquq deportamentləri biznesin inkişafında (proseslərdə) daha aktiv iştirakçılara çevrilərək, lokomotivə əyləyici yox, itələyici təsir göstərəcəklər.

Müasir hüquq deportamentləri və korporativ hüquqşünaslar inkişaf edərək dəyişən mühitə və tələblərinə istər-istəməz uyğunlaşmalıdırlar. "Biz sadəcə hüquqi məsələlərə baxırıq" ifadəsi, artıq biznesi qane etmir. Şirkətlərə qanunlardan sitat gətirən hüquqşünaslar yox, şirkətin biznes proseslərini anlayan və bu prosesdə iştirak edən, sözün əsl mənasında biznes məsləhətçisi kimi düşünən (uydurma, xəyali və ya quraşdırılmış, heç bir nəzəri-təcrübi əsasa söykənməyən, söz xatirinə deyilən və müəyyən görüntü yaradan sözlər lüzumsuzdur…) müasir hüquq deportamentləri və ya korporativ hüquqşünaslar lazımdır. Daim inkişafda olan biznes mühitinin adekvat təzyiqləri altında hüquq strukturlarının iş prosesi də dəyişikliyə məruz qalır. Artıq hər kəs bunu qəbul etməlidir ki, köhnə "katiblik", "viza-təsdiq" və "əlavə quş qoymaq" yanaşması artıq aktuallığını itirmişdir.

Müasir dövrdə şirkətin fəaliyyət sahəsi, həcmi və strategiyasından asılı olaraq korporativ hüquq deportamentinin və ya korporativ hüquqşünasların formalaşdırılmasının müxtəlif üsul və yolları vardır. Bu üsullar bir sıra əsas prinsiplər əsasında qurulur ki, bu barədə daha təfsilatlı məlumatı, növbəti araşdırma materiallımızda verəcəyik.

Sonda isə qeyd etmək istəyirəm ki, son zamanlarda kommersiya hüquqi şəxslərində (əsasən şirkətlər sistemi olaraq "Holdinq"lərdə) korporativ hüquq deportamentlərinin yaranması və ya mövcud olanların inkişaf etdirilməsi müşahidə olunmaqdadır. Bu sıraya, təkcə paytaxta olan şirkətlər yox, eləcədə bölgələrdə olan şirkətləri də aid edə bilərik. Təbii ki, ölkənin müxtəlif bölgələrinə yayılmış, hətta filial şəbəkələri vasitəsi ilə ölkə sərhədləri xaricində biznes fəaliyyəti göstərən şirkətlərin (nizamnamə kapitalı və ya ticari dövriyyəsi böyük olan şirkətlərin) korporativ idarəetmə prinsiplərinə əsaslanaraq hüquq strukturlarının təşkili baxımından təşəbbüsü əldən verməməsi ümidverici haldır. İnanırıq ki, bu səpkidə cəhdlərin davamlı olması və şirkətdaxili islahatların aparılması, ali təhsil müəssisələrində bu sahəyə diqqətin dahada artırılması, korporativ sahədə daha etibarlı və davamlı münasibətlərin qurulmasına, nəticə etibarı ilə də iqtisadiyyatın dirçəlməsinə təkan verən amillərdən birinə çevriləcəkdir.

P.S.: 1) “Biznes strukturları”, “biznes istiqamətləri”, “digər struktur bölmələr” “digər sahələr” dedikdə hüquq strukturlarının ixtisas profilinə birbaşa aid olmayan və şirkətin gəlirləri ilə birbaşa əlaqəli olan deportamentlər (şöbələr), sektorlar, bölmələr və digər bu kimi fəaliyyət istiqamətləri nəzərdə tutulmuşdur. Misal üçün fabrikdə bu istehsalat, satış, maliyyə və bəlkə marketinq ola bilər. Bankda müxtəlif növ kreditləşməni həyata keçirən istiqamətləri, yada, eyni qaydada xidmət sahəsində olan müəssisədə müvafiq olaraq müxtəlif növ xidmətləri həyata keçirən istiqamətləri (departament, şöbələri və hətta ştat vahidlərini) biznes strukturları hesab etmək olar.

2) “Hüquq strukturları” dedikdə biznes (kommersiya-ticarət, sataış, istehsalat, maliyyə, marketinq və b.) strukturlarının ixtisas profilinə birbaşa aid olmayan və şirkətin korporativ hüquq fəaliyyətini tənzimləyən hüquq deportamentləri (şöbələri), sektorları, bölmələri, hüquqşünas ştat vahidləri və digər bu kimi fəaliyyət istiqamətləri nəzərdə tutulmuşdur.

## ƏDƏBİYYAT


1. Bağır ƏSƏDOV, İbrahim VƏLİYEV, Ənnağı HACIBƏYLİ. Azərbatcan Respublikasının Mülki Məcəlləsinin Elmi-praktik Kommentariyası (5 cilddə). I cild, “Hüquq Yayın Evi”, Bakı – 2017, 896 s.
2. Bağır ƏSƏDOV, İbrahim VƏLİYEV, Azad TALIBOV. Azərbatcan Respublikasının Mülki Məcəlləsinin Elmi-praktik Kommentariyası (5 cilddə). I cild, “Hüquq Yayın Evi”, Bakı – 2019, 400 s.
3. Qasım ƏSGƏROV. Azərbatcan Respublikasının Mülki Məcəlləsinin Kommentariyası (3 cilddə). I-II cild, “Qanun” nəşriyyatı, Bakı – 2017, 784 s.
4. Sabir ALLAHVERDİYEV. Azərbatcan Respublikasının Mülki Hüquq Kursu. I cild – Ümumi Hissə, “Hüquq Yayın Evi” nəşriyyatı, Bakı – 2018, 944 s.
5. Sabir ALLAHVERDİYEV. Azərbatcan Respublikasının Mülki Hüquq Kursu. II cild – Xüsusi Hissə, “Hüquq Yayın Evi” nəşriyyatı, Bakı – 2018, 736 s.
6. Sabir ALLAHVERDİYEV. Azərbatcan Respublikasının Mülki Hüquq Kursu. III cild – Xüsusi Hissə, “Hüquq Yayın Evi” nəşriyyatı, Bakı – 2018, 1048 s.
7. O.Gökhan ANTALYA, Murat TOPUZ. Medeni Hukuku. Cild I, Seçkin Yayıncılık, Ankara-2019. 672 s.
8. Mustafa DURAL, Tufan ÖĞÜZ, Türk Özel Hukuku (II Cild – Kişiler Hukuku) Gerçek Kişiler, LEGAL YAYINCILIK, İstanbul-2017. 383 s.
9. Ömer KORKUT, M.Fatih CENGİL, Mehmet DURDU, İdil Nur GÜRBÜZ GÖRKBERK, M.Zahid DOĞANAY. Ticari İşletme Hukuku. Seçkin Yayıncılık, Ankara-2019. 124 s.
10. Hüseyin ÜLGEN, Mehmet HELVACI, Arslan KAYA, N.Füsun NOMER ERTAN. Kiymetli Evraklar Hukuku. Vedat kitapçılık, İstanbul-2019. 380 s.
11. https://presmarymethuen.org/az/dictionary/what-is-the-primary-difference-between-a-business-plan-and-an-operational-plan/
12. https://www.biymed.com/forum/mesleki-teknik-terimler-sozlugu/operasyonel-planlama-operational-planning-nedir-ne-demektir.html
13. http://khazar.org/uploads/files/image/english%20m.nuriyev.pdf
14. https://tureng.com/tr/turkce-ingilizce/budgeting
15. http://www.worldwidewords.org/topicalwords/tw-bud1.htm
16. https://tr.wikipedia.org/wiki/Finans
17. https://tr.wikipedia.org/wiki/Proje_y%C3%B6netimi
18. https://tr.wikipedia.org/wiki/Proje_y%C3%B6netimi_yaz%C4%B1l%C4%B1m%C4%B1
19. https://az.wikipedia.org/wiki/Pir
20. https://banker.az/pirr-q%C9%99l%C9%99b%C9%99si-n%C9%99-dem%C9%99kdir/
21. https://mktg.az/kpi/

22. http://facemark.az/site/news/8280/kompaniyanizin-hedeflerine-catdigini-nece-olmek-olar-13-usul-8280.html
23. https://finans.az/xeber/performans-menecment-sistemi-nedir-nece-isleyir.html
24. https://banker.az/ensiklopedia/kpi-key-performance-indicators-n%C9%99dir/
25. https://www.brandup.az/az/blog/reqemler-yalan-danismir-27.html

**SUMMARY**

**Tural Huseynov, Atilla Ozturk**

**SUCCESS CRITERIA OF MODERN (CORPORATE) LEGAL STRUCTURES IN COMMERCIAL LEGAL ENTITIES: POWERS INCLUDED IN THE FUNCTIONS OF LEGAL DEPARTMENTS**

This article deals with the principles and foundations of corporate governance. Nowadays, the legal structures of commercial legal entities do not meet the requirements of corporate governance. In this situation, it can be observed that in many commercial legal entities, the relationship of legal departments or lawyers with the company or other structural divisions of the company, especially with business divisions, is sometimes tense. However, on the one hand, the support of the legal department is very important for business, and on the other hand, the conservative approach of lawyers who do not keep pace with development is dissatisfied with the business structure. Of course, it is undeniable that the company functions a modern (corporate) legal department or legal support, which is a necessary and very important ancillary function ... If the main activity of the company is not the provision of legal services (not a law firm), it would be wrong to expect the legal activity to be a function of generating income. In any case, the company's internal corporate law department or the lawyer's success criteria will automatically move away from the former conservative approach, since the powers included in its functions must be based on the principles and foundations of corporate governance, and consequently corporate law structures will become a flagrant necessity for companies. The same can be said about the development of law education in higher education institutions. Depending on their activity scale, scope and strategy, modern companies have different methods and ways of forming a corporate law department or corporate lawyers, containing the main part of high-quality teaching of law subjects.

Reforms in this direction, strengthening the focus on law education with a modern approach will allow building more reliable and sustainable relations in the corporate sphere.

***Key words****: law, department, structural division, corporate*

## РЕЗЮМЕ

**Турал Гусейнов, Атилла Озтурк**

## КРИТЕРИИ УСПЕХА СОВРЕМЕННЫХ (КОРПОРАТИВНЫХ) ПРАВОВЫХ ФОРМ В КОММЕРЧЕСКИХ ЮРИДИЧЕСКИХ ЛИЦАХ: ПОЛНОМОЧИЯ, ВХОДЯЩИЕ В ФУНКЦИИ ЮРИДИЧЕСКИХ ОТДЕЛОВ

В данной статье рассматриваются принципы и основы корпоративного управления. В современное время организационно-правовые формы коммерческих юридических лиц не отвечают требованиям корпоративного управления. В сложившейся ситуации можно наблюдать, что во многих коммерческих юридических лицах отношения юридических служб или юристов с компанией или другими структурными подразделениями компании, особенно с бизнес-подразделениями, иногда бывают напряженными. Однако, с одной стороны, поддержка юридического департамента очень важна для бизнеса, а с другой стороны, недовольна бизнес-структурой консервативный подход юристов, не идущих в ногу с развитием. Безусловно, неоспоримым фактом является наличие в компании современного (корпоративного) юридического отдела или функции адвокатского сопровождения, что является необходимой и очень важной вспомогательной функцией... Если основной деятельностью компании не является оказание юридических услуг (не юридическая фирма), то было бы неверным ожидать, что юридическая деятельность является приносящей доход функцией. В любом случае внутренний отдел корпоративного права компании или критерии успешности юриста автоматически отойдут от прежнего консервативного подхода, поскольку полномочия, входящие в его функции, должны основываться на принципах и основах корпоративного управления, в результате чего структуры корпоративного права становятся необходимость для компаний. То же самое можно сказать и о развитии юридического образования в высшей школе. В зависимости от своего масштаба, размаха и стратегии современные компании имеют разные методы и способы формирования отдела корпоративного права или корпоративных юристов, основной частью которых является качественное преподавание права.

Реформы в этом направлении, усиление направленности на юридическое образование с современным подходом, позволят выстроить более надежные и устойчивые отношения в корпоративной сфере.


***Ключевые слова:*** *юриспруденция, ведомство, структурное подразделение, корпорация*

***Məqaləni çapa təqdim etdi:*** *fəlsəfə üzrə elmlər doktoru, dosent Qərib Allahverdiyev*
***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 90-105
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 90-105
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 90-105

# İQTİSADİYYAT

**MEHDİ BAĞIROV**
*m.bagirov.edu@mail.ru*
*Naxçıvan Dövlət Universiteti*
**HİKMƏT HƏSƏNOV**
*hikmet_71@mail.ru*
*"Naxçıvan" Universiteti*

**UOT: 330147; 336.64; 336.714**

## AZƏRBAYCAN RESPUBLİKASINDA İNNOVASİYAYÖNÜMLÜ İNVESTİSİYA QOYULUŞLARI VƏ ONLARIN STİMULLAŞDIRILMASI SİSTEMİ

***Tədqiqatın məqsədi*** *–sahibkarlıq fəaliyyətinin mütəşəkkil icrası şəraitində "innovasiya-investisiya" müstəvisində geniş əhatəli informasiyanın əldə edilməsi, onun sistemləşdirilməsi və kompleksləşdirilməsi, sahibkarlıq fəaliyyətinin yenilikçilik prinsipləri əsasında yenidən kompleksləşdirilməsi əsaslarının, prinsiplərinin və vəzifələrinin müəyyənləşdirilməsi və müvafiq dəqiqləşdirmə proseslərinin həyata keçirilməsi.*

***Tədqiqatın metodologiyası*** *– müşahidə, qruplaşdırma, balans, müqayisəli təhlil metodlarından istifadə olunması.*

***Tədqiqatın nəticələri*** *– müstəqilliyin əldə olunmasından sonra ölkədə bərqərar olmuş sahibkarlıq mühitinin innovasiya (və ona qarşılıq verən investisiya) təməllərinin nəzəri və təcrübi aspektlərinin sistemləşdirilməsi, sahibkarlıq fəaliyyətinin sahə-ərazi prinsipi üzrə inkişafının elmi əsaslarla uyğunluğunun öyrənilməsi, "sahibkarlıq fəaliyyəti – ölkənin (regionun) innovasiya və investisiyalaşma proseslərinə məruz qalması" üzrə tarazlanma amillərinin qiymətləndirilməsi.*

***Tədqiqatın praktiki əhəmiyyəti*** *– müstəqil Azərbaycan Respublikasında iqtisadi sistemi əhatə edən sahibkarlıq fəaliyyətinin ayrı-ayrı sahə və istiqamətlərin innovativ inkişafına təsirinin öyrənilməsi, bu sahədə "zaman – məkan" hərəkətlənmələrinin qiymətləndirilməsi.*

***Tədqiqatın orijinallığı və elmi yeniliyi*** *– sahibkarlıq fəaliyyətinin innovasiya və investiya proseslərinə məruz qalmasının qiymətləndirilməsi və təhlil istiqamətlərinin tədqiqi, nəzəri əsasların və təcrübi nəticələrin vahid təməllər üzrə qarşılaşdırılması, müvafiq hesablamaların icrası.*

***Açar sözlər:*** *Azərbaycan Respublikası, innovasiya, investisiya, investisiyaların stimullaşdırılması, iqtisadi sistem*

## GİRİŞ

Müasir iqtisadi şərait özünün spesifik mühiti, fəaliyyət dairəsi, alət və mexanizmləri ilə, hüquqi standartları və tənzimləmə vasitələri ilə fərlqənməkdədir. Bu sırada innovativlik, fəaliyyətin (istehsalın) təşkilatlanması, investisiyalaşma kimi mövhumların məzmunu, mahiyyəti və əhəmiyyəti haqqında sistemli fikir və düşüncələrə malik olma, onların vahid müstəviyə cəlbi qarşılıqlı istifadə edilməsi özünəməxsus cəhətlərlə təcəssüm etməkdədir.

*İnnovativlik* – iqtisadi sistemin bütün sahə və istiqamətlərində, o cümlədən fəaliyyətin mikromühit miqyaslarında yenilikçilik ideyalarının təşəkkülünü nəzərdə tumaqdadır. Onun tətbiqi istər ümumilikdə fəaliyyətin, o cümlədən konkret halda istehsalın mərhələlərində (təchizat, tədarük, istehsal, xidmət, işlərin icrası, mübadilə və s.) təşkilində çoxsaylı amil və şərtlərin təsiri altında mümkün olur. Yenilikçi addımların düşüncələrdə canlandırılması, nəzəriyyədə formalaşdırılması və təcrübədə

tətbiqi çoxsaylı sınaq-konstruksiya, təşkilati-idarəetmə və digər işlərin məcmusu şəklində əks olunmasını tələb etməkdədir. Sadalananlarla yanaşı, işlərin hər birinin maliyyələşmə bazasının mövcudluğu haqqında fikirlərin bildirilməsi də zəruridir ki, bu da pul vəsaitlərinin sadə şəkilli istiqamətlənməsi ilə yanaşı, məqsədli şəkildə investisiyalaşmasını tələb etməkdədir.

İqtisad elmləri doktoru Mehdi Bağırovun "Mühasibat uçotu" üzrə çoxcildliyinin "Peşəkar terminologiya" adlı birinci kitabında qeyd olunur: "*İnvestisiya* – mənfəət, digər gəlir növləri və ya sosial səmərə məqsədilə sahibkarlıq və sair fəaliyyət növləri üzrə obyektlərə yönəldilən maliyyə, maddi vəsaitlər və intetllektual sərvətlər" [6. s.118].

"İnnovasiya - investisiya" tandemi özü ilə növbəti fəaliyyət nyuanslarına yol açmış olur ki, bu da obyektin real qiymətləndirilməsindən sonra yarana biləcək situasiyaların müxtəlif konfiqurasiyalarda təzahürünü şərtləndirməkdədir. Bu sırada mövcud reallıqların çoxamilli öyrənilməsi, təhlil və nəticələrin təcrübi tətbiqi, investisiyaların stimullaşdırılması kimi addımlar ifadə olunmaqdadır.

## İNNOVASİYA ANLAYIŞI, ONUN İFADƏ XÜSUSİYYƏTLƏRİ VƏ ƏHƏMİYYƏTİ

Öncəki bölmədə qeyd edildiyi kimi, iqtisadi sistemin məqsədyönlü irəliləməsində, transformasiya, təkamül və mütərəqqiləşmə yönündə zənginləşməsində mühüm alət və vasitələr cərgəsində innovasiyaların rolu əvəzolunmazdır.

Böyük Biznes Ensiklopediyasında müvafiq terminlə bağlı aşağıdakı izahat verilmişdir: "*İnnovasiya* – latın termini "*innovare*"-dən yaranmış, mənaca texnika və texnologiyanın yeni növlərinin təmin edəcək bir proses kimi vəsaitlərin yerləşdirilməsi mənasını daşımaqdadır. [2; s.9]

Məzmun və mərhələlik baxımından innovasiya proseslərinin start götürməsi, adətən, mütərəqqi ideya, təklif və ixtiraların meydana gəlməsi və ya hər hansı səbəbdən ortaya çıxması nəticəsində mümkün olur. Müvafiq proseslər daxili tərkib etibarı ilə özünün kifayət qədər şaxələndirilməsi ilə fərqlənməkdədir ki, burada da nümunəvi qaydada aşağıdakı mərhələlərə diqqət çəkilməlidir:

- ✓ Fundamental və tətbiqi işlər;
- ✓ Təcrübə-konstruktor işləri;
- ✓ Texnoloji təkmilləşdirmə fəaliyyəti;
- ✓ Yeni məhsul, texnologiya və xidmətlərin kütləvi-təcrübi istehsalının mənimsənilməsi;
- ✓ Bazarın monitorinqi və sonrakı araşdırma-təhlil işləri və s.

Öz növbəsində *innovasiya fəaliyyəti* onların yaradılması və həyata keçirilməsi mənasını daşımaqdadır. İnnovasiya proseslərini dövlət səviyyəsində tənzimləmək üçün bu prosesləri təmin edən normativ-hüquqi bazanın formalaşdırılması zəruridir. Ölkəmizdə qüvvədə olan Qanunların təhlilindən belə nəticəyə gəlmək olar ki, innovasiya fəaliyyəti üçün normalar sahəvi aidiyyata da malikdir və onların təsnifləşdirilməsi zamanı nümunəvi şəkildə aşağıdakıları fəqləndirmək mümkündür:

- ✓ Elmi-texniki fəaliyyətə dair dövlət tənzimlənməsi aktları;
- ✓ İnvestisiya fəaliyyətini tənzimləyən qanunvericilik aktları;
- ✓ Təsərrüfat fəaliyyəti sahələrində (maliyə, sahibkarlıq, informasiaya və s.) innovasiya fəaliy-yətini nəzərdə tutan qanunvericilik aktları;
- ✓ İnnovasiya fəaliyyəti sahəsində müxtəlif səviyyəli hakimiyyət orqanlarının səlahiyyətlərini təyin edən qanunvericilik aktları;
- ✓ İnnovasiya fəaliyyətinin ekoloji təhlükəsizliyini təmin edən aktlar;
- ✓ Xüsusi rejimli zonalarda (azad ticarət zonaları, sənaye-istehsalı zonaları, elmi-texniki zonalar) innovasiya fəaliyyətinin həyata keçirilməsini nəzərdə tutan aktlar;
- ✓ Patent fəaliyyətinin həyata keçirmək üçün qanunvericilik aktları;
- ✓ Standartlaşdırma, sertifikatlaşdırma və lisenziyalaşdırma sahəsindəki aktlar və s. [3].

İnnovasiya fəaliyyətinə investisiya fəaliyyətinin bir forması kimi baxmaq olar. İnvestisiya siyasətinin əsas vəzifəsi, investisiyalara innovativ xüsusiyyət verməkdir və əsas kapitala investisiya qoyuluşları innovasiyaların yayılmasında ən vacib amildir. Ümumiyyətlə, iqtisadi ədəbiyyatlarda,

innovasiya proseslərinə təsir edən amillər iki qrup üzrə təsnifləşdirilir: 1.innovasiya proselərinə rəvac verən amillər; 2.innovasiya proseslərinə mane olan amillər.

Qeyd etmək zəruridir ki, tərkibində iqtisadi, texnoloji, siyasi, hüquqi, sosial-psixoloji, mədəni, təşkilati-idarəetmə və digər qrupları birləşdirən innovasiyə məcmusu yuxarıda sadalanan hər iki qrup amillər üzrə fərqli xassələri sərgiləməkdədir. Məsələn, texnoloji və iqtisadi amillər qrupu üzrə innovasiya fəaliyyətinə mane olan amillər qrupunda müvafiq proseslərin maliyyələşdirilməsi üçün vəsaitin kifayət etməməsi, elmi-texniki və maddi bazanın tələblərlə tam uyğunlaşmaması, ehtiyat güclər sahəsində kəsirin mövudluğu, ilk öncə cari istehsal maraqlarının gözlənilməsi və s. kimi amillər ifadə olunmaqdadır. Öz növbəsində bu prosesləri təşviq edən amillərdən nümunə olaraq maddi, maliyyə və texniki vəsait ehtiyatların qənaətbəxş şəkildə olması, mütərəqqi texnologiyalara malikolma, zəruri istehsalat (təsərrüfat), elmi, texniki infrastruktur istiqamətlərinin mütəşəkkil qaydada təşkil olunması və sairəni göstərək olar.

"İnnovasiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanununda istehsal və sosial sferalara elmi-texniki nailiyyətləri tətbiq etmək üçün innovasiya fəaliyyəti investisiya fəaliyyətinin bir forması kimi təsdiqlənmişdir. Bu qanuna əsasən respublikamızda innovasiya fəaliyyəti üç formada həyata keçirilir (şəkil 1).




***Şəkil 1. Azərbaycanda innovasiya fəaliyyətinin formaları***
***Mənbə** [9, s.318]*

Ümumiyyətlə, innovasiyalar bütün fəaliyyət sferalarında mümkündür və buna görə də innovasiyalar aşağıdakı tiplərdə təsnifləşdirilir:

1. Əmtəə innovasiyası – yeni növ məhsulun istehsalıdır;
2. Texnoloji innovasiya – yeni istehsal üsullarının hazırlanmasıdır;
3. Bazar innovasiyası – yeni əmtəə və xidmətlər bazarının yaradılmasıdır;
4. Marketinq innovasiyası – xammal və yarımfabrikatların yeni təchizat mənbələrinə yiyələnməkdir;
5. İdarəetmə innovasiyası – idarəetmə strukturunu yenidən qurmaqdır;
6. Sosial innovasiya - əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq üçün yeni üsulları tətbiq etməkdir;
7. Ekoloji innovasiya - ətraf mühiti mühafizə etmək üçün yeni üsulların istifadəsidir.

İnnovasiya fəaliyyətinin növləri ilə yanaşı, onun obyektləri də mühüm əhəmiyyət kəsb etməkdədir. Bu sırada mühüm əhəmiyyət kəsb edənləri aşağıdaki şəkildə ifadə edilən nümunəvi ardıcıllıqla göstərmək mümkündür (Şəkil 2).




***Şəkil 2. İnnovasiya fəaliyyətinin obyektləri***
***Mənbə** [7,s.118]*

Şəkil 2-dən də göründüyü kimi, innovasiya fəaliyyətinin obyektləri altı mühüm qrupda birləşdirilmişdir. Onların sırasında ilk yeri *innovasiya məhsulları* tutmaqdadır. İnnovasiya məhsulu dedikdə müxtəlif istehsal, texniki, texnoloji və digər səviyyələrdə dəyişikliklərə məruz qalmış məhsullar başa düşülməkdədir. Onların tərkibi məruz qaldıqları spesifik innovasiyaların növlərinə uyğun olaraq müəyyən edilir.

Özünün əhəmiyyətlilik dərəcəsinə görə innovasiyalı məhsullar aşağıdakı istiqamətlər üzrə istehsal təsnifləşdirmələrinə məruz qalmaqdadır:

a) yeni (tətbiqi yeni mümkün olmuş) məhsullar istehsalı;
b) təkmilləşdirməyə məruz qalmış məhsullar istehsalı;
c) yeni və əhəmiyyətli təkmilləşdirmə metodlarına məruz qalmış istehsal.

Yuxarıdakı qruplaşdırma nəticəsində demək mümkündür ki, yeni tətbiq edilmiş məhsulun dəqiqləşdirilməsi *radikal məhsul innovasiyası* anlayışına, təkmilləşdirilmiş məhsulun müəyyənləşdirilməsi isə *inkremental məhsul innovasiyasına* uyğundur.

İnnovasiya prosesləri – innovasiya fəaliyyəti obyektlərinin mühüm elementlərindən hesab olunmaqdadır. Onlar bir tərəfdən "məzmun" ardıcıllığına məruz qalmaqdadır, digər tərəfdən isə tərkib elementləri baxımından təsnifləşdirilir. Məzmun ardıcıllığı baxımından proseslər aşağıdakı mərhələləri birləşdirməlidir:

***Sxem 1.İnnovasiya proseslərinin ümumiləşdirilmiş modeli***




**Mənbə** [2, s.12]

Bəllidir ki, istənilən cəmiyyət çoxşaxəli ehtiyaclara (tələblərə) malikdir. Məhz onların qarşılanmasına yönəldilən tədbirlər yeni ideya, düşüncə və fikirlərin hazırlanmasına, meydana çıxmasına şərait yaratmaqdadır. "Səbəb → nəticə" formasında mövcud olan belə əlaqə zərurətdən yaranmaqdadır və əhalinin tələbatının daha yüksək səviyyədə ödənilməsi məqsədini güdməkdədir.

Obtektlərin müəyyən edilməsi və məqsədlərin qarşıya qoyulması sonrakı nəzəri və təcrübi tədqiqatların həyata keçirilməsi üçün baza rolunda çıxış etməkdədir. Nəticədə, məhsul, iş və xidmətlər üzrə yenilənmiş, daha mütərəqqi mərhələyə keçid almış obyektlər meydana çıxmış və geniş istifadəçi kütləsi üçün sərgilənmiş olur. Bu, isə məntiqi ardıcıllıq olaraq istehsalla yanaşı, cəmiyyət üzvlərinin birinci mərhələdə innovasiya məhsulu ilə bağlı xarakter və xassələr ilə tanış olmasına, növbəti mərhələlərdə isə onun əldə edilməsinə yol açır.

Mövcud model əsasında tərkib elementləri baxımından innovasiya prosesləri aşağıdakı nümunəvi qruplaşdırma maddələrinə malikdir:

- ✓ fundamental elmi-tədqiqat işləri;
- ✓ tətbiqi elmi-tədqiqat işləri;
- ✓ təcrübə-konstruktor işləri;
- ✓ layihələşdirmə işləri;
- ✓ tikinti və fəaliyyətin (icraatın) mənimsənilməsi (nəticələrin əldə olunması üzrə) üzrə həyata keçirilən işlər;
- ✓ təsnifatın bir neçə bəndini özündə müxtəlif normalarda (paralel və ya ardıcıl) birləşdirən kompleks işlər. [15]

İnnovasiya fəaliyyətinin həyata keçirilməsi zamanı mühüm məqamlardan birini də *innovasiya siyasətinin* müəyyənləşdirilməsi təşkil etməkdədir. Bu siyasət istər makromiqyasda (ölkə, region səviyyəsində), istərsə də mikrosəviyyədə (müəssisə, birlik və s.) müəyyən edilə bilər. Digər tərəfdən, müvafiq siyasət özünün əhatə dairəsi baxımından geniş şaxəliliyi ilə fərqlənməkdədir. Bu sırada aşağıdakı qrupları fərqləndirmək yerinə düşərdi:

1. elmi yeniliklərə ehtiyac olduğu sahə və istiqamətlərin müəyyən edilməsi, onlar üzrə innovativ işlərin planlaşdırılması və proqramlaşdırılması;
2. təsərrüfatçılığın bütün səviyyələrində elmi-texniki nəticələrin cinsi və dəyər dövriyyəsinə daxil edilmə üsul və formaları;
3. “elmi fəaliyyət icrası – istehsalata tətbiq” tandemi üzrə mövcud olan quruluşların nisbətləri, həmin quruluşlar üzrə icra olunan yenilikçilik addımları;
4. innovasiya fəaliyyəti üzrə mövcud olan iqtisadi-idarəetmə, təşkilati-hüquqi, nizamlayıcı və s. formaları;
5. yeniliklər üzrə resurs təminatı (fasiləsiz təhsil də daxil olmaqla);
6. kooperasiya, təmərküzləşmə, kombinələşmə və ixtisaslaşma (peşəkarlaşma) və fəaliyyətin təşkilinin digər mütərəqqi üsulları üzrə işgüzar formalar;
7. ümumilikdə cəmiyyətin və onun fərqli (əsasən xüsusi çəkiləri yüksək olan) istehlakçı hissələrinin yeniliklərə olan münasibəti;
8. yenilikçilərin (müxtəlif kəşflərin müəlliflərinin) əməyinin stimullaşdırılması, bu sahədə mütərəqqi, motivasiyanı nəzərdə tutan üsullara keçidin əsaslandırılması;
9. birmərhələli və çoxmərhələli innovativ fəaliyət üzrə icra edilməli olan addımların əsaslandırılması;
10. innovasiyaların tsiklikliyinin təmin edilməsi məqsədilə işlərin sistemlilik və komplekslilik prinsipləri əsasında təşkil edilməsi;
11. innovasiya fəaliyyəti üzrə maliyyələşmə və digər məsələlərin əsaslandırılması, xərc norma və normativləri əsasında innovasiyalar üzrə smetaların hazırlanması, təcrübəyə yönəldilməsi və s. [11; s.167].

İnnovasiya siyasəti özünda daha iki faktora diqqətin çəkilməsini zəruri edir – innovasiya siyasəti və onu mümkün edən innovativ taktiki gedişlər. İlk növbədə qeyd etmək yerinə düşər ki, *innovasiya strategiyası* – uzunmüddətli planlaşdırma və proqnozlaşdırma fəaliyyətinə, müvafiq istiqamətə təsiri ilə fərqlənən daxili və xarici amillərin qarşılaşdırılmasına, resursların optimallığının təmininə və onlardan səmərəli istifadə edilməsinə, bu sahədə əsaslandırılmış uçotun təşkilinə, texniki-texnoloji inkişafına yönələn yolların seçilməsini ifadə etməkdədir. İnnovasiya strategiyası üzrə formalaşma və reallaşma prosesləri həm ümumilikdə ölkə üzrə, həm də iqtisadi sistemin fərqli sahələri üzrə, həmçinin xalis və qarışıq formalarda reallaşa, bərqərar ola bilər. Təcrübə göstərir ki, innovasiya strategiyasında hücüm, müdafiə, imitasiya, asılı, ənənəvi, opportunist reallaşdırma tipləri mövcuddur. Məqsədlərin aydınlaşdırılması tiplər üzrə taktiki addımların atılmasını şərtləndirməkdədir. İnnovasiyaların strateji və taktiki məqsədlərinin aydınlaşdırılması fəaliyyətin innovativ tsiklləri ilə bağlı düşüncələri sisetmləşdirmək zərurətini ortaya çıxarmış olur. Belə ki, *innovasiya tsiklləri* mənası altında bir tərəfdən, istənilən fəaliyyət üzrə başa çatmış tam dövrün ifadəsi başa düşüldüyü

halda, digər tərəfdən elmi-teniki və iqtisadi tsikllərin fazaları ilə əlaqədar innovasiya fəallığının vaxtaşırı tərəddüd etməsi baş düşülür. İnnovasiya tsikllərinin aşağıdakı fazaları mövcuddur:

- ✓ Texnikanın və ya texniki ukladın yeni (mütərəqqi) nəslinin "nüvəsini" formalaşdıran təməl innovasiya dalğaları.
- ✓ Mütərəqqiləşən innovasiya "dalğalarının" köməyi ilə müvafiq ukladın (nəslin) yayılması (diffuziyası);
- ✓ Sabitlik fazasında yaxşılaşan innovasiyanın (o cümlədən, mikroinnovasiyanın üstünlük təşkil etməsi;
- ✓ Böhran fazasında texnikanın daha mütərəqqi nəsillərində yalançı innovasiyaların müşahidə olunması;
- ✓ Eyni zamanda böhran fazasında paralel olaraq texnikanın yeni nəsli üçün təməl innovasiyaları üzrə klaster formalaşmasının baş verməsi. [5; s.272]

İstənilən innovasiya fəaliyyəti "nəzəriyyə - təcrübə" tandemi əsasında mümkün olmaqdadır. Yuxarıda innovasiya təcrübəsi ilə fikirlərimiz bildirilsə də, onun nəzəriyyəsi ilə bağlı düşüncələrin müəyyənləşdirilməsi kənarda "sönük" qalmışdır. İlk növbədə qeyd olunmalıdır ki, innovasiyalar nəzəriyyəsi – fundamental elmin sahəsi olmaqla yanaşı, predmet etibarı ilə özündə insan fəaliyyətinin fərqli sahələrində yeniliklərin qanunauyğunluqlarını, meyllərini və mexanizmlərini cəmləməkdədir. Məzmun etibarı ilə innovasiyalar insanın bu və ya digər sahədə fəaliyyətinin artırmaq məqsədilə elmi və texniki inkişafın nəaliyyətlərindən istifadəni nəzərdə tutur.

İnnovasiyaların araşdırılmasında müstəqil istiqamətlərdən birini də onların planlaşdırılması və maliyyələşdirilməsi təşkil etməkdədir. İlk növbədə qeyd olunmalıdır ki, planlaşdırma idarəetmə sisteminin mühüm elementi kimi çıxış etməkdədir.

Digər tərəfdən, innovasiyaların icrası tərtib olunmuş ardıcıllığa əsasən həyata keçirilməkdədir. Bu zaman innovasiya ilə bağlı planlaşdırma proseslərində isə onun obyektini təşkil edən məhsul, iş və ya xidmət üzrə bütün komponentlərin mövcudluğu, mümkün həcm və tərkib elementlərinin kəmiyyət-keyfiyyət ifadələrinin tələb olunan konfiqurasiyalarda fəaliyyət planlarına uyğunlaşdırılması zəruri hesab edilməkdədir.

İcra edilməli olan innovasiya layihələrinin zaman ifadələri, onların ardıcıl həyata keçirilməsi də spesifik əhəmiyyət kəsb etməkdədir.

İnnovasiya üzrə xərclər – onların planlaşdırılması, sınaq-konkstruktor və digər işlərinin icrası və təcrübədə tətbiqi mərhələlərində yarana biləcək (və ya yaranması nəzərdə tutulan) xərclər haqqında təsəvvür yaratmaqdadır. Onlar öz növbəsində ümumilikdə iqtisadi sistemə, hər hansı iqtisadi sahəyə və hətta fərdi mərhələyə aidiyyatı ilə seçilə bilər.

Xərclər haqda düşüncələri təcrübi müstəvidə nəzərdən keçirmək məqsədilə nümunə olaraq 2005-2020-ci illərdə ölkəmizdə sənaye sahəsi üzrə innovasiyalara çəkilən xərclərin ifadə edildiyi cədvəl 1-ə baxaq.

***Cədvəl 1.*** *Sənaye sahəsi üzrə innovasiyalara çəkilən xərclər, min manat*

| **İllər** | **Cəmi sənaye üzrə** | **O cümlədən** | | | |
|---|---|---|---|---|---|
| | | Mədənçıxarma sənayesi | Emal sənayesi | Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | Su təchizatı, tullantıların təmizlənməsi və emalı |
| **2005** | **53273,0** | 43892,0 | 8573,0 | 808,5 | - |
| **2006** | **43875,0** | 245,0 | 1084,0 | 42545,0 | - |
| **2007** | **49620,0** | 97,6 | 49493,0 | 29,8 | - |
| **2008** | **8020,0** | 592,3 | 7428,0 | - | - |
| **2009** | **4618,0** | 397.6 | 4102,0 | - | 119,1 |
| **2010** | **8139,0** | 4,8 | 8128,0 | - | 5,7 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **2011** | **31589,0** | 692,9 | 29319,0 | - | 1577,0 |
| **2012** | **9326,0** | 778,4 | 8083,0 | 464,5 | - |
| **2013** | **13877,2** | 8196,6 | 4066,6 | 1614,0 | - |
| **2014** | **21534,1** | 4133,5 | 17383,6 | 17,0 | - |
| **2015** | **35179,1** | 2671,5 | 32492,5 | 15,1 | - |
| **2016** | **27929,0** | 179,6 | 27744,4 | 5,0 | - |
| **2017** | **16135,7** | 31,7 | 16104,0 | - | - |
| **2018** | **34353,6** | 1386,0 | 32967,6 | - | - |
| **2019** | **48037,1** | 378,6 | 47658,5 | - | - |
| **2020** | **35919,8** | 1001,1 | 34918,7 | - | - |

***Mənbə**: [17]*

Cədvəl 1-dən aydın olur ki, 2005-2020-ci illər ərzində sənaye sahəsində innovasiya xarakterli işlər aparılmışdır və onlara müvafiq zaman ifadələrində edilən xərclər 4618 min manatla (2009, $\mathbf{x}_{min}$) 53273 min manat (2005, $\mathbf{x}_{max}$) arasında tərəddüd etmişdir. Onu da qeyd etmək yerinə düşər ki, cədvəl 1-dəki informasiya "şaquli", cədvəl 2-dəki informasiya isə "üfuqi" xarakter daşımaqdadır.

Nəzərə çatdıraq ki, rəsmi statistik məlumatlandırmaya əsasən sənaye sahəsi üzrə innovasiya xərclərinin əsas istiqamətləri (daxilində tərkib elementləri olmaq şərtilə) aşağıdakı kimi müəyyən edilmişdir:

1. Mədənçıxarma sənayesi;
2. Emal snayesi;
3. Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı;
4. Su təchizatı, tullantıların təmizlənməsi və emalı [6;s.416]

Onu da göstərilməlidir ki, mədənçıxarma və emal sənayesi üzrə innovasiya əməliyyatlarının (proseslərinin) mütəmadiliyinə baxmayaraq, bu fəliyyət 3-cü və 4-cü qruplar üzrə situativ xarakter daşıyır və kiçik xüsusi çəkilərlə fərqlənməkdədir. Belə ki, baxılan 2005-2020-ci illər üzrə "*su təchizatı, tullantıların təmizlənməsi və emalı*" istiqamətində baş vermiş müvafiq fəaliyyət ancaq 2009-2011-ci illəri əhatə etmiş və dəyər ifadəsində cəmi 1701,8 min manata bərabər olmuşdur.

"*Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı*" istiqamətində də innovasiya üzrə xərclərin ümumi həcmi heç də arzuolunan deyil. Haqqında bəhs olunan vəziyyət fikrimizcə, ilk növbədə müvafiq istiqamət üzrə yeniliklərə cəlbolunmanın iqtisadi stimullaşdırıcılığının zəif olması, müvafiq sahədə zəruri peşəkar heyətin çatışmaması ilə əlaqədar olmalıdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı istiqaməti üzrə 2005-2020-ci illərdəki innovasiya xərcləri məcmu etibarı ilə 45498,9 min manat təşkil etmişdir ki, bu da su təchizatı, tullantıların təmizlənməsi və emalı istiqaməti üzrə məsrəflərdən 26,7 dəfə çoxdur (45498,9:1701,8).

Müşahidələr nəticəsində aydın olur ki, cəmi sənaye innovasiyalarının ümumi ifadələri də illər üzrə "dalğalanır" (bəzi hallarda kəskin, dəfələrlə). Belə ki, illərin göstəricilərində bəzən 11,5 dəfəlik (53273,0: 4618,0) fərq yaranmaqdadır. Belə mütləq və nisbi kənarlaşmalar istər ümumi innovasiya fərqlərində, istərsə də əlaqəli nisbətlərdə özünü ayrıntılı şəkildə ifadə etməkdədir. Ümumi innovasiya həcmlərinin tərəddüdlərini 2016-2020-ci ilin məlumatları bazasında nəzərdən keçirək:

✓ 2016-cı ildə (2015-ci illə müqayisədə) kənarlaşma mütləq ifadədə **-7250,1** min manat (27929,0 – 35179,1), və ya **-20,6** % (27929,0 : 35179,1) ***geriləmə***;

✓ 2017-ci ildə (2016-cı illə müqayisədə) – **11793,3** min manat (16135,7 – 27929,0), və ya **-42,2%** (16135,7 : 27929,0) ***geriləmə***;

✓ 2018-ci ildə (2017-ci illə müqayisədə) – **18217,9** min manat (34353,6 – 16135,7) və ya **2,13** dəfə (34353,6 : 16135,7) ***irəliləmə***;

✓ 2019-cu ildə (2018-ci illə müqayisədə) – **13683,5** min manat (48037,1 – 34353,6), və ya **39,8%** (48037,1 : 34353,6) ***irəliləmə***;

✓ 2020-ci ildə (2019-cu illə müqayisədə) – **12117,3** min manat (35919,8 – 48037,1), və ya - **25,2%** (35919,8 – 48037,1) ***geriləmə***.

Cəmi sənaye innovasiyalarının tərkibində mədənçıxarma və emal sənayelərinin xüsusi çəkiləri illər üzrə dəyişilməkdədir. Mədənçıxarma və emal sənayelərinin innovasiya xərclərinə aydınlıq gətirmək məqsədilə diaqram 1-ə müraciət etmək məqsədəuyğun olardı.

***Diaqram 1.***




Burada: - mədənçıxarma sənayesi (1), - emal sənayesi (2).

***Mənbə:*** *diaqram cədvəl 1-in məlumatları əsasında hazırlanmışdır.*

Diaqram 1-dən aydın görünür ki, mədənçıxarma sənayesində 2005-ci il istisna olmaqla bütün digər zaman kəsiklərində üstünlük emal sənayesinin tərəfindədir. Statistik məlumatlar əsasında hesablamalar apardıqda son 5 tədqiqat ilinin (2016-2020-ci illər) xüsusi çəkilərinə aşağıdakı görünüş açılır:

✓ 2016-cı ildə - mədənçıxarma sənayesi üzrə - **0,6%** (179,6 : 27929,0); emal sənayesi üzrə - **99,38%** (27744,4 : 27929,0); elektrik enerjisinin, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı – **0,02%** (5,0 :27929,0);

✓ 2017-ci ildə - mədənçıxarma sənayesi üzrə - **0,2%** (31,7 : 16135,7); emal sənayesi üzrə - **99,8%** (16104,0 : 16135,7);

✓ 2018-ci ildə - mədənçıxarma sənayesi üzrə - **0,5%** (1386,0 : 34353,6); emal sənayesi üzrə - **99,5%** (32967,6 : 34353,6);

✓ 2019-cu ildə - mədənçıxarma sənayesi üzrə - **0,8%** (378,6 : 48037,1); emal sənayesi üzrə - **99,2%** (47658,5 : 48037,1);

✓ 2020-ci ildə - mədənçıxarma sənayesi üzrə - **2,8%** (1001,1 : 35919,8); emal sənayesi üzrə - **97,2%** (34918,7 : 35919,8).

"Üfuqi" araşdırma haqqında müfəssəl məlumat almaq üçün cədvəl 2-yə nəzər salaq.

***Cədvəl 2.*** *Sənaye sahəsində daxili istiqamətlər üzrə innovasiyaların maliyyələşdirilməsi, min manat*

| **İllər** | Cəmi sənaye üzrə | O cümlədən | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi | texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması | yeni texnologiyaların alınması | proqram vəsaitlərinin alınması | yeni məhsulların buraxılışı üçün istehsal layihələşdiril-məsi, digər istehsala hazırlıq növləri və ya onların istehsalı üzrə yeni xidmətlərin və ya metodların tətbiqi | yeni marketinq tədqiqatları | innovasiya ilə əlaqədar işçilərin öyrədilməsi və hazırlığı | elmi-tədqiqat və işləmələr | müştərək müəssisələrin təşkili vasitəsilə texnologiyaların alınması | kənar təşkilatların xidmətlərinin ödənilməsinə çəkilən xərclər | texnoloji innovasiyalara çəkilən digər xərclər |
| **2005** | **53273,0** | 853,5 | 1782,0 | 50630,0 | - | 4,6 | 0,8 | - | - | - | - | - |
| **2006** | **43875,0** | 786,5 | 363,5 | 42714,0 | - | 10,7 | - | - | - | - | - | - |
| **2007** | **49620,0** | 3799,0 | 40001,0 | 299,0 | 26,3 | 163,1 | 0,3 | 49,1 | - | - | - | - |
| **2008** | **8020,0** | 2528,0 | 4525,0 | 114,9 | 465,9 | 386,7 | - | - | - | - | - | - |
| **2009** | **4618,0** | 855,7 | 2288,0 | 1115,0 | 7,0 | 330,7 | - | - | - | - | - | - |
| **2010** | **8139,0** | 2551,0 | 5053,0 | - | - | 300,1 | - | 95,6 | - | - | - | - |
| **2011** | **31589,0** | 3328,0 | 25178,0 | 585,0 | 40,0 | 20,5 | - | 99,3 | 2162,0 | - | 171,8 | 4,2 |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **2012** | **9326,0** | 529,3 | 5451,0 | 557,7 | 166,1 | 16,2 | - | 2,5 | 2602,0 | - | - | 2,1 |
| **2013** | **13877,2** | 9035,7 | 2327,6 | 770,1 | 504,8 | 1011,6 | - | 46,0 | 181,4 | - | - | - |
| **2014** | **21534,1** | 12232,3 | 3366,0 | 38,5 | 287,2 | 5558,7 | - | 40,0 | 11,4 | - | - | - |
| **2015** | **35179,1** | 13283,3 | 12764,5 | 3022,1 | 859,5 | 5202,0 | - | 37,2 | 10,5 | - | - | - |
| **2016** | **27929,0** | 5655,0 | 1962,6 | 15919,1 | 1217,3 | 2700,0 | - | 43,2 | 11,6 | - | **0,2** | 420,0 |
| **2017** | **16135,7** | 7880,1 | 528,4 | 158,7 | 685,3 | 5300,0 | 151,0 | - | 12,5 | - | 4,7 | 1415,0 |
| **2018** | **34353,6** | 11119,0 | 4578,5 | 185,2 | 957,9 | 6200,0 | - | - | 9944,5 | 151,1 | 1,0 | 1216,4 |
| **2019** | **48037,1** | 9600,0 | 32360,0 | 71,5 | 41,0 | 5900,0 | - | 12,0 | 22,4 | - | - | 30,2 |
| **2020** | **35919,8** | 7000,0 | 15292,7 | 1754,5 | 8497,7 | 3000,0 | - | - | - | - | 362,9 | 12,0 |

***Mənbə:*** *rəsmi statistika məlumatları əsasında müəlliflər tərəfindən hazırlanmışdır [16]*

Bu cədvəldə sənaye innovasiyalarının xərclərinin həcminə 11 tərkib element üzrə baxılır. Onlardan aşağıdakılar mühüm hesab edilməkdədir:

1. yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi;
2. texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması;
3. yeni texnologiyaların alınması;
4. proqram vəsaitlərinin alınması;
5. yeni məhsulların buraxılışı üçün istehsal layihələşdirilməsi, digər istehsala hazırlıq növləri və ya onların istehsalı üzrə yeni xidmətlərin və ya metodların tətbiqi.

Digər 6 göstərici üzrə kəmiyyət ifadələri fasiləli şəkildə mövcud olmuşdur.

Yuxarıda sadalanan 5 göstəricidən "*yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi*" və "*texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması*" kateqoriyalarının

əhəmiyyəti daha böyükdür. Göstəricilərin illər üzrə fərdi xüsusi çəkilərinin müəyyən edilməsi də özünəməxsus əhəmiyyətə malikdir. Bunu nümunə olaraq 2020-ci ilin məlumatları əsasında nəzərdən keçirək. 2020-ci ildə cəmi xərclərin tərkibində "yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi" xərcləri **19,5%** (7000,0 : 35919,8), "texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması" xərcləri **42,6%** (15292,7 : 35919,8), "yeni texnologiyaların alınması" xərcləri **4,9%** (1754,5 : 35919,8), "proqram vəsaitlərinin alınması" xərcləri **23,7%** (8497,7 : 35919,8) və "yeni məhsulların buraxılışı üçün istehsal layihələşdirilməsi, digər istehsala hazırlıq növləri və ya onların istehsalı üzrə yeni xidmətlərin və ya metodların tətbiqi" xərcləri **8,4%** (3000 :35919,8) təşkil etmişdir.

Cədvəl 2-dən görünür ki, yerdə qalan **374,9 min manat** (və ya **1%**) 2 qrupun payına aid edilmiş, yerdə qalan 4 maddənin payında heç bir xərc qeydə alınmamışdır. Belə vəziyyət o demək deyil ki, yeniləşdirməyə məruz qalacaq heç bir obyekt və ya fəaliyyət yönü yoxdur. Lakin müxtəlif səbəblər ucbatından digər obyektlər sonrakı zaman kəsiklərinə ertələnmişdir. Bu isə təsərrüfat proseslərinin təşkili, idarə edilməsi, sonrakı həyata keçirilməsi və sair istiqamətlərində yenilənmə və mütərəqqiləşmə cəhətdən özünün mənfi təsirlərini əyani surətdə ifadə etmiş olur.

## İNVESTİSİYALAR, ONLARIN ÖLKƏNİN İQTİSADİ SİSTEMİNDƏ ROLU, ONLARIN STİMULLAŞDIRILMASI YOLLARI, ALƏT VƏ MEXANİZMLƏRİ

İnnovasiyaların həyata keçirilməsində, onların ideyadan reallığa çevrilməsində maliyyələşmə fəaliyyəti mühüm rol oynamqdadır. İnvestisiya məvhumunun izahı məqalənin gəlir hissəsində verilsə də, fikrimizcə, daha ayrıntılı izahların edilməsi zəruridir. İlk növbəqə qeyd olunmalıdır ki, innovasiyalarla bağlı investisiyalar müxtəlif formalarda (pul, maddi sərvət, qeyri-maddi aktiv və digər formalarda) edilə bilər. Qarşıya qoyulan məqsədlərdən asılı olaraq investisiyaların obyektləri, tətbiqi üsulları və mexanizmləri aydınlaşır.

Digər tərəfdən, *investisiyaların ancaq innovasiyalara yönəldilməsi kimi* məcburi fəaliyyətin həyata keçirilməsi qanunauyğunluğu yoxdur. Belə ki, innovasiyalarla yanaşı, investisiyalar istehsalın genişləndirilməsi, daha məhsuldar avadanlığın istehsala cəlbi, emal prosesində istehsalın mexanikləşdirilmə və avtomatlaşdırılma səviyyəsinin yüksəldilməsi və s. istiqamətlər məzmun etibarı ilə investisiya tələb edən "mərkəzlərdir". İnvestisiyalaşmada ümumilikdə iqtisadi sistem, onun sahələri, ölkənin iqtisadi və inzibati rayonları müstəqil obyekt kimi seçilə bilər. Onun müstəvisi hər hansı fərdi məhsul istehsalı zamanı inzibati (iqtisadi) rayon (rayonlar) timsalında müəyyənləşə bilər. İqtisadiyyat sahələrinə yönəldilən investisiyalar haqda daha müfəssəl informasiyaya malik olmaq üçün cədvəl 3-ə mürciət etmək məqsədəmüvafiq olardı.

***Cədvəl 3.*** *İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş investisiya, mln.manat*

| **İqtisadi sahələr** | **İllər** | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | **1991** | **2000** | **2010** | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
| | **milyon manat** | | | | | | | |
| **Cəmi** | **0,08** | **967,8** | 9905,7 | 16772,8 | 17430,3 | 17244,9 | 18539,5 | 17226,1 |
| Sənaye | 0,02 | 670,1 | 4276,2 | 9949,8 | 10610,1 | 8497,2 | 9258,0 | 9065,3 |
| Kənd təsərrüfatı və balıqçılıq | 0,02 | 6,5 | 431,0 | 325,1 | 617,8 | 764,4 | 769,5 | 520,6 |
| Tikinti | 0,00 | 3,4 | 113,8 | 2831,8 | 2746,0 | 3721,4 | 3550,4 | 3178,5 |
| Nəqliyyat və anbar təsərrüfatı | - | 44,1 | 2449,1 | 1392,3 | 1777,7 | 1926,6 | 2190,7 | 2092,6 |
| Rabitə və informasiya | 0,00 | 45,3 | 212,0 | 199,4 | 171,9 | 441,5 | 547,1 | 185,5 |
| Digər sahələr | 0,04 | 198,4 | 2423,6 | 1074,4 | 1506,8 | 1893,8 | 2223,8 | 2183,6 |

**Mənbə** [16]

Cədvəl 3-də mütləq və nisbi kəmiyyətlər şəklində bəhs olunan istiqamətlərdəki kəmiyyət ifadələrinin "dalğalanmaları" haqqında məlumatlar qeyri-bərabər fasiləli dinamika sıraları şəklində verilməkdədir. Digər tərəfdən, cədvəl 3 üzrə "üfuqi" və "şaquli" şəkildə zəruri iqtisadi-riyazi hesablamaların həyata keçirilməsi ilk növbədə iqtisadi sahələr üzrə artım templərinin səviyyələrinə diqqət yetirməklə yanaşı, digər tərəfdən də illər üzrə iqtisadi sahələrdəki investisiyaların xüsusi çəkiləri haqda təsəvvür yaratmalıdır.

"Üfuqi" istiqamətdə nəzərdə tutduğunuz hesablamaları sənaye sahəsinin müxtəlif illərdəki kəmiyyətləri əsasında nəzərdən keçirək. 1991-ci ildə sənaye sahəsinə yönəldlmiş investisiya həcmi **25%** (0,08 : 0,02) təşkil etdiyi halda, 2000-ci ildə bu göstərici **69,2 %** (670,1 : 967,8), 2010-cu ildə **43,2%** (4276,2 : 9905,7), 2020-ci ildə **52,6%** (9065,3 : 17226,1) olmuşdur.

"Şaquli" istiqamətdə hesablamalara nümunə olaraq aşağıdakılara diqqət yetirək. Cədvəl 3-ün məlumatlarına əsasən illər üzrə ümumi investisiya həcmləri aşağıdakı kimi olmuşdur: 2000-ci ildə 967,8 milyon manat, 2020-ci ildə isə 17226,1 milyon manat. Bu zaman sahələr üzrə investisiya məbləğlərinin bölgüsündən yaranan xüsusi çəkilər aşağıdakı kimidir:

✓ **2000-ci ildə** - sənaye üzrə **69,2%** (670,1 : 967,8), kənd təsərrüfatı və balıqçılıq üzrə **0,7%** (6,5 : 967,8), tikinti üzrə **0,4%** (3,4 : 967,8), nəqliyyat və anbar təsərrüfatı üzrə **4,6%** (44,1 : 967,8), rabitə və informasiya üzrə **4,7%** (45,3 : 967,8), digər sahələr üzrə **20,5%** (198,4 : 967,8);

✓ **2020-ci ildə** - sənaye üzrə **52,6%** (9065,3 : 17226,1), kənd təsərrüfatı və balıqçılıq üzrə **3,0%** (520,6 : 17226,1), tikinti üzrə **18,5%** (3178,5 : 17226,1), nəqliyyat və anbar təsərrüfatı üzrə **12,2%** (2092,6 : 17226,1), rabitə və informasiya üzrə **1,1%** (185,5 : 17226,1), digər sahələr üzrə **12,7%** (2183,6 : 17226,1);

Əldə olunmuş xüsusi çəkilər əsasında 2020-ci ilin bazasında maksimal həcmləri müəyyənləşdirməyə çalışsaq nəticə aşağıdakı kimi olacaqdır:

1. Sənaye üzrə: 17226,1 · 69,2 : 100 = **11920,5** (yəni, **+2855,2**);
2. Rabitə və informasiya üzrə: 17226,1 · 4,7 : 100 = **809,6** (yəni, **+624,1**);
3. Digər sahələr üzrə: 17226,1 · 20,5 : 100 = **3531,4** (yəni, **+1347,8**).

Beləliklə, müqayisəli maksimallaşdırma nəticəsində investisiyaların artım həcmində **4927,1** mln. manatlıq (2855,2 + 624,1 + 1347,8) kənarlaşma baş vermişdir ki, bu da bir tərəfdən ehtiyat mənbəyi kimi qiymətləndirilə bilər, digər tərəfdən isə mümkün olduqda 2020-ci il üzrə investisiyaların həqiqi həcmlərini **22153,2** mln. manatadək (17226,1 + 4927,1) yüksəltmiş olardı. Lakin bu da son hədd kimi qiymətləndirilə bilməz. Belə ki, məsələn, cədvəl 3 üzrə dinamika sırasını nəzərdən keçirdikdə bəzi illərin faktiki investisiyalaşma nəticələrinin (məsələn, 2017 və 2019-cu illər) 2020-ci ildən daha yüksək olduğunu müşahidə etmək mümkündür. Deyilənlərə əlavə olaraq göstərmək mümkündür ki, oxşər hesablamaları cədvəl 3-də ifadə edilmiş digər illər üzrə də icra etrmək olar.

Qeyd olunmalıdır ki, 2000 və 2020-ci illər ərzində əsas kapitala yönəldilən investisiyaların sahələr üzrə artım templərində də kənarlaşmalar mümkün olmuşdur. Bu sırada xüsusi sahəvi və inzibati-ərazi vahidləri üzrə proqramların icrası, bu zaman investisiya layihələrinin həyata keçirilməsi də nəzərə alınmalıdır. Deyilən məsələ üzrə mütərəqqi istehsal quruluşlarının (ixtisaslaşdırılmış sənaye parklarının, sənaye məhəllə və klasterlərinin, texnoparkların, aroparkların, ekoloji enerji əsasında formalaşdırılan istehsal vahidlərinin) faliyyətinin təşkili və həyata keçirilməsi öncül yerlərdən birini tutmaqdadır. Yaddan çıxarılmamalıdır ki, bəhs olunan mütərəqqi qurulaş və formalar üzrə ölkəmizdə hüquqi-normativ bazanın hazırlanması və mütəmadi təkmilləşdirilməsi kimi ardıcıl addımlar atılmaqdadır.

Bu əsasda Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda formalaşdırılması davam edən Şərur Sənaye Parkını, Naxçıvan Dövlət Universiteti tərkibində isə qurulan Texnoparkı xüsusi olaraq qeyd etmək yerinə düşərdi.

Məzmun etibarı ilə investisiyalaşma istiqamətlərindən birini də fərqli miqyasla seçilən, fərqli istehsal mərhələlərinə, iqtisadi sistemin sahə və istiqamətlərinə, maliyyə dövriyyələrinə və digər konfiqurasiyalarına malik təsərrüfatçılıq subyektləri bazasında icra olunan investisiyalaşma əməliyyatları təşkil etməkdədir.

Statistik tədqiqatlar təcrübəsində “Mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən əsas kapitala yönəldilmiş vəsaitlərin iqtisadi rayonlar üzrə bölgüsü” və digər bu kimi quraşıq cədvəllərindən də istifadə oluna bilər. Burada “*iştiraçı komponentlərin*” məzmun fərqliliyi özünəməxsusluğu ilə sərgilənməkdədir. Belə ki, bəhs olunan təsnifləşdirmədə ən azı aşağıdakı mühüm bəndlər sadalanmalıdır:

1. İqtisadi rayonlar və onlar üzrə ümumiləşdirilmiş göstəricilər;
2. Zaman elementləri;
3. Müxtəlif formalı sahibkarlıq subyektləri və s.

Deyilənlər haqqında daha sistemli informasiyaya malik olmaq üçün cədvəl 4-ə müraciət etmək yerinə düşərdi.

Cədvəl 4-də Azərbaycan Respublikasının 13 iqtisadi vahidi üzrə 2019 və 2020-ci illərdə mikro, kiçik və orta ölçülü təsərrüfatçılıq subyektlərinin əsas kapitala yönəltdiyi investisiyalar ilə bağlı məlumatlar öz əksini tapmışdır.

***Cədvəl 4.*** *Mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən əsas kapitala yönəldilmiş vəsaitlərin iqtisadi rayonlar üzrə bölgüsü, min manat*

| İqtisadi rayonlar | Cəmi | 2019 | | | Cəmi | 2020 | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | mikro | kiçik | orta | | mikro | kiçik | orta |
| **Bakı şəhəri** | **2621068,3** | 24382,7 | 256285,6 | 2340400,0 | **1647465,8** | 323344,6 | 258036,7 | 106684,5 |
| **Naxçıvan MR** | **480542,0** | 462077,6 | 18303,7 | 160,7 | **544111,4** | 531309,1 | 2578,6 | 10223,7 |
| **Abşeron-Xızı** | **20244,3** | 155,8 | 14738,1 | 5350,4 | **90197,5** | 278,8 | 9989,2 | 79929,5 |
| **Dağlıq Şirvan** | **342,0** | - | 342,0 | - | **81959,1** | 1222,0 | 62037,1 | 18700,0 |
| **Gəncə-Daşkəsən** | **102109,2** | 15397,0 | 81735,4 | 4976,8 | **106264,2** | 46414,6 | 6449,4 | 53400,2 |
| **Qarabağ** | **11193,0** | - | 10193,0 | 1000,0 | **10599,2** | 2250,0 | 7597,9 | 751,3 |
| **Qazax-Tovuz** | **501,3** | 1,3 | 500,0 | - | **53759,9** | 25,4 | 23967,9 | 29766,6 |
| **Quba - Xaçmaz** | **56582,8** | 1370,0 | 50919,2 | 4293,6 | **49314,9** | 33080,0 | 2510,1 | 13724,8 |
| **Lənkəran-Astara** | **20829,5** | 7300,0 | 10603,2 | 2926,3 | **7325,4** | 6564,5 | 702,9 | 58,0 |
| **Mərkəzi Aran** | **64301,9** | - | 11145,3 | 53156,6 | **27670,7** | 13191,7 | 542,6 | 13936,4 |
| **Mil-Muğan** | **20308,9** | 4 810,0 | 15498,9 | - | **3272,6** | 1974,7 | 337,6 | 960,3 |
| **Şəki-Zaqatala** | **14795,8** | - | 14629,9 | 165,9 | **21167,1** | 6931,0 | 982,1 | 13254,0 |
| **Şirvan-Salyan** | **9309,8** | - | 9288,0 | 21,8 | **30944,3** | 3608,5 | 4652,8 | 22683,0 |

***Mənbə** [17]*

Rəqəmlər bir tərəfdən zaman müqayisəsini (“üfuqi” araşdırma), digər tərəfdən məkan müqayisəsini (“şaquli” araşdırma) nəzərdə tutur. İlk növbədə qeyd etmək yerinə düşər ki, Naxçıvan iqtisadi rayonu üzrə 2019-cu illə müqayisədə 2020-ci ildə:

- ✓ əsas kapitala yönəldilmiş vəsaitlərin *ümumi həcmi üzrə* kənarlaşma **63569,4** min manat

(544111,4 – 480542,0), və ya **13,2%** (544111,4 : 480542,0) artmışdır;

✓ ondan *mikrosahibkarlıq subyektləri üzrə* kənarlaşma **69231,5** min manat (531309,1 – 462077,6), və ya **15,0%** (531309,1 : 462077,6) artmışdır;

✓ *kiçik sahibkarlıq subyektləri üzrə* kənarlaşma **-15725,**1 min manat (2578,6 – 18303,7), və ya **-85,9%** (100% - 2578,6 : 18303,7 · 100%) azalmışdır;

✓ *orta sahibkarlıq subyektləri üzrə* kənarlaşma **10063,0** min manat (10223,7 – 160,7), və ya **63,6** dəfə (10223,7 : 160,7) artmışdır.

Heasblamalar göstərir ki, Naxçıvan iqtisadi rayonu üzrə 2019-cu illə müqayisədə 2020-ci ildə ancaq kiçik sahibkarlıq üzrə geriləmə müşahidə olunmuşdur, ümumi vəsait qoyuluşlarında olan artım isə mikro və orta sahibkarlıq subyektləri hesabına mümkün olmuşdur.

Müqayisə üçün qeyd etmək yerinə düşər ki, Bakı şəhəri üzrə 2020-ci ildəki artımı 2019-cu ildəkinə nisbətən **-973602,5** min manat (1647465,8 – 2621068,3), və ya **-37,1%** (100% -1647465,8 : 2621068,3·100%) azalmışdır. Bu da Naxçıvan MR üzrə göstərici ilə müqayisədə ümumilikdə **50,3%**-lik (37,1% + 13,2%) nisbi kənarlaşma amplitudasını göstərməkdədir. Bakı şəhəri üzrə fərdi göstəricilərin artım templəri (2019-ci illə müqayisədə 2020-ci ildə) müvafiq olaraq **13,3 dəfə**, **+0,7%** və **-95,4%** təşkil etmişdir.

Digər iqtisadi rayonların hər iki il üçün ümumi göstəriciləri Naxçıvan MR göstəricilərindən aşağıdır. Bu rəqəmlərdə iqtisadi rayonlar üzrə fərqli "dalğalanmalar" müşahidə olunmaqdadır. Bəzi iqtisadi rayonlarda isə 2019-cu ili əhatə edən göstəricilər tamamilə yoxdur (məsələn, Dağlıq-Şirvan, Qarabağ, Mərkəzi Aran, Şəki-Zaqatala, Şirvan-Salyan rayonları üzrə mikrosahibkarlıq subyektlərində, Dağlıq Şirvan, Qazax-Tovuz, Mil-Muğan iqtisadi rayonlarında orta sahibkarlıq subyektlərində) ki, bu da istehsalın təşkilatlanmasına, sürətinə, bir sıra keyfiyyət ifadələrinə mənfi təsiri göstərmiş olur.

## NƏTİCƏ

Məqalədə istər ölkə, istərsə də muxtar respublika miqyasında "innovasiya – investisiya" tandeminə müxtəlif rakurslardan yanaşmaları təmin etməyə çalışmışıq. Digər tərəfdən istifadə etdiyimiz əyani təsvir vasitələri (çədvəllər, sxemlər, diaqram) tədqiqat obyektlərinin daha aydın və mümkün qədər müfəssəl araşdırılmasına köməklik göstərməkdədir.

Hər iki anlayışın tərifindən başlayan izahatlar, onların məzmunu, əsas xarakterik cəhətləri, mühüm əlamətlər üzrə təsnifləşdirmələri haqqında məlumatları özündə cəmləməkdədir. Bununla yanaşı, müstəqim məzmun ifadələri ilə yanaşı, onların yeni iş yerlərinin yaradılmasına və məşğulluq səviyyəsinə, əmək və əmək ödənişi göstəricilərinə, regional və iqtisadi sahə miqyasına işçi axınına təsiri, mütərəqqi texnika və texnologiyaların tətbiqi hesabına yeni istehsal istiqamətlərinin mənimsənilməsi imkanlarının genişləndirilməsi, bu əsasda rentabelliliyin və ümumiyyətlə, fəaliyyətin gəlirlilik göstəricilərinin yüksəldilməsi kimi problemlərin həllinə müsbət təsir göstərməklə bərabər yeni yanaşmaların ortaya çıxmasını mümkün edir.

İstifadə etdiyimiz əlaqəli cədvəllərdən aydın olur ki, ölkəmizdə innovasiya fəaliyyəti ilə bağlı sistemli və kompleks addımların atılması zərurəti mövcuddur ki, bu da istər fiziki və hüquqi şəxslərin, istərsə də innovasiya yönündə məşğul olan peşəkar fərdlərin stimullaşdırılmasına yönəlməlidir. Təcrübə göstərir ki, bu işlərin "Sovet iməçilikləri" məzmununda həyata keçirilməsi məzmun etibarı ilə "gözəl səslənən nəzəriyyə ilə yekunlaşır" və arzuolunan nəticə vermir.

İnnovasiyanın icrası və ona investisiyaların yönəldilməsi "lokal" xarakter daşımamalıdır. Belə işlərin sistemli icrası "iqtisadi (inzibati) rayon – iqtisadi komponentlərin mövcudluğu" cütlüyünün vahid müstəviyə daşınması və çoxvariantlılıq halında araşdırılması kimi işləri tələb etməkdədir.

İnnovasiyalar iqtisadi sistemin sahələrində və istiqamətlərində tətbiq baxımından fərdi və ümumi xarakter daşıya bilər. İcra olunma xarakeri və real iqtisadi şərait (vəziyyət) qiymətləndirilməklə seçilməli, ona uyğun tənzimləmə və digər bazanın transformasiyası və təkmilləşdirilməsi mümkün olmalıdır.

İnnovasiyaların hazırlanması, istehsala tətbiqinin mümkünlüyü və səmərəliliyi kimi məsələlərin həllində daxili və beynəlxalq naloji təcrübələrin öyrənilməsi ön plana çəkilməlidir. Bəhs olunan

istiqamətlərdə texniki iqtisadi əsaslandırmalar (biznes-planlar və s.) mühümlük, zərurilik və digər öncül prinsiplər əsasında seçilməli, ümumilikdə innovasiya ilə əlaqəsi olan “iştirakçıların” fəaliyyət dairəsi ilə əlaqəliliyini də nümayiş etdirməlidir.

İnnovasiya fəaliyyəti üzrə planlaşdırma-proqnozlaşdırma fəaliyyəti ilk növbədə subyektlərin istehsal planları, subyektlərin maliyyələşdirmə imkanları və digər təşkilatlanma – idarəetmə, əlaqələndirmə və nizamlama məsələlərlə əlaqəli şəkildə həyata keçirilməlidir ki, məqsədlər üzrə qarşıya qoyulan nəticələrin əldə edilməsi mümkün olsun.

## ƏDƏBİYYAT


1. Böyük İqtisadi Ensiklopediya (akademik Z.Ə.Səmədzadənin ideya müəllifliyi və baş redaktorluğu ilə), IV cild, Bakı: Şərq-Qərb, 2012, 591 s.
2. Böyük İqtisadi Ensiklopediya (akademik Z.Ə.Səmədzadənin ideya müəllifliyi və baş redaktorluğu ilə), III cild, Bakı: Şərq-Qərb, 2012, 607 s.
3. F.Qasımov, T.Əliyev, Z.Nəcəfov. “Milli innovasiya sisteminin təşkili və idarə edilməsi”. Bakı: Elm və təhsil. 2013.səh.86-88
4. Allahverdiyev H.B. və b. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: Nasir, 2002
5. Bağırov M.S. Statistikanın təməl bilikləri. Naxçıvan: Əcəmi, 2020
6. Bağırov M.S.Müəssisə vəsaitləri mühasibat uçotunda. Naxçıvan: Əcəmi, 2022
7. Bağırov M.S. Peşəkar terminologiya. Naxçıvan: Əcəmi, 2013
8. Niftullayev V.M. Sahibkarlığın əsasları. Bakı: Zaman, 2002
9. Quliyev T.Ə. Menecmentin (idarəetmənin) əsasları. Bakı: Qərənfil. 2006
10. Hüseynov T.H. Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika. Bakı: Elm, 2015
11. Mahmudov C.İ., Bağırsoylu H.Q. Sosial-iqtisadi inkişafın proqnozlaşdırılması. Naxçıvan: Əcəmi, 2019
12. Atakişiyev M.C., Abbasov H.M., Abbasova N.M. Mikro və makroiqtisadiyyat. Bakı: Azərnəşr, 2010
13. “İnvestisiya fəaliyyəti haqqında”- AR Qanunu. Bakı şəhəri, 13.01.1995. № 952
14. Савчук Т.К. Организация финансирования инвестиции. Минск, 2011.Учебное пособие
15. AR İqtisadiyyat Nazirliyi. İqtisadi İslahatlar ETİ. Elmi əsərlər toplusu. İnnivasiya fəaliyyəti subyektləri:texnoparklar, sənaye parkları. Bakı.2018, s.138-144
16. AR Prezidentinin 24.04.2013-cü il tarixli 865 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"
17. www.stat.gov.az
18. www.maliyye.gov.az


## SUMMARY

**Mehdi Bagirov, Hikmat Hasanov**

## INVESTMENTS FOR INNOVATION IN THE REPUBLIC OF AZERBAIJAN AND THEIR STIMULATION SYSTEM

**The purpose of the research**-obtaining comprehensive information at the level of "innovation-investment" in the conditions of organized implementation of entrepreneurial activity, its systematization and complexification, determination of the bases, principles and tasks of the re-complexization of entrepreneurial activity based on the principles of innovation and implementing appropriate clarification processes.

**The methodology of the research** - observation, grouping, balance, comparative analysis methods.

**The conclusions of the research**- Systematization of the theoretical and practical aspects of the innovation (and corresponding investment) foundations of the entrepreneurship environment established in the country after independence, study of the compatibility of the development of entrepreneurial activity on the field-territory principle with scientific bases,assessment of balancing factors on "entrepreneurial activity - exposure of the country (region) to innovation and investment processes"

**The practical significance of the researh**-study of the impact of entrepreneurial activity covering the economic system in the independent Republic of Azerbaijan on the innovative development of individual areas and directions, evaluation of "time-space" movements in this area.

**The originality and scientific innovation of the research**-assessment of entrepreneurial activity's exposure to innovation and investment processes and research of analysis directions, comparison of theoretical bases and experimental results on uniform bases, execution of relevant calculations.

***Key words:*** *The Azerbaijan Republic, innovation, investment, stimulation of investments, economic system*

## РЕЗЮМЕ

**Мехди Багиров, Хикмат Гасанов**

## ИННОВАЦИОННО-НАПРАВЛЕННЫЕ ИНВЕСТИЦИИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ И ИХ СИСТЕМА СТИМУЛЯЦИИ

***Целью исследования*** является получение комплексной информации на уровне «инновации-инвестиции» в условиях организованного осуществления предпринимательской деятельности, ее систематизации и комплектизации, основ рекомплексации предпринимательской деятельности на основе инновационных принципов, определение принципов, обязанностей и осуществление соответствующего процесса уточнения.

***Методология исследования*** - использование методов наблюдения, группировки, баланса, сравнительного анализа.

***Результаты исследования*** - систематизация теоретических и экспериментальных аспектов инновационных (и соответствующих инвестиционных) основ предпринимательской среды, сложившихся в стране после обретения независимости, изучение совместимости развития предпринимательской деятельности на полево-территориальном уровне. принцип с научными основаниями, «предпринимательская деятельность» -оценка балансирующих факторов вовлеченности страны (региона) в инновационно-инвестиционные процессы.

***Практическая значимость*** исследования заключается в изучении влияния предпринимательской деятельности на инновационное развитие отдельных сфер и направлений в независимой Азербайджанской Республике.

***Оригинальность и научная новизна исследования*** - оценка подверженности предпринимательской деятельности инновационно-инвестиционным процессам и изучение направлений анализа, сопоставление теоретических основ и экспериментальных результатов на единых основаниях, выполнение соответствующих расчетов.

***Ключевые слова:*** *Азербайджанская Республика, инновации, инвестиции, стимулирование инвестиций, экономическая система.*

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 106-115
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 106-115
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 106-115

**CEYHUN MAHMUDOV**
*ceyhun.ilhamoglu@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 338:37**

# İNSAN KAPİTALI AZƏRBAYCAN İQTİSADİYYATININ DAVAMLI İNKİŞAF AMİLİ KİMİ

***Tədqiqatın əsas məqsədi*** *insan kapitalının formalaşması prosesini davamlı inkişaf konsepsiyasının həyata keçirilməsinin ən mühüm amili kimi nəzərdən keçirmək, insan kapitalının özünün davamlı inkişaf şərtləri və göstəricilərini öyrənmək, insan kapitalının formalaşmasına təsir edən sahələrdəki real durumu qiymətləndirməkdir.*

***Tədqiqat işi*** *elmi abstraksiya, statistik təhlil, analiz və sintez kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir.*

***Tədqiqatın nəticəsi.*** *Aparılan araşdırma nəticəsində məqaləmizdə aşağıdakı qənaətə gəlinmişdir:*

- *həm təhsil sahəsində, həm də əmək bazarında inkişaf etmiş və fəaliyyət göstərən mövcud təhrif edilmiş həvəsləndirmə sisteminin yenilənməsi məqsədilə institusional dəyişikliklərin edilməsi;*
- *peşə təhsilinin inkişafı, "texnoloji platformalar" institutundan istifadə, kiçik innovativ sahibkarlığın inkişafı, innovativ infrastrukturun inkişafı üzrə kompleks regional proqramların işlənib hazırlanması və həyata keçirilməsi.*

***Tədqiqatın məhdudiyyətləri:*** *insan kapitalının formalaşmasına təsir edən amillərin çoxluğu və bu səbəbdən ölçülə bilməsindəki çətinliklər.*

***Tədqiqatın praktik əhəmiyyəti:*** *insan kapitalının formalaşması və inkişafı istiqamətində tədqiqat aparan və bu sahədə çalışan mütəxəssislərin elmi və təcrübi biliklərinin yüksəldilməsində mühüm rol oynaya bilər.*

***Tədqiqatın elmi yeniliyi və orijinallığı*** *onun davamlı inkişaf konsepsiyasına və ona nail olma amillərinin araşdırılmasına, davamlı inkişafı təmin edən müxtəlif növ kapitalların və onlar arasındakı qarşılıqlı əlaqələrin təhlil edilməsinə, davamlı inkişafın ən mühüm amili kimi insan kapitalının toplanması və istifadəsinin tədqiq edilməsinə həsr olunmasıdır.*

***Açar sözlər:*** *davamlı inkişaf, kapitalın davamlılığı, insan kapitalı, innovativ iqtisadiyyat, bilik iqtisadiyyatı, institusional mühit*

## Giriş

Ən son texnologiyalara əsaslanan innovasiya iqtisadiyyatının formalaşması və inkişafı, informasiyanın yaradılması və yayılması, ətraf mühitin mühafizəsi davamlı inkişaf konsepsiyasının həyata keçirilməsini zəruri edir. Davamlı inkişaf cari dövrün ehtiyaclarına cavab verən, lakin gələcək nəsillərin öz ehtiyaclarını ödəmək qabiliyyətinə təhlükə yaratmayan inkişaf kimi başa düşülür [6]. Bu tip iqtisadiyyatın əsas məqsədi cəmiyyətin sosial-iqtisadi strukturunun bütün elementlərinin, o cümlədən insan resurslarının davamlı inkişafıdır.

1992-ci ildə Rio-de-Janeyroda BMT-nin himayəsi altında ətraf mühitin idarə edilməsi və inkişafı üzrə dünya konfransında davamlı inkişafın 27 prinsipini özündə əks etdirən bəyannamə qəbul edilmişdir. Bu konfransda insanların qayğısına qalmaq, onların təbiətlə harmoniyada sağlam və məhsuldar yaşamaq hüquqlarının təmin edilməsi başlıca prinsip elan edilmişdir.

Azərbaycan Respublikasında davamlı inkişafa nail olmaq zərurəti şübhə doğurmur. Məhz bu baxımdan ölkənin davamlı inkişaf modelinə keçilməsi haqqında qərar əsrin əvvəllərində qəbul

edilmişdir. Qeyd edək ki, Azərbaycan Respublikasında davamlı inkişaf ilk növbədə iqtisadi və ekoloji problemlərin həlli kontekstində nəzərdən keçirilir.

**Kapitalın davamlılığı elementləri**

Davamlı inkişafa nail olmaq davamlı kapitalın formalaşmasını və ya kapitalın davamlılığını nəzərdə tutur. Davamlı inkişaf mütəxəssisləri kapitalın müxtəlif növlərini nəzərdən keçirirlər. Apardığımız tədqiqata əsaslanaraq qeyd edək ki, davamlı inkişafı təmin edən kapitalın beş növünü fərqləndirmək olar:

1. maliyyə kapitalı. Maliyyə kapitalı (və ya maliyyə resursları) özü məhsuldar olmasa da, istehsalı təmin edir.
2. təbii kapital. Təbii kapitala təbii ehtiyatlar və qlobal ekosistem daxildir [5, s.12-13].
3. istehsal kapitalı. İstehsal və ya məhsuldar kapital əmtəə və xidmətlərin istehsalını təmin edir.
4. sosial kapital. Kapitalın ölçülməsinin ən çətin növü olan sosial kapital etimad və qarşılıqlı anlaşma elementlərini, ümumi dəyərləri və sosial əhəmiyyətli bilikləri əhatə edir [4].
5. insan kapitalı.

Müasir şəraitdə insan kapitalı, adətən, insan potensialı və ya insan resursları kimi adlandırılır. Bu anlayış, həmçinin fərdi qabiliyyətlər, biliklər, ixtisaslar, vaxt və enerji də daxil olmaqla, bir insana xas olan resurslar məcmusu kimi də müəyyən edilə bilər. İnsan kapitalı nəzəriyyəsi, ilk növbədə, fərdlərin öz bilik, bacarıq və potensiallarının istifadəsindən əldə etdikləri şəxsi iqtisadi faydanı əhatə edir. Belə ki, yüksək savadlı insanlar iqtisadi cəhətdən daha fəaldırlar və daha yüksək əmək haqqı qazanma imkanına malikdirlər. Bu nəzəriyyə XX əsrin 60-70-ci illərində Amerika iqtisadçılarının tədqiqatları nəticəsində yaranmışdır. İşçi qüvvəsinin formalaşması, insanın yaradıcılıq və faydalılıq imkanlarının artırılması bu nəzəriyyənin əsas istiqamətləri kimi müəyyənləşdirilmişdir. Müasir dövrdə təbii sərvətlər bolluğu dövlətin əsas göstəricisi sayılmır. Dünya Bankının apardığı araşdırmalar müəyyən etmişdir ki, ABŞ-ın milli sərvətinin 76 faizini insan kapitalı, 19 faizini istehsal, 5 faizini isə təbii resurslar təşkil edir. Avropa ölkələrində isə insan kapitalı 74 faiz, istehsal 24 faiz, təbii resurslar isə cəmi 2 faiz təşkil edir. Rusiyada insan kapitalı 50 faiz, istehsal 10 faiz, təbii sərvətlər isə 40 faiz səviyyəsindədir [8]. Azərbaycanda isə insan kapitalı 14 faiz, istehsal 23,6 faiz, təbii resurslar 54 faiz, xalis xarici aktivlərin payı isə 8,4 faizdir. Azərbaycanda milli sərvətin formalaşmasında insan kapitalının payının aşağı gəlirli ölkələrin göstəricisindən təxminən üç dəfə aşağı olmasının səbəblərinin müəyyənləşdirilməsi və insan kapitalının formalaşmasına təsir edən sahələrdəki real durumun qiymətləndirilməsi respublikamızda davamlı iqtisadi inkişafa mane olan məsələlərin müəyyənləşdirilməsi baxımından vacib faktordur [9].

Digər tərəfdən təhsilin iqtisadi artıma təsirinin təhlilinə həsr olunmuş tədqiqatlar göstərir ki, ümumilikdə insan kapitalı, xüsusən də təhsil sahəsi cəmiyyətdə iqtisadi rifahın artmasına ciddi təsir göstərir. OECD araşdırması göstərir ki, insan kapitalının 10% artması kapitalın gəlirliliyinin 4-7% artmasına səbəb olur [2, s.73].

Həyat səviyyəsinin öyrənilməsi Mərkəzinin (Kanada) icraçı direktoru Andrey Sharp insan kapitalını təhsil, səhiyyə, istehsal prosesində təlim, miqrasiya kimi sahələrə yönəldilmiş ümumi investisiya kimi şərh edir ki, bu da fərdin həm əmək bazarında, həm də qeyri-bazar fəaliyyətlərində məhsuldarlığını artırır [5, s.3].

Davamlı inkişaf istehsal və təbii kapitalın artırılmasını nəzərdə tutur. Lakin insan və sosial kapitalın inkişafı heç də az əhəmiyyət kəsb etmir. Məsələn; 1990-cı illərdə Dünya Bankı tərəfindən aparılan araşdırmalar göstərdi ki, bir çox yoxsul ölkələrdə qadınların təhsilinə qoyulan investisiya ən böyük gəlir gətirir və bu ölkələrdə insan kapitalını əhəmiyyətli dərəcədə artırır. Belə ki, qızlar və qadınlar üçün məktəbdə təhsil müddətinin artırılmasının uşaq xəstələnmə nisbətini azaldacağına dair kifayət qədər sübutlar var. Qadınların təhsilli olduqları və öz pullarını qazana bildikləri halında cəmiyyətin yüksək fayda əldə etmə imkanları artır. Bu zaman təkcə qadınların gəlir əldə etmə potensialı artmır, həmçinin onların ailənin ölçüsünü tənzimləmək, onun üzvlərinin qidalanmasını və sağlamlığını yaxşılaşdırmaq imkanları yaranır [4, s.6].

C.K. Atila Heyqs öz araşdırmalarında qeyd edir ki, “... insan kapitalı gələcəkdə sərvətin artımının

ən mühüm amili rolunu oynayacaqdır və hesab edir ki, insan kapitalının yığılması və ya toplanması uzunmüddətli müsbət nəticələr verir. İnsan kapitalına yönəldilən investisiyalar və bu yolla əldə edilən gəlirlər ilə bağlı qərarlar davamlı inkişafın təmin edilməsinin təzahürüdür. Cəmiyyət bugünkü inkişafın nəticələrini sabahın potensial xərcləri ilə ölçüb-biçməli olduğu kimi, fərdlər də bu gün insan kapitalına qoyulan sərmayənin gəlirliliyini onun gələcək gəlirləri ilə müqayisə etməlidirlər” [3, s. 2].

Müasir innovativ iqtisadiyyat şəraitində insan kapitalının inkişafının dialektikası elədir ki, onu bir tərəfdən davamlı inkişaf konsepsiyasının həyata keçirilməsində ən mühüm amil kimi nəzərdən keçirmək, digər tərəfdən insan kapitalının özünün davamlı inkişaf şərtləri və göstəricilərini öyrənmək lazımdır. Qeyd edək ki, məqaləmizin başlıca qayəsi məhz bu problemin araşdırılmasından ibarətdir.

Davamlı inkişafın başlıca amili olan insan kapitalı və onun toplanması texniki tərəqqinin davam etdirilməsinin əsas şərti, iqtisadi kəsirin azaldılması vasitəsi kimi, təbii ehtiyatların istehsal kapitalına daha optimal çevrilməsinin ilkin şərti kimi müəyyən edilir [7, s.5]. Digər tərəfdən davamlı inkişaf baxımından insan kapitalının miqrasiyasının rolu mühümdür. Belə ki, ali təhsilli kadrların xaricə axını, başqa sözlə desək, “beyin axını” ölkə iqtisadiyyatının davamlı inkişafının təmin edilməsinə mənfi təsir göstərir.

İnsan kapitalının davamlılığının öyrənilməsi təbii və iqtisadi kapital növləri ilə əlaqələrin müəyyən edilməsini nəzərdə tutur. Təbii resurslar və dünya ekosistemləri kimi müəyyən edilən təbii kapital ilə təhsil və səhiyyə sistemlərində formalaşan insan kapitalı arasında mürəkkəb ikitərəfli əlaqələr mövcuddur. İnsan kapitalının təbii kapitala göstərdiyi müsbət və mənfi təsirlərin bəzilərini nəzərdən keçirək:

- yüksək bilik və bacarıqlara malik olan insanoğlu əlavə resurslar tapmaqla, mövcud resurs bazasından yeni texnologiyalar hesabına daha yaxşı istifadə etməklə və qıt resursların əvəzedicilərini işləyib hazırlamaqla təbii kapitalın növlərini genişləndirə bilər;
- yüksək bilik və bacarıqlara malik olan insanoğlu dünya ekosistemlərini təhdid edən ekoloji problemlərin həlli üçün yeni texnologiyalar işləyib hazırlaya bilər;
- dolayısı ilə insan kapitalının toplanması (və ya yığılması) milli gəliri artırır ki, bu da bir çox hallarda hətta mövcud texnologiyalarla ekoloji problemlərin həlli üçün resursları təmin edir;
- əhali sayının sürətlə artdığı halda, onların daha çox bərpa olunmayan təbii sərvətlərdən istifadə etməsi nəticə etibarilə mövcud ehtiyatların tükənməsinə səbəb olacaqdır. Həmçinin havanın, suyun və torpağın çirklənməsi, bitki və heyvan növlərinin məhv olması nəticəsində ətraf mühitə təzyiqin artması mümkündür.

Təbii kapital insan kapitalının təkrar istehsalının əvəzsiz şərtidir. Belə ki:

- təbii resurslar insanoğlunun həyat və mənzil təminatı üçün vacibdir;
- ekosistemlər planetdə həyatın davam etdirilməsi və insan sağlamlığı üçün vacibdir.

İnsan kapitalının əsas göstəriciləri - səhiyyə və təhsil təbii və insan kapitalı arasındakı əlaqəni yaxşı əks etdirir. Məsələn, günəş enerjisi sahəsində təhsil kapitalının toplanması bu enerji mənbəyini daha sərfəli edə bilər, karbondioksid ($CO_2$) tullantılarının və qlobal istiləşmə risklərinin azaldılmasına töhfə verən qalıq yanacaqların istifadəsinin aşağı salınmasına imkan yaradar.

Fiziki aktivlər (maşın və avadanlıq, binalar, mənzil, uzunmüddətli istehlak malları) kimi müəyyən edilən iqtisadi kapital ilə insan kapitalı arasında da güclü qarşılıqlı asılılıq mövcuddur. İnsan kapitalının fiziki kapitala təsiri özünü aşağıdakı istiqamətlərdə təzahür etdirir:

- yüksək bilik və bacarıqlara malik olan insanoğlunun əsas vəsaitlərin (və ya əmtəələrin) keyfiyyətini yüksəltmək üçün mütərəqqi texnologiyalar hazırlamaq qabiliyyətinin olması;
- insan kapitalının toplanmasının milli gəliri, son nəticədə, investisiya mallarına olan tələbi artırması;
- sağlam formada böyüməkdə olan əhalinin daha çox əmtəə kapitalı və ya əmtəə istehsal edə bilməsi;
- təhsil və səhiyyə sferasında fiziki kapitalın insan kapitalına müsbət təsir göstərmək imkanının olması;

• tibbi məhsullarda təcəssüm olunanlar yeni texnologiyaların – yeni tibbi avadanlıqların (məsələn, maqnit rezonans görüntüləmə) insanoğlunun sağlamlıq vəziyyətini yaxşılaşdırması və gözlənilən ömür müddətini artırması.

Səhiyyə və təhsil insan kapitalının göstəriciləri kimi iqtisadi və insan kapitalı arasındakı əlaqəni aydın şəkildə göstərir. Məsələn, kompüter elmi sahəsində təhsil kapitalının (və ya kapitalın) toplanması daha çox iqtisadi kapitalın istehsalına kömək edə bilər. Çünki müasir dövrdə kompüter texnologiyası məhsuldarlığın artmasına şərait yaradır.

**Azərbaycanda insan kapitalının inkişafı**

Azərbaycan Respublikasının iqtisadi sisteminə davamlı inkişaf nəzəriyyəsi kontekstindən yanaşdıqda, qeyd etmək olar ki, respublikamızda davamlı inkişafa nail olmaq istiqamətində addımlar atılmaqdadır.

Azərbaycan Respublikasında davamlı inkişafın başlıca təzahür meyarı kimi qəbul edilən insan kapitalının inkişafı aşağıdakı göstəricilərlə dəyərləndirilə bilər:

• *Əhali sayı.* Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına əsasən 01 yanvar 2016-cı il tarixində əhali sayı 9705,6 min nəfər olan respublikamızda 01 yanvar 2022-ci il tarixə əhali sayı 1,1 dəfə artaraq 10156,4 min nəfər olmuşdur [1, s.56];

• *Əmək qabiliyyətli əhali sayı, məşğulluq və işsizlik səviyyəsi.* Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına əsasən əmək qabiliyyətli əhalinin sayında, məşğulluq səviyyəsində və işsizlik nisbətində artım müşahidə olunmuşdur. Belə ki, əmək qabiliyyətli əhalinin sayı (kişilər üçün 15-64,5 yaş, qadınlar üçün 15-61,5 yaş) 2009-cu ildə 6060,9 min nəfər olduğu halda, bu göstərici 1,2 dəfə artaraq 01 yanvar 2022-ci il tarixində 6984,5 min nəfər olmuşdur. Məşğulluq səviyyəsinə gəldikdə isə, 2010-cu ildə məşğul əhalinin sayı 4329,1 min nəfər olduğu halda, bu rəqəm 2021-ci ildə 1,15 dəfə artaraq 4988,2 min nəfər olmuşdur. Qeyd olunan dövrdə işsiz əhali sayı müvafiq olaraq 258,3 min nəfər və 315,7 min nəfər olmuşdur. Başqa sözlə desək, respublikamızda 2010-cu illə müqayisədə 2021-ci ildə işsiz əhali sayı 1,22 dəfə artmışdır. Digər tərəfdən daha dərin təhlil apardıqda görürük ki, əmək qabiliyyətli əhali sayındakı artım tempi nəticəsində iqtisadi fəal əhalinin ümumi sayında məşğul əhalinin xüsusi çəkisi 2010-cu illə müqayisədə 2021-ci ildə (94,4% - 94,0%) 0,4% azalmış, məhz bu səbəbdən müqayisə olunan dövrdə işsizlik səviyyəsi 0,4% artmışdır. Yəni 2010-cu ildə 5,6% olan işsizlik səviyyəsi 2021-ci ildə 6% həcmində olmuşdur. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, 2021-ci ildə iqtisadiyyatda işləyənlərin 16,9%-i ali təhsilli, 11,1%-i orta ixtisas təhsilli, 5,6%-i peşə təhsilli, 59,7%-i tam orta təhsilli və 6,02%-i ümumi orta təhsilli olmuşdur [1, s.83-112];

• *Beyin axını.* Mənfi tendensiya kimi regionlardan Bakı şəhərinə və digər böyük şəhərlərə (məsələn; Naxçıvan, Gəncə, Sumqayıt və s. kimi şəhərlərə) "beyin axını"nı və ixtisaslı kadrlar uğrunda gedən rəqabəti göstərmək olar;

• *Sosial xidmətlər.* Təhsil və səhiyyə sahələrində xidmətlərin keyfiyyət və əlçatanlığının qənaətbəxş olması. Məlumat üçün bildirək ki, Azərbaycanda 2005/2006-cı tədris ilinin əvvəlində 107 peşə və 60 orta ixtisas təhsil müəssisəsi fəaliyyət göstərirdi ki, bu müəssisələrdə 80089 nəfər (22189 nəfər peşə təhsili, 57900 nəfər orta ixtisas təhsili) təhsil alırdı. 2021/2022-ci tədris ilinin əvvəlində peşə təhsili müəssisələrinin sayı 99-a, orta ixtisas təhsili müəssisələrinin sayı isə 59-a düşmüşdür. 2021/2022-ci tədris ilində peşə və orta ixtisas təhsili müəssisələrinin sayının azalmasına baxmayaraq qeyd olunan tədris ilində bu müəssisələrdə təhsil alanların ümumi sayında 7,3 faizlik artım müşahidə olunmuş, təhsil alanların ümumi sayı 85849 nəfər (22749 nəfər peşə təhsili, 63100 nəfər orta ixtisas təhsili) olmuşdur. Fikrimizcə, qeyd olunan təhsil müəssisələri aztəminatlı ailələrdən olan gənclərin dəstəklənməsi və onların maarifləndirilməsi kimi mühüm sosial funksiyanı yerinə yetirir. Məhz bu baxımdan bu təhsil müəssisələrinin inkişaf etdirilməsinə laqeyd yanaşmaq olmaz [1, s.212].

Son 17 il ərzində Azərbaycanda ali təhsil müəssisələri sürətlə inkişaf etməkdə və dünya təhsil sisteminin mövcud standartlarına uyğunlaşdırılmaqdadır. Belə ki, əgər 2005/2006-cı tədris ilinin əvvəlində Azərbaycanda 47 ali məktəb var idisə, 2021/2022-ci tədris ilində onların sayı 51-ə yüksəlmişdir. Bu dövrdə tələbələrin sayı müvafiq olaraq 129,9 min nəfərdən (2005/2006-cı tədris ili) 212,2 min nəfərə (2021/2022-ci tədris ili) artmışdır [1, s.215]. Qeyd edək ki, təhsil sahəsində xidmətlərin keyfiyyət və əlçatanlığının yüksəldilməsi istiqamətində görülən işlərə baxmayaraq, ümumilikdə təhsil sisteminin başlıca problemi ali təhsil müəssisələrinin məzunlarının öz ixtisasları

üzrə işə düzəlməsində qarşılaşdıqları çətinliklər və respublikanın ayrı-ayrı regionlarında təhsil xidməti sektorunun inkişafındakı ciddi fərqlərdir.

Azərbaycan Respublikasında səhiyyə sektorunun başlıca problemi ondan ibarətdir ki, həkimlərin, xəstəxana və xəstəxana çarpayılarının sayının artması ilə bərabər bir çox xəstəlik növlərinin artması müşahidə olunur, başqa sözlə desək, respublika əhalisinin sağlamlıq durumu yaxşılaşmır (cədvəl 1).

***Cədvəl 1.* Xəstəlik sinifləri üzrə əhalinin xəstələnməsi**

*(ilk dəfə qoyulmuş diaqnozla qeydə alınmış xəstələr)*

| | 2005 | 2010 | 2015 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| | **Əhalinin hər 10000 nəfərinə düşən** | | | | |
| **Xəstəliklərin sayı, cəmi:** | **1794,5** | **1796,0** | **1914,2** | **1805,7** | **2215,2** |
| O cümlədən: | | | | | |
| Bəzi infeksion və parazitar xəstəliklər | 154,3 | 144,9 | 120,6 | 168,8 | 207,7 |
| Yenitörəmələr | 8,8 | 10,1 | 11,7 | 12,1 | 14,8 |
| Qan və qanyaradıcı orqanların xəstəlikləri və immun mexanizmin prosesə cəlb olunması ilə gedən ayrı-ayrı pozuntular | 45,4 | 50,6 | 67,2 | 65,2 | 63,2 |
| Endokrin sisteminin xəstəlikləri, maddələr mübadiləsi və qidalanma pozuntuları | 40,8 | 47,6 | 56,0 | 45,2 | 51,7 |
| Psixi pozuntular və davranış pozuntuları | 13,5 | 12,5 | 8,1 | 12,4 | 14,4 |
| Sinir sistemi xəstəlikləri | 58,2 | 60,2 | 76,6 | 62,3 | 87,8 |
| Göz və gözün əlavə aparatının xəstəliyi | 35,0 | 47,7 | 65,3 | 72,7 | 103,0 |
| Qulağın və məməyəbənzər çıxıntının xəstəliyi | 34,6 | 48,3 | 44,4 | 41,5 | 56,4 |
| Qan dövranı sisteminin xəstəlikləri | 140,0 | 127,3 | 140,9 | 148,9 | 166,9 |
| Tənəffüs orqanlarının xəstəlikləri | 808,0 | 770,5 | 789,8 | 679,2 | 890,9 |
| Həzm sisteminin xəstəlikləri | 127,9 | 128,6 | 163,9 | 151,8 | 174,0 |
| Dəri və dərialtı toxumanın xəstəlikləri | 52,8 | 58,8 | 45,8 | 38,9 | 59,5 |
| Sümük-əzələ sistemi və birləşdirici toxumaların xəstəlikləri | 18,8 | 21,0 | 29,7 | 35,9 | 41,8 |
| Sidik-cinsiyyət sisteminin xəstəlikləri | 70,4 | 81,4 | 103,3 | 99,7 | 104,8 |
| Hamiləlik, doğuş və zahılıq dövrü | 76,2 | 158,8 | 192,6 | 149,1 | 170,3 |
| Perinatal dövrdə meydana çıxan xüsusi hallar | 725,7 | 495,6 | 450,9 | 650,8 | 723,3 |
| Anadangəlmə anomaliyalar (inkişaf qüsurları), deformasiyalar və xromosom pozuntuları | 3,2 | 2,9 | 3,5 | 2,4 | 3,0 |
| Digər rublikalarda təsnif olunmayan klinik və laborator tədqiqatlar zamanı aşkar edilən simptomlar, nişanələr və normadan kənara çıxma halları | 11,8 | 12,5 | 9,7 | 9,7 | 13,9 |
| Travmalar, zəhərlənmələr və xarici səbəblərin təsirinin bəzi digər nəticələri | 138,6 | 114,0 | 115,7 | 111,8 | 108,9 |

*Mənbə: [1, s.249]*

Cədvəl 1-in 2005-2021-ci illəri əhatə edən məlumatlarından göründüyü kimi, respublika əhalisinin xəstələnmə səviyyəsinin azalması yalnız perinatal dövrdə meydana çıxan xüsusi hallar, anadangəlmə anomaliyalar (inkişaf qüsurları), deformasiyalar və xromosom pozuntuları, travmalar, zəhərlənmələr və xarici səbəblərin təsirinin bəzi digər nəticələri kimi xəstəlik siniflərində müşahidə olunmuşdur. Xəstəlik sinifləri üzrə əhalinin xəstələnməsi cədvəlinə nəzər yetirdikdə, 2005-ci illə müqayisədə xəstələnmələrin artmasında tərəddüdlərin (13 xəstəlik sinfində) olması görülür. Ümumiyyətlə, 2005-ci illə müqayisədə 2021-ci ildə əhalinin hər 10000 nəfərinə düşən 13 xəstəlik sinfi üzrə xəstələnmə səviyyəsi arasındakı artım tendensiyası 1,1 – 2,9 dəfə intervalındadır. Müqayisə edilən dövrdə əhalinin hər 10000 nəfərinə düşən xəstəliklərin sayında 1,2 dəfə (23%-lik artım) artım müşahidə olunmuşdur. Aparılan araşdırmaya əsasən bir faktı qeyd etmək lazımdır ki, əhalinin sağlamlığı insan kapitalının ən vacib komponenti olub onun məhsuldarlığını artırır. Əhalinin sağlamlığı həyat keyfiyyətinin mühüm meyarı kimi onun müddətini artıran amildir.

Azərbaycan Respublikasının dövlət sənədlərində davamlı inkişafın təmin edilməsi üçün insan kapitalının əhəmiyyəti qeyd olunmuşdur. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də insan kapitalının rolunun gücləndirilməsi iqtisadi inkişafın əsas amili kimi göstərilərək qeyd edilir: "Gələcək illərdə dünyada artan rəqabətə hazır olmaq üçün hər bir ölkənin prioriteti yüksək rəqabətli insan kapitalını formalaşdırmaqdır. Bunun üçün müasir təhsil, innovasiyaları təşviq edən münbit şərait və insanların sağlamlığı əsas şərtdir" [10]. Azərbaycan Respublikasının 2030-cu ilə qədər dövrünü əhatə edən sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərə əsaslanaraq qeyd edə bilərik ki, elm, təhsil, texnologiya və innovasiya sahəsində insan resurslarının inkişafı probleminin həlli aşağıdakı fəaliyyətlərin həyata keçirilməsini zəruri edir:

1. iqtisadiyyatın innovativ inkişafını şərtləndirən sahələrinə, o cümlədən bu inkişafı təmin edən təhsil və elmə ən ixtisaslı mütəxəssislərin, fəal sahibkarların, yaradıcı gənclərin axını üçün səmərəli maddi və mənəvi stimulların yaradılması;
2. əhalinin innovativ məhsul və texnologiyalara həssaslığının artırılması.

Beş istiqaməti özündə əks etdirən Milli Prioritetlərdə yeniliklərə, texnologiyaların sürətlə yenilənməsinə hazır insan kapitalının yaradılması vəzifəsi ön plana çıxır. Fikrimizcə, yeniliklərə, texnologiyaların sürətlə yenilənməsinə hazır insan kapitalı aşağıda qeyd olunmuş kompetensiyalara sahib olmalıdır:

- tənqidi düşünmə qabiliyyətinə;
- davamlı təhsilə, daimi təkmilləşdirməyə, yenidən hazırlıq və özünütəlimə, peşəkar mobilliyə, yeniliyə can atmaq bacarığı və hazırlığına;
- ağıllı risk etmək, güclü rəqabət mühitində işləməyə hazır olmaq qabiliyyəti və hazırlığına;
- müstəqil işləmək bacarığına və komanda ilə işləməyə hazır olmaq qabiliyyətinə,
- yaradıcılıq və təşəbbüskarlıq ruhuna;
- qloballaşma proseslərində səmərəli iştirak üçün ünsiyyət vasitəsi kimi xarici dilləri bilmək, xüsusən, gündəlik həyatda, işgüzar və peşəkar səviyyədə ingilis dilində sərbəst ünsiyyət qurmaq bacarığına.

Qeyd edək ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi insan kapitalının səmərəliliyinin artırılması sahəsində irəliləyişləri əks etdirir. Bu sənəddə rahat sosial şəraitin yaradılması nəzərdə tutulur, iqtisadi institutların liberallaşdırılması, biznes mühitinin rəqabət qabiliyyətinin gücləndirilməsinin zəruriliyi vurğulanır. Bu tədbirlər məcmusu ən son texnologiyaların sürətlə yayılmasını, yüksək texnologiyalı sahələrin inkişafını və Azərbaycan istehsalçısının dünya bazarında mövqeyinin yaxşılaşdırılmasını təmin etməlidir. Nəhayət, orta hesabla ildə 7-8% təşkil edən uzunmüddətli davamlı iqtisadi artım üçün şərait yaratmalıdır.

Müasir dövrdə Azərbaycan iqtisadiyyatının mühüm problemlərindən biri təkcə insan kapitalının toplanması və keyfiyyətinin yaxşılaşdırılması deyil, həm də ondan səmərəli istifadədir. Respublika səviyyəsində tərəfimizdən aparılan insan kapitalının geniş miqyaslı tədqiqatı əsasında belə bir nəticəyə

gəlinmişdir ki, ölkənin iqtisadi inkişafı üçün insan kapitalının toplanmasının əhəmiyyəti durmadan artır. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan iqtisadiyyatının malik olduğu insan kapitalından kifayət qədər səmərəli istifadə olunmur. Belə ki, Azərbaycanda insan resurslarından istifadənin potensialı ilə müşahidə olunan səmərəliliyi arasında böyük uçurum var. Ölkəmizdə insan kapitalının iqtisadi gəliri kifayət qədər yüksək olsa da, ona yatırılan sərmayənin əhəmiyyətli hissəsi tələb olunmadığından ondan heç bir səmərə əldə edilməmişdir. Nəticədə insan kapitalının formalaşmasına daxil olmuş ictimai və şəxsi resurslar böyük ölçüdə devalvasiyaya uğrayır. İnsan kapitalının əhəmiyyətli hissəsinin real istifadəsiz qalması cəmiyyətin rifahının yüksəldilməsi mənbəsi hesab edilən insan kapitalına ayrılan vəsaitin qeyri-səmərəli xərclənməsinə səbəb olur.

Qeyd edək ki, Azərbaycanda insan kapitalının toplanması istiqamətində atılan addımlara baxmayaraq, insan kapitalı bilik iqtisadiyyatına keçid amili kimi mühüm rolunu yerinə yetirməyə də bilər. Məhz bu səbəbdən yüksək məhsuldar bilik iqtisadiyyatı əvəzinə, tələb olunmayan bilik iqtisadiyyatı formalaşa bilər. Fikrimizcə, bu təhlükənin qarşısını almaq üçün həm təhsil sahəsində, həm də əmək bazarında inkişaf etmiş və fəaliyyət göstərən mövcud təhrif edilmiş həvəsləndirmə sisteminin yenidən konfiqurasiyasını təmin etmək məqsədilə ciddi institusional dəyişikliklərə ehtiyac vardır.

Yuxarıda qeyd etdiklərimiz zamanı qarşımızda belə bir sual yaranır: Azərbaycanda insan kapitalından istifadənin səmərəliliyini artırmaq və onun davamlılığını gücləndirmək yolları hansılardır? Apardığımız araşdırma nəticəsində qeyd olunan suala cavab verməyə çalışmışıq. İlk əvvəl onu qeyd edək ki, apardığımız araşdırmanın obyekti institusional mühit, araşdırmanın predmeti isə institusional mühitin müxtəlif seqmentlərinin (iqtisadi münasibətlər, mədəni normalar, ailə dəyərləri və s.) insan kapitalının inkişafına təsirinin xarakteridir.

Araşdırma prosesi Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhəri və 7 inzibati-ərazi vahidlərində aparılmış, 100 mütəxəssis və ya ekspertlə sorğu keçirilmişdir. 100 mütəxəssis və ya ekspertdən 38 nəfəri peşə təhsili və təlimi sisteminin işçiləri, 32 nəfəri iqtisadiyyatın real sektorunun nümayəndələri, 8 nəfəri dövlət və idarəetmə orqanlarının nümayəndələri, 19 nəfəri elm sahəsinin əməkdaşları, 3 nəfər isə ailə təsərrüfatı nümayəndəsidir. Sorğu prosesinə "Gəmiqaya Holdinq" MMC, "Ləzzət Qida Sənaye" MMC, Naxçıvan Texniki Kolleci, Naxçıvan Dövlət Universiteti, Naxçıvan şəhər İcra Hakimiyyəti və s. cəlb olunmuşdur.

Apardığımız tədqiqat göstərmişdir ki, iqtisadi fəaliyyət prosesində insan kapitalının inkişafına ən çox istehsal mühiti, virtual məkan (internet, sosial şəbəkələr), təhsil məkanı, mədəni mühit təsir edir (şəkil 1).




***Şəkil 1***. *İnsan kapitalının inkişafına təsir edən amillər*

Tədqiqatın nəticələrindən göründüyü kimi, sosial mühit insan kapitalının inkişafına və innovativ xüsusiyyətlərin formalaşmasına açıq-aydın qeyri-kafi təsir göstərir. Bu, hətta sosial mühitin ən təsirli elementinə - iqtisadi münasibətlər sisteminə də aiddir.

Apardığımız tədqiqat nəticəsində belə bir qənaətə gəlmişik ki, insan potensialının idarə edilməsi mexanizmlərini təkmilləşdirmək və genişləndirmək üçün fərdi (və ya şəxsiyyəti) kapital sahibi kimi nəzərdən keçirmək lazımdır. Belə ki, insan kapitalının inkişafı fərdin (və ya şəxsiyyətin) öz maliyyə və vaxt resurslarını bu istiqamətə investisiya etmək qərarından asılıdır. Fikirmizcə, regionun iqtisadi inkişafında bir sərmayəçi kimi fiziki şəxsin mövqeyini möhkəmləndirmək üçün təsərrüfat subyektlərinin və fiziki şəxslərin sərmayə qoyuluşlarının maliyyə nəticələrini nəzərə almaqla onların maraqlarının balansının qorunmasına əsaslanan idarəetməyə keçmək lazımdır. Məqaləmizdə bu müddəanın həyata keçirilməsi mexanizmi kimi peşə təhsilinin inkişafı, o cümlədən “texnoloji platformalar” institutundan istifadə, kiçik innovativ sahibkarlığın inkişafı, innovativ infrastrukturun inkişafı üzrə kompleks regional proqramların işlənib hazırlanması və həyata keçirilməsi, universitetlərdə və elmi təşkilatlarda iqtisadi cəmiyyətlərin yaradılması təklif olunur.

**Nəticə**

Aparılan araşdırmanın nəticəsi olaraq vurğulayaq ki, sosial yönümlü innovativ inkişafa keçid kontekstində davamlı iqtisadi inkişafı təmin etmək üçün balanslaşdırılmış əmək bazarı, ölkə iqtisadiyyatının tələb etdiyi təhsilə əhalinin stimullaşdırılmasının səmərəli mexanizmləri mühüm əhəmiyyət kəsb edəcəkdir.

Araşdırmanın nəticəsi olaraq belə bir qənaətə gəlmişik ki, insan kapitalının davamlı inkişafını, eləcə də ondan səmərəli istifadəni təmin edən ən mühüm amillər, ilk növbədə, aşağıdakılardır:

1. cəmiyyətin sosial-iqtisadi inkişafında insan kapitalının aparıcı rolunun etiraf və qəbul edilməsi;
2. iqtisadi və sosial proseslərin tsiklik inkişafı nəzərə alınmaqla ölkənin və onun regionlarının davamlı sosial-iqtisadi inkişafı;
3. hamının və hər kəsin biliyə, təhsilə, mədəniyyətə, tibbə, idmana, milli və dünya mənəvi dəyərlərinə bərabər çıxışı üçün şəraitin yaradılması;
4. insan kapitalının inkişafı üzrə dövlət siyasətinin sosial-iqtisadi inkişafın dövlət tənzimlənməsinin digər sahələri ilə uyğunlaşdırılması;
5. insanın sistemli inkişafına, insan kapitalının innovativ xüsusiyyətlərinin formalaşmasına şərait yaradan institusional mühitin təkmilləşdirilməsi;
6. insanların yaşadığı yerlərin sanitar vəziyyətinin yaxşılaşdırılması, ekoloji təhlükəsizliyin təmin edilməsi;
7. dövlətin sosial siyasəti sahəsində ifrat paternalizmdən ifrat fərdiyyətçiliyə keçidin nəticələrinin yumşaldılması;
8. Azərbaycan Respublikası əhalisinin həyat səviyyəsinin və keyfiyyətinin göstəricilərinin artırılması.

## ƏDƏBİYYAT


1. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə, Bakı: 2022, 748 səh.
2. Марыганова Е.А., Дмитриевская Н.А. Человеческий капитал как фактор устойчивого развития. Экономика, статистика и информатика, № 6, 2013, стр. 73-78.
3. Anttila-Hughes J.K. Essays on Sustainable Development and Human Capital. Columbia University, 2012.
4. Goodwin N.R. Five Kinds of Capital: Useful Concepts for Sustainable Development. G.DAE Working Paper No. 0307.
5. Sharp A. The development of Indicators for Human Capital Sustainability. McGill University, Montreal, 2001.
6. Sustainable Development indicators: Human Capital and accounting. The Academy of Economic

Studies Bucharst.
7. Tisdell C. Sustainable development of human resource capital. The University of Queensland, Brisbane, Australia.
8. http://anl.az/down/meqale/azerbaycan/azerbaycan_noyabr2009/96159.htm
9. https://bakuresearchinstitute.org/on-human-capital-in-azerbaijan-2/
10. https://president.az/az/articles/view/50474

## SUMMARY

**Jeyhun Mahmudov**

## HUMAN CAPITAL OF THE AZERBAIJANI ECONOMY AS A FACTOR OF SUSTAINABLE DEVELOPMENT

**The main purpose of the study** is to consider the process of human capital formation as the most important factor in the implementation of the concept of sustainable development, to study the conditions and indicators of sustainable development of human capital itself, to assess the real situation in the areas affecting the formation of human capital.

**The research** work has been carried out on the basis of such research methods as scientific abstraction, statistical survey, analysis and synthesis**.**

**Research result.** As a result of the study in this article, the following conclusions have been made:

- making institutional changes in order to renew the existing distorted incentive system that has developed and operates both in the field of education and in the labor market;

-development and implementation of comprehensive regional programs for the development of vocational education, the use of the institution of "technological platforms", the development of small innovative businesses, the development of innovative infrastructure.

**Research limitations:** the multiplicity of factors affecting the formation of human capital and, therefore, difficulties in its measurability.

**Practical significance of the study:** it can play an important role in improving the scientific and practical knowledge of specialists conducting research and working in this field in the direction of the formation and development of human capital.

**The scientific novelty and originality of the research** lies in the fact that it is devoted to the study of the concept of sustainable development and the factors of its achievement, the analysis of various types of capital that ensure sustainable development and the interactions between them, the study of the accumulation and use of human capital as the most important factor of sustainable development.

***Key words:*** *sustainable development, sustainability of capital, human capital, innovative economy, knowledge economy, institutional environment*

**РЕЗЮМЕ**

**Джейхун Махмудов**

**ЧЕЛОВЕЧЕСКИЙ КАПИТАЛ АЗЕРБАЙДЖАНСКОЙ ЭКОНОМИКИ КАК ФАКТОР УСТОЙЧИВОГО РАЗВИТИЯ**

**Основной целью** исследования является рассмотрение процесса формирования человеческого капитала как важнейшего фактора реализации концепции устойчивого развития, изучение условий и показателей самого устойчивого развития человеческого капитала, оценка реальной ситуации в сферах, влияющих на формирование человеческого капитала.

**Исследовательская работа** выполнялась на основе таких методов исследования, как научная абстракция, статистический анализ, анализ и синтез.

**Результат исследования.** В результате исследования в нашей статье были сделаны следующие выводы:

- внесение институциональных изменений с целью обновления существующей искаженной системы стимулирования, которая сложилась и функционирует как в сфере образования, так и на рынке труда;
- разработка и реализация комплексных региональных программ по развитию профессионального образования, использованию института "технологические платформы", развитию малого инновационного предпринимательства, развитию инновационной инфраструктуры.

**Ограничения исследования:** множество факторов, влияющих на формирование человеческого капитала и, следовательно, трудности его измерения.

**Практическая значимость** исследования: оно может сыграть важную роль в совершенствовании научных и практических знаний специалистов, работающих в данной области, которые проводят исследования в направлении формирования и развития человеческого капитала.

**Научная новизна** и оригинальность исследования заключается в его посвященности концепции устойчивого развития и изучению факторов его достижения, анализу различных видов капиталов, обеспечивающих устойчивое развитие, и взаимосвязей между ними, изучению сбора и использования. человеческого капитала как важнейшего фактора устойчивого развития.

***Ключевые слова:*** *устойчивое развитие, устойчивость капитала, человеческий капитал, инновационная экономика, экономика знаний, институциональная среда.*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 116-121**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 116-121**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 116-121**

**CAVADXAN QASIMOV**
*cavadxan.yusifoglu@ndu.edu.az*
**TƏHMİNƏ NAĞIYEVA**
*tahmina_nagiyeva@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 338.46:658.7**

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ TEXNOPARK QURUCULUĞUNUN İQTİSADİ VƏ SOSİAL ƏHƏMİYYƏTİ

*Məqalədə yeni iqtisadi şəraitdə Texnologiyalar Parkının elmi, iqtisadi və sosial mahiyyətindən bəhs olunmuşdur. Göstərilmişdir ki, hazırkı mərhələdə, ölkələrin davamlı milli iqtisadi inkişaf proseslərinin əsas hərəkətverici qüvvəsini təşkil edən amillər içərisində texnoparklar mühüm əhəmiyyətə malik olmaqdadır. Uzunmüddətli iqtisadi prioritetlərin həyata keçirilməsində, onun elmi cəhətdən əsaslandırılmasında və istehsalatla düzgün əlaqələndirilməsində Texnopark mühitinə xas olan idarəetmənin zəruri əhəmiyyəti vardır. Belə bir vəziyyətdə Naxçıvan Dövlət Universitetində tikintisi davam etdirilən Texnologiyalar Parkının əhəmiyyətini qeyd etmək yerinə düşər. İki hektar sahədə inşa olunan texnopark özündə xarici rezidentlərlə əlaqələr, Sənaye Park və Məhəllələri üçün ofislər, səmərəli biznes mühitinin qorunması məqsədilə təkliflərin işlənməsi üçün şərait, digər istehsal müəssisələri ilə əməkdaşlıqların qurulması üçün təşkilati tədbirlər, konsaltinq xidmətlərin göstərilməsi üçün auditoriyaları birləşdirməkdədir. Eyni zamanda, Texnoparkda səmərəli elmi araşdırmalar və təsərrüfatçılıq imkanları üçün potensialın təmin olunması nəzərdə tutulmuşdur ki, bu da məşğulluq əhəmiyyətli göstəricilər vəd etməkdədir.*

***Açar sözlər:*** *Texnologiyalar Parkı, elmi araşdırmalar, konsaltinq xidmətlər, biznes inqubatorları, Sənaye Parkları, Sənaye Məhəllələri, innovasiya mərkəzləri, Elm parkları və s.*

Yeni iqtisadi inkişaf mərhələsində mühüm əhəmiyyətə malik olan idarəetmə strukturlarından birini də texnoparklar təşkil etməkdədir. Texnopark özünün iqtisadi, sosial və həmçinin hüquqi mahiyyətinə görə səmərəli fəaliyyətin məcmusu olmaqla, milli iqtisadiyyatların inkişaf göstəricilərindən birinə çevrilmişdir. İnkişaf etmiş ölkələrin təcrübəsinə diqqət etdikdə aydın olur ki, iqtisadi fəaliyyətin bütün sahələrində gəlir gətirən istiqamətlər müəyyən olunmuş və bu sahələr içərisində texnoparklar aktual amil olaraq çıxış etməkdədir. Yəni texnopark, yüksək iqtisadi səmərəsi olan mexanizmə çevrilmişdir. Bu sahə ilə bağlı araşdırmalara diqqət etdikdə aydın olur ki, texnopark elmi və nəzəri baxımdan araşdırılması və iqtisadi səmərəliliyi önə çıxarılması zəruri olan idarəetmə proseslərinin məcmusu olaraq da çıxış etməkdədir. Belə ki, bu anlayış, istər hər bir ölkənin milli iqtisadiyyatında, istərsə də bütövlükdə, qloballaşan iqtisadiyyat üçün zəruri mahiyyət kəsb etməkdədir.

Texnoparklar barəsində aparılan araşdırmalar onun çoxistiqamətli mənalandırılması ilə nəticələnmişdir. Bu sahədə Finlandiya alimi Mervi Kekinin yanaşması diqqəti çəkir. Alim ixtisaslaşmasına və bu sahə üzrə şaxələndirilmiş elmi nəticələrinə görə Otaniem texnoparkının qurucusu hesab olunur. O, belə qənaətə gəlir ki, Texnoparklar sadəcə olaraq, məkan olmayıb, eyni zamanda, proses olaraq tamamlanır. İqtisadi və sosial mahiyyətinə görə Texnoparkların əsas hədəfi, həm də müəssisələrə dəstək olmaqdır. Buradan belə qənaətə gəlmək olur ki, Texnopark istehsal, bölgü, mübadilə və istehlak fazalarından ibarət olmaqla, bütünlükdə, cəmiyyət üzvlərinin maraq və mənafelərinin qarşılanması məqsədilə, dövlətin iqtisadi mexnizmlərinin əlaqəliliyinin, ardıcıllığının və məntiqə söykənən nəticəsinin zəruri vasitələrinə aid oluna bilir.

Bu sahədəki araşdırmalarda Pertti Xuuskonenin tədqiqatları da əhəmiyyətə malik olması ilə önəmlidir. O, Texnopark müəssisəsinin rəhbəridir. Onun yanaşmasına əsasən siyasətlə məşğul olanlar yaraşıqlı binaların tarixi açılışını bəyənir, lakin həmin binanı texnopark kimi qəbul etmirlər. Belə düşünür ki, Texnoparklar – həmin binaların daxili strukturu olmaqdadır. Əksər texnoparklar tam olaraq könüloxşar deyillər, lakin onların daxili yalnız olduq qədər füsunkardır və onların yüksək nəticələri mövcuddur. Həmin texnoparkların obyektləri ilə yanaşı, eyni zamanda onların nəticələri və xidmətləri alıcılar vasitəsilə tələb olunur.

Texnopark barəsində araşdırmalar apararkən Beynəlxalq Elm Parkları və İnnovasiya İstiqamətləri Birliyinin əsaslandırması da diqqətimizi çəkir. Həmin yanaşmaya əsasən istər elm, istərsə də texnologiya parkları, çevik və yenilikçi idarəetmə mexanizmləri, layihələr, böyük əlavə dəyərli proseslər mühitində bir sıra hədəflərə istiqamət almış olurlar:

***Cədvəl 1***

**Texnologiyalar Parkının hədəf olaraq götürmüş olduğu istiqamətlər**

Universitetlər ilə firmalar arasındakı informasiya və texnologiya axınını hərəkətə gətirmək və idarə etmək

Firmalar və tədqiqat institutları qədər insanlara da (sahibkarlar və "informasiya işçiləri") diqqət yetirmək

Dünyada minlərlə innovasiya firmalarını və Araşdırma İnstitutunu bir araya gətirən qlobal bir şəbəkə içində fəaliyyət göstərərək oturaq firmaların beynəlxalq səviyyəyə çatmasını asanlaşdırmaq

İnkubator və "spin-off" mexanizmləri ilə yeni müəssisələrin qurulmasını asanlaşdırmaq və kiçik və orta müəssisələrin böyümələrini sürətləndirmək

İnnovasiya və keyfiyyətə bağlı dəyərlərin inkişafına kömək edəcək mühit yaratmaq

İnkubator və "spin-off" mexanizmləri ilə yeni müəssisələrin qurulmasını asanlaşdırmaq və kiçik və orta müəssisələrin böyümələrini sürətləndirmək

Firmalar, sahibkarlar və mühəndislərarası ünsiyyəti asanlaşdırmaq

Dünyada minlərlə innovasiya firmalarını və Araşdırma İnstitutunu bir araya gətirən qlobal bir şəbəkə içində fəaliyyət göstərərək oturaq firmaların beynəlxalq səviyyəyə çatmasını asanlaşdırmaq.

Texnopark öz mahiyyətinə və və iqtisadi səmərəsinə görə dünya iqtisadiyyatının və qlobal təşkilatların da diqqət mərkəzində olan mexanizmdir. Bu istiqamətdə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (Organization for Economic Cooperation and Development-OECD) yanaşması da təqdirəlayiqdir. Bu təşkilatın təqdim etmiş olduğu sənədlərdə Texnoparkların təsis olunmasındakı məqsədlər, istifadə olunacağı resurslar, təmin olunacaq məşğullq səviyyəsi, strukturlar üzrə bağlılıq, elmi əsaslara söykənən layihələr və başqa amillər yer almaqdadır. OECD-nin 1986-ci ildə təşkil etdiyi “Science Parks, and Technology Complexes in Relation to Regional Development” (Regional İnkişafla Əlaqədar Elm Parkları və Texnologiya Kompleksləri) mövzusunda təşkil olunan dinləmələrdə təqdim olunan ifadəyə əsasən texnoparkların yaradılma hədəfləri bunlardan ibarət olmuşdur:

*Cədvəl 2*

**İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT-OECD) təqdimatına əsasən texnoparkların yaradılma hədəfləri**

| | | |
|---|---|---|
| Qabaqcıl texnologiyadan istifadə olunan sektorlarda məşğulluğun böyüməsini təmin etmək | Şəhər ətrafının canlandırılması | Uzun dövrlü məşğulluğun artımını və yenilik mənbəyi olarak texnologiya mənşəli kiçik müəssisələrin və ortaqlıqların ortaya çıxarılmasını təmin etmək |
| Regionlar arası inkişaf fərqini azaltmaq | Yerli rəhbərlikləri texnolojik inkişafda aktiv hala gətirmək | Araşdırma və İnkişaf etdirmə səylərinin regional və yerli iqtisadiyyatda yenidən qurulmasının təmin olunması |
| Regional yenilik yaratma səyləri üçün infrastrukturun yaradılmasını təmin etmək | Məhsul yeniliyinin meydana gəlməsinə şərait yaradaraq yerli sənayenin canlandırılmasını və modernizasyonunun təşviq etmək | Yüksək texnologiyalı firmaları bölgəyə qazandırmaq məqsədiylə qurulan mərkəzlər olarak adlandırılır |
| Regional resursları ilə bölgənin araşdırma gücü və yüksək təhsil müəssisələri arasında daha məhsuldar və aktiv əlaqələr qurmaq | | |

Azərbaycan Respublikası milli iqtisadiyyat üzrə yeni inkişaf mərhələsində sistemli və məqsədyönlü perspektivlər əldə etməkdədir. Bu, bir tərəfdən, müasir iqtisadi şəraitin dayanıqlı köklərinin yaradılması ilə müşayiət olunursa, digər tərəfdən isə davamlı və islahatlara dayanan iqtisadi inkişafın ən üst səviyyəsində təşəkkül tapan innovativ dəyərlər əsasında idarəetmənin ifadəsi olaraq özünü göstərir. Bütün hallarda ölkənin uzunmüddətli hədəflərinin əlçatanlığı və reallaşması müstəvisində iqtisadiyyatın istər regional, istərsə də milli mahiyyətinin yüksəldilməsindən ibarət olan və artan dinamikaya əsaslanan sosial-iqtisadi inkişafla nəticələnməkdədir. Təbii ki, bu, dolğun, yetkin və təminatqabiliyyətli iqtisadiyyat olub, yeni dəyərlərə yol açan, onu şaxələndirən və bununla da, yeni dünya çağırışları ilə səsləşən mexanizm deməkdir. Qeyd olunanlar hazırkı milli iqtisadiyyat üzrə perspektivləri daha da artıraraq, eyni zamanda, ardıcıl, koordinasiyalı, tənzimlənən, islahatlara açıq olan və dünya iqtisadiyyatına inteqrasiya olunma mərhələləri üzrə sosiallaşan iqtisadiyyatın əsaslarını yaratmışdır. Bu isə mahiyyət etibarı ilə həm də:

- innovasiyalara əsaslanan iqtisadiyyatın;
- yeniliklər axtarışında olan gəncliyin;
- müasir elmin, texnika və texnologiyanın nəticələrindən səmərəli istifadə olunmasına şərait yaradan idarəetmənin;
- mövcud bazanın daha da inkişafını hədəfləyən ideya və təşəbbüslərin;
- göstərilənlərin məcmusundan ibarət dayanıqlığın, məqsədyönlülüyün və müqavimətliliyin təşəkkülündən ibarət olmuşdur.

Ölkə başçısı tərəfindən təsdiq olunan “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in zəruri hədəflərindən birini də məhz rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı ilə yanaşı, eyni zamanda, XXI əsrin tələblərinə uyğun təhsil, yaradıcı və innovativ cəmiyyət və vətəndaşların sağlam həyat tərzi (2) aktuallığı ilə seçilir ki, burada da, həm də texnoparkların imkanlarından istifadə olunması əhəmiyyətli olacaq. Bütün bunlar milli iqtisadi quruculuq proseslərinin çox mühüm tərəflərini təşkil etməklə, ölkənin həm də regional iqtisadi inkişafının da səmərəli nəticələrini ortaya qoymaqdadır. Təbii ki, bu sahədə də Naxçıvan Muxtar Respublikasının yeri və rolu daha da artmaqdadır. Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın təminat qabiliyyətli, sosialyönümlü olması və perspektivlərə hesablanması məqsədilə reallaşan sistemli tədbirlər özünü bütün sahələrlə yanaşı, təhsil sahələrində də göstərməkdədir. 14 dekabr 2020-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanan Sərəncamla

Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkı yaradılmışdır. Bu əlamətdar tənzimləmə, universitetin qarşıdakı dövrlərdə keyfiyyət göstəricilərinin daha da artmasına təkan olmaqla yanaşı, eyni zamanda, ümumilikdə, muxtar respublikanın təhsil sahəsindəki nailiyyətlərini artıracaq. Çünki Texnologiyalar Parkının yaradılmasında əsas məqsəd elmlə istehsalat arasında qarşılıqlı əlaqənin qurulması, istehsalatın yeni elmi ideyalar əsasında inkişafı, elmi tədqiqatlara olan xərclərin səmərəliliyinin yüksəldilməsindən ibarətdir.

Həmin tarixi sənəddə göstərilir ki, Naxçıvan Dövlət Universitetində 2 hektar ərazini əhatə edən, müxtəlif elm sahələri üzrə təcrübə-konstruktor, elmi-tədqiqat və startap layihələrinin mühüm elmi nəticələrinin sənaye və xidmət sahələrində tətbiqini həyata keçirən sosial, mədəni, mühəndis-kommunikasiya təminatı olan obyektlər kompleksindən ibarət Texnologiyalar Parkı (Texnopark) yaradılsın (3, s.1).

Texnopark, üzvi surətdə uzlaşan aspektlərə (ideoloji, hüquqi, iqtisadi, mədəni, psixoloji, demoqrafik, etnik, təşkilati, regional, məkan və s.) malik olan mürəkkəb strukturlu, inteqral bir anlayışın ifadəsinə çevrilən dövlətin sosial siyasətinin (3, s.76) çox mühüm tərkib hissəsi olmaqdadır. Bu anlayış, qeyd olunanlarla birlikdə, səmərəli iqtisadi mühitin qorunmasında və onun iqtisadiyyatın sahə strukturu üzrə faydalılığının yüksəldilməsindəki rolunu daha da artıracaq. Mənfəətin artırılmasına yönəldilən iqtisadi fəaliyyətin təmin olunmasında, təsərrüfat subyektlərinin mal və xidmətlərlə təmin olunması sahəsindəki proseslərin əlaqələndirilməsinin sürətlənməsində və beləliklə də, dayanıqlı biznes mühitinin yaradılmasında Texnologiya Parkının səmərəli nəticələrini müşahidə etmək mümkün olacaq. Diqqət etdikdə aydın olur ki, Naxçıvan Dövlət Universitetində yaradılmış Texnologiyalar Parkında struktur təşkilatlanması sahəsində diqqət çəkən sahələrdən biri də məhz biznes mühitinin möhkəmlənməsinə istiqamətlənən fəaliyyət məcmusu olaraq biznes inkubatorunun fəaliyyətinin təmin olunması ilə möhtəşəmlik qazanacaq.

Təbii ki, mahiyyət etibarı ilə, biznes inkubator çoxsaylı biznes ideyalarının təşviqi məqsədilə fəaliyyət göstərir. Burada iştirakçı olan kiçik sahibkarlıq subyektləri müxtəlif ideyarla çıxış edir və onların müzakirəsi ilə məşğul olurlar. Yəni biznes inkubatorunda kiçik layihələr və startaplar ilk mərhələdən biznes mərhələsinə qədər yol keçirilər, daha doğrusu, canlanırlar. Biznes inkubatoru iştirakçılar üzrə təlimlər təşkil edir və müəyyən müddət ərzində tədris proseslərinə də start verir. Həmin iştirakçılara müxtəlif şirkətlər tərəfindən konsaltinq (məsləhət) xidmətlər də təşkil olunur. Yəni bu xidmətin mahiyyəti öz biznesinin inkişafında maraqlı olan müştərilər birliyinə göstərilən xidmətlər növü olmasında ifadə olunur.

Biznes ideyasının təkmilləşməsi və ya reallaşması məhz biznes inkubatoru tərəfindən həyata keçirilir. Bu mərhələ sonrakı dövrlərdə yeni təsərrüfatların yaradılmasına zəmin yaratmış olur. Beləliklə, biznes inkubatorunun sayəsində iştirakçılar biznes planlar hazırlayır və digər iştirakçılar arasında uğur qazanacağı təqdirdə mükafatlandırılırlar.

Növbəti mərhələ olaraq, müxtəlif banklara maliyyə vəsaitlərinə çıxış imkanları məqsədilə qalib iştirakçı tərəfindən müraciətlər də oluna bilər və güzəştli kreditlərdən də yararlanmaqla səmərəli fəaliyyətin qurulması mümkündür. Biznes inkubatoru davamlı yeni layihələr üçün bir mərkəz roluna malik olur. Eyni zamanda, iştirakçıların sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi, yeni biznes və ideyalarının yaradılması, həmçinin daha perspektivli və innovativ əsaslara dayanan məşğulluq (özünüməşğulluq) imkanlarının yaradılması, bununla da, onların reallaşmasının stimullaşdırılması baxımından olduqca zəruridir.

Biznes inkubatorunun fəaliyyətə başlaması münasibətilə konfrans da keçirilməsi məqsədəuyğun ola bilər. Konfransda iş adamları, biznes və sahibkarlıq subyektləri, dövlətin bu sahənin tənzimlənməsi ilə bağlı olan struktur bölmələrinin nümayəndələri, bir sözlə, texnoparkın gələcək ümumi fəaliyyəti ilə əlaqəli ola biləcək şəxslər iştirak edirlər.

Biznes inkubatoru İqtisadiyyat Nazirliyi də daxil olmaqla, digər əlaqəli strukturlarla müştərək formada yeni biznes ideyaları olan gənclərin, tələbələrin cəlb olunmasına, ideya müsabiqələrinin keçirilməsinə və bunun üçün təyin və elan olunmuş vaxt ərzində sənəd qəbulu da keçirir. Burada:

- tədris prosesləri təşkil olunur;
- iştirakçılar arasında məsələn, “ideyadan biznesə doğru” müabiqə keçirilir;

- qaliblər mükafatlandırılır;

- İqtisadiyyat Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Dövlət Vergi Xidmətinin, "Cahan Holding"-in, Kənd Təsərraftı Nazirliyinin, Əmlak Məsələləri Dövlət Xidmətinin və fəaliyyətin axıcılığı müstəvisində zərurət yarandıqca digər müvafiq strukturların mütəxəssislərinin göstərmiş olduqları məsləhət xidmətləri təşkil olunur;

- müxtəlif mövzularda xarici nüfuzlu universitet alim və araşdırmaçılarının, iş adamlarının, mütəxəssislərin və başqa təcrübə sahiblərinin iştirakı və mühazirələri ilə beynəlxalq treyninqlər (seminarlar) də keçirilir;

- biznes inkubatoru iştirakçılarının istənilən istehsal müəssisəsinin fəaliyyəti ilə tanış olmaq imkanları yaradılır;

- fasiləsiz istehsala və etibarlı məşğulluğa istiqamətlənən startap layihələrinin həyata keçirilməsi üçün şərait yaradılır və s.

Qanunauyğunluq baxımından Biznes inkubatoru üçün hər cür şəraiti olan, 10-15 otaqdan ibarət olan və 500 m$^2$ sahə ayrıla bilər. Naxçıvan Dövlət Universitetinin Texnoparkının strukturuna və sahəsinə müvafiq olaraq, bu, tənzimlənə bilər (5). Ümumiyyətlə, otaqlar tam təchiz olunmalıdır. Orada zəruri mexanizmlər, o cümlədən:

*Cədvəl 3*

**Texnoparkda otaqların təchiz olunduğu təminatlar**




Biznes inkubatorlarında çoxistiqamətli fəaliyyət imkanlarının yaradılması və hər iki cinsdən olan ideya müəllifləri üçün səmərəli şəraitin yaradılması da nəzərdə tutulur. Belə ki:

- qadınların toxuculuq işləri ilə bağlı təmsil olunması;

- gələcəkdə Sənaye Məhəllələri, xüsusilə Şərur Sənaye Məhəlləsi və digər bu kimi qurumlarla əlaqələrin yaradılması, ideya mübadiləsi və ya ortaq ideyaların irəli sürülməsi;

- yeni ideyaların verilməsi. Bu, əvvəlki ideyaların reallaşmasının davamı və tamamilə yeni fəaliyyətin yaradılması məqsədlərini də daşıya bilər.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi. Texnoparkların yaradılması üzrə beynəlxalq təcrübə. Bakı: Çap ART, 68 s.
2. "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər". 02 fevral 2021-ci il tarixli Fərmanı ilə təsdiq olunub.
3. Əliyev A. Ə., Quliyev A.S. Sosial sferanın iqtisadi və metodoloji əsasları. Bakı: Adiloğlu, 2005, 304 s.
4. Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması haqqında Naxçıvan Muxtar

Respublikası Ali Məclisi Sədrinin Sərəncamı. Şərq Qapısı qəzeti. Naxçıvan şəhəri, 14 dekabr 2020-ci il. № 69-06/S
5. https://ikisahil.az/post/260538-naxchivan-dovlet-universiteti-texnopark-ve-semereli-biznes-muhitinin-inkishafi

**SUMMARY**

**Javadkhan Gasimov, Tahmina Nagiyeva**

**THE ECONOMIC AND SOCIAL SIGNIFICANCE OF CONSTRUCTION OF TECHNOPARK AT NAKCHIVAN STATE UNIVERSITY**

The scientific, economic and social essence of the Technology Park in the new economic conditions was discussed in the article. It has been shown that at the current stage, among the factors that constitute the main driving force of the sustainable national economic development processes of the countries, technoparks are becoming important. In the implementation of long-term economic priorities, its scientific justification and correct connection with production, the management specific to the Technopark environment has the necessary importance. In such a situation, it is appropriate to mention the importance of the Technology Park under construction at Nakhchivan State University. The technopark built on an area of two hectares includes relations with foreign residents, offices for the Industrial Park and Neighborhoods, conditions for the processing of proposals in order to maintain an efficient business environment, organizational measures for establishing cooperation with other production enterprises, and consultingconnecting audiences for service delivery. At the same time, it is planned to provide the potential for effective scientific research and economic opportunities in the Technopark, which promises significant indicators of employment.

***Key words:*** *Technology Park, scientific research, consulting services, business incubators, Industrial Parks, Industrial Districts, innovation centers, Science parks, etc.*

**РЕЗЮМЕ**

**Джавадхан Гасымов, Тахмина Нагиева**

**ЭКОНОМИЧЕСКАЯ И СОЦИАЛЬНАЯ ЗНАЧИМОСТЬ СТРОИТЕЛЬСТВА ТЕХНОПАРКА ПРИ НАХЧИВАНСКОМ ГОСУДАРСТВЕННОМ УНИВЕРСИТЕТЕ**

В статье рассмотрена научная, экономическая и социальная сущность технопарка в новых экономических условиях. Показано, что на современном этапе среди факторов, составляющих главную движущую силу процессов устойчивого народнохозяйственного развития стран, важное значение приобретают технопарки. В реализации долгосрочных экономических приоритетов, ее научном обосновании и правильной увязке с производством необходимое значение имеет управление, специфичное для среды Технопарка. В такой ситуации уместно упомянуть важность строящегося в Нахчыванском государственном университете Технологического парка. Технопарк, построенный на площади в два гектара, включает в себя отношения с иностранными резидентами, офисы для Индустриального парка и микрорайонов, условия для обработки предложений в целях поддержания эффективной бизнес-среды, организационные меры по налаживанию сотрудничества с другими производственными предприятиями, и консультацииподключение аудитории для предоставления услуг.При этом в Технопарке планируется обеспечить потенциал для эффективных научных исследований и экономические возможности, что обещает значительные показатели занятости.

***Ключевые слова:*** *технопарк, научные исследования, консультационные услуги, бизнес-инкубаторы, индустриальные парки, промышленные районы, инновационные центры, научные парки и др.*

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Nazim Əhmədov*
***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 122-130**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 122-130**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 122-130**

**BULQEYİS NOVRUZOVA**
*bulqeyis@yahoo.com*
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 331.5**

# BEYNƏLXALQ ƏMƏK BÖLGÜSÜNÜN İNKİŞAFININ ƏSAS AMİLLƏRİ VƏ ÖLKƏLƏRİN BEYNƏLXALQ ƏMƏK BÖLGÜSÜNDƏ İŞTİRAKININ PRİORİTET İSTİQAMƏTLƏRİ

*Hər bir ölkənin və bütün dünya təsərrüfatının beynəlxalq əmək bölgüsünə cəlb edilməsi bəşəriyyətə qlobal səviyyədə ictimai əməyin səmərəli təşkili, beynəlxalq məhsuldar qüvvələrin inkişafı, dünya üzrə əmək məhsuldarlığının artımı, əmtəələrin əmək tutumunun azalması, dünya iqtisadiyyatında ümumi istehsal xərclərinin aşağı düşməsi, daha çox məhsul istehsalının mümkün olması, beləliklə də, bütün bəşəriyyətin rifah halının yüksəldilməsi kimi töhfələr verir.*

*Beynəlxalq əmək bölgüsü bütünlükdə ümumdünya bazarının və ümumdünya təsərrüfatının formalaşması və inkişafı amili hesab olunur. Beynəlxalq əmək bölgüsündə iştirak edən ölkə mövcud maddi və mənəvi potensialı daha optimal şəkildə istifadə etməyə, dünya üzrə elm və texnikanın ən yeni nailiyyətlərini qısa müddətdə tətbiq etməyə, iqtisadiyyatın restruktrizasiyasını həyata keçirməyə, əhalinin tələbini daha yaxşı ödəməyə, milli strateji maraqları reallaşdırmağa imkan əldə edir. Bu səbəbdən də məhz beynəlxalq əmək bölgüsü bütün planet miqyasında səmərəli beynəlxalq iqtisadi münasibətlərin qurulmasının ilkin maddi şərtini təşkil edir. Ona görə də hər bir ölkənin beynəlxalq iqtisadi münasibətlərdə iştirakının obyektiv səbəbi beynəlxalq səviyyədə əmək bölgüsü və mübadilədir.*

*Məqalədə, ümumiyyətlə, beynəlxalq əmək bölgüsünün mahiyyəti və məqsədi, forma və növləri, onu şərtləndirən əsas amillər, onun əsas xüsusiyyətləri və istiqamətləri, beynəlxalq əmək bölgüsünün dünya iqtisadiyyatına və istehsal amillərinə təsirləri, beynəlxalq əmək bölgüsünün inkişafını və ölkələrin bu prosesdə iştirakını xarakterizə edən amillər, ölkələrin beynəlxalq əmək bölgüsündə iştirakının genişləndirilməsi və mövqeyinin yaxşılaşdırılması istiqamətləri qeyd olunmuşdur.*

***Açar sözlər**: əmək bölgüsü, beynəlxalq əmək bölgüsü, ictimai əmək bölgüsü, beynəlxalq əmək bölgüsünün növləri, beynəlxalq əmək bölgüsünün formaları, istehsalın beynəlxalq ixtisaslaşması, istehsalın beynəlxalq kooperasiyası, beynəlxalq iqtisadi münasibətlər, beynəlxalq əmək bölgüsünün inkişafının əsas amilləri*

Beynəlxalq əmək bölgüsü ölkələrarası ticarət, kapital axını, kredit-valyuta əməliyyatlarının təşkili və aparılması, elmi-texniki əməkdaşlığın genişləndirilməsindən ibarət tədbirlər sistemidir. O, mahiyyətcə bir ölkənin ucuz istehsal amilləri bazasında hər hansı bir malların istehsalının təşkili üzrə ixtisaslaşmasıdır. Bu halda daxili tələbat ödənilməklə yanaşı, həmin malların beynəlxalq mübadiləsi, beynəlxalq ticarət əməliyyatları genişlənir. Digər tərəfdən, bu proseslərdə müxtəlif ölkələrin istehsal müəssisələri ayrı-ayrı mal və xidmətlər üzrə ixtisaslaşmaqla bərabər, bu mal və xidmətlərin mübadiləsində iştirak edirlər.

Tarixən beynəlxalq əmək bölgüsünün əsas məqsədi əmək məhsuldarlığının yüksəldilməsi olmuşdur. İqtisadi və sosial tərəqqinin əsası olan əmək məhsuldarlığının yüksəldilməsi zərurəti həmişə beynəlxalq əmək bölgüsünün hərəkətverici qüvvəsi kimi çıxış etmişdir. Çünki ölkədaxili əmək bölgüsü yolu ilə məhsuldar qüvvələrin inkişafı ilə əlaqədar ölkə daxilində hər hansı sahədə istehsal olunan məhsul müəyyən həddən sonra daxili tələbi üstələyir. Nəticədə rentabelliyi saxlamaq, durğunluğun qarşısını almaq üçün müəssisələr xarici bazarlara çıxırlar. Beynəlxalq rəqabətdə ölkələr

üstünlüklərə malik olduğu sahələrdə üstünlük əldə edir, üstünlüklərə malik olmadıqları sahələrdə isə geridə qalırlar və müvafiq sahələr istiqamətində beynəlxalq səviyyədə ixtisaslaşırlar, digərlərindən imtina edirlər. Beləliklə, ölkələrin bu və ya digər sahələr üzrə beynəlxalq əmək bölgüsündə ixtisaslaşması əvvəlcə beynəlxalq iqtisadi münasibətlərin ilk forması olan beynəlxalq ticarətin, sonradan beynəlxalq əmək bölgüsünün dərinləşməsi isə beynəlxalq iqtisadi münasibətlərin qalan formalarının təşəkkülünə səbəb olur, onların inkişafı üçün ilkin ünsürlər yaradır (9, s.25).

Beynəlxalq əmək bölgüsündə iştirak edən ölkə mövcud maddi və mənəvi potensialı daha optimal şəkildə istifadə etməyə, dünya üzrə elm və texnikanın ən yeni nailiyyətlərini qısa müddətdə tətbiq etməyə, iqtisadiyyatın restruktrizasiyasını sağlam şəkildə həyata keçirməyə, əhalinin tələbini daha dolğun və rəngarəng şəkildə ödəməyə, milli strateji maraqları reallaşdırmağa imkan əldə edir. Bu səbəbdən də qeyd etmək olar ki, məhz beynəlxalq əmək bölgüsü bütün planet miqyasında səmərəli beynəlxalq iqtisadi münasibətlərin qurulmasının ilkin maddi şərtini təşkil edir, milli iqtisadiyyatların vahid dünya təsərrüfatında birləşdirilməsinin əsasında durur. Ona görə də hər bir ölkənin beynəlxalq iqtisadi münasibətlərdə iştirakı məsələsini araşdırarkən nəzərə almaq lazımdır ki, istənilən dövlətin burada iştirakının obyektiv səbəbi beynəlxalq səviyyədə əmək bölgüsü və mübadilədir.

Beynəlxalq əmək bölgüsü, ölkələr arasında ictimai ərazi bölgüsünün yüksək mərhələsi olmaqla ayrı-ayrı məhsul növlərinin müəyyən ölkələrdə təmərküzləşməsini nəzərdə tutur. Hər bir ölkə müəyyən səbəblərdən (tarixi, coğrafi, təbii iqlim, sosial-iqtisadi və s.) digər ölkələrə nisbətən daha səmərəli məhsul istehsal edir (12, s.135).

Beynəlxalq əmək bölgüsü təbii-coğrafi, elmi-texniki və sosial-iqtisadi amillərlə sıx surətdə bağlıdır. Bundan əlavə təbii sərvətlərin bölgüsündə olan fərq dövlətlər arasında əmək bölgüsünün ilkin şərtidir. Ən başlıca şərt torpaq-iqlim şəraiti hesab olur. Əmək ehtiyatları, istehsalın tarixi inkişaf ənənələri, ölkənin coğrafi vəziyyəti də beynəlxalq əmək bölgüsündə mühüm rola malikdir. Demək olar ki, məhz beynəlxalq əmək bölgüsü dünya təsərrüfat sisteminin yaranmasında birləşdirici bir həlqədir.

Beynəlxalq əmək bölgüsünün əsas məzmununu əmək fəaliyyətinin müxtəlif növlərinin xüsusiləşməsi (ayrılması) və ixtisaslaşması, onların bir-birini tamamlaması və qarşılıqlı təsir göstərməsi təşkil edir. Onun mahiyyəti özünü istehsalın iki prosesində-ayrılmasında və birləşməsində göstərir. Birincisi, məlum olduğu kimi, vahid istehsal prosesi ayrı-ayrı ölkələrdə, müəyyən ərazidə, istehsal prosesinin müxtəlif mərhələlərində təmərküzləşmiş nisbətən müstəqil və xüsusiləşmiş hissələrə bölünür; ikincisi - eyni zamanda beynəlxalq əmək bölgüsündə iştirak edən ölkələr arasında qarşılıqlı əlaqənin yaradılmasına, xüsusiləşmiş (ayrılmış) istehsalların və ərazi istehsal komplekslərinin birləşməsinə vadar edir.

Beləliklə, göründüyü kimi, beynəlxalq əmək bölgüsü ölkələr arasında əməyin ictimai ərazi bölgüsünün inkişafının ən yuxarı pilləsidir. Bu da, sahə və regional əsasda istehsalın dayanıqlı və iqtisadi cəhətdən ixtisaslaşmasından irəli gəlir. Təbii ki, beynəlxalq əmək bölgüsü əməyin müxtəlif növ məhsul istehsalı üzrə bölünməsi ilə daha da mükəmməlləşir. Belə ki, əməyin ərazi - coğrafi aspektdə bölgüsü nə qədər əlverişli olsa da, beynəlxalq əmək bölgüsünün tam mükəmməl olması üçün kifayət deyildir (1, s.53).

Beynəlxalq əmək bölgüsü istehsal amillərinə bilavasitə təsir göstərir. Tarixən bu, insanın yaşadığı mühitlə əlaqədar olmuşdur. Belə ki, bir ölkədə və ya ərazidə məhsuldar torpağın və su mənbələrinin olması orada yaşayan tayfa və qəbilələrə yaşamaq imkanı verir, meşə və qamışlıqların olması isə uzaq səyahətlər etmək üçün iri gəmilər və qayıqlar hazırlamağa şərait yaradırdı. Digər halda, təbii şərait qədim insan cəmiyyətinin dinamik inkişafına imkan vermirdi və onlar yox olurdular. Lakin bu o demək deyildir ki, beynəlxalq əmək bölgüsü müstəsna olaraq təbii-klimatik və torpaq şəraitindən asılıdır. Əgər yalnız belə olsa idi, onda "Afrika ölkələri digər şərtlər daxilində yalnız tropik bitkilərin istehsalı, Şimali Amerika isə özlərinin istehlak etdikləri balıq ovu üzrə ixtisaslaşmalıdırlar".

İnsan cəmiyyətinin inkişafının aşağı mərhələsində təbii amillər müstəsna rol oynayırdılar və bir tayfa heyvandarlıq və əkinçilik, digəri balıq, yaxud vəhşi meşə heyvanları ovu və s. üzrə

ixtisaslaşırdılar. Bu amillər hazırda da milli iqtisadiyyatın inkişafında mühüm əhəmiyyət kəsb edirlər. Lakin buna baxmayaraq, müasir dövrdə beynəlxalq əmək bölgüsünün dərinləşməsi və inkişafında həlledici rolu müasir yüksək texnoloji istehsalın yaradılmasına gətirib çıxarmış əqli əmək oynayır ki, bu da istehsalın səmərəliliyinin yüksəldilməsi və əmək məhsuldarlığının əsaslı şəkildə artırılmasına imkan yaradır.

Tarixi inkişaf xüsusiyyətlərinə və mahiyyətlərinə görə beynəlxal əmək bölgüsünün 3 növünü fərqləndirirlər:

- ümumi beynəlxal əmək bölgüsü - iri istehsal sahələri, sahə strukturları (sənaye, nəqliyyat, rabitə və digərləri) arasında baş verən əmək bölgülərindən ibarətdir. Bu tip əmək bölgüsü prosesləri mahiyyətlərinə görə ölkələri - sənaye, xammal və aqrar tipli növlərə bölürlər;
- özəl beynəlxal əmək bölgüsü - iri sahələrin daxilində baş verən əmək bölgüsü prosesləridir və bu tip proseslər ixtisaslaşdırılmış xarakter daşıyır. Məsələn, ağır və yüngül sənaye sahələrində, heyvandarlıqda, əkinçilikdə, ayrı-ayrı məhsulların ixrac təyinatlı istiqamətində istehsalın təşkili və s.;
- vahid beynəlxal əmək bölgüsü - bir müəssisənin daxilində hər hansı bir malın istehsalı üzrə bütöv tsiklin (mərhələnin) təşkili üçün əmək bölgüsü prosesləridir.

Beynəlxalq əmək bölgüsünün əsasən aşağıdakı 2 forması fərqləndirilir: istehsalın beynəlxalq ixtisaslaşması və beynəlxalq kooperasiya. Bu proseslər bir-biri ilə sıx bağlıdırlar, belə ki, ixtisaslaşma olmadan kooperasiya əlaqələrinin təşkili qeyri-mümkündür. Beynəlxalq əmək bölgüsü dünya iqtisadiyyatına aşağıdakı kimi təsir göstərir:

- dünya ölkələrində istehsalın genişləndirilməsinə təkan verir;
- ölkələrin qarşılıqlı istehsal münasibətlərini formalaşdırır;
- sahələrarası inkişafın regional və ölkələrarası aspektlərini müəyyənləşdirir;
- beynəlxalq mal və xidmətlər bölgüsünü təşkil edir, qarşılıqlı istehsal proseslərini tənzimləyir, mal və xidmətlər mübadiləsini genişləndirir, istehsalın beynəlmilləşməsini artırır və s (5, s.204).

İstehsalın beynəlxalq ixtisaslaşması ölkələr arasında əmək bölgüsünün elə bir formasıdır ki, bu halda dünya miqyasında həmcins istehsalların təmərküzləşməsi və əməyin mütərəqqi ictimailəşdirilməsi milli istehsalların təbəqələşməsi əsasında baş verir, ölkələrdə həmcins əmtəələr bir ölkənin tələbatından çox istehsal olunur və bu əsasda da milli təsərrüfatlar ictimailəşdirilir. Belə bölgü və inkişaf milli iqtisadi sistemlərin qarşılıqlı asılılıq və qarşılıqlı tamamlanma elementlərinin fasiləsiz olaraq artmasına gətirib çıxarır, onların qarşılıqlı çulğalaşmasına, qarşılıqlı diffuz etmələrinə şərait yaradır, əmtəə və xidmətlərin, elmi-texniki biliklərin və təcrübənin, "nou-hau"ların artımı prosesinin intensivləşdirilməsində özünü göstərir.

İstehsalın beynəlxalq ixtisaslaşmasına iki istiqamətdə - istehsal və ərazi ixtisaslaşması istiqamətlərində baxmaq olar.

1. İstehsal istiqamətində ixtisaslaşma öz növbəsində aşağıdakı növlərə bölünür: a) sahələrarası ixtisaslaşma; b) sahədaxili ixtisaslaşma; c) ayrı-ayrı firma və müəssisələrin ixtisaslaşması.

2. Ərazi üzrə ixtisaslaşma aşağıdakıları nəzərdə tutur: a) ayrı-ayrı ölkələrin ixtisaslaşması; b) bir qrup ölkələrin ixtisaslaşması; c) regionların ixtisaslaşması.

Ərazi üzrə ixtisaslaşma dünya bazarı üçün, müəyyən növ məhsul və yaxud onların hissələrinin istehsalı üzrə ayrı-ayrı ölkələri, bir qrup ölkənin və iqtişadi regionların ixtisaslaşmasını nəzərdə tutur.

İstehsalın beynəlxalq ixtisaslaşmasının əsas növləri bunlardır:

1. əşya üzrə ixtisaslaşma - müəyyən növ hazır əmtəənin istehsalını nəzərdə tutur;

2. hissə üzrə ixtisaslaşma - hər hansı bir ölkənin və yaxud müəssisənin hazır məhsulun hər hansı bir hissəsinin, komponentlərinin istehsalı üzrə ixtisaslaşmasını nəzərdə tutur;

3. texnoloji ixtisaslaşma - ayrı -ayrı əməliyyatlar, yaxud texnoloji proseslər üzrə ixtisaslaşmanı nəzərdə tutur (8, s.99).

ETİ istehsalın texnoloji quruluşunu mürəkkəbləşdirmişdir, ona görə də bir çox məhsul istehsalında hissələrin sayı çoxalmışdır. Hazırda ixtisaslaşma əsasən elektron hesablama maşınlarının, avtomatlaşdırma və mexanikləşdirmə vasitələrinin, tənzimləmə və idarəetmə qurğularının hazırlanmasını əhatə edir. Bütün bu beynəlxalq ixtisaslaşmalar istehsal sahələri və ərazi istiqamətində

aparılır. İstehsal sahəsi üzrə ixtisaslaşma özü də sahələrarası, sahələrdaxili və ayrı-ayrı müəssisələrin ixtisaslaşması formasında olur. Ərazi üzrə beynəlxalq ixtisaslaşmada dünya bazarı üçün məhsul və yaxud hissələr ayrı-ayrı ölkələr, qrup ölkələr və eləcə də region tərəfindən istehsal edilir. İstehsalın beynəlxalq ixtisaslaşması isə beynəlxalq əmək bölgüsünün daha dinamik bir formasıdır.

Beynəlxalq əmək bölgüsünün digər forması istehsalın beynəlxalq kooperasiyalaşmasıdır. Kooperasiyalaşma dedikdə, ayrıca məhsul istehsalında bir-birini tamamlayan ixtisaslaşdırılmış istehsalın qarşılıqlı əlaqəsi nəzərdə tutulur. Bunun kimi kooperasiyalaşma da məhsuldar qüvvələrin artan inkişaf səviyyəsi və xüsusiləşmiş müəssisələrin sabit istehsal əlaqələrinin genişlənməsi nəticəsində formalaşır. Dünya ölkələri arasında istehsal, elmi-texniki, mənzil, kredit, satış, kənd təsərrüfatı, fırmadaxili, firmalararası, üfiqi, şaquli, qarışıq, ölkələrarası, regionlararası və bu kimi sahələrdə baş verən iqtisadi əlaqələr kooperasiya vasitəsi ilə həyata keçirilir.

Dünyanın müxtəlif ölkələri yaratdıqları birgə müəssisələr vasitəsilə əməkdaşlıqlarını genişləndirirlər. Belə ki, müəyyən növ məhsul istehsalı və xidmətlər üzrə xüsusiləşmiş müəssisələr yaradılır ki, bu da kooperasiya proseslərinin sürətlənməsinə səbəb olur. Müasir Elmi Texniki İnqilab istehsal kooperasiyasının ən zəruri elementi olan elmin də inkişafına geniş yol açmışdır. İstehsalın beynəlxalq kooperasiyası əməkdaşlığın aşağıdakı formalarını əhatə edir:

1. istehsal - texnoloji əməkdaşlıq, burada, lisenziyalar verilməsi və mülkiyyətçilik hüququndan istifadə edilməsi, layihə-konstruktor, texnoloji proseslər, məhsulun texnoloji səviyyəsi və keyfiyyəti, inşaat və quraşdırma işləri, kooperasiyaya daxil olan müəssisələrin modernləşməsi və s. barədə sənədlərin hazırlanması, istehsalda, standartlaşmada, vahid şəkilə salınmaqla şəhadətnamə verilməsi, istehsal proqramlarının bölüşdürülməsi və s. üzrə idarəçiliyin təkmilləşdirilməsi nəzərdə tutulur;

2. kooperasiya əsasında istehsal olunan məhsulların satışı ilə bağlı iqtisadi proseslər üzrə əməkdaşlıq;

3. satışdan sonra texnikaya xidmət olunması.

Kooperasiya əlaqələrinin tənzimlənməsi aşağıdakı üç metod vasitəsilə həyata keçirilir:

- birgə proqram həyata keçirilməsi;
- müqavilə əsasında ixtisaslaşdırma;
- müştərək birgə müəssisələr yaradılması (2, s.103).

Beynəlxalq əmək bölgüsünün səmərəliliyi şərtləri və məntiqi davamı əməyin beynəlxalq kooperasiyası, zəruri şərti isə istehsal amillərinin beynəlxalq bölgüsünə əsaslanan ixtisaslaşmadır. Ölkələr arasında ictimai əmək bölgüsünün ən yüksək forması olan beynəlxalq əmək bölgüsü özünü ölkələrin dayanıqlı inkişafında, iqtisadi cəhətdən bu və ya digər məhsul növünün istehsalı üzrə əlverişli ixtisaslaşmasında və həmin məhsul növlərinin ölkələr arasında səmərəli mübadiləsində göstərir.

Beynəlxalq əmək bölgüsü, beynəlxalq prosesdə iştirak edən ölkələrin milli iqtisadiyyatlarının digər hər hansı bir ölkənin tələbatına uyğunlaşdırılması yolu ilə onların iqtisadiyyatlarının strukturuna təsir göstərdiyindən ölkədaxili əmək bölgüsündən fərqlənir. Beynəlxalq əmək bölgüsündə iştirak etmək ölkəyə imkan verir ki, öz səylərini o məhsulun istehsalında cəmləşdirsin ki, onun istehsalı üçün ölkədə daha əlverişli şərait var və bu məhsuldan o qədər istehsal edə bilər ki, o həm daxili tələbatı, həm də tərəf-müqabilinin ölkəsindəki əhalinin tələbatını ödəyə bilər. Bu, həm də ölkəyə imkan yaradır ki, ölkə daxilində istehsalı üçün əlverişli imkan olmayan əmtəələri istehsal etməsin və həmin məhsullara olan tələbatı idxal hesabına ödəsin.

Qeyd etmək lazımdır ki, beynəlxalq əmək bölgüsünün inkişaf səviyyəsi və imkanları milli dövlətlər çərçivəsində olan əmək bölgüsündən məhduddur. Bunun səbəbləri aşağıdakılardır:

- milli çərçivədə olan əmək bölgüsü məntiqi və tarixi baxımdan ölkələrarası əmək bölgüsündən əvvəl mövcud olmuşdur. Belə ki, hələ dövlət quruluşunun mövcud olmadığı ibtidai-icma quruluşunda belə, bu və ya digər formada əmək bölgüsü mövcud olmuşdur;
- beynəlxalq əmək bölgüsünün, onun müxtəlif formalarının, sosial-iqtisadi təbiətinin xüsusiyyətləri, eləcə də inkişaf səviyyəsi ayrı-ayrı milli təsərrüfatlar daxilində olan ictimai münasibətlərlə müəyyənləşdirilir və müəyyən mənada onlardan asılıdır;

- beynəlxalq əmək bölgüsünün əsas xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, beynəlxalq iqtisadi proseslərə ayrı-ayrı dövlətlərin təsir etmə imkanları məhduddur (7, s.114).

Beynəlxalq əmək bölgüsünün inkişafını xarakterizə edən bir çox amillər vardır. Sadə şəkildə həmin amilləri beynəlxalq əmək bölgüsünün meydana çıxması və inkişafının səbəbləri kimi başa düşmək olar. Bu amillərin ətraflı öyrənilməsi böyük nəzəri-praktiki əhəmiyyət kəsb edir. Həm də inkişaf amillərinin hərtərəfli tədqiqi ölkənin beynəlxalq əmək bölgüsünündə prioritet məqsədlərinə çatması, beynəlxalq əmək bölgüsü sistemində səmərəli iştirak edə bilməsi üçün hansı amillərə əsaslanmalı olduğunu təyin etməyə imkan yaradır.

Onu da qeyd etməliyik ki, beynəlxalq əmək bölgüsünün inkişaf amillərinin tədqiqi sistemli surətdə həyata keçirilməlidir. Çünki kəskin rəqabətin xarakterik olduğu, surətlə dəyişən və əsaslı keyfiyyət sıçrayışlarının baş verdiyi qlobal iqtsadi mühitdə hadisələrin axarından geri qalmamaq, zamanın tələbinə cavab verən real beynəlxalq əmək bölgüsü modeli qurmaq üçün onun inkişafına səbəb olan hər bir yeni amilin identifikasiya edilməsi və mövcud beynəlxalq əmək bölgüsü modelinə zəruri korreksiyaların edilməsi müasir dövrdə olduqca vacibdir.

Ölkələrin beynəlxalq əmək bölgüsündə iştirakını müəyyənləşdirən milli və beynəlxalq amillər aşağıdakılardır:

1. Beynəlxalq əmək bölgüsününə təsir edən milli amillər:

a). ayrı-ayrı ölkələrin təbii coğrafi fərqləri: təbii iqlim şəraiti, təbii ehtiyyatlar, ərazinin ölçüsü, əhalisinin sayı, ölkənin coğrafi vəziyyəti və s.;

b). ayrı-ayrı ölkələrin sosial - iqtisadi xüsusiyyətləri: dünya iqtisadiyyatında ölkənin vəziyyəti, tarixi inkişafının xüsusiyyətləri, istehsal və xarici-iqtisadi əlaqələrin xüsusiyyətləri, keçdiyi ictimai quruluşlar, elmi-texniki inkişafın və iqtisadiyyatın nail olunmuş səviyyəsi, təsərrüfat tipinin növləri, xarici iqtisadi əlaqələr sahəsində qanunvericilik bazası, iqtisadiyyatın təmayülü, (bazar iqtisadiyyatı, keçid iqtisadiyyatı, planlı təsərrüfat), xarici investisiyaların qorunmasına təminat, miqrasiya məsələləri və s.

2. Beynəlxalq əmək bölgüsünün beynəlxalq amilləri: dünyada ETT-nin səviyyəsi, dünya bazarında məhsul və xidmətlərə olan tələbat, beynəlxalq hesablar sistemi, ekoloji problemlər, qloballaşma, beynəlxalq ixtisaslaşma və kooperasiya səviyyəsi, beynəlxalq rəqabət qabiliyyətliliyi, informasiya kommunikasiya texnologiyaları (11, s.77).

Beynəlxalq əmək bölgüsünün inkişafının əsas amilləri sırasına aşağıdakıları aid etmək olar:

1. Təbii resursların ölkələr üzrə paylanmasındakı fərqlər - bu beynəlxalq əmək bölgüsünün inkişafını təmin edən ən qədim faktorlardan biridir. Aydındır ki, ölkənin hər hansı bir resursla yüksək səviyyədə təminatlılığı, yaxud faydalı qazıntılarla aşağı səviyyədə təmin olunması onun beynəlxalq əmək bölgüsündə iştirakını zəruri edir. Aydındır ki, bu zaman birinci və ikinci qrupa daxil olan ölkələr eyni istiqamətdə ixtisaslaşmırlar. Birincilər resursları, yaxud onlardan hazırlanmış əmtəələri ixrac edir, ikincilər isə ya onları idxal edir, ya da onların vasitəsilə son məhsul hazırlayaraq təkrar ixracı həyata keçirirlər. Əgər resursların növ müxtəlifliyini də nəzərə alsaq, ölkələrin ixtisaslaşma istiqamətləri həddən artıq çoxalar. Odur ki, həmin fərqlərin beynəlxalq əmək bölgüsündə əhəmiyyətli rolu danılmazdır.

Onu da qeyd edək ki, beynəlxalq əmək bölgüsü haqqında mövcud olan nəzəri fikirlərə zidd olaraq, bəzən təbii resurslarla yüksək səviyyədə təmin olunmuş ölkələr belə resurslarla aşağı səviyyədə təmin olunmuş ölkələrin iqtisadi-hərbi-siyasi təzyiqləri altında belə resursların intensiv istifadə edildiyi hazır əmtəələrin ixracı üzrə ixtisaslaşmaq əvəzinə yalnız həmin resursların xammal formasında ixracı üzrə ixtisaslaşırlar. Belə vəziyyətin indiyə qədər davam etməsi beynəlxalq əmək bölgüsü sisteminin sağlam şəkildə inkişaf etdirilməsinə ciddi əngəllər törədir.

2. Torpaq-iqlim şəraiti. Əslində bu amil təbii resurslar sırasına daxildir, çünki onlar da faydalı qazıntılar kimi insan əməyinin məhsulu deyildir. Odur ki, bu amilin də beynəlxalq əmək bölgüsünün inkişafına təsir mexanizmi faydalı qazıntılarda olduğu kimi ayrı-ayrı ölkələr arasındakı təbii fərqlərə əsaslanır. Eyni zamanda faydalı qazıntıların hasilatı üzrə ixtisaslaşmış ölkələr kimi torpaq-iqlim amili əsasında ixtisaslaşmış ölkələrin də əsas problemi beynəlxalq əmək bölgüsündə özlərinin istehsal etdiyi kənd təsərrüfatı məhsullarının xammal şəklində ixracı vasitəsilə iştirak etmələridir. Ancaq qeyd edilən oxşarlıqlara baxmayaraq, torpaq-iqlim amilinə əsaslanan ixtisaslaşmanı digər təbii resurslar

üzrə ixtisaslaşmadan fərqləndirən üç mühüm müsbət amil vardır ki, onları mütləq ayırmaq lazımdır:

- birincisi, faydalı qazıntılar tükənən, lakin torpaq bərpa olunan, iqlim şəraiti isə tükənməyən resurslardır. Ona görə də ölkələr bu amil üzrə daha uzunmüddətli ixtisaslaşırlar;
- ikincisi, faydalı qazıntılardan fərqli olaraq, bəzi hallarda, torpaq-iqlim şəraitinə əsaslanaraq beynəlxalq əmək bölgüsündə iştirak edən ölkələr məhz hazır məhsul istehsalı və ixracı üzrə ixtisaslaşmalı olurlar. Ənənəvi turizm və onun yeni növü olan aqroturizm xidmətləri üzrə ixtisaslaşma da buna aid edilir;
- üçüncüsü, torpaq-iqlim amilinə əsaslanan ixtisaslaşmış ölkələr kənd təsərrüfatından intensivləşdirmə, ETT-nin nailiyyətlərinin istehsala aktiv tətbiqi vasitəsilə xərcləri azaltmaq, əvvəlkinə nisbətən son məhsulu xeyli artırmaq imkanına malikdirlər, faydalı qazıntıların hasilatında isə resursların mövcud miqdarından artıq hasil etmək mümkün deyildir.

3. Ölkənin coğrafi mövqeyi. Coğrafi mövqe hazırda bu və ya digər ölkənin beynəlxalq əmək bölgüsündə iştirak istiqamətlərini müəyyən edən ən vacib faktorlardan biridir. Əlverişli coğrafi mövqenin elementlərinə bunları aid etmək olar: iqtisadi mərkəzlərə yaxınlıq, əsas istehlak bazarlarına ya beynəlxalq nəqliyyat marşrutlarına yaxınlıq, beynəlxalq ticarət axınlarının əsas kanallarına yaxınlıq. Coğrafi mövqe amilinin ən müsbət tərəfi və beynəlxalq əmək bölgüsünün inkişaf amillərindən fərqi ondan ibarətdir ki, o, hər ölkəyə nəzərən xammal ixracı-hazır məhsul idxalı problemini doğurmur. Coğrafi mövqenin yuxarıda verilən elementləri ölkələrin nisbətən az xərclərlə çox yüksək inkişafını təmin edən reixrac, tranzit, nəqliyyat xidməti bir çox hallarda emaledici sənayenin məhsulları üzrə ixtisaslaşmanın əsas səbəbidir.

4. Əmək resurslarının ölçülərindəki fərqlər, demoqrafik vəziyyət, potensial və ölkədə ixtisaslı kadrların olması bu amillə ayrı-ayrı ölkələrin müxtəlif səviyyədə təmin olunması beynəlxalq əmək bölgüsündə onlardan bəzilərinin əməktutumlu - əmtəələrin istehsalı, işçi qüvvəsinin ixracatçısı, digərlərinin isə işçi qüvvəsinin idxalatçısı kimi ixtisaslaşmasına səbəb olur. İxtisaslı kadrların olması beynəlxalq əmək bölgüsünün inkişaf etdirilməsinin mühüm faktorlarından biri kimi ona görə qəbul olunmuşdur ki, hazırda hər hansı bir ölkənin müəyyən əmtəə istehsalı üzrə beynəlxalq əmək bölgüsündə inhisarçı mövqeyi demək olar ki, yoxdur və ona görə də kəskin beynəlxalq rəqabət şəraitində məhz yüksək ixtisaslı insanlar öz bilikləri, şəxsi təşəbbüskarlıqları ilə ölkənin malik olduğu müqayisəli üstünlükləri ən əlverişli şəkildə reallaşdırmaq qabiliyyətinə malikdir. qtisadiyyat nə qədər obyektiv qanunauyğunluqlara əsaslansa da o, subyektlər tərəfindən idarə olunur. Odur ki, beynəlxalq əmək bölgüsündə iştirakın ən səmərəli variantına nail olmaq üçün hər bir ölkə həmişə ixtisaslı subyektlərə ehtiyac duyur (3, s.157).

Bu faktorun beynəlxalq əmək bölgüsünün bütün digər inkişaf amillərindən ən əsas keyfiyyət fərqi ondan ibarətdir ki, siyasətçilər, dövlət orqanlarında çalışan iqtisadçılar və s. bu kimi ixtisaslı kadrlar yürütdükləri iqtisadi siyasətlə bir çox hallarda ölkənin beynəlxalq əmək bölgüsündə əvvəllər ixtisaslaşmadığı sahələrdə müqayisəli üstünlüklər əldə etməsinə şərait yaradırlar. Beləliklə, əmək resursları, ixtisaslı kadrlar amili beynəlxalq əmək bölgüsünün həm üfiqi, həm də şaquli istiqamətlərdə dərinləşməsinin ən əsas səbələrindən biridir.

5. Ölkələrin daxili bazarlarının ölçülərindəki fərqlər, məhsuldar qüvvələrin inkişafı, əmək məhsuldarlığının artırılması, istehsalın ən yüksək səviyyədə effektivliyinin təmin edilməsi, istehsal xərclərinin azaldılması zərurəti - bunlar, ümumiyyətlə, daim bütün tarixi mənbələrdə beynəlxalq əmək bölgüsünün inkişafının təkanverici qüvvələri olublar. Ona görə də qeyd edilən amillər beynəlxalq əmək bölgüsünün inkişafının bariz faktorları kimi qəbul edilir. Həmin faktorların beynəlxalq əmək bölgüsünün inkişafına təsir mexanizmini qısa olaraq aşağıdakı ardıcıllıqla izah etmək olar:

- ölkədaxili əmək bölgüsü istehsalın həcmlərinin çoxalması, iqtisadiyyatda yeni sahələrin yaranması ilə nəticələnir, xammal və resurslara olan tələbi artırır, lakin hər bir ölkənin daxili bazarının ölçüləri və təbii faydalı qazıntıların ehtiyatları məhduddur. Bu şəbəbdən də müəyyən dövrdən sonra, ölkə daxilində hər hansı əmtəə növü üzrə istehsal tələbi üstələdiyi zaman təsərrüfat subyektləri məhsuldar qüvvələrin ardıcıl inkişafını təmin etmək, staqnasiya vəziyyətinin qarşısını almaq, zəruri resurslara olan tələbi ödəmək üçün xarici bazarlara çıxmaq məcburiyyətində qalırlar. Bütün ölkələrin istisnasız olaraq qeyd etdiyimiz zərurətlə üzləşməsi son nəticədə beynəlxalq əmək bölgüsünün

formalaşmasına və inkişafına səbəb olur;

- səmərəlilik amili və iqtisadi maraqlar. Qeyd etmək lazımdır ki, beynəlxalq əmək bölgüsünün inkişafı prosesində əsas məsələ ondan ibarətdir ki, burada hər bir ölkə özü beynəlxalq əmək bölgüsündə iştirakından iqtisadi maraqlarına uyğun mənfəət əldə edir. Yəni ölkə müqayisəli üstünlüklərə malik olduğu əmtəələrin istehsalı və ixracı üzrə ixtisaslaşmaqla onları dünya bazarında daxili satış qiymətlərindən daha yüksək qiymətə satır. Müqayisəli üstünlüklərə malik olmadığı əmtəələrin istehsalından imtina edərək ölkə həmin əmtəələri dünya bazarından daxili qiymətlərə nisbətən daha ucuz qiymətlərə almaq imkanı qazanır. Bu səmərəlilik amili hər bir ölkəni müqayisəli üstünlüklərə malik olduqları əmtələrin istehsalı və ixracı üzrə ixtisaslaşmaqda maraqlı edir, beləliklə, beynəlxalq əmək bölgüsünün inkişafı geniş vüsət alır;

- müasir dövrdə Elmi Texniki Tərəqqi prosesi müasir dövrdə beynəlxalq əmək bölgüsünün inkişafının ən vacib amili olmaqla bərabər həmin əlaqələrin genişlənməsində bir növ katalizator rolunu oynayır. ETT istehsalatda tətbiq olunan texnoloji prosesləri, əmtəə növlərinin sayını, onların keyfiyyət tərkibini üfüqi və şaquli istiqamətlərdə əsaslı surətdə dərinləşdirir. Təbii ki, bir ölkə çərçivəsində bütün istehsal növlərinin optimal inkişaf səviyyəsinə nail olmaq mümkün deyildir və onların hər bir hissəsinin ayrı-ayrı ölkələrdə yerləşdirilməsi lazım gəlir. Beləliklə, ETT istehsal üsullarının, əmtəə növlərinin sayını külli miqdarda artıraraq ölkələrin müxtəlif istiqamətlərdə ixtisaslaşmaları üçün geniş imkanlar açır (9, s.67).

Qloballaşma şəraitində beynəlxalq əmək bölgüsünün dərinləşməsi baş verir. Ona görə ki, beynəlxalq ticarətin liberallaşdırılması qloballaşma üçün xarakterik olmaqla, imkan verir ki, ölkənin nisbi üstünlüyü aşkara çıxarılsın və ondan istifadə olunsun. Beynəlxalq əmək bölgüsü dünya təsərrüfatının ehtiyatlarından səmərəli istifadə etməyə imkan verir, eyni zamanda dünyada ixtisaslaşmanın dərinləşməsi ölkələrdə monoixtisaslaşmaya və iqtisadiyyatın diversifikasiyasına gətirib çıxarır. Monoixtisaslaşma birsahəlik, diversifikasiya isə sahələrin müxtəlifliyidir ki, bu da ayrı-ayrı region və ölkələrin iqtisadiyyatına xas olan xüsusiyyətdir. Aydındır ki, monoixtisaslaşma ölkə iqtisadiyyatını bir və ya bir neçə əmtəədən asılı vəziyyətə salar və ETİ ilə əlaqədar olaraq həmin məhsula dünya bazarında tələbatın aşağı düşdüyü, onun yeni, daha mütərəqqi əmtəə ilə bazardan sıxışdırıldığı və bazar konyunkturasından asılı olduğu halda bunun mənfi tərəfləri daha çox olar. Beynəlxalq ixtisaslaşma və kooperativləşdirmə yeni əmtəələrin istehsalının mənimsənilməsi müddətini azaldır və onların kapital tutumunu aşağı salır.

Dünya iqtisadiyyatının müasir inkişaf səviyyəsi beynəlxalq əmək bölgüsünün dərinləşməsi ilə xarakterizə olunur ki, bunu da inkişafın qeyri-bərabərliyi şərtləndirir. Beynəlxalq əmək bölgüsünün müasir inkişaf meyilləri ümumi qanunauyğunluqlarla xarakterizə olunur. Beynəlxalq əmək bölgüsü - ölkələr arasında beynəlxalq əmtəə, xidmət, biliklər, istehsal, elmi-texniki, ticarət mübadiləsinin obyektiv əsasıdır. Onun mahiyyəti istehsal məsrəflərinin azaldılması və istehlakçıların tələbatının maksimum ödənilməsindən ibarətdir.

Daim qarşılıqlı asılılıqda olan dünyanın əsas problemi müxtəlif sistemlərin əməkdaşlığı yox, müxtəlif strukturların qarşılıqlı təsirləridir ki, bunlar da yalnız ölkələrin inkişaf səviyyələri ilə deyil, eyni zamanda onların beynəlxalq əmək bölgüsünə və dünya təsərrüfatına cəlb edilməsi ilə əlaqədardır. Qlobal miqyasda təsərrüfat fəaliyyətinin inteqrasiyası ilə yanaşı, ixtisaslaşma prosesləri də xüsusi əhəmiyyətə malikdir. Beynəlxalq əmək bölgüsü dünya ölkələrində geniş təkrar istehsal proseslərinin həyata keçirilməsində və bu proseslər arasında qarşılıqlı əlaqələrin yaranmasında mühüm rol oynayır (6, s.63).

Dünya təsərrüfat sistemi genişləndikcə və beynəlxalq iqtisadi əməkdaşlıq əlaqələri artdıqca, beynəlxalq əmək bölgüsü proseslərinin dərinləşməsi müşahidə olunmaqdadır. Dünya iqtisadi prosesləri qloballaşdıqca beynəlxalq iqtisadi əlaqələr və beynəlxalq əmək bölgüsü prosesləri daha da sürətlənməkdədir. Bu proseslər ticarət-iqtisadi, maliyyə, elmi-texniki əməkdaşlıq, milli təsərrüfatların beynəlmilləşməsi və kooperasiya əlaqələrini əhatə edir və bütövlükdə dünyada inteqrasiya münasibətlərinin dərinləşməsinə əlavə stimullar verir. Qeyd etmək lazımdır ki, beynəlxalq əmək bölgüsü proseslərinin səmərəli olması, bu proseslərin iştirakçısı olan ölkələrin hüquq bərabərliyi, suveren milli maraqları, qarşılıqlı razılıq və yardım prinsiplərinin vəhdəti, ölkələrin iqtisadi inkişafında əlavə stimulların yaradılması istəklərinin olmasından bilavasitə asılıdır.

## ƏDƏBİYYAT

1. Hacızadə E.M. Dünya iqtisadiyyatı və Azərbaycan. Dərslik. Bakı: "Letterpress" nəşriyyat evi. 2018, 912 s.
2. Əliyev Ş.T. Azərbaycanın xarici iqtisadi siyasəti. Dərs vəsaiti. Sumqayıt: Sumqayıt Dövlət Universitetinin nəşriyyatı, 2015, 185 s.
3. Ə.Sarıyev Beynəlxalq əmək bölgüsü xarici iqtisadi əlaqələrin əsasıdır, Bakı:2015
4. Şükürov A. Qloballaşma: mahiyyəti və prespektivləri. Bakı: 2011
5. Qafarov Ş.S. Müasir iqtisadi sistem və qloballaşma. (Monoqrafiya). Bakı: 2005, 632 s.
6. Həsənov Ə. Müasir Beynəlxalq Münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: 2005
7. Mehdiyev R.Ə. Azərbaycan: qloballaşmanın tələbləri. Bakı: 2005
8. A.N.Abbasbərli: Müasir beynəlxalq münasibətlər və qloballaşma. Dərslik. Bakı: 2007
9. Mirkişili T.F. Azərbaycanın xarici ticarət siyasəti: Reallıqlar və perspektivlər. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2004, 89 s.
10. Kərimli İ.A. Dünya iqtisadiyyatı: beynəlxalq ticarət, maliyyə və inkişaf, Bakı: "CBS", 2006, 166 s.
11. N.Sabiroğlu, Qloballaşma və xarici investisiyalar. Bakı: 2006, 287 s.
12. Ç.M.Abbasov Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları (monoqrafiya). Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası; Geostrateji Araşdırmalar Mərkəzi; Açıq Cəmiyyət İnstitutu - Yardım Fondu. B.: Elm, 2005, 252 s.
13. Ə.İ.Bayramov Regional iqtisadi inteqrasiya: nəzəriyyə və praktika (kitab), Bakı: Azərnəşr, 1997, 208 s.
14. H.B.Allahverdiyev Milli iqtisadiyyatın dövlət tənzimlənməsi. (ali məktəblər üçün dərslik). Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı: 2012, 507 s.

## SUMMARY

**Bulgeyis Novruzova**

### THE MAIN FACTORS OF THE DEVELOPMENT OF THE INTERNATIONAL DIVISION OF LABOR AND THE PRIORITY DIRECTIONS OF COUNTRIES' PARTICIPATION IN THE INTERNATIONAL DIVISION OF LABOR

Involvement of each country and the entire world economy in the international division of labor will help mankind to organize public labor efficiently at the global level, develop international productive forces, increase labor productivity worldwide, reduce the labor capacity of commodities, lower total production costs in the world economy, and make it possible to produce more products, thus contributing to the improvement of the well-being of all mankind.

The international division of labor is considered to be a factor in the formation and development of the world market and the world economy as a whole. The country participating in the international division of labor gets the opportunity to use the existing material and moral potential more optimally, to apply the newest achievements of science and technology worldwide in a short period of time, to realize the restructuring of the economy, to better meet the demand of the population, and to realize national strategic interests. For this reason, the international division of labor is the primary material condition for the establishment of effective international economic relations on a global scale. Therefore, the objective reason for each country's participation in international economic relations is the division of labor and exchange at the international level

In general, the article deals with the essence and purpose, forms and types of the international division of labor, the main factors determining it, its main features and directions, the effects of the international division of labor on the world economy and production factors, the factors characterizing the development of the international division of labor and the participation of countries in this process, the international relations of countries directions for expanding participation in the

division of labor and improving the position have been noted.

***Key words****: division of labor, international division of labor, social division of labor, types of international division of labor, forms of international division of labor, international specialization of production, international cooperation of production, international economic relations, main factors of development of international division of labor*

**РЕЗЮМЕ**

**Булгейис Новрузова**

**ОСНОВНЫЕ ФАКТОРЫ РАЗВИТИЯ МЕЖДУНАРОДНОГО РАЗДЕЛЕНИЯ ТРУДА И ПРИОРИТЕТНЫЕ НАПРАВЛЕНИЯ УЧАСТИЯ СТРАН В МЕЖДУНАРОДНОМ РАЗДЕЛЕНИИ ТРУДА**

Вовлечение каждой страны и всего мирового хозяйства в международное разделение труда поможет человечеству организовать общественный труд на глобальном уровне, развить международные производительные силы, повысить производительность труда во всем мире, снизить трудоемкость товаров и общие издержки производства в мировой экономике, а также способствует сокращению бедности, даст возможность производить больше продукции, тем самым повышая благосостояние всего человечества.

Международное разделение труда рассматривается как фактор формирования и развития мирового рынка и мировой экономики в целом. Страна, участвующая в международном разделении труда, должна более оптимально использовать имеющийся материальный и моральный потенциал, в короткие сроки применить во всем мире новейшие достижения науки и техники, осуществить структурную перестройку экономики, выполнить спрос населения, оно получает возможность хорошо платить и реализовывать национальные стратегические интересы. По этой причине международное разделение труда является основным материальным условием установления эффективных международных экономических отношений в мировом масштабе. Поэтому объективной причиной участия каждой страны в международных экономических отношениях является разделение труда и обмен на международном уровне.

В целом в статье описаны сущность и цель, формы и виды международного разделения труда, основные факторы, его определяющие, его основные черты и направления, влияние международного разделения труда на мировое хозяйство и факторы производства, международное разделение труда и факторы, характеризующие развитие человеческих ресурсов и участие стран в этом процессе, направления расширения участия стран в международном разделении труда и улучшения их положения.

***Ключевые слова:*** *разделение труда, международное разделение труда, общественное разделение труда, виды международного разделения труда, формы международного разделения труда, международная специализация производства, международная кооперация производства, международные экономические отношения, основные факторы развития международного разделения труда*

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Ağarza Rüstəmov*
***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 131-135
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 131-135
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 131-135

**NURİYYƏ İBRAHİMOVA**
*nuriyyeibrahimova@mail.ru*
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 330.34; 330.35**

# NAXÇIVAN DƏHLİZİ, ƏRAZİ BÜTÖVLÜYÜNÜN BƏRPASI VƏ İQTİSADİ ARTIM

*Bölgəmizin uzunmüddətli inkişafı, sabitliyin təmin edilməsi və müharibə risklərinin sıfıra endirilməsi üçün bölgədə nəqliyyat layihələrinin xüsusi rolu vardır və burada iştirak edən bütün ölkələr ancaq xeyir götürəcək, fayda götürəcək. Azərbaycan Naxçıvan vasitəsi ilə, Türkiyə ilə birləşir. Eyni zamanda, Rusiyadan Ermənistana dəmir yolu xətti açıla bilər. Bu xətt yalnız Azərbaycan ərazisindən keçə bilər. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı olacaq. İran ilə Ermənistan arasında dəmir yolu bağlantısı olacaq. Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq. Yəni bütün bölgə ölkələri bundan ancaq xeyir görəcəklər.*

*Naxçıvan dəhlizi "Yeni ipək yolu olacaq" 2020-ci ildə iqtisadi artımın keyfiyyət dəyişikliyi ilə yanaşı, dövlət idarəçiliyinin səmərəliliyinin artırılması və struktur islahatları baxımından addımlar atıldı. Bu baxımdan dövlət idarəetmə islahatlarının aparılması ümumi iqtisadi səmərəliliyə xidmət edir".*

***Açar sözlər:*** *innovativ, biznes, innvestisiya, intensiv, dəhliz, iqtisadi artım*

Vətən müharibəsinin çoxşaxəli əhəmiyyəti bundan ibarətdir – biz həm doğma torpaqlarımızı işğalçılardan azad etdik, düşməni torpaqlarımızdan qovduq, həm də ölkəmizin ərazi bütövlüyünü bərpa etdik.

Eyni zamanda, ölkəmizin gələcəyi ilə bağlı strateji hədəflərə çatmaq üçün əməli addımlar ataraq önəmli sənədləri imzaladıq. Noyabrın 10-da imzalanmış Birgə Bəyanat, əlbəttə ki, Laçın, Kəlbəcər və Ağdam rayonlarının qaytarılmasını təmin etdi, bir güllə atmadan biz bu torpaqlara qayıtdıq. Eyni zamanda, Azərbaycanın onun ayrılmaz hissəsi olan Naxçıvanla birləşməsi də məhz o Bəyanatda təsbit olunur. Həmçinin bu dəmir yolu infrastrukturu Türkiyəyə qədər uzanacaq və beləliklə, Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi yaradılacaqdır.

Bölgəmizin uzunmüddətli inkişafı, sabitliyin təmin edilməsi və müharibə risklərinin sıfıra endirilməsi üçün bölgədə nəqliyyat layihələrinin xüsusi rolu vardır və burada iştirak edən bütün ölkələr ancaq xeyir götürəcək, fayda götürəcək. Azərbaycan Naxçıvan vasitəsi ilə, Türkiyə ilə birləşir. Eyni zamanda, Rusiyadan Ermənistana dəmir yolu xətti açıla bilər. Bu xətt yalnız Azərbaycan ərazisindən keçə bilər. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı olacaq. İran ilə Ermənistan arasında dəmir yolu bağlantısı olacaq. Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq. Yəni bütün bölgə ölkələri bundan ancaq xeyir görəcəklər.

Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi nəticəsində artıq Rusiya ilə Türkiyə arasında bu dəmir yolundan istifadə edilərək yüklər daşınmağa başlanmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Sərhəd Xidmətinin orqanları həyata keçirir və tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək.

Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsi arasında dəhliz yaradılır və bu dəhlizin təhlükəsizliyini Ermənistan yox, Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir. Yəni bu dəhliz tam təhlükəsiz olacaq. Eyni zamanda, ikinci

məsələ - tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasıdır. Bu bizim tarixi nailiyyətimizdir. Biz Naxçıvanı həm mühasirədən çıxarırıq, eyni zamanda, yeni bir nəqliyyat damarını açırıq. Deyə bilərəm ki, bütün ölkələr buradan ancaq faydalanacaq. Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvanla birləşir. Azərbaycan Türkiyə ilə birləşir. Rusiya Azərbaycan, Türkiyə, İran və əgər istəsə, Ermənistan bu dəhlizə qoşula bilər. Beləliklə, bölgədə beştərəfli yeni əməkdaşlıq platforması yaradıla bilər. Mən bu fikrimi artıq həm Rusiya, həm Türkiyə prezidentlərinə çatdırmışam. Həm Rəcəb Tayyib Ərdoğan, həm Vladimir Putin buna müsbət yanaşıblar. Bax, budur bizim təklifimiz. Biz istəyirik ki, bölgədə uzunmüddətli sülh olsun. Buna nail olmaq üçün gərək əməkdaşlıq da təhlükəsizlik tədbirləri ilə birlikdə inkişaf etsin. Biz əməkdaşlığa hazırıq.

Prezidentin sözlərinə görə, göstərilən məsələlərin arasında bizim üçün bir nömrəli məsələ Azərbaycanı Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək və eyni zamanda, Azərbaycanla Türkiyə arasında yeni bir nəqliyyat dəhlizi yaratmaqdır.

“Çünki bildiyiniz kimi, biz Bakı-Tbilisi-Qars dəmir yolunu bir neçə il bundan əvvəl istifadəyə verdik. Bu, artıq Türkiyə ilə Azərbaycan arasında dəmir yolları vasitəsilə bir bağlantıdır. Bu layihə də baş versə, - əminəm ki, baş verəcək, - bu, yeni bir bağlantı olacaq və burada beş ölkə bundan fayda götürə bilər. Regional təhlükəsizlik və əməkdaşlıq üçün bundan da yaxşı layihə ola bilər?

Əsas məsələ nəqliyyat koridorudur, yalnız avtomobil deyil, həm də dəmir yolunun olması reallaşarsa, tamamilə başqa mənzərə yaranacaq. Amma hazırda avtomobil yolunun həmin koridordan keçməsi birinci növbədə Azərbaycanla Naxçıvan arasındakı əlaqələri daha da sürətləndirəcək. Çünki biz artıq İrandan və İran yolundan asılı vəziyyətdə qalmırıq. Bizim Naxçıvanla əlaqələrimiz, əsasən, hava yolu ilə idi, bir də İran vasitəsilə həyata keçirilirdi. Bu, birincisi, Azərbaycanla Naxçıvan arasında iqtisadi baxımdan səmərəlilikdir, həm də Naxçıvanın blokadadan çıxması deməkdir. Çünki Naxçıvan, əsasən, Türkiyə ilə əlaqələr saxlayırdı və bir də İran və Azərbaycanla. Yəni Azərbaycan öz torpağı ilə birbaşa əlaqələrini qurmuş olacaq.

İkinci məsələ, Türkiyə artıq Azərbaycana, Rusiyaya, o cümlədən Orta Asiya ölkələrinə ixrac etdiyi mallarını Ələtdə yerləşən limanda aktivləşdirəcək. Çünki Rusiyaya Türkiyənin ixracı çoxdur, o cümlədən Orta Asiya ölkələrinə. Əgər Türkiyə Orta Asiya ölkələrinə və Rusiyaya öz ixracını həmin koridor vasitəsilə edəcəksə, o cümlədən bizim Ələtdəki dəniz limanımız daha da aktivləşəcək. Bu zaman Azərbaycanın tranzit ölkə kimi əhəmiyyəti artacaq. O cümlədən gələcəkdə İpək Yolunun fəaliyyəti də artacaq.

Bundan sonra ölkəmizin Gürcüstanın nəqliyyat yolundan asılılığı minimuma enəcək. Bir çox məsələlərdə Gücüstan əsas nəqliyyat qovşağı, tranzit yolu idi. Gürcüstan yolu uzaq idi, burada rəqabətdən daha çox, maya dəyərinin artıb-azalmasından söhbət gedir. Sahibkarlar daha yaxşı bilir, malların, yüklərin bir nəqliyyat vasitəsindən digərinə daşınarkən boşaldılması həm vaxt itkisidir, həm də həmin məhsulun daşınmasının maya dəyərinin artırılmasıdır. Əgər siz bir məhsulu yük maşınları ilə daşıyıb, sonra onu gəmiyə yükləyib, gəmidən təzədən başqa nəqliyyat vasitəsinə yükləyirsinizsə və yaxud yük maşınları ilə daşıyıb sonra qatara yükləyirsinizsə, o zaman xərclər çox artır. Kənd təsərrüfatı məhsullarının daşınması bu zaman daha təhlükəli olur. Amma hazırda Naxçıvandan açılacaq olan nəqliyyat yolu aktivləşərsə, mallar Türkiyədə birbaşa yük maşınlarına yüklənəcək, bir də Azərbaycanda, Orta Asiya ölkələrində və ya Rusiyada açılacaq. Əbəs yerə Ərdoğan bunu Turan yolu adlandırmayıb. Həmin nəqliyyat yolu həm də Türkiyəni digər türk dövlətləri ilə də birləşdirəcək. Amma Rusiyanın da burada müəyyən maraqları var. Çünki Rusiya ərəb ölkələri ilə müəyyən iqtisadi əlaqələr qurur, xüsusilə cənubda Krosnodar vilayətində, Dağıstanda kənd təsərrüfatı məhsulları var. Həmin məhsulların Azərbaycan vasitəsilə daşınıb Türkiyəyə çıxması önəm daşıyır.

Rusiyanın burada əsas maraqlarından biri Gürcüstanın tranzit yolu ilə bağlı rolunun azaldılmasındandır. Faktiki olaraq bu yolun açılması həm Azərbaycanı, həm də Türkiyəni bir marşrutdan asılılığını aşağı endirir. Faktiki olaraq Azərbaycanla bütün dünya arasında, o cümlədən Türkiyə arasında yeganə bir marşrut var idi. Boru xətləri, bütün nəqliyyatlar, Amerikadan gətirilən mallar da Gürcüstan vasitəsilə gəlirdi. Bu risklərin konsentrasiyası idi. Amma Naxçıvan dəhlizinin

açılması Azərbaycanın bir marşrutdan asılılığını minimuma endirdi. O cümlədən Azərbaycandan Türkiyəyə, Avropaya gedən məhsulların maya dəyərinə də xeyli təsir göstərmiş oldu.

Rusiyanin da türk dövlətləri ilə əlaqələrinin bərpa olunması, gücləndirilməsi, xüsusilə iqtisadi əlaqələrinin genişləndirilməsi istiqamətində müəyyən planları var. Ən vacib məsələlərdən biri də Çinlə bağlıdır.

Çində "Bir kəmər, bir yol" layihəsi var. Həmin layihədə birbaşa Azərbaycandan yol keçmir. Ancaq Çinin özünün də Avropaya ixrac, idxal əməliyyatlarında həmin dəhlizdən istifadə imkanları artır. Çünki Çinin Türkiyə ilə əlaqələri də artmaqdadır. Ümumiyyətlə, belə dəhlizlərin yaranmasında məqsəd ölkələrin öz iqtisadi risklərini, xüsusilə lojistika, nəqliyyat məsələlərində risklərini minimuma endirmək və bir yol üzərindən konsentrasiyanı aşağı salmaqdır. Amma Rusiya üçün bu yolun xüsusilə böyük əhəmiyyəti var.

Dəmiryolu nəqliyyatı məsələsi olduqca realdır. Rusiyanın ərəb ölkələri ilə yalnız kənd təsərrüfatı məhsulları (İran və Türkiyə böyük rəqibdir) deyil, digər sənaye məhsulları, silahlarla bağlı ciddi əlaqələri var. Bu yoldan Rusiya öz nəqliyyat dəhlizi kimi istifadə edə bilər. Amma hər bir halda qazanan Azərbaycan olacaq və tranzit ölkəsi kimi mövqeyi və rolu əvvəlkindən iki dəfə artmış olacaq.

Vaxtilə itirdiklərimizin bir hissəsini əldə edə biləcəyik. "Yəni Azərbaycanla, Naxçıvanla, Türkiyə arasında yol bərpa ediləcək. Artıq Türkiyə Naxçıvana dəmir yolunun çəkilməsini qərarlaşdırır. Yəqin ki, bu yaxınlarda bu reallaşacaq. Naxçıvan dəhlizi "Yeni ipək yolu" olacaq.

2020-ci ildə iqtisadiyyatda geriləmə fonunda bəzi sahələrdə artımın keyfiyyəti yüksəlib. "İqtisad geriləmənin 4 faizdən artıq olduğu halda, qeyri-neft-qaz sənayesinin modern texnologiyaları tətbiq etməklə 11 faizdən artıq yüksəlməsi, bu sektorun iqtisadiyyatda xüsusi çəkisini 16 faizdən çox edib. Daha çox yeni dəyər yaradan sənayeləşmə isə iqtisadiyyatın rəqabət qabiliyyətini artırır, Harvard Universitetinin hesabladığı "iqtisadi mürəkkəblik indeksi"ni yüksəldir. Emal sənayesində kimya, əczaçılıq, metallurgiya, elektron, optik, rezin, plastik kütlə məhsullarının istehsalının əhəmiyyətli artması idxalın əvəzlənməsi, ixracyönümlülük və dəyər zəncirlərinə qoşulmaq baxımından vacibdir. Neft hasilatının azalması fonunda TAP-in istifadəyə verilməsilə Azərbaycanda qaz hasilatının ilbəil yüksəlməsi və iqtisadi artımı dəstəkləməsi proqnozlaşdırılır",

"Aqrar sahədə də artım daha çox ekstensiv deyil, intensiv yollarla baş verib, pambıq, tütün, tərəvəz, şəkər çuğunduru, taxıl kimi sahələrdə məhsuldarlıq göstəriciləri yüksəlib.

2020-ci ildə həm də innovativ sahə olan informasiya və rabitə xidmətləri də az da olsa, artım tempini qoruya bilib. 2020-ci ildə pandemiya səbəbindən dərin geriləməyə məruz qalmış turizm, nəqliyyat, logistika, tikinti, ictimai iaşə, ticarət kimi sahələrin bu ildən başlayaraq bərpası sahəsində dövlət dəstəyi, sahibkarlıq təşəbbüsləri, sərmayə cəlbi, yeni bazarlara çıxış və yeni biznes modellərin tətbiqi ilə mümkündür.

2020-ci ildə iqtisadi artımın keyfiyyət dəyişikliyi ilə yanaşı, dövlət idarəçiliyinin səmərəliliyinin artırılması və struktur islahatları baxımından addımlar atıldı: "2020-ci ildə siyasi dialoqun dərinləşməsi, kadr islahatlarının aparılması, korrupsiya ilə mübarizə, yeni parlamentin formalaşdırılması, Nazirlər Kabinetinin işinin təkmilləşdirilməsi, yeni iqtisadi siyasət çərçivəsi-İqtisadi Şuranın və işğaldan azad edilən ərazilər üzrə Əlaqələndirmə Qərəgahının yaradılması, su resurslarının idarə edilməsinin təkmilləşdirilməsi, Dövlət İnvestisiya Holdinqinin və YAŞAT fondunun fəaliyyətə başlaması, dövlət idarəçiliyində səmərəliliyin, dövlət nəzarətinin təşkili və icra intizamına əməl olunması istiqamətində görülən işlər mühüm oldu. Dünyada rəqabət idarəetmə sistemləri arasındadır. Bu baxımdan dövlət idarəetmə islahatlarının aparılması ümumi iqtisadi səmərəliliyə xidmət edir"

2020-ci ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti eyni vaxtda bir neçə böhranın uğurla idarəedilməsi təcrübəsini ortaya qoydu.

"Azərbaycan 2020-ci ildə iqtisadi geriləmənin və sosial rifahın düşməsinin daha kəskin olmasının qarşısını almaq üçün yalnız öz resurslarına əsaslandı, manatın sabitliyini qorudu, inflyasiyanı aşağı həddə saxladı, dövlət borcunun artmasına və strateji valyuta ehtiyatlarının kəskin azalmasına imkan vermədi, cari əməliyyatlar hesabı aşağı neft qiymətlərinə baxmayaraq, tarazlığını

qorudu. Hətta maliyyə-bank sektorunda 2020-ci ilin ilk yarısında yaranan neqativ trendlər, ilin ikinci yarısında müsbətə doğru dəyişdi, böhran bu sektora "sıçraya" bilmədi. 2020-ci ildə "fiskal fəza"dan istifadə etməklə dövlət büdcəsində 2,3 milyard manatlıq maliyyə təminatının yaradılması və Mərkəzi Bank tərəfindən ünvanlı likvidlik dəstəyinin göstərilməsi bütövlükdə pandemiya ilə mübarizədə öz sözünü dedi. 2019-cu ildə həyata keçirilən inqilabi sosial islahatların 2020-ci ildə 3 milyard manatlıq maliyyə yükü ilə yanaşı, həm də 3,5 milyard manat civarında anti-pandemiya büdcəsi formalaşdırıldı. Beləliklə, iqtisadiyyatın daha az ziyan çəkməsi onun daha tez bərpası imkanını yaradır.

Qarabağın meşə, su, torpaq, faydalı qazıntı və qeyri-maddi resursları ilə Azərbaycan iqtisadiyyatının dövriyyəsinə cəlb olunması, həmçinin yeni reallığa uyğun olaraq regional nəqliyyat-kommunikasiya imkanlarının genişlənməsi böyük artım potensialına malikdir. Müzəffər Ali Baş Komandan və ordumuzun yaratdığı yeni reallıq ölkə iqtisadiyyatının növbəti 10 ildə iki dəfə artırılmasına inamı gücləndirir. Xüsusən də Qarabağda yaşıl enerji, dağ-mədən, metallurgiya, emal sənayesi, aqrar sahə və turizm kimi sahələr həm dövlət, həm də özəl yerli və xarici sərmayələr hesabına inkişaf etdiriləcək.

Qarabağın azad olması Azərbaycan iqtisadiyyatının genişlənməsinə və diversifikasiyasına töhfə olacaq. Çünki dövlətimizin başçısı demişkən "Qarabağ Azərbaycandır"!

## ƏDƏBİYYAT

1. https://ordu.az/az/news/184167/naxcivan-dehlizi-yeni-ipek-yolu-olacaq 15.02.2021.
2. https://modern.az/Naxçıvan dehlizi-perspektivlər, yeni layihələr. 13.02.2020.
3. www.iqtisadiyyat.com. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! №7(1157) 18-24 fevral 2021.

## SUMMARY

**Nuriya İbragimova**

## NAKHCHIVAN CORRIDOR, RESTORATION OF TERRITORIAL INTEGRITY AND ECONOMIC GROWTH

Transport projects play a special role for the long-term development of our region, ensuring stability and reducing military risks to zero, and all countries involved in them will only benefit from this. Azerbaijan connects with Nakhchivan, with Turkey. At the same time, a railway line from Russia to Armenia may be opened. This line can only pass through the territory of Azerbaijan.

There will also be a railway connection between Russia and Iran on the territory of Nakhchivan. There will be a railway connection between Iran and Armenia. There will be a railway connection between Turkey and Russia. In other words, all the countries in the region will benefit from this.

The Nakhchivan Corridor will become the "new Silk Road" in 2020, along with a qualitative change in economic growth, steps have been taken in terms of improving the efficiency of public administration and structural reforms. In this regard, the implementation of public administration reforms serves the overall economic efficiency

***Key words:*** *innovative, business, investment, intensive, corridor, economic growth*

## РЕЗЮМЕ

**Нурия Ибрагимова**

## НАХЧЫВАНСКИЙ КОРИДОР, ВОССТАНОВЛЕНИЕ ТЕРРИТОРИАЛЬНОЙ ЦЕЛОСТНОСТИ И ЭКОНОМИЧЕСКИЙ РОСТ

Транспортные проекты играют особую роль для долгосрочного развития нашего региона, обеспечения стабильности и снижения военных рисков до нуля, и все страны, участвующие в них, будут только извлекать выгоду из этого. Азербайджан соединяется с Нахчываном, с Турцией. В то же время может быть открыта железнодорожная линия из России в Армению. Эта линия может проходить только через территорию Азербайджана.

Также будет налажено железнодорожная связь между Россией и Ираном по территории Нахчывана. Между Ираном и Арменией будет железнодорожная связь. Будет железнодорожная связь между Турцией и Россией. То есть все страны региона получат от этого только пользу.

Нахчыванский коридор станет "новым Шелковым путем" в 2020 году наряду с качественным изменением экономического роста были предприняты шаги с точки зрения повышения эффективности государственного управления и структурных реформ. В связи с этим проведение реформ государственного управления служит общей экономической эффективности,



***Ключевые слова:*** *инновационный, бизнес, инвестиция, интенсивный, коридор, экономический рост.*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 136-140
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 136-140
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 136-140

**NƏSRİN ƏLİYEVA**
**ÜLVİ SÜLEYMANOV**
*nesrin.lyv06@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 658.8**

# BİZNES FƏALİYYƏTİNDƏ REKLAMIN ROLU VƏ PERSPEKTİV İMKANLARI

*Reklamın biznesi istehsal etdiyi mal və ya xidmətlərə üstünlük verməyə inandırmaqda, məhsula olan ehtiyac və tələbi canlı saxlamaqda danılmaz töhfəsi var. Bizneslər baxımından reklam onlara ən uyğun bazarları tapmağa kömək edən və kapitallarına qənaət etməyə kömək edən bir vasitə, onları mühüm sahələrə investisiya qoymağa təşviq edən bir vasitədir.*

*Reklam - istehlakçıya ona cavab verən minlərlə məhsul arasında ən uyğun və rasional seçim etməsinə kömək edən, eyni zamanda bugünkü həyat tərzində istehlakçıya zaman baxımından kömək edən, müxtəlif mal və xidmətləri təqdim edən, harada və necə olacağını müəyyənləşdirən bir vasitədir. O, əmtəə və xidmətləri hansı qiymətə əldə edə biləcəkləri və onlardan necə istifadə ediləcəyini göstərir. Reklam mənfəət əldə etmək, müəssisə və ya müəssisələr qrupunun xeyrinə yeni müştərilər cəlb etmək üçün kollektiv şəkildə istifadə olunan texniki vasitələr toplusudur.*

*Bu məqalədə reklamın mahiyyəti, məqsədləri, əsas xüsusiyyətləri, biznes fəaliyyətində onun perspektiv imkanları və rolundan bəhs olunur. Məqalədə biznes fəaliyyətində reklam işinin təşkilinin zəruriliyi, müasir istehsal müəssisələri üçün reklam nə dərəcədə vacib olması, satışın artırılmasında reklamın əhəmiyyəti kimi əsas məsələlələr ön plana çəkilmişdir.*

***Açar sözlər:*** *inkişaf, reklam, biznes, müəssisə, bazar iqtisadiyyatı, istehsal*

Hər bir müəssisənin, firmanın, şirkətin əsas məqsədi mənfəət əldə etməkdir. Bunun üçün satışın həcminin artması lazımdır. Reklam fəaliyyətinin effektiv və səmərəli təşkilinin həyata keçirilməsi satışın həcminin artmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Reklam latın sözü olub, "reklamare" sözündən götürülüb və tərcüməsi "ucadan çığırmaq, qışqırmaq və ya məlumatlandırmaq" deməkdir.

Bazar münasibətlərinin inkişafı reklamsız mümkün deyil. Reklam müxtəlif formalı müəssisələrin fəaliyyətində vacib şərtə çevrilmişdir. O, milyonlarla insanların maraqlarına toxunur və onların həyatının ayrılmaz hissəsinə çevrilir. Reklam marketinq kommunikasiya sistemində satışın stimullaşdırılması metodlarından ən əlverişlisidir. Hər gün biz hamımız yerləşdiyimiz yerdən asılı olmayaraq reklam ilə üzləşirik: işdə, evdə, nəqliyyatda, küçədə. O, hər yerdədir. İnsanların bir qismi onu heç sevmir, nifrət edir. Bu ona görədir ki, reklam onların həyatına daxil olaraq öz dəyərlərini tətbiq edir. Bəzi insanlar reklama anlayışlı şəkildə və yaxud yumor hissi ilə yanaşır, digərləri isə ona qarşı neytraldır. Bu ondan irəli gəlir ki, reklamın müsbət tərəfləri ilə yanaşı, mənfi tərəfləri də mövcuddur. Axı nəyə görə insanlar reklama bu cür münasibət göstərirlər. Çox vaxt bu hal insanların hər gün gördükləri və üzləşdikləri reklamın özünü təqdimetmə forma və keyfiyyətindən asılı olur.

Reklam nəyə görə lazımdır? Bəlkə, reklamverənlər ona nahaqdan heç də artıq olmayan vəsaitlərini sərf edirlər? Əslində, reklam, əlbəttə ki, gərəklidir. Hər şeydən öncə, reklam, təklif edilən mallara olan tələbatı tənzimləyir. Reklamın hərəkət mexanizmi çox sadədir – potensial alıcı özündə olmayan hər hansı bir mala edilmiş reklamı eşidib və ya gördükdə onu almaq və ya əldə etmək istəyəcək, əlbətə ki, buna imkanı çatarsa. Reklam – o qədər güclü alətdir ki, o, tamamilə gərəksiz, lazımsız, rəqabətə dayanaqlı olmayan bir malın satınalmasına kömək edə bilər. Əmtəələrin istifadəsində istehlakçı üsulları və xüsusiyyətləri barədə əhalinin vaxtlı-vaxtında və ətraflı

məlumatlandırılması reklamın başlıca məqsədidir (4).

Müasir dövrdə reklam marketinq kommunikasiyasının digər elementləri kimi həm müəssisələr, həm də istehlakçılar üçün əvəzolunmazdır. Çünki sürətlə dəyişən bazar şərtləri, hər keçən gün artan rəqabət nəticəsində bənzər əmtəə və xidmət istehsal edən çoxlu sayda şirkətlərin uğuru onların marketinq kommunikasiyası elementlərindən nə dərəcədə peşəkar və rasional istifadə etməsindən çox asılıdır.

Reklamın biznesi istehsal etdiyi mal və ya xidmətlərə üstünlük verməyə inandırmaqda, məhsula olan ehtiyac və tələbi canlı saxlamaqda danılmaz töhfəsi var. Bizneslər baxımından reklam onlara ən uyğun bazarları tapmağa kömək edən və kapitallarına qənaət etməyə kömək edən bir vasitə, onları mühüm sahələrə investisiya qoymağa təşviq edən bir vasitədir.

Reklam - istehlakçıya ona cavab verən minlərlə məhsul arasında ən uyğun və rasional seçim etməsinə kömək edən, eyni zamanda bugünkü həyat tərzində istehlakçıya zaman baxımından kömək edən, müxtəlif mal və xidmətləri təqdim edən, harada və necə olacağını müəyyənləşdirən bir vasitədir. O, əmtəə və xidmətləri hansı qiymətə əldə edə biləcəkləri və onlardan necə istifadə ediləcəyini göstərir. İstehsalçı ilə istehlakçı arasındakı məsafənin əsrin əvvəllərindən getdikcə artdığını nəzərə alsaq, istehsalçı ilə istehlakçı arasında birbaşa əlaqə itmişdir.

Müasir istehsal müəssisələri üçün reklam nə dərəcədə vacibdir?

Jules Backman demişdir: "İstənilən məhsula tələbat müxtəlif amillərin təsiri altında olur. Bu amilləri istehlakçının gəlirlərinin səviyyəsi və dəyişməsi, qiymətlər, bu məhsulları əvəz edə biləcək digər məhsulların mövcudluğu və xərcləri, əhalinin dəyişməsi, coğrafi şərait, zövqlər, din və adətlər, reklam kimi sadalaya bilərik.

"Reklam bir işin, malın və ya xidmətin ümumi mediada təsvir olunaraq pul qarşılığında geniş kütlələrə elan edilməsidir". Reklamın məlumatlandırıcı və həvəsləndirici tərəfini ortaya qoyan başqa bir tərifdə; "İstehlakçıları bir malın və ya markanın mövcudluğu barədə xəbərdar etmək və məhsul və ya brend, xidmət və ya təşkilata meyl yaratmaq məqsədi ilə gözə və ya qulağa xitab edən mesajların hazırlanması və yayılmasıdır.

Amerika Marketinq Assosiasiyası tərəfindən reklamın tərifi belə verilmişdir: "Bir mal, xidmət və ya ideya üçün ödəniş etməklə və qiyməti kimin ödədiyi anlaşılacaq şəkildə həyata keçirilən və üzbəüz satışdan kənar olan tanıtım fəaliyyətləridir".

Reklam- mənfəət əldə etmək, müəssisə və ya müəssisələr qrupunun xeyrinə yeni müştərilər cəlb etmək üçün kollektiv şəkildə istifadə olunan texniki vasitələr toplusudur. Bu tərifdə o, istehlakçıya, başqa sözlə, reklam mesajını alan alıcıya çatmaqla kütləvi informasiya vasitələrinin əhəmiyyətini vurğulayır.

Reklam tələb yaratmaq sənətidir". Hər hansı bir malı ehtiyacımız olduğu üçün və bu ehtiyacımızı o malın qarşılayacağını bildiyimiz üçün satın alırıq. Ehtiyaclarımızın bir qismi (yemək, içmək, istirahət etmək kimi) zəruri olduğu üçün meydana gəlir. Bir hissəsi zaman və yaşayış şəraitindən yaranır. Yaşadığımız mühitə və qabiliyyətlərimizə görə ehtiyaclarımızı xatırladığımız və ya yenilərinə ehtiyac duyduğumuz anlar olur. Reklam insanların xoş tərəfləri ilə məşğul olduğu əmtəə və xidmətləri təşviq edərək, insanlarda yeni ehtiyaclar yaratmağı hədəfləyir. Ancaq bu tələbi yaradarkən üz-üzə ünsiyyət əvəzinə böyük kütlələrə eyni anda çatmaq üçün kütləvi informasiya vasitələrindən istifadə olunur.

Reklamın əsas xüsusiyyətlərini aşağıdakı kimi sadalaya bilərik:

1. Reklam marketinq kommunikasiyasının elementidir;
2. Reklam müəyyən ödənişlə aparılır;
3. Reklam reklamçıdan istehlakçıya axan mesajlar toplusudur;
4. Reklam kütləvi kommunikasiyadır;
5. Reklam istehlakçını məlumatlandırmağa və inandırmağa çalışır;
6. Reklam mesajları mallar, xidmətlər, vədlər, mükafatlar, problemlərin həlli yollarını ehtiva edir;
7. Reklam biznesin müəyyən etdiyi marketinq strategiyasına uyğun olaraq digər marketinq

kommunikasiyası elementləri ilə müəyyən edilir (2).

Marketinq məqsədlərinə çatmaq üçün reklam koordinasiyalı şəkildə işləyir. İnsanlar arasında mübadilənin (barterin) başlanması və reklam anlayışının yaranması eyni tarixi prosesə təsadüf edir. Qədim Misir, Babil, Yunanıstan və Romada bəzi reklam nümunələrinə rast gəlinir. Köhnə Misirdə qaçan məhbusu tapıb gətirənə mükafat vəd edən adam, papirus, məhbusların xüsusiyyətləri həkk olunmuş divarlar, müxtəlif malların reklamları, sirklər, Roma və Yunanıstan şəhərlərində meydan və künclərdə daşlar üzərində qladiator yarışmaları bu nümunələrin bir neçəsidir. Lakin bu nümunələri real reklam adlandırmaq çətin ki, uyğun səciyyələndirmə olmazdı. İbtidai nümunələrini orta əsrlərdə görməyə başladığımız reklam, kommersiya reklamı və hətta reklam deyə biləcəyimiz bir quruluşdur. Qədim Romada səyahət edən tacirlər küçələrdə, dükan sahibləri dükanlarının qarşısında mallarına müştəri tapmaq üçün qışqırırdılar. Səs ləkələri ilə başlayan reklam, marka və emblemlərin inkişafı ilə fərqli mediaya çevrildi. Xüsusilə orta əsrlərdə sənətkarlar gildiyaları keyfiyyətə nəzarəti əsas götürdükdə brendinq vazkeçilməz bir hadisəyə çevrilmişdir. Bu sayədə istehsal etdikləri mallara hər hansı bir marka qoyan biznesmen, məhsulunu markasız bir məhsuldan daha çox satma şansına sahib idi. Reklamın formalaşması üçün zəruri ilkin şərait yaradan orta əsrlərin iqtisadi və sosial quruluşu, eləcə də dəzgahların istehsalda istifadəsi, üstəlik müxtəlif və yeni bazarlarda istehsalın qiymətləndirilməsi zərurəti və nəhayət nəqliyyatda baş verən inkişaflar meydana çıxmasında əsas amillərdən olmuşdur.

Reklamın məqsədləri

Reklam əsasən hədəf istehlakçı auditoriyasına yönəldilmişdir. Müəyyən effekt yaratmaq və bu auditoriyanın düşüncə və vərdişlərinə təsir etmək, onları alışa yönəltmək və biznesin gəlirliliyini artırmaq məqsədi daşıyır. Müəssisə, istehlakçının gözündə əmtəələrin mənfəət-xərc balansını reklam vasitəsi ilə biznes üçün daha çox qazanc gətirəcək bir formaya çevirir. Lakin yuxarıdakı məqsədə çatmaq üçün reklam hədəf istehlakçı auditoriyasına çatmalı və mesajlarını bu auditoriyaya çatdırmalıdır.

Reklam vasitələri istehsalçıdan gələn mesajları istehlakçı auditoriyasına çatdırır. Əgər düzgün alət və vaxt seçilməyibsə, görülən işin heç bir mənası yoxdur. Məsələn: uşaqlar üçün gecə saat 23:00-da televiziyada bir reklam və ya mesajın yayımlanması və ya məktəbəqədər uşaqlar üçün başlanan reklam kampaniyası üçün reklam vasitəsi kimi qəzetin seçilməsi zəhmətin boşa çıxmasına səbəb olar. Burada diqqət yetirilməli olan başqa bir məqam səs-küy elementidir. Səs elementi bir mesajdan, mənbədən təyinat yerinə gedən yolda qarşılaşdığı bütün maneələrdir. Belə maneələrə reklam işlərində də rast gəlmək olar. Məsələn: televiziya reklamı zamanı ötürücülərdə baş verə biləcək nasazlıq və ya elektrik kəsilməsi, yayım kanallarında çaşqınlıq və s. (1).

Məlum olduğu kimi, reklamın kommunikasiya məqsədi qərəzsiz ünsiyyətdir. Reklamdan gözlənilən və həyata keçirilməsi arzulanan əsas məqsəd istehsalçı tərəfindən təklif olunan məhsulun bazara satışını təmin etmək və ya satışı davam etdirmək, bazar tərəfindən bir məhsula mövcud tələbatı artırmaqdır. Reklamın satış məqsədi qısamüddətli və uzunmüddətli olmaqla iki şəkildə görünür.

Qısa müddətdə reklam mal və ya xidmətləri həvəsləndirərək kiçik bir müddət ərzində xidməti almağa razı salmağa çalışır. Uzunmüddətli perspektivdə şirkətlər istehlakçıya gətirəcəkləri üstünlükləri və faydaları göstərərək, istehsal etdikləri mal və ya xidmətləri reklam vasitəsilə tanıtdıra bilirlər.

Biznes fəaliyyətində reklamın əsas məqsədləri aşağıdakılardır:

1. İstehlakçıya və ya vasitəçiyə məlumat vermək;
2. Qısa və ya uzun müddətdə mal və xidmətlərin istehlakının artırılması;
3. Topdan və pərakəndə satıcıya köməklik etmək;
4. Mal və ya xidmətlərə tələbin yaradılması;
5. Tələbin qiymət elastikliyini minimuma endirmək.

Reklamın ünsiyyət və satış məqsədi ümumi məqsədlərdir. Bununla belə, istehsalçıların bu məqsədlərdən başqa, reklam edərkən nail olmaq istədikləri bəzi xüsusi məqsədləri də var. Ümumi məqsədlərdən kənar olan və qısa müddətdə baş verməsi gözlənilən bəzi maddələr, şirkətin həmin dövr

üçün daxil olduğu problemlərin həlli üçün konkret məqsədləri aşağıdakı kimi sadalamaq mümkündür:

1. Biznesin nüfuzunu təmin etmək;
2. Şəxsi satış proqramını dəstəkləmək;
3. Paylama kanalı ilə əlaqələrin inkişaf etdirilməsi;
4. Həmin sektorda ümumi tələbatı artırmaq;
5. Məhsulu sınamağa inandırmaq üçün;
6. Xeyirdən istifadəni intensivləşdirmək;
7. Malların seçiminə davam etmək;
8. Şəklin yoxlanması və ya dəyişdirilməsi;
9. Vərdişlərin dəyişdirilməsi;
10. Yaxşı xidməti vurğulamaq;
11. Bazarda hökmranlıq etmək və inhisar quruluşuna keçmək;
12. Müəssisənin nüfuzunun artırılması və s.

Budur ki, bugünkü bazar strukturunda olan və ya bazara girməyi planlaşdıran hər bir şirkət reklam fəaliyyətləri həyata keçirir və bu fəaliyyətlər üçün şirkət büdcələrindən milyardlarla dollar vəsait ayrılır və nəticədə reklamın köməyilə biznes daha da inkişaf edir, böyüyür (3).

## ƏDƏBİYYAT


1. Axundbəyli P.X. Reklam işinin təşkili və idarə edilməsi. Dərslik. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı 2016, 416 s.
2. Füsun Topsümer, Müge Elden. Reklamcılık. 14. Baskı İstanbul:2015,
3. Doç. Dr.Abdullah Özkan, Reklam yönetimi, Yayın No: 2014 – 19, İstanbul: 2014
4. http://docs.neu.edu.tr


## SUMMARY

**Nasrin Aliyeva, Ulvi Suleymanov**

## THE ROLE OF ADVERTISING IN BUSINESS ACTIVITY AND PROSPECTIVE OPPORTUNITIES


Advertising has an undeniable contribution to persuading business to give preference to the goods or services it produces and to maintaining the need and demand for the product. For businesses, advertising is a tool that helps them find the most suitable markets and retain their capital by encouraging them to invest in important areas.

Advertising is a means which helps the consumer to make the most suitable and rational choice among thousands of products, and at the same time helps the consumer in terms of time in the modern lifestyle, presents various goods and services, determines where and how to advertise.

It shows at what price they can get goods and services and how to use them. Advertising is a set of technical means used together to generate profit and attract new customers in the interests of an enterprise or group of enterprises.

This article studies the essence, goals, main features of advertising, its prospective opportunities and role in business activity. The article highlights the importance of advertising in business activities, the role of advertising for modern production enterprises, and the significance of advertising in increasing sales.


***Key words:*** *development, advertising, business, enterprise, market economy, production*

## РЕЗЮМЕ

**Насрин Алиева, Ульви Сулейманов**

## РОЛЬ И ПЕРСПЕКТИВНЫЕ ВОЗМОЖНОСТИ РЕКЛАМЫ В ПРЕДПРИНИМАТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ

Реклама вносит несомненный вклад в убеждение бизнеса отдавать предпочтение товарам или услугам, которые он производит, поддерживая потребность и спрос на продукт. С точки зрения бизнеса, реклама — это инструмент, который помогает ему найти наиболее подходящие рынки сбыта и сохранить свой капитал, побуждая его инвестировать в важные области.

Реклама – это инструмент, помогающий потребителю сделать наиболее целесообразный и рациональный выбор среди тысяч встречающих его товаров, и в то же время помогает потребителю с точки зрения времени в условиях современного образа жизни, представляет различные товары и услуги, определяет, где и как быть. Он показывает, по какой цене они могут получить товары и услуги и как их использовать. Реклама представляет собой совокупность технических средств, используемых совместно для получения прибыли и привлечения новых клиентов в интересах предприятия или группы предприятий.

В данной статье рассматриваются сущность, цели, основные черты рекламы, ее перспективные возможности и роль в предпринимательской деятельности. В статье на первый план выдвигаются такие основные вопросы, как необходимость организации рекламной работы в хозяйственной деятельности, насколько важна реклама для современных производственных предприятий, значение рекламы в увеличении продаж.

***Ключевые слова:*** *разработка, реклама, бизнес, предприятие, рыночная экономика, производство*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 141-149
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 141-149
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 141-149

**HƏSƏN ABBASOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 338.43**

# MÜASİR TƏKAMÜL MƏRHƏLƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA SAHƏVİ TƏNZİMLƏMƏNİN TƏCRÜBİ ASPEKTLƏRİ VƏ ONLARIN REGİONAL MÜQAYİSƏLİLİYİ MƏSƏLƏLƏRİ

***Tədqiqatın məqsədi*** *ölkə miqyasında aqrar sferada sahəvi tənzimləmənin alət və mexanizmlərinin tətbiqi səviyyəsinin öyrənilməsi, istehsal subyektləri üzrə monitorinqlərin icrası əsasında məlumatların ümumiləşdirilməsi və müvafiq məsələlərdə regional müqayisəliliyin təmin edilməsidir.*

***Tədqiqatın metodologiyası*** *müşahidə, qruplaşdırma, müqayisəli təhlil, zəncirvarı əlaqə və asılılıq metodlarından istifadə olunmuşdur.*

***Tədqiqatın nəticələri*** *– ölkəmizdə, onun regionlarında müstəqilliyin əldə edilməsindən sonrakı dövrdə aqrar sahənin inkişafının əyani nəticələr üzrə öyrənilməsi, zəruri istiqamətlərdə ümumiləşdirmələrin icrası, təkmilləşməyə imkan yaradan alət və mexanizmlərinin tətbiqi xüsusiyyətlərinin qiymətləndirilməsi.*

***Tədqiqatın praktiki əhəmiyyətini*** *müstəqil Azərbaycan Respublikasının aqrar sektor üzrə regional miqyasda qarşılaşdırmaların həyata keçirilməsi, araşdırılan obyektlərin spesifik cəhətləri əsasında müvafiq yekunlaşdırma işlərinin həyata keçirilməsi təşkil edir.*

***Tədqiqatın orijinallığı və elmi yeniliyi*** *– Azərbaycan Respublikası üzrə kənd təsərrüfatının sistemli və kompleks təkamülünə imkan yaradan sahəvi tənzimləmənin mümkün olması, bəhs olunan istiqamətdə yenilikçi daxili və xarici təcrübənin tətbiqi.*

***Açar sözlər:*** *sahəvi tənzimləmə, aqrar sfera, iqtisadi sistem, regional müqayisəlilik, Naxçıvan regionu, Azərbaycan Respublikası*

## GİRİŞ

Müasir inkişaf və yenilənmə mərhələsində ölkəmizin sosial-iqtisadi inkişafı, onun istehsal və tədavül, xarici ticarət və iqtisadi-təşkilati təmayüllü imkanlarının genişləndirilməsi onun cəmiyyət olaraq tərəqqisinə, insanlarının maddə-rifah halının yaxşılaşdırılmasına xidmət etməkdədir. Dünyanı bürüyən hazırkı iqtisadi böhran, kütləvi xəstəliklərin tüğyan etməsi, xarici valyuta məzənnələrində müşahidə olunan qeyri-sabit situasiyalar, mənfur qonşularımızdan hər an gözlənilən və zaman-zaman reallığa çevrilən xainliklər, sosial-psixoloji, intellektual haqsızlıqlar və digər mənfi məqamlar ölkənin cari idarə edilməsində kifayət qədər böyük səylərin sərf edilməsini tələb etməkdədir.

Bu sırada özünəməxsusluğu ilə fərqlənən tədqiqat obyektlərindən biri də aqrar sahə hesab olunmaqdadır. Haliyədə davam etməkdə olan Rusiya – Ukrayna müharibəsi ölkəmizə birbaşa aidiyyatı ilə fərqlənməsə də, iki nəhəng taxıl istehsalçısının qarşıdurması dünyanın bir çox ölkəsini əhatə edən taxıl və qarğıdalı məhsulları üzrə çatışmazlıqları şərtləndirmişdir ki, bu da ümumilikdə həmin məhsul növləri üzrə qiymətlərin tənzimlənmə imkanlarının məhdudlaşmasında özünü büruzə vermişdir.

Haqqında bəhs olunan "əmtəə qiymətləri – maliyyə çətinlikləri" adlı qarşılaşdırma haliyədə mənfi xarakteristikalı tandem kimi araşdırmaya məruz qalmaqdadır. Çoxsaylı təsir amillərinin bir çox halda xaotik, planlaşdırılmayan təsiri onun obyektinə olan ehtiyacların səviyyəsində, həmin obyektin kəmiyyət-keyfiyyət ifadələrində əyani şəkildə özünü büruzə verməkdədir.

Bununla belə istənilən ölkədə və ya onun ayrı-ayrı regionlarında hər bir iqtisadi inkişaf epoxası

özünün bəlli dövrləri əhatə edən tənzimləyici tədbirləri ilə yanaşı, *şok* effekti ilə fərqlənən digər tədbirləri ilə də (yeni istehsal sahələrinin istismara verilməsi, qiymət amillərinin tənzimlənməsi, istehsalçıların maddi və digər şəkildə həvəsləndirilməsi və s.) təmsil olunmaqdadır.

İfadə etdiklərimizdən də göründüyü kimi, müasir inkişaf mərhələsi istər ölkəmiz üçün, istərsə də dünyanın bir çox digər ölkələri (xüsusilə də ərzaq qıtlığı ilə üzləşmiş üçüncü ölkələr qrupu) üçün kifayət qədər taleyüklü problemlərlə, ziddiyətli məsələlərlə, əksər hallarda məhdud iqtisadi imkanlarla müşayiət olunmaqdadır. Belə olduqda cari dövrdə istər aqrar sahədə icra edilməkdə olan fəaliyyətin, istərsə də sahəvi tənzimləmənin üzərində kifayət qədər öhdəliklər və vəzifələr müəyyənləşməkdədir.

Müvafiq situasiyaların aradan qaldırılması ölkələrin yenidən sağlam ümumiqtisadi, o cümlədən kənd təsərrüfatı təməllərinin yaxşılaşdırılması məqsədilə "planlaşdırma – təchizetmə - fəaliyyətrin ümumi və istehsal təyinatlı təşkili – məhsulların reallaşdırılması" marşrutu üzrə maksimal mümkün məqsədyönlü istifadəsi labüddür. Deyilən imkanların məhsuldarlığının artırılması məqsədilə "mövcud tənzimləmə qərarlarından mümkün istifadə - yeni tənzimləmə qərarlarının qəbulu sahəsində hərtərəfli sahələrin göstərilməsi" tandeminin tələblərinin daim işlək vəziyyətdə saxlanılması da vacibdir.

## ÖLKƏ MİQYASINDA AQRAR SFERANIN İNKİŞAFININ MÜASİR MƏSƏLƏLƏRİ

Aqrar sahə hər bir ölkənin ərzaq təminatında öncül yerlərdən birini tutmaqdadır. Bu sırada tədqiqatın qurulması ilk növbədə bitkiçilik istiqamətindən başlanılmalı, aqrar sahəyə yararlı torpaqlara xüsusi diqqət ayrılmalıdır. Bəhs olunan obyekt haqqında müfəssəl informasiyanın əldə olunması yönündə ilk addım kimi cədvəl 1-ə diqqət yetirmək yerinə düşərdi.

***Cədvəl 1. Kənd təsərrüfatına yararlı torpaqlar***

| İllər | Kənd təsərrüfatına yararlı torpaqlar | | o cümlədən | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | əkin yeri | | dincə qoyulmuş torpaqlar | | çoxillik əkmələr | | biçənək və örüş-otlaq sahələri | |
| | Min ha | % | Min ha | % | Min ha | % | Min ha | % | Min ha | % |
| **1990** | 4382,9 | 100,0 | 1589,0 | 36,3 | 80,8 | 1,8 | 347,4 | 7,9 | 2365,7 | 54,0 |
| **2000** | 4740,4 | 100,0 | 1766,8 | 37,3 | 58,8 | 1,2 | 236,8 | 5,0 | 2678,0 | 56,5 |
| **2010** | 4766,8 | 100,0 | 1842,7 | 38,6 | 41,4 | 0,9 | 227,4 | 4,8 | 2655,3 | 55,7 |
| **2017** | 4777,5 | 100,0 | 2054,7 | 43,0 | 39,8 | 0,8 | 246,8 | 5,2 | 2436,2 | 51,0 |
| **2018** | 4779,5 | 100,0 | 2057,9 | 43,1 | 40,0 | 0,8 | 255,0 | 5,3 | 2426,6 | 50,8 |
| **2019** | 4779,7 | 100,0 | 2056,5 | 43,0 | 39,5 | 0,8 | 260,3 | 5,5 | 2423,4 | 50,7 |
| **2020** | 4780,1 | 100,0 | 2045,2 | 42,8 | 39,2 | 0,8 | 272,7 | 5,7 | 2423,0 | 50,7 |
| **2021** | 4780,6 | 100,0 | 2049,8 | 42,9 | 39,2 | 0,8 | 274,1 | 5,7 | 2417,5 | 50,6 |

Cədvəl məlumatlarının üfuqi və şaquli araşdırılmasından aydın olur ki, 1990-ci illə müqayisədə 2021-ci ilin ümumi nəticələrində aqrar sahəyə yararlı torpaqların həcmindəki kənarlaşma 9,1% (4780,6 : 4382,9) və ya 397,7 min ha (4780,6 – 4382,9) təşkil etmişdir. Bu sırada əkin yerlərinin həcmlərindəki xüsusi çəkilər 36,3%-dən 42,9%-dən tərəddüd etmişdir. Bu sırada həmin göstəricinin ən yüksək nisbi göstəricisi 43,1%-ə bərabər olmuşdur ki, bu da 2057,9 min ha səviyyəsində qiymətləndirilməlidir. Bu sırada torpaqların dincə qoyulması sahəsində 1990-cı ildə 80,8 min ha-dan 2021-ci ildə 39,2 min ha-ya geriləmə müşahidə olunmuşdur (kənarlaşma 41,6 min ha, və ya 1,0%).

Heyvandarlıq təyinatına istifadə olunan torpaq sahələrinin quruluşunda da dalğalanmalar müşahidə olunmuşdur. Bununla belə 1990 və 2021-ci illərin müqayisəsi həmin hərəkətlənmənin müsbət yönündən xəbər verməkdədir. Bu ifadə mütləq ifadə baxımından 51,8 min ha-ya, nisbi ifadədə isə 2,1%-ə bərabər olmuşdur. Bu sahədə nisbi kəmiyyətlər ölçüsündə də 3,4%-lik artım müşahidə

olunmaqdadır ki, bu da illər üzrə aqrar sahənin ümumi torpaq həcmində biçənək və örüş-otlaq sahələrinin həcmində artışdan xəbər verməkdədir.

Cədvəl 1-də verilən və kənd təsərrüfatına özünün yararlılığı ilə fərqlənən sahələr sırasında əkin sahələri özünün xüsusiyyətləri ilə fərqlənməkdədir. Bu külliyata sistemli yanaşmanın təmin edilməsi məqsədilə əkinəyararlı sahələrlə yanaşı, həmin bitkilərin məhsuldarlığı və istehsal olunan ümumi məhsul göstəriciləri vahid müstəvidə birləşdirilməlidir (Cədvəl 2).

***Cədvəl 2.***

| İllər | Dənli və dənli paxlalılar | Pambıq | Tütün | Kartof | Tərəvəz | Bostan bitkiləri |
|---|---|---|---|---|---|---|
| **I.Kənd təsərrüfatı bitkilərinin növlər üzrə əkin sahələri, bütün təsərrüfat kateqoriyaları üzrə, min ha** | | | | | | |
| **1990** | 583,4 | 263,9 | 14,8 | 23,8 | 41,8 | 9,1 |
| **2000** | 648,2 | 101,2 | 8,1 | 52,5 | 56,8 | 26,8 |
| **2010** | 968,0 | 30,2 | 1,4 | 65,8 | 81,1 | 31,9 |
| **2017** | 977,2 | 136,4 | 3,2 | 58,8 | 69,3 | 23,4 |
| **2018** | 1083,1 | 132,5 | 3,4 | 59,3 | 69,5 | 20,9 |
| **2019** | 1072,3 | 100,1 | 3,1 | 56,9 | 69,4 | 21,4 |
| **2020** | 989,1 | 100,3 | 3,1 | 57,0 | 66,6 | 20,0 |
| **2021** | 998,7 | 100,6 | 3,1 | 56,1 | 68,3 | 20,2 |
| **II.Kənd təsərrüfatı bitkilərinin növlər üzrə məhsuldarlığı, bütün təsərrüfat kateqoriyalar üzrə, sent/ha** | | | | | | |
| **1990** | 24,2 | 20,6 | 32,7 | 78 | 200 | 74 |
| **2000** | 23,8 | 9,1 | 22,2 | 84 | 133 | 98 |
| **2010** | 20,7 | 12,7 | 24,0 | 145 | 142 | 137 |
| **2017** | 29,8 | 15,3 | 16,6 | 150 | 155 | 187 |
| **2018** | 30,0 | 17,6 | 19,0 | 149 | 162 | 191 |
| **2019** | 32,1 | 29,5 | 19,3 | 169 | 176 | 209 |
| **2020** | 31,8 | 33,6 | 22,1 | 174 | 188 | 224 |
| **2021** | 32,8 | 28,5 | 21,3 | 184 | 190 | 228 |
| **III.Bitkiçilik məhsullarının növlər üzrə istehsalı, bütün təsərrüfat kateqoriyaları üzrə, min ton** | | | | | | |
| **1990** | 1413,6 | 542,9 | 52,9 | 185,2 | 856,2 | 67,5 |
| **2000** | 1540,2 | 91,5 | 17,3 | 469,0 | 780,8 | 261,0 |
| **2010** | 2000,5 | 38,2 | 3,2 | 953,7 | 1189,5 | 433,6 |
| **2017** | 2928,8 | 207,5 | 5,3 | 913,9 | 1405,6 | 438,1 |
| **2018** | 3309,2 | 233,6 | 6,3 | 898,9 | 1521,9 | 401,9 |
| **2019** | 3538,5 | 295,3 | 6,0 | 1004,2 | 1714,7 | 447,6 |
| **2020** | 3257,1 | 336,8 | 6,9 | 1037,6 | 1738,9 | 448,1 |
| **2021** | 3363,0 | 287,0 | 6,4 | 1062,0 | 1815,5 | 459,9 |

Cədvəl 2-də ifadə edilən bloklar biri-digərini tamamlamaqdadır. Digər tərəfdən onlar mümkün kənarlaşmaların səbəblərinə də aydınlıq gətirmək iqtidarındadır. Bunu qruplardan birinin göstəriciləri əsasında izah etmək yerinə düşərdi. Məsələn, kartof üzrə əkin sahələrinin həcmi 2000-2020-ci illər üzrə 52,5 min hektarla 57,0 min hektar arasında tərəddüd etməkdədir. Onun məhsuldarlıq göstəricilərindəki tərəddüd eyni zaman kəsiyi üçün 84 – 174 sent/ha, istehsal həcmi üzrə isə 469 – 1037,6 min tondur. Dinamika sıralarında məhsuldarlıq göstəricisinin maksimal ifadəsi 184-ə, istehsal olunmuş məhsul göstəricisinin maksimal ifadəsi isə 1062-yə bərabərdir.

Deyilənlər əsasında maksimal yekun nəticələrin müəyyən edilməsi nümunəsinə baxaq. Kartof üzrə əkin sahələrinin maksimal göstəricisi 65,8 min ha (2010) ilə onun məhsuldarlığının analoji

ifadəsi 184 sent/ha (2021) hasil olaraq qarşılaşdırıldıqda 1210,7 min ton nəticəsini alırıq ki, bu da sırada göstərilmiş ən yeksək göstəricidən 148,7 min ton çoxdur (1210,7 – 1062,0). Deməli, müsbət kənarlaşmanı təşkil edən bu istehsal həcmi ehtiyat mənbəsi kimi də qiymətləndirilə bilər. Bəhs olunan həcmin əldə olunması məqsədilə əkin sahələrindən optimal istifadə, aparıcı təcrübi nəticələrin istehsalata tətbiqi və aidiyyatı tənzimləmə amillərinin imkanlarının maksimal tətbiqi zəruridir. Göstərilən nümunəvi hesablamaları cədvəl 2-nin bütün məhsul kateqoriyaları üzrə təşkil etmək mümkündür.

Digər tərəfdən cədvəl 2-də ifadə olunmuş məlumatların əyaniliyini artırmaq məqsədilə diaqramlardan da istifadə oluna bilər.

***Diaqram 1.Dənli vəm dənli paxlalılar istehsalı***




Diaqram 1-dən də göründüyü kimi, dənli və dənli paxlalıların istehsalında dalğalanmalar müşahidə olunmaqdadır. Baxmayaraq ki, diaqram 1-də zaman ifadəsi 1990-2021-ci illəri əhatə etməkdədir, onun ən yüksək nəticəsinə 2019-cu ilin nəticəsində rast gəlirik (3538,5 min ton). Digər tərəfdən müvafiq göstərici sıranın minimal ifadəsindən 2,5 dəfə (3538,5 : 1413,6) və ya 2125,2 min ton (3538,8 – 1413,6) çoxdur.

Cinsi ifadədə bitkiçilik məhsulların araşdırılması ilə yanaşı, heyvandarlıq məhsullarına da diqqətin yetirilməsi zəruridir. Bunu cədvəl 3-ün məlumatları əsasında nəzərdən keçirək.

***Cədvəl 3.*** *Əsas heyvandarlıq məhsullarının istehsalı, bütün təsərrüfat kateqoriyaları üzrə, min ton*

| İllər | Ət (kəsilmiş çəkidə) | Süd | Yumurta, milyon ədəd | Yun (fiziki çəkidə) | Barama | Bal |
|---|---|---|---|---|---|---|
| **1990** | 175,5 | 970,4 | 985,3 | 11,2 | 4902 | 0,5 |
| **2000** | 153,6 | 1031,1 | 542,6 | 10,9 | 66,6 | 0,6 |
| **2010** | 244,9 | 1535,8 | 1178,6 | 15,6 | 6,0 | 1,9 |
| **2017** | 316,8 | 2024,1 | 1714,0 | 16,0 | 245,2 | 3,0 |
| **2018** | 326,0 | 2080,4 | 1676,2 | 15,8 | 513,9 | 5,0 |
| **2019** | 335,7 | 2150,8 | 1827,1 | 16,1 | 643,7 | 5,8 |
| **2020** | 346,0 | 2192,5 | 1906,2 | 16,1 | 446.6 | 6,6 |
| **2021** | 357,6 | 2223,4 | 1838,8 | 16,1 | 497.4 | 6,8 |

*Mənbə: stat.gov.az/agriculture/food/1.85*

1990-cı illə müqayisədə 2021-ci ildə heyvandarlıq məhsullarının istehsal həcmləri haqda məlumat aşağıdakı kimi qiymətləndirilə bilər:

- ✓ ət (kəsilmiş çəkidə) üzrə *artım*: 182,1 min ton (357,6 – 175,5) və ya 2,1 dəfə (357,6 : 175,5);

- ✓ süd üzrə *artım*: 1253 min ton (2223,4 – 970,4) və ya 2,3 dəfə (2223,4 : 970,4);
- ✓ yumurta üzrə *artım*: 853,5 mln. ədəd (1838,8 – 985,3) və ya 1,9 dəfə (1838,8 : 985,3);
- ✓ yun (fiziki çəkidə) üzrə *artım*: 4,9 min ton (16,1 – 11,2) və ya 43,8% (16,1 : 11,2);
- ✓ barama üzrə *geriləmə*: -4404,6 min ton (497,4 – 4902) və ya -89,9% (497,4 : 4902);
- ✓ bal üzrə *artım*: 6,3 min ton (6,8 -0,5) və ya 13,6 dəfə (6,8 : 0,5).

Hesablamalardan da göründüyü kimi, cədvəldə verilən göstəricilərin dinamikası, barama istisna olmaqla, müsbətdir. Onlar sırasında müsbət nisbi kəmiyyətlərin tərəddüd intervalı 43,8%-dən 13,6 dəfəyə bərabərdir. Bununla belə cinsi ifadə ilə yanaşı, aqrar sahədə dəyər ifadəsində də göstərilərin mütləq və nisbi formada müəyyən edilməsi zəruridir. Bunu cədvəl 4-ün məlumatları əsasında müəyyənləşdirmək məqsədəuyğundur.

***Cədvəl 4.*** *Kənd təsərrüfatının ümumi məhsulu, faktiki qiymətlərlə, milyon manat*

| | **İLLƏR** | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | **1990** | **2000** | **2010** | **2017** | **2018** | **2019** | **2020** | **2021** |
| **I.Bütün təsərrüfat kateqoriyaları üzrə** | | | | | | | | |
| Cəmi | 0,102 | 1112,4 | 3877,7 | 6580,0 | 7010,0 | 7836,7 | 8428,9 | 9163,4 |
| Bitkiçilik məhsulları | 0,065 | 617,7 | 1999,2 | 3019,0 | 3186,0 | 3751,2 | 4028,4 | 4511,0 |
| Heyvandarlıq məhsulları | 0,037 | 494,7 | 1878,5 | 3561,0 | 3824,0 | 4085,5 | 4400,5 | 4652,4 |
| **II. Kənd təsərrüfatı müəssisələri üzrə** | | | | | | | | |
| Cəmi | 0,062 | 23,9 | 192,6 | 645,4 | 660,9 | 713,2 | 834,5 | 885,9 |
| Bitkiçilik məhsulları | 0,046 | 17,8 | 60,0 | 238,5 | 262,1 | 321,0 | 438,3 | 467,3 |
| Heyvandarlıq məhsulları | 0,016 | 6,1 | 132,6 | 406,9 | 398,8 | 392,2 | 396,2 | 418,6 |
| **III. Fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları** | | | | | | | | |
| Cəmi | 0,040 | 1088,5 | 3685,1 | 5934,6 | 6349,1 | 7123,5 | 7594,4 | 8277,5 |
| Bitkiçilik məhsulları | 0,019 | 599,9 | 1939,2 | 2780,5 | 2923,9 | 3430,2 | 3590,1 | 4043,7 |
| Heyvandarlıq məhsulları | 0,021 | 488,6 | 1745,9 | 3154,1 | 3425,2 | 3693,3 | 4004,3 | 4233,8 |

Kənd təsərrüfatının ümumi məhsulu bütün təsərrüfat kateqoriyaları üzrə dəyər ifadəsində ilk növbədə aşağıdakı göstəriciləri xarakterizə etməkdədir:

1. 1990-cı illə müqayisədə 2021-ci ildə cəmi dəyər ifadəsində artım 9163,3 milyon manat və ya 89837,3 dəfədir;
2. Eyni kateqoriya üzrə bitkiçilik məhsullarının 1990-cı ilə nisbətən 2021-ci ildəki artımı bərabərdir: 4510,9 milyon manat və ya 69400 dəfə;
3. Eyni kateqoriya üzrə heyvandarlıq məhsullarının 1990-cı ilə nisbətən 2021-ci ildəki artımı olacaq: 4652,36 milyon manat və ya 125740,5 dəfə.
4. 1990-cı ildə bitkiçilik və heyvandarlıq sahələrinin cəmi ifadəsində xüsusi çəkisi 56,9% və 43,1%, 2021-ci ildə isə müvafiq olaraq 49,2% və 50,8%.

Analoji qaydada kənd təsərrüfatı müəssisələri üzrə və fərdi sahibkar, ailə və ev təsərrüfatları üzrə göstəriciləri də hesablamaq mümkündür. Belə olduqda, kənd təsərrüfatı müəssisələri üzrə həmin göstəricilər aşağıdakı kimidir:

1. *Cəmi* ifadəsində - 885, 84 milyon manat və ya 14288,7 dəfə;
2. Bitkiçilik ifadəsi üzrə - 476,254 milyon manat və ya 10158,7 dəfə;
3. Heyvandarlıq ifadəsi üzrə - 418,584 milyon manat və ya 26162,5 dəfə.
4. Kənd təsərrüfatı müəssisələri üzrə 1990-cı ildə bitkiçilik və heyvandarlıq sahələri üzrə xüsusi çəkilər 74,2% və 25,8%, olduğu halda, 2021-ci ildə həmin xüsusi çəkilər müvafiq olaraq 52,7% və 47,3%-dir.

Cədvəldəki 3-cü bloku – fərdi sahibkarların, ailə kəndli və ev təsərrüfatlarının göstəriciləri təşkil etməkdədir. Eyni illərin müqayisəsi nəticəsində aşağıdakı kəmiyyət ifadələri üzə çıxmaqdadır:

1. *Cəmi* ifadəsində - 8277,46 milyon manat və ya 206937,5 dəfə;
2. Bitkiçilik üzrə - 4043,681 miyon manat və ya 212826,3 dəfə;
3. Heyvandarlıq üzrə - 4233,779 milyon manat və ya 201609,5 dəfə;
4. Fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları 1990-cı ildə bitkiçilik və heyvandarlıq sahələri üzrə xüsusi çəkilər 47,5% və 52,5% olduğu halda, 2021-ci ildə həmin xüsusi çəkilər müvafiq olaraq 48,9% və 51,1%-dir.

Hər üç blok üzrə nisbi kəmiyyətlərdəki "dəfə" ifadələri kifayət qədər böyük olsa da, burada inflyasiya və digər amillərin payını yadddan çıxarmaq lazım deyil.

**Aqrar müstəvidə sahəvi tənzimləmə fəaliyyəti**

Müasir iqtisadi şərait dövlət aparatı tərəfindən idarəetmə fəaliyyətinin məhdudlaşması ilə, onun qarşılığında isə tənzimləmə üzrə fərqli üsul, alət və mexanizmlərin tətbiq imkanlarının genişlənməsi ilə müşayət olunmaqdadır. Tənzimləmə addımları özünün obyektini əhatə etməsi ilə, onların sistemli və kompleks şəkildə tətbiqi ilə xaraktertizə olunmaqdadır. Tənzimləmə tərkibinin genişliyinə diqqət yetirməklə məqalədə xüsusi əhəmiyyət sahəvi tənzimləməyə verilməkdədir.

Sahəvi tənzimləmə iqtisadi sistemin tərkib elementlərinə xüsusi diqqətin ayrılmasını şərtləndirməkdədir. Sahəvi tənzimləmənin miqyasından və digər şərtlərindən asılı olaraq müxəlif təsnifləşdirmələrdən istifadə oluna bilər. Onun obyekti kimi bütöv sahələr, sahədaxili istiqamətlər və ya daha kiçik miqyaslı obyektlər çıxış edə bilərlər.

Digər tərəfdən sahəvi tənzimləmədə sarı, yaşıl və mavi rəngli tənzimləmə tədbirlərinin mövcudluğu, onun tətbiqinın şərtləri və imkanları tənzimləmə sahəsində müvafiq işlərin həyata keçirilmə xüsusiyyətlərini ifadə etməkdədir.

Yaddan çıxarmaq lazım deyil ki, sahəvi tənzimləmə fəaliyyətinin tətbiqi ilə yanaşı, konkret tənzimləmə obyekti ilə bağlı müfəssəl düşüncənin mövcudluğu da nəzərdən yayınmamalıdır. Bu isə müvafiq tandemin formalaşmasına imkan yaratmaqdadır. Hansı halda, hansı növ tənzimləyici tədbirlərin tətbiq edilməsi də mühüm əhəmiyyət kəsb etməkdədir.

Tənzimləmə fəaliyyətinin maddələr üzrə təmərküzləşməsi, müvafiq seçimlərin icra olunması, maddələr üzrə kəmiyyət plankalarının dəqiqləşdirilməsi kimi addımlar sahəvi tənzimləmə fəaliyyətində daha yüksək nəticələrin əldə olunmasına şərait yaratmaqdadır.

Sahəvi tənzimləmədə mühüm elementlərdən biri də - obyektlərarası əlaqələrin hüquqi-normativ vasitələrin tələbləri əsasında uyğunlaşdırılmasıdır. Hər hansı fəaliyyətin ardıcıllığının təmin edilməsi digər şərtlərlə yanaşı, tənzimləmə funksiyası ilə də nizama salınmaqdadır.

Sahəvi tənzimləmənin tətbiqi sahəsindən asılı olaraq torpaq sahələri və yerquruluşu reallıqları, təbii iqlim şərtləri, məhsul növlərinin təbii tərkib xarakteristikaları və digər komponentlər daxil ola bilər.

Sahəvi tənzimləmədə spesifik məqamlardan birini də sarı, mavi və yaşıl tədbirlər sisteminin tətbiq olunması nəzərdə tutulan tədqiqat obyekti ilə uyğunluğunun müəyyən edilməsidir. Eyni zamanda, qarşılaşdırmada fəaliyyət mərhələlərinin quruluş və xarakterik cəhətlərinin lokal və məcmu şəklində müşahidə olunmasına və araşdırılmasına, qiymətləndirilməsinə və sonrakı təhlilinə xüsusi diqqət ayrılmalıdır. Obyektin bütöv sahə olması ilə yanaşı, onun araşdırılmasının fərdi regionlar səviyyəsində icra olunması, yaxud bir neçə rayonun kəmiyyət-keyfiyyət ifadələrinin qarşılaşdırılması, onların real imkanlarının (təbii-iqlim qurşaqları, əkin sahələrinin imkanları, əsas fondlarla təminolunma, sahələr üzrə ixtisaslaşma dərəcələri, su ehtiyatları ilə təchizedilmə və s.) qiymətləndirilməsi, bu əsasda isə sahəvi tənzimləmə əməliyyatlarının kompleks şəkildə həyata keçirilməsi bəhs olunan yöndə yerinə yetiriləsi mühüm əməliyyatlardan hesab olunmaqdadır.

## NƏTİCƏ

Aqrar sferada haqqında bəhs olunan məsələlərin hər biri spesifik xarakterli problemlərlə müşayiət olunmaqdadır. Bunlardan birincisi, Azərbaycan Respublikasında kənd təsərrüfatına yararlı torpaq sahələrinin həcmlərinin sonsuz olmamasıdır. Onlar bir tərəfdən istifadə edildikcə özünün aktiv

*məhsulyaratma* və ya bunun üçün *imkanyaratma* keyfiyyətlərini tədricən itirməsidirsə, digər tərəfdən başqa məqsədlər üçün torpaq sahələrindən istifadə olunması da (mənzil tikintisi, yolların salınması, istehsal, xidmət və sosial obyektlərin istismara verilməsi və s.) öz sözünün demiş olur.

Bəhs olunan istiqamətdə atılacaq addımlardan birini də aqrar sahədə innovasiyaların tətbiqi, aparıcı fəaliyyət yönlərinin təkamülü və transformasiya tədbirlərinin icrası üçün investisiyaların yönəldilməsi, bu sırada aparıcı tənzimləmə faktorlarının tətbiqi imkanlarının mümkünlüyü, onların qiymətləndirilməsi və nəticələrinin təhlili mühüm əhəmiyyət kəsb etməkdədir.

Aqrar sahənin real istehsal və reallaşdırma tələbləri ilə yanaşı, onun təchizat-tədarükat imkanları da nəzərə alınmalıdır. Belə ki, məqalədə sadalanan situasiyaların xüsusiyyətlərindən asılı olaraq fərdi vəziyyətlər yarana bilər ki, bu da istər dövlət, istər yerli orqanlar, istərsə də subyektin özü tərəfindən tənzimləmə prosesinə tabe tutula bilər.

Bütün iqtisadi sistemdə olduğu kimi, kənd təsərrüfatında da fəaliyyətin ümumi şəkildə təşkili və həyata keçirilməsi planlaşdırma, menecment, marketinq, proqnozlaşdırma, maliyyələşdirmə və digər amillərin tammənalı, məqsədyönlü tətbiqi və istifadəsindən asılıdır. Ardıcıl təşkilatlanma, məqsədlərin müəyyənləşdirilməsi, istehsal olunacaq məhsulun forma-məzmun, növ-tərkib və digər xüsusiyyətlərinin dəqiqləşdirilməsi, yeni məhsulların mənimsənilməsi üzrə nizamlama işlərinin icrası, texniki və texnoloji yeniliklərin nəzəriyyədən təcrübəyə keçidi kimi addımların atılması daha mütərəqqi səviyyə və mərhələlərə keçidi şərtləndirməkdədir.

Qeyd olunduğu kimi, aqrar sahənin tələbləri ilə yanaşı, sahəvi tənzimlənmənin də özünün fərdi tələbləri mövcuddur. Belə ki, fərdi tədris və tədqiqat istiqaməti kimi qiymətləndirilən sahəvi tənzimləmə öz növbəsində özündən sonrakı addımların atılması zamanı baza rolunda çıxış etməkdədir. Belə ki, tənzimlənməyə məruz qalan hər bir istehsal və ya xidmət mərhələsi özündən sonrakı mərhələnin də təkamülünə təsir etməkdədir. Bu isə bütün istehsal mərhələlərinə ən azı transformativ xarakterli təsir göstərməkdədir.

Digər tərəfdən isə "aqrar sahə - sahəvi tənzimlənmə" tandemini formalaşdıran müstəvidə qruplaşdırılmış tələb və ehtiyacların bildirilməsi, onların əsasında *qarşılayıcı tədbirlərin* hazırlanması və təcrübədə istifadəsi planlaşdırıcı xarakterlə yanaşı, real istehsal və xidmət imkanlarına uyğunlaşdırmanı da həyata keçirməkdədir.

Tənzimləmə özü-özlüyündə iqtisadiyyatın mühüm proseslərindən hesab olunmaqdadır. Bununla yanaşı, öz ətrafında hər hansı fəaliyyətin və ya ümumilikdə çoxsaylı yönlərin, istiqamətlərin alət və mexanizmlərini cəmləməklə sahənin hərtərəfli formalaşmasına, onun gücləndirilməsinə və təkmilləşdirilməsinə nail olunması bəhs olunan *cütlüyün* mühüm vəzifələrindən hesab olunmaqdadır.

Deyilənləri ümumiləşdirərək qeyd etmək mümkündür ki, ümumilikdə iqtisadi sistemdə, o cümlədən onun ayrı-ayrı tərkib elementlərində tənzimləmə fəaliyyətinin rolu əvəzolunmazdır. O, özünün bütün formaları ilə ölkənin, fərdi regionların, həmçinin regionlararası əlaqələrin (yük mübadiləsi və digər istiqamətlərdə) ən optimal və səmərəli yerləşməsinə və fəaliyyət göstərməsinə, mümkün maksimal nəticələrin əldə olunmasına şərait yaratmaqdadır.

İstehsaldan öncəki təchizat (tədarük), istehsalın özü, həmçinin istehsaldan sonrakı reallaşdırma proseslərinin hər biri tənzimləmə proseslərinin gedişatında mühüm obyekt hesab olunmaqdadır, ölkənin sosial-iqtisadi inkişaf meyllərinin dəqiqləşdirilməsində mühüm rol oynamaqdadır

## ƏDƏBİYYAT

1. Böyük İqtisadi Ensiklopediya (akademik Z.Ə.Səmədzadənin ideya müəllifliyi və baş redaktorluğu ilə), IV cild, Bakı: Şərq-Qərb, 2012, 591 s.
2. Böyük İqtisadi Ensiklopediya (akademik Z.Ə.Səmədzadənin ideya müəllifliyi və baş redaktorluğu ilə), V cild, Bakı: Şərq-Qərb, 2012, 629 s.
3. Allahverdiyev H.B. və b. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: Nasir, 2002, 446 s.
4. Bağırov M.S. Müəssisə vəsaitləri mühasibat uçotunda. *Monoqrafiya*. I kitab. Müəssisə əmlakı. Naxçıvan: Əcəmi, 2022, 280 s.

5. Bağırov M.S. Statistikanın təməl bilikləri. Naxçıvan: Əcəmi, 2020, 525s.
6. Quliyev T.Ə. Menecmentin (idarəetmənin) əsasları. Bakı: Qərənfil. 2006, 591s.
7. Hüseynov T.H. Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika. Bakı: Elm, 2015, 466 s.
8. Mahmudov C.İ., Bağırsoylu H.Q. Sosial-iqtisadi inkişafın proqnozlaşdırılması. *Dərs vəsaiti*. Naxçıvan: Əcəmi, 2019, 264 s.
9. Haçızadə. E.M. Sosiallaşan iqtisadiyyat. Bakı: Elm, 2006, 509s.
10. Atakişiyev M.C., Abbasov H.M., Abbasova N.M. Mikro və makroiqtisadiyyat. Bakı: Azərnəşr, 2010, 508s.
11. www. stat.gov.az/agriculture/1.75

## SUMMARY

**Hasan Abbasov**

## PRACTICAL ASPECTS OF SECTORAL REGULATION IN THE REPUBLIC OF AZERBAIJAN AT THE PRESENT STAGE OF EVOLUTION AND ISSUES OF THEIR REGIONAL COMPARABILITY

**The purpose of the research** – to study the level of application of tools and mechanisms of sectoral regulation in the agrarian sphere on a national scale, generalization of data based on the implementation of monitoring on production subjects and ensuring regional comparability in relevant issues.

**Research methodology**-observation, grouping, comparative analysis, chain link and dependence methods are used.

**The results of the study**- the study of the development of the agrarian sector in the period after gaining independence in our country and its regions according to demonstrable results, the implementation of generalizations in the necessary directions, an assessment of the features of the use of tools and mechanisms that allow improvement.

**The practical significance of the research** is the realization of comparisons on the regional scale in the agricultural sector of the independent Republic of Azerbaijan, the realization of relevant finalization works based on the specific aspects of the investigated objects.

**The originality and scientific novelty of the research** is the possibility of sectoral regulation, which ensures the systematic and integrated development of agriculture in the Republic of Azerbaijan, the use of innovative internal and external experience in this direction.

***Key words:*** *sectoral regulation, agrarian sphere, economic system, regional comparability, Nakhchivan region, Azerbaijan Republic.*

# РЕЗЮМЕ

**Гасан Аббасов**

## ПРАКТИЧЕСКИЕ АСПЕКТЫ ОТРАСЛЕВОГО РЕГУЛИРОВАНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ НА СОВРЕМЕННОЙ СТАДИИ УСОВЕРШЕНСТВОВАНИЯ И ВОПРОСЫ ИХ РЕГИОНАЛЬНОЙ СОПОСТАВИМОСТИ

***Цель исследования*** – изучение уровня применения инструментария и механизмов отраслевого регулирования в аграрной сфере в масштабах страны, обобщение материалов на основе исполнения мониторингов на основе производственных субъектов и обеспечение региональной сопоставимости по соотвествующим вопросам.

***Методоогия исследования*** – использование методов наблюдения, классификации, сопоставительного анализа, цепной зависимости и цепных отношений.

***Результаты исследования*** – изучение на основе практических результатов развитие аграрной отрасли в период после обретения независимости в стране и ее регионах, проведение обобщения в необходимых направлениях, оценивание особенностей применения инструментария и механизмов, создающих возможности их усовершенстования.

***Практическое значение исследования*** – претворение в жизнь сопоставления в региональном масштабе аграрного сектора Азербайджанской Республики, проделывание соответствующих обобщающих работ на основе специфичных характеристик исследуемых объектов.

***Оригинальность и научная новизна исследования*** – возможность отраслевого регулирования, делающая преемлимым системное и комплексное усовершенствование сельского хозяйства в Азербайджанской Республике, применение в повествуемом направлении новаторской внутренней и внешней практики.

***Ключевые слова:*** *отраслевое регулирование, аграрная сфера, экономическая система, региональная сопоставимость, Нахчыванская область, Республика Азербайджан*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Nazim Əhmədov*
***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 150-162
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 150-162
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 150-162

**RƏŞAYİL İSMAYILOV**
*rashail.ismayilov@gmail.com*
*"Azərsu"ASC-nin "Sukanal"*
*Elmi-Tədqiqat və Layihə İnstitutu*
**CAVADXAN QASIMOV**
*cavadxan.yusifoglu@ndu.edu.az*
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 338; 658**

# AZƏRBAYCANDA SEKTORLARARASI SUDAN İSTİFADƏNİN QİYMƏTLƏNDİRİLMƏSİ

*Məqalədə Azərbaycanın su ehtiyatları və bu ehtiyatlardan suvarma və kənd təsərrüfatı, içməli su təchizatı və hidroenerji istehsalı məqsədlərilə istifadənin müqayisəli təhlili aparılmışdır. Təbii su mənbələrindən götürülən suyun həcminin dəyişməsinin təhlili zamanı yerüstu su mənbələrindən götürülən suyun həcmində azalma baş verdiyi halda, yeraltı su mənbələrindən götürülən suyun həcmində artım müşahidə olunmuşdur. Mənbələr üzrə sugötürmələrin təhlili zamanı yeraltı su mənbələrindən istifadədə olan artım gələcəkdə ərazinin ekosistemində böyük problemlərə səbəb ola bilər.*

*Tədqiqat işində fəaliyyət növləri üzrə təbii mənbələrdən götürülən şirin suyun bölgüsü, sektorlararası sudan istifadənin təhlili də aparılmışdır. Su təchizatı müəssisələri tərəfindən götürülən suyun həcminin dəyişməsinin təhlili zamanı götürülən suyun həcmində 0,08 km$^3$ (22,9%) artım müşahidə edilmişdir. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq təsərrüfatı tərəfindən götürülən suyun həcminin dəyişməsinin təhlili zamanı suyun həcmində 2,01 km$^3$ (21,4%) artım müşahidə olunmuşdur. Emal sənayesi və Elektroenergetika müəssisələri tərəfindən götürülən suyun həcminin çoxillik məlumatlarının təhlili zamanı götürülən suyun həcmində azalma müşahidə edilmişdir. Bu dövr ərzində emal sənayesi tərəfindən götürülən suyun həcmində 0,063 km$^3$ (96,9%), Elektoenergetika müəssisələri tərəfindən götürülən suyun həcmində isə 8,2% (0,05 km$^3$) azalma baş vermişdir.*

*Çoxillik dövr ərzində nəql zamanı suyun itkisində artım müşahidə olunmuşdur. Nəql zamanı suyun itkisində 2000-2020-ci illər ərzində 10% və ya 0,35 km$^3$ artım müşahidə edilmişdir.*

***Açar sözlər:*** *su çatışmamazlığı, yeraltı su, elektoenergetika müəssisələri, emal sənayesi, su təchizatı*

## Giriş

Su çatışmazlığı, və qeyri-qənaətbəxş su təchizatı və kanalizasiya xidmətləri dünyanın bir çox ölkələrinin ərzaq təhlükəsizliyinə və insanların rifahına mənfi təsir göstərir. Quraqlıq bir çox kasıb ölkələrin əhalisinin aclığına və həyat şəraitinin pisləşməsinə gətirib çıxarır. Təsadüfi deyil ki, davamlı inkişafın 17 məqsədindən 6-sı təmiz su və sanitariyaya həsr olunmuşdur. Qeyd olunur ki, 2050-ci ilə kimi dünya ölkələrində yaşayan hər dörd insandan biri xroniki və ya təkrarlanan şirin su çatışmazlığına məruz qalacaqdır. Bütün bu riskləri nəzərə alaraq, Azərbaycanda əhalinin 24 saat fasiləsiz, təmiz və Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin olunması məqsədilə genişmiqyaslı layihələr həyata keçirilmiş və keçirilməkdədir.

Azərbaycanda əhalinin artımı və iqtisadiyyatın inkişafı ərazidə sudan istifadə tələbatını artırır. Bu da ərazidə su təminatının pisləşməsini və təbii su mənbələrinin çirklənməsini sürətləndirir. Ölkənin dayanıqlı inkişafında su əsas həlledici amillərdən biridir. Müasir dövrdə su ehtiyatlarından,

əsasən, sənayedə, kənd təsərrüfatında, əhalinin içməli su təchizatında, enerji istehsalında və s. istifadə olunur. Digər təbii ehtiyatlardan fərqli olaraq su ehtiyatları təbiətdə su dövranı hesabına daim özünübərpa qabiliyyətinə malikdir. Lakin respublikanın su ehtiyatları məhduddur və bu ehtiyatlar ərazi üzrə qeyri-bərabər paylanmışdır. Bu baxımdan Azərbaycanın su ehtiyatlarının ciddi hesabatı və onun düzgün proqnozlaşdırılması məsələsi aktual problemə çevrilmişdir. Respublikada iqtisadi inkişafın davamlı olması, artan tələbatın müvəffəqiyyətlə ödənilməsi üçün su ehtiyatlarından səmərəli istifadə etmək olduqca vacibdir.

**Tədqiqatda istifadə edilən materiallar və metodika**

Tədqiqat işinin aparılması üçün “Azərsu” ASC-nin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Dövlət Statistika Komitəsinin fond və arxiv materiallarından istifadə olunmuşdur. Tədqiqatda müqayisəli təhlil metodundan istifadə olunmuşdur. Tədqiqatda coğrafi-hidroloji, hidroloji analogiya, riyazi statistik təhlilin aparılmasında və su ehtiyatının hesablanmasında SPSS Statistics - (“Sosial elmlər üçün statistik paket”-“Statistical Package for the Social Sciences”) və EXCEL proqramlarından istifadə edilmişdir.

**Tədqiqatın nəticələri**

Hazırda respublikada orta illik su çatışmazlığı 3,7 km$^3$, az sulu illərdə isə 4,75 km$^3$ təşkil edir. Çaylardan ekoloji, energetika və digər məqsədlər üçün məcburi su buraxmalarını nəzərə alsaq, su çatışmazlığının kəmiyyət göstəriciləri təsəvvür edilməz qiymətə malik olacaqdır. Azərbaycanın su mənbələrindən götürülən suyun 60-70%-i suvarma və kənd təsərrüfatı məqsədləri üçün, 20-25%-i istehsal ehtiyacları üçün, qalan hissəsi isə məişət (təsərrüfat)-içmək məqsədləri üçün su tələbatının ödənilməsinə sərf edilir [2,s.3].

Azərbaycanda əhalinin içməli su təminatında həm yerüstü, həm də yeraltı su mənbələrindən istifadə olunur. Ölkənin su ehtiyatları, onların istifadə və mühafizəsi aşağıdakı rəqəmlərlə səciyyələndirilir (cədvəl 1).

***Cədvəl 1.*** *Azərbaycan Respublikasının su ehtiyatları və onlardan istifadə*

<table>
<tr><th colspan="2">Su ehtiyatlarının növləri</th><th>Su ehtiyatları, km$^3$</th><th>Təbii mənbələrdən götürülən su həcmi, km$^3$</th></tr>
<tr><td rowspan="2">Yerüstü sular</td><td>Yerli</td><td>10,6</td><td rowspan="2">10,1</td></tr>
<tr><td>Transsərhəd</td><td>20,3</td></tr>
<tr><td colspan="2">Yeraltı sular</td><td>4,38</td><td>1,40</td></tr>
<tr><td colspan="2">Cəmi</td><td>35,3</td><td>11,5</td></tr>
</table>

Yerli çay su ehtiyatları orta hesabla 10,6 km$^3$ təşkil etdiyi halda, son dövrdə hər il 11,5 km$^3$ sudan istifadə olunur. Təəssüf ki, çay su ehtiyatlarımızın təqribən 70%-i (20,3 km$^3$) qonşu ölkələrin ərazisində formalaşaraq transsərhəd çaylar vasitəsilə Azərbaycan ərazisinə daxil olur. Qeyd etmək lazımdır ki, bu çay suları ölkəmizə çirklənmiş vəziyyətdə gəlib çatır [5,s.7].

Bütövlükdə Azərbaycan Respublikası su ehtiyatları məhdud olan ölkə hesab olunur. Hər bir nəfərə düşən suyun miqdarı 3253 m$^3$/il təşkil edir. Təkcə yerli su ehtiyatlarını nəzərə alsaq, onda bu rəqəm 1051 m$^3$/ilə bərabər olar. Dünya Ehtiyatları İnstitutunun proqnozuna görə, 2025-ci ildə Azərbaycan bir nəfərə düşən yerli su ehtiyatı ən az olan ölkələr sirasına düşəcəkdir (972 m$^3$/il). ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin iqlim dəyişmələri ilə bağlı hesabatında iqlim dəyişməsindən ən çox ziyan çəkəcək 39 ölkənin sırasında Azərbaycanın adı qeyd olunmuşdur. Havanın temperaturunun 2-3$^o$C-yə qədər artacağına dair proqnozları nəzərə alsaq, qarşıdakı 50 il ərzində həm yerüstü, həm də yeraltı suların 15% azalacağı gözlənilir [5,s.6].

Dövlət sudan istifadə uçotu informasiyalarından istifadə olunaraq (2000-2020-ci illər) su mənbələrindən götürülən suyun miqdarı sektorlar üzrə təhlil olunmuşdur. Belə ki, bu dövr ərzində təbii su mənbələrindən götürülən suyun həcmi 9,91-12,59 km$^3$ arasında dəyişmişdir. Su

mənbələrindən götürülən suyun ən yüksək miqdarı 2019-cu ildə, ən kiçik miqdarı isə 2002-ci ildə olmuşdur (şəkil 1). Ümumiyyətlə, son 21 ildə təbii su mənbələrindən orta hesabla 11,5 km$^3$ su götürülmüşdür. Bu dövr ərzində təbii su mənbələrindən götürülən suyun həcmində 1,8 km$^3$ (17%) artım müşahidə edilmişdir.




*Şəkil 1. Təbii su mənbələrindən götürülən suyun həcminin dəyişməsi*

Su mənbələrindən götürülən suyun həcmi bu templə davam etsə 2030-cu ildə 13,2 km$^3$, 2040-cı ildə 13,99 km$^3$, 2050-ci ildə isə 14,86 km$^3$ olacağı proqnozlaşdırılır (Şəkil 2).




*Şəkil 2. Təbii su mənbələrindən götürülən suyun həcminin dəyişməsinin proqnozlaşdırıması*

Təhlil həm yerüstü su mənbələrindən götürülən suyun miqdarı, həm də yeraltı su mənbələrindən götürülən suyun miqdarı üçün ayrı ayrılıqda aparılmışdır. Çoxillik dövr ərzində yerüstü su mənbələrindən götürülən suyun miqdarında azalma müşahidə edilmişdir (Şəkil 3). Bu dövr ərzində yerüstü su mənbələrinindən götürülən suyun həcmində 0,28 km$^3$ (2,81%) azalma baş vermişdir.




***Şəkil 3. Yerüstü su mənbələrindən götürülən suyun həcminin dəyişməsi***

Eyni təhlil yeraltı su mənələrindən götürülən suyun həcmi üçün də aparılmışdır. Təhlil zamanı çoxllik dövr ərzində yeraltı su mənbələrindən götürülən suyun miqdarında artım müşahidə edilmişdir (şəkil 4). Orta çoxillik dövr ərzində yeraltı su mənbələrindən götürülən suyun həcmində 2,03 $km^3$ atım müşahidə edilmişdir.




**Şəkil 4. Yeraltı su mənbələrindən götürülən suyun həcminin dəyişməsi**

Mənbələr üzrə sugötürmələrin təhlili zamanı yeraltı su mənbələrindən istifadədə olan artım gələcəkdə ərazinin ekosistemində böyük problemlərə səbəb olacağına əsas verir. Məlum olduğu kimi, Azərbaycanın təsdiq olunmuş yeraltı su ehtiyatı 4,38 $km^3$-dur [4,s.5]. Yeraltı su mənbələrindən götürülən suyun həcminin dəyişməsi proqnozlaşdırılmışdır (Şəkil 5).




***Şəkil 5. Yeraltı su mənbələrindən götürülən suyun həcminin dəyişməsinin proqnozlaşdırılması***

Yeraltı su mənbələrindən götürülən suyun həcmi bu templə davam etsə, 2030-cu ildə 3,42 km$^3$, 2040-cı ildə 4,43 km$^3$, 2050-ci ildə isə 5,45 km$^3$ olacağı proqnozlaşdırılır (Şəkil 5). Əvvəldə də qeyd etdiyimiz kimi, yeraltı su mənbələrindən bu templə istifadə böyük ekoloji fəlakətə yol aça bilər. Bu baxımdan yeraltı su mənbələrindən istifadə azaldılmalı, yerüstü su mənbələrindən istifadəyə üstünlük verilməlidir.

Su sektoru bir neçə mərhələdən və çoxsaylı maraqlı tərəflərdən ibarət olan mürəkkəb bir ekosistemdir. Əhali və qeyri-əhali istehlakçılarının su ilə təchiz edilməsi üçün su, ilk növbədə, mənbələrdən qəbul edilməklə anbarlarda saxlanılmalı, daha sonra boru kəmərlərindən və digər zəruri avadanlıqlardan ibarət infrastruktur vasitəsilə son istehlakçılara çatdırılmalıdır. Nəhayət, tullantı suyunun qəbul edilməsi və təmizlənməsi bu ekosistemi tamamlayır, eləcə də çirkab suları təmizlənərək təhlükəsiz şəkildə sistemin özünə qaytarılır. Bu baxımdan, su ehtiyatlarından səmərəli istifadə edilməsi, suyun istifadəsində qənaətli texnologiyaların tətbiqi, su itkilərinin azaldılması, istifadə edilən suyun qiyməti və digər məsələlər ölkənin dayanıqlı su təminatı baxımından böyük əhəmiyyət kəsb edir.

Son iki-üç onillikdə Azərbaycanda bazar iqtisadiyyatına keçidlə əlaqədar sənaye və kənd təsərrüfatında baş verən əsaslı dəyişikliklər su təminatı və sudan istifadə problemlərinə, çayların rejimi və su ehtiyatlarına təsirsiz ötüşə bilməzdi. Buna görə də qeyri-stasionar iqlim şəraiti və çay sutoplayıcılarında təsərrüfat fəaliyyətinin əsaslı şəkildə dəyişdirildiyi son 20-25 ildə ölkəmizin su ehtiyatları və su təminatında baş verən dəyişmələrin araşdırılması çox mühüm məsələlərdən biridir. Həmçinin nəzərə almaq lazımdır ki, su ehtiyatlarının xarakteristikaları hətta zəif iqlim dəyişmələrinə çox həssasdırlar. Buna görə də artıq indi hidroloji müşahidə məlumatlarından istifadə etməklə iqlim dəyişmələrinin hidroloji nəticələrinin qiymətləndirilməsinə real imkan var və bu hidroloji proseslərin yaxın gələcəyə proqnozu üçün yaxşı əsas verir [1,s.6].

Fəaliyyət növləri üzrə təbii mənbələrdən götürülən şirin suyun bölgüsü, sektorlar arası sudan istifadənin təhlili də aparılmışdır. Su təchizatı müəssisələri tərəfindən götürülən suyun həcminin dəyişməsinin təhlili zamanı götürülən suyun həcmində 0,08 km$^3$ (22,9%) artım müşahidə edilmişdir (Şəkil 6). Bu dövr ərzində su təchizatı müəssisələri tərəfindən götürülən suyun həcminin ən yüksək qiyməti 0,461 km$^3$ 2014-cü ildə, ən kiçik qiyməti isə 0,228 km$^3$ 2001-ci ildə müşahidə edilmişdir. Ümumiyyətlə, tədqiqat dövründə su təchizatı müəssisələri tərəfindən götürülən suyun həcminin orta kəmiyyəti 0,389 km$^3$ olmuşdur.




***Şəkil 6. Su təchizatı müəssisələri tərəfindən götürülən suyun həcminin dəyişməsi***

Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq təsərrüfatı tərəfindən götürülən suyun həcminin dəyişməsinin təhlili zamanı da götürülən suyun həcmində artım müşahidə edilmişdir (Şəkil 7). Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq təsərrüfatı tərəfindən götürülən suyun həcminin dəyişməsinin təhlili zamanı suyun həcmində 2,01 km$^3$ (21,4%) artım müşahidə edilmişdir (Şəkil 7). Bu dövr ərzində kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq təsərrüfatı tərəfindən götürülən suyun həcminin ən yüksək qiyməti 11,6 km$^3$ 2019-cü ildə, ən kiçik qiyməti isə 8,75 km$^3$ 2002-ci ildə müşahidə edilmişdir.




***Şəkil 7. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq təsərrüfatı tərəfindən götürülən suyun həcminin dəyişməsi***

Ümumiyyətlə, tədqiqat dövründə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq təsərrüfatı tərəfindən götürülən suyun həcminin orta kəmiyyəti 10,4 km$^3$ olmuşdur.

Emal sənayesi tərəfindən götürülən suyun həcminin çoxillik məlumatlarının təhlili zamanı götürülən suyun həcmində azalma müşahidə edilmişdir (şəkil 8). Bu dövr ərzində emal sənayesi tərəfindən götürülən suyun həcmində 0,063 km$^3$ (96,9%) azalma baş vermişdir.




***Şəkil 8. Emal sənayesi tərəfindən götürülən suyun həcminin dəyişməsi***

Emal sənayesi tərəfindən götürülən suyun həcminin çoxillik məlumatlarının təhlili zamanı ən yüksək sugötürmə 2007-ci ildə (0,102 $km^3$), ən aşağı sugötürmə isə 2018-ci ildə (0,008 $km^3$) müşahidə edilmişdir.

Azərbaycan iqtisadiyyatında kommunal xidmətlər sektoru-elektrik və istilik enerjisi, su və qaz mühüm əhəmiyyətə malikdir. Mövcud infrastrukturun təkmilləşdirilməsi və istehlakçıların fasiləsiz elektrik və istilik enerjisi, su və qazla təmin edilməsi məqsədilə ölkədə genişmiqyaslı islahatlar aparılmış, ötən illər ərzində iri investisiya layihələri həyata keçirilmişdir. Bunun nəticəsi olaraq, istehlakçılar elektrik enerjisi ilə tam təchiz olunmuş, təbii qaz, su və istilik təchizatı sahəsində isə investisiya qoyuluşu hesabına nəzərəçarpacaq irəliləyişlər əldə edilmişdir. Elektrik enerjisinin istehlakı daxili bazarda, o cümlədən sənayedə xüsusi çəkiyə malikdir. Eyni zamanda, elektrik enerjisi ixracı ölkənin xarici ticarət dövriyyəsində müəyyən paya sahibdir. İstehlakçıların elektrik enerjisinə olan tələbatının ödənilməsi məqsədilə hazırda bir sıra enerji mənbələrindən (əsasən, təbii qaz olmaqla, su, günəş, külək, biokütlə və s.) istifadə edilir [1]. Hazırda respublikanın elektrik enerjisinə olan tələbatı “Azərenerji” ASC-nin tabeliyində fəaliyyət göstərən elektrik stansiyaları hesabına təmin edilir. Bu stansiyaların 13-ü istilik elektrik stansiyası olmaqla, ümumi qoyuluş gücü 5132 MVt, 16-sı isə su elektrik stansiyası olmaqla, ümumi qoyuluş gücü təqribən 1101,20 MVt-dır. Həmçinin, ölkədə mövcud olan təbii resurslardan səmərəli istifadə etmək məqsədilə digər şirkətlər tərəfindən su, külək, günəş, məişət tullantılarının utilizasiyası hesabına çalışan bir sıra kiçik elektrik stansiyaları qurulmuşdur.

Elektoenergetika müəssisələri tərəfindən götürülən suyun həcminin təhlili zamanı götürülən suyun həcmində azalma baş vermişdir (şəkil 9). Elektoenergetika müəssisələri tərəfindən götürülən suyun həcmində 8,2% (0,05 $km^3$) azalma baş vermişdir. Dövlət sudan istifadə uçotu informasiyalarının (2000-2020-ci illər) təhlili nəticəsində elektoenergetika müəssisələri tərəfindən ən yüksək sugötürmə 0,763 $km^3$ 2006-cı ildə, ən aşağı sugötürmə 0,424 $km^3$ 2009-cu ildə müşahidə edilmişdir. Bu dövrdə bu müəssisələr tərəfindən götürülən suyun həcminin orta çoxillik miqdarı 0,587 $km^3$ olmuşdur.




***Şəkil 9. Elektoenergetika müəssisələri tərəfindən götürülən suyun həcminin dəyişməsi***

Digər iqtisadi fəaliyyət növləri üzrə götürülən suyun həcmində də azalma baş vermişdir.

Ümumiyyətlə, su təsərrüfatı tədbirləri həyata keçirilərkən nəql zamanı su itkilərinin minimuma endirilməsi vacib addımlardan biridir. Buna görə də su təsərrüfatı planlaşdırılarkən nəql zamanı su itkilərinin hesablanması çox önəmlidir. Dövlət sudan istifadə uçotu informasiyalarından (2000-2020-ci illər) istifadə etməklə nəql zamanı su itkilərinin dəyişmə dinamikası təhlil edilmişdir. Belə ki, 2000-2020-ci illər ərzində suyun nəqli zamanı ən yüksək su itkisi 4,280 $km^3$ 2013-cü ildə, suyun nəqli zamanı ən aşağı su itkisi isə 3,053 $km^3$ 2000-ci ildə qeydə alınmışdır. Orta çoxillik dövr ərzində suyun nəqli zamanı su itkisi 3,675 $km^3$ olmuşdur (Şəkil 10).




***Şəkil 10. Suyun nəqli zamanı itən suyun həcminin dəyişməsi***

Çoxillik dövr ərzində nəql zamanı suyun itkisində artım müşahidə olunmuşdur. Nəql zamanı suyun itkisində 2000-2020-ci illər ərzində 10% və ya 0,35 $km^3$ artım müşahidə edilmişdir. Təbii mənbələrdən götürülən və istifadə olunan şirin suyun dəyişməsi şəkil 11-də verilmişdir. Təhlil zamanı təbii mənbələrdən götürülən və istifadə olunan şirin suyun həcmi və nəql zamanı suyun itkisinin sinxron dəyişdiyi müəyyən olunmuşdur.




***Şəkil 11. Təbii mənbələrdən götürülən və istifadə olunan şirin suyun dəyişməsi***

Keçən əsrin əvvəllərindən başlayaraq Azərbaycan Respublikasında suvarma kanalları və su anbarları şəbəkəsi sürətlə genişlənməyə başlamışdır. Azərbaycan Respublikasında 4,5 milyon hektar kənd təsərrüfatına yararlı torpaq sahələri vardır ki, bunun da 3,2 milyon hektarı suvarılması mümkün olan torpaqlardır. Ərazidə suvarma əkinçiliyinin intensiv inkişaf etməsi nəticəsində suvarılan ərazilərin ümumi sahəsi kəskin şəkildə artaraq 1995-ci ildə 1,45 mln.ha təşkil etmişdir. Bu müddətdə hövzələrarası kanalların ümumi uzunluğu 8,5 min km-ə çatmışdır. Sonrakı illərdə suvarılan sahələrin ümumi artımında ciddi bir dəyişiklik olmamışdır. Suvarılan torpaqlar ölkənin kənd təsərrüfatının yararlı torpaq sahələrinin üçdə birini (1432,7 min hektar) təşkil etsə də, ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının 90-95%-i bu torpaqlardan götürülür. Əgər 1965-ci ildə respublika üzrə suvarılan torpaqlar 1 milyon 94 min hektar olmuşdursa, hazırda bu rəqəm 1 milyon 426 min hektara çatdırılmışdır. Suvarılan torpaqların təxminən üçdə birindən çoxu (565 min hektarı) mexaniki üsulla, o cümlədən 349,4 min hektar elektrikləşdirilmiş, 68,2 min hektar dizel nasos stansiyaları ilə, 147,7 min hektarı isə subartezian quyuları vasitəsi ilə suvarılır [2,s.3].

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin məlumatlarına əsasən hazırda Azərbaycanda suvarmaya və kənd təsərrüfatının təchizatına 6,12 km$^3$ su sərf olunur. Meliorasiya-irriqasiya sisteminin yenidən qurulması və təkmilləşdirilməsi məqsədilə dövlət büdcəsi vəsaitləri hesabına böyükmiqyaslı layihələr həyata keçirilmişdir. Belə ki, 2004-2015-ci illərdə əkin sahələrinin və əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 1492 ədəd subartezian quyusu qazılmışdır. “Samur-Abşeron suvarma sisteminin yenidən qurulması” layihəsi çərçivəsində ümumi su tutumu 268 milyon m$^3$ olan Taxtakörpü su anbarı və ümumi uzunluğu 140 km olan magistral kanallar tikilərək istifadəyə verilmişdir. “Şəmkirçay çayı üzərində dəryaçanın tikintisi” layihəsi çərçivəsində ümumi su tutumu 165 milyon m$^3$ olan Şəmkirçay su anbarı və ümumi uzunluğu 60,6 km olan magistral kanallar tikilib istifadəyə verilmişdir. Meliorasiya-irriqasiya sisteminin inkişaf etdirilməsi tədbirləri hesabına 266 min hektar sahədə torpaqların su təminatı yaxşılaşdırılmış, 43 min hektar sahə yeni suvarılan torpaqlar qrupuna əlavə edilmişdir. Həmçinin 218 min hektar sahədə torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmışdır. Hazırda istismar olunan suvarma kanallarının 81,5 faizi, kollektor-drenaj şəbəkələrinin 77 faizi və hidrotexniki qurğuların 72 faizi əvvəllər kolxoz, sovxoz və digər kənd təsərrüfatı müəssisələrinin balansında olmuş təsərrüfatdaxili obyektlərdir və onların texniki və fiziki vəziyyəti irihəcmli tədbirlərin görülməsini zəruri edir. Mövcud normativlərə görə suvarma və kollektor-drenaj şəbəkələri ən azı 3 ildən bir (ildə 30 faizdən artıq) lildən təmizlənməli, sistem üzərindəki qurğuların isə 25-30 faizi hər il əsaslı və cari təmir olunmalıdır. Lakin hazırda ildə suvarma kanallarının yalnız 20-21 faizi, kollektor-drenaj şəbəkələrinin 9-10 faizi, hidrotexniki qurğuların isə

5-6 faizi təmizlənərək təmir olunur. Suvarma və kollektor-drenaj şəbəkələrinin 90 faizindən çoxu torpaqməcralı və açıqtipli olduğundan yüksək su itkisinə, minerallaşmış qrunt sularının əkin qatına qalxmasına və ətraf torpaqların şoranlaşmasına yol verilir. Bundan başqa, əkinçilikdə əsas suvarma üsulu kimi ənənəvi "səthi suvarma" və ya "selləmə suvarması" tətbiq edilir. "Damla suvarma" və "yağmurlama suvarma" kimi suya qənaət edən müasir suvarma üsullarının tətbiqi məhdud miqyasdadır.

Azərbaycan Elmi-Tədqiqat Hidrotexnika və Meliorasiya İnistitutunun hesablamalarına görə müasir demoqrafik dinamikanı nəzərə almaqla kənd təsərrüfatı məhsulları ilə əhalini təmin etmək üçün respublikanın torpaq fondunun yaxın gələcəkdə 1628 min hektara çatdırılması məqsədəuyğun hesab edilir. Bu vaxt ərzində 227 min hektar yeni suvarılan torpaqlar istifadəyə verilməli, 715 min hektar sahədə suvarma sistemləri əsaslı bərpa edilməli, 544 min hektar sahədə drenaj sistemləri tikilməli və bərpa edilməli, 612 min hektar şorlaşmış torpaq sahələri əsaslı şəkildə yuyulmalıdır [3].

Su ehtiyatlarından səmərəli istifadə olunmasının mühüm şərtlərindən biri də suvarma sistemlərinin idarə edilməsi ilə bağlıdır. Mövcud qanunvericiliyə əsasən, meliorasiya və irriqasiya sistemləri dövlət mülkiyyətində, bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə ola bilər. Bununla belə, hazırda bütün suvarma sistemləri dövlət mülkiyyətində və ya Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin balansındadır. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC və eləcə də Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti tərəfindən beynəlxalq təşkilatlarla birgə həyata keçirilən layihələr çərçivəsində yerlərdə 585 sudan istifadəedənlər assosiasiyaları yaradılmışdır.

Hazırda bu assosiasiyalar suvarma suyunun istehlakçılar arasında bölüşdürülməsi üzrə fəaliyyət göstərsələr də, suvarma sistemlərinin bu qurumların uzunmüddətli istifadəsinə verilməsi təcrübəsi hələ ki, yoxdur. Suvarma suyu Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC tərəfindən assosiasiyalara güzəştli qiymətlərlə satılır. Bu sahədə tətbiq edilən güzəşt mexanizminə yenidən baxılaraq, geniş əhatəli texniki-iqtisadi əsaslandırmaların hazırlanmasına və daha səmərəli dəstək formalarının tətbiq olunmasına ehtiyac vardır. Su ehtiyatları məhdud olan ölkə kimi, Azərbaycanda suya qənaət edən müasir suvarma üsullarının tətbiqinin genişləndirilməsini stimullaşdırmaq üçün dünya təcrübəsində tətbiq edilən müvafiq dəstək tədbirlərinin görülməsi də aktualdır. Su resurslarından səmərəli istifadəni təmin etmək üçün kənd təsərrüfatı istehsalında mütərəqqi suvarma texnologiyalarının tətbiqi genişləndirilməlidir. Bu istiqamətdə kənd təsərrüfatında effektiv suvarma sistemləri və avadanlıqlarından istifadənin genişləndirilməsi (damcılı suvarma, su çiləmə və s.), irriqasiya, drenaj işinin gücləndirilməsi, su resurslarının monitorinqi, yeni suvarma kanallarının və su anbarlarının inşası, dağ çaylarında sel sularının effektiv idarə edilməsi, kənd yerlərinə və ətraf mühitə dağıdıcı təsirlərin minimuma endirilməsi, suvarma şəbəkəsinin təkmilləşdirilməsi, şoranlaşmaya məruz qalmış ərazilərdə drenaj sisteminin tətbiq edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün texniki-iqtisadi qiymətləndirmənin aparılması nəzərdə tutulur. Meliorativ tədbirlərin kənd təsərrüfatı üzrə yararlı əkin sahələrinin perspektiv inkişaf planları ilə uzlaşdırılması və quraq regionlarda yağıntı sularından istifadə ilə bağlı fəaliyyətin gücləndirilməsi nəzərdən keçiriləcəkdir.

Tədqiqatlar göstərir ki, təbii su ehtiyatları tədricən azalır, ölkə ərazisində su çatışmazlığı yaranır və bu tendensiya gələcəkdə də davam edəcəkdir. Belə ki, Azərbaycanda iqlim dəyişmələri üzrə aparılan tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, 2021-2050-ci illərdə təbii su ehtiyatları 22,5 $km^3$ təşkil edəcək və bu da baza dövrünə nisbətən 6,8 $km^3$ və ya 23% azdır. 2071-2100-cü illərdə bu fərq artaraq 8,6 $km^3$-ə (29%) çata bilər. Su çatışmazlığının miqdarını bu dövrlərdə müvafiq olaraq 9,5 və 10,3 $km^3$ gözləmək olar ki, bu da baza dörünə nisbətən 3,5-4 dəfə çoxdur. Əhalinin gözlənilən artımı (1,5-2,0 dəfə) ölkə daxilində formalaşan suyun adam başına düşən miqdarını kəskin azaldaraq əhalinin su ilə təchizatını xeyli pisləşdirəcək. İndi olduğu kimi, gələcəkdə də ən həssas sahələr kənd təsərrüfatı, hidroenergetika və əhalinin su təchizatı olacaqdır.

Azərbaycanda su ehtiyatlarının məhdudluğu və qeyri-bərabər paylanması şəraitində bu ehtiyatlardan içmək və təsərrüfat-məişət ehtiyaclarının ödənilməsi, suvarma, aqrar sektorun digər sahələri, sənaye və texniki məqsədlər, balıqçılıq, hidroenergetika, kurortologiya və balneoloji

məqsədlər və s. üçün bütün tərəflərin maraqlarını nəzərə almaqla elmi əsaslandırılmış ədalətli əsasda istifadənin təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın su tələbatına əhali artımı, urbanizasiya, ərzaq və enerji təhlükəsizliyi siyasəti, ticarət, qloballaşma kimi makro-iqtisadi proseslər və istehlakın artımı böyük təsir göstərir [6].

Su ehtiyatlarının davamlı idarə edilməsi vasitəsi ilə çay hövzələri üzrə ekosistemlərin dayanıqlığına mənfi təsir etmədən su, torpaq və digər ehtiyatların ədalətli və gələcək nəsillərin ehtiyaclarını nəzərə almaqla istifadəsinə, idarə edilməsinə nail olmaq olar. Su ehtiyatlarının davamlı idarə edilməsi zamanı sosial, iqtisadi və ekoloji problemlər nəzərə alınmaqla su ehtiyatlarının fasiləsiz dayanıqlı bərpası, paylanması və istifadəsi monitorinqi təmin edilməlidir.

Azərbaycanda su ehtiyatlarının davamlı idarə edilməsində transsərhəd su problemləri və işğaldan azad olunmuş ərazilərdə yerləşən su ehtiyatları və su obyektləri ilə bağlı problemlər mühüm yer tutur. Transsərhəd çayların su ehtiyatlarından dayanıqlı istifadə sahəsində müəyyən nailiyyətlər əldə etmək üçün Azərbaycan digər hövzə dövlətləri ilə qarşılıqlı əlaqələri 14 mart 2000-ci ildə ratifikasiya etdiyi "Transsərhəd su axınlarının və beynəlxalq göllərin istifadəsi və mühafizəsi üzrə Konvensiya" ya uyğun qurur.

Ermənistanın hərbi təcavüzü nəticəsində 2300 km su təchizatı şəbəkəsi, 99 ədəd içməli su anbarı, 124 ədəd subarteziyan quyuları, çoxsaylı kəhrizlər, 1 mln ha kənd təsərrüfatı üçün yararlı torpaqlar, 1200 km irriqasiya sistemləri dağılmışdır. Bundan əlavə, Ermənistan ərazilərindən axıb gələn transsərhəd çaylar kimyəvi, bioloji və müxtəlif radioaktiv tullantılarla çirklənməyə məruz qalmışdır. Bu baxımdan işğaldan azad olunmuş ərazidə yerləşən su mənbələrinin geniş şəkildə öyrənilməsi vacib məsələlərdəndir.

**Nəticə**

Beləliklə, ölkədə su ehtiyatlarının və onlardan istifadənin uçotunun təkmilləşdirilməsi, sudan ödənişli istifadənin təyinatının müəyyənləşdirilməsi, bu sektor üzrə vahid tarif siyasətinin həyata keçirilməsi, su ehtiyatlarından səmərəli istifadə və ümumilikdə su təsərrüfatının idarə olunmasında effektivliyin yüksəldilməsi məqsədilə ölkənin su təsərrüfatı balansının tərtibi, suyun mənbədən götürülməsindən tutmuş son istehlaka qədər olan bütün mərhələlər üzrə sudan istifadə haqqının sərfəli tənzimlənməsi istiqamətində tədbirlərin görülməsi məqsədəuyğundur.

Beləliklə, Ölkənin su ehtiyatlarının qiymətləndirilməsindən 30 ildən çox vaxt keçdiyindən bu ehtiyatların yenidən və düzgün qiymətləndirilməsi vacibdir. Su ehtiyatlarından səmərəli istifadə olunması üçün sudan istifadə üzrə baş planın hazırlanması ilə bağlı iş aparılmalıdır. Əlavə olaraq tullantı sularının təkrar istifadəsi üzrə cari vəziyyət öyrənilməli və bu təcrübənin genişləndirilməsi imkanları araşdırılmalıdır. Suvarma suyundan və suvarılan torpaqlardan səmərəli istifadə etmək məqsədi ilə kənd təsərrüfatı strukturlarının müəyyən edilmiş qaydada aqroiqlim və operativ hidrometeoroloji məlumatlarla təmin olunması təşkil edilməlidir.

Azərbaycanda su ehtiyatlarının davamlı idarə olunması və sektorlar arası müqayisəli təhlil zamanı su ehtiyatlarının çirklənməsinin qarşısının alınması, sudan rasional və davamlı istifadə, tullantı sularının idarə olunması sahəsində mövcud problemlərin aradan qaldırılması məqsədilə qarşılıqlı əməkdaşlığın gücləndirilməsi, əhali arasında maarifləndirmə işlərinin aparılması məqsədəuyğun hesab edilir. Yuxarıda qeyd etiyimiz kimi, Azərbaycanın su ehtiyatının son qiymətləndirilməsindən 30 ildən çox vaxt keçdiyindən ölkənin su təhlükəsizliyinin təmin olunması üçün bu ehtiyatın yenidən çay hövzələri, inzibati rayon, iqtisadi-coğrafi rayon üzrə və 1%, 50% və 95% təminatlı illər üçün yenidən qiymətləndirilməsi su ehtiyatlarının davamlı idarə olunması və təsərrüfatın müxtəlif sahələrinin təminatı baxımından böyük əhəmiyyət kəsb edəcəkdir. Su təhlükəsizliyin təmin olunması üçün su mənbələrinin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin təkmilləşdirilməsi, indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə su ehtiyatlarından səmərəli istifadə, qlobal su problemləri üzrə milli səviyyədə tələbatların qiymətləndirilməsi, həlli yollarının müəyyənləşdirilməsi, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi məqsədəuyğun hesab edilir.

Beləliklə, Azərbaycanın su ehtiyatlarından istifadənin müasir vəziyyətinin qiymətləndirilməsi

aşağıdakı problemlərin həllinin zəruriliyini qarşıya qoyur:

1. Su ehtiyatlarından istifadənin inteqrasiyalı sxemlərinin hazırlanması;
2. Su ehtiyatlarının çay hövzələri, inzibati rayon, və iqtisadi-coğrafi rayon üzrə yenidən qiymətləndirilməsi;
3. Su obyektləri üzərindəki hidroloji və hidrokimyəvi müşahidə məntəqələrinin sayının artırılması;
4. Yeraltı sular üzərində rejim-müşahidə işlərinin təkmilləşdirilməsi və vaxtında aparılması;
5. Su ehtiyatlarından səmərəli istifadə olunmanın planlaşdırılması, dövlət monitorinqi, dövlət su kadastırının və suların dövlət uçotunun dəqiq və vaxtında aparılması.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016.
2. Əhmədzadə Ə.C. Heydər Əliyev və Azərbaycanın su təsərrüfatı. Bakı: Azərnəşr, 2003, 216 s.
3. Əhmədzadə Ə.C., Həşimov A.C. Meliorasiya və su təsərrüfatı sistemlərinin kadastrı. Bakı: 2006, 272 s.
4. Əliyev F.Ş. Azərbaycan Respublikasının yeraltı su ehtiyatlarından istifadə və ekoloji problemləri. Bakı: Çaşıoğlu, 2000, 326 s.
5. İmanov F.Ə., Ələkbərov A.B. Azərbaycanın su ehtiyatlarının müasir dəyişmələri və inteqrasiyalı idarə edilməsi. Bakı: Mütərcim, 2017, 352 s.
6. İsmayılov R.A. Azərbaycan çaylarının ekoloji təhlükəsizliyinin qiymətləndirilməsi. Bakı: 2021, 272 s.
7. Рустамов С.Г., Кашкай Р.М. Водные ресурсы Азербайджанской ССР. Баку: Элм, 1989, 180 с.


## SUMMARY

**Rashail Ismayilov, Javadkhan Qasimov**

### ASSESSMENT OF INTER-SECTORAL WATER USE IN AZERBAIJAN


The article provides a comparative analysis of the water resources of Azerbaijan and the use of these resources for irrigation and agricultural purposes, drinking water supply and hydropower purposes. When analyzing the change in the volume of water withdrawn from natural water sources, with a decrease in the volume of water withdrawn from surface water sources, an increase in the volume of water withdrawn from underground water sources is observed. As the analysis of water use of sources shows, the use of underground sources can cause serious problems in the ecosystem of the area in the future.

This scientific study also analyzes intersectoral water use and distribution of fresh water intake from natural sources by types of activity. When analyzing the change in the volume of water intake by water supply enterprises, an increase in the volume of water intake by 0,08 $km^3$ (22,9%) was noted. When analyzing the change in the volume of water withdrawn by agriculture, forestry and fisheries, an increase in the volume of water by 2,01 $km^3$ (21,4%) was observed. When analyzing long-term data on the volume of water intake by enterprises in the processing industry and the electric power industry, a decrease in the volume of water intake was noted. During this period, the amount of water withdrawn by the processing industry decreased by 0,063 $km^3$ (96,9%), while the amount of water withdrawn by power plants decreased by 8,2% (0,05 $km^3$).

Over the years, there has been an increase in water losses during transportation. For the period 2000-2020 there is an increase in water losses during transportation by 10% or 0,35 $km^3$.


***Key words****: water shortage, underground water, Electric power plants, Processing industry, Water supply, etc.*

## РЕЗЮМЕ

**Рашаил Исмаилов, Джавадхан Гасымов**

## ОЦЕНКА МЕЖСЕКТОРАЛЬНОГО ВОДОПОЛЬЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ

В статье проведен сравнительный анализ водных ресурсов Азербайджана и использования этих ресурсов для целей орошения и сельского хозяйства, питьевого водоснабжения и производства гидроэнергии. При анализе изменения объема воды, забираемой из природных водоисточников, наблюдается уменьшении объема воды, забираемой из поверхностных источников, тогда как забираемой из подземных источников объем воды увеличивался. При анализе орошения по источникам увеличение использования подземных вод в будущем может вызвать большие проблемы в экосистеме района.

В исследовательской работе также проведено распределение забора пресной воды из природных источников по видам деятельности, анализ межотраслевого водопользования. При анализе изменения объема забора воды предприятиями водоснабжения отмечено увеличение объема забора воды на 0,08 км3 (22,9%). При анализе изменения объема воды, забираемой сельским, лесным и рыбным хозяйством, наблюдалось увеличение объема воды на 2,01 км3 (21,4%). При анализе многолетних данных по объему забора воды предприятиями, перерабатывающей промышленности и электроэнергетики, отмечено снижение объема забора воды. За этот период объем забора воды перерабатывающей промышленностью уменьшился на 0,063 км3 (96,9%), а объем забора воды электростанциями уменьшился на 8,2% (0,05 км3).

В течение многолетнего периода наблюдалось увеличение потерь воды при транспортировке. Наблюдается увеличение потерь воды при транспортировке на 10% или 0,35 км3 в период 2000-2020 гг.



***Ключевые слова:*** *маловодье, подземные воды, электростанции, обрабатывающая промышленность, водоснабжение и др.*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 163-169
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 163-169
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 163-169

**FUAD İBRAHİMOV**
*fuadibrahim@mail.ru*
*Sosial-İqtisadi və Ekoloji Tədqiqatlar Mərkəzi*
*İctimai Birliyi*

**UOT: 338.43**

# AQRAR-SƏNAYE SAHƏLƏRİNDƏ İNNOVASİYALI İNKİŞAFIN İNVESTİSİYALAŞMASI PROSESLƏRİNİN MODELLƏŞDİRİLMƏSİNİN METODİKİ ASPEKTLƏRİ

*Müasir aqrar-sənaye sahələrində innovasiyalı inkişafın investisiyalaşması proseslərinin təhlili və proqnozlaşdırılması zamanı çox sayda amillərin təsirini nəzərə almaq və inkişaf ssenarisinin çoxvariantlılığını təmin etmək zəruridir. İnvestisiya fəaliyyətinin xarakteristikalarının kəmiyyətcə qiymətləndirilməsinə ciddi ehtiyac vardır. Odur ki, aqrar-sənaye sahələrində innovasiyalı inkişafın investisiyalaşması proseslərinin modelləşdirilməsinin metodiki bazasını araşdırmaq, onun bəzi aspektlərdə təkmilləşdirilməsi tədqiqatın məqsədi kimi qarşıya qoyulmuşdur. İnvestisiya layihələrinin investisiyalaşdırılması proseslərinin təhlili və proqnozlaşdırılması baxımından mövcud modellərin aqrar-sənaye sahələrində imitasiya edilməsi üçün istifadəsi imkanları müəyyən edilmişdir. Sektorun tələbləri baxımından innovasiyalı inkişaf layihələrin investisiyalaşdırılması modeli seçilmiş və onun bəzi metodiki elementləri təkmilləşdirilmişdir.*

***Açar sözlər:*** *aqrar-sənaye sahələri, innovasiyalı inkişafın investisiyalaşması, model, layihə, metodiki baza*

## Giriş

İnnovasiyalı inkişafın başlıca parametrləri mühit yaradan resurslar amilinin, o cümlədən maliyyə təminatının təsiri altında formalaşır. İnvestisiya təminatı və ondan istifadənin səmərəliliyi bu və ya digər fəaliyyət növünün innovativliyini və innovasiyalı inkişafın davamlılığını şərtləndirir. Bununla belə, xüsusilə aqrar-sənaye sahələrində innovasiyalı inkişafın investisiyalaşması proseslərinin təhlili və proqnozlaşdırılmasında çoxvariantlı və asılılıqların dinamikada, özü də kəmiyyətcə qiymətləndirilməsinə imkan verən yanaşmalara ehtiyac daim hiss olunur. Modelləşdirmə özünün bütün forma müxtəlifliyi ilə qeyd olunan imkanlar baxımından diqqətə layiqdir. Aqrar-sənaye sahələrinin inkişafının imitasiya edilməsi, onun temp və proporsiyalarının optimallaşdırılması məsələləri ərzaq təhlükəsizliyi və dayanıqlı inkişaf tələbləri baxımından gündəlikdədir. Odur ki, aqrar-sənaye sahələrinin innovasiyalı inkişafının investisiyalaşması proseslərinin modelləşdirilməsi problemləri aktualdır.

## İnnovasiyalı inkişafın investisiyalaşmasının modelləşdirilməsinin metodiki məsələləri

Aqrar-sənaye fəaliyyətinin inteqrasiya yönümlüyü inkişafa və o cümlədən innovasiyalı inkişafa münasibətdə təhlil və proqnozlaşdırma məqsədi daşıyan yanaşmaları daha da mürəkkəbləşdirir. Kənd təsərrüfatı istehsalı, bu sahənin məhsullarının emalı, texniki-texnoloji təchizatı ilə məşğul olan sahələrin inkişafının ayrı-ayrılıqda modelləşdirilməsinin nəticələrinin obyektiv reallıq tələblərinə cavab verməməsi özünü get-gedə daha aydın göstərir. Aşağıdakı mənbədə göstərildiyi kimi, işlənib hazırlanmış çoxsaylı modellər yaxşı əlaqələndirilmir, onları kənd təsərrüfatı üçün real qərarların qəbulunda tətbiq etmək çətindir (1, s.200). Aqrar sahənin modelləşdirilməsi prosesində maliyyə resurslarından istifadə istiqamətləri kifayət qədər detallaşdırılmır (2, s.199-211). Belə vəziyyəti şərtləndirən amillər çoxdur. İnformasiya təminatı amilinə nəzər salsaq aqrar sahənin

maliyyələşdirilməsində çoxvariantlılığın təmin edilməsi üçün zəruri verilənlərin çatışmadığını görə bilərik.

Aqrar-sənaye sahələrində innovasiyalı inkişafın investisiyalaşması proseslərinin modelləşdirilməsinin inteqrasiya mühitinin tələbləri ilə yanaşı, investisiya cəlbediciliyi şərtləndirən çoxsaylı amillərin təsirinin nəzərə alınmasının zəruriliyini görmək çətin deyildir. İnnovasiyalı fəaliyyətin modelləşdirilməsi isə risk amilinə xüsusi yanaşmaların təcrübi tətbiq imkanlarını araşdırmağı nəzərdə tutur.

İnnovasiya amili aqrar-sənaye sahələrində innovasiyalı inkişafın sosial-iqtisadi nəticələrinin əsas xarakteristikalarının öncədən qiymətləndirilə bilməsi üçün müxtəlif yanaşmaların işlənib hazırlanması zərurətini şərtləndirmişdir. Öncədən qiymətləndirmə üzrə yanaşmaların bir-birini tamamlaması, əldə edilən nəticələrin müqayisəli təhlili metodikasının təkmilləşdirilməsi istiqamətində ciddi addımlar atılmışdır. Həmin yanaşmalarda, əlbəttə haqqında danışılan qiymətləndirmələr ehtimallı xarakter daşıyır. Belə vəziyyət innovasiya layihələrinə investor marağının təşviqi baxımından, innovasiyalı fəaliyyətin proqnozlaşdırılması prosesində daha çox amilin nəzərə alınmasını obyektiv zərurətə çevirir (3, s.1063–1087). Bu nöqteyi-nəzərdən, başqa sözlə, obyektiv reallığa adekvatlıq baxımından innovasiyalı inkişafın investisiyalaşması proseslərinin modelləşdirilməsi məsələləri xüsusi aktuallıq kəsb edir. Aqrar-sənaye fəaliyyətinin, xüsusilə aqrar istehsalın modelləşdirilməsində obyektiv reallığa adekvatlığın təmin edilməsi daha çətin məsələdir. Belə vəziyyəti şərtləndirən səbəblər qismində, aqrar sahənin təbii sistemlərlə birbaşa kəsişməsi amili həlledici əhəmiyyətə malikdir.

İnvestisiya prosesləri sistemin bütün əlamətlərinə malikdir: o, həmişə subyekti (investor), obyekti (investisiya obyekti), onlar arasında əlaqəni (investisiya gəliri əldə etmək üçün investisiya) və mövcud olduğu mühiti (investisiya) ehtiva edir. Eyni zamanda investisiya bütün digər elementləri birləşdirdiyi üçün sistem yaradan amil kimi çıxış edir" (4). İnnovasiyalı fəaliyyətin maliyyələşdirilməsi prosesini, demək olar ki, daim müşayiət edən qeyri-müəyyənliklərin mənfi nəticələri, gözlənilən gəlirlərin ənənəvi səviyyədən xeyli yüksək olması hesabına az-çox dərəcədə neytrallaşdırıla bilir. Məlum olduğu kimi, investisisya bazarında, bir çox hallarda risk və gəlir səviyyələrinin dinamikasında mütənasiblik müşahidə olunur. Başqa sözlə, az riskli sahəyə üstünlük verən investor az gəlirlə kifayətlənmək perspektivi ilə üzləşir. Aqrar-sənaye sahələrində sonuncu variant heç də nadir hal deyildir.

Maddi istehsalın müxtəlif sahələrində, o cümlədən aqrar-sənaye sahələrində innovasiyalı inkişaf üzrə proqramlarının hazırlanması və icrası proseslərinin kəmiyyət təhlili, potensialın qiymətləndirilməsi və nisbətlərin optimallaşdırılması sistem modelləşdirilməsi imkanlarına diqqəti artırır. Məsələ ondadır ki, "sistem modelləşdirilməsi bütün mövcud birbaşa, əks, çarpaz əlaqələri nəzərə alır, idarəetmə isə informasiya-kommunikasiya prosesləri və bütün digər sxemləri əhatə edən sistem vasitəsilə həyata keçirilir" (5, s.29). Zəif formallaşmış sistemlərin təhlili və proqnozlaşdırılmasında əldə edilmiş təcrübə sistem modelləşdirilməsində innovasiyalı inkişaf mühitinin özünəməxsusluqları subyektiv təsirləri nəzərə almağı tələb edir. Belə vəziyyət iqtisadi fəaliyyət subyektlərinin maraq və davranışlarına diqqəti artırır. Başqa sözlə, təcrübə innovasiyalı fəaliyyətin investisisyalaşdırılmasında insan amilinin, daha dəqiq desək, "davranış" modelləşdirilməsini sərf-nəzər etməyin məqsədəuyğun olmadığını söyləməyə kifayət qədər əsas verir. Odur ki, əvvəlki qərarların fəsadlarını aradan qaldırmaq üçün sistem dinamikası yanaşması gündəlikdədir (6). Bu və digər səbəblərdən müvafiq tədqiqatlarda yumşaq modelləşdirmənin real təsərrüfatçılıq şəraitində tətbiq imkanları nəzərdən keçirilir, inkişafın prioritetlərinin müəyyənləşdirilməsində onun tətbiqi nəticələrinə diqqət artır.

Başlıca amilləri önə çəkməklə, reallığa iterativ yaxınlaşmalara imkan verən yumşaq modelləşdirmənin tətbiq arealının genişlənməsi sistem modelləşdirilməsinin əhatə dairəsini, xüsusilə innovasiyalı inkişaf proseslərinin modelləşdirilməsi baxımından, heç də daraltmır (7). Məhz sistemin əsas xarakteristikalarına münasibətdə haqqında danışılan sistem və yumşaq modelləşdirmə üzrə yanaşmalarda daha böyük yaxınlıq müşahidə edilir (8). Təcrübədə sistem və yumşaq modelləşdirmə

üzrə yanaşmaların bir-birini tamamlamaq məqsədi ilə istifadəsi hallarına get-gedə daha tez-tez rast gəlinir.

Aqrar-sənaye fəaliyyətində innovasiyalı inkişaf proqramlarının icrası, onların maliyyə (investisiya) təminatı kənar mühitin, qarşıya qoyulan məqsəddən yayınma təhdidi yarada bilən ciddi təsirlərinə məruz qalır. Risk ehtimalını yüksəldən belə vəziyyət innovasiyalı inkişafın investisiyalaşması mühitində müxtəlifliyi artırır və onlara nəzarət zərurətini gücləndirir (9, s.128-141). Haqqında danışılan kənar, habelə daxili mühitin dinamizmi, onun qeyri-müəyyənliyini artırır. Belə olan təqdirdə investorun qərar qəbul etməsi məsələsi daha da mürəkkəbləşir. Artan qeyri-müəyyənlik və investorun qarşılaşdığı risklər innovasiya layihəsi baxımından aşağıdakılarda ifadə olunur: "gələcəyin qeyri-müəyyənliyi, belə ki, layihənin təşəbbüskarları bir neçə ildən sonra bazarın perspektivlərini dəqiq proqnozlaşdıra bilmirlər; maraqların toqquşması halında iştirakçıların gözlənilməz davranışı, siyasi zərurətlə əlaqədar iqtisadi siyasətdə dəyişikliklər, yeni texnologiya və texnikanın gözlənilmədən ortaya çıxması, iqlim şəraitində gözlənilməzlik, informasiyanın qeyri-müəyyənliyi və s." (10).

İnnovasiyalı fəaliyyətdə və onun investisiyalaşdırılması prosesində qarşıya çıxan risklərin idarə edilməsində sistem modelləşdirilməsi real imkanlara malikdir. Həmin imkanlar və onların reallaşdırılmasında meyarların özünəməxsus rolu nəzərə alınmalıdır. Sistem modelləşdirilməsi prosesində də müxtəlif səviyyələrdə innovasiyalı inkişafın idarə edilməsinin səmərəliliyinin qiymətləndirilməsi meyarları mühüm əhəmiyyətə malikdir (11, s.67-72).

İnnovasiyalı fəaliyyətin investisiyalaşması proseslərinin modelləşdirilməsi zamanı məqsəd fuksiyasının ekstremumunun tapılmasını nəzərdə tutan hər hansı meyar, əlbəttə müvafiq layihələrin bütün əsas xarakteristikalarının yaxşılaşdırılması vektorlarını əks etdirə bilməz. Odur ki, çoxmeyarlı yanaşmalardan istifadəyə ciddi ehtiyac yaranır. Bu halda, məlum olduğu kimi, meyarların birinə və ya bir neçəsinə üstünlük verilməsi təcrübəsindən istifadə olunur (12, s.457-466).

Modelləşdirmədə imitasiyalar, dəyişmələrə ətalətli reaksiya, maşın eksperimentlərinin nisbətən uzun müddətə və baha başa gəlməsi kimi çatışmazlıqlarına baxmayaraq, həmin modellər "innovasiyalı inkişaf proqramlarına üstünlük verilən layihələrin daxil edilməsi qərarının qəbulu baxımından əlverişlidir" (13, s.144).

Aqrar-sənaye sahələrində innovasiya layihələrinin investisiya proseslərinin təhlili və proqnozlaşdırılmasında imitasiya modellərinin adekvatlığının yoxlanması zəruri mərhələdir. Həmin mərhələdə innovasiyalı inkişafın investiaiyalaşmasının səmərəliliyinin yüksəldilməsi məqsədilə qurulan modellər sistemi, aqrar-sənaye sahələrində mövcud və yaxın perspektivə gözlənilən reallığa uyğunluq baxımından qiymətləndirilməlidir.

İmitasiya və optimallıq modellərinin innovasiyalı inkişafın investisiyalaşdırılması vəziyyətinin təhlili və proqnozlaşdırılması proseslərində birgə istifadəsi, ilk növbədə resurslardan istifadə perspektivləri baxımından aktual hesab edilir. "Optimal yanaşma digər yanaşmalardan fərqli olaraq istehsalın artımını əlavə resursların cəlb edilməsi ilə əlaqələndirmir. Balans üsulundan fərqli olaraq, bu halda səmərəliliyin müəyyən qiymətinə görə çoxsaylı variantlar müqayisə edilir və onlardan ən yaxşısı seçilir" (14, s.236).

İqtisadi proseslərin modelləşdirilməsində tətbiq edilən optimallaşdırma modelləri xətti və ya qeyri-xətti, dinamik və statik, stoxastik və determinasiyalı və digər növlərə ayrılır. Riyazi həll imkanlarının genişliyi, informasiya təminatının nisbətən dolğunluğu və bir sıra digər səbəblərdən xətti modellər təcrübədə daha geniş tətbiq olunur. Halbuki iqtisadi proseslərin səbəb nəticə əlaqələri, adətən xətti xarakterli olmur. Metodiki baxımdan da xətti modellərin çatışmazlıqları vardır. Aşağıdakı mənbədə göstərildiyi kimi "xətti modeldə innovasiya prosesi innovativ məhsulun bütün həyat dövrü zənciri üzrə mərhələlər ardıcıllığı ilə həyata keçirilir, lakin model kommersiya potensialını, yəni bazar tələbini nəzərə almır. Xətti-ardıcıl və interaktiv modellərdə isə əksinə, istehlakçı innovasiyaları yaradılır, yəni modeldə bazar ehtiyacları nəzərə alınır. Aşağıdakı mənbədə təklif edilən açıq modellərdə (15) proseslərin inkişafı informasiya mübadiləsi və icraçıların innovativ məhsulların yaradılmasına cəlb edilməsi hesabına mümkün olur, yəni resurs potensialının inteqrasiyası baş verir.

Geniş arealda və fəal surətdə tətbiq edilən xətti modellərin informasiya bazasının qismən əlyetən olmasına baxmayaraq, indiyə qədər, həmin modellərin real iqtisadi mühit tələblərinə həssaslığını məhz verilənlər müstəvisində təmin etmək çətindir. Böyük Verilənlər texnologiyası sayəsində bu problemin həll ediləcəyini böyük ehtimalla gözləmək olar.

İnvestisiya layihələrinin seçimində, aqrar-sənaye inteqrasiyası mühitinin xarakteristikalarında, investorların maraq və davranışlarında baş verən dəyişikliklərin nəzərə alınmasında bilik amilinin artan rolu müşahidə olunur. İnnovasiyalı fəaliyyətin investisiya təminatının yaxşılaşdırılması strategiyasının prioritetlərinin seçimində sistem dinamikası modelləri sınaqdan çıxarılır (16).

İnnovasiyalı inkişaf elm, bilik (təhsil) və real iqtisadi (bazar) motivasiyalarının birgəliyi halında arzu edilən nəticələrə yaxınlaşa bilir. Aqrar-sənaye istehsalında iqtisadi inkişafın tempi və strukturunu həlledici dərəcədə şərtləndirən investisiyalaşdırmanın modelləşdirilməsində haqqında danışılan üçlüyə vahid müstəvidə baxış cəhdləri müəyyən nəticələr vermişdir. Bu baxımdan, müvafiq mənbələrdə "üçqat spiral" adını almış modellər diqqətə layiqdir. "Üçqat spiral" modellərində

(17, s.5–10) innovasiya prosesi üç əsas əlaqənin qarşılıqlı təsiri vasitəsilə nəzərdən keçirilir: elm (universitetlər), bilik və texnologiyanın biznesə transferi - məhsul, güc - bazara giriş. Hər mərhələdə adları çəkilən proses iştirakçıları arasında dövlət-özəl tərəfdaşlığı əsasında sıx əməkdaşlıq baş verir" (7).

**İnnovasiyalı inkişaf layihələrin investisiyalaşdırılması modeli**

İndi isə innovasiyalı inkişaf layihələrinin investisisyalaşdırılması proseslərini təhlil və proqnozlaşdırmaq üçün tövsiyə olunan modeli təsvir edək. Elə x=$\{x_{ij,}\ i = 1, n\}$ innovasiya layihələrini müəyyən etmək tələb olunur ki, bütün i=1,n üçün S səmərəsinin əldə edilməsi zamanı (5, s.202) xərclər minimum olsun.

$$imi\ xi \rightarrow \min \qquad (1)$$

Məhdudiyyət şərtləri aşağıdakılardır:

$$\sum_i h_i\ x_i\ \geq S \qquad (2)$$

$$\sum_{i \in L1} m_i\ x_i\ \leq I_y \qquad (3)$$

$$\sum_{i \in L2} m_i\ x_i\ \leq I_o \qquad (4)$$

Burada,

n - innovasiya layihələrinin sayını,

$m_i$ - i layihəsinin həyata keçirilməsi üçün məsrəfləri,

$h_i$ – i layihəsinin həyata keçirilməsinnin səmərəliliyi və riskini,

$L_1$ - yüksək riskli innovasiya layihələrini,

$L_2$ - orta riskli innovasiya layihələrini,

$İ_y$ - yüksək riskli innovasiya layihələrinin maliyyələşdirilməsinə (investisiyalara) məhdudiyyətləri,

$İ_o$ - orta riskli innovasiya layihələrinin maliyyələşdirilməsinə (investisiyalara) məhdudiyyətləri ifadə edir.

Aqrar-sənaye sahələrində innovasiya layihələrinin həyata keçirilməsi prosesində korreksiyaya ehtiyac yaranması heç də nadir hal deyildir. Belə zərurət müxtəlif səbəblərdən, o cümlədən, innovasiyalı fəaliyyətin ilk addımlarının uğursuzluğundan, layihə müddətinin və büdcəsinin düzgün hesablanmamasından, vəziyyətin kəskin surətdə dəyişməsindən, texnoloji transfer imkanlarının genişlənməsindən və s. irəli gələ bilər.

Bu baxımdan, aşağıdakı mənbədə investisiyalaşma kontekstində bildirilən mövqe, zənnimizcə, xüsusi diqqətə layiqdir. Burada göstərildiyi kimi, innovasiyalı investisiya mühitinin təhlili kontekstində seçim imkanları qiymətləndirilərkən, uzaq olmayan keçmişdə qeyri-mümkün olan yeni idarəetmə potensialının formalaşması baxımından aşağıdakı hallar yaranır:

"1) layihənin uğurlu olduğu təqdirdə onun əhatə dairəsinin genişlənməsi;

2) uğursuz olarsa layihənin satılması;
3) ilk layihədən əldə edilən təcrübədən istifadə etməklə əlaqəli fəaliyyətlərin inkişaf etdirilməsi;
4) başlanan layihəyə uyğun olaraq yeni məhsulların hazırlanması;
5) məhsul bazarlarının genişləndirilməsi;
6) istehsalın genişləndirilməsi və ya yenidən təchiz edilməsi;
7) layihənin dayandırılması və s." (18, s.23).

İnvestisiyalaşdırılan innovasiya proqramından müəyyən layihənin çıxarılması (ona xitam verilməsi), layihənin mövcud vəziyyətdə başa çatdırılması və innovasiyalı inkişaf proqramında daha səmərəli (və müvafiq olaraq artan məsrəflərlə) yeni layihənin əhatə olunması variantlarının nəzərdən keçirilməsi modelləşdirmə təcrübəsində məqbul şərti yanaşma kimi qəbul edilə bilər. Layihə proqrama daxil edilmirsə (proqramda iştiraka xitam verilirsə), onun nömrəsi sıfır götürülür. Alternativlərin sayı, təcrübədə əlbəttə daha çox ola bilər. Modeli aşağıdakı kimi təqdim etmək olar (5, s.221):

$$\sum_{i=1}^{n} \sum_{j=1}^{r} m_{ij}\, x_{ij} + \sum_{i=1}^{n} m_i\, f_i \rightarrow \min \quad (5)$$

$$\sum_{j=1}^{r} h_{ij}\, x_{ij} = 1 \quad (6)$$

$$\sum_{i,j} h_{ij}\, x_{ij} + \sum_{i=1}^{n} f_i\, h_i \geq S \quad (7)$$

Burada,

S – səmərəliliyin tələb olunan artımı,
n - innovasiya layihələrinin sayını,
r- proqrama daxil ediləcək yeni layihələrin sayını (konkret halda, üç variant nəzərdən keçirilir, yəni r=3),
$m_{i1}$, $h_{i1}$ - i layihəyə xitam verilməsi məsrəfləri və səmərəsini ($h_{i1}$- sıfıra bərabər götürülür),
$m_{i2}$, $h_{i2}$ - layihənin mövcud vəziyyətində başa çatdırılmasına məsrəfləri və səmərəni,
$m_{i3}$, $h_{i3}$ - layihənin alternativ reallaşmasına məsrəfləri və səmərəni,
$f_i$,$h_i$ - yeni layihənin başlamasının məsrəflərini və səmərəni ifadə edir.

Aqrar-sənaye sahələrində innovasiyalı inkişaf proqramlarında üstünlük veriləcək, başqa sözlə investisiyalaşması nəzərdə tutulan layihənin seçimində yuxarıda qeyd olunan modellərin nəticələrindən istifadə olunur. Haqqında danışılan modellərin nəticələrindən istifadə modelin təkmilləşdirilməsi prosesi ilə müşayiət olunur. Aşağıdakı mənbədə göstərildiyi kimi "modelləşdirmənin aralıq mərhələlərində düzəldilə bilməyən çatışmazlıqlar sonrakı mərhələlərdə aradan qaldırılır. Bununla belə, hər bir mərhələnin nəticələri tamamilə müstəqil əhəmiyyətə malikdir. Tədqiqata sadə bir model qurmaqla başlamaqla tez bir zamanda faydalı nəticələr əldə etmək mümkündür və sonra yeni şərtlərlə, o cümlədən daha dəqiq riyazi əlaqələrlə tamamlanan təkmil model yaratmaq olar" (19, s.1085).

Aqrar-sənaye sahələrində innovasiyalı fəaliyyətin investisiyalaşması proseslərinin təhlili və proqnozlaşdırılması üçün qurulan modellərin reallaşdırılmasından əldə edilən nəticələr rəqəmsal texnologiyaların yaratdığı yeni imkanlar sayəsində daha az müddətdə zəruri adekvatlıq səviyyəsinə çatdırıla bilər.

**Nəticə**

İnnovasiyalı fəaliyyətin investisiyalaşması proseslərinin modelləşdirilməsindən əldə edilən nəticələrin dəyəri, qurulan (seçilən) riyazi modelin (modellər sisteminin) obyektiv reallığa adekvatlığından və bu məqsədlə yaradılan informasiya mübadiləsi imkanlarından asılıdır. Tövsiyə olunan riyazi modelin (modellər sisteminin) aqrar-sənayedə innovasiyalı fəaliyyətin investisiya mühitində baş verən hadisələrə həssaslığının, yüksək ehtimalla həlledici dərəcədə rəqəmsal texnologiyalardan istifadə səviyyəsi ilə bağlı olacağı gözlənilir. Modelin bazar tələbinə uyğunlaşa bilməsi, müvafiq addımların davamlılığı və hər bir addımın nəticəsinin yoxlanmasının iterativ imkanının olması modelləşdirmədən əldə edilən real səmərəni dəfələrlə artıra bilər. Aqrar-sənaye

sahələrində innovasiyalı inkişaf şəraitində investisiya proqramlarında mütəmadi olaraq ciddi korreksiyaya ehtiyac yaranır. Həmin korreksiyaya ehtiyac yaradan amillərin, korreksiya tələblərinin və addımlarının modelləşdirilməsi, nəticələrdən istifadənin sistemin təkmilləşdirilməsinin zəruri addımı kimi qəbulu investisiya proseslərinin səmərəliliyinə ciddi müsbət təsir göstərə bilər. Bu baxımdan üstünlük verilən investisiya layihələrinin seçilməsi və innovasiyalı inkişaf proqramında onların əvəzlənməsinin modelləşdirilməsi üzrə tövsiyə olunan yanaşma məqsədəuyğundur.

## ƏDƏBİYYAT


1. Janssen SJC, Porter CH, Moore AD, Athanasiadis IN, Foster I, Jones JW, Antle JM. Towards a new generation of agricultural system data, models and knowledge products: Information and communication technology. Agric Syst. 2017 Jul; 155:200-212. doi: 10.1016/j.agsy.2016.09.017. PMID: 28701813; PMCID: PMC5485661
2. Katan, Lyudmyla & Dobrovolska, Olena & Espejo, José. (2018). Structural modeling of the financial support for the Ukrainian agrarian sector. Investment Management and Financial Innovations. 15. 199-211. 10.21511/imfi.15(3).2018.17
3. Pratoom, K., Savatsomboon, G. Explaining factors affecting individual innovation: The case of producer group members in Thailand. Asia Pac J Manag 29, 1063–1087 (2012). https://doi.org/ 10.1007/s10490-010-9246-0
4. Тарасов В.М. Моделирование инвестиционного процесса. Вестник ТГГПУ. 2007. №1(8). 02.07.2022. https://cyberleninka.ru/ article/n/modelirovanie-investitsionnogo-protsessa
5. Уандыкова М.К. Системное моделирование процессов формирования и реализации программ инновационного развития регионов. 08.00.13; 08.00.05. Дисс… д. э. н. Москва: 2021. 369 с.
6. Sterman, J. D. (2000). Business dynamics – systems thinking and modelling for a complex world. Boston, Irwin McGraw-Hill. http://lst-iiep.iiep-unesco.org/cgi-bin/ wwwi32.exe/[in=epidoc1.in] /?t2000=013598/(100).
7. Арнольд, В.И. «Жесткие» и «мягкие» математические модели / В.И. Арнольд. Москва: : МЦНМО, 2004. 32 с. ISBN 5–94057–134–4)
8. Sanford Friedenthal, Dov Dori, Yaniv Mordecai. System Modeling Concepts. https://www.sebokwiki.org/ wiki/System_ Modeling_ Concepts
9. Хомяков, В.Н. Кибернетика, закон необходимого разнообразия и разработка прогнозов экономических показателей / В.Н. Хомяков // Известия ТулГУ. Экономические и юридические науки. – 2014. – № 1–1. С. 128–141
10. Financial modeling: an investment model-https://esfccompany.com/en/articles/ economics-and-finance/financial - modeling-an-investment-model//. 01. 07.2022
11. Olga Khodakivska et all. Efficiency of Innovative Development Management: Interstate Assessment of the Economic Competitiveness in the Context of European Integration and Economic Security. IJCSNS International Journal of Computer Science and Network Security, VOL.20 No.11, November 2020, 67-72, https://doi.org/10.22937/IJCSNS.2021.21.11.9
12. X.H.Wang, C.H.Wan, C.C., Sun, R.W.Xia. An Optimization Algorithm for Multi-objective Optimization Problem by Using Envelope-dual Method. Procedia Engineering. Volume 67, 2013, Pages 457-466// https://doi.org/10.1016/j.proeng. 2013.12.046
13. Luban Florica, 2009. "Using simulation to evaluate investment projects," Economia. Seria Management, Faculty of Management, Academy of Economic Studies, Bucharest, Romania, vol. 12(1 Special), pages 139-144, July
14. Balayev R.Ə. Urbanizasiya: şəhər iqtisadiyyatı və ərzaq problem. Bakı: Elm, 2007, 295 s.
15. Чесбро, Г. Открытые инновации. Москва: Поколение, 2007. 336 с. – ISBN 978–5–9763–0054–5
16. Sveiby, K.E., Linard K., and Dvorsky, L. (2002). Building a knowledge-based strategy. A system

dynamics model for allocating value adding capacity. Retrieved December 15, 2008 from Sveiby Knowledge Associates Web site: http://www.sveiby.com/ Portals/0/articles/sdmodelkstrategy.pdf

17. Ицковиц, Г. Модель тройной спирали / Г. Ицковиц // Инновации. 2011. № 4. С. 5–10. ISSN 2071– 3010
18. Калугин, В.А. Моделирование инвестиционного процесса в условиях турбулентной экономики / В. А. Калугин // Актуальные проблемы экономики в условиях реформирования современного общества: матер. IV междунар.науч.-практ. конф.,140-летию НИУ Бел ГУ, Белгород, 25 ноябр. 2015 г. Белгород, 2016. С. 22-25
19. Саидова Н. М. Использование математических моделей при изучении различной деятельности экономических систем. SCIENTIFIC PROGRESS VOLUME 2 I ISSUE 2 I 2021 ISSN: 2181-1601. С.1079-1085

## SUMMARY

**Fuad Ibrahimov**

## METHODOLOGICAL ASPECTS OF MODELING INVESTMENT PROCESSES OF INNOVATIVE DEVELOPMENT OF AGRO-INDUSTRIAL SPHERES

When analyzing and forecasting investment processes of innovative development in modern agro-industrial sectors, it is necessary to take into account the influence of many factors and ensure the multivariance of the development scenario. There is a strong need to quantify the characteristics of investment activity. Therefore, as the goal of the study, it was proposed to study the methodological basis for modeling investment processes of innovative development of agro-industrial sectors and its improvement in some aspects. As part of the analysis and forecasting of investment projects, the possibilities of using existing models for simulation modeling in agro-industrial areas are determined. From the point of view of the requirements of the industry, an investment model of innovative development projects was chosen and some of its methodological elements were improved.

***Key words:*** *agro-industrial sectors, investment in innovative development, model, project, methodological base*

## РЕЗЮМЕ

**Фуад Ибрагимов**

## МЕТОДИЧЕСКИЕ АСПЕКТЫ МОДЕЛИРОВАНИЯ ИНВЕСТИЦИОННЫХ ПРОЦЕССОВ ИННОВАЦИОННОГО РАЗВИТИЯ АГРОПРОМЫШЛЕННЫХ СФЕР

При анализе и прогнозировании инвестиционных процессов инновационного развития в современных агропромышленных отраслях необходимо учитывать влияние множества факторов и обеспечивать многовариантность сценария развития. Существует серьезная потребность в количественной оценке характеристик инвестиционной деятельности. Поэтому в качестве цели исследования было поставлено исследование методической основы моделирования инвестиционных процессов инновационного развития агропромышленных сфер и ее совершенствование в некоторых аспектах. В части анализа и прогнозирования инвестиционных проектов определены возможности использования существующих моделей для имитационного моделирования в агропромышленных сферах. С точки зрения требований отрасли выбрана инвестиционная модель проектов инновационного развития и усовершенствованы некоторые ее методологические элементы.

***Ключевые слова:*** *агропромышленные отрасли, инвестирования инновационного развития, модель, проект, методическая база*

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Nazim Əhmədov*
***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 170-179
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 170-179
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 170-179

**RİFAT HƏSƏNOV**
*hesenovrifat@mail.ru*
*"Naxçıvan" Universiteti*

**UOT: 338.45**

# İSTEHSAL MÜƏSSİSƏLƏRİ ÜZRƏ FƏALİYYƏT POTENSİALI, ONUN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ TƏHLİLİ

***Tədqiqatın məqsədi*** *– mövcud şəraitdə ölkənin iqtisadi sisteminin aparıcı sahəsi olan sənayedə və kənd təsərrüfatında istehsal müəssisələrinin fəaliyyət potensialının və real istehsal həcmlərinin dəqiq müəyyən edilməsi, onlar üzrə müvafiq qiymətləndirmə və təhlil işlərinin həyata keçirilməsi, həmçinin perspektiv dövrlər üçün proqnozların hazırlanması.*

***Tədqiqatın metodologiyası*** *– müşahidə, qruplaşdırma və yekunlaşdırma, indeks, müqayisəli təhlil metodlarından istifadə olunması.*

***Tədqiqatın nəticələri*** *– ölkənin bitkiçilik istiqaməti üzrə müqayisəli araşdırma və təhlillərin aparılması, müxtəlif zaman kəsiklərini əhatə edən əlaqəli informasiyaların qarşılaşdırılması və situativ araşdırmalar əsasında səmərəli kombinasiyaların müəyyən edilməsi, uyğun təklif və tövsiyələrin açıqlanması.*

***Tədqiqatın praktiki əhəmiyyəti*** *– respublikanın 1992-2020-ci illəri əhatə edən, sənaye və aqrar sahələrində aidiyyatı ilə seçilən mühüm göstəricilərin dövrlər üzrə vəziyyətinə aydınlıq gətirilməsi, bu zaman əsaslı təsir faktorlarının aydınlaşdırılması.*

***Tədqiqatın orijinallığı və elmi yeniliyi*** *– sənayedə və aqrar sahədə istehsal edilən əmtəələrin əhalinin və istehsal subyektlərinin ehtiyaclarını nə dərəcədə qarşılamasının təcrübi məlumatlar əsasında sərgilənməsi, ərzaq təhlükəsizliyinin təmin edillməsi üzrə addımların real şəraitə uyğun sistemləşdirilməsinin həyata keçirilməsi və bu sahədə iqtisadi sistemin tələblərinin müəyyənləşdirilməsi, müvafiq tədqiqat mərhələlərinin kompleks şəkildə həyata keçirilməsi.*

***Açar sözlər:*** *istehsal müəssisələri, fəaliyyət potensialı, fəaliyyət potensialının qiymətləndirilməsi, potensial təhlili, sənaye sektoru*

## GİRİŞ

Cəmiyyətin təkamülünün mühüm istiqamətlərindən biri kimi qəbul olunan onun "yaradıcı" maddi potensialı geniş və rəngarəng amil, fəaliyyət aləti və mexanizmlərdən ibarətdir. Bəhs olunan fərqliliklər özündə sahə, fəaliyyət yönü, egional xüsusiyyətlər, təbii iqlim elementləri, istehsalın avtomatlaşdırılması və mexanikləşdirilməsi səviyyəsi, fiziki və zehni əməyin biri-digərini ahəngdar tamamlaması və s. məsələlərdən irəli gəlməkdə, özünün spesifik cəhətlərini sərgiləməkdədir. Bu sırada öncüllərdən hesab olan maddi istehsal sahəsinə aidiyyat məsələsi həmin sferanın fərqliliklərini ifadə etməklə yanaşı, onun cəmiyyətin hansı tələblərini qarşılaması haqda fikirləri də formalaşdırmaqdadır [3; səh. 31].

Məqalədə bəhs olunan istiqamətlərdə tərəfimizdən tədqiqat obyektləri kimi sənaye və kənd təsərrüfatı seçilmişdir. Onların müxtəlif yönlərinə diqqətin çəkilməsi işin əsas məqsədlərini təşkil eməkdədir. Digər tərəfdən maddi istehsal sahələrində fəaliyyətin sistemli təşkili də mühüm əhəmiyyət kəsb edir.

Bu fəaliyyət sferaları özündə müqayisəli səviyyələri əhatə etməkdədir. Yəni istehsal sferalarında hadisə və proseslərin dinamika vəziyyətində, digər tərəfdən isə "ölkə - region" qarşılaşdırılması müstəvisində araşdırılması müfəssəl nəticələrin əldə olunmasına şərait yaradır. Belə "çarpaz" tədqiqatlar maddələr üzrə fərdi nəticələrin əldə olunmasında xüsusi əhəmiyyətə malikdir.

Qeyd olunduğu kimi, ölkə iqtisadiyyatının öncül elementi sənaye sferası hesab olunur. Ölkənin istehsalını maddi-texniki baxımdan dəstəkləmək iqtidarında sənayesi mövcud olmalı və yeni texnika ilə, texniki vasitələrlə təminat məsələləri öncül plana çəkilməlidir. Bununla yanaşı, elmi-texniki və təcrübi araşdırmaların həyata keçirilməsi bir tərəfdən həmin ölkənin ümumilikdə maddi-istehsal potensialının yüksəldilməsi yolunda mütəmadi addımların atılmasına şərait yaradır, digər tərəfdən mövcud istehsal vahidlərinin yüksək texniki-texnoloji səviyyələrə malik olması istehsal işləri və həcmi daha mürəkkəb olan, kompleks fəaliyyət-işlətmə xarakteri daşıyan avadanlıq-dəzgah parkını formalaşdırır, mütərəqqi xammal və material növlərinə keçidin təməlini qaydaya salır [9; s.58].

**Sənaye sahəsinin potensialı, onun qiymətləndirilməsi və təhlili istiqamətləri**

Hər bir sahədə olduğu kimi, sənayenin xarakterizə olunması bir tərəfdən ümumi istehsal məqsədlərinə yanaşmanı, digər tərəfdən isə özünün xüsusiyyətlərini sərgiləməsi əsasında tam mənzərəni formalaşdırmaqdadır. Bu sırada sahənin istehsal potensialının ilkin göstəriciləri sırasında onun ixtisaslaşdırılmış müəssisələrinin say-tərkib göstəriciləridir ki, bunun öyrənilməsinə də mühüm göstəriciləri ifadə olunan aşağıdakı cədvəl 1 vasitəsilə nəzərdən keçirək.

***Cədvəl 1.*** *Ölkə üzrə fəaliyyət göstərən sənaye müəssisələrinin sayı (vahid) və d. məlumatlar [10]*

| Göstəricilər | 2005 | 2010 | 2011 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|
| Ölkə üzrə cəmi sənaye müəssisələri, vahid | **2621** | **2650** | **2508** | **2583** | **2561** | **2582** | **2837** | **3169** |
| Ölkə üzrə sənaye müəssisələrinin sayının silsiləvi artım tempi, % | - | +0,4 | -1,6 | -1,1 | -0,1 | +0,1 | +9,9 | +11,7 |
| Ölkə üzrə istehsal olunan sənaye məhsulunun dəyər ifadəsi, mln. manat | **7725,1** | **25251,2** | **31782,9** | **22448,3** | **27468,8** | **34100,2** | **41374,0** | **39745,1** |
| Ölkə üzrə istehsal olunan sənaye məhsulunun dəyər ifadəsində silsiləvi artım dinamikası, % | - | +3,3 dəfə | +25,9 | -29,4 | +22,4 | +24,1 | +21,3 | -3,9 |
| Naxçıvan MR sənaye müəssisələri, vahid | **96** | **135** | **135** | **132** | **134** | **127** | **119** | **106** |
| Ölkə göstəricisində MR-in xüsusi çəkisi, % | 3,8 | 5,1 | 5,2 | 5,1 | 5,2 | 4,9 | 4,2 | 3,3 |
| Region üzrə sənaye müəssisələrinin sayınını silsiləvi artım dinamikası,% | - | +34,2 | +2,0 | -2,0 | +2,0 | -5,8 | -14,3 | -21,4 |
| Region üzrə istehsal olunan sənaye məhsulunun dəyəri, mln. manat | **41,207** | **318,565** | **680,921** | **916,818** | **942,945** | **967,06** | **990,067** | **1014,97** |
| Ölkənin sənaye məhsulunda region istehsalının xüsusi çəkisi, % | 0,53 | 1,3 | 2,1 | 4,1 | 3,4 | 2,8 | 2,4 | 2,6 |
| Region üzrə istehsal olunmuş sənaye məhsullarının dəyər ifadələrinin silsiləvi artım dinamikası, % | - | +7,73 dəfə | +2,14 dəfə | +34,6 | +2,9 | +2,6 | +2,4 | +2,5 |

Mənbə: cədvəl statistik məlumatlar əsasında müəllif tərəfindən tərtib olunmuşdur (https://www.stat.gov.az/ source/industry/022)

Göstəricilərin qarşılaşdırılması 2018-ci illə müqayisədə respublikamızın sənaye sahəsi üzrə istehsal müəssisələrinin sayı 2019-cu ildə 3169 vahid olduğu halda (öncəki illə müqayisədə artım +332 vahid və ya +11,7%), ölkədə sənaye məhsulunun dəyər həcmi göstəricisi 1628,9 mln manat geriləmişdir. Deyilənlərlə bərabər respublikada ehtiyac (tələb) əsasında yaranan təklifin müqayisəsi aşağıdakı məsələlərə aydınlıq gətirməyi məqsədəmüvafiq edir:

1. Bir müəssisənin istehsal göstəricisi 2018-ci ildə 14,6 mln. manat, 2019-cu ildə isə 12,5 mln. manat təşkil etmişdir ki, bu da hər müəssisə hesabı ilə 2,1 mln. manat azdır;
2. Müqayisəli qiymətləndirmə əsasında qeyd etmək mümkündür ki, son 2 il üzrə ehtiyat mənbəyi (maksimum artım həcmi) 3169 × 14,6 = 46267,4 mln. manat təşkil edə bilər ki, bu da 2019-cu ilin real göstəricisindən 6722,3 mln. manat (46467,4 – 39745,1) çoxdur. Bu hesablama heç bir inflyativ faktor nəzərə alınmadan icra olunmaqdadır və dəyər səviyyəsinin artmasına təsir göstərməməkdədir.

Müvafiq göstəricilərin Naxçıvan Muxtar Republikası rəqəmləri əsasında müəyyən edilməsi göstərir ki:

- ✓ regionun sənaye müəssisələrinin yuxarıdakı cədvəldə göstərilən maksimal sayı 135-dir;
- ✓ 2019-cu ildə 2018-ci illə müqayidə həmin müəssisələr üzrə say ifadəsində 21,4% geriləmə baş vermişdir. Bununla bərabər, 2018-ci illə müqayisədə 2019-cu ildə istehsal olunmuş məhsul həcmi 2,5% artmışdır (1015,0 : 990,1 mln.manat);
- ✓ 2019-cu ilə görə hər vahid müəssisənin istehsal həcmi 9,6 mln manat təşkil etmişdir;
- ✓ Müvafiq dinamika sırasının maksimal yüksək səviyyəsi ilə qarşılaşdırdıqda regionun dəyər ifadəsində istehsal edilən məhsul həcmi 292,7 mln manata (9,6 mln manat × 135 sənaye müəssisəsi) bərabər olacaqdır ki, bu da 2019-cu ilin real göstəricisindən 277,7 mln. manat (1292,7 – 1015,0) çoxdur. Alınan fərq regionun ehtiyat imkanlarının tam istifadə edilmədiyinə diqqəti çəkir.

Nəzərdən yayınmamalıdır ki, regionun sənayesində 2019-cu ildə 106 sənaye müəssisəsi ilə yanaşı, sənaye fəaliyyəti ilə məşğul olan 863 fərdi sahibkar da öz yerini almışdır. Bu göstərici 2005-ci ilin nəticələri ilə müqayisədə aşağıdakı müsbət nisbi kənarlaşmaları özündə birləşdirməkdədir: sənaye müəssisələrinin sayı +10,4%; sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkar sayı +3,9 dəfə; sənaye məhsulunun dəyəri +24,6 dəfə; sənaye məhsulu istehsalında qeyri-dövlət bölməsinin payı +41,3%; yüklənmiş mallar (dəyərcə) +29,9 dəfə; sənaye sektoru üzrə hazır məhsul ehtiyatları dəyərcə +19,6 dəfə; işçilərin orta illik sayı +4,7 dəfə və s. Həmin zaman ifadələrində regionun iqtisadi aktivliyini əhatə edən digər göstəricilər də nisbi ifadədə əks etdirilə bilər ki, buna nümunə olaraq aşağıdakıları ifadə etmək mümkündür: kərə yağı üzrə +49%; kolbasa məmulatları üzrə +15,3 dəfə; təzə şirniyyat məmulatları və pirojnalar üzrə +12,7 dəfə; konfet üzrə +31,2 dəfə; makaron məmulatı üzrə +4,9 dəfə; mineral və qazlı sular +85,1 dəfə; kişi və oğlan gödəkçələri və paltoları +72,9 dəfə; istehsal olunmuş elektrik enerjisi +4,6 dəfə və s.

Sənaye-istehsal potensialı araşdırılmasında mühüm əhəmiyyət kəsb edən məsələlərdən birini də əsas vəsait qoyuluşları təşkil edir. Prosesin əsas məzmunu ilk növbədə iki istiqaməti əhatə etməkdədir: yeni əsas fondların yaradılması və mövcud fondların bərpası. Deyilənləri daha əhatəli nəzərdən keçirmək üçün cədvəl 2-yə müraciət edək.

***Cədvəl 2.*** *Əsas kapitala yönəldilmiş vəsait istiqamətləri, min manat*

| Vəsaitlər | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
| **Əsas kapitala yönəldilmiş vəsaitlər, cəmi** | **126051,7** | **501105,5** | **951196,5** | **997609,0** | **1005761,0** | **1017079,0** | **1029283,9** |
| **İstehsal sahələrinin bölgüsü** | **71946,5** | **267527,5** | **597238,6** | **623057,2** | **626599,9** | **633201,9** | **645233,3** |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **o cümlədən:** | | | | | | | |
| sənaye | 50414,4 | 113725,8 | 297198,6 | 298485,1 | 299130,5 | 300073,3 | 286072,5 |
| kənd təsərrüfatı | 8436,5 | 17036,7 | 68006,7 | 79182,4 | 79966,3 | 81909,5 | 67036,2 |
| ticarət və xidmət | 2588,6 | 52215,0 | 129464,9 | 130553,1 | 130941,6 | 132184,8 | 50080,7 |
| tikinti | 3450,0 | 9397,0 | 15994,2 | 25886,2 | 26878,4 | 27921,6 | 77334,3 |
| nəqliyyat | 5089,1 | 68373,3 | 71499,1 | 72546,9 | 72780,1 | 73723,3 | 111207,0 |
| rabitə | 1763,3 | 3511,8 | 10370,3 | 11432,2 | 11579,6 | 11922,8 | 3599,9 |
| digər istehsal sahələri | 204,6 | 3267,9 | 4704,8 | 4971,3 | 5323,4 | 5466,6 | 49902,7 |
| **Qeyri-istehsal sahələrinin bölgüsü** | **54105,2** | **233578,0** | **353957,9** | **374551,8** | **379161,1** | **383877,1** | **384050,6** |
| o cümlədən: | | | | | | | |
| mənzil tikintisi | 11522,3 | 92845,3 | 194867,6 | 212940,9 | 213364,6 | 214307,8 | 250442,7 |
| səhiyyə | 2204,6 | 19657,7 | 22090,1 | 23364,4 | 24826,0 | 25769,2 | 11908,8 |
| təhsil | 9282,1 | 26356,1 | 57960,1 | 56595,5 | 57027,3 | 57970,5 | 22438,8 |
| dövlət idarəetməsi və sosial təminatın vəzifələri | 20382,8 | 55647,3 | 53956,7 | 54071,2 | 55225,4 | 56168,6 | 57241,6 |
| digər kommunal və sosial sahələr | 10713,4 | 39071,6 | 25083,4 | 27579,8 | 28717,8 | 29661,0 | 42018,7 |

*Mənbə: stat.gov.az.*

Cədvəl 2-nin rəqəmləri vasitəsilə təşkil olunan qiymətləndirmə və təhlil işləri əsasında aydın olmuşdur ki:

- ✓ Cəmi əsas kapitala qoyuluşlar istehsal (59,5%) və qeyri-stehsal (40,5%) sahələri üzrə bölüşdürülmüşdür;
- ✓ 2019-cu ildə istehsal əsas fondları üzrə kapital qoyuluşları daxili tərkib etibarı ilə sənayeni (44,3%), kənd təsərrüfatını (10,4%), tikinti sahəsini (12,0%), ticarət və iaşə xidmətini (7,8%), nəqliyyatı (17,2%), rabitəni (0,6) və digər sahələri (7,7%) əhatə etməkdədir;
- ✓ 2019-cu illə müqayisədə 2020-ci ildə ölkə üzrə əsas kapitala yönəldilmiş vəsait həcmi 1,1% artaraq 1041,1 mln. manata çatmışdır;
- ✓ Əsaslı vəsait qoyuluşunun region miqyasındakı səviyyəsinin artımı 2020-ci ildə 66,6% təşkil etmiş, onun da 53,7%-i Naxçıvan şəhərinin payındadır. Regionun digər 7 vahidinin pay nisbətləri 2005-ci və 2020-ci illərdə müvafiq olaraq aşağıdakı kimidir: Şərur rayonu üzrə – 6,7% və 7,7%, Babək rayonu üzrə - 14,1% və 6,6%, Ordubad rayonu üzrə - 5,2% və 5,8%, Culfa rayonu üzrə - 7,7% və 3,9%, Kəngərli rayonu üzrə - 4,8% və 4,1%, Şahbuz rayonu üzrə - 3,7% və 3,0% və Sədərək rayonu üzrə - 3,4% və 2,4%. Hesablanmış nisbi kəmiyyətlər əsasında onların kənarlaşmaları da müəyyən edilə bilər.

Statistika məlumatlarına görə, sənaye məhsulunun kəmiyyətinin ardıcıl artımı müsbət haldır. Digər tərəfdən alınan ifadələr həqiqi istehlakın artım templərinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin minimal istehlak normaları ilə bağlı qərarına uyğunluğu fərdi şəkildə nəzərdən keçirilməlidir. Bununla yanaşı, regional səviyyədə istehsal olunan sənaye məhsullarının artım templəri ilə bağlı fərdi araşdırmaların təşkili də spesifik əhəmiyyətə malikdir (Cədvəl 3).

*Cədvəl 3. Naxçıvan MR-də istehsal olunan sənaye məhsulunun artım templəri*

| **Fəaliyyət və mülkiyyət növləri üzrə** | **İllər** (hesablama silsiləvi qaydada aparılıb) | | | | | **2000-ci ilə nisbətən 2020-ci ildə** |
|---|---|---|---|---|---|---|
| | **2000** (min manat) | **2005** (±) | **2010** (±) | **2015** (±) | **2020** (±) | |
| Cəmi | 13765,4 | +3,0d. | +7,7d. | +2,9d. | +13,5% | +75,6d. |
| dövlət sektoru | 7268,1 | +89,5% | +2,8d. | +6,9% | +66,7% | +9,6d. |
| qeyri-dövlət sektoru | 6497,3 | +4,2d. | +10,2d. | +3,1d. | +11,0% | +149,4d. |
| Fəaliyyət növləri üzrə: | | | | | | |
| Mədənçıxarma sənayesi | 96,0 | +2,4d. | +56,6% | +2,8d. | +0,2% | +10,6d. |
| Emal sənayesi | 11287,4 | +2,7d. | +70,6d. | +3,2d. | +11,1% | +86,2d. |
| o cümlədən: | | | | | | |
| İçki, tütün də daxil olmaqla qida məhsullarının istehsalı | 8946,5 | +24,9% | +15,4d. | +3,1d. | +8,5% | +64,9d. |
| Toxuculuq və tikiş sənayesi | 1554,0 | +4,2d. | +2,1d. | +3,0d. | +17,4% | +31,4d. |
| Dəri, dəridən məmulatlar və ayaqqabı istehsalı | 1,4 | +4,2d. | +60,6d. | +3,0d. | +22,6% | +922,4d. |
| Oduncaqların emalı və ağacdan məmulatların istehsalı | 9,7 | +12,9d. | +127,6d. | +2,7d. | +8,1% | +4779,6d. |
| Sellüloza-kağız istehsalı və nəşriyyat işi | 40,4 | +52,6d. | -6,7% | +3,6d. | +44,5% | +255,7d. |
| Kimya sənayesi | - | +16,0d. | +205,8d. | -31,1d. | +5,1d. | Tam həcm |
| Rezin və plastik kütlə məmulatları | 1,4 | +57,2d. | +120,9d. | +3,5d. | +8,0% | +58879,4d |
| Digər qeyri-metal mineral maddələrin istehsalı | 594,0 | +14,3d. | +19,5% | +3,5d. | +3,2d. | +190,6d. |
| Metallurgiya sənayesi | 3,8 | +30,9d. | +6,7d. | +8,0d. | +7,4d. | +12177d |
| Avtomobil, qoşqu və yarımqoşquların istehsalı | - | - | - | - | 2206,8 | Tam həcm |
| Emal sənayesinin digər sahələri | 136,2 | +15,7d. | +6,1d. | +3,1d. | +1,0% | +293,5d |
| Elekrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi | 2382,0 | +4,2d. | +3,7d. | -0,6% | +72,1% | +26,3d |

*Mənbə: Cədvəl statistika məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəl 3-ün məlumatlarının ümumiləşdirilməsi nəticəsində demək mümkündür ki, 2000-ci illə müqayisədə 2020-ci ildə artımlar aşağıdakı kimidir:

1. Sənaye məhsulunun artım tempi +75,6 dəfə: ondan dövlət sektoru üzrə +9,6 dəfə, qeyri-dövlət sektoru üzrə 149,4 dəfə;
2. Mədənçıxarma sənayesi üzrə +10,6 dəfə;
3. Emal sənayesi üzrə +36,2 dəfə;
4. Metallurgiya sənayesi üzrə +12177 dəfə;
5. Elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi +26,3 dəfə və s.

Müsbət artım templəri ilə yanaşı, geriləmə ilə nəticələnən templər də mövcuddur. Bu sırada:

1. *Sellüloza-kağız istehsalı və nəşriyyat işi üzrə* - 2005-ci illə müqayisədə 2010-cu ildə -6,7% geriləmə;
2. *Kimya sənayesi üzrə* - 2005-ci illə müqayisədə 2010-cu ildə 31,1 dəfə geriləmə;
3. *Elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi üzrə* - 2010-cu illə müqayisədə 2015-ci ildə - 0,6 % geriləmə və s.

Yuxarıdakı müsbət və mənfi artım templəri öz növbəsində istiqamətlər üzrə hərəkətlənmə xüsusiyyətlərinə aydınlıq gətirməkdədir.

Deyilənlər sənaye-istehsal potensialının formalaşması və realizəsi üzrə bir sıra mühüm məqamlara diqqət çəkməkdədir. Seçmə qaydasında icra etdiyimiz tədqiqat fəaliyyəti ilə yanaşı, onun çoxsaylı digər istiqamətləri mövcuddur ki, fərqli məqsədli araşdırmalarda spesifik obyekt və yönlərdən istifadə olunması mümkündür.

**Aqrar sahə – ərzaq təminatı fəaliyyətinin əsas iştirakçısı kimi**

Ölkələrin təcrübəsi göstərir ki, əhalinin ərzaq məhsullarına, spesifik istehsal müəssisələrinin isə aqrar xammala olan tələbatının ödənilməsində kənd təsərrüfatı mühüm rol oynamaqdadır [2, səh. 32]. Özündə bitkiçiliklə heyvandarlığın üzvi sintezini ifadə edən bu sahə respublikanın ərzaq təhlükəsizliyinin təmin edilməsində böyük xüsusi çəkiyə malikdir. Eyni "ağırlıq" region miqyasında da hiss olunmaqdadır. Bitkiçilik – aqrar sahənin öncül istiqaməti hesab olunmaqdadır. Belə ki, insanların qida rasionunun əvəzolunmaz məhsulu olan çörək məhz bu sahənin ilk məhsulu olan və "dənli və danlı paxlalılar" qrupunun ilkini təşkil edən taxılın yaradıldığı sferadır [4; s.91].

Bitkiçilik özündə çoxsaylı göstəriciləri cəmləyir ki, bunlardan birincisini əkinə yararlı torpaqlar təşkil edir. Onlar ümumi həcmdə verilməklə yanaşı, bir çox əlamət əsasında təsnifləşdirmələrə imkan verir. Bunlardan birincisi əkin sahələrinin aqrobitkilərin növləri üzrə xüsusi çəkilərinin ifadə edilməsidir ki, bunu da region miqyasında 1995 və 2020-ci illərin qarşılaşdırılmasını ifadə edən cədvəl 4 vasitəsilə görmək mümkündür.

***Cədvəl 4.** Naxçıvan regionunun bitkiçilik istiqaməti üzrə əkin sahələrinin məhsul növləri üzrə pay nisbətləri (%)*

| **İllər** | **Cəmi əkin sahəsi (ha)** | **dənli və dənli paxlalılar (qarğıdalı daxil olmaqla)** | **tərəvəz** | **kartof** | **bostan bitkiləri** | **yem bitkiləri** | **texniki bitkilər** |
|---|---|---|---|---|---|---|---|
| 1995 | 25476,6 | 81,3 | 0,8 | 0,8 | 0,5 | 9,5 | 7,1 |
| 2020 | 63405,0 | 62,1 | 8,6 | 5,1 | 3,6 | 20,3 | 0,3 |

*Mənbə: stat.gov.az məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Statistik informasiyadan aydın olur ki, 1995 və 2020-ci il arasında əkin sahələrinin ümumi həcmi 37928,4 ha-dır (63405 – 25476,6) ki, bu da 2,5 dəfəlik artım deməkdir. Oxşar qaydada daxili tərkib elementləri üzrə də artımlar müşayiət olunmuşdur. Məsələn dənli və dənli-paxlalılar üzrə əkin sahələrinin həcmində 1995-ci illə müqayisədə 2020-ci ildə 90,1%-lik artım qeydə alınmışdır (39374: 20715).

Digər tərəfdən şaquli araşdırmanın kompleksliliyi baxımından üfuqi tədqiqatlara da müraciət olunmalıdır ki, burada da əsas iştirakçılar sifətilə regionlarda əkin sahələrinin ümumi və bölüşdürülmüş şəkildə mövcudluğu, torpağın keyfiyyət göstəriciləri və onların aqroməhsullara uyğunluğu və digər əlamətlər nümunə olaraq göstərilə bilər.

İfadə edilən 6 əsas əkin istiqaməti üzrə kənarlaşma aşağıdakı kimi olmuşdur: dənli və dənli paxlalılar üzrə geriləmə - 19,2%, tərəvəz, kartof bostan bitkiləri və yem bitkiləri üzrə artım müvafiq olaraq – 7,8%, 4,3%, 3,1% və 10,8%, texniki bitkilər üzrə səviyyənin azalması – 6,8%-dir. Aqrar sahənin (bitkiçiliyin) əsas göstəricilərindən biri istehsal göstəriciləridir.

Digər tərəfdən qarşılıqlı müqayisələrin həyata keçirilməsi aşağıdakı nəticələri sərgiləmiş olur:

***Cədvəl 5.** Əkin sahələri və məhsul istehsalı üzrə artım templəri*

| **İllər** | **dənli və dənli paxlalılar qarğıdalı daxil olmaqla)** | **tərəvəz** | **kartof** | **bostan bitkiləri** | **yem bitkiləri** | **texniki bitkilər** |
|---|---|---|---|---|---|---|
| Əkin sahələrinin artımı | 90,1% | 26 dəfə | 16,2 dəfə | 17,7 dəfə | 5,3 dəfə | 8,8 dəfə |
| Məhsul istehsalı | 5,6 dəfə | 59,4 dəfə | 126,7dəfə | 78,7 dəfə | 10 dəfə | 20,8 dəfə |

*Mənbə: stat.gov.az məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəl 5-in məlumatlarından aydın olur ki, intensiv yolla artımların payına düşən hissələr (fərqlər) aşağıdakılardır:

- ✓ Dənli və dənli-paxlalılar üzrə - 4,7 dəfə;
- ✓ Tərəvəz üzrə - 33,4 dəfə;
- ✓ Kartof üzrə - 110,5 dəfə;
- ✓ Bostan bitkiləri üzrə - 61 dəfə;
- ✓ Yem bitkiləri üzrə - 4,7 dəfə;
- ✓ Texniki bitkilər üzrə - 12 dəfə.

Hesablamalardan aydın olur ki, 1995-ci illə müqayisədə 2020-ci ildə intensiv inkişafın payına düşən nisbi kəmiyyətlər üstünlük təşkil etməkdədir. Deyilənlərlə yanaşı, Naxçıvan regionu üzrə bitkiçilik istiqamətində məhsul istehsalı növlərinin pay ifadələri və məhsuldarlıq göstəriciləri araşdırma məqsədləri üçün mühüm əhəmiyyət kəsb etməkdədir. Deyilənlər əsasında cədvəl 6 və 7 əsasında müvafiq hesablamaların icrası məqsədəmüvafiqdir.

***Cədvəl 6.*** *Naxçıvan regionunun bitkiçilik istiqaməti üzrə məhsul istehsalı növləri üzrə pay nisbətləri (%)*

| **İllər** | **Cəmi istehsal həcmi (ton)** | **dənli və dənli paxlalılar (qarğıdalı daxil olmaqla)** | **tərəvəz** | **kartof** | **bostan bitkiləri** | **yem bitkiləri** | **texniki bitkilər** |
|---|---|---|---|---|---|---|---|
| 1995 | 45756,6 | 51,7 | 2,8 | 0,9 | 0,9 | 24,4 | 19,3 |
| 2020 | 404620 | 32,8 | 19,0 | 12,5 | 0,8 | 27,5 | 0,1 |

*Mənbə: stat.gov.az məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəl 6-da məhsul istehsalının 1995 və 2020-ci illər üzrə növlərinin pay nisbətlərinə diqqət çəkilir. Qeyd etmək yerinə düşər ki, 1995-ci illə müqayisədə 2020-ci ildə cinsi ifadədə cəmi istehsal həcmi 8,8 dəfə yüksəlmişdir (404620:45756,6). Bu sırada iki hesablama ardıcıllığı həyata keçirilməlidir:

1. Cinsi ifadədə olan məhsulların illər üzrə artım templəri;
2. Məhsul növləri arasında ümumi bitkiçilik məhsulu həcminə nisbi kəmiyyətinin dəyişməsi.

Yuxarıda bəhs olunan birinci istiqamət üzrə nümunə kimi deyə bilərik ki, cinsi ifadədə dənli və dənli-paxlalıların həcmində 5,6 dəfə artım baş verdiyi halda, 2020-ci ilin nəticələrinə görə eyni göstəricinin pay nisbəti 1995-ci illə müqayisədə 18,9% geriləmiş və 32,8%-ə bərabər olmuşdur. Bununla yanaşı, 18,9%-lik geriləmə digər beş istiqamətə xüsusi çəki etibarı ilə təsir göstərmişdir. Bu əsasda müqayisə olunan dövrlərin fərqi kimi tərəvəzin xüsusi çəkisi 16,2%, kartofun – 11,6%, yem bitkilərinin 3,1% artdığı halda, bostan bitkiləri üzrə 0,1%, texniki bitkilər üzrə 19,2% geriləmələr müşahidə olunmuşdur.

Qeyd olunduğu kimi, bitkilərin fərdi məhsuldarlığı bitkiçilikdə mühüm göstəricilərdən birini təşkil etməkdədir. Onun göstəriciləri əsasında 1995 və 2020-ci illər üzrə məhsuldarlıq göstəricisinin vəziyyətində baş verən dəyişikliklər əks olunur ki, ona da əyani surətdə cədvəl 7 vasitəsilə baxaq.

***Cədvəl 7.*** *Naxçıvan regionunun bitkiçilik istiqaməti üzrə məhsuldarlıq (sent/ha) göstəricisi*

| **İllər** | **dənli və dənli paxlalılar (qarğıdalı daxil olmaqla)** | **tərəvəz** | **kartof** | **bostan bitkiləri** | **yem bitkiləri** | **texniki bitkilər** |
|---|---|---|---|---|---|---|
| 1995 | 11,4 | 61,5 | 20,0 | 31,6 | 46,0 | 49,2 |
| 2020 | 33,7 | 140,8 | 156,3 | 140,3 | 86,4 | 20,9 |

*Mənbə: stat.gov.az məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır*

Cədvəl məlumatlarından görünür ki, texniki bitkilər istisna olmaqla (geriləmə 57,5%) regionda 1995-ci illə müqayisədə 2020-ci ildə digər 5 məhsul növü üzrə məhsuldarlıq göstəricilərində

irəliləmələr görünməkdədir. Bu əsasda dənli və dənli paxlalıların nisbi kəmiyyət dəyişməsi 3,0 dəfə (33,7 : 11,4), tərəvəz üzrə - 2,3 dəfə (140,8 : 61,5), kartof üzrə - 7,8 dəfə (156,3 : 20,0), bostan bitkiləri üzrə - 4,4 dəfə (140,3 : 31,6), yem bitkiləri üzrə - 87,8% (86,4 : 46,0) təşkil etmişdir.

Regionda meyvə və giləmeyvə məhsullarının vəziyyətinə izahatverici baxışların təmin edilməsi də mühümdür. Cədvəl 7-də nəzərə alınmaqla bəhs olunan obyektlər haqqında sistemli fikir söyləmək mümkündür:

1. 1995-ci illə müqayisədə 2020-ci ildə meyvə bağlarının ümumi həcmi 4,8 dəfə (5333,8 ha : 1103 ha) artdığı halda, bar verən yaşda olan bağların analoji dövrlər üzrə müqayisəli artımı 6,5 dəfə (52518 ton : 759 ton) müəyyən edilməkdədir. Göründüyü kimi, intensiv yolla inkişafın payına düşən hissə 1,7 dəfəlik həcmdir;
2. 1995-ci ildə bar verən meyvə bağları ümumi meyvə bağlarının 68,6%-ni (759 ha : 1103 ha) təşkil etdiyi halda, bu göstərici 2020-ci ildə 92%-ə (4904,2 ha : 5333,8 ha) çatmışdır. Bu isə 23,4%-lik fərqdən xəbər verir.

Deyilənlərlə yanaşı, diqqət yetirilməli məqam aşağıdakı kimi ifadə edilə bilər: müqayisə olunan dövrlər üzrə ümumi yığım 245,4 dəfə (52518 ton : 214 ton), məhsuldarlıq ifadəsi isə 38,3 dəfə (107,1 sent/ha : 2,8 sent/ha) yüksəlmişdir. Bununla belə müvafiq tədqiqat obyektləri üzrə tərtib olunan dinamika sıraları təsdiq edir ki, həmin sahələrdə istər intensiv, istərsə də ekstensiv təməllərə əsaslanan ehtiyat mənbələri mövcuddur.

Bitkiçilikdə olduğu kimi, heyvandarlıq istiqaməti də həm aqrar sahənin tərkib ünsürü, həm də tədqiqatın mühüm obyekti hesab olunur [1, s.438]. Onun kompleks araşdırılmasında istifadə olunan üç blok fərqləndirilməlidir. Onlardan birincisi – heyvandarlıq daxili istiqamətlərin ilkin göstəricilərinin (onun obyektlərinin) cinsi ifadədə əks etdirilməsidir. Bu sırada iribuynuzlu mal-qaranın, xırda buynuzlu heyvanların, təsərrüfat quşlarının say-tərkib ifadələri mühüm yer tutur. Haqqında bəhs olunan obyektlər iqtisadi tədqiqatların mühüm obyekti olmaqla yanaşı, kəmiyyət-keyfiyyət təyinatlı tədqiqatların əvəzolunmazlarındandır. Deyilənlərə misal olaraq, 1995-ci ilə nisbətən 2020-ci ildə aşağıdakı bir neçə göstərici üzrə dəyişmələri göstərmək olar:

- ✓ ***iribuynuzlu malqara sayında*** 62188 baş (117689 - 55501) və ya 2,1 dəfə artım qeydə alınmışdır;
- ✓ ***qoyun və keçilərin sayında*** 439076 baş (717880 - 278804) və ya 2,6 dəfə artım kənarlaşması mövcud olmuşdur;
- ✓ Heyvandarlığın mühüm istiqaməti olan ***quşların sayında*** da artım baş vermişdir. Belə ki, kənd təsərrüfatı quşlarının sayında müvafiq illərin qarşılaşdırılması sonuncunun xeyrinə 1151608 baş (1323908 - 172300) və ya 7,7 dəfə artımla nəticələnmişdir.

Heyvandarlıq üzrə araşdırmanın növbəti mərhələsini əsas heyvandarlıq məhsullarının istehsalı üzrə məlumatların öyrənilməsi təşkil edir. Bəhs olunan yöndə zaman ifadəsi kimi 2005-ci və 2020-ci ilin müqayisəsinə müraciət etmək zəruridir. Deyilənlər əsasında cinsi və dəyər ifadəsində:

1. ***Kəsilmiş çəkidə ət üzrə artım*** - 7828 ton (15951ton – 8123ton) və ya 96,4%;
2. ***Süd istehsalı üzrə artım*** – 22516,3 ton (87334,3 ton – 64818 ton) və ya 34,7%;
3. ***Fiziki çəkidə yun istehsalı üzrə artım*** - 240,9 ton (1070,9 ton – 830 ton) və ya 29%;
4. ***Yumurta istehsalı üzrə artım*** - 43464,7 min ədəd (91764,7 min ədəd – 48300 min ədəd) və ya 89,9%;
5. ***Balıqçılıq məhsulları üzrə artım*** - 1238,3 min manat (1268min man. – 29,7min man.) və ya 42,7 dəfə.

İfadə etdiyimiz kəmiyyətlər bloku üzrə əsas diqqət kəsilmiş çəkidə ət məhsuluna, yumurta istehsalına və balıqçılıq məhsulları istehsalına yönəldilmişdir.

Bəhs olunan istiqamətdə mühüm göstəricilərdən birini də məhsuldarlıq göstəricisi təşkil edir. Bu sırada çoxsaylı göstəricilər mövcuddur ki, onlardan mühüm olanlarına aiddir:

a) ***Hər inəkdən süd sağımı*** – bu göstərici regionun bütün təsərrüfatları üzrə 2005-ci ildə 1250 kiloqramdan 2020-ci ildə orta hesabla 1562 kiloqramadək yüksəlmişdir (312 kq və ya 25%);
b) ***Hər qoyundan yun qırxımı*** – 2005-ci ildə 2 kiloqramdan 2020-ci ildən 2,7 kiloqramadək irəliləmə baş vermişdir (0,7 kq və 35%);
c) ***Kənd təsərrüfatı müəssisələrində toyuqların orta illik yumurta verimi*** – bu göstəricinin orta illik artım ifadəsi 36 ədəd (156 ədəd – 120 ədəd ) və ya 12,5%-dir.

**NƏTİCƏ**

Tərəfimizdən aparılmış nəzəri-metodoloji və təcrübi təyinatlı tədqiqatlar bu yöndə olan sistemli

fəaliyyətin daha geniş və əhatəli forması hesab edilməkdədir. Obyekt olaraq seçilən istehsal vahidləri əsas etibarı ilə iki böyük sahəyə – sənaye və kənd təsərrüfatına aidiyyatı ilə fərqlənməkdədir. Hər bir sahəyə aidiyyatı ilə seçilən təsərrüfat subyektləri heç bir lokal fəaliyyətlə fərqlənmir, istər sahədaxili ardıcıllığı qoruma formasında, istərsə də sahələrarası əlaqələrin mövcudluğu şəraitində özünün imkanlarını hərtərəfli nümayiş etdirmiş olur.

Statistika göstəriciləri əsasında demək olar ki, əksəriyyəti 1995-ci illə başlanan və 2020-ci illə yekunlaşan dinamika sıraları haqqında bəhs olunan sahələrin vəziyyətinə zamanla baxışı təmin etmək mənasını daşımaqdadır. Bu sırada istər ümumilikdə sənayenin, istərsə də onun tərkib hissələri hesab olunan mədənçıxarma, emal, metallurgiya, kimya, enerji istehsalı yaxud ümumilikdə aqrar sahənin, həmçinin bitkiçilik və heyvandarlığın xüsusi əhəmiyyətini qeyd etmək yerinə düşərdi. Bir tərəfdən ölkənin istehsal vasitələri parkının yenilənməsi, emal müəssisələri tərəfindən ərzaq və digər məhsulların istehsalı vasitəsilə çeşidlərinin artırılması, digər tərəfdən tsiklik qaydada ildən-ilə əhalinin ərzaq təminatının geniş təkrar istehsallarına məruz qalması sahələr üzrə istehsal vahidlərinin əhəmiyyətini artırmaqdadır [6, s.88].

Yeni texnika və texnologiyaların istehsal proseslərinə tətbiqi, məhsuldar qüvvələrin kəmiyyət-keyfiyyət ifadələrinin yüksəldilməsi, işçi heyətinin peşəkarlıq göstəricilərinin günü-gündən yüksəldilməsi, istehsalın mərhələliyinin, tsiklikliyinin, dövretmə göstəricilərinin "insan" amili tərəfindən mənimsənilməsi fəaliyyət dövrünə, norma və normativlərinə də təsirsiz ötüşməməkdədir.

İstehsalın mexanikləşmə və avtomatlaşma səviyyələrinin mütəmadi yüksəldilməsi daha çox və yüksək keyfiyyət səviyyəsində istehsal olunmuş məhsul mənasını daşımaqdadır. Digər tərəfdən bəhs olunan sahələrdə logistik imkanların genişləndirilməsi, məhsul itkilərinin böyük həcmdə qarşısının alınması, istehlakçıya yüksək keyfiyyətə malik məhsulların təqdim olunması, istehsalda nanotexno-logiyaların və rəqəmsal idarəetmə sistemlərinin tətbiqinin xüsusi çəkilərinin artırılması da araşdırmada öz əhəmiyyətini sərgiləməkdədir.

## ƏDƏBİYYAT


1. Abbasov T.A. Naxçıvan: aqrar sektorun resurs potensialı, aqrar bazar və iqtisadi inkişaf. Bakı: ADPU, 2018, 584 s.
2. Bağırov E.A. Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı. Bakı: Avropa, 2015, 332 səh.
3. Bağırov M.S., Mahmudov C.İ. Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişafı: problemlər və həlli yolları. Naxçıvan: Əcəmi, 2017**,** 257 s.
4. Bağırov M.S. Naxçıvan Muxtar Respublikasında aqrar sektoru: hasilat-reallaşdırma sistemi və marketinq prinsipləri. Naxçıvan: Qeyrət, 2016, 344 s.
5. Bağırov M.S. Aqrar sahədə resurs potensialı, onun istehsal və satış sisteminin formalaşmasında rolu. Naxçıvan: Qeyrət, 2014, 131 s.
6. Bağırov M.S. Aqrar sahənin inkişafi və marketinq prinsiplərindən istifadə. Naxçıvan: Qeyrət, 2014, 102 s.
7. Bağırov M.S. Kənd təsərrüfatında istehsal və satış münasibətlərinin formalaşmasının müasir vəziyyəti və xüsusiyyətləri. Naxçıvan: Qeyrət, 2014, 107 s.
8. Niftullayev V.M. Sahibkarlığın əsasları. Bakı: Zaman, 2002, 618 s.
9. Allahverdiyev H.B. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: Nasir, 2002, 446 s.
10. www.stat.gov.az – Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin elektron ünvanı


## SUMMARY

**Rifat Hasanov**

## ACTIVITY POTENTIAL ON PRODUCTION INSTITUTIONS, ITS ASSESSMENT AND ANALYSIS

**The purpose of the study** – a clear determination of the activity potential and real production volumes of production enterprises in industry and agriculture, which are the leading sectors of the country's economic system in the current conditions, implementation of appropriate assessment and analysis work on them, as well as preparation of forecasts for prospective periods.

**The methodology of the research** - the use of observation, grouping and summarizing, index,

comparative analysis methods.

**The conclusions of the research** - conducting comparative research and analysis in the field of crop production of the country, comparing related information covering different time periods and determining effective combinations on the basis of situational research, disclosing appropriate proposals and recommendations.

**The practical significance of the research** - clarification the state of important indicators in the industrial and agricultural fields of the republic covering the years 1992-2020, and clarification of the factors of fundamental influence in this period.

**The originality and scientific innovation of the research** - the demonstration on the basis of experimental data how much goods produced in industry and agriculture meet the needs of the population and production objects, the implementation of the systematization of steps to ensure food safety in accordance with real conditions and the determination of the requirements of the economic system in this area, comprehensive implementation of relevant research stages.

***Key words:*** *production enterprises, activity potential, assessment of activity potential, potential analysis, industrial sector*

## РЕЗЮМЕ

**Рифат Гасанов**

### ПОТЕНЦИАЛ ДЕЯТЕЛЬНОСТИ ПО ПРОИЗВОДСТВЕННЫМ ПРЕДПРИЯТИЯМ, ЕГО ОЦЕНКА И АНАЛИЗ

**Цель исследования**-точное определение потенциала функционирования и реальных объемов производства производственных предприятий промышленности и сельского хозяйства, являющихся в сложившихся условиях ведущей отраслью экономической системы страны, проведение по ним соответствующих оценочно-аналитических работ, а также разработка прогнозов на перспективные периоды.

**Методика исследования**-использование методов наблюдения, группировки и обобщения, индекса, сравнительного анализа.

**Результаты исследования**-проведение сравнительных исследований и анализа растениеводческого направления страны, сопоставление связанной информации, охватывающей различные временные отрезки, и выявление эффективных сочетаний на основе ситуационных исследований, раскрытие соответствующих предложений и рекомендаций.

**Практическая значимость исследования**-уточнение состояния по периодам значимых показателей в промышленности и аграрном секторе республики, охватывающих период с 1992 по 2020 год, уточнение основных факторов влияния на это время.

**Оригинальность и научная новизна исследования**-демонстрация на основе экспериментальных данных того, насколько производимые в промышленности и аграрной сфере товары удовлетворяют потребности населения и субъектов производства, осуществление систематизации шагов по обеспечению продовольственной безопасности в соответствии с реальными условиями и выявление требований экономической системы в данной области, комплексная реализация соответствующих этапов исследования.

***Ключевые слова:*** *производственные мощности, потенциал деятельности, оценка потенциала деятельности, анализ потенциала, промышленный сектор*

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru Teymur Abbasov*
***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 180-187
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 180-187
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 180-187

**SAMİR AĞAYEV**
*samiragayev062@gmail.com*
*Azərbaycan Kooperasiya Universiteti*

**UOT: 331.1**

# SAHİBKARLIQ (SƏNAYE) SUBYEKTLƏRİNDƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ TƏHLİLİNİN AKTUAL PROBLEMLƏRİ

***Tədqiqatın məqsədi*** *– müasir dövrdə sahibkarlıq fəaliyyətinin qiymətləndirilməsi və təhlilində yaranan situasiyaların konkretləşdirilməsi, bu əsasda birnövlü qrupların yaradılması, onların sistemləşdirilməsi və kompleksliliyin təmin edilməsi, ölkənin iqtisadi sistemində mövcud olan sahələrin spesifik ifadələnməsi, bu istiqamətdə olan problemlərin dəqiqləşdirilməsi və onların aradan qaldırılması yollarının müəyyən edilməsi.*

***Tədqiqatın metodologiyası*** *– müşahidə, qruplaşdırma, müqayisəli təhlil, zəncirvari əlaqə və asılılıq metodlarından istifadə olunması.*

***Tədqiqatın nəticələri*** *– Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin mütəşəkkil təşkilinə yönəlmiş tədbirlər sisteminin hazırlanması, bu sahədə zəruri iştirakçı komponentlərin tələblər çərçivəsində öz əksini tapması, müvafiq sferadakı əyani nəticələrin sərgilənməsi, zəruri ümumiləşdirmələrin aparılması, irəliləyişə təkan verən alət və mexanizmlərin istifadə xüsusiyyətlərinin və təsir ölçülərinin qiymətləndirilməsi.*

***Tədqiqatın praktiki əhəmiyyəti*** *– müstəqil Azərbaycan Respublikasının iqtisadi sisteminin ifadə obyekti hesab edilən sahibkarlıq vahidlərinin təsərrüfat fəaliyyətinin kəmiyyət-keyfiyyət göstəricilərinin müəyyən edilməsi, onların səviyyələrinin təsir - əks-təsir müstəvisində təcrübi parametrlər üzrə araşdırılması.*

***Tədqiqatın orijinallığı və elmi yeniliyi*** *– ölkənin sahibkarlıq mühitinin transformasiyası və təkamülünün ifadə etdiyi konfiqurasiyaları yaratmaq, daha mütərəqqi quruluşların təşkil edilməsi, bəhs olunan istiqamətdə mütərəqqi yerli və beynəlxalq təcrübə elementlərindən istifadə.*

***Açar sözlər:*** *Azərbaycan Respublikası, sahibkarlıq subyekti, sənaye fəaliyyətinin qiymətləndirilməsi, sahibkarlıq fəaliyyətinin təhlili, iqtisadi sistem*

## GİRİŞ

Mövzunun təməlində ifadə edilən "sahibkarlıq fəaliyyəti – sənaye sahəsi" tandemi özünün aktuallığı ilə bir çox məsələyə aydınlıq gətirməkdədir. Sistemli yanaşma ilk növbədə sahibkarlıq fəaliyyətinə aydınlıq gətirmək məqsədini güdməkdədir.

Sahibkarlıq fəaliyyəti – şəxsi təşəbbüs, bilik, bacarıq, təhsil imkanları və digər istiqamətlərin məcmusu kimi çıxış etməkdədir. Onun xarakterik cəhətlərindən hesab olunan təklifin gücləndirilməsi təməllərdə məcmu təkliflə qarşılaşdırılmaqdadır [3, s.83-84; 10, s.75].

Sənaye müəssisələri hər bir sivil ölkənin istehsal potensialının aparıcı qüvvəsi hesab olunmaqdadır. Onlar iqtisadi təkamül proseslərinə təkan verməklə yanaşı, əhalinin və əlaqəli digər istehsal vahidlərinin istehlakının qarşılanmasına, bu istehsalakın genişlənməsinə, onun çeşidinin genişlənməsinə müsbət təsir göstərməkdədir [7, s.211].

Məqalədə sənaye müəssisələrinin fəaliyyəti haqda ümumi düşüncələr sərgilənməklə yanaşı, xüsusi diqqət onun qiymətləndirilməsi və təhlilinə yönəldilmişdir. Ümumi mənada fəaliyyətin qiymətləndirilməsi mövcud təsir komponentləri və real imkanlardan istifadə həcmləri əsasında baş verən sistemli işləri, onların müxtəlif konfiqurasiyalarda formalaşan məcmusunu sərgiləmiş olur. Məhz qiymətləndirmə istər özündən əvvəlki, istərsə də sonrakı fəaliyyət proseslərinin təhlili üçün təməl rolunda çıxış etməkdədir.

Bəhs etdiklərimiz sənaye müəssisələrinin fəaliyyətləri üzrə qiymətləndirmə və təhlil proseslərinin vahid tandemi təşkil etdiyini, biri-digərini tamamladığını ifadə etməkdədir.

Sənaye – ölkələrin iqtisadiyyatının aparıcı sahəsi, əhali və istehsal istehlaklarının ödənilməsinin mühüm elementi, dövlətlərin ixrac potensialının yüksəlməsinə həlledici təsir edən sfera hesab olunmaqdadır. Bir tərəfdən onun inkişafı ölkənin iqtisadi sisteminə daha mütərəqqi baxışların nəticəsidirsə, digər tərəfdən "sahə iqtisadiyyatı" anlayışına yanaşmanın təkmilləşdirilməsinə səbəb olur.

Araşdırma obyektinin istər mikro səviyyədə "müəssisələrin təşkili və idarə edilməsi" istiqaməti baxımından, istərsə də ümumilikdə sahə təyinatı üzrə araşdırılması kifayət qədər irimiqyaslı işlərin sistemli və kompleks şəkildə, proseslərin məntiqi ardıcıllığı gözlənilməklə həyata keçirilməsi, müvafiq idarəetmə addımlarının vaxtlı-vaxtında atılması, maliyyə vəsaitlərindən, kadr potensialından, əsas və dövriyyə fondlarından, xüsusi və borc vəsaitlərdən, dövriyyədə olan, sərbəst və yayındırılmış pul vəsaitlərindən səmərəli istifadə edilməsi kimi işlərin daim nəzarətdə saxlanılmasını tələb edir [12, s.58]. Məhz belə işlərin vahid zaman kəsiklərində icraatı mühüm tədqiqat istiqamətləri hesab olunan qiyməyləndirmənin, təhlilin özünəməxsus və yaranmış fərqli situasiyalara uyğun olan mexanizmlərindən istifadəni şərtləndirir.

Məqalədə obyekt kimi seçilən sənaye müəssisələrinin iki kifayət qədər aktual və əhəmiyyətli prizmadan – qiymətləndirmə və təhlil baxımından araşdırılması məqsəd olaraq müəyyən edilmişdir. Bu iqtisadi tədqiqat alətləri qarşılıqlı təsirə malik olmaqla yanaşı, biri digərini tamamlayır və istər sənaye sahəsi üzrə ümumilikdə, istərsə də onun tərkibini təşkil edən müəssisələr əsasında zəruri tədqiqatların təşkili və həyata keçirilməsində mühüm rol oynayır.

**Sənaye subyektlərinin fəaliyyətinin təsnifləşdirilməsi məsələləri**

Sənaye müəssisələrinin bəhs olunan yönlərdə araşdırılması ilk növbədə onların fəaliyyətin təşkilində iştirak edən amillərin müəyyən edilməsi və vahid məcmuda qruplaşdırılmasına diqqəti çəkir. Bu amillər təzahür baxımdan fərqli olduğu kimi, yaranma mənbələri baxımından da rəngarəngdir. Bəhs olunan məsələnin əsas istiqamətləri haqqında daha aydın təsəvvür yaratmaq məqsədilə sxem 1-ə müraciət etmək məqsəduyğun olardı.

*Sxem 1.*




*Mənbə: sxem müəllif tərəfindən tərtib olunmuşdur.*

Sxem 1-dən də göründüyü kimi, sənaye müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi məzmun etibarı ilə müxtəlif yolların istifadəsini, fərqli addımların atılmasını nəzərdə tutur. Bu fəaliyyətin əsas məqsədi "görüntü" xətrinə görülən işlərə müraciət olunması deyil, qiymətləndirmə zamanı daha obyektiv nəticələrin əldə olunması, sonrakı təhlil və araşdırmalar müddətində həqiqilik dərəcəsi daha yüksək olan nəzəri təməllərin təcrübi reallıqlara transformasiya olunmasına şərait yaratmaqdır.

Qiymətləndirmə proseslərində innovativ yanaşmanın təmin edilməsi mövcud olan nəzəri və təcrübi "qəliblərin" sərhədlərinin aşılması, daha mütərəqqi situativ kombinasiyaların qurulmasında müxtəlif metodların iştirakının maneəsiz təmin edilməsi, alınmış nəticələrdən irəli gələn qərarların operativ, yenilikçiliyə açıq müddəalarla qəbulu kimi məsələləri əhatə etməkdədir.

Sxem 1-də ifadə olunan tərkib maddələr sırasında sənaye subyektlərinin fəaliyyətinin hüquqi bazasının qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, hər bir sənaye subyektinin tamnənalı fəaliyyətinin təmin edilməsi üçün atılacaq ilk addımlardan biri hüquqi təməllərin formalaşdırılması və bu əsasda nizamlanma əməliyyatlarının aparılmasıdır.

Sənaye subyektlərinin təşkilatlanma fəaliyyəti və bu fəaliyyətin qiymətləndirilməsi spesifik məsələlər üzrə həqiqi vəziyyət haqqında fikir formalaşdırmağa imkan yaradır. Belə ki, sənaye dediyimizdə, kifayət qədər geniş əhatəli, özünün çoxsaylı ixtisaslaşma istiqamətləri əsasında altsistemləri ilə fərqlənən vahidləri təcəssüm etməkdədir. Digər tərəfdən daxili təşkilatlanma xüsusiyyətləri də deyilənlərin əhəmiyyətini artırmaqdadır.

Təşkilatlanma sənaye obyektinin imkanlarına da aydınlıq gətirmək məqsədini güdür. İlk növbədə qeyd etmək yerinə düşər ki, deyilənlər müəssisələrin istehsal, ixtisaslaşma və idarəetmə potensialının hansı səviyyədə olmasına aydınlıq gətirməklə mükəlləfdir. Məsələn, sənaye müəssisəsinin hər hansı məhsul növü və çeşidi üzrə hansı mərhələləri qət edə biləcəyi, "yarımfabrikat → hazır məhsul" marşrutunda hansı sədlərin mənimsəniləcəyi, bəlli zaman ifadəsi ilə sərhədlənən həcmlərin istehsalların keyfiyyət-kəmiyyət imkanları və proqnozları ilə nə dərəcədə uyğun gələcəyi, istehsalatın əsas fond, kadr potensialı kimi istiqamətlərinin imkanlarının əsas qiymətləndirmə "nüvələrindən" hesab olunmaqdadır.

Sənaye obyektlərinin fəaliyyətinin qiymətləndirilməsində mülkiyyət aidiyyatı mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan sənaye sahəsinin tərkibində müəssisə paylarının dövlət, bələdiyyə və xüsusi mülkiyyət arasında hansı nisbətlər daxilində bölüşdürülməsi, bu qruplaşmaların perspektiv dövrlər üzrə müxtəlif yönlərində baş verən transformasiyalar yeni konfiqurasiyaların yaranmasına şərait yaradır.

Oxşar məzmun yönünə malik qiymətləndirmə sənaye subyektlərinin fəaliyyətinin sahədaxili ixtisaslaşma əlaməti baxımından da həyata keçirilməlidir. Belə ki, sənayenin aparıcı sahələri sırasında metallurgiyanı, maşınqayırmanı, yeyinti sənayesini, yüngül sənayeni göstərmək olar [8, s.194].

Digər tərəfdən Azərbaycanın sənaye potensialında neft-kimya sənayesi prioritet istiqamət hesab olunmaqdadır. Başqa sənaye istiqamətlərindən fərqli olaraq, onun maliyyə-istehsal nəticələri sferanın özü ilə yanaşı, ölkənin maliyyə-valyuta ehtiyatlarının yaradılmasında mühüm rol oynamaqdadır.

Deyilənlərlə yanaşı, sənaye istehsalı sektorunda məhsul istehsalında əsas mövqeyə malik subyektlərlə yanaşı, onların fəaliyyətində istehsal-komplektləşdirmə funksiyalarını icra edən (bəlli mənada sənaye klasteri formasında) köməkçi subyektlər də mövcud ola bilər. Ümumiyyətlə, sənaye sahəsinin özü iqtisadi sistem miqyasında ixtisaslaşmaya əyani nümunədirsə, miqyasın sənaye miqyasında müəyyən edilməsi bu rolu onun daxilindəki hər hansı aparıcı sahəyə verməkdədir. Beləliklə, ixtisaslaşma əlaməti üzrə qiymətləndirmənin "ümumidən xüsusiyə doğru" qaydasında həyata keçirilməsi mümkün olur.

Qiymətləndirmədə mühüm istiqamətlərdən birini də sənaye subyektlərinin fəaliyyətində özünü büruzə verən idarəetmə mexanizmlərinin araşdırılması təşkil edir. İqtisadi təcrübə göstərir ki, sənaye subyektləri tərəfindən özlərinin istehsal, mülkiyyət və sair aidiyyat əlamətləri nəzərə alınmaqla fərqli idarəetmə mexanizmlərindən istifadə edə bilərlər. Bu sırada dövlət müəssisəsində təyinatlı vahid rəhbər, səhmdar cəmiyyətində subyektin seçilən direktoru, fərdi sahibkarlıq subyektində sahibkar-

müəssisə rəhbəri və s. mexanizmlərdən istifadə etməklə rəhbər seçilən (təyin olunan) şəxs subyektin idarə olunmasına cavabdehlik daşıya bilər. Sənaye müəssisəsinin rəhbəri (direktoru, meneceri və ya baş meneceri) təcrübədə özünü təsdiqləmiş idarəetmə mexanizmlərindən birini seçə, onun daha səmərəli olmasına inanaraq tətbiqinə "xeyir-dua" verə bilər. Bu zaman əsas istehsal obyekti kimi seçilən əmtəələrin və onların başa gəlmə xüsusiyyətləri də bəhs olunan işlərə təsirini göstərəcəkdir.

Sənaye müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsində müəssisənin ümumi və istehsal bölmələrinin quruluşu mühüm əhəmiyyət kəsb edir. Belə ki, eyni məkanda müstəqil tikililər (binalar, mərtəbələr və s.) şəklində əsas, köməkçi, xidmətedici və s. fəaliyyət sahələrinin yerləşdirilməsi daha səmərəli, qənaətcil təsərrüfat fəaliyyətinin təşkilinə imkan yaradır. Bəhs olunan vəziyyət həmin vahidlərin vahid müəssisə nəzdində birləşməsi halında mümkündür. Bununla belə həmin fəaliyyət sənaye təyinatlı *sərbəst iqtisadi zonası, sənaye klasteri* və ya birinin yaradılması Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda nəzərdə tutulan *sənaye məhəlləsi* şəklində də mümkün ola bilər.

Sənaye müəssisələri özünün Nizamnaməsinə və digər tənzimləyici sənədlərinə müvafiq şəkildə məyyən edilmiş fəaliyyətlə məşğul ola bilər. Bu zaman qiymətləndirmə təsərrüfat fəaliyyətinin icrasında zəruri komponentlərdən olan maddi-əşya tərkibli vəsaitlərin mövcudluğunu da şərtləndirir. Maddi-əşya tərkibə malik əşyaların təsnifatında əsas və dövriyyə fondları, xammal və hazır məhsullar, yumşaq inventar və kitabxana fondları, istehsalın təşkilində köməkçi, yaxud yardımçı xarakterlə fərqlənən müxtəlif istehsal-təsərrüfat əşyaları (əvvəlki adı ilə "azqiymətli və tezköhnələn əşyalar") yaxud sənaye xarakterli işlərin yerinə yetirilməsində istifadə olunan komponentlər xüsusi əhəmiyyət kəsb edir [4, s. 88-89].

Müəssisələrin malik olduğu vəsaitlər sırasında xüsusi pul vəsaitlərinin rolu əvəzolunmazdır. Sərbəst pul vəsaitlərinin üzərində heç bir planlaşdırma və proqnozlaşdırma işləri olmadan sərəncamın verilməsi onlardan istifadənin səmərəliliyinə mənfi təsir göstərə, hətta onların tamamilə itirilməsinə şərait yarada bilər.

Bəllidir ki, pulun beş funksiyası iqtisadi müstəvidə biri digərini tamamlamalı və ümumi həcmin istiqamətlər üzrə bölüşdürülməsi əsaslandırılmış şəkildə həyata keçirilməlidir. Belə hallarda müxtəlif situasiyalar əsas götürülməklə sərbəst pul vəsaitlərindən istifadəyə qərar verilə bilər. Birinci halda, istehlakçı bazarında aparılmış monitorinqlər əsasında sənaye məhsulu istehsalının həcm və qiymət araşdırmaları aparılmış, əldə olunan nəticə isə əsaslandırılmış, səmərəliliyi ən azı məqbul hesab edilmişdir (rentabellik səviyyəsi 20% və yuxarıdır). Bu halda istehsalın təşkili, onun tammənalı həyata keçirilməsi məqsədilə sərbəst pul vəsaitindən tam həcmdə istifadə olunması, zərurət yarandıqda borc vəsaitinə müraciət olunması məqsədəuyğundur. İkinci hal daha az tələbat səviyyəsi ilə fərqlənən sənaye məhsulları ilə bağlıdır (rentabellik səviyyəsi 10%-dən aşağı olanlar). Bu halda ölkəmizdəki sənaye müəssisələrinin özünün fəaliyyətini sığortalama istəklərini nəzərə almaqla sərbəst pul vəsaitlərinin tamamının istehsal ehtiyaclarına cəlb edilməsi məqsədəuyğun hesab edilmir. Bu halda sərbəst pul vəsaitlərinin bir hissəsi "Zəruri Ehtiyat Həcmlərinə" yönəldilir. Bəhs olunan situasiya əksər hallarda pul vəsaitlərinin çatışmaması ilə müşayət olunmaqdadır.

Bununla belə maliyyə müstəvili digər situasiya və "iştirakçılar"la bağlı qısa fikirlərin bildirilməsi də zəruridir. Bu baxımdan xüsusi pul vəsaitlərinin əksi olan borc vəsaitlərindən istifadə və maliyyə-hesablaşma fəaliyyəti üzrə əməliyyatların qiymətləndirilməsi məqsədəuyğun olardı.

Sənaye subyektlərinin sərbəst pul vəsaitləri ilə yanaşı, borc vəsaitləri ilə aparılan fəaliyyətinin qiymətləndirilməsi də mühüm əhəmiyyət kəsb etməkdədir. Borc vəsaitlərindən sənaye müəssisələri tərəfindən istifadə halları ilk növbədə yaranan istehsal və mübadilə (satış) zərurətindən irəli gəlir. Bununla belə, fəaliyyətdə atılmış səhv addımlar, yaxud təbii fəalakət və digər buna uyğun hallar da borc vəsaitlərindən istifadəyə müraciətin təməl nöqtələrindən hesab olunmaqdadır.

Sənaye subyektlərinin maliyyə-hesablaşma fəaliyyətinin qiymətləndirilməsi bəhs olunan fəaliyyətin tərkibində öz aktuallığını qorumaqdadır. Bu halda maliyyə vəsaitlərinin növləri, hesablaşmaların formaları, hesablaşma aparılan qarşı tərəf ünvanları və istiqamətləri qiymətləndirməyə məruz qalacaq ilk obyektlərdəndir.

Sənaye müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsində malgöndərmələr üzrə əməliyyatlar

xüsusi yer tutur. Haqqında bəhs olunan istiqamətlər özünün rəngarəngliyi ilə fərqlənməkdədir. Həmin məcmunun təsnifatında mühüm olanlar sırasında aşağıdakıları göstərmək mümkündür:

- ✓ sənaye müəssisələrinə uyğun olaraq malgöndərmələr planına uyğun olaraq, əmtəələrin istehlakçılara göndərilməsi üzrə öhdəliklərin icra olunması;
- ✓ sənaye subyektlərinin malgöndərmə fəaliyyəti çərçivəsində istehlakçılar üçün yerinə yetirdiyi iş və xidmətlərin kəmiyyət-keyfiyyət ifadələrinin razılaşmaların şərtlərinə uyğunluğunun qiymətləndirilməsi;
- ✓ malgöndərmələr (iş, xidmət) üzrə fəaliyyətinin qiymətləndirilməsi;
- ✓ Sənaye subyektlərinin istər daxili, istərsə də xarici fəaliyyəti əsasında ikitərəfli və çoxtərəfli razılaşmalarla sənədləşdirilmiş geriyə göndərilmə və ya istehlakçının məkanında həyata keçirilməsi mümkün olan əsasında emal əməliyyatları;
- ✓ aidiyyatı müəssisələr tərəfindən əvvəlcədən əldə olunmuş razılaşma və ya yazılı şəkildə rəsmiləşdirilmiş təcrübə mübadiləsi əməliyyatları;
- ✓ sənaye müəssisələrinin yuxarıdakı bəndlərdə göstərilməmiş, lakin onların fəaliyyətinin sistemləşdirilməsi və öyrənilməsi ilə, izahı ilə fərqlənən sair fəaliyyət istiqamətlərinin qiymətləndirilməsi [6, s. 200-201].

Qiymətləndirmə ilə sənaye müəssisələrinin fəaliyyəti təhlil prosesləri ilə də araşdırılır, düzgün məcraya cəlb olunur. Təhlil prosesləri mövcud olan reallıqları daha aydın sərgiləməklə mükəlləfdir. Təhlil eyni obyektin müxtəlif situasiyalar üzrə vəziyyətində baş verən dəyişikliklərə qiymət verməyə şərait yaradır. Bu proses eyni zamanda nəzəri müstəvidə innovativ yanaşmaların təmin olunmasına şərait yaratmaqdadır [2, səh. 554].

Ardıcıllıq etibarı ilə "qiymətləndirmə - təhlil" tandemi müxtəlif konfiqurasiyalarda ifadə edilə bilər. Deyilənlər ilk növbədə ancaq iki iştirakçını "xalis" şəkildə əhatə etməkdədir. Bu sırada nümunəvi şəkildə sxem 2-də ifadə olunan vəziyyətlər göstərilə bilər.

*Sxem 2.*




Mənbə [4, s.39]

Sxem 2-dən də göründüyü kimi, "qiymətləndirmə ↔ təhlil" qarşılaşdırılması yaranmış situasiyadan, qarşıya qoyulmuş vəzifələrdən və digər şərtlərdən asılı olaraq əsasən bu üç ardıcıllıq üsulundan biri ilə verilə bilər. Bununla yanaşı, bu "ikilinin" təmsil olunduğu digər üsullara da müraciət oluna bilər (məsələn, əlavə kəmiyyətlərin, təsir amillərinin cəlb olunması və s.). Bu zaman sxem aşağıdakı nümunəvi şəkli ala bilər.

*Sxem 3.*




Mənbə: [5, səh. 152]. Sxem ədəbiyyat məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Sxem 3-ün məlumatlarına əsasən əgər I quruluşda cəlb olunmuş əlavə kəmiyyətlər ancaq təhlil məqsədlərinə istifadə olunursa, II quruluşda həmin kəmiyyətlər həm təhlil, həm də qiymətləndirmə məqsədlərinə xidmət etməlidir

Məqalədə ifadə etdiklərimizlə bağlı fikirləri ümumiləşdirərək qeyd etmək yerinə düşər ki, insanların fərdi istəklərinin və ehtiyaclarının, digər istehsal vahidlərinin istehlakının ödənilməsində böyük rol oynayan sənaye sahəsinin və onun vahidləri hesab olunan sənaye müəssisələrinin fəaliyyət etibarı ilə öyənilməsi mühüm əhəmiyyətə malikdir. Bu araşdırmada müşahidə, qruplaşdırma, yekunlaşdırma və digər bu kimi üsullarla yanaşı, qiymətləndirmə və təhlil üsullarının rolu əvəzolunmazdır. Onların istifadəsi bir tərəfdən həqiqi vəziyyəti obyektiv qiymətləndirməyə, digər tərəfdən isə müxtəlif konfiqurasiyalı təhlillər əsasında perspektiv dövrlərin proqnozlaşdırmasını aparmağa imkan verməkdədir.

Nəticə

Əsasən, nəzəri aspektdə işlənilən məqalə özünün məzmununda ilk növbədə iki tarazlaşdırmanı ifadə etməkdədir. Bunlardan birincisi, sahibkarlıq fəaliyyətinin sənaye sahəsinə şamil olunması, bu təməllərdə istənilən iqtisadi sistemin öncülü kimi qəbul edilən sənayenin sahibkarlıq aspektlərinə və müasir dövrün tələblərinə uyğunlaşdırılması, *klassik sənaye* və *mütərəqqi sənaye* kimi ifadələr aydın formada şəkilləndirilməlidir.

Ənənəvi şəkildə öz fəaliyyətini quran sənaye subyektləri ilə yanaşı, sənaye klasterləri, sənaye parkları və məhəllələri kimi yeni quruluş adlarının ölkəmiz daxilində *leksik dövriyyəmizə* qəbul olunması, modern təşkilatlanmaların fəaliyyətində üstün və zəif cəhətlərin obyektiv qiymətləndirilməsi, fərqli məzmunla iqtisadi mühitdə təmsil olunan göstəricilər üzrə imtiyaz, subsidiya və subvensiyaların tətbiqinin mümkünlüyü də müasir quruluşların ölkəmizin bir keyfiyyət səviyyəsindəndən digərinə keçidi təsdiqləməkdədir.

Sahibkarlıq fəaliyyətinin metodlar əsasında sənaye sahəsinə müdaxiləsi özünün spesifikasını da sərgiləmiş olur. Belə ki, fəaliyyət kimi istehsal-iqtisadi, təşkilati kimi metodlara istinad etsə də, sahə fəaliyyətini icra edən komponentin – insanın sosial komponent kimi təzahürü də diqqətdən yayınmamalıdır. Bu sırada sosial-psixoloji, psixi, ideoloji metodların yerli-yerində istifadəsi sənaye sahəsi üzrə daha yüksək fəaliyyət nəticələrinin əldə olunmasına şərait yaradır.

Məqalədə mühüm yer tutan ikinci qarşılaşdırma - “qiymətləndirmə - təhlil” müstəvisinin forma-məzmun ifadəsini möhkəmləndirməkdədir. Belə ki, qəbul olunan istehsal (xidmət) proqramları sənayenin tərkibini zənginləşdirməkdədir.

Sənaye sahəsində sahibkarlıq hisslərinin günü-gündən möhkəmlənməsi, bu sahədə yeni istehsal istiqamətlərinin, fəaliyyət texnologiyalarının mənimsənilməsi, sfera qarşısında qoyulan tələblərin, tərəflərin öhdəliklərinin istehsalın və fərdlərin sənaye ehtiyacları ilə qarşılaşdırılmasını da vahid müstəviyə doğru hərəkət etdirməkdədir. Yaranan situasiyalar çoxölçülü və çoxvektorlu sənaye və sahibkarlıq mənzərələrini formalaşdırmış olur.

Yekun olaraq qeyd edilə bilər ki, Azərbaycan cəmiyyətinin mütərəqqi yolla inkişafı onun sənayesini, bu sahə ətrafında formalaşan sahə və istiqamətləri elm və texnikanın nailiyyətləri baxımından zənginləşdirəcək, onun məhsullarının növ-tərkib elementlərinin şaxələndirilməsinə imkan yaradacaq, mürəkkəb quruluşlu fəaliyyət istiqamətləri üzrə daha yüksək nəticələrin əldə olunmasını şərtləndirəcəkdir.

## ƏDƏBİYYAT


1. Abdullayev A.P. İqtisadiyyat və iqtisadi siyasət. Bakı: Asiya, 2003, 216 s.
2. Allahverdiyev H.A. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi, Bakı: ADİU-nun mətbəəsi, 2007, 792 s
3. Atakişiyev M.C., Abbasov M.H., Abbasova N.H. Mikro və makroiqtisadiyyat. (dərslik) Bakı: Azərnəşr, 2010, 508 s.
4. Bağırov M.S. Statistikanın təməl bilikləri. (dərs vəsaiti). Naxçıvan: Əcəmi, 2020, 525 s.
5. C.İ.Mahmudov, Bağırsoylu H.Q. Sosial-iqtisadi inkişafın proqnozlaşdırılması (dərs vəsaiti). Naxçıvan: Əcəmi, 2019, 264 s.
6. Çudakov A.D. Qiymətlər və qiymətin əmələ gəlməsi (dərslik). Bakı: ADİU, 2009, 447 s.
7. Hüseynova İ.M. Müəssisənin iqtisadiyyatı (dərs vəsaiti). Bakı: Elm, 2013, 304 s.
8. Nuriyev Ə.X. Davamlı və tarazlı regional inkişaf. Bakı: Elm, 2017, 242 s.
9. Nuriyev Ə.X. Regional idarəetmənin əsasları. Bakı: Elm, 2007, 428 s.
10. Niftullayev V.M. Sahibkarlığın əsasları. Bakı: Zaman, 2002, 618 s.
11. Quliyev T.Ə. Menecmentin (idarəetmənin) əsasları. (dərslik). Bakı: Qərənfil, 2006, 591 s.
12. İbrahimova N.H. Müasirləşən iqtisadiyyat və təsərrüfat fəaliyyətinin iqtisadi təhlili. Naxçıvan: Əcəmi, 2015, 184 s.


## SUMMARY

**Samir Aghayev**

## ACTUAL PROBLEMS OF EVALUATION AND ANALYSIS OF ACTIVITIES OF BUSINESS (PRODUCTION) ENTITIES


**The purpose of the study-** specification of situations arising in the assessment and analysis of entrepreneurial activity in modern times, on this basis, the creation of homogeneous groups, their systematization and ensuring the complexity, concrete expression of the directions existing in the economic system of the country, specification of problems in this direction and determination of ways to eliminate them

**Methodology of the research -** using observation, grouping, comparative analysis, chain link and dependency methods. Elaqe metodu

**The results of the research -** the preparation of a system of measures aimed at the proper organization of entrepreneurial activity in the Republic of Azerbaijan, reflecting the necessary participating components in this field within the requirements, exhibiting the visual results in the relevant sphere, making the necessary generalizations, evaluating the characteristics of use and impact measures of tools and mechanisms promoting progress.

**The practical significance of the research-** determination of quantitative and qualitative indicators of economic activity of business entities, which are considered the object of expression of the economic system of the independent Republic of Azerbaijan, study of their levels on experimental parameters in the effect-counteraction plane.

**The originality and scientific novelty of the research-** creation of configurations expressed by the transformation and evolution of the country's business environment, the organization of more progressive structures, the use of elements of progressive local and international experience in this direction.


***Key words:*** *Republic of Azerbaijan, entrepreneurial entity, assessment of production activity, analysis of entrepreneurial activity, economic system*

**РЕЗЮМЕ**

**Самир Агаев**

**АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ОЦЕНКИ И АНАЛИЗА ДЕЯТЕЛЬНОСТИ ПРЕДПРИНИМАТЕЛЬСКИХ (ПРОМЫЩЛЕННЫХ) СУБЪЕКТОВ**

***Цель исследования*** – конкретизация формирующихся в процессе оценивания и анализа предпринимательской деятельности ситуаций в современном временном выражении, создание на этой основе однотипных групп, их систематизация и обеспечение комплексности, специфичное выражение существующих отраслей экономической системы страны, уточнение проблем, существующих в этой отрасли, и определение их путей устранения.

***Методология исследованияı*** – использование методов направления, классификации, сопоставительный анализ, цепных отношений и цепной зависимости.

***Результаты исследования*** – подготовка системы мероприятий, направленных на комплексную организацию предпринимательской деятельности в Азербайджанской Республике, их отражение в пределах учавствующих необходимых компонентов спроса, показ практических результатов в соответствующей сфере, проведение необходимых обобщений, оценивание особенностей использования и показателей воздействия инструментария и механизмов, которые оказывают поддержку продвижению вперед.

***Практическое значение исследования*** - определение количественно-качественных показателей хозяйственной деятельности предпринимательских единиц, считающихся объектами экономической системы независимой Азербайджанской Республики, исследование их уровней в плоскости «влияние - контрвлияние» на основе параметров практики.

***Оригинальность и научная новизна исследования*** – создание конфигураций, показывающих трансформацию и усовершенствование предпринимательской среды страны, организация более усовершенствованных организований, использование более модернизированных внутренних и международных практических элементов в повествуемом направлении.



***Ключевые слова:*** *субъект предпринимательства, оценивание прмышленной деятельности, анализ предпринимательской деятельности, экономическая система, Азербайджанская Республика*

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru Ağarza Rüstəmov*
***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*
***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2022, № 6 (119), 188-191
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 6 (119), 188-191
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 6 (119), 188-191

**MURAD SEVDİMALIYEV**
*sevdimaliyevmurad@gmail.com*
*"Naxçıvan" Universiteti*

**UOT: 005.591.6**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA İNNOVASİYALI İQTİSADİYYATIN XÜSUSİYYƏTLƏRİ

*İnnovasiya iqtisadiyyatının mahiyyətini başa düşmək, onun tətbiq dairəsini genişləndirmək, mövcud vasitələrdən səmərəli istifadə etmək üçün onun rolunun araşdırılması və iqtisadi fəaliyyətə verdiyi töhfələrin təhlil olunması vacibdir. "İnnovasiya"nın mənasının tək bir söz və ya cümlə vasitəsilə izah edilməsi mümkünsüzdür Hazırkı şəraitdə muxtar respublika iqtisadiyyatının canlandırılması üçün isə innovativ yolların araşdırılıb ortaya çıxarılması xeyli aktuallıq kəsb edir. "İnnovasiya iqtisadiyyatının məqsədi və təyinini nəzərə alaraq onun ümumiləşdirilmiş tərifindən istifadə etmək olar. Bu bazarın mövcud tələbatının ödənilməsinə səbəb olan və iqtisadi səmərə gətirən, həyatın və insan fəaliyyətinin hər hansı bir sferasında yeni ideyanın reallaşdırılması prosesidir" [2]. Tərifdən də aydın olduğu kimi, innovasiyanın əsas səmərəsi bazarın gündəlik tələbatını qarşılayan və insanların fəaliyyətinin şaxələndirilməsinə nail olan zaman ortaya çıxır. Məhz yeni ideyaların mükəmməl şəkildə reallaşdırılması innovasiya iqtisadiyyatının başlıca məqsədi hesab olunmaqdadır. İnnovasiya üçün əsas xarakterik xüsusiyyət ondan ibarətdir ki, əgər ortaya atılmış yeni bir fikir və ya ideya əsasında müəyyən müddət sonra qazanc əldə olunmamışsa və ya ortalıqda hansısa bir nailiyyət yoxdursa, onda bu fikir və ya ideya innovasiya hesab olunmamaqdadır. Buna görə də hər bir region iqtisadiyyatının canlandırılmasında innovasiyanın perspektivlərindən faydalanmaq üçün onun qarşısında duran çətinliklər, bu çətinlikləri aradan qaldırmağın yolları, innovasiyanın inkişaf etdirilmə üsulları və bu istiqamətdə hökumətin üzərinə düşən vəzifələr aydınlaşıdırılmalıdır.*

***Açar sözlər:*** *innovasiya, muxtar respublika, iqtisadiyyat, elm, startap layihələr*

Ölkəmizdə son illər ərzində elmtutumlu sahələrin fəaliyyətinin genişləndirilməsi və innovativ ideyaların tətbiq edilməsi yönündə ciddi işlər görülməkdədir. İnnovasiya istər rəsmi surətdə hüquqi dövlət sənədlərində, istərsə də hər bir subyektin fəaliyyət sferasında geniş diqqətdə saxlanılan məsələdir. Çünki, diversifikasiya mütləq surətdə istehsal olunan malların və xidmətlərin çeşidləndirilməsi deməkdir və bu çeşidlənmə də yalnız yeni məhsulların ortaya çıxması zamanı mümkün olacaqdır ki, bu da innovasiyanın hansı surətdə tətbiq edilməsi və inkişafından asılıdır. Regionların inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının hər birinin vəzifələri və gələcək illər üzrə nəzərdə tutulan işlərində innovasiyaların tətbiq edilməsi geniş surətdə əks olunmuşdur. Digər tərəfdən, "Azərbaycan 2020: gələcəyə baxış" Konsepsiyasının hazırlanması, "Elmin inkişafı üzrə milli strategiya"nın təsdiqlənməsi, "Elm haqqında" Qanun, "İnformasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya" və digər sənədlər innovativ fəaliyyətin tətbiq edilməsi və genişləndirilməsi üçün zəruri addımlardır.

Apardığımız araşdırmalar göstərir ki, Naxçıvan MR-də iqtisadiyyatın şaxəli inkişafının səmərəliliyinə nail olmaq üçün iqtisadi fəaliyyətin innovativ olaraq təkmilləşdirilməsi xeyli aktual məsələlərdəndir. Bunun üçün iqtisadiyyatda innovasiyanin tətbiqi yolları, bu yöndə ortaya çıxan çətinliklər, texnoloji imkanlar, innovasiya sahibkarlığının inkişaf yolları, dövlət dəstəyi mexanizmi, innovasiyanın faydaları, vençur biznesinin inkişaf şərtləri və onun innovativ iqtisadiyyatla əlaqəsi və digər məsələlər ətraflı tədqiq olunmalıdır. Əvvəlki illərdən fərqli olaraq, muxtar respublikada

innovativ fəaliyyət yönündə xeyli nailiyyətlər əldə edilmiş və bu proses sürətlənmişdir.

Bütün sahələrdə olduğu kimi, innovativ imkanlar sahəsinin tənzimlənməsi də dövlətin ciddi nəzarəti və dəstəyi altındadır. Müxtəlif sektorlarda innovasiya fəaliyyətinin tətbiqinin genişləndirilməsi üçün son yeniliklərə əsaslanan dövlət proqramları qəbul edilir, müvafiq sərəncamlar və fərmanlar imzalanaraq qüvvəyə minir. Bu istiqamətdə sənədlərin və layihələrin bəzilərini aşağıdakı kimi sıralaya bilərik:

1.“Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” Naxçıvan MR Ali Məclis Sədrinin Sərəncamı;

2.“Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” Naxçıvan MR Ali Məclis Sədrinin Sərəncamı;

3.“Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun Nizamnaməsi”nin təsdiq edilməsi haqqında Naxçıvan MR Ali Məclis Sədrinin Fərmanı;

4.“Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Naxçıvan MR Ali Məclis Sədrinin Fərmanı;

5.“Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında” Naxçıvan MR Ali Məclis Sədrinin Fərmanı;

6.Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması” üzrə Tədbirlər Planı.

Qeyd olunanların siyahısını daha da genişləndirmək mümkündür. Bu fərman və sərəncamlar əsasən son illəri əhatə edir və muxtar respublikanın gələcək illərdə sosial-iqtisadi inkişafının innovativ yollarla təkmilləşdirilməsini qarşıya əsas məqsəd kimi qoymuşdur. Eyni zamanda mövcud hüquqi və dövlət tənzimləmələrinə uyğun olaraq fəaliyyətlərə də başlanılmışdır. Bu istiqamətdə son dövr üçün muxtar respublika həyatında ən əhəmiyyətli sərəncam kimi innovativ ideyaların ortaya çıxmasına şərait yaradacaq olan və yaradıcı düşüncə əsasında yeni layihələrin həyata keçirilməsini qarşıya məqsəd qoyan ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi üçün Ali Məclis Sədrinin Sərəncamını əsas nümunə kimi göstərə bilərik. Həmçinin vurğulanmalıdır ki, bu olduqca əhəmiyyətli məsələ kimi elmin, texnikanın son nailiyyətlərinin və insan potensialının gücünün birləşməsilə yeni mexanizmlərin formalaşmasına imkan verəcəkdir.

Onu da qeyd etmək lazımdır ki, sərəncamdan dərhal sonra bu yöndə ciddi işlərə start verildi. Belə ki, hamiliyə verilən müəssisələr hami təşkilatlarla bir yerdə yeni layihələr üzərində işləməli, ekspert qrupları və layihələrin qəbulunu həyata keçirən mərkəzlər təşkil olunmalı, hami təşkilatlar müvafiq və məqsədyönlü tədbirlər icra etməli, Rabitə və Yeni Texnologiyalar Nazirliyi işlərin icra edilməsi üçün internet saytını yaradıb istifadəyə verməli idi.

Artıq ilk mühüm addım kimi layihələrin və işlərin əsas icrasını özündə birləşdirən “startup.nakhchivan.az” internet saytı yaradılmış və geniş surətdə təqdimatı keçirilmişdir. İnternet portalında bütün məsələlər öz əksini tapmışdır. “Startap Naxçıvan” haqqında ətraflı məlumat verilir, startupların təqdim olunma qaydası, qiymətləndirilmə prosesi, layihələrin fəaliyyəti, həmçinin layihələrdə necə iştirak etmək qaydaları izah olunur. Portalda həmçinin hami təşkilatlar, ali və orta ixtisas təhsil müəssisələri, investorlar, ekspertlər, münsiflər heyəti, sifarişlər, təkliflər və elanlar barəsində məlumatlar əks olunmuşdur. Qeyd edə bilərik ki, start up layihələrində iştirak edən hami təşkilatların sayı 36-dır və demək olar ki, muxtar respublikanın bütün dövlət orqanları və departamentləri burada hami təşkilat ststusu almışdır [4]. Layihələri təqdim etmək, yaxud da təqdim olunmuş layihələrin spsonsoru olmaq ancaq internet üzərindən onlayn qaydada mümkündür. Əgər kimsə hansısa layihəni təqdim etmək və iştirakçı olmaq istəyirsə, tələb olunan məlumatları onlayn olaraq doldurmalı, layihənin məqsədi, üstünlükləri, 3 əsas özəl xüsusiyyətlərini göstərməli və ortaya çıxarmış problemlərin həlli yollarını təqdim etməlidir. Hesab edirik ki, belə bir layihənin həyata keçirilməsi muxtar respublikanın həyatında yeni bir dövrün başlanğıcı kimi gələcəkdə insan potensialının hərtərəfli inkişaf etdirilməsinə, yeni istedadların ortaya çıxmasına, innovativ ideyaların

sahibkarlıq fəaliyyəti ilə inteqrasiyasına köməklik göstərəcəkdir. Layihənin bilavasitə dövlətin nəzarəti altında olması isə mövcud və gələcək təşəbbüslərin dəstəklənəcəyinin başlıca sübutudur. Bu baxımdan hesab edirik ki, "Startap Naxçıvan" hərəkatı gənc istedadlar, elmi mühitdə fəaliyyət göstərən mütəxəssislər (müəllimlər, alimlər) və biznes subyektləri arasında ciddi bir vəhdəti əmələ gətirəcəkdir, bu isə birmənalı olaraq iqtisadiyyatın hərtərəfli diversifikasiyası üçün başlıca şərtdir. Artıq muxtar respublikanın aparıcı təhsil müəssisələrinin, universitetlərinin və Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin müvafiq mərkəzlərində və laboratoriyalarında ayrılan mütəxəssis və gənclərin birgə araşdırmalarına start verilmişdir.

Məlum olduğu kimi, ölkəmizdə startup ideyalarının formalaşması və innovasiyalar istiqamətində ciddi fəaliyyətlər və turlar təşkil olunmaqdadır. Bu baxımdan "İdeyadan Biznesə" layihəsinin fəaliyyətini xüsusi olaraq qeyd etmək lazımdır. Azercell şirkətinin əsas tərəfdaşı olduğu bu layihə Heydər Əliyev Fondu, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, Gənclər Fondu və Microsoft şirkəti tərəfindən dəstəklənməkdədir. Kompleks şəkildə icra olunan bu layihənin əhəmiyyətli xüsusiyyətlərindən biri də regionlarda aktiv surətdə həyata keçirilməsidir. 2018-ci ildən icrasına başlanmaqla önümüzdəki illərdə xeyli sayda rayonlarda həyata keçirilməsi planlaşdırılır. Hazırda muxtar respublika da daxil olmaqla 10-dan çox region bu layihəyə cəlb olunmuşdur. Bütün innovativ təşəbbüslərdə olduğu kimi, "İdeyadan Biznesə" də yeni ideyaların formalaşdırılması, investisiya mühitinin yaxşılaşdırılması, yeni iş fikirləri istiqamətində layihələrin hazırlanması və təqdimatı baxımından təqdirəlayiq qiymətləndirilir. Digər tərəfdən bu layihənin ölkə regionları miqyasında nəzərdə tutulması regional inkişaf baxımından önəmlidir. Çünki regionların sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən dövlət proqramlarında nəzərdə tutulan innovativ işlərə əsas nümunə kimi göstərilə bilər.

Tədqiqatlar göstərir ki, hər hansı bir regionun əlverişli innovasiya potensialı və imkanlarının olması gələcək illərdə həmin yer üçün mühüm investisiyaların cəlb edilməsinə şərait yaradır. Çünki istənilən innovativ ideyanın perspektivi və verəcəyi xeyir potensial investorların diqqətini cəlb edir. Bəzən isə ilk başdan həmin ideyanın sponsorluğunu və maliyyələşdirilməsini öz üzərinə götürür. Daha sonra isə həmin ideyanı biznesə çevirərək yeni hədəflər müəyyən edir. Bununla isə həm regiona və həm də öz müəssisəsinə faydalar yaratmış olur. Aparılan bəzi tədqiqatlarda göstərilir ki, ümumilikdə hər hansı şirkətdə innovativ prosesin idarə edilməsi dörd mərhələdən ibarətdir ki, bunlara fundamental tədqiqatlar aparmaq və ixtira əldə etmək, tətbiqi araşdırmalar, eksperimental layihələr, texnoloji yeniliklərin ticarəti və onlardan tam istifadə daxildir [1, s.89]. Göründüyü kimi, mövcud rəqabət şərtlərinə cavab vermək üçün hər bir müəssisə davamlı olaraq elmi və texnoloji yeniliklərə getməli və nəticələri öz işinə tətbiq etməlidir. Bunun üçün də həm dünyada mövcud yeniliklərə uyğun tələbləri mənimsəmək, həm də fəaliyyət göstərdiyi yerdə imkanlardan və insan resurslarından istifadə etməklə startup layihələrindən faydalanmalıdır. Şübhəsiz ki, startup layihələri və yeni ideyalar ilk öncə faydalı olmaya da bilər. Lakin bununla belə bazardakı imicindən, qiymət siyasətindən, reklam və marketinq fəaliyyətindən yararlanmaqla gələcəkdə uğurlar qazanmağa nail olacaqdır.

Bu baxımdan Naxçıvanda müəssisələrin və investorların dövlətin dəstəyi altında həyata keçirilən start up hərəkatları ilə birlikdə fəaliyyət göstərməyi məqsədə müvafiqdir. İnnovasiyaların tətbiq olunması təsərrüfat subyektlərinin rəqabət qabiliyyətini artırır və sahibkarlar üçün əlavə dəyər ortaya çıxarır.

## ƏDƏBİYYAT


1. Natalia G. Investments in the development of innovative management in the company. Baltic Journal of Economic Studies // Vol. 4, No. 4, 2018, p 87-92
2. Tağıyev A.H., Aslanzadə İ.A. İnnovasiya menecmenti. Dərs vəsaiti. Bakı: 2017, 368 s.
3. Sosial-iqtisadi inkişaf *(yanvar-dekabr 2018*). Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi, Məruzə No 12, 2019, 98 s.
4. https://startup.nakhchivan.az/
5. http://www.serqqapisi.az/

## SUMMARY

**Murad Sevdymalıyev**

## FEATURES OF INNOVATIVE ECONOMY IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

Innovation is such an important factor in the recent development of human society that with its help, undiscovered intellectual knowledge and goods can be transformed into real products, and with the complete change of the internal structure of economy, opportunities for the emergence of new types of products are created. The role of innovative activity in the economy is characterized by the fact that, in any case, the final result of this activity appears as an economic effect. Therefore, according to the requirements of the rapid changes, by altering their strategies firms and companies must adapt their products and production methods to innovation in order to stay competitive. The article discusses economic opportunities and future prospects in the Autonomous Republic of Nakhchivan thanks to innovative opportunities.

***Key words:*** *innovation, autonomous republic, economy, science, start-up projects*

## РЕЗЮМЕ

**Мурад Севдымалиев**

## ОСОБЕННОСТИ ИННОВАЦИОННОЙ ЭКОНОМИКИ НАХЧИВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

Инновации являются настолько важным фактором новейшего развития человеческого общества, что с их помощью неоткрытые интеллектуальные знания и товары могут быть преобразованы в реальные продукты, а при полном изменении внутренней структуры экономики открываются возможности для появления новых видов продукты создаются. Роль инновационной деятельности в экономике характеризуется тем, что в любом случае конечный результат этой деятельности выступает как экономический эффект. Следовательно, в соответствии с требованиями быстрых изменений, изменяя свои стратегии, фирмы и компании должны адаптировать свои продукты и методы производства к инновациям, чтобы оставаться конкурентоспособными. В статье рассматриваются экономические возможности и перспективы на будущее в Нахчыванской Автономной Республике благодаря инновационным возможностям.

***Ключевые слова:*** *инновации, автономная республика, экономика, наука, стартап-проекты*

---

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Nazim Əhmədov*

***Məqalə daxil olmuşdur:*** *16 noyabr 2022-ci il*

***Çapa qəbul edilmişdir:*** *23 noyabr 2022-ci il*

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası 30 aprel 2010-cu il tarixli (protokol №10-R) qərarı ilə Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər" jurnalının aşağıdakı seriyalarını müstəqil jurnallar kimi tanımışdır:

1. Elmi əsərlər. *Humanitar elmlər seriyası*
2. Elmi əsərlər. *İctimai elmlər seriyası*
3. Elmi əsərlər. *Təbiət elmləri və tibb seriyası*
4. Elmi əsərlər. *Fizika-riyaziyyat və texnika elmləri seriyası*

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası sədrinin 20 dekabr 2010-cu il tarixli 48-01-947/16 saylı məktubuna əsasən "Elmi əsərlər" jurnalına çap üçün təqdim edilən məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:

1. Məqalənin mətni – 17 sm x 25 sm formatında, sətirlərarası – 1 intervalla, Times New Roman-12 (Azərbaycan dilində - latın, rus dilində - kiril, ingilis dilində - ingilis əlifbası ilə) şrifti ilə yığılmalıdır.

2. Müəllifin (müəlliflərin) adı və soyadı, elmi dərəcəsi tam şəkildə yazılmalı, elektron poçt ünvanı, çalışdığı müəssisənin (təşkilatın) adı göstərilməlidir.

3. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər verilməlidir (açar sözlər məqalənin və xülasələrin yazıldığı dildə olmalıdır).

Məqalələr və xülasələr (üç dildə) kompyuterdə çap olunmuş şəkildə CD-lə (disklə) birlikdə təqdim edilməlidir, CD-lər geri qaytarılmır.

4. Ədəbiyyat siyahısı AAK-ın "Dissertasiyaların tərtibi qaydaları" barədə qüvvədə olan Təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin 10.2-10.4.6 tələblərinə uyğun tərtib olunmalıdır.

5. Məqalənin xülasəsi və açar sözləri rus və ingilis dillərində olmalıdır (150-200 söz)

**Kitabların (monoqrafiyaların, dərsliklərin və s.) biblioqrafik təsviri kitabın adı ilə tərtib edilir.** *Məs.: Həbibbəyli İ.Ə. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı, Nurlan, 2007, 696 s.*

**Müəllifi göstərilməyən və ya dörddən çox müəllifi olan kitablar (kollektiv monoqrafiyalar və ya dərsliklər) kitabın adı ilə verilir.** *Məs.: Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan. Naxçıvan: Əcəmi, 2010, 300 s.*

**Çoxcildli nəşrə aşağıdakı kimi istinad edilir.** *Məs.: Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə, I cild, Bakı, Lider nəşriyyat, 2004, 440 s.*

**Məqalələrin təsviri aşağıdakı şəkildə olmalıdır:** *Məs.: Hacıyev İ.M. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ermənilərin Azərbaycana qarşı ərazi iddiaları, bunun qarşısının alınması. // NDU-nun Elmi əsərləri. İctimai elmlər seriyası, 2011, №1, s.13-18*

**Məqalələr toplusundakı və konfrans materiallarındakı mənbələr belə göstərilir:** *Məs.: Həbibbəyli İ.Ə. Naxçıvan şəhərinin yaşı-beş min il./ "Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik" mövzusunda elmi-praktik konfransın materialları. Bakı: Nurlan, 2007, s.20-27*

**Dissertasiyaya aşağıdakı kimi istinad olmalıdır:** *Məs.: Həsənli O.Q. Şagird şəxsiyyətinin formalaşdırılmasında diyarşünaslıq materiallarından istifadənin sistemi: Pedaqoji elm.dok. ... . dis. Naxçıvan, 2005, 240 s.*

**Dissertasiyanın avtoreferatına da eyni qaydalarla istinad edilir, yalnız "avtoreferat" sözü əlavə olunur.**

**Qəzet materiallarına istinad belə olmalıdır:** *Məs.: Şeremetyevski P.A. Naxçıvanın duz yataqları. "525-ci qəzet" qəz., Bakı, 28 iyul 2012*

**Arxiv materiallarına aşağıdakı kimi istinad edilir.** *Məs.: Naxçıvan MDTA: f.19, siy.3, iş 56 v.7-9*

İstifadə edilmiş ədəbiyyat siyahısında son 5-10 ilin ədəbiyyatına üstünlük verilməlidir.

**Elmi əsərlər jurnalında çap olunan məqalələrin elektron variantı ilə

**www. ndu.edu.az.** saytında tanış olmaq olar.

***P.S: Kənar müəssisələrdən NDU-nun "Elmi əsərlər"inə məqalə göndərən müəlliflər NDU rektorunun adına, təmsil olunduğu müəssisə rəhbərinin məktubunu da təqdim etməlidir. Növbəti saylarda bu tələblərin hər hansı birinə cavab verməyən məqalələr nəşriyyat tərəfindən qəbul edilməyəcəkdir.***

***<u>REDAKSİYA HEYƏTİ</u>***

## TO THE AUTHORS!

By its 30 April, 2010 (minutes J\b 10-R) decision of the Higher Attestation Commission attached to the President of the Azerbaijan Republic has admitted the following series of the journal **"Scientific works" of Nakhchivan State University as independent journals:**

**1. Scientific works. Humanitarian sciences series**

**2. Scientific works. Social sciences series**

**3. Scientific works. Nature sciences and medicine series**

**4. Scientific works. Physics-mathematics and technical sciences series**

By the letter Ns 48-01947/16, 20 December, 2010 of the Chairman of the Higher Attestation Commission attached to the President of the Azerbaijan Republic the articles submitted for publication in the journal **"Scientific works"** of NSU should follow the following the rules**:**

**1. Papers should be typed in single space ,{4 size (17sm x 25sm) format, in l2pt Times New Roman (in Azerbaijani -in Latin alphabet, in Russian - in Cyrillic, in English –in the English alphabet).**

**2. Name(s) and surname(s) of the author(s) and affiliation(s), their scientific degree should be given in full, their e-mail address and complete address (university, organization) should be shown.**

**3. Each article should include UOT indexes or codes of PACS type and keywords (keywords should be in the language in which the article and abstracts have been written).**

The articles and abstracts (in three languages) should be submitted in computer typed form and electronic form (in CD disk); CDs ate not given back.

**4. List of literature (References) should meet the 10.2 -10.4. 6. requirements of the section "Used Literature" of the Instruction of the HAC "Rules for Dissertations" which is in power.**

**5.The abstract and key words of the article should be in Russian and English language (150-200 words) Sources in "References" are shown as follows:**

Books (monographies, text-books, etc.) Habibbayli I.A. Literary-historioal memory and modernism**. Baki, Nurlan, 2007,696 p.**

Multi-authored books ( collective monographies and text-books) Noah prophet, world's gale and Nakhchivan: **Adjami, 2010, 300 p.**

Multi-volume publications Encyclopedia of the Azerbaijan People's Republic. In 2 volumes, I volume, **Baki, Lider Publishing house, 2004,440 p.**

**Articles/ Papers Hajiyev LM. Tenitorial claims of the Atmenians against Azerbaijan during the Azerbaijan People's Republic and its prevention. //** Scientific works of NSU. Social sciences series, 2011, Nr 1, pp. 13-18.

Series of articles and conference materials Habibbayli I.A. Age of the city Nakhchivan- five thousand years. **/ Materials of the scientificpractical conference "Establishment of Nakhchivan Autonomous Republic: history and modernism". Baki, Nurlan, 2007, pp.20-27**

**Thesis /Dissertation Hassanli O.G.** Use system of regional ethnographic materials in the formation of student personality: Doctor of pedagogical sciences ... Disselt, Nakhchivan, 2005, 240 p.

**The same is applied to the Synopsis of thesis, only the word "synopsis of thesis" is added.** Newspaper materials Sheremetyevski P. A. Salt deposits of Nakhchivan. Newspaper "Newspaper 525", Baki, 28 July,20l2.

**Archive materials Nakhchivan MDTA:** f. 19, list 3, work 56 v.7-9

The literature ofthe last 5-10 years in the references is specially prefened.

**P.S: The authors from other enterprises should also submit the letter by his/her head to the rector of NSU for publication of their papers. the papers which do not meet these requirements will not be admitted.**

## К СВЕДЕНИЮ АВТОРОВ!

Высшая Аттестационная Комиссия при Президенте Азербайджанской Республики по решению (протокол № 10-Р) от 30 апреля 2010 года признал как самостоятельные журналы нижеследующие серии журнала **«Научные труды» Нахчыванского Государственного Университета:**

1. **Научные труды.** ***Серия гуманитарных наук***
2. **Научные труды.** ***Серия общественных наук***
3. **Научные труды.** ***Серия естественных и медицинских наук***
4. **Научные труды.** ***Серия физико-математических и технических наук***

На основани письма № 48-01-947/16 от 20 декабря 2010 года председателя Высшей Аттестационной Комисси при Президенте Азербайджанской Республики статьи, представленные для публикации в журнале **«Научные труды»**, должны составляться на основе нижеследующих требований:

1. Текст статьи должен быть набран в формате 17 см x 25 см, межстрочный интервал 1 на компьютере в программе Times New Roman-12 (на азербайджанском языке латинским, на русском – на кирили, на английском – на английском алфавите).

2. Имя и фамилию автора (авторов), ученую степень следует написать полностью, указать адрес электронной почты, название предприятия (организации), где работает.

3. В каждой статье следует дать индексы УДК или коды типа PACS (ключевые слова должны быть написаны на языке статьи и резюме).

4. Ключевые слова статьи должны быть на русском и английском языках.(150-200 слов)

Статьи и резюме должны быть набраны на компьютере (на трех языках) и представлены в электронной версии на диске СД (СД не возвращаются).

5.Список литературы должен составляться в соответствии с требованиями раздела 10.2-10.4.6 «Использованная литература» существующей Инструкции ВАК «О порядках составления Диссертаций».

**Библиографическое описание книг (монографий, учебников и т.д.) составляется названием книги.** *Напр.: Габиббейли И.А. Литературно-историческая память и современность. Баку, Нурлан, 2007, 696 с.*

**Книги, в которых не указан автор, и которые имеют более четырех авторов (коллективные монографии или учебники), даются по названию книги.** *Напр.: Пророк Ной, всемирный потап и Нахчыван: Аджеми, 2010, 300 с.*

**На многотомное издание ссылка дается в нижеследующем порядке:** *Напр.: Энциклопедия Азербайджанской Народной Республики. В 2-х томах, том I, Баку, издательство Лидер, 2004, 440 с.*

**Ссылка на статьи должна быть в нижеследующем порядке:** *Напр.: Гаджиев И.М. Территориальные притязания армян к Азербайджану в период Азербайджанской Народной Республики и их предотвращение. // Научные труды НГУ. Серия общественных наук, 2011, № 1, с. 13-18.*

**На источники по сборникам статей и материалам конференций следует указать так:** *Напр.: Габиббейли И.А. Городу Нахчыван – пять тысяч лет. / Материалы научно-практической конференции на тему: «Создание Нахчыванской Автономной Республики: история и современность». Баку: Нурлан, 2007, с. 20-27.*

**На диссертацию следует ссылаться так:** *Напр.: Гасанлы О.Г. Система использования краеведческих материалов в формировании личности ученика: Дис... доктора педагогических наук. Нахчыван, 2005, 240 с.*

**На автореферат диссертации ссылка дается также, но следует добавить слово «автореферат».**

**Ссылка на газетные материалы производится так:** *Напр.: Шереметевски Р.А. Сольные скважины Нахчывана. Газ. «525-я газета», Баку, 28 июля 2012*

**Ссылка на архивные материалы дается так***: Напр.: НГИА Нахчывана: ф.19, оп.3, д. 56, лл.7-9.*

В списке использованной литературы следует предпочитать литературу последних 5-10 лет.

**П.С.: Присылающие в «Научные труды» НГУ статьи из других организаций авторы, должны представить на имя ректора НГУ письмо руководителя организацию, которую они представляют. Статьи, не отвечающие на эти требования, не будут в последующем приняты издательством.**

***<u>РЕДКОЛЛЕГИЯ</u>***

## DÜZƏLİŞLƏR ÜÇÜN SƏHİFƏ

## PAGE FOR CORRECTION

## СТРАНИЦА ДЛЯ КОРРЕКЦИЙ

| | |
|---|---|
| Nəşriyyat direktoru: | Əli Həşimov |
| Mətbəə müdiri: | Vidadi Kazımov |
| Baş mühəndis-proqramçı: | Səminə Rüstəmova |
| Aparıcı redaktor: | Sahilə Abbasova |
| Aparıcı redaktor: | Günel Məmmədova |
| Aparıcı korrektor: | Sitarə Əlizadə |

Yığılmağa verilib: 28. 11. 2022
Çapa imzalanıb: 02. 12. 2022
Formatı: 60/90, 32/1, həcmi 11.6 ç/v
Sifariş №85, sayı 100 nüsxə

NDU-nun «Qeyrət» nəşriyyatının mətbəəsində çap olunmuşdur.

| | |
|---|---|
| **REDAKSİYANIN ÜNVANI:** | *7012. Naxçıvan şəhəri, Universitet şəhərciyi, Naxçıvan Dövlət Universiteti, Əsas bina, I mərtəbə, “Qeyrət” nəşriyyatı* |
| **TELEFON**: | (00994 036) 545-45-59<br>(00994 036) 544-08-61 |
| **E-mail:** | *elmi.hisse@mail.ru* |